Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı

Teatrın 1873 – 2012-ci illər arasındakı
yaradıcılıq yolunun salnaməsi

3 cilddə

III cild
1970 – 2012

Bakı – 2013

Rəhimli İlham

R 55 Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı.
Teatrın 1873 – 2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi (3 cilddə). III cild (1970 – 2012).
Bakı, «Təhsil», 2013, 600 səh.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının ayrı-ayrı dövrlərinə aid elmi-nəzəri tədqiqatlar aparılıb, kitablar nəşr olunub. Professor İlham Rəhimlinin üç cilddən ibarət bu kitabında ilk dəfə olaraq sənət ocağının tarixi peşəkar milli teatrın təşəkkül günündən çağdaş durumuna qədərki dövr xronoloji ardıcıllıqla araşdırılıb. Oxucu hər ilin teatr prosesinin inkişaf mərhələləri və real mənzərəsi ilə salnamə prinsipləri əsasında tanış ola bilər. Həmin ildə kollektivin hazırladığı tamaşaların dəqiq tarixi, ifaçıların siyahısı verilib. Yarımçıq qalan işlər diqqətə çatdırılıb. Truppaya daxil olan və kollektivdən ayrılan sənətkarlar barədə məlumatlar var. Kitablarda tamaşaların proqramları premyera münasibətilə çap olunan nüsxələr əsasında verilib. Ona görə də proqramda adı gedən, lakin tamaşada çıxış etməyən aktyorlar xüsusi qeyd və ya aydınlıq bölümləri ilə təqdim olunub. Müəllif teatrın tarixində əsəri ilk dəfə oynanılan dramaturqlar barədə də qısa məlumat verib.

Üç cilddən ibarət kitablarda geniş mənada peşəkar milli teatr prosesinin (1873 – 1919), həmçinin 1919-cu ildə Dövlət təsisatına keçən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının 1919 – 2012-ci illərdəki inkişaf mərhələlərinin geniş panoramının tarixi, elmi-nəzəri prinsipləri, üslub axtarışları, poetika səciyyələri, janr xüsusiyyətləri özünün bədii-estetik səciyyəsini tapıb.

İstər təhlil prinsipinə, istər tədqiqat dəqiqliyinə və istərsə də tarixi əhatəliliyinə görə Akademik teatr haqqındakı üç cilddən ibarət kitab öz fundamentallığına, nəzəri-estetik təhlil prinsiplərinə görə çox orijinal və dəyərli elmi əsərlərdir.

R 4502020000 / 053 2013

© «Təhsil», 2013

LİRİK-PSİXOLOJİ ÜSLUBDA FORMALAŞMA

1970-ci il

12 mart. «Xəyyam», Hüseyn Cavid.

3 pərdəli, 9 şəkilli mənzum faciə.

Quruluşçu rejissor Mehdi Məmmədov, rejissorlar Məmmədkamal Kazımov və Pərviz Cəfərov, rəssam Elçin Aslanov, bəstəkar Cahangir Cahangirov, rəqslərin quruluşçusu Ella Almazova.

Rollarda: Mehdi Məmmədov və Həsən Turabov (Xəyyam), Ağasadıq Gəraybəyli və Kamil Qubuşov (Alp Arslan), Məmmədrza Şeyxzamanov (Müfti), Şəfiqə Məmmədova (Sevda), Şövkət Rzayeva və Safurə İbrahimova (Saqiya), Məryəm Kazımova və Safurə İbrahimova (Vəfa və Vəfanın qızı), Abbas Rzayev (Xəlifə), Bürcəli Əsgərov, Əliabbas Qədirov* və Eldəniz Zeynalov (Məlik şah), Zabilə Sadıqova və Əminə Yusifqızı** (Səfa və Səfanın qızı), Səməndər Rzayev (Xacə Nizam), Muxtar Avşarov və Sadıq Hüseynov (Xərabati), Həsən Məmmədov (Həsən Sabah), Hamlet Xanızadə (Rəmzi), Sadıq Hüseynov və Muxtar Avşarov (Əbu Tahir), Əliabbas Qədirov və Bürcəli Əsgərov (Yusif), İsmayıl Osmanlı (Bağçı), Cabbar Əliyev (Əbu Şüca), Ramiz Məlikov (Saib), Elxan Hüseynov (Naib), Hamlet Qurbanov (Hacib), Məcid Dadaşov (Yavər), Məcid Şamxalov və Mustafa Süleymanov (Cəllad), Məmməd Sadıqov və Ağahüseyn Cavadov (Bədəvi ərəb), Hacıməmməd Qafqazlı və Sadıq Saleh (Çadırçı), Mustafa Süleymanov (Çömləkçi), Məcnun Hacıbəyov (Gənc çadırçı), Ağahüseyn Cavadov və Məmməd Sadıqov (Birinci məzarçı), Mustafa Süleymanov (İkinci məzarçı), Rafiq Əzimov (Birinci tələbə), Yusif İsgəndərov (İkinci tələbə), Aqşin Vəlixanov (Birinci qulam), Hacı İsmayılov (İkinci qulam), Arif Namazəliyev və Fazil Salayev (Birinci satıcı), Şahin Alışov (İkinci satıcı), Məmmədşah Atayev (Üçüncü satıcı).

**Qeyd.* Əliabbas Qədirov məşq etdi, ancaq tamaşada Məlik şah rolunu oynamadı.

** *Qeyd.* Əminə Yusifqızı məşq etdi, ancaq tamaşada Səfa və Səfanın qızı rollarını oynamadı.

18 aprel. «Zamanın hökmü», Nikolay Poqodin. Tərcümə edəni Ələsgər Şərifov.

3 pərdəli, 10 şəkilli pyes.

Trilogiyanın kompozisiyası və tamaşanın quruluşçu rejissoru Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, rejissor Bala Quliyev, Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu.

Rollarda: İsmayıl Dağıstanlı (Vladimir İliç Lenin), Sadıq Hüseynov və Hamlet Qurbanov (Feliks Edmundoviç Dzerjinski), Məhluqə Sadıqova (Mariya İliniça), Məlik Dadaşov (Zabelin), Eldəniz Zeynalov və Kamal Xudaverdiyev (Rıbakov), Səməndər Rzayev (Dyatlov), Bürcəli Əsgərov (İppolit), Məcid Şamxalov (Nikanor), Hamlet Xanızadə və Hamlet Qurbanov (Qlaqolyev), Ağasadıq Gəraybəyli (Şadrin), İsmayıl Osmanlı və Məmmədrza Şeyxzamanov (Saatsaz), Şəfiqə Məmmədova (İrina), Sofiya Bəsirzadə (Dilənçi), Kamil Qubuşov və Aqşin Vəlixanov (Xadim), Əliabbas Qədirov (Pronya), Abbas Rzayev və Hacıməmməd Qafqazlı (Başçı), Məmməd Sadıqov (Suxojilov), Muxtar Avşarov və Arif Namazəliyev (Lopuxov), Mustafa Süleymanov (Kuzmiç), Cabbar Əliyev və Aqşin Vəlixanov (Kapitan), Məcid Dadaşov (Samsonov), Ramiz Məlikov (Stameskin), Hacı İsmayılov (Katib), Məmmədşah Atayev (Jiqulyov).

13 iyun. «Kişilərə inanmayın», Anatoli Safronov. Tərcümə edəni Mirzə İbrahimov.

3 pərdəli komediya.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Nüsrət Fətullayev, rejissor Zümrüd Nağıyeva, Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu, musiqi tərtibatçısı Nurəddin Fətullayev.

Rollarda: Hökümə Qurbanova (Naydyonova Aleksandra İvanova), Əli Zeynalov (Koltsov Aleksandr Nikolayeviç), Sofiya Bəsirzadə (Tuzova Alla Andreyevna), Fateh Fətullayev (Petuxov Vasili Alekseyeviç), Məcnun Hacıbəyov (Şestyorkin Pavel Petroviç).

19 sentyabr. «Nazirin xanımı», Branislav Nuşiç. Tərcümə edəni Tofiq Kazımov.

3 pərdəli, 4 şəkilli komediya.

Quruluşçu rejissorlar Tofiq Kazımov və Ələsgər Şərifov, rəssam Kamil Şıxəliyev, musiqi tərtibatçısı Nurəddin Fətullayev.

Rollarda: Ağahüseyn Cavadov (Sima Popoviç), Barat Şəkinskaya (Jivka), Şövkət Rzayeva (Dara), Əminə Babayeva (Raşa), Möhsün Sənani (Çeda), Amaliya Pənahova (Anka), Ağasadıq Gəraybəyli (Vasya dayı), Hamlet Qurbanov (Doktor Ninkoviç), Əliağa Ağayev (Rista Podoroviç), Məmməd Sadıqov (Para), Məhluqə Sadıqova (Nata xanım), Əminə Nağıyeva (Savka xala), Rəhilə Mirzəyeva (Müəllimə), Elxan Hüseynov (Jandarm).

3 oktyabr. «Küləklər», Sabit Rəhman.

3 pərdəli, 10 şəkilli komediya.

Quruluşçu rejissor Tofiq Kazımov, rejissor Həsən Əbluc, rəssam Kamal Şıxəliyev, bəstəkar Emin Mahmudov.

Rollarda: Sadıq Hüseynov (Mirzə Məmmədəli), Məcnun Hacıbəyov (Əyyub əmi), Safurə İbrahimova (Roza), Şahmar Ələkbərov və Əliabbas Qədirov (Xosrov), Əliağa Ağayev (Nəsir bəy), İsmayıl Osmanlı (Əhməd bəy), Məlik Dadaşov (Kəblə Muxtar), Nəcibə Məlikova (Firuzə xanım), Vəfa Fətullayeva (Alagöz), Fuad Poladov (Əlibala), Muxtar Avşarov (Rəcəb), Əli Zeynalov (Rəşid Məğrur), Məmmədrza Şeyxzamanov (İmanqulu), Məmməd Sadıqov (Mirzə Əliabbas), Abbas Rzayev (Hacı), Elxan Hüseynov (Məşədi), Səməndər Rzayev (Kapitan), Hamlet Qurbanov (Casus), Bürcəli Əsgərov (Hüseyn), Aqşin Vəlixanov (Ağa).

26 dekabr. «Qısqanc ürəklər», Raço Stoyanov. Tərcümə edəni Ənvər Məmmədxanlı.

2 hissəli dram.

Quruluşçu rejissor, Fikrət Sultanov, rəssam Kamal Şıxəliyev.

Rollarda: İsmayıl Osmanlı (Usta Tixol), Ətayə Əliyeva (Qena), Şahmar Ələkbərov (Nayden), Şəfiqə Məmmədova (Milkana), Məlik Dadaşov (Şivko), Səməndər Rzayev (Usta Dobri), Sadıq Hüseynov (Usta Qenço), Aqşin Vəlixanov (Usta Yanko), Abbas Rzayev (Usta Nikola), Eldəniz Zeynalov (Slavço), Sadıq Saleh (İvan).

«Qısqanc ürəklər», Raço Stoyanov. Şivko – Məlik Dadaşov və Milkana – Şəfiqə Məmmədova. 1970-ci il

«Xəyyam», Hüseyn Cavid. Sevda – Şəfiqə Məmmədova və Xəyyam – Mehdi Məmmədov. 1970-ci il

«Xəyyam», Hüseyn Cavid. Soldan: Rəmzi – Fuad Poladov,
Xərabati – Muxtar Avşarov və Xəyyam – Mehdi Məmmədov. 1970-ci il

«Vaqif», Səməd Vurğun. Soldan: Xuraman – Nəcibə Məlikova,
Şeyx Alı – Abbas Rzayev, Yengə – Məhluqə Sadıqova. 1970-ci il

«Nazirin xanımı», Branislav Nuşiç. Soldan: Dara – Şövkət Rzayeva,
Jivka – Barat Şəkinskaya, Raşa – Əminə Babayeva,
Anka – Amaliya Pənahova və Çeda – Möhsün Sənani. 1970-ci il

«Küləklər», Sabit Rəhman. Roza – Safurə İbrahimova, Xosrov –
Şahmar Ələkbərov və Əyyub əmi – Məcnun Hacıbəyov. 1970-ci il

* * *

Tamaşanın premyerasından sonra verdiyi müsahibələrdə Məmmədov deyirdi ki, Hüseyn Cavidin «Xəyyam» faciəsi üzərində on ildən çox düşünmüş, əsərin səhnə nümunəsini hasilə gətirmək üçün neçə-neçə forma və ixtisar variantı axtarmış, Şərqin böyük mütəfəkkirlərindən olan Ömər Xəyyam Nişaburinin (1040 – 1123) poetik-fəlsəfi təlimini, onun yaşadığı dövrün ictimai-siyasi durumunu öyrənmişdir. Hüseyn Cavid «Xəyyam» faciəsini 1935-ci ildə yazmasına, həmin il ən yaxşı dram əsərləri üçün keçirilən müsabiqədə mükafat almasına baxmayaraq, pyes yalnız 25 il sonra səhnə həyatı tapmışdır. Bunun bir səbəbi Hüseyn Cavidin şəxsiyyətə pərəstiş dövrünün qurbanı olması, bir səbəbi əsərin həddən artıq şaxəli süjet-kompozisiya əsasında yazıldığı, «oxumaq üçün pyes» bölgüsünün tələblərinə uyğun gəldiyi ilə əlaqədar idi. Başlıca səbəb isə son dərəcə mürəkkəb münasibətlərdən, kəskin ictimai-siyasi hadisələrdən, Xəyyam, Alp Arslan, Məlik şah, Xacə Nizam, Həsən Sabbah, Əbü Tahir və bu kimi tarixi şəxsiyyətlərdən bəhs edən əsərin fəlsəfi dərinliyinə, psixoloji təzadlarına rejissorların cəsarət etməməsi idi. Bütün bu ağırlıqların altına Mehdi Məmmədov cəsarətlə girdi və böyük müdrikliklə həm Akademik teatr tarixində, həm də «Cavid teatrı» poetika salnaməsində hadisə kimi qiymətləndirilən tamaşa yaratdı.

«Xəyyam» tamaşası üzərində altı ay sərasər, böyük səbrlə, tükənməz enerji ilə, bəzən gündə altı-səkkiz saat işləyən Mehdi Məmmədov, ilk növbədə, pyesin səhnə variantını işləyərək 6 pərdəli faciəni 3 hissəli əsərə çevirdi. Anlaşılması çətin olan mürəkkəb, qədim ərəb, fars və türk sözlərini əvəz etdi, qurduğu fəlsəfi rejissor konsepsiyasına uyğun şəkildə müəyyən səhnələrin yerlərini dəyişdi, bəzi epizodları çıxardı, müəyyən monoloqları parçaladı, bir sıra dialoqlarda (xüsusilə Xəyyamla bağlı) fikrin sürət-ritmi, hərəkət üçün təkan verməsi, məna ləngəri naminə ixtisarlar apardı. Rejissor ali məqsədinin leytmotivi üçün bu misraları yazdırıb tamaşaya əlavə etdi:

Fələyin yazdığını mən poza bilsəydim həmən,
Onu arzumla, məramımla yazardım təzədən.

Dünyadan sürgün edərdim ələmi, dərdi, qəmi,
Şadlığı bayraqtəki qaldırardım göylərə mən.

Tamaşa bu şeir proloqla başlayırdı. Cahangir Cahangirovun möcüzəli, ilahi musiqisi, salondakı qaranlığın bağrını yarır. Qeyd edim ki, Akademik teatrın tarixində ilk dəfə Mehdi Məmmədov salondakı tavandan asılan mərkəz çilçırağa da səsgücləndirici qurğu yerləşdirmişdi. Musiqi çalınırdı. Pərdə asta-asta açılırdı. Salondan baxanda səhnənin sağ tərəfində, qaranlığın dərinliyində şam görünürdü. Get-gedə işıq səhnənin önünə gəlir və onu əlində tutanın ağ saç-saqqallı, nurani çöhrəli Xəyyam olduğunu görürdük. Xəyyam yuxarıdakı dörd misranı deyib aşağı əyilir, şamı səhnənin önündəki əşyaların yanına qoyurdu. Bundan sonra aktyorlar sağ və sol tərəfdən səhnənin dərinliyi boyu çıxır, boyunlarına sarı və qara zolaqlı kəfən-parça keçirirdilər. Səssizcə icra olunan bu epizoddan sonra tamaşa başlayırdı. Burada rejissorun iki məqsədi vardı.

Birinci. Xəyyam yanan şamı səhnənin lap önündə şamdana qoyurdu, onun yanında əvvəldən axıradək üstündə açıq kitab olan rəhil, yanında da lələk qələm və qələmdan, insan kəlləsi, şərab kuzəsi və piyalə qoyulmuşdu. Bunlar Xəyyamın həyat görüşlərinin, fəlsəfi qənaətinin və rübailərindəki didaktikanın başlıca rəmzləri, özünün həyat-sevgi-elm-zövq – Tanrıya qovuşaq anlayışının bədii səhnə təsdiqi idi.

İkincisi. Sağdan və soldan çıxan, arxası və önü eyni simmetriyada, əbanı, qadın geyimini xatırladan örtüyü başlarına keçirən aktyorlar meydan teatrı prinsipləri əsasında şəbih müsibətli hekayətdən bəhs edəcəklərini əvvəlcədən bildirirdilər. Bunları daha da gücləndirib təsiri artırmaq üçün Mehdi Məmmədov xalq oyun-mərasimlərinin, meydan teatrının, Şərq xorunun əlvan ünsürlərindən istifadə edərək, epik, poetik, fəlsəfi, romantik teatrın elementlərini vahid ahəngdar əlvanlıqda ustalıqla birləşdirərək monumental tamaşa yaratmışdı. Bütün məkanları rəssam Elçin Aslanov meydanın (səhnənin) mərkəzində qurmuşdu. Rejissor təfsir və tələqqisinə uyğun olaraq bu «məkana» daxil olan aktyor dərviş ifaçıya çevrilir, oradan kənarda isə adi sənətkar kimi Xəyyam dövrünün hadisələrinin müşahidəçisi olurdu.

Belə təfsirdə Mehdi Məmmədovun Xəyyamın bəşəriyyəti azad, xoşbəxt görmək ideyasını mənzum poetikliklə, fəlsəfi-idraki kamilliklə verməsinə zəmin yaranırdı. Rejissor əsəri sadələşdirmək yolu ilə deyil, dramaturq izi ilə gedərək Cavid fəlsəfəsini bütün hüsnü ilə, əlavə qollardan «təmizləyib» cilalanmış bütöv həyatiliyi ilə vermişdi. Onun quruluşunda «filosof Xəyyamın ictimai faciəsi, şair Xəyyamın şəxsi faciəsi ilə vəhdətdə» (1) verilmiş, bu kontekstdə «Cavid – dramaturq, Cavid – humanist, böyük talantın hüsnünün özünəməxsusluğu səhnədə gözlərimiz qarşısında açıqlanmış, Orta əsrlərdəki hadisələrdən günümüzə açılmış» (2), dünya şöhrətli dahinin «azad ideyalarının hər cür xurafatdan yüksəkdə duran reallığının (bax: 3) təntənəsi təcəssüm tapmışdı. Bununla da rejissorun «Xəyyam zülmətdə işıqsaçan həqiqətləri ucadan söyləyən, yenilməz dühadır» (4) ideyasının mütəhərrikliyi artır, bütün tamaşanı bürüyürdü.

«Xəyyam» tamaşası monumental dəqiqliyi, fəlsəfi kamilliyi, poetik vüsəti ilə nə qədər cazibədar idisə, aktyor ansamblı bütövlüyü, ayrı-ayrı ifaçıların fərdi nailiyyətləri, «Cavid teatrı» aktyor məktəbinin müasir bədii həlli baxımından bir o qədər qiymətli, estetik cəhətdən gözəl idi. Mehdi Məmmədov və Həsən Turabovun yaratdıqları Xəyyam, Məmmədrza Şeyxzamanovun Müftisi, Şəfiqə Məmmədovanın oynadığı Sevda, Səməndər Rzayevin Xacə Nizam, Hamlet Xanızadənin Həsən Sabbah, İsmayıl Osmanlının Bağban, Muxtar Avşarovun Xərabati, Ağahüseyn Cavadovun Bədəvi ərəb, Məmməd Sadıqovun Birinci məzarçı, Hacıməmməd Qafqazlının Çadırçı, Bürcəli Əsgərovun Məlik şah, Şövkət Rzayevanın Saqiya obrazları sözsüz nailiyyətlər idi. Aktyorluq fakültəsinin son kurs tələbəsi, Akademik teatrda ilk addımını atan Əliabbas Qədirovun Yusif, tələbə Zabilə Sadıqovanın Səfa və Səfanın qızı, həvəskarlıqdan peşəkarlığa təzəcə qədəm basan Əminə Babayevanın Vəfa və Vəfanın qızı, epizodik rollarda Fazil Salayevin Birinci satıcı, Aqşin Vəlixanovun Birinci qulam, Məcid Şamxalovun Cəllad rolları da ümumi ansamblla dəqiqliklə uyuşurdu.

Quraşdırma məşqlərə qədər Xəyyam rolu üzərində Mehdi Məmmədov və Həsən Turabovla yanaşı, Məlik Dadaşov da çalışırdı. Obrazın səhnə təfsiri ilə bağlı aktyorla rejissorun fikirləri üst-üstə düşmədiyinə görə Məlik Dadaşov roldan uzaqlaşdı. Mehdi Məmmə-

dov Xəyyamı müdrik şəxsiyyət, sevgisində, mədrəsə və həyat dostlarına münasibətdə təmkinə, yığcam hərəkətlərə üstünlük verən, qocalığında zamanla döş-döşə gələndə daha çox filosof kimi danışan xarakter kimi oynayırdı. O, şeirlə yazılmış dialoqları, əruzun müxtəlif bəhrlərindəki monoloqları söyləyəndə də pauzalara, özünün səs tembrinə, danışıq sədasına uyğun ağır ləngərə üstünlük verirdi. Qoca Şərqdəki mövcud zamanın, xurafatın amansız gərdişindən rəncidə olan filosof-şair oynamaq Mehdi Məmmədovun əsas aktyor məqsədi idi.

İmkanları baxımından lirik-psixoloji, realistik faciə aktyoru olan, romantizmin özünü də həyat həqiqətləri ilə təbii axarda çulğaşdıran Həsən Turabovun ifasında Xəyyam sevən, ülvi duyğularla həmdəm aşiq, nikbin dünyagörüşlərinə məsləkdaş axtaran müdrik alim, misralarında həqiqətə çıraq tutan, bu yolda yorulmayan ehtiraslı şair təsiri bağışlayırdı. Mədrəsə dövrü səhnələrində, Sevda ilə epizodlarında aktyorun emosionallığı, səmimi ehtirası, coşqun ilhamı Cavid obrazının ruhu, Xəyyamın tarixi salnamələrdən bildiyimiz xarakteri ilə harmonik vəhdətdə, poetik vüsətdə səslənirdi. Həsən Turabov Xəyyam rolunda romantik aktyor məktəbi, «Cavid teatrı» prinsipləri ilə lirik-psixoloji üslubu böyük ustalıqla vahid poetikada birləşdirməklə, Azərbaycan teatrında yeni ifa tərzi yaratmağa nail oldu.

Tamaşanın hər üç pərdəsində sevgi xəttinin dominantlığını unutmayan Həsən Turabov hər pərdədə Xəyyamın bir ictimai-sosial xəttinə üstünlük verirdi. Hər xətt bir monoloqla sona çatırdı.

Birinci pərdədə Xəyyamın həyat leytmotivinin özəyində bu fikir dururdu:

Şairmi? Saqın, duyduğum ilhamə uyan yox,
Şeirimdəki əsrarı duyan yox.
Yox oxşayacaq ruhumu bir nuri-səadət,
İzlər məni hər dürlü fəlakət.
Elmimdəki nöqsan ilə cəhlimdəki ürfan
Hər an doğurur məndə bir üsyan.

Birinci pərdədəki hadisələr boyu mərhələ-mərhələ mənən zənginləşən, idraka çatan Xəyyamı, rəzillikləri dərk etsə də, onlarla barışan Xəyyamı ikinci ictimai-sosial qata keçid üçün Həsən Turabov

monoloqun «Üsyan... Ölü adət və təriqətlərə üsyan...» misrasını obrazın mənəvi hayqırtısı kimi söyləyirdi.

İkinci pərdədə çılğın Xəyyamı ahıl, həyat hadisələrindən müdrikliklə baş çıxaran, həyat fəlsəfəsini rübailər dili ilə söyləyən, fəlsəfi qənaətlərini nəzmə çəkməkdə rübabı və şərabı həmdəm sayan Xəyyam əvəzləyir. Bu ritmi dramatik psixologizmdə oynayan Turabov obrazın ovqatını aşağıdakı misralarda təcəssüm etdirirdi:

Doğru, var içkiyə az-çox meyilim,
Söylənənlər kimi düşkün deyilim.
Çox zaman özlədiyim neylə-şərab
Fikri təbliğ üçün ahəngi-rübab...

misraları ilə başlayan monoloqda Həsən Turabov şeirin daxili mənasını obrazın açıq qəlb çırpıntısı ilə ahəngdarlaşdırırdı.

Üçüncü pərdənin yekunundakı monoloqu Həsən Turabov həm rejissorun ali məqsədinin poetik təsviri, həm də Xəyyamın bəşəriyyətə vəsiyyəti kimi səciyyələndirirdi:

Uydunuz bunca xurafata, yetər!
Bu həyat işdə əlümdən də betər.
Əl verir paslı, sönük adətlər!
Şən təbiət sizi azadə dilər...

Bu monoloq ümidini üzməyən Xəyyamın filosof həqiqəti, insan həqiqəti idi.

Həsən Turabov üç pərdədəki üç fikir arasında vəhdət yaratdırdı. Bununla da həyatsevərlik, insansevərlik, gözəllik, rəğbət, xeyirxahlıq hisləri Xəyyamın timsalında reallıqla səslənib canlanırdı, obraz xarakter səviyyəsinə ucalırdı.

Şəfiqə Məmmədovanın Sevda rolundakı ifası Həsən Turabovun oyununa paralel ritmdə, gözəllik və təravətlə canlanırdı. Şəfiqə xanım plastik oyun tərzi ilə lirik-faciəvi notları məharətlə birləşdirirdi. Onun ehtirasla, səmimi təmizliklə sevən Sevdası bütün səhnələrdə çevik və dinamik idi.

«Xəyyam» tamaşası ilə Akademik teatr Cavid və teatr irsinə yeni parlaq səhifə yazdı.

1970-ci ildə teatrın hazırladığı altı tamaşadan ikisi orijinal pyes, dördü isə tərcümə əsəri idi. Orijinal əsərlərdən biri, – «Xəyyam» ilin ilk (12 mart), Sabit Rəhmanın «Küləklər» komediyası isə beşinci (3 oktyabr) tamaşası oldu. Neçə il əvvəl teatra «Dirilər» adı ilə oxuduğu pyesi Sabit Rəhman işləyib təzə variantda yenə teatra təqdim etmişdi. Həmin əsər müəyyən mənada Mirzə Cəlilin «Ölülər» tragikomediyasına nəzirə şəklində yazılmışdı.

1916 – 1917-ci illərdə Bakıda baş verən hadisələrdən danışan «Küləklər» komediyası təzə variantda da lazımi səviyyədə deyildi. Həmin dövrdə Sabit Rəhman xəstə idi. Onun xahişi ilə Tofiq Kazımov komediyanı qısa müddətə hazırladı. Şeyx Nəsrulla obrazı pyesdən çıxarıldı. Ancaq ilk tamaşanı görmək Sabit Rəhmana nəsib olmadı. Dramaturq sentyabrın 23-də dünyasını dəyişdi. Premyera ədibin dəfnindən doqquz gün sonra oldu. Tofiq Kazımovun işində də özünü büruzə verən (bax:5) tələsiklik aktyorlardan Muxtar Avşarovun (Rəcəb), Sadıq Hüseynovun (Mirzə Məmmədəli), Məmməd Sadıqovun (Mirzə Əliabbas), Şahmar Ələkbərovla Əliabbas Qədirovun (Xosrov), Abbas Rzayevin (Hacı), Fuad Poladovun (Əlibala) oyunlarında da hiss olunurdu.

Dramaturji materialdan irəli gələn, obraz və qəhrəmanların mənfi-müsbət bölgüsündə necə olur-olsun, «ifşa» məqsədi Əliağa Ağayevin (Nəsir bəy), Məlik Dadaşovun (Kəblə Muxtar), Əli Zeynalovun (Rəşid Məğrur), İsmayıl Osmanlının (Əhməd bəy), Nəcibə Məlikovanın (Firuzə xanım) aktyorluq axtarışlarında əngəl törədirdi. Tofiq Kazımovun dinamik mizan-kompozisiya qurmaq bacarığı, şux gülüş, mənalı və cazibədar yumor yaratmaq qabiliyyəti də müəyyən müsbət nəticələr vermişdi. Tamaşada ictimai gülüşün, ifşanın «çılpaqlığı», məişət komediyasının zəifliyi «Küləklər»in vəziyyət komediyası kimi qavranılmasına da mane olurdu. Azərbaycan SSR-in və Azərbaycan Kommunist Partiyasının 50 illiyinə həsr edilən «Küləklər» tamaşası elə o günün adi tədbiri səviyyəsində də qaldı.

İlk tamaşadan sonra salonda alqış olmadı. Sabit Rəhmanın xatirəsinə hörmət olaraq iştirakçılar səhnəyə çıxıb «sakit» dayandılar. Dramaturqun oğlu, tamaşanın bəstəkarı Emin Sabitoğlu yaradıcı qrupa təşəkkürünü bildirdi.

Məramnamə və afişalarda yazılmasa da, «Zamanın hökmü» tamaşası da «Küləklər»in bağlandığı siyasi hadisəyə həsr edilmişdi. Nikolay Poqodinin trilogiya kompozisiyasının müəllifi, pyesin tərcüməçisi və quruluşçu rejissoru Ələsgər Şərifov idi. Vladimir İliç Lenin rolunu yenə İsmayıl Dağıstanlı oynayırdı.

Ələsgər Şərifov dramaturq Poqodinin məşhur trilogiyasından kompozisiya yaradarkən hərəkət vacibliyini söz çoxluğuna güzəştə getməklə, dramaturji gərginliyi azaltmışdı. Aktyorlardan Sofiya Bəsirzadənin (Dilənçi), Şəfiqə Məmmədovanın (İrina), Ağasadıq Gəraybəylinin (Şadrin), Məlik Dadaşovun (Zabelin), Məmmədrza Şeyxzamanovun (Saatsaz) hesabına səhnədə həyat nəfəsi güclənmişdi, xarakterik və təbii insan münasibətləri təsviri hadisələrdən ayrılaraq dramatizm yükü daşıyırdı.

«Zamanın hökmü» tamaşası və bu qəbil əsərlər tamaşaçıların estetik zövqlərinin formalaşmasına deyil, ideologiyanın tərənnümünə həsr edildiyinə görə onun tamaşaları kassa gücünə göstərilmirdi. Onlar rayon partiya komitələri, idarə və müəssisələrin partiya təşkilatları tərəfindən xüsusi təşkil edilirdi. Ona görə də bədiilik baxımından zəif olan belə «ideoloji» tamaşalar bəzən repertuarda xeyli «qalırdı».

Tərcümə əsərlərindən ikisi komediya janrında yazılmışdı. Mirzə İbrahimov «Oqonyok» jurnalının baş redaktoru Anatoli Safronovun «Kişilərə inanmayın» adlı zəif komediyasını özünün nüfuzundan, yazıçılar ittifaqının birinci katibi olmasından istifadə edərək Akademik teatrın repertuar siyahısına «sala», daxil edə bildi. Sonralar teatr həmin müəllifin «Daşqın», «Gecənin sirri» pyeslərini də tamaşaya qoymaq məcburiyyətində qaldı.

«Kişilərə inanmayın» pyesinin rus həyat tərzi üçün adi süjeti vardı. Koltsov (Əli Zeynalov) və Naydyonova (Hökümə Qurbanova) sevmədikləri adamla ailə həyatı qurduqlarına görə axıradək bir yerdə yaşaya bilməyərək ayrılıblar. Koltsov ilk görüşdən Nadyonovanı sevir, ancaq qadın kişilərə inanmır. Dostu Petuxov (Fateh Fətullayev) Koltsovun evlənməsinə razı deyil. Bu hadisə-prosesdə dardüşüncəli Tuzova (Sofiya Bəsirzadə), sadəlövh və əhli-kef Şestyorkin (Məcnun Hacıbəyov) də iştirak edirlər.

Quruluşçu rejissor Əşrəf Quliyev bu məişət komediyasının janrını sanki hiss etmədən daha da primitivləşdirmiş, onu adi qadın-kişi dedi-qoduları, fars kimi ucuzlaşdırmışdı. Şöhrətli aktyorlar Hökümə xanım, Sofiya xanım, Əli Zeynalov, həmçinin tanınmış digər iki ifaçı da janrın qeyri-müəyyənliyində «zahiri effektə uyub bir-birini itələmələri, vurmaları ilə gülüş oyatmağa çalışmaları» (6), qeyri-ciddi komediyanı daha da ucuzlaşdırırdı.

«Kişilərə inanmayın» tamaşasının premyerasına baxmaq üçün Anatoli Safronov həyat yoldaşı ilə Moskvadan Bakıya gəlmişdi.

«Kişilərə inanmayın», «Zamanın hökmü» (Nüsrət Fətullayev), «Qısqanc ürəklər», «Küləklər» (rəssam Kamal Şıxəliyev) tamaşaları tərtibat baxımından da qüsurlu idi. Bu istiqamətdə Elçinin «Xəyyam»dakı, Kamal Şıxəliyevin «Nazirin xanımı» tamaşalarındakı işləri mənalı və dəyərli alınmışdı.

«Nazirin xanımı» komediyası serb dramaturqu Branislav Nuşiçin (1864 – 1938) əsəridir. Müəllifin 1929-cu ildə yazdığı komediya mənsəbpərəstliyi, mənəvi eybəcərliyi ifşa edən satirik komediya idi. Tamaşanın quruluşunu Tofiq Kazımov və Ələsgər Şərifov vermişdilər. Rejissorlar ideoloji-siyasi satiranın, məişət komediyasının, buffonadanın elementlərini birləşdirərək şux və oynaq tamaşa yaratmışdılar (7).

Rejissorlar lirik-psixoloji aktrisa kimi çıxış edən Amaliya Pənahovaya Anka komediya obrazını verməklə onun istedadının tam yeni tərəfini açmış oldular. Amaliya Pənahova sırf buffonada personajı oynayır, kukla hərəkət tərzinin əsasında maraqlı obraz yaradırdı.

Barat xanım Şəkinskayanın Jivka, Ağahüseyn Cavadovun Sima Popoviç, Ağasadıq Gəraybəylinin Vaska dayı, Əminə Nağıyevanın Savka xala obrazları öz təravətləri olan bitkin komediya surətləri idi. Əliağa Ağayev isə Rista Podoroviçi böyük məharətlə, karnaval estetikası oyun prinsiplərində ifa edirdi. Onun səhnəyə gəlişi gülüşün dinamik çərxinin hərlənməsini sürətləndirirdi.

Teatra təzəcə gəlmiş Əminə Babayeva oğlan rolu Raşanı eksentrik məharətlə, dinamik çevikliklə, gözlənilməz, ancaq mənalı hərəkət variasiyaları ilə təqdim edirdi.

«Nazirin xanımı» tamaşasında rejissorlar azərbaycanlılar üçün də xarakterik olan vəzifəpərəstlik, kreslo naminə mənəvi alçaqlığa

uymaq kimi mətləbləri daha qabarıq vermişdilər. Nurəddin Fətullayevin tamaşa üçün seçdiyi musiqi parçaları da fikir ifadəsinin təsdiqinə xidmət göstərə, emosional, yumorlu mətləbləri təmsil edə bilirdi.

«Falçı» (1966) və «Xoşbəxtlər» (1968) əsərlərindən sonra Fikrət Sultanov bolqar dramaturqu Raço Stoyanovun (1883 – 1951) 1927-ci ildə yazdığı «Ustalar» pyesini tamaşaya hazırladı. Direktorun təkidi ilə əsərin adı dəyişdirilib «Qısqanc ürəklər» qoyuldu. Fikir bu idi ki, «Ustalar» adı azərbaycanlı tamaşaçılar üçün cəlbedici olmayacaq. Nəticə göstərdi ki, əsərin adı yox, mövzunun bədii həlli bizim tamaşaçılar üçün o qədər də maraqlı deyil. Tamaşada səliqəli rejissor işi, həmin istiqamətdə İsmayıl Osmanlının (Usta Tixol), Şahmar Ələkbərovun (Nayden), Şəfiqə Məmmədovanın (Milkana), Səməndər Rzayevin (Usta Dobri), Məlik Dadaşovun (Jivko), Ətayə Əliyevanın (Qena) maraqlı aktyor oyunları da mövzunun Akademik teatr tamaşaçılarına xarakterik olmayan qüsurunu aradan qaldıra bilmədi.

Adil Babayevin «Mənim ilk məhəbbətim» pyesi il ərzində iki dəfə oxunsa da, işlənməyə ciddi ehtiyacı olduğu qeyd edildi və qəbul olunmadı.

* * *

Yubiley. Fevralın 21-də xalq artisti, Stalin mükafatı laureatı Leyla xanım Bədirbəylinin 50 illik yubileyi keçirildi. Mədəniyyət nazirinin müavini Məmməd Ziyadov, gürcü teatrşünası David Çxaidze, kinorejissor Həsən Seyidbəyli, şair-dramaturq İslam Səfərli, sənət dostları Mehdi Məmmədov, Məhluqə Sadıqova, Amaliya Pənahova, Gəncədən Yusif Bağırov... çıxış etdilər. Leyla xanım «Almaz», «Yalan», «Otello» tamaşalarından göstərilən parçalarda Almaz, Şəlalə, Dezdemona rollarını oynadı.

Truppada dəyişmə. Yardımçı rollarda oynayan Yusif İsgəndərov avqustun 3-də və Arif Namazəliyev sentyabrın 3-də teatrdan çıxdılar. Fazil Salayev sentyabrın 3-də kollektivdən ayrılıb Musiqili Komediya Teatrında işləməyə getdi.

İrəvan teatrında iki il işləmiş Hacı İsmayılov (25 fevral), aktyorluq fakültəsinin tələbəsi Fuad Poladov (16 fevral), Tədris teatrının aktyoru Əliabbas Qədirov (1 oktyabr), təyinatla gələn Sadıq İbrahimov (6 oktyabr) əsas heyətə, Əlvida Cəfərov yardımçı dəstəyə aktyor götürüldülər...

Qısa müddətdə çoxlu filmə çəkilmiş Şahmar Ələkbərov sentyabrın 16-da Akademik teatra qayıtdı. O, teatrda işləməklə yanaşı, filmlərə də çəkilirdi.

Kamal Xudaverdiyev yanvarda teatrdan uzaqlaşdı və payızda yenidən kollektivə qayıtdı.

Dramaturqlar. Nikolay Fyodoroviç Poqodin Stukalov (16.11.1900 – 19.9.1962). Rus nasir və dramaturqu. Lenin (1958), SSRİ (1941 və 1951) Dövlət mükafatları laureatıdır. «Temp», «Balta haqqında poema», «Baldan sonra», «Mənim dostum», «Kreml saatı», «Tüfəngli adam», «Üçüncü patetik», «Moskva gecələri», «İkis və iqrek», «Canlı qaynaqlar», «Balaca tələbə qız», «Mavi rapsodiya»... pyesləri daha çox tamaşaya hazırlanıb.

Anatoli Vladimiroviç Safronov (19.11.1911). Rus nasiri və dramaturqu, Sosialist Əməyi Qəhrəmanı (1981), üç dəfə SSRİ Dövlət mükafatı (1948, 1949, 1973) laureatı. «Qanlı əllər», «Gizli iz», «İlk məhəbbbət», «Qaranquşların uçuşu», «Sən hardasan?», «Bir şəhərdə», «Moskvalı xarakteri», «Ürək bağışlamır», «Təbəssüm üçün milyon», «Oğullarınızı qoruyun», «İrs», «Qasırğa», «Müddət», «Daşqın», «Kişilərə inanmayın», «Cazibə qüvvəsi», «Gecənin sirri»... pyeslərini yazıb.

Branislav Nuşiç (8.10.1864 – 19.1.1938). Serb nasiri, həmçinin dramaturq və teatr xadimi. Serbiya Elmlər Akademiyasının akademiki. «Nazirin xanımı», «Xalq deputatı», «Şübhəli şəxsiyyət» (Qoqolun «Müfəttiş» komediyası əsasında), «Himayədarlıq», «Mister Dollar», «Dərdli ailə», «D – r», «Mərhum», «İşıq», «Dünya səyahəti», «Adi adam», «Burulğan» («Girdab»), «Hacı Loyya»... pyesləri bir sıra dünya xalqlarının dilinə tərcümə edilib və oynanılıb.

Raço Stoyanov (6.11.1883 – 12.1.1951). Bolqar dramaturqu. Yaradıcılığa aktyor kimi başlayıb və eyni zamanda «Ustalar», «Siyasətçilər», «Bağlı qapı qabağında»... dramlarını qələmə alıb.

Mənbələr

1. Tamilla Təhmasib. «Xəyyam». – «Azərbaycan gəncləri», 2 aprel 1970.

2. Аббас Заманов. «Спектакль высокого звучания». – «Бакинский рабочий», 21 марта, 1970.

3. В. Махмудов. «Хайям». – «Вышка», 27 марта 1970.

4. Mahmud Allahverdiyev. «Xəyyam». – «Ədəbiyyat və incəsənət», 11 aprel 1970.

5. A. Mahmud. «Küləklər». – «Ədəbiyyat və incəsənət», 24 oktyabr 1970.

6. Atababa Hacıbabayev. «Kişilərə inanmayın» – «Kommunist», 22 yanvar 1971.

7. Xalid Əlimirzəyev. «Nazirin xanımı». – «Kommunist», 18 noyabr 1970; Nizami Əbülfəzoğlu, «Əsil» nazir xanımı. – «Ədəbiyyat və incəsənət», 14 noyabr 1970.

1971-ci il

12 fevral. «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev.

3 pərdəli dram.

Quruluşçu rejissor Əliheydər Ələkbərov, rejissor Məmmədkamal Kazımov, rəssam Nüsrət Fətullayev, bəstəkar Süleyman Ələsgərov.

Rollarda: Həsən Turabov (Nicat), İsmayıl Dağıstanlı (Böyükbəy), Leyla Bədirbəyli (Fəxrəndə xanım), Məmmədrza Şeyxzamanov (Həsənalı), Amaliya Pənahova (Şahnaz), Vəfa Fətullayeva (Gülgəz), Fuad Poladov və Rafiq Əzimov* (Rəhman), Kamal Xudaverdiyev (Bahadır), Fateh Fətullayev və Kamil Qubuşov (Bayram bəy), Əliabbas Qədirov və Ramiz Məlikov (Leytenant), Sadıq İbrahimov (Qüdrət), Mustafa Süleymanov (Birinci qaçaq), Elxan Hüseynov (İkinci qaçaq), Məcnun Hacıbəyov (Üçüncü qaçaq), Hacı İsmayılov (Dördüncü qaçaq), Məcid Dadaşov (Beşinci qaçaq).

**Qeyd.* Rafiq Əzimov Rəhman rolunu bircə dəfə oynadı.

28 mart. «Füsunkar qız», Mikloş Dyarfaş. Tərcümə edəni Hüseyn Şərif.

3 pərdəli komediya.

Quruluşçu rejissor Fuad Hacıyev, rəssamlar Fikrət Bağırov və Mais Ağabəyov.

Rollarda: Əliağa Ağayev (Pişta Orbek), Ramiz Məlikov (Dyula), Safurə İbrahimova (Karola), Şövkət Rzayeva (Erji), Sofiya Bəsirzadə (Toni xala), Əminə Babayeva (Mari).

8 may. «Yağışdan sonra», Bəxtiyar Vahabzadə.

3 pərdəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, tərtibat rəssamı Solmaz Haqverdiyeva, geyim rəssamı Əli Haqverdiyev, bəstəkar Emin Sabitoğlu, rejissor assistenti Məhərrəm Bədirzadə.

Rollarda: Əli Zeynalov (Qədimbəy), Məlik Dadaşov (Aslan), Fuad Poladov (Cığatay), Şəfiqə Məmmədova (Nihal), Amaliya Pənahova (Reyhan), Səməndər Rzayev (Rüstəm), Hamlet Qurbanov (Əmin), Məcnun Hacıbəyov (Prorab), Rəhilə Mirzəyeva* (Qərənfil) Hafiz Fətullayev (Şofer).

* *Qeyd.* On üçüncü tamaşadan başlayaraq bu rolu Svetlana Vahidova da ifa etdi. Tofiq Kazımov onu da bu rola məşqlərdə hazırlayıb, ancaq proqrama adı yazılmayıb.

19 iyun. «Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə.

2 hissəli, 5 şəkilli komediya.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rəssam Elçin Məmmədov, musiqi tərtibatçısı Nurəddin Fətullayev, rəqslərin quruluşçusu Hüseynağa Hüseynov.

Rollarda: Əliağa Ağayev və Məcnun Hacıbəyov (Divanbəyi), Hacıməmməd Qafqazlı (Kamalov), Abbas Rzayev (Məşədi Qurban), Eldəniz Zeynalov (Tarverdi), Əminə Yusifqızı (Pərizad), Məmməd Sadıqov və Sadıq Hüseynov (Namaz), Mirvari Novruzova və Hökümə Qasımova (Zalxa), Muxtar Avşarov və Aqşin Vəlixanov (Nəcəf), Həsən Məmmədov və Sadıq İbrahimov (Bayram), Əliabbas Qədirov (Vəli), Mustafa Süleymanov (Oruc), Sadıq Saleh (Kovxa), Rafiq Əzimov (Frans Fok), Səadət Zülfüqarova (Sona), Hacı İsmayılov (Kərəm), Məmmədşah Atayev (Matvey), Elxan Ağahüseynoğlu* (Ayı), Əminə Babayeva (Meymun).

* *Qeyd.* Bu tamaşadan sonra Elxan Hüseynovun adı və soyadı afişalarda «Elxan Ağahüseynoğlu» yazıldı.

9 oktyabr. «Qızıl», Yucin O'Nil. Tərcümə edəni Tofiq Kazımov.

3 pərdəli, 4 şəkilli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, musiqi tərtibatçısı Nurəddin Fətullayev, rejissor assistenti Həsən Əbluc.

«Qızıl», Yucin O`Nil. Soldan: İsay Bartlet – Məmmədrza Şeyxzamanov və Saylos Xori – Sadıq Hüseynov. 1971-ci il

«Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev. Soldan: Şahnaz – Amaliya Pənahova və Gülgəz – Vəfa Fətullayeva. 1971-ci il

Rollarda: Məmmədrza Şeyxzamanov (İsay Bartlet), Sadıq Hüseynov (Saylos Xori), Hamlet Xanızadə (Ben Keyts), Bürcəli Əsgərov və Aqşin Vəlixanov (Cimmi Kanana), Rafiq Əzimov (Batler), Ramiz Məlikov (Eybel), Ətayə Əliyeva (Sara Allen), Şəfiqə Məmmədova (Süzen), Hamlet Qurbanov (Netti), Kamal Xudaverdiyev (Denni), Məcnun Hacıbəyov (Doktor Berri).

20 noyabr. «Mənziliniz mübarək!», Seyfəddin Dağlı.

3 pərdəli, 8 şəkilli komediya.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, bəstəkar Tofiq Quliyev.

Rollarda: Ağasadıq Gəraybəyli (Böyükkişi Qəmbəroviç), Əliağa Ağayev (Ağadayı), Həsən Turabov və Fateh Fətullayev (Elgün), Lütfi Məmmədbəyov və Fuad Poladov (Elşən), Məmməd Sadıqov və Muxtar Avşarov (Əliquş), Leyla Bədirbəyli (Gülşad), Nəcibə Məlikova (Dilavər xanım), Sofiya Bəsirzadə və Ətayə Əliyeva (Kəklik), Rəhilə Mirzəyeva və Safurə İbrahimova (Şümarə), Ağahüseyn Cavadov (Uzun kişi), Eldəniz Zeynalov (Milis Miriş), Əminə Nağıyeva və Hökümə Qasımova (Kök qadın), Şövkət Rzayeva (Arıq qadın), Abbas Rzayev (Qısa kişi), Nəcəf Həsənzadə (Şofer), Mərziyə Məmmədbəyli (Prorab).

* * *

İlyas Əfəndiyev dramaturji yaradıcılığında ilk dəfə tarixi mövzuya müraciət edərək 1920-ci ildə Şuşada baş verən hadisələr əsasında «Topxana meşəsi» pyesini yazdı. İctimai təmayüllü lirik-psixoloji janrda yazılan əsəri dramaturq keçən il oktyabrın əvvəlində teatrın kollektivinə oxudu. Noyabr ayının 11-də Əliheydər Ələkbərov əsərin məşqlərinə başladı. Tamaşanın bədii tərtibatını Nüsrət Fətullayev, musiqisini isə Süleyman Ələsgərov işlədilər. Əsər bu il fevralın 12-də «Mahnı dağlarda qaldı» adı ilə tamaşaçılara göstərildi. Tamaşaya bu ad pyesdə Şahnazın sevgilisi Nicat üçün oxuduğu, son nəfəsində də dodaqlarında misraları titrəyən «Aman ovçu» mahnısı ilə əlaqələndirilmişdi və səhnə əsərinin leytmotivi kimi bütün epizodların bir ana xətt ətrafında bağlılığını da təminatlandırırdı.

«Mahnı dağlarda qaldı» tamaşasında bəy, mülkədar, bütövlükdə mənən zadəganlıq məsələlərinə həmişəki kimi, ancaq qara rənglə ba-

xılmır, bu zümrənin Böyük bəy (İsmayıl Dağıstanlı), Fəxrəndə xanım (Leyla Bədirbəyli), Şahnaz (Amaliya Pənahova) kimi maraqlı təmsilçiləri ilə rastlaşırdıq. Tamaşadakı bütöv xarakterli, qəlbən geniş təbiətli, kəndli Həsənalı kişi (Məmmədrza Şeyxzamanov), etibarında dönməz qulluqçu Gülgəz (Vəfa Fətullayeva), inqilabi hərəkata özü də nə üçün qoşulduğunu dərk etməyən, heç bu barədə düşünməyən, ancaq torpağa bağlılığında, səmimiyyətində təbii olan Rəhman (Fuad Poladov), qeyrət və namus üstündə qaçaq düşmüş Bahadır (Kamal Xudaverdiyev) obrazları da müxtəlif bədii dəyərləri ilə maraqlı təsir bağışlayırdı.

Tamaşada aktyor ifası baxımından ən sanballı obraz Nicat alınmışdı. Həsən Turabov ifasında «çox səmimi və sərbəst» (1) idi, öz qəhrəmanını «işində, sözündə düz, xalqın səadəti yolunda hər cür məhrumiyyətə razı olan cəsur» (2) və «mətin insan» (3) , «ləyaqəti uca tutan» (4) mübariz kimi oynayırdı. Obrazın hadisələr boyu daxilən dəyişməsini, idrakı təkamülünü aktyor təkcə Nicatın hisləri ilə deyil, «bütün mənəviyyatında baş verən proses» (5) kimi mənalandırırdı.

Şahnaz rolunda Amaliya Pənahova nitqinin aydınlığına diqqət yetirmir, obrazın finalda keçirdiyi fəci-psixoloji halı, gərginliyi əvvəldən təqdim etməklə dramatizmi zəiflədirdi. Şahnazın finalda intiharı tam bədii məntiqdən, hadisələrin təbii axarından doğmurdu. Ölümün faciə səviyyəsinə qalxmasına nə dramaturq, nə rejissor, nə də aktrisa nail ola bilməmişdilər.

İdeoloji basqıların, müəyyən siyasi platformanın təkidinin, meyarın çox vaxt sənət yox, məqsədlə ölçülməsinin nəticəsi idi ki, İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən», «Unuda bilmirəm», «Məhv olmuş gündəliklər» kimi möhtəşəm tamaşaları yox, məhz Sovet İttifaqı Kommunist Partiyasının XXIV qurultayına həsr edilmiş «Mahnı dağlarda qaldı» əsəri Respublika Dövlət mükafatına layiq görüldü.

1979 – 1980-ci il teatr mövsümündə «Mahnı dağlarda qaldı» tamaşası repertuara daxil edildi. Nicat rolunu Əliabbas Qədirov, Fəxrəndə xanımı Zərnigar Ağakişiyeva, Şahnazı Amaliya Pənahova ilə birgə Məhbubə Məlikova, Bahadır surətini Kamal Xudaverdiyevlə yanaşı, Mikayıl Mirzəyev də oynayırdılar. Ancaq tamaşa ilkin təravətini saxlaya bilməmişdi.

Teatr 1971-ci ildə iki tərcümə əsərinə müraciət etdi və həmin dramaturqların əsərləri Akademik teatrda birinci dəfə idi oynanılırdı. XX əsr macar dramaturqu Mikloş Dyarfaşın «Füsunkar qız» («Oyan və oxu») komediyasını Hüseyn Şərifin tərcüməsində İncəsənət İnstitutunun müəllimi Fuad Hacıyev tamaşaya hazırladı. Tamaşanın rəssamları Fikrət Bağırov və Mais Ağabəyov idilər. «Füsunkar qız» tamaşası quruluşçu rejissorun Milli teatrda ilk işi idi. Tamaşa SSRİ-də keçiriləcək macar dramaturqlarının əsərləri festivalında iştirak etmək məqsədilə hazırlanmışdı.

Məişət komediyası janrında yazılmış və elə həmin prinsipdə də quruluş verilmiş «Füsunkar qız» komediyasında süjet sadə, konflikti aydın və maraqlıdır. Sürücü Pişta Orbek (Əliağa Ağayev) ailəsində ciddidir, yeniyetmə oğlu Dyulaya (Ramiz Məlikov) hər gün evdən çıxarkən öyüd-nəsihət verməyi atalıq borcu kimi qəbul edir. Onun arvadı Erji (Şövkət Rzayeva) həm ərini, həm də oğlunu sevən mehriban qadındır. Dyula yüngülxasiyyət, qeyri-ciddi, bufetdə işləyən Marini (Əminə Babayeva) sevir. Valideynləri bu sevginin izdivacına qəti etiraz edirlər, ancaq oğul inadından dönmür. Bu əsnada qonşu Toni xalaya (Sofiya Bəsirzadə) gözəl, ismətli, ağıllı, hamıya mehriban və səmimi olan Karola (Safurə İbrahimova) adlı qız qonaq gəlir. Tezliklə öz davranışı ilə hamını məftun edən füsunkar qıza – Karolaya həm Pişta Orbek, həm də onun oğlu Dyula vururlar. Bayaqdan Marini görmək belə istəməyən ata çalışır ki, oğlu onunla evlənsin. Karolanın xoşuna gəlmək üçün o, pudluq daşlarla idmana başlayır... Nəhayət, Dyula və Karola evlənirlər.

Quruluşçu rejissor Fuad Hacıyev və aktyorlar şux, oynaq vəziyyət komediyası oynamağa çalışmışdılar. Əliağa Ağayev rəğbət bəslənən yumoristik, Ramiz Məlikov dramatik situasiyalarda komik vəziyyətə düşən, Safurə İbrahimova gülüş vəziyyətlərində də lirik-psixoloji, Sofiya Bəsirzadə sadəlövhlüyündə də səmimi obrazlar təqdim edirdilər. Tənqid, ümumən, tamaşanı bəyənsə də, obrazın komik kolliziyalarda təfsiri baxımından Əminə Babayeva ilə Şövkət Rzayevanın ifalarından narazı idi (bax:6).

«Füsunkar qız» komediyası Dyulanın tamaşadakı iştirakçıları birbir salondakılara təqdim etməsi ilə başlayırdı. Forma və üslub özlü-

yündə maraqlı olsa da, kompozisiya, hadisələrin sürət-ritmi, rejissor məqsədi, ifa üslubu baxımından yerinə düşmürdü. Bu epizodda səsləndirilən musiqi də komik ovqatla uyuşmurdu.

Tamaşaya qoyulan ikinci tərcümə pyesi Amerika dramaturqu Yucin O'Nilin (1888 – 1953) 1921-ci ildə yazdığı «Qızıl» əsəri idi. Tofiq Kazımovun öz tərcüməsində hazırladığı «Qızıl» dramı 1936-cı ildə Nobel mükafatına layiq görülmüş sənətkarın Akademik teatrda oynanılan ilk dramı idi. Əsər ictimai haqsızlığı ifşa edən faciə müsibətli dram kimi tamaşaya qoyulmuşdu. Ancaq nədənsə məramnamədə tamaşanın janrı «dram» yazılmışdı. Tamaşada həm sosial, həm də mənəvi-əxlaqi fəlakətlərə gətirib çıxaran qızıl, onu mənimsəmək ehtirası «sarı əjdaha» kimi yozularaq dramatik gərginliklə təcəssüm etdirilmişdi.

Yucin O'Nilin Azərbaycan teatrında ilk əsəri isə 1927-ci ildə Bakı İşçi Teatrında oynanılmış «Çinar altında məhəbbət» tamaşasıdır. Akademik teatrda bu əsər, altmış səkkiz il sonra 1995-ci ildə Bəhram Osmanovun quruluşunda, «Qaraağaclar altında ehtiraslar» adı ilə oynanıldı.

«Qızıl» tamaşası lirik-psixoloji üslubda ciddi nailiyyətlər qazanmış Tofiq Kazımovun lirik məqamlı psixoloji faciə üslubunda səmərəli axtarışlarının bəhrəsi idi. Başqa tərəfdən, bu tamaşa «Pəri cadu» və «Aydın» faciələrində sərvət hərisliyinin insan duyğularını buxovlamasına qarşı rejissor mövqeyinin yeni hadisələr, məkan-zaman, təzə insan xarakterləri timsalında psixoloji-fəci təcəssümü idi.

Tofiq Kazımov dramaturqun fikrinə rəğmən gəmi kapitanı kimi uzun illər «Triton» gəmisində balina ovu ilə məşğul olan, ancaq bundan bezərək ənbər, inci, qızıl tapmaq xəyalı ilə yaşayan İsay Bartleti (Məmmədrza Şeyxzamanov) faciənin mərkəzində vermişdi. Onun faciəsi dörd qatda açılırdı.

Mənəvi faciə: Dənizçi kimi sevimli Bartlet əqidəsinə, məsləkinə xilaf çıxır, hətta qızıl hərisliyinə görə «qoca ənbər» ləqəbi ilə çağırılır.

İnsani faciə: Sərvət sorağı ilə üzən «Triton» gəmisi qəzaya uğrayır və onun altı nəfərlik heyəti qayıqla kimsəsiz adaya düşürlər. Burada bir sandıq qızıl tapırlar. Aşpaz Batler (Rafiq Əzimov) və Eybel

(Ramiz Məlikov) bu qızılların saxta olduğunu söyləyirlər. İnsani hislərini itirən, qızıl adı çəkiləndə vəhşilik həddinə çatan, gözləri hədəqəsindən çıxan Bartlet elə zənn edir ki, Batler və Eybel onu aldadıb qızıla sahib durmaq istəyirlər. Ona görə də bu xofdan ürkərək neçə illik peşə və həyat dostlarının ölümlərinə fitva verir. Cimmi Kanana (Bürcəli Əsgərov və Aqşin Vəlixanov) onların ikisini də qətlə yetirir.

Atalıq, böyüklük faciəsi: Qayıqla minbir zülmlə evə qayıdan İsay Bartlet yeni gəmi ilə qızıl gətirməyə kürəkəni Dennini (Kamal Xudaverdiyev) göndərir. Arvadı Sara Allen (Ətayə Əliyeva) və qızı Süzen (Şəfiqə Məmmədova) heç vəchlə atalarını fikrindən döndərə bilmirlər.

Nəticədə gəmi qəzasında Denni, bu xəbərdən başlarına hava gələn İsay Bartlet və oğlu Netti (Hamlet Qurbanov) ölürlər. Ailə dəhşətli müsibətə düçar olur.

Sosial faciə: İsayın ölümünə bais olduğu neçə adamın faciəsi cəmiyyətdəki əxlaqi münasibətlərlə əlaqələndirilirdi. «Günahların faciəvi səbəbi cəmiyyətdir» fikrinə xüsusi vurğu vurulurdu.

Tamaşada bütün aktyorlar öz oyunlarını ümumi ali məqsədlə dəqiqliklə əlaqələndirirdilər. Bununla belə, aktyor ifası, faciənin psixoloji dərinliyini açmaq baxımından, ifadə vasitələrinin zənginliyinə görə Məmmədrza Şeyxzamanovun oyunu daha sanballı və bütöv idi. (bax: 7)

Tofiq Kazımovun 1971-ci ildə verdiyi ikinci quruluş Bəxtiyar Vahabzadənin «Yağışdan sonra» lirik-psixoloji dramının tamaşası oldu (8 may). «İkinci səs» pyesi ilə müqayisədə şair-dramaturqun «Yağışdan sonra» dramı səhnə əsəri janrının tələb və prinsiplərinə daha yaxın idi. Ancaq pyesdəki qüsurların hamısını tamaşada islah etmək mümkün olmamışdı. Bir sıra epizodlar tamaşada tamam ixtisar edilsə də, zəif səhnələr, ümumi ana xətlə bağlanmayan obrazlar qalmışdı. Maraqlıdır ki, «Yağışdan sonra» tamaşasına xeyirxah niyyətlə müsbət rəyli resenziya yazan Məsud Əlioğlu (bax: 8), Cəlal Məmmədov (bax: 9) və Əkbər Ağayev (bax: 10) kimi nüfuzlu tənqidçilər əsərdəki qüsurları vicdanla etiraf edirdilər. Onların qənaətləri, demək olar ki, əsasən, üst-üstə düşürdü.

Məsud Əlioğlunun fikrincə: «Sex müdiri Qərənfil (Rəhilə Mirzəyeva), Prorab (Məcnun Hacıbəyov), Şofer (Hafiz Fətullayev) rollarında

dramaturji material zəif olduğu üçün aktyorlar da yaddaqalan surətlər yarada bilmirlər.

Qeyd etməliyəm ki, əsərdə Prorab və Şofer surətləri və onlarla əlaqədar xətlər əsas ideya ilə üzvi surətdə bağlanmır, kənardan pyesə daxil edildiyindən yamaq kimi görünür».

Cəlal Məmmədova görə: «Prorab, Qərənfil, Şofer surətləri... aktyorların səyindən asılı olmayaraq, kölgədə qalırlar. Şoferin bir personaj kimi, epizodik də olsa, əsərə nə üçün daxil edildiyi aydın deyil».

Əkbər Ağayevin qənaəti isə belədir: «Tamaşadakı Prorab (Məcnun Hacıbəyov), Qərənfil (Rəhilə Mirzəyeva və Svetlana Vahidova), Şofer (Hafiz Fətullayev) surətləri ifaçıların bütün səylərinə baxmayaraq, yaddaqalan bir səviyyəyə qalxmır, bunun üçün əsərdə onlara verilən dramatik mövqeyin özü də çox məhduddur».

Tamaşada cüzi, nisbətən açıq və çox şəkildə Nihal (Şəfiqə Məmmədova), Cığatay (Fuad Poladov), Reyhan (Amaliya Pənahova), Aslan (Məlik Dadaşov), Qədimbəy (Əli Zeynalov) obrazlarının dramaturji həllində də qüsurlar vardı. Aktyorlar rejissorun ümumiləşdirib verdiyi əməl-fəaliyyətə görə canfəşanlıqla rollarını ifa edir, qüsurların islahına çalışırdılar.

Sözün buna tam gücü çatmadığı üçün Tofiq Kazımov ən dramatik səhnələri pantomim-etüdlərlə tamamlayırdı. Lirik-dramatik, zərif plastik hərəkətlərlə qurulan və mənalı musiqi ilə (bəstəkar Emin Sabitoğlu) tamamlanan epizodlar öz emosionallığı və bədii təsir gücü ilə cazibədar idi, tamaşaya ahəngdar bütövlük gətirirdi.

«Füsunkar qız» tamaşasından əlavə teatr daha iki orijinal komediyaya quruluş verdi. Ələsgər Şərifov publisist-dramaturq Seyfəddin Dağlının «Mənziliniz mübarək!» (20 dekabr) və Məmmədkamal Kazımov dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin «Xırs quldurbasan» (19 iyun) komediyalarını hazırladılar.

«Xırs quldurbasan» tamaşasında Əliağa Ağayevin (Divanbəyi), Eldəniz Zeynalovun (Tarverdi), Əminə Yusifqızının (Pərizad), Mirvari Novruzovanın (Zalxa), Əminə Babayevanın (Meymun) yumorlu oyunları daha təsirli və daha yapışıqlı çıxmışdı. Tamaşa özü də oynaq ritmdə və dinamik surətdə qurulmuşdu.

Seyfəddin Dağlının teatra «Bir daş ora, bir daş bura» adı ilə təqdim edilən, iki dəfə yenidən işlənən, axırda «Mənziliniz mübarək!» adlanan

komediyası daha çox söz oynatmalarından ibarət idi, mənasız dialoqlardan qurulmuşdu. Rejissor bu qüsurları düzəltməyə səy göstərməmişdi. Əgər göstərmişdisə də, nəticəsi görünmürdü. Ona görə də Ələsgər Şərifovun ifaçı aktyorlardan Ağasadıq Gəraybəylinin (Böyükkişi Qəmbəroviç), Əliağa Ağayevin (Ağadayı), Həsən Turabovun (Elgün), Leyla Bədirbəylinin (Gülşad), Nəcibə Məlikovanın, Sofiya Bəsirzadənin və Ətayə Əliyevanın (Kəklik), Ağahüseyn Cavadovun (Uzun kişi), Eldəniz Zeynalovun (Milis Miriş), Safurə İbrahimovanın (Şümarə) istedadlarına güvənib çox şeyi onların öhdələrinə buraxması da səmərəsiz qaldı.

İlin axırında Tofiq Kazımov baş rejissorluqdan çıxmaq üçün nazirliyə ərizə verdi. Ancaq nazirlik buna qəti etiraz etdi və teatrda dekabrın 9-da keçirilən iclasda kollektiv də onun baş rejissorluqdan çıxmasını məqsədəuyğun saymadı.

İsmayıl Dağıstanlının rejissorluq etdiyi «Qayğıkeş insan» pyesi zəif olduğuna və üzərində aparılan işin qeyri-qənaətbəxşliyinə görə yarımçıq saxlandı. Məcid Şamxalovun «Mənim anam sənsən» pyesi də müzakirə olunmasına baxmayaraq, repertuara daxil edilmədi.

* * *

Yubiley. Mayın 22-də Azərbaycanın Xalq artisti Möhsün Sənaninin 70 illik yubileyi təntənə ilə qeyd olundu. Əliheydər Ələkbərovun məruzəsi ilə başlanan gecədə professor Mirəli Qaşqay, şair-dramaturq İslam Səfərli, Mədəniyyət Nazirliyinin işçisi Əli İsmayılov, sənət dostları Rza Təhmasib, Lütfəli Abdullayev, Vera Şirye, Vəfa Fətullayeva, kinorejissor Həsən Seyidbəyli, Aşıq Pənah... yubilyara ürək sözlərini söylədilər. Bədii hissədə Sabit Rəhmanın «Xoşbəxtlər», Cəfər Cabbarlının «Almaz», «1905-ci ildə», Şıxəli Qurbanovun «Əcəb işə düşdük», İslam Səfərlinin «Göz həkimi», Bratislav Nuşiçin «Nazirin xanımı» tamaşalarından göstərilən parçalarda Möhsün Sənani Sadıq, Şərif, Eyvaz, Misirxanov, Həsənağa, Çeda rollarını ifa etdi.

Fəxri adlar. Aprelin 29-da Həsən Səttar oğlu Turabov və noyabrın 18-də Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adlarına layiq görüldülər.

Truppada dəyişmə. Əminə Yusifqızı iş yerini fevralın 2-də telestudiyaya, Ofeliya Məmmədzadə fevralın 10-da Musiqili Komediya Teatrına, Şahin Alışanov Gəncə Dövlət Dram Teatrına (12 mart), Məcid Dadaşov (20 oktyabr) isə «Azərbaycanfilm»ə dəyişdilər.

Aktyorluq fakültəsinin məzunları Svetlana Vahidova (16 yanvar) və Hafiz Fətullayev (1 noyabr), tələbə Sona Mirzəyeva* (1 iyun) truppaya daxil oldular. Onlar tələbə ikən də bəzi tamaşalarda çıxış etmişdilər.

**Qeyd.* Sona Mirzəyeva ilin sonunda Filarmoniyaya işə keçdi.

Dramaturqlar. Yucin O'Nil (16.10.1888 – 27.11.1953). Amerika dramaturqu, Nobel mükafatı laureatı (1936). Ən məşhur əsərləri «Pırpız meymun», «Allah hamıya qanad verib», «Qarağaclar altında məhəbbət» (AMDT-da «Qaraağaclar altında ehtiraslar» adı ilə oynanılıb), «Milyonçu Marko», «Dinamo», «Nəhayətsiz günlər», «Gecə yarıyadək uzanan gün», «Taleyin ögey oğulları üçün Ay», «Susuzluq», «Anna Kristi», «Qızıl», «Elektranın üzünə matəm» pyesləridir.

Mikloş Dyarfaş (6.12.1915 – 5.10.1992). Macar dramaturqu, aktyoru, ssenaristi. Yaradıcılığa teatr aktyoru kimi başlayıb. Macarıstanın, əsasən, Budapeştin müxtəlif teatrlarında aktyor işləyib. 1986-cı ildən Vesprem şəhərindəki Petefi teatrının bədii rəhbəri olub. İlk səhnə əsəri «Qalmaqalçı apostol» pyesini 1948-ci ildə yazıb. 1954-cü ilə Atilla Yojef mükafatına layiq görülüb. «Oyan, oxu» komediyası dünyanın bir sıra teatrlarında tamaşaya qoyulub.

Seyfəddin Əliağa oğlu Dağlı Abbasov (27.8.1921 – 28.1.1983). Azərbaycan jurnalisti, nasir və dramaturq. Klassik Azərbaycan dramaturqu Cəfər Cabbarlının kürəkənidir və onun barəsində yazılan, romanın müəllifidir. «Adı sənin, dadı mənim», «Kölgələr pıçıldaşır», «Aydınlığa doğru», «Mənziliniz mübarək!», «Təzə gəlin»... dram və komediyalarını yazıb.

Mənbələr

1. Bağır Bağırov, «Mahnı dağlarda qaldı». – «Azərbaycan gəncləri», 25 fevral 1971.

2. B.Adil. «Keçmişə müasir baxış». – «Ədəbiyyat və incəsənət», 6 mart 1971.

3. H.Orucəli. «Dağları oyadan mahnı». – «Bakı», 23 fevral 1971.

4. Гасан Касимов, «Песня осталась в горах». – «Вышка», 6 апреля 1971.

5. Əkbər Ağayev, «Mahnı dağlarda qaldı...». – «Kommunist», 5 mart 1971.

6. Cabir Səfərov. «Məhəbbətin hökmü». – «Azərbaycan gəncləri», 1 may 1971; Nizami Əbülfəzoğlu. «Füsunkar qız və başqaları...». – «Ədəbiyyat və incəsənət», 2 aprel 1971.

7. Kəmalə Məcid qızı «Günah yuyulmur». – «Ədəbiyyat və incəsənət», 27 noyabr 1971.

8. «Ədəbiyyat və incəsənət» qəzeti, 29 may 1971.

9. «Bakı» qəzeti, 2 iyun 1971.

10. «Kommunist» qəzeti, 9 iyul 1971.

1972-ci il

2 fevral. «Sən yanmasan...», Nəbi Xəzri.

3 pərdəli dram.

Tamaşa SSRİ-nin təşkil edilməsinin 50 illiyinə həsr olunur.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Rasim Babayev, bəstəkar Cahangir Cahangirov.

Rollarda: Əli Zeynalov (Yanar), Məhluqə Sadıqova (Dürdanə), Amaliya Pənahova (Sədayə), Səməndər Rzayev (Eldar), Həsən Məmmədov* və Kamal Xudaverdiyev (İnam), Vəfa Fətullayeva (Tənzilə), Məcnun Hacıbəyov və Şahin Cəbrayılov (Mədəd), Nailə Cahangirova (Sahilə), Mustafa Süleymanov (Professor), Hacı İsmayılov (Gənc alim).

* *Qeyd.* Həsən Məmmədov fevralın 1-də kinostudiyaya işə keçdiyi üçün bu rolu çox az oynadı.

27 mart. «Darıxma, ana!», Nodar Dumbadze. Tərcümə edəni Adil Babayev.

3 pərdəli qəhrəmanlıq komediyası.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Dmitri Tavadze, musiqi tərtibatçısı Nurəddin Fətullayev rejissor assistenti Hafiz Fətullayev.

Rollarda: Ətayə Əliyeva (Ana), Fuad Poladov (Avtandil Cakeli), İsmayıl Osmanlı (İsidor Cakeli), Möhsün Sənani (Vano dayı), Mirvari

Novruzova (Saşiko bibi), Safurə İbrahimova (Daduno), Muxtar Avşarov (Ruben), Hamlet Qurbanov (Gela), Eldəniz Zeynalov (Anzor), Hacı İsmayılov (Kukuri), Əliabbas Qədirov (Givi), Sona Mirzəyeva (Vita), Əminə Babayeva (İzida), Svetlana Vahidova (Miziya), Fateh Fətullayev (Mdinaradze), Məmmədrza Şeyxzamanov (Çxartişvili), Ramiz Məlikov (Şerbina), Aqşin Vəlixanov (Parxomenko), Elxan Ağahüseynoğlu (Petrov), Hamlet Xanızadə (Dzenaladze), Rafiq Əzimov (Sərhədpozan), Şahin Cəbrayılov (Əsgər).

26 may. «Aydın», Cəfər Cabbarlı.

3 pərdəli, 5 şəkilli dram.

Quruluşçu rejissor Tofiq Kazımov*, rəssam Tahir Salahov, bəstəkar Fərəc Qarayev, rejissor assistenti Hafiz Fətullayev.

Rollarda: Həsən Turabov (Aydın), Şəfiqə Məmmədova (Gültəkin), Kamal Xudaverdiyev (Surxay), Əli Zeynalov (Dövlət bəy), Nəcibə Məlikova (Böyükxanım), Səməndər Rzayev (Balaxan), Kamil Qubuşov (Novruz bəy), Rafiq Əzimov (Mirzə Cavad), Mərziyə Məmmədbəyli (Susanna), Sadıq Hüseynov (Qurban), Hamlet Xanızadə (Pirqulu), Eldəniz Zeynalov (Səlim), Abbas Rzayev (Qulam), Əliabbas Qədirov (İlyas), Mustafa Süleymanov (Rəsul), Aqşin Vəlixanov (Polis rəisi), Hacı İsmayılov (Lakey).

**Qeyd.* Mirzə Fətəli Axundzadə adına Respublika mükafatı bu ildən «Respublika Dövlət mükafatı» kimi də yazılır. Tofiq Kazımov bu mükafatın laureatıdır.

12 iyul. «Yol ayrıcında», İslam Səfərli.

2 hissəli lirik dram.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rəssam Nüsrət Fətullayev, bəstəkar Tofiq Quliyev. Mahnıları Xalq artisti Şövkət Ələkbərova ifa edir.

Rollarda: Fuad Poladov (Araz), Safurə İbrahimova (Aynur), İsmayıl Osmanlı və Muxtar Avşarov (Mürsəl kişi), Bürcəli Əsgərov (Səlim), Əminə Babayeva (Narınc), Əliabbas Qədirov və Sadıq İbrahimov (Fateh), Aqşin Vəlixanov və Hacı İsmayılov (Qəşəm), Əminə Yusifqızı və Əminə Babayeva (Naznaz), Ağahüseyn Cavadov (Qoşqar baba), Hacıməmməd Qafqazlı və Mustafa Süleymanov (Murad baba).

«Darıxma, ana!», Nodar Dumbadze. Soldan: Vita – Sona Mirzəyeva, Gela – Hamlet Qurbanov, Daduna – Safurə İbrahimova, Avtandil Cakeli – Fuad Poladov, Anzor – Eldəniz Zeynalov, Kukuri – Hacı İsmayılov, İzida – Əminə Babayeva və Miziya – Svetlana Vahidova. 1972-ci il

«Aydın», Cəfər Cabbarlı. Tamaşanın yaradıcı heyəti. 1972-ci il

«Aydın», Cəfər Cabbarlı. Gültəkin – Şəfiqə Məmmədova və
Aydın – Həsən Turabov. 1972-ci il



«Adsız ulduz», Mixail Sebastian. Məktəbli qız – Svetlana Vahidova və
Qriq – Hamlet Xanızadə. 1972-ci il

3 dekabr. «Adsız ulduz», Mixail Sebastian. Tərcümə edəni Ənvər Məmmədxanlı.

3 pərdəli komediya.

Quruluşçu rejissor Həsən Əbluc (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu), rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Nurəddin Fətullayev. Tamaşanın bədii rəhbəri Tofiq Kazımov.

Rollarda: Amaliya Pənahova (Naməlum qadın), Rafiq Əzimov (Müəllim), Hamlet Xanızadə (Qriq), Sofiya Bəsirzadə (Madmazel Kuku), Eldəniz Zeynalov (Vağzal Naçalniki), Məcnun Hacıbəyov (Pasku), Hamlet Qurbanov (Udrya), Svetlana Vahidova (Məktəbli qız), Hökümə Qasımova (Konduktor).

* * *

Şair Nəbi Xəzri keçən il aprelin 4-də kollektivə «Sahil qayaları» lirik pyesini oxudu. Müəllif söylənilən fikirlər, edilən tövsiyələr, tutulan iradlar əsasında pyesi yenidən işləyib iyunun 25-də bir də teatra verdi və kollektiv əsəri yenidən dinlədi. Şairin ilk dram əsəri qəbul olundu və onu tamaşaya hazırlamaq Əşrəf Quliyevə tapşırıldı. Rejissor müəlliflə ayrı-ayrı səhnələri yenidən işləyərək əlavələr və ixtisarlar edərək payızın ortalarında məşqlərə başladı. Tərtibat istedadlı rəngkar, Akademik teatrda ilk səhnəqrafiya işi olan Rasim Babayevə, musiqi isə tamaşa musiqisi bəstələməkdə xüsusi səriştəsi olan Cahangir Cahangirova tapşırıldı.

Nəbi Xəzri dramaturgiyada səriştəsiz olduğu üçün janrın vacib prinsipləri pozulmuşdu, süjetdə pərakəndəlik, zavyazkada uzunçuluq duyulurdu, konfliktin gərginliyi lazımi səviyyədə deyildi, obrazların təsvirində sxematiklik, mənasız pafos vardı. Müəllif əvvəllər yazdığı, həmçinin məhz pyes üçün işlədiyi bütöv şeirləri, onlardan parçaları yerli-yersiz obrazların dilinə vermişdi. Bu çoxluq epizodların dramaturji gərginliyini zəiflədir, deklomasiyaçılığa aparmaqla hərəkəti ölgünləşdirirdi.

Quruluşçu rejissor Əşrəf Quliyev müəyyən ixtisarlar aparsa da, pyesdəki pərakəndəliyi yığışdıra, bir mövzu-janr, bir dramatik süjet ətrafında birləşdirə bilməmişdi. Baş məşqlər ərəfəsində pyesin adı

dəyişdirilib «Sən yanmasan...» qoyuldu. Nazim Hikmətin şeirindən götürülmüş bu iki kəlmə pyesin ideyasına açıq işarə idi və məna tutumuna görə tamaşanın da əsas fikrini nisbətən əhatə edirdi. Ancaq rejissor məhz o şeirdə olan fikir istiliyini, dramatik axarı tamaşanın ruhunda saxlamağa nail olmamışdı.

«Sən yanmasan...» tamaşasında lüzumsuz dialoqlar çox idi, ikinci və altıncı şəkilləri asanlıqla, süjetə heç bir xələl gətirmədən ixtisar eləmək mümkün idi. Mövzu ana xəttə uyğun inkişaf etdiyi məqamda Yanarın (Əli Zeynalov) Quba rayonunun ekzotik mənzərəsi, camaatının özünəməxsus spesifik dili, məişət tərzi olan, unikal Xınalıq kəndi barədə Mədədə (Məcnun Hacıbəyov) uzun-uzadı «mühazirə» oxuması, Tənzilənin (Vəfa Fətullayeva) üzüm adları barədə söyləmələri o qədər yersiz görünürdü ki, onları asanlıqla tamaşadan çıxarmaq olardı. O zaman münaqişə daha da güclənər və mövzunun dramatik gərginliyi arta bilərdi. Mədəd, Tənzilə və İnam (Həsən Məmmədov və Kamal Xudaverdiyev) obrazlarını tamaşadan çıxarmaq tamamilə asan idi. Onların əsərdəki dramaturji funksiyaları başqa personajlar arasında paylansaydı, Sədayə (Amaliya Pənahova) Dürdanənin (Məhluqə Sadıqova) «yeganə qızı ola bilərdi və ananın cidd-cəhdləri, Sədayə ilə bağlı həyəcanları daha təbii görünərdi. Sahilin xilas etdiyi qız, Sahilin ilk sevgisi məhz Sədayə özü ola bilərdi və o zaman professorun prinsipiallığı daha qabarıq nəzərə çarpar və dramaturji münaqişə xeyli kəskinləşərdi (1). Belə olan təqdirdə Yanar – Dürdanə – Sədayə üçlüyü arasındakı münasibətlərin həm lirik-psixoloji, həm də dramatik-psixoloji təsviri reallaşar, sürət-ritmə dinamiklik gələrdi. Tamaşa yığcamlaşıb iki hissəli olar, poetik ruhlu, dərin məzmunlu, aydın, mənəvi-sosial problemli, əxlaqi xarakterli tamaşa alınardı.

Mədəd, Tənzilə, İnam obrazları sönük alındığı üçün aktyorlar da çıxılmaz vəziyyətdə qalırdılar. Professor və gənc alim rollarının ifaçıları Mustafa Süleymanov və Hacı İsmayılov da eyni çətinliklə üzləşirdilər. İnam rolunu Kamal Xudaverdiyevlə yanaşı, Həsən Məmmədov da məşq etmişdi. Premyeradan on gün əvvəl fevralın 1-də o, «Azərbaycanfilm» kinostudiyasına işə keçdiyinə görə bu rolu dəvətlə bir neçə dəfə oynadı. Tamaşada aktyor ifası baxımından daha uğurlu iş Əli Zeynalovun və gənc istedad Səməndər Rzayevin (Eldar) oyunları idi.

Bədii cəhətdən daha sanballı, mürəkkəb-psixoloji dönüşləri olan Dürdanə obrazı Məhluqə Sadıqovanın ifasında qüsurlu alınmışdı. Maraqlı aktyor oyunu üçün imkan verən Dürdanəni təcrübəli aktrisa dərinliklə açmaqda çətinlik çəkirdi, obrazın «xasiyyətlərinə səthi yanaşmış... tamaşaçıları inandıra bilməmişdi» (2). Tənqid bunu da haqlı qeyd edirdi ki, tamaşadakı aktyor uğursuzluğunun əsasında dramaturji materialın zəifliyi və rejissorun rolları düzgün bölməməsi, ifaçıların imkanlarını nəzərə almaması dururdu.

Dramaturji cəhətdən qüsurlu, rejissor işi baxımından natamam və nöqsanlı digər səhnə əsəri İslam Səfərlinin «Yol ayrıcında» pyesinin tamaşası idi. Müəllifin «lirik dram» adlandırdığı pyesin səhnə quruluşçusu rejissor Məmmədkamal Kazımov da həmkarı Əşrəf Quliyevin buraxdığı səhvləri başqa formada təkrarlamışdı. Nəbi Xəzri ilə müqayisədə dramaturgiyada səriştəli olan İslam Səfərli «Yol ayrıcında» (əvvəlcə adı «Yolayrıcı» idi) pyesini neçə il işləsə də, qüsurlardan tam təmizləyə bilməmişdi. Son dəfə bu il aprelin 1-də oxunan pyes bəyənilməsə də... repertuara daxil edildi.

Əsərin mövzusu kənd həyatından götürülmüş, torpağın müqəddəsliyini qorumağın mənəvi-əxlaqi tərəflərini açmağa həsr edilmişdi.

Burada da Azərbaycanın müasir dramaturgiyasına xas şablon üçlük sevgi süjetindən istifadə olunmuşdu. İslam Səfərli həyat, ürək, məfət, yaşamaq barədə dramaturji yükdən məhrum, məna və mətləb güdməyən, quru didaktikadan kənara çıxa bilməyən fikirlərini Araz (Fuad Poladov) – Aynur (Safurə İbrahimova) – Səlim (Bürcəli Əsgərov) üçlüyündə «əritməyə» çalışmışdı. Mürəkkəb hadisələrdən, dramaturji məntiqdən doğmadığına görə kəndə taxılçılıq sahəsində təcrübələr aparmağa gələn Arazın burada bütün ictimai-mədəni istiqamətlərdə dönüş yaratmaq «mübarizliyi», Aynur kimi ağıllı qızın Səlimin üzüyünü hay-küylə, əsaslı səbəb olmadan qaytarması, Səlimin öz qara işləklərini gizlətməsi, finalda xəcalət çəkməsi (?) qeyri-təbii və səmimiyyətdən uzaq görünürdü. Bunların da əsasında dramaturji materialdan sonra rejissorun tamamlanmayan, bəzən axıra çatdırılmasına səy belə göstərilməyən qeyri-peşəkar işinin zəifliyi dururdu.

Safurə İbrahimova «Aynurun qəlbində baş verən» dəyişikliyi, ağır psixoloji sarsıntını hərtərəfli açа bilmir», Bürcəli Əsgərovun «hərəkət

və ifadələrində süni gərginlik, quruluq hiss olunur, Qoşqar baba və Murad baba rollarında dramaturji materialın zəifliyi Ağahüseyn Cavadov və Hacıməmməd Qafqazlı kimi təcrübəli, qocaman aktyorların «obrazları dolğun xarakterlər səviyyəsinə qaldırmaq imkanından məhrum etmişdi» (3).

Bunlarla müqayisədə Əminə Yusifqızı ilə Hacı İsmayılovun duzlu yumorla oynadığı Naznaz – Qəşəm dueti, İsmayıl Osmanlının təravətli ifasında səmimiliyi artan Mürsəl kişi obrazı tamaşada daha məna təsir bağışlayırdılar.

«Yol ayrıcında» sözü mənəviyyatlardakı təbəddülatları, həyat mövqeyindəki ayrılığı göstərsə də, rejissorun rəssam Nüsrət Fətullayevlə bunu səhnədə məkan kimi (dörd yol ayrıcı) vermələri psixoloji yüklü mətləbi öz məntiqindən ayırırdı.

Tofiq Quliyev tamaşa üçün gözəl mahnılar yazmışdı. İslam Səfərlinin lirik sözlərinə bəstələnən nəğmələri Xalq artisti Şövkət xanım Ələkbərova böyük ürək və məhəbbətlə oxumuşdu. Ancaq həmin mahnıların səsləndirilməsinin yeri, mətləbi, psixoloji yükü düzgün tapılmadığına görə musiqi atribut-obraza çevrilə bilmir, özü-özlüyündə məqsəd kimi tamaşadan ayrılırdı. Bunu tənqid də nəzərə çarpdırır (4).

Məmmədkamal Kazımov teatrın ədəbi hissə müdiri Qeybulla Rəsulovun «Günəşlə oyananlar» və aktyor İsmayıl Dağıstanlı rejissorluq etdiyi «Qayğıkeş insan» pyeslərinin məşqlərini yarımçıq saxlamalı oldular. Teatrda on ilə yaxın aktyorluq etmiş, Moskvada ali rejissor təhsili almış, Kazan və Sumqayıt teatrlarında maraqlı quruluşlar vermiş Ağakişi Kazımov ötən ilin noyabrın 25-dən müasir gürcü dramaturqu Nodar Dumbadzenin «Darıxma, ana!» qəhrəmanlıq komediyası üzərində başladığı işi yazın başlanğıcında sona çatdırdı. Beynəlxalq teatr günü olan 27 martda «Darıxma, ana!» tamaşasının premyerası göstərildi. Bu, 1960-cı ildən bəri Akademik teatrın səhnəsində oynanılan tərcümə pyeslərindən repertuarda ən çox duruş gətirən, böyük maraqla qarşılanan tamaşa oldu. Tamaşaya tərtibat vermək üçün Gürcüstanın Xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı Dmitri Tavadze dəvət olunmuşdu. Gəncə teatrı ilə əlaqə saxlayan görkəmli səhnəqrafın Akademik teatrda ilk və yeganə quruluşu «Darıxma, ana!» oldu.

«Darıxma, ana!» tamaşası SSRİ-nin yaranmasının 50 illiyinə həsr edilsə də, əsərin bədii dəyəri estetik göstəricilərin sənətkarlığı ilə ölçülürdü. İlk tamaşası mətbuatda ciddi əks-səda doğuran səhnə əsəri barədə dalbadal müsbət resenziyalar yazıldı. Əsərin özünün, rejissor və aktyor, rəssam işinin bədii məziyyətlərindən ürəkdolusu danışan tənqid tamaşanın lirizmini, təravətini, həyatsevərlik, vətənpərvərlik ruhunu, emosional təsirini, tərbiyəvi əhəmiyyətini xüsusi qiymətləndirirdi (bax: 5).

Ağakişi Kazımov romantik teatr məktəbinin elementləri ilə realist lirik-psixoloji teatr oyun üslubunun prinsiplərini birləşdirərək iki hissəli dinamik və cazibədar, şən və düşündürən, yumorlu və satiralı, lirik ovqatlı tamaşa yaratmağa nail olmuşdu. Rejissor kompozisiyaca poetik prinsipli, rəng-kolorit baxımından əlvan tamaşada aktyorlarla səmərəli işləyə bilmişdi. Tamaşada baş roldan tutmuş epizodik ifaçıya qədər hər aktyorun əməl-fəaliyyət xətti aydın, icrası bədii, təəssüratı təbii idi. Komizmin ölçüləri tamaşa boyu elə həssaslıqla paylanmışdı ki, mövzunun psixoloji kövrəkliyinin ahəngi öz tamlığını ən yumorlu epizodda belə həssaslıqla saxlaya bilirdi.

Aktyor ifası baxımından əsas ağırlıq gənc aktyor Fuad Poladovun üzərinə düşürdü. Yumor ölçüsünü həssaslıqla gözləyən aktyor lirik-psixoloji və lirik-dramatik səhnələrdə də Avtandilin şuxluğunu, yeniyetmə səmimiliyini unutmurdu. Rejissor hadisələrin mərkəzində Avtandil duran əsərdə rolları elə dəqiqliklə işləmişdi ki, Ətayə Əliyevanın Anası, İsidor Osmanlının İsmayıl Cakelisi, Möhsün Sənaninin Vano dayısı, Mirvari Novruzovanın Saşiko bibisi hər biri özlüyündə sanballı təsir bağışlayır sanki bütün tamaşada iştirak edirdilər. Yumorlu hadisələrdə Safurə İbrahimova Daduna, Eldəniz Zeynalov Anzor, Əminə Babayeva İzida, Rafiq Əzimov Sərhədpozan, Əliabbas Qədirov Givi, Hacı İsmayılov Kukuri, Hamlet Qurbanov Gela rollarında maraqla baxılırdılar. Dramatik epizodlarda da Məmmədrza Şeyxzamanovun (Çxartişvili), Ramiz Məlikovun (Şerbina), Fateh Fətullayevin (Mdinaradze), Hamlet Xanızadənin (Dzenaladze) oyunları ümumi sürət-ritmi həssaslıqla tənzimləyirdi.

Pyesi azərbaycancaya şair-dramaturq Adil Babayev çevirmişdi. Əsərin dilində axıcılıq, dialoqlarda aydınlıq, ən əsası, sözlərdə kolorit və səmimilik saxlanmışdı.

Teatr il ərzində bir milli klassik əsərə müraciət etdi. Tofiq Kazımov öz yaradıcılığında ilk dəfə Cəfər Cabbarlı dramaturgiyasına maraq göstərərək özünün mövzu-problematikasına uyğun gələn «Aydın» faciəsi üzərində dayandı. Akademik teatrın səhnəsində Abbasmirzə Şərifzadənin (1922), Aleksandr Tuqanovun (1924), Ədil İsgəndərovun (1940) quruluşlarında göstərilən bu faciədə Tofiq Kazımovu cəmiyyət və şəxsiyyət probleminin məhvərində fərdin psixoloji dəyişmələri maraqlandırırdı. Rejissorun belə səhnə təfsirində «sosial motivlər ön plana keçirdi. O, pyesdə Aydının kiçik ailəsinin deyil, «Aydınların» faciəsini, dumanlı arzu-xülyaların puçluğunu» (6) göstərməyə nail olmuşdu.

Rejissor Tofiq Kazımov rəssam Tahir Salahovla ikiqatlı məkan-tərtibat verməklə, ideyanın aparıcı məntiqinə xüsusi vurğu vururdular. İnsan ünsiyyətlərindəki həqiqi və riyakar münasibətlərin də ikiliyini rejissor tərtibatdan mizanlara və aktyor oyununa keçirirdi. Görkəmli bəstəkar Qara Qarayevin oğlu Fərəc Qarayevin ilk teatr işində də bu ikilik musiqi mövzusunun əsasında dururdu. Tərtibatın ikilik prinsipində rejissor surətlərin, əsasən, Aydın (Həsən Turabov), Gültəkin (Şəfiqə Məmmədova), Dövlət bəy (Əli Zeynalov), Surxay (Kamal Xudaverdiyev) obrazlarını müxtəlif məkanlarda, müxtəlif hadisələr qaynağında paralel izləməyə imkan açırdı. Bəzən bu üsulla rejissor məqsədə çatmasa da (məsələn, Aydınla Surxayın damda söhbət edəndə Gültəkinin evdə görünməsində aktrisanın «işsiz» qalması, Dövlət bəyin öldürülməsi... epizodları), əsasən, başlıca prinsipin teatral təsirini oyandırırdı.

Tofiq Kazımovun təfsirində və Həsən Turabovun ifasında Aydın sentimental, zavallı faciə qəhrəmanlığından uzaq idi. Onların Aydını idrak təkamülü keçirən, psixoloji təbəddülatlarının səbəbini dərk etməyə, mənəviyyatların üstündən əsən zamanın səmum yelini anlamağa çalışan fəci obraz-şəxsiyyət idi. Ona görə də Gültəkinlə kazinodakı görüşündə, zavod səhnələrində Turabov çılğın, «sərsəm» Aydını deyil, daxili əzabını fəryadında verməklə, təsəlli və başqa mübarizə yolu tapmayan dərdli, düşünən Aydını oynayırdı. Şəfiqə Məmmədovanın eyni ladla köklənmiş ifasının yüksək peşəkarlıqla icrası rejissor məram-məqsədilə üst-üstə düşürdü. Səməndər Rzayevin Balaxan, Kamil

Qubuşovun Novruz bəy, Nəcibə Məlikovanın Böyükxanım obrazlarının da ifasında əməl-fəaliyyət xətti bilavasitə Aydının ictimai-sosial və mənəvi-psixoloji faciəsinin müxtəlif qatlarda açılmasına imkan yaradırdı.

Uzun illər Gənc Tamaşaçılar Teatrında aktyor işləmiş Həsən Əbluc Tofiq Kazımovun rəhbəri olduğu rejissorluq qrupunun üçüncü kursuna daxil olmuşdu. 1972-ci ildə oranı bitirəndə diplom tamaşası kimi rumın dramaturqu Mixail Sebastianın (1883 – 1951) 1944-cü ildə yazdığı «Adsız ulduz» komediyasını Ənvər Məmmədxanlının tərcüməsində tamaşaya hazırladı.

«Adsız ulduz» tamaşası adi diplom tamaşası idi və heç bir rejissor cəsarəti, səhnə təfsiri, janr-üslub gözlənilməzliyi ilə diqqəti çəkmədi. Sofiya Bəsirzadənin (Madmazel Kuku), Eldəniz Zeynalovun (Vağzal naçalniki), Hamlet Xanızadənin (Qriq), Amaliya Pənahovanın (Naməlum qadın), Məcnun Hacıbəyovun (Pasku) rollarındakı baxımlı cəhətlər də sırf aktyorların öz zəhmətləri hesabına idi.

İli «Adsız ulduz» (3 dekabr) kimi adi tamaşa ilə başa vuran teatrda İlyas Əfəndiyevin «Qəribə oğlan» lirik komediyasının məşqləri gedirdi.

* * *

Təltif. Keçən il hazırlanıb göstərilmiş «Mahnı dağlarda qaldı» tamaşasının rejissoru Əliheydər Ələkbərov, dramaturq İlyas Əfəndiyev, ifaçı aktyorlardan Həsən Turabov (Nicat), Amaliya Pənahova (Şahnaz), Leyla Bədirbəyli (Fəxrəndə xanım), İsmayıl Dağıstanlı (Böyükbəy), rəssam Nüsrət Fətullayev aprel ayında Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görüldülər.

Truppada dəyişmə. İki il əvvəl institutu bitirmiş, Tədris teatrında işləmiş İlham Əhmədov (1 dekabr), İrəvan teatrının aktrisası Mərziyə Məmmədbəyli (16 fevral), təyinatla gəlmiş Zemfira Məmmədova (1 noyabr) truppaya daxil oldular.

Fevralın 1-də Həsən Məmmədov, iyunun 1-də isə Şahmar Ələkbərov «Azərbaycanfilm» kinostudiyasına ştata keçdilər.

Dramaturqlar. Nəbi Əkbər oğlu Xəzri Babayev (10.12.1924). Azərbaycanın şair və dramaturqu. Xalq şairi (1984), Respublika (1982) və SSRİ (1973) Dövlət mükafatları laureatıdır. «Sən yanmasan...»,

«Əks-səda», «Mirzə Şəfi Vazeh», «Torpağa sancılan qılınc», «Mənsiz dünya», «Kiçik təpə», «Mənim arxalandığım», «Gecə döyülən qapılar», «Burla xatun»... dramlarının müəllifidir.

Nodar Vladimiroviç Dumbadze (14.7.1928 – 1984). Gürcü nasir və dramaturqu. «Mən, nənəm, İliko və İllarion», «Mən günəşi görürəm», «Ağ bayraqlar»... kimi şöhrət tapmış povest və romanları var. Nəsr əsərləri əsasında «Darıxma, ana!», «Ağ bayraqlar» və sairə pyeslərini yazıb.

Mixail Sebastian (18.10.1907 – 29.5.1945). Rumın nasir və dramaturqu. Keçmiş SSRİ teatrlarında daha çox «Adsız ulduz», «Tətil oyunları», «Son sensasiya», «Aysız gecə»... pyesləri tamaşaya qoyulub.

Mənbələr

1. Cəlal Məmmədov «Sən yanmasan...». – «Kommunist», aprel 1972.

2. Ağakişi Kazımlı. «Saflıq mücəssəməsi». – «Azərbaycan gəncləri», 18 mart 1972.

3. Xalid Əlimirzəyev. «Yol ayrıcında». – «Kommunist», 20 yanvar 1973.

4. Qulu Xəlilov. «Yol ayrıcında». – «Ədəbiyyat və incəsənət», 2 dekabr 1972.

5. Cəlal Məmmədov. «Darıxma, ana!» – «Bakı», 12 aprel 1972; Tofiq Mütəllimov, «Sənin anan darıxmaz...» – «Azərbaycan gəncləri», 20 aprel 1972; Seyfəddin Dağlı. «Darıxma, ana!» – «Kommunist», 23 aprel 1972; Novruz Gəncəli. «Bu tamaşanı görmüsünüzmü?». – «Azərbaycan müəllimi», 1 may 1972; Cabir Səfərov, «Həyat gənclikdən başlayır» – «Ədəbiyyat və incəsənət», 20 may 1972; Вета Надирова. «Не беспокойся, мама». – «Баку», 10 апреля 1972. К. Катибли. «Первая встреча, первые радости». – «Молодежь Азербайджана», 22 апреля 1972. Р.Райева. «С улыбкой – о серьезном и высоком». – «Бакинский рабочий», 4 июля, 1972.

6. Эльчин. Трагедия «Айдынов» – «Бакинский рабочий», 21 июня 1972.

1973-cü il

17 fevral. «Nağıl başlananda», İmran Qasımov.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Elçin Aslanov, bəstəkar Aqşin Əlizadə.

Rollarda: Həsən Turabov (Valid), Şəfiqə Məmmədova (Tahirə), Məlik Dadaşov (Qurban Əsədoviç).

8 aprel. «Qəribə oğlan», İlyas Əfəndiyev.

3 pərdəli lirik komediya.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Nüsrət Fətullayev, bəstəkar Emin Sabitoğlu, rəqslərin quruluşçusu Nailə Mahmudova, rejissor assistenti Azər Əhmədzadə. Mahnıların mətni şair Fikrət Qocanındır.

Rollarda: Fuad Poladov (Valeh), Amaliya Pənahova (Kəmalə), Əliağa Ağayev (Dadaş), Nəcibə Məlikova (Məlahət), Lütfi Məmmədbəyov* və Kamal Xudaverdiyev (Otar), Ramiz Məlikov (Batı), Səməndər Rzayev (Muratov), Məmmədrza Şeyxzamanov (Barsuq), Eldəniz Zeynalov (Ümid).

* *Qeyd.* Lütfi Məmmədbəyov məşq elədi, ancaq tamaşada Otar rolunu oynamadı.

19 may. «Müdriklər» («Müdrik olan hər kəsə kifayətdir sadəlik»), Aleksandr Ostrovski. Tərcümə edəni Mirzə İbrahimov.

3 pərdəli komediya.

Quruluşçu rejissor Əşrəf Quliyev, tərtibat rəssamı Tahir Tahirov, geyim rəssamı Vaqif Mustafayev.

Rollarda: Səməndər Rzayev və Əliabbas Qədirov (Qlumov), Sofiya Bəsirzadə (Qlumova), Ağasadıq Gəraybəyli (Mamayev), Leyla Bədirbəyli və Zərnigar Ağakişiyeva (Mamayeva), İsmayıl Osmanlı (Krutitski), Fateh Fətullayev (Qorodulin), Hamlet Xanızadə (Kurçayev), Sadıq Hüseynov (Qolutvin), Mirvari Novruzova (Turusina), Svetlana Vahidova (Maşenka), Hökümə Qasımova (Manefa), Ələsgər Məmmədoğlu* (Qriqori), Nəcəf Həsənzadə (Mamayevin nökəri), Əlvida Cəfərov (Krutitskinin nökəri), Səadət Zülfüqarova və Sona Mirzəyeva (Birinci qulluqçu), Əminə Babayeva (İkinci qulluqçu), Əminə

Yusifqızı və Rəhilə Mirzəyeva (Olqa Petrovna Rıjova), Mərziyə Məmmədbəyli və Zemfira Məmmədova (Şura).

* *Qeyd.* Proqramlarda «Ələsgər Məmmədov», «Əsgər Məmmədov», «Əsgər Məmmədoğlu», «Ələsgər Məmmədoğlu» kimi də yazılır. Əslində, pasportda soyadı yoxdur, adı Əsgərdir.

30 iyun. «Sevgi... sevgi...», Emil Braginski və Eldar Ryazanov. Tərcümə edəni Seyfəddin Dağlı.

2 hissəli, 10 şəkilli komediya.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rejissor Cahangir Mehdiyev, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Sabir Əliyev.

Rollarda: Nəcibə Məlikova və Mirvari Novruzova (Kalugina Lüdmila Prokofyevna), Lütfi Məmmədbəyov və Sadıq İbrahimov (Samoxvalov Yuri Qriqoryeviç), Vəfa Fətullayeva (Veroçka), Əliağa Ağayev (Novoseltsev Anatoli Yefremoviç), Əminə Yusifqızı və Rəhilə Mirzəyeva (Olqa Petrovna Rıjova), Mərziyə Məmmədbəyli və Zemfira Məmmədova (Şura).

17 noyabr. «Məkr və məhəbbət», Fridrix Şiller. Tərcümə edəni Nigar Rəfibəyli.

3 pərdəli, 9 şəkilli faciə.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, rejissor assistenti Hafiz Fətullayev.

Rollarda: İsmayıl Dağıstanlı (Prezident), Fuad Poladov (Ferdinand), Eldəniz Zeynalov (Hofmarşal), Şəfiqə Məmmədova (Ledi Milford), Hamlet Xanızadə (Vurm), Sadıq Hüseynov (Miller), Əminə Nağıyeva və Ətayə Əliyeva (Millerin arvadı), Amaliya Pənahova (Luiza), Zemfira Məmmədova və Əminə Babayeva (Sofi), Məcid Şamxalov (Qoca kamerdiner), Mustafa Süleymanov (Birinci kamerdiner), İlham Əhmədov* (İkinci kamerdiner), Ələsgər Məmmədoğlu (Xidmətçi).

* *Qeyd.* İlham Əhmədov sonralar «İlham Namiq Kamal» imzası ilə çıxış etdi.

23 dekabr. «Şöhrət və ya unudulan adam», Nazim Hikmət. Tərcümə edəni İslam İbrahimov.

3 pərdəli, 6 şəkilli dram.

Quruluşçu rejissor Həsənağa Salayev, rəssam Kamal Şıxəliyev, bəstəkar Həsən Rzayev, rejissor assistenti Azər Əhmədzadə.

Rollarda: İsmayıl Dağıstanlı, Həsənağa Salayev və Hamlet Xanızadə (Doktor), Safurə İbrahimova və Zərnigar Ağakişiyeva (Qadın), Vəfa Fətullayeva və Sevil Xəlilova (Qız), Sadıq İbrahimov və Hamlet Qurbanov (Assistent), Sadıq Hüseynov və Rafiq Əzimov (Lakey), Şövkət Rzayeva və Mərziyə Məmmədbəyli (Ana), Rəşad Salayev* (Uşaq), Əliabbas Qədirov və İlham Əhmədov (Fotoqraf), Hafiz Fətullayev və Əlvida Cəfərov (İdmançı), Sadıq Saleh və Muxtar Avşarov (Bərbər), Ağahüseyn Cavadov və Məmməd Sadıqov (Qoca), Svetlana Vahidova (Sarışın qız), Hacı İsmayılov və Aqşin Vəlixanov (Kişi), Kamil Qubuşov və Məcnun Hacıbəyov (Həbsxana rəisi), Ələsgər Məmmədoğlu (Gözətçi), Elxan Ağahüseynoğlu və Vətən Kərimov (Qatil).

* *Qeyd.* Uşaq rolunu oynayan bu məktəbli aktyor Həsənağa Salayevin oğludur.

* * *

Bu il teatrın yüz yaşı tamam oldu. Ancaq hələ keçən ilin axırlarından hökumət dairəsində uzun müzakirələrdən sonra qərara alındı ki, milli səhnə sənətimizin təşəkkülünün birəsrlik yubileyi 1974-cü ildə keçiriləcək. Bu gecikmənin bir səbəbi də yuxarıların teatrın baş rejissoru Tofiq Kazımova qarşı ədalətsiz mövqe tutmaları ilə bağlıydı. Həmin dövrdə Mədəniyyət Nazirliyi Akademik teatrın baş rejissorunu işdən götürməyə bəhanə axtarırdı. Təbii ki, həmin münasibət teatrın yaradıcılıq iqliminə mənfi təsir göstərir, baş rejissorun əlini işdən soyudur və bütövlükdə repertuar kompleks proqramının icrası unudulurdu.

Vəziyyətin belə mürəkkəb vaxtında «Azərbaycan» jurnalında İmran Qasımovun rusca yazdığı «Nağıl başlananda» pyesinin Azərbaycan türkcəsində tərcüməsi çap olundu. Müxtəlif münaqişəli münasibətlərin məhvərinə düşən Tofiq Kazımov «Nağıl başlananda» pyesinin məşqlərinə başladı və on beş günə tamaşanı təhvil verdi. Vaxtın azlığına baxmayaraq, rəssamı Elçin Aslanov və bəstəkarı Aqşin Əlizadə olan «Nağıl başlananda» tamaşası küll halında maraqlı alınmışdı. Üç iştirakçısı olan, janrca realist lirik-psixoloji üslubda hazırlanan tamaşada rolları Həsən Turabov (Valid), Şəfiqə Məmmədova (Tahirə) və Məlik Dadaşov (Qurban Əsədoviç) ifa edirdilər.

«Tamaşanın dinamikası elədir ki, biz iştirakçılardan bir an da olsun, ayrılmırıq» (1), «tamaşada Tofiq Kazımovun zərif və zərgər əli hiss olunur» (2) fikirlərinin özəyində tamaşanın müasirlik ruhu dururdu. Bədii cəhətdən dram janrının bütün tələblərinə tam cavab verə bilməyən, konflikti mahiyyətcə qurama olan, iştirakçıların görüşü (xüsusən Tahirə ilə Validin ilk dəfə rastlaşdıqları səhnə) bir növ zorla «təşkil edilən» pyesdəki nöqsanları nisbətən ört-basdır məqsədilə Tofiq Kazımov pauza və emosional ovqatlı hərəkətlərə əsaslanan tamaşa yaratmağa çalışmışdı.

Həsən Turabovla Şəfiqə Məmmədova hərəkət mizanlarını plastik yüngüllüklə, emosional zərifliklə, epizodun dramatik xarakterindən doğan psixoloji ovqatla, bəzən dramatik, bəzən lirik, bəzən də lirik-romantik çalarlarla icra edirdilər. «İstedadlı aktrisa öz qəhrəmanının keçirdiyi ruhi sarsıntıları... məhəbbətin dəyişdirici, kamilləşdirici qüvvəsini bədii bir taktla, səmimi bir oyunla göstərə bilir» (73), lirik-psixoloji çalarlardan ən dramatik anlarda da həssaslıqla istifadə edən Həsən Turabov Valid obrazını «həssasqəlbli, düşünən-duyan, eyni zamanda vəzifəsinin məsuliyyətini dərk edən» (74) vicdanlı, ləyaqətli şəxs kimi göstərirdi. Onlara nisbətən təcrübəli aktyor Məlik Dadaşov sərt və dramatik boyalara üstünlük verirdi və bu üstünlük Qurbanın dramatik inkişaf xətti, obrazın fərdi həyat amalı uğrundakı mübarizəsinin ahənginə uyuşurdu.

Ancaq münaqişənin gərgin nöqtələrində Tahirə – Valid münasibətlərində işdən uzaq olan söhbətlərdəki lirik oyun ritminə «qoşulmaq» istəyəndə Məlik Dadaşov həm obrazın düzgün təfsirindən uzaqlaşırdı, həm də yalançı təbəssümlərində qeyri-səmimi görünürdü.

Tərtibatlarında yığcamlığa və obrazlı ifadə-detallar yaratmağa çalışan Elçin Aslanov «Nağıl başlananda» tamaşasında «Popart» estetikasının etiket janrı ifadə vasitələrinə üstünlük verməklə, sadə şərtiliyə mürəkkəb ağırlıq gətirmişdi. Onun tərtibat-dekorlarının səhnədə yerləşdirilməsində ölçülər dəqiqliklə gözlənilmiş, Tofiq Kazımovun verdiyi çalın-çarpaz mizanların sərbəst və poetik, ifadəli və çevik, mənalı və dəqiq təcəssümü üçün aktyorlara geniş imkan yaradılmışdı. Bununla belə, tərtibat tamaşanın atribut-obrazı kimi mənalana bilmir,

ümumi kompozisiyada təcrid halında görünür, aktyor oyunundan, rejissor məqsədindən «kənarda baxılan iş» təsiri bağışlayırdı.

Aqşin Əlizadənin işlənmə tərzinə görə klassik janrlardan bəhrələnən musiqisi psixoloji təsir gücü, hadisələrin ovqatına uyğun ritm ahəngi ilə Tofiq Kazımovun ruhuna, tamaşanın konseptual mövzu həllinə daha uyğun səslənirdi.

Tamaşaya hazırlamaq üçün əsər seçmək rejissorların öz öhdəsinə buraxılmışdı. Hətta istedadlı aktyor Həsənağa Salayev də rejissorluq iddiasına düşdü. O, həmçinin Əşrəf Quliyev, Ələsgər Şərifov və Məmmədkamal Kazımov dördü də tərcümə pyesi üzərində dayandılar. Dəvət olunmuş Ağakişi Kazımov isə İlyas Əfəndiyevin yeni əsəri, dramaturqun ilk komediyası olan «Qəribə oğlan»ın məşqlərinə başladı.

Ənənə etibarilə komediya oynamağı xoşlayan Akademik teatr lirik-psixoloji komediya janrına birinci dəfə müraciət edirdi. Düzdür, rejissorun iki il əvvəl quruluş verdiyi «Darıxma, ana!» (Nodar Dumbadze) tamaşasında da lirik, komik çalarlar vardı. Ancaq həmin səhnə əsərinin təfsiri qəhrəmanlıq komediyası janrının poetika prinsiplərindən şirələnmişdi.

Quruluşçu rejissorun janr təyini açıq idi və bütün tamaşa boyu mizanlarda, lirik mahnı və musiqi parçalarında (Emin Sabitoğlu), aktyor oyunlarında emosional dəqiqliklə, zərif incəliklə öz ifadəsini tapırdı. Nüsrət Fətullayevin tərtibatının rəng koloritlərində lirizm çalarları gözoxşayan idi, amma komediya obrazlarının ruhuna uyğun aktyor plastikasına, çevik və şux hərəkətlərə maneçilik törədirdi. Buna görə səhnə önündəki (avanssenadakı) mizanlarda aktyorlar daha sərbəst idilər, rejissor fikri daha koloritli və səmimi görünürdü. Musiqililik, şairanəlik, sənətin imkan və şərtiliklərindən ölçü dairəsində istifadə etmək və bunların hamısını uyuşdurub vahid ideyanın açılmasına doğru yönəltmək «yaradıcı kollektivin böyük müvəffəqiyyəti» (5) sayılan tamaşanı tənqid, həm də «... ansamblın yaradılması quruluşçu rejissor Ağakişi Kazımovun nailiyyətidir» (6) fikri ilə xüsusi vurğulayırdı.

Komediya janrında səriştəli Əliağa Ağayevin Dadaş və Eldəniz Zeynalovun Ümid rollarında oyunları cazibədar olsa da, gözlənilməz deyildi. Səməndər Rzayevin (Muratov), Məmmədrza Şeyxzamanovun (Barsuq), Nəcibə Məlikovanın, (Məlahət), Kamal Xudaverdiyevin

(Otar), Amaliya Pənahovanın (Kəmalə), Fuad Poladovun (Valeh) ifaları isə amplua baxımından bir qədər təəccüb doğursa da, nəticə baxımından sevindirici, koloritli, cazibədar, təsiredici və məlahətli alınmışdı.

«Qəribə oğlan» tamaşasında müzikldən istifadə edən rejissor rəqs nömrələrinə səxavətlə yer ayırmışdı. Aktyorların rəqs epizodlarının kompozisiyasını Ağakişi Kazımov rəqqasə Nailə Mahmudova ilə həssaslıqla işləmişdi. Musiqi ritmini dəqiq duyan aktyorlar onun icrasında da ahəngdar, çevik, ritmik və eyni zamanda baməzə, şirin, duzlu görünürdülər.

Ümumi lirik ovqatla uyarlı təsir bağışlasa da, satirik Barsuq obrazının finala doğru real inkişafında ölçü nisbətən pozulurdu, aktyorun ifasında deyil, obrazın bədii təqdimatında tarazlıq itirdi. «Dadaşın sanki islah olunması, Məlahətin də, Barsuqun da, Ümidin də adi adamlar kimi görünməsi əsərin və tamaşanın lirik xəttinə də bir o qədər uyğun deyildir.

Dadaş, özünün dediyi kimi, «düzlük həsrəti» çəkir. Ola bilər, bəlkə də, onun qəlbinin hansı bir guşəsində isə bu həsrət var, lakin baş qaldıra bilmir. Dramaturq isə məsələnin bu cəhətini açа bilməmişdir. Tamaşada da bu cəhət çox zəif səsləndiyinə görə Dadaşın «islah» olуna biləcəyinə tamaşaçıda inam yarana bilmir (7), janrın başlıca tələbindən uzaqlaşma, reallıqdan uzaqlaşma təsiri oyadırdı.

Tamaşa haqqında resenziya yazan müəlliflər Ramiz Məlikovun Batı, Eldəniz Zeynalovun Ümid rollarına da haqlı iradlar tuturdular. Yumorlu epizodlar qaynağında yöndaşları ilə müqayisədə «quru» görünən Ramiz Məlikova tövsiyə olunurdu ki, «...Batının psixoloji anlarını, Kəmalənin təhsili ilə əlaqədar olan həqiqəti gizlətmə və onu etirafetmə səhnələrini daha aydın boyalarla ifadə etmək üçün axtarışlarını davam etdirməlidir» (8).

İlk tamaşadan üç gün əvvəl «Qəribə oğlan»a teatrda ictimai baxış olmuşdu. Baxışdan sonra tanınmış yazıçıların, ədəbiyyatşünasların, teatrşünasların və teatr ictimaiyyətinin iştirakı ilə geniş şəkildə müzakirə keçirildi. Fikirlər haçalanan həmin müzakirədə bir qisim natiqlər bu tamaşanın janr və mövzuca Akademik teatrın üslubuna uyğun gəlmədiyini söylədilər. Ancaq təcrübə göstərdi ki, teatrın çağdaş dövrün tələblərinə uyğun cəsarətli janr axtarışları aparması lazımdır. Bu isti-

qamətdə aparılan eksperimentlərdə, ilk öncə, sənətin başlıca estetik tələb və meyarları həssaslıqla gözlənilməlidir.

Aleksandr Ostrovskinin əsərlərini 1935-ci ildən üzübəri tamaşaya qoymaqda müəyyən təcrübə toplamış, «Günahsız müqəssirlər», «Tufan», «Cehizsiz qız» kimi sanballı tamaşalar yaratmış teatr, ilk dəfə dramaturqun «Müdriklər» («Müdrik olan hər kəsə kifayətdir sadəlik») komediyasına müraciət etdi.

Əsəri Mirzə İbrahimovun tərcüməsində tamaşaya Əşrəf Quliyev hazırladı, tərtibatı isə rəssam Tahir Tahirov verdi.

Əşrəf Quliyev sanballı ifaçı ansamblı seçmişdi. Əsas rollar təcrübəli sənətkarlardan Ağasadıq Gəraybəyliyə (Mamayev), İsmayıl Osmanlıya (Krutitski), Sofiya Bəsirzadəyə (Qlumova), Fateh Fətullayevə (Qorodulin), Mirvari Novruzovaya (Turusina), istedadlarını sübut etmiş Səməndər Rzayevə və Əliabbas Qədirova (Qlumov), Hamlet Xanızadəyə (Kurçayev) tapşırılmışdı. Lakin «Müdriklər» tamaşası uğursuz alındı, teatrın son bir neçə ildəki ən nöqsanlı işlərindən oldu.

Uğursuzluğun əsas kökündə pyesin səhnə yozumunda rejissorun fikrən Ostrovski dramaturgiyasından uzaq düşməsi dururdu. İctimai-sosial problemlərdən şirələnən Ostrovski yumorunu Əşrəf Quliyev məişət mövzulu fars səviyyəsinə endirməklə gülüşün vacib hədəfindən uzaqlaşmışdı. Bu da, öz növbəsində, personajların daxili tutumunun təhrifinə səbəb olmuşdu.

Qüsurlu «Müdriklər» tamaşasından sonra teatr daha bir rus əsəri repertuarına daxil etdi. Bu dəfə Emil Braginski və Eldar Ryazanovun müasir mövzulu, mənəvi-əxlaqi problemləri konfliktin mərkəzinə çəkən «Sevgi... sevgi...» komediyası oynanıldı. Seyfəddin Dağlının tərcümə etdiyi əsəri tamaşaya Məmmədkamal Kazımov hazırlamışdı.

Mahiyyətcə lirik-məişət komediyası olan «Sevgi... sevgi...» komediyası əsasında az sonra «Mosfilm» kinostudiyasında pyesin müəlliflərindən biri, dramaturq və rejissor Eldar Ryazanov «Həmişə təmizlikdə» məşhur filmini çəkdi. Film vəziyyət komediyasını lentə alan, müasirlərinin mənəvi-əxlaqi və sosial-məişət problemlərini mənalı yumorla təsvir edən, ifaçıları dəqiqliklə seçilmiş, aktyorları böyük məharət və şövqlə, ustalıqla oynayan kövrək, zərif, saf duyumlu, satirik çalarlı sənət əsəri kimi dəyərliydi.

Akademik teatrın tamaşasında mövzunun lirik və yumorlu kövrəkliyi itmişdi. Aktyorlar dramaturji mətndən kənara çıxır, vəziyyət komediyasında məişət mövzusunu deyil, məişət mövzusunu məişət intriqalarında axtarmaqla, dramaturqların xeyirxah mətləblərini ucuzlaşdırırdılar. Komediyanın baş rolu Lüdmila Prokofyevnanın bədii təsvir vasitələri, onun ifası üçün tələb olunan daxili aktyor imkanları ilə rolu oynayan Mirvari Novruzovanın üslub tərzi arasında təzad vardı. Vəfa Fətullayeva (Veroçka), Sadıq İbrahimov (Samoxvalov), Əminə Yusifqızı və Rəhilə Mirzəyeva (Olqa Petrovna) da oyun tərzlərinin təcəssümünə görə daxilən obrazların dramaturji təsvirindən uzaq idilər. Aktyorların qüsurlu oyunlarını «Sevgi... sevgi...» tamaşasını təqdir mövqeyində duran resenziya müəllifi etiraf etməkdən yan keçə bilmirdi (bax: 9).

Rejissorun rol bölgüsündə açıq-aşkar yanlış mövqe tutması təəccüb doğururdu. İnstitutda bir kursda oxumuş, həmyaşıd Novoseltsovu 60 yaşlı Əliağa Ağayevin, Olqanı 36 yaşlı Əminə Yusifqızının, Samoxvalovu 27 yaşlı Sadıq İbrahimovun oynamaları, sözsüz ki, ən barışqan tamaşaçını da razı sala bilməzdi. Belə görkəm fərqləri mövzunun mayasındakı vacib səmimi hisləri, tərbiyəvi, əxlaqi dəyərləri lazımi səviyyədə canlandırmağa ciddi mane olurdu.

Tamaşaya qoyulan əsərlərdə teatrın fundamental mövzu problematikasının aydın olmaması Şillerin «Məkr və məhəbbət» faciəsinin tamaşasında da hiss edilirdi. Ələsgər Şərifovun rejissor konsepsiyası tamaşanın ümumi səhnə təfsirində, janr prinsipində, xarakterlərin mövqe və mübarizə toqquşmasında hiss olunmurdu. Şiller faciənin adında kod kimi verdiyi iki kəlmədə özünün əsərdə izlədiyi fəlsəfi fikrin estetik dəyərini mənalandırıb. Mövzunun səhnə realizəsində isə bu, bədii real həllini tapmamışdı.

«Məkr və məhəbbət» tamaşasında uğurlu cəhətlər, ilk növbədə, Hamlet Xanızadənin (Vurm), Fuad Poladovun (Ferdinand), Eldəniz Zeynalovun (Hofmarşal), Ətayə Əliyevanın (Millerin arvadı) realist faciə janrı prinsiplərini oyunlarına şamil edə bilmək bacarıqlarında görünürdü.

Xüsusilə Şəfiqə Məmmədovanın ilhamla yaratdığı Ledi Milford xalis Şiller obrazı idi, təbii, real, cazibədar alınmışdı. Aktrisa rolunun

«... ən incə və ziddiyyətli xüsusiyyətlərini də ustalıqla əks etdirə bilir (10). Ledi Milford – Sofi (Əminə Babayeva), Ledi Milford – Luiza (Amaliya Pənahova) səhnələrində «səmimi və inandırıcıdır... dərin sarsıntılar, daxili etiraflar bu səhnələrdə öz parlaq və təbii ifadəsini tapır» (11). Bütün mürəkkəb səhnələrdə, ən kəskin dramatik-psixoloji dəyişmələrdə Şəfiqə Məmmədova Ledinin mənəviyyatındakı eybəcərliyi və insani duyğuları paralel göstərə bilirdi. Onun düşünülmüş, mənalı, Şiller fəlsəfəsindən doğan oyununda Milford «şəxsiyyət olaraq parçalanmır, güclü, bütöv bir xarakter kimi yaradılır» (12), tamaşanın mənaca ən müəmmalı, təqdimcə ən dinamik, ifaca ən plastik obrazı kimi canlanırdı.

Nazim Hikmətin «Şöhrət və ya unudulan adam» dramını 1960-cı ildə oynamış teatr on üç il sonra yenə həmin əsərə müraciət etdi. Nəsir Sadıqzadənin birinci quruluşunda Doktor rolunu oynayan Həsənağa Salayev bu dəfə rejissor kimi qüvvəsini sınadı. O həm də İsmayıl Dağıstanlı ilə birgə yenə Doktor rolunu ifa etdi.

«Məkr və məhəbbət» faciəsinin quruluşunda dramaturqun bədii məntiqinin təcəssümündə buraxılan səhvləri azacıq fərqli şəkildə Həsənağa Salayev də təkrarladı. Nazim Hikmətin insanpərvərlikdən rişələnən fəlsəfi həyat və bəşəri xeyirxah əməllər, rəzalət və insani duyğular, alçaqlıq və ləyaqət... fikirləri səhnə ekvivalentini tapa bilmədi. Daha doğrusu, quruluşçu rejissor onların realist-psixoloji təcəssümünə müdaxilə etməmiş, dramatik təsvirinin cizgilərini qabartmaqla kifayətlənmişdi. Tamaşada yaddaqalan aktyor oyunu da yox idi.

Tərtibat (rəssam Kamal Şıxəliyev) primitiv, musiqi (bəstəkar Həsən Rzayev) mövzuya, onun psixoloji dönüşlərinə rəvac verməkdə gücsüz təsir bağışlayırdı.

Akademik Milli Dram Teatrı hələlik yubileyi keçirilməyən, ancaq rəsmən tamama yetən 100 yaşını orta səviyyəli «Nağıl başlananda» tamaşasının premyerası ilə qarşılayıb (17 fevral), «Şöhrət və ya unudulan adam» dramının primitiv səhnə taleyi ilə yola saldı...

* * *

Yubiley. Aprel ayının 29-da Xalq artisti Əliağa Ağayevin anadan olmasının 60, səhnə fəaliyyətinin 35 illik yubileyi keçirildi... Nasir-

dramaturq Seyfəddin Dağlı yubilyar haqqında məruzə etdi. Sabit Rəhmanın «Toy» (6-cı şəkil), «Yalan» (4-cü şəkil), Şıxəli Qurbanovun «Əcəb işə düşdük» (4-cü şəkil), İlyas Əfəndiyevin «Qəribə oğlan» (4-cü şəkil) komediyalarından parçalarda, Salam Qədirzadənin «Vəsiyyət» satirik səhnəciyində Əliağa Ağayev Kərəmov, Aslan, Abış Surxayeviç, Dadaş Rəhimoviç və Əbdül rollarını ifa etdi.

İnzibati dəyişmə. Xəstə olduğuna görə Əliheydər Ələkbərov ərizə verib teatrın direktorluğundan çıxdı və quruluşçu rejissor ştatına keçdi. Əli İsmayılov fevralın 23-də onun yerinə Akademik Milli Dram Teatrına direktor təyin olundu.

Mənbələr

1. Yusif Əzimzadə. «İnsanın tərənnümü». – «Kommunist», 28 mart 1973.

2. Джалал Мамедов. «Нравственное преображение». – «Бакинский рабочий», 1 марта 1973.

3. B.Adil. «Müasir insanlara məhəbbətlə». – «Bakı», 16 mart 1973.

4. Yenə orada.

5. Qulu Xəlilov. «Qəribə oğlan». – «Ədəbiyyat və incəsənət», 5 may 1973.

6. Yəhya Seyidov. «Mənəvi birliyin qüdrəti». – «Bakı», 16 may, 1973.

7. Əkbər Ağayev. «Qəribə oğlan». – «Kommunist», 17 may 1973.

8. Mahmud Allahverdiyev. «Qəribə oğlan». – «Azərbaycan gəncləri», 22 may 1973.

9. Solmaz Kərimova. «Sevgi... sevgi...». – «Bakı», 15 noyabr 1973.

10. Cəlal Məmmədov. «Məhəbbətin ülviliyi, məhəbbətin rəzilliyi». – «Bakı», 12 dekabr 1973.

11. M.Arif. «Məkr və məhəbbət». – «Ədəbiyyat və incəsənət», 29 dekabr 1973.

12. Mirzə İbrahimov. «İşıqlı fikirlər, güclü ehtiraslar». – «Kommunist», 21 fevral 1974.

YÜZ YAŞIN SEVİNCİ

1974-cü il

1 mart. «İnsan», Səməd Vurğun.

2 hissəli, 12 şəkilli faciə.

Quruluşçu rejissor Mehdi Məmmədov, rejissor Ədalət Ziyadxanov, tərtibat rəssamı Elçin Məmmədov, geyim rəssamı Solmaz Haqverdiyeva, rəqslərin quruluşçusu Nailə Nəzirova, tamaşada Dmitri Şostakoviçin əsərlərindən parçalar səslənir. «Hicran» simfoniyasına aid parçaları bəstəkar Adil Bəbirov yazmışdır.

Rollarda: Hökümə Qurbanova (Səhər, bəstəkar), Mehdi Məmmədov və Həsən Turabov (Şahbaz, filosof, onun əri), Həsən Turabov və Mehdi Məmmədov (Kiçik Şahbaz, onların oğlu), Həsənağa Salayev* və Kamal Xudaverdiyev (İslam, zabit), Bürcəli Əsgərov (Cəlal, şair), Səməndər Rzayev (Valentin, memar), Safurə İbrahimova, Şükufə Yusupova** (Tatyana, onun qızı), Məhluqə Sadıqova və Ətayə Əliyeva (Mariya, Valentinin anası), Şəfiqə Məmmədova və Mərziyə Məmmədbəyli (Nataşa, Valentinin arvadı), Vəfa Fətullayeva (Dildar, həkim), Məcnun Hacıbəyov (Eldar), Rafiq Əzimov və Ramiz Məlikov (Güloğlan), İsmayıl Osmanlı (Fon Hols, general), Fateh Fətullayev (Hans, polkovnik), Hamlet Qurbanov və Elxan Ağahüseynoğlu (Albert, faşist təbliğat naziri), Sofiya Bəsirzadə (Amaliya, Fon Holsun arvadı), Elxan Ağahüseynoğlu (Şmit, mayor), Hacı İsmayılov, Sadıq İbrahimov, Şahin Cəbrayılov, Əlvida Cəfərov, İlham Əhmədov və Hafiz Fətullayev (Alman zabitləri), Abbas Rzayev və Hacıməmməd Qafqazlı (Hindli), Muxtar Avşarov, Azərbaycan SSR Əməkdar artisti (Alman oğlu), Əliabbas Qədirov və İlham Əhmədov (Ərəb), Əminə Yusifqızı (Yunan qızı).

**Qeyd.* Həsənağa Salayev məşq etdi, ancaq tamaşada İslam rolunu oynamadı.

*** Qeyd.* Aktrisa Şükufə xanımın soyadı bəzi proqramlarda səhvən «Yusifova» yazılıb.

3 may. «Fırtına», Uilyam Şekspir. Tərcümə edəni Anar.

2 hissəli pyes.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssamlar İ.Lemeşev və Oleq İbrahimov, bəstəkar Fərəc Qarayev, rejissor assistenti İsrafil İsrafilov.

Rollarda: Məmmədrza Şeyxzamanov (Kral Alonso), Ramiz Məlikov (Sebastian), Hamlet Xanızadə (Antonio), Məlik Dadaşov (Prospero), Hamlet Qurbanov (Ferdinand), Sadıq Hüseynov (Qonzalo), İlham Əhmədov (Adrian), Hacı İsmayılov (Fransisko), Səməndər Rzayev (Kaliban), Əliağa Ağayev (Stefano), Məmməd Sadıqov (Trinkulo), Hafiz Fətullayev (Kapitan), Məcnun Hacıbəyov (Bosman), Şəfiqə Məmmədova (Ariel), Elmira Haşımzadə (Miranda).

26 oktyabr. «Yatmış gözəl və yeddi qardaş», Aleksandr Puşkin. Tərcümə edəni Ramiz Heydər (T.Sulimin pyesi üzrə).

3 pərdəli, 10 şəkilli nağıl-pyes.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, tərtibat rəssamı Fuad Xəlilov, geyim rəssamı P.Yeqorkin, bəstəkar Oqtay Kazımov.

Rollarda: Muxtar Avşarov və Sadıq Saleh (Çar), Sofiya Bəsirzadə və Rəhilə Mirzəyeva (Çar arvadı), Sevil Xəlilova (Çar qızı), Hacıməmməd Qafqazlı və Məmməd Sadıqov (Çar müşavirləri), Mirvari Novruzova və Hökümə Qasımova (Qaraca), Kamil Qubuşov və Kamal Xudaverdiyev (Kral), Sadıq İbrahimov (Kral oğlu), Abbas Rzayev (Kral müşaviri), Mustafa Süleymanov (Birinci qardaş), Elxan Ağahüseynoğlu (İkinci qardaş), Aqşin Vəlixanov və Elxan Quliyev (Üçüncü qardaş), Vətən Kərimov (Dördüncü qardaş), Şahin Cəbrayılov (Beşinci qardaş), Əlvida Cəfərov (Altıncı qardaş), Pərviz Bağırov (Yeddinci qardaş), Mərziyə Məmmədbəyli (Güzgü).

6 dekabr. «Knyaz», Hüseyn Cavid.

2 hissəli dram.

Quruluşçu rejissor Əli Zeynalov, rəssam Kamil Nəcəfzadə, musiqi tərtibatçısı German Krupkinin.

Rollarda: Səməndər Rzayev (Knyaz), Safurə İbrahimova (Jasmen), Elmira Haşımzadə (Lena), Fateh Fətullayev (Solomon), Ramiz Məlikov (Anton), Məhluqə Sadıqova və Şövkət Rzayeva (Marqo), Hamlet Xanızadə (Şakro), İlham Əhmədov (Kinto), Hacı İsmayılov (Fəhlə), Pərviz Bağırov (Birinci işçi), Ələsgər Məmmədov (İkinci işçi), Şahin Cəbrayılov (Kəndli), Əlvida Cəfərov (Xəfiyyə), Nəcəf Həsənzadə (Keşiş), Səadət Zülfüqarova (Qonaq).

28 dekabr. «Övlad», Aleksandr Vampilov. Tərcümə edəni Tofiq Kazımov*.

2 hissəli komediya.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssamlar İsgəndər İsmayılov və Kamal Şıxəliyev, rejissor assistenti İsrafil İsrafilov.

Rollarda: Ramiz Məlikov (Busıgin), Yaşar Nuriyev (Silva), Məmmədrza Şeyxzamanov (Sarafanov), Pərviz Bağırov (Vasenka), Məhbubə Məlikova (Nina), Hamlet Qurbanov (Kudimov), Zərnigar Ağakişiyeva (Makarskaya), Mərziyə Məmmədbəyli (Birinci qız), Əminə Babayeva (İkinci qız), Nadir Əsgərov** (Qonşu).

* *Qeyd.* Pyesi Tofiq Kazımov tərcümə etmişdi, ancaq proqramda adının yazılmasına icazə verməmişdi.

** *Qeyd.* Nadir Əsgərov premyeraya bir neçə gün qalmış roldan çıxarıldı və ilk tamaşada Qonşu rolunu Aqşin Vəlixanov oynadı. Tamaşanın proqramı əvvəlcədən çap olunduğuna görə orada Nadir Əsgərovun adı yazılıb.

* * *

Akademik Milli Dram Teatrının 100 illik yubileyinə həsr olunan tamaşalardan biri Səməd Vurğunun «İnsan» əsəri idi. Hələ premyeraya bir ay qalmış, fevral ayının 2-də «Ədəbiyyat və incəsənət» qəzetinə verdiyi müsahibəsində tamaşanın quruluşçu rejissoru Mehdi Məmmədov deyirdi: «İlk quruluş təşəbbüsü (1946-cı il quruluşu. – *İ.R.*) həqiqətən çətinliklərə rast gəlmişdir. Bunun bir sıra səbəbləri vardı. Əsər, kollektivlə iş prosesində səhnəyə kifayət qədər uyğunlaşdırılmadı. Biz bu cəhətləri nəzərə alıb, müəllifin fikrinə, əsərin üslubuna, bədii formasına xələl gətirmədən, bəzi zəruri dəyişikliklər, ixtisarlar, habelə Səməd Vurğunun öz poeziyasından pyesə əlavələr etmişik».

«İnsan» tamaşası rejissorun əvvəldən vəd etdiyi dəyişiklik, ixtisar və əlavələrlə oynanıldı. Mehdi Məmmədovun fəlsəfi-romantik, mənzum faciə janrında hazırladığı «İnsan» tamaşasının əsas göstəriciləri monumentallığın sənət ölçülərinə uyğun gəlmirdi. Pyesdən götürdüyü «Qalib gələcəkmi cahanda kamal» misrasını tamaşanın əsas ideyasına, ali məqsədinə çevirən rejissor romantik-psixoloji səhnələri poetik ruhda qurmuşdu və əksər aktyorlar da ifa baxımından həmin

«Övlad», Aleksandr Vampilov. Soldan: Silva – Yaşar Nuriyev, Vasenka – Pərviz Bağırov və Busıgin – Ramiz Məlikov. 1974-cü il

«Knyaz», Hüseyn Cavid. Knyaz – Səməndər Rzayev, Kinto – İlham Əhmədov (Namiq Kamal) və Şatro – Hamlet Xanızadə. 1974-cü il

prinsipi həssaslıqla gözləyirdilər. Ancaq rejissor tamaşanın fəlsəfi dəyərini hadisələrin bəşəri ruhunda, zaman gərdişində deyil, ancaq Şahbazın fərdi düşüncələrində axtardığı epizodlar tənqidçi Yaşar Qarayevin fikrincə: «... şairanə və romantik ruhun təsdiqi xeyrinə səslənə bilmir, fəlsəfi təkbətəkdə, ideya döyüşündə üstünlüyünü elə bir yeni lirik boya, psixoloji çalarla qüvvətləndirmir» (1).

Tənqid «İnsan» tamaşasını təqdir mövqeyində dururdu (bax: 2), buna müəyyən əsas da vardı. Ancaq tamaşada aydın nəzərə çarpan ciddi qüsurlara tənqidin göz yumması, bəzi rol bölgüsündəki səhvlər, bir qisim aktyor ifasının ansambldan ayrılıb fərdiçiliyə yuvarlanması, kiçik Şahbazın gənc aktyora tapşırılması mümkün olduğu halda, 56 yaşlı Mehdi Məmmədovun özünün bu rolu oynaması barədə peşəkar səviyyədə, səhnə sənəti prinsipləri ilə təhlildən yan keçmələri təəccüb doğururdu.

Pyesin özündən gələn dramaturji qüsurların hamısı rejissor redaktəsində islah olunmamış və bu, tamaşaya uzunçuluq, hadisələrin təqdiminə yoruculuq gətirmişdi. Bəkir Nəbiyev «Kamalın təntənəsi» resenziyasında yazırdı: «Tamaşada dialoqlar bəzən o qədər adiləşdirilir ki, onların, nəinki poeziyası, ümumiyyətlə, ahəngdarlığı pozulur». Artist Bürcəli Əsgərovun (Şair Cəlal) oxuduğu şeir parçalarında bu qüsur özünü daha bariz şəkildə göstərir». Həmin qüsurlara yol vermələri Vəfa Fətullayevanın (Dildar), Məhluqə Sadıqovanın (Mariya), İsmayıl Osmanlının (Fon Hols), Abbas Rzayevin (Hindli) oyunlarına da xələl gətirdi» (3).

Şahbaz rolunu Mehdi Məmmədov və Həsən Turabov ifa edirdilər. Dramatik epizodlarda Mehdi Məmmədov bir qədər ləng görünürdü. Onun müqabilində Turabov canlı, dinamik obraz təqdim edir, Şahbazın psixoloji münasibətlərini daha real canlandırırdı.

«Canlı meyit» və «Xəyyam» tamaşalarına verdiyi quruluşlarla müqayisədə Mehdi Məmmədovun «İnsan»dakı işi zəif alınmışdı.

Elçin Məmmədovun tamaşaya verdiyi tərtibatda da nəzərə çarpan orijinallıq, obrazlı bədii həll yox idi.

Dahi ingilis dramaturqu Uilyam Şekspirin ən az oynanılan, hətta çox az oxucuya məlum olan əsəri «Fırtına» pyesidir. «Fırtına» 1611-ci ildə yazılıb və Uilyam Şekspirin son dramıdır. Dramaturq əvvəllər ro-

mantik janrda «Perikl» və «Tsimbelin» pyeslərini yazmışdı. «Fırtına» janr baxımından ədibin üçüncü və son töhfəsidir.

Pyesin kompozisiya qurumunda, hadisələrin təsvir və inkişafında, ideyanın məğzində təcəssüm tapan romantizm fantastik və rəmzi ifadə vasitələrindən şirələnib. Tərcüməçi Anar və quruluşçu rejissor Tofiq Kazımov «Fırtına» tamaşasının mətnində, mətnin səhnə təfsirində, təfsirin aktyor oyunlarındakı icrasında utopik romantikaya əsaslanmaqla, fantastik ruhu və simvolizm (rəmz) estetikasının göstəricilərini, başlıca prinsiplərini ustalıqla saxlamışdılar. Belə bir rejissor təfsirində baş və yardımçı obrazlar yox idilər. Səhnədəki personajlar xeyir və şər təmsilçilərinə bölünmüşdülər. Personajların monoloqları, dialoqları hər dəfə yeni vəziyyəti əks etdirən ayrı-ayrı fərdin dünyagörüşünü, əməl-fəaliyyət xəttini, xarakterini açmaq deyil, ümumi konsepsiyanın estetik təmsilçisi funksiyasını daşıyırdı.

Ən dramatik, ən simvolik, ən fantastik-fəlsəfi, «mücərrəd» səhnələrdə də Prospero (Məlik Dadaşov), Sebastian (Ramiz Məlikov), Ferdinand (Hamlet Qurbanov), Kaliban (Səməndər Rzayev), Kral Alonso (Məmmədrza Şeyxzamanov), Ariel (Şəfiqə Məmmədova), Stefano (Əliağa Ağayev), Trinkulo (Məmməd Sadıqov), Qonzalo (Sadıq Hüseynov), Adrian (İlham Əhmədov) obrazları sözlə biri-birinin «içinə keçir», eyni duyğunun müxtəlif variasiyalarını göstərməklə, məfkurə-ideyaca biri-birini tamamlayırdılar. Səhnədə fikir aparıcısı, ideya yükünün daşıyıcısı bütövlükdə ansambl idi. Elə ansambl ki, onun dəqiq və düzgün səhnə icrası hadisələrin mahiyyətindəki bütün mənfiliklərdə və eybəcərliklərdə tamaşanın humanizm ideyasını saxlayırdı.

«Antonio və Kleopatra», «Hamlet» tamaşalarından sonra üçüncü dəfə «Fırtına» ilə Uilyam Şekspir yaradıcılığına müraciət edən Tofiq Kazımov «bu əsərdə hər şeyə qalib gələn insan zəkasının, insan qüdrətinin əzəmətini, pisliklərə, eybəcərliklərə, şər qüvvələrə qarşı mübarizə qabiliyyətini, ən ağır vəziyyətlərdə belə ruhdan düşməyib səbrlə əsas məqsədə doğru irəliləmək bacarığı görmüşdür» (4). Rejissor «Fırtına» sözünün özünü insan psixologiyasının rəmzi kimi götürmüşdü. Təbiət hadisəsi fırtına ikinci planda mənəviyyatların fırtınası kimi yozulmuşdu.

Tənqidin «Prospero tamaşada mənəvi hakim rolunu oynayır» (5) fikri, əslində, Tofiq Kazımovun rejissor axtarışlarının ali məqsədi idi. Məqsədin daşıyıcısı isə Məlik Dadaşovun əlvan palitralı oyunu idi. Aktyorun təqdimatında Prospero həm göy adamıdır, həm xeyirxahlığı həyatına çıraq edən dahidir, həm əlçatmaz ilahi qüvvədir, həm də həyat fırtınasında sıxılan, əzilən, qayalara çırpılan adi insandır. Məlik Dadaşov öz oyununda sakit, müdriklik ədalarını çevik və ekssentrik hərəkətlərlə həm birləşdirir, həm də yeri gələndə, hərəsindən obrazın bir xüsusiyyətini açmaq üçün istifadə edirdi.

Şəfiqə Məmmədovanın oyununda coşqunluq, ehtiras, daxili qüvvət, təravət və həyat eşqi vardı. Müştərək səhnələri çox olan və finalda adada Ariellə qalan Kalibanın ifaçısı Səməndər Rzayev isə hərəkətlərdə «xəsislik» edərək, əsasən, sifət ifadələri ilə oynayırdı. Obrazın əbləhliyini açıqlayan küt, laqeyd, mənasız baxışlarını Kalibanın daxili psixoloji durumu ilə məharətlə əlaqələndirirdi.

Mədəniyyət Nazirliyinin təsdiqlədiyi plana görə, Akademik teatr uşaqlar üçün Aleksandr Puşkinin «Yatmış gözəl və yeddi qardaş» (səhnələşdirəni T.Suliman, tərcümə edəni Ramiz Heydər) nağılını tamaşaya hazırladı. Tamaşanın quruluşçu rejissoru Məmmədkamal Kazımov teatrın yaşlı nəsil aktyorları Muxtar Avşarov və Sadıq Saleh (Çar), Sofiya Bəsirzadə (Çar arvadı), Kamil Qubuşov (Kral), Hacıməmməd Qafqazlı və Məmməd Sadıqov (Çar müşavirləri), Mirvari Novruzova və Hökümə Qasımova (Qaraca) ilə yanaşı, aktyorluq fakültəsini yenicə bitirmiş Sevil Xəlilovaya (Çar qızı), Elxan Quliyevə (Üçüncü qardaş), Pərviz Bağırova (Yeddinci qardaş), Şahin Cəbrayılova (Beşinci qardaş) da məsul rollar tapşırmışdı.

Quruluşçu rejissor «Yatmış gözəl və yeddi qardaş»ı nağıl-tamaşa janrında həll etmişdi. İfaçılardan Sofiya xanım, Mirvari xanım, Sadıq İbrahimov (Yenisey, kral oğlu), Sevil Xəlilova janrın poetika prinsiplərini gözləmək üçün qüvvələrini səfərbər etdikləri halda, Muxtar Avşarov, Kamil Qubuşov, Mustafa Süleymanov (Birinci qardaş) səhnə çığırtıları, yersiz sərt hərəkətlərdən kobud şəkildə istifadəyə çalışmaları ilə tamaşaya ağırlıq gətirir, ümumi oyun üslubunu pozurdular (bax: 6).

Rejissor xeyir və şərin rəmzi kimi səhnədə Günəş və Bayquş rəsm-dekordan istifadə etməklə, uşaqların hadisələri tez və düzgün

qavramaları məqsədinə əsaslanmışdı. Səhnədə şər qüvvələrin təmsilçiləri fəallaşanda Bayquşun gözləri yanır, xeyir qələbə çalanda Günəş nurlanırdı. Fikir maraqlıydı, məqsədyönlüydü, ancaq onun texniki icrası tamaşaya primitivlik gətirirdi.

Kralın oğlu Yeniseyin küləklə qarşılaşdığı, saray adamlarının Çar qızını gecə axtardıqları, çar qızının, başqa sözlə, yatmış gözəlin büllur tabutda göründüyü səhnələr bədii-texniki icra cəhətdən səliqəsiz alınmışdı. Yenisey – Külək mübarizə epizodunun forma həlli tapılmadığı, səhnədəki detalların (büllur, ağa və sairə) vəziyyətə kömək etməməsi ifaçını fiziki ağırlığa salırdı. Həmin səhnədə Sadıq İbrahimov taqətdən düşür, nağılvari əfsanəlik itir, janr pozulurdu.

Yeniseyin Küləklə, Ayla söhbətləri, çar arvadının tamaşaçıların gözü önündə bir andaca qarı cildinə girməsi, çar qızı və yeddi qardaş səhnələrində nağıl janrının estetik ifadə vasitələri lazımınca mənalandırılmamışdı. Həmin epizodlarda Oqtay Kazımovun bəstələdiyi musiqi parçaları, Fuad Xəlilovun bədii tərtibatı isə nağıl dünyasına yaxınlığı ilə rejissor məqsədinə xidmətə yönəlirdi. Musiqinin nağılvari cazibədarlığı şəkillər arası boşluqları müəyyən dərəcədə doldururdu.

Tamaşada rejissorun hadisələrin əfsanəvi şirinliyini, nağılvari romantikliyini təfərrüatı ilə verməyə çalışdığı səhnələrdə tamaşanın ali məqsədi olan amalın estetik təəssüratı parçalanırdı.

Janrın estetik tələb və prinsiplərinin pozulması teatrın «Knyaz» tamaşasında daha kobud tərzdə görünürdü. Təkcə görünmürdü, tamaşanın az-çox bütün dəyərli cəhətlərini də kölgələmişdi.

Hüseyn Cavidin Akademik teatrda müxtəlif illərdə bir neçə quruluşda oynanmış «Knyaz» faciəsini tamaşaya aktyor Əli Zeynalov hazırlamışdı. İstedadlı aktyorun rejissorluqda səriştəsizliyi teatrın növbəti işini uğursuzluğa apardı. Əli Zeynalov pyes üzərində işləyərkən Hüseyn Cavidin fəlsəfəsinin poetik hüsnünü, onun romantizminin mahiyyətini, dramaturji fəndini mənimsəyə bilməmişdi. Ali məqsəd mücərrəd qalmışdı, aparıcı ideya görünmürdü, aktyor ansamblında vahid üslub yox idi. German Krupkinin seçdiyi musiqi parçaları uyarsız görünürdü, heç bir psixoloji vəziyyətin təsir gücünün artırılmasına təkan verə bilmirdi.

Fateh Fətullayev (Solomon), Elmira Haşımzadə (Lena), Məhluqə Sadıqova və Şövkət Rzayeva (Marqo), həmçinin epizodik rol ifaçıları «Cavid teatrı» estetikasının tələblərinə cavab verə bilmirdilər. Rejissor və aktyorların romantizm, məişət melodraması, dram janrı elementlərini qatıb-qarışdırmaları acınacaqlı vəziyyət yaratmışdı. İstedadına, səs tembrinə, texniki vasitələrdən məharətlə bəhrələnə bilməsinə arxalanan Səməndər Rzayev rejissordan düzgün məntiqi istiqamət olmadığına, səhnədə əməl-fəaliyyət xəttini dəqiqləşdirmədiyinə görə onun oynadığı Knyaz rolu «Poetik teatr» obrazı səviyyəsinə yaxın gələ bilmədi.

«Knyaz» tamaşası elə premyeradan sönük qarşılandı və repertuarda da çox az qaldı.

1974-cü ilin son tamaşası dekabrın 28-də Tofiq Kazımovun quruluşunda göstərilən Aleksandr Vampilovun «Övlad» («Böyük oğul») əsəri oldu. Pyesi Tofiq Kazımov özü tərcümə etmişdi, ancaq proqramda adını yazdırmamışdı. Satirik komediya janrında, melodramatik çalarlarla hazırlanan tamaşa yığcamlığı, dinamik ritmi, tərbiyəvi əhəmiyyəti ilə uzun müddət repertuarda yaşadı və maraqla qarşılandı.

Görkəmli sənətkar Yaşar Nuriyevin bu teatrda debütü «Övlad» tamaşasında oldu. O, Silva rolunu məharətlə ifa etdi. Tamaşada, həmçinin teatrın ştatına bu il götürülmüş Məhbubə Məlikova (Nina), Pərviz Bağırov (Vasenka), Zərnigar Ağakişiyeva (Makarskaya) oynayırdılar. «Övlad» tamaşası rejissorun səriştəli işi və Məmmədrza Şeyxzamanovla (Sarafanov), Hamlet Qurbanovla (Kudimov), Ramiz Məlikovla (Busıgin) yanaşı, Yaşar Nuriyevin (Silva) mənalı oyunları ilə tənqidin yüksək qiymətini aldı (7).

* * *

Yubiley. Keçən il təxirə salınan teatrın 100 illik yubileyinin təntənəli iclası 1974-cü il may ayının 31-də Lenin sarayında (indiki Respublika sarayı) saat 15.00 da başlandı. Yığıncağı giriş sözü ilə yubiley komitəsinin sədri, Azərbaycan SSR Ali Sovetinin sədri Qurban Xəlilov açdı. «Çoxmillətli sovet incəsənətinin bayramı» adlı məruzə ilə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev məruzə etdi. Sonra müxtəlif respublikalardan gəlmiş qonaqlar təbriklər söylədilər. Həmin gün qəzetlər belə bir məlumat dərc etdilər.

SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN FƏRMANI

Sovet teatr sənətinin inkişafında böyük xidmətlərinə görə Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrı Lenin ordeni ilə təltif edilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
N.Podqorni
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi
M.Georqadze

Moskva, Kreml. 30 may 1974-cü il.

Yubileyin rəsmi bölməsindən sonra bədii hissə keçirildi. Bədii hissə «Koroğlu» operasının Uverturası ilə açıldı.

Pyotr Çaykovskinin 4-cü simfoniyası, Qara Qarayevin «Zamanın bayraqdarı» əsərləri səsləndirildi. Rəşid Behbudovun rəhbərliyi ilə Mahnı teatrı çıxış etdi. Akademik Milli Dram Teatrı özü, Gəncə, Xankəndi, Naxçıvan Dövlət teatrları, Opera və Balet Teatrı, Gənc Tamaşaçılar Teatrı, Səməd Vurğun adına ADRDT-ı, Musiqili Komediya Teatrı, Azərbaycan Dövlət İncəsənət İnstitutu, Filarmoniya teatrlaşdırılmış proqramlarla yubileydə təbrik sözü söylədilər.

Yubiley qastrolu. Akademik teatr 27 iyundan 10 iyuladək 100 illik yubileylə əlaqədar Moskvada qastrol səfərində oldu. Kollektiv SSRİ Malı teatrın binasında Səməd Vurğunun «İnsan» (27 iyun və 4 iyul), İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» (28 iyun və 7 iyul), Nikolay Poqodinin «Zamanın hökmü» (29 iyun və 10 iyul), Fridrix Şillerin «Məkr və məhəbbət» (30 iyun və 5 iyul), Nəbi Xəzrinin «Sən yanmasan...» (1 və 6 iyul), Uilyam Şekspirin «Fırtına» (2 və 9 iyul), Cəlil Məmmədquluzadənin «Ölülər» (3 və 8 iyul) tamaşalarını oynadı.

Fəxri adlar. Teatrın 100 illik yubileyi ilə əlaqədar kollektivin böyük bir qismi fəxri adlara layiq görüldülər.

SSRİ Xalq artisti: İsmayıl Yusif oğlu Dağıstanlı (11 iyul 1974-cü il), İsmayıl Osman oğlu Osmanlı (1 avqust 1974-cü il) və Mehdi Əsədulla oğlu Məmmədov (7 avqust 1974-cü il).

1974-cü il iyun ayının 1-də aşağıdakılara Respublikanın fəxri adları verildi.

Azərbaycan SSR Xalq artisti: Məlik Yusif oğlu Dadaşov, Sofiya Vəsir qızı Bəsirzadə (Vəzirova), Məmmədrza İsa oğlu Şeyxzamanov, Nəcibə Haşım qızı Məlikova, Tofiq Səməd-Mənsur oğlu Kazımov.

Azərbaycan SSR Əməkdar incəsənət xadimi: Əşrəf Hacıağa oğlu Quliyev.

Azərbaycan SSR Əməkdar artisti: Şəfiqə Haşım qızı Məmmədova, Eldəniz Məmməd oğlu Zeynalov, Safurə Ağabala qızı İbrahimova, Səməndər Məsim oğlu Rzayev, Sadıq Ömər oğlu Hüseynov, Amaliya Əliş qızı Pənahova, Lütfi Şahbaz oğlu Məmmədbəyov.

Təltif. Fuad Ağarəhim oğlu Poladov Respublika Lenin komsomolu mükafatı ilə təltif edildi...

Truppada dəyişmə. Respublikanın Əməkdar artisti Sadıq Hüseynov (30 sentyabr) və Əminə Yusifqızı (8 oktyabr) «Azərbaycanfilm» kinostudiyasına aktyor keçdilər. Zemfira Məmmədova və Svetlana Vahidova hər ikisi 29 avqustda ərizə yazıb işdən çıxdılar.

Qısa müddət ərzində gənc aktyorlar Zərnigar Ağakişiyeva (2 sentyabr), Elxan Quliyev (16 sentyabr), Sevil Xəlilova (16 sentyabr), Məhbubə Məlikova (1 oktyabr) Şahin Cəbrayılov (6 oktyabr), Pərviz Bağırov (1 noyabr), Yaşar Nuriyev (1 dekabr) Tofiq Kazımovun dəvəti ilə teatra qəbul edildilər. Əsgər Məmmədoğlu fevralın 1-də, Sumqayıt teatrının aktrisası Elmira Haşımzadə isə mayın 1-də işə götürüldülər.

Əcəl aldı... Əməkdar artist, Respublika Dövlət mükafatı laureatı, uzun illər Akademik Milli Dram Teatrının rejissoru və sonralar direktoru olmuş Əliheydər Əbdülrəhim oğlu Ələkbərov (26 iyun 1915 – 14 mart 1974) vəfat etdi. Müəyyən dövrdə Musiqili Komediya Teatrında da işləmiş Əliheydər Ələkbərov 1943-cü ildən bəri Akademik teatrda Süleyman Saninin «Eşq və intiqam», Zeynal Xəlilin «Qatır Məmməd», Cəfər Cabbarlının «Solğun çiçəklər», «Almaz», Süleyman Rüstəmin «Qaçaq Nəbi», Adil Babayevin «Dağlar qızı», İslam Səfərlinin «Göz həkimi», Aleksandr Ostrovskinin «Günahsız müqəssirlər», Cabbar Məcnunbəyovun «İldırım»... 1971-ci ildə isə son dəfə İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» pyeslərini tamaşaya hazırlayıb.

Dramaturq. Aleksandr Valentinoviç Vampilov (1937 – 1972). Rus dramaturqu. «İyunda vidalaşma», «Pəncərəsi zəmiyə açılan ev»,

«Böyük oğul» (AMDT-da «Övlad» adı ilə tamaşaya hazırlanıb), «Ördək ovu», «Ötən yay Çulimskidə», «Əyalət lətifələri», «Mələklə iyirmi dəqiqə», «Metranpajla tarixçə», «Hadisələrin axını»... dramlarının müəllifidir.

Mənbələr

1. Yaşar Qarayev. «İnsan sınaqdan çıxır». – «Ədəbiyyat və incəsənət», 6 aprel 1974.

2. Nurəddin Babayev. «İnsan düşünür və düşündürür». – «Azərbaycan gəncləri», 19 mart 1974; Джалал Мамедов. «Гимн человеку». – «Баку», 21 марта, 1974; Мамед Ариф. «Второе рожение». – «Бакинский рабочий», 20 марта 1974; А.Солодовников. «В городе братства». – «Литературная газета», 10 июня 1974.

3. Bəkir Nəbiyev. «Kamalın təntənəsi». – «Kommunist, 20 mart 1974.

4. İnqilab. «Uilyam Şekspirlə yeni görüş». – «Bakı», 17 may 1974.

5. Kəmalə Cəfərzadə, Məryəm Əlizadə. «Fırtınadan sonrakı harmoniya». – «Ədəbiyyat və incəsənət», 22 iyun 1974.

6. Etibar Babayev. «Həqiqətin səsi». – «Bakı», 5 dekabr 1974; Novruz Təhməzov. «Gözəllik haqqında». – «Ədəbiyyat və incəsənət». – 25 yanvar 1975.

7. Ağakişi Kazımov. «Təmiz duyğular sorağında» – «Kommunist», 28 may 1975; А.Бабинская. «Соблазны комедии». – «Бакинский рабочий», 27 февраля 1975; Г.Щербина. «Направление поиска». – «Правда», 2 марта 1976.

1975-ci il

14 fevral. «Əks-səda», Nəbi Xəzri.

2 hissəli dram.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Nüsrət Fətullayev, bəstəkar Arif Məlikov, rejissor assistenti Oruc Qurbanov.

Rollarda: Bürcəli Əsgərov (Qaynar), Nəcibə Məlikova və Ətayə Əliyeva (Zərifə), Əliabbas Qədirov (Məğrur), Vəfa Fətullayeva və

Elmira Haşımzadə (Xəyalə), Fateh Fətullayev (Şahmar), Leyla Bədirbəyli (Səmirə), Safurə İbrahimova və Sevil Xəlilova (Çinarə), Rafiq Əzimov və Hacı İsmayılov (Tufan), Ələsgər Məmmədoğlu və Şahin Cəbrayılov (Zəfər), İlham Əhmədov (Səfər), Pərviz Bağırov və Elxan Quliyev (Səftər), Mərziyə Məmmədbəyli (Simuzər), Əlvida Cəfərov və Vətən Kərimov (fəhlələr).

22 mart. «Meşşanlar», Maksim Qorki. Tərcümə edəni Mehdi Məmmədov.

2 hissəli dram.

Quruluşçu rejissor Mehdi Məmmədov, rejissor Məmmədkamal Kazımov, rəssam Elçin Məmmədov, musiqi tərtibatçısı Pərviz Cəfərov.

Rollarda: Səməndər Rzayev (Bessemenov Vasili Vasilyeviç), Sofiya Bəsirzadə və Ətayə Əliyeva (Akulina İvanovna), Hamlet Qurbanov və Elxan Ağahüseynoğlu (Pyotr), Zərnigar Ağakişiyeva və Amaliya Pənahova (Tatyana), Həsən Turabov (Nil), İsmayıl Osmanlı (Perçixin), Əminə Babayeva, Elmira Haşımzadə və Şükufə Yusupova (Polya), Şəfiqə Məmmədova (Yelena Nikolayevna), Şövkət Rzayeva (Svetayeva), Sadıq İbrahimov və Rafiq Əzimov (Şişkin), Məmmədrza Şeyxzamanov və Mehdi Məmmədov (Teterov Terenti), Əminə Nağıyeva və Hökümə Qasımova (Stepanida), Aqşin Vəlixanov və Nadir Əsgərov (Doktor), Səadət Zülfüqarova (Küçədən keçən qadın).

15 noyabr. «Vaqif», Səməd Vurğun. Bərpa.

3 pərdəli, 11 şəkilli mənzum dram.

Quruluşçu rejissor Ədil İsgəndərov, rejissor Məmmədkamal Kazımov, tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı İsmayıl Axundov, bəstəkar Səid Rüstəmov.

Rollarda: İsmayıl Dağıstanlı və Səməndər Rzayev (Vaqif), Nəcibə Məlikova və Zərnigar Ağakişiyeva (Xuraman), Ramiz Məlik və Sadıq İbrahimov (Əli bəy), Sevil Xəlilova və Zabilə Sadıqova (Gülnar), Əminə Nağıyeva və Rəhilə Mirzəyeva (Əminə xala), İsmayıl Osmanlı, Rafiq Əzimov və Mustafa Süleymanov (Vidadi), Ətayə Əliyeva və Şövkət Rzayeva (Tükəzban), Kamil Qubuşov (İbrahim xan), Abbas Rzayev və Ələsgər Məmmədoğlu (Şeyx Alı), İlham Əhmədov və Yaşar Nuriyev (Təlxək), Məmmədrza Şeyxzamanov (Qacar), Rafiq

Əzimov və Hacıməmməd Qafqazlı (Vəzir), Elxan Ağahüseynoğlu (Zülfüqar), Məhbubə Məlikova və Mərziyə Məmmədbəyli (Tamara), Hacı İsmayılov və Fuad Poladov (Şaliko), Pərviz Bağırov (Şalikonun qardaşı), Kamal Xudaverdiyev və Bürcəli Əsgərov (Eldar), Hafiz Fətullayev (Arşak), Əliabbas Qədirov və Məcnun Hacıbəyov (Kürd Musa), Muxtar Avşarov və Sadıq Saleh (Qoca), Məhluqə Sadıqova və Mirvari Novruzova (Yengə), Aqşin Vəlixanov (İlyas), Vaqif Bədəlov (Əhməd kişi), Məmməd Sadıqov (Qurban kişi), Şahin Cəbrayılov (Sərkərdə), Ələsgər Məmmədoğlu (Teymur), Əlvida Cəfərov (Əsgər), Pərviz Bağırov və Sadıq Saleh (Birinci elçi), Rafiq İbrahimov (İkinci elçi), Hökümə Qasımova və Səadət Zülfüqarova (Qarı), Vətən Kərimov (Qaçaq), Məcnun Hacıbəyov (Xanəndə).

7 iyun. «Xanuma», Avqsenti (Kisen) Saqareli. Tərcümə edəni Tələt Əyyubov.

2 hissəli komediya.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssamlar Nüsrət Fətullayev və Solmaz Haqverdiyeva, bəstəkar Tofiq Quliyev, rejissor assistenti Hafiz Fətullayev.

Rollarda: Hökümə Qurbanova (Xanuma), Məhluqə Sadıqova (Kabato), Ağasadıq Gəraybəyli (Knyaz Vano Pantiaşvili), Ramiz Məlikov (Kote), Mirvari Novruzova (Tekle), Məmməd Sadıqov (Timote), Əliağa Ağayev (Mikiç Kotryans), Safurə İbrahimova (Sona), Eldəniz Zeynalov (Akop), Rəhilə Mirzəyeva (Anuş), Muxtar Avşarov (Qoca), Məcnun Hacıbəyov (Birinci knyaz), Abbas Rzayev (İkinci knyaz), Ələsgər Məmmədoğlu (Üçüncü knyaz), Hacı İsmayılov (Meyvəçi), Mustafa Süleymanov (Qəssab), Şahin Cəbrayılov (Birinci şərabçı), Elxan Ağahüseynoğlu (İkinci şərabçı), Pərviz Bağırov (Susatan), Ələsgər Məmmədoğlu (Qatıqsatan), Əlvida Cəfərov (Polis).

1 oktyabr. «Bağlardan gələn səs», İlyas Əfəndiyev.

3 pərdəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu.

Rollarda: Səməndər Rzayev (Vahid), Şəfiqə Məmmədova (Gülcan), Kamal Xudaverdiyev (Kamandar), Elmira Haşımzadə (Fərəh), Məcnun Hacıbəyov (Şirin dayı), Yaşar Nuriyev (Pərviz), Əminə

«Xanuma», Avqsenti Saqareli. Xanuma – Hökümə Qurbanova və Akop – Eldəniz Zeynalov. 1975-ci il



«Əks-səda», Nəbi Xəzri. Tamaşadan səhnə. 1975-ci il

Babayeva (Çiçək), Lütfi Məmmədbəyov (Hətəm), İlham Əhmədov (Qubad).

30 dekabr. «Kreml saatı», Nikolay Poqodin. Tərcümə edəni Ələsgər Şərifov.

2 pərdəli, 8 şəkilli dram.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, rejissor assistenti – Hafiz Fətullayev.

Rollarda: İsmayıl Dağıstanlı (Vladimir İliç Lenin), Hamlet Qurbanov (Feliks Edmundoviç Dzerjinski), Kamal Xudaverdiyev (Rıbakov), Məlik Dadaşov və Səməndər Rzayev (Zabelin), Zərnigar Ağakişiyeva (Zabelina), Safurə İbrahimova (Maşa), Mirvari Novruzova (Şal toxuyan qadın), Şövkət Rzayeva (Qorxaq qadın), Aqşin Vəlixanov (Skeptik), Kamil Qubuşov (Optimist), Hamlet Xanızadə (Qlaqolyev), Məmmədrza Şeyxzamanov (Saatsaz), Fateh Fətullayev (İngilis yazıçısı), Sofiya Bəsirzadə (Dilənçi), Abbas Rzayev (Balıqçı), Məmməd Sadıqov (Suxojilov), Hökümə Qasımova (Kuklasatan), Mustafa Süleymanov (Qızıl əsgər), Mərziyə Məmmədbəyli (Praskovya), Məcnun Hacıbəyov (Ruhani), Hafiz Fətullayev (Yarmasatan), Elxan Ağahüseynoğlu (Çəkməli adam), Səadət Zülfüqarova (Krujevasatan), Ələsgər Məmmədoğlu (Sədr), Hacı İsmayılov (Katib), Əlvida Cəfərov (Yoldan ötən), Şahin Cəbrayılov (Proyna), İradə Rzayeva (Makinaçı).

* * *

Yüzillik yubileydən sonra teatrda sanki bir boşluq yarandı. Kollektiv mənzil başına çatmış karvan kimi dincini alırdı. Yerli mətbuatın tərif yazmasına baxmayaraq, teatrın Moskvaya apardığı tamaşalar, əslində, obyektiv seçilməmişdi. Moskva tənqidçiləri teatrın 1959-cu il dekadası ilə 1974-cü il qastrollarında göstərilən tamaşalarda üslub rəngarəngliyini, müasir ifadə vasitələrini, milli dramaturgiyanın təşəkkülünü, parlaq aktyor ifalarını... çox zəif gördüklərini təəssüflə söyləyirdilər. Acınacaqlı və təəssüf doğurucu olsa da, bu, həqiqət idi.

1975-ci ildə teatr beş yeni tamaşa hazırladı. Ancaq bunların da hər biri kollektivin həm rejissor, həm də aktyor heyətinin potensial imkanlarından aşağı idi. Teatr Nəbi Xəzrinin «Əks-səda» və Nikolay Poqodinin «Kreml saatı» (tərcüməçi Ələsgər Şərifov) pyeslərində

mövzunun «aktuallığına» güvənmişdi. Həm tarixi keçmişin, həm də müasir həyatımızın zəhmət adamlarının məişət və mənəviyyatlarından bəhs edən pyeslərdə yüksək sənət dili ilə söylənə biləcək problemlər zəif işlənmişdi.

Azərbaycan səhnəsində Leniniana mərhələsinin banisi və davamçısı sayılan rejissor Ələsgər Şərifov özünün ənənəvi mövzusunu «Kreml saatı» tamaşasında davam etdirdi. Bədii cəhətdən boz rəngli rejissor təfsiri və ifadə vasitələri ilə işlənmiş tamaşada səmimiyyət, estetik təəssürat çatışmırdı.

Nəbi Xəzrinin «Sən yanmasan...»dan sonra ikinci dram əsəri olan «Əks-səda»nın quruluşçu rejissoru Əşrəf Quliyev, rəssamı Nüsrət Fətullayev, bəstəkarı isə Arif Məlikov idi. Romantik təmayüllü lirik-psixoloji üslubda yazılmış pyesdəki hadisələrin romantik təsvirində janrın prinsipləri pozulurdu, quru, sxematik pafos, qondarma dialoqlar üstünlük təşkil edirdi. Dramaturq obrazların xarakterini onların adlarının daşıdığı mənada verməklə, personajları açıq bölgülərə ayırmışdı və bu, psixologizmə bir qədər xələl gətirirdi.

Əşrəf Quliyev rejissor təfsirində belə bölgüyə vurğunu bir qədər də qatılaşdırmaqla dramaturqun xeyirxah qayəsinə istəmədən xələl gətirmişdi. Nəbi Xəzrinin həyatın müxtəlif mürəkkəb qatlarına yön alan realizmi rejissor həllində quru didaktika kimi səslənirdi. «Tüfeylilər» dəstəsinin surətlərini yaradan gənc aktyorlardan – Ələsgər Məmmədoğluna, İlham Əhmədova, Pərviz Bağırova, Elxan Qurbanova və Mərziyə Məmmədbəyliyə nə dramaturji material, nə də rejissor yeni yaradıcılıq səyi üçün heç bir meydan açmamışdır (bax: 1).

Tənqidin fikrincə (bax: 2), bədii tərtibatda və eləcə də aktyor ifalarında ritmik vüsətə daha çox nail olunsaydı, tamaşanın emosional təsir gücünün, müəllifin fəlsəfi qənaətlərinin təsiri artardı.

Qısa dialoqlarda, pauza və musiqi ilə paralel qurulmuş səhnələrdə Qaynar (Bürcəli Əsgərov), Zərifə (Nəcibə Məlikova və Ətayə Əliyeva), Məğrur (Əliabbas Qədirov), Çinarə (Safurə İbrahimova), Şahmar (Fateh Fətullayev), Samirə (Leyla Bədirbəyli), Tufan (Rafiq Əzimov və Hacı İsmayılov) obrazları təbii, real və həyati görünürdülər.

Elə ki psixoloji dərinlik səhnə ifadə vasitələrində, şeirin və sözün daxili ləngərində deyil, zahiri tərəfində axtarılırdı, onda estetik təəssürat pozulur, emosional qavranmanın zərifliyi itirdi.

Tamaşada konflikt, onun hadisələri mərkəzə cəmetmə qüvvəsi zəif idi. Rejissor ayrılıqda hər obrazın, xüsusən lirik hadisələrin daşıyıcılarının inkişaf xəttini tamaşanın ali məqsədilə möhkəm bağlaya bilməmişdi. Ona görə də Əliabbas Qədirovun, Vəfa Fətullayevanın və Safurə İbrahimovanın ciddi aktyor cəhdləri bəzən hədəfə toxunmurdu.

Martın 22-də teatr Maksim Qorkinin «Meşşanlar» pyesini oynadı. Yazıçının ilk dram əsəri olan «Meşşanlar»ı Mehdi Məmmədov tərcümə etmiş, özü də ona quruluş vermişdi. O, tamaşanı meşşanlığın, mənəvi riyakarlığın əleyhinə, fərdi uçuruma aparan ləyaqətsizliyin ifşasına həsr etmişdi. Ancaq nə rejissor özü, nə də aparıcı obrazları oynayan təcrübəli aktyorlar İsmayıl Osmanlı (Perçixin), Mehdi Məmmədov və Məmmədrza Şeyxzamanov (Teterov), Səməndər Rzayev (Bessemenov), Hamlet Qurbanov (Pyotr), gənclər Zərnigar Ağakişiyeva (Tatyana), Elmira Haşımzadə və Şükufə Yusupova (Polya) öz ifalarını bu ideyanın səhnə təcəssümünə bütün epizodlarda eyni məharət və bədiiliklə yönəldə bilmirdilər.

«Meşşanlar» tamaşasında Həsən Turabovun Nil, Şəfiqə Məmmədovanın Yelena, Sofiya Bəsirzadənin Akulina İvanovna obrazlarının ifalarında həm bitkinlik vardı, həm də aktyor axtarışlarının nəticələri peşəkarlıq əlamətləri ilə seçilirdi.

Elçin Məmmədovun «Meşşanlar» tamaşasına verdiyi tərtibatda naturalizmə meyil ölçüdən artıq görünürdü. Meşşanlığa dəlalət edən məişət əşyalarının, Bessenovun evi epizodundakı məkanda, çoxluğu səhnədə basırıq yaradırdı. Bu basırıq aktyorların sərbəst davranışına, mizanları cəld və dəqiq icra etmələrinə əngəl olurdu.

Mehdi Məmmədovun yaradıcılığında durğunluq əlaməti kimi meydana çıxan «Meşşanlar» tamaşası teatrın tərəddüdlü fəaliyyət mərhələsinin ən acı nəticələrindən oldu.

Teatrın yaradıcılıq tərəddüdü dövrünün bir işi də İlyas Əfəndiyevin «Bağlardan gələn səs» dramına Tofiq Kazımovun verdiyi zəif quruluş oldu. Pyesin adını mənəviyyatlardan gələn səs kimi mənalan-

dırmış dramaturqun yeni psixoloji dönüşlərlə rəsm olunan Gülcan, Hatəm, Vahid, Qubad obrazları tamaşada həllini natamam tapmışdılar. Rəssam Solmaz Haqverdiyevanın tərtibat verdiyi, «dekorları bir qədər yekrəng təsir bağışlayan» (3) tamaşada Tofiq Kazımovun fərdi üslubu, hadisələri dramatik ritmə düzməsi, hərəkət, dialoq və monoloqlardan ustalıqla bəhrələnməsi hiss olunmurdu. Adətən, klassik əsərlərin səhnə həllində iki hissəli tamaşa yaratmaq prinsipinə əməl edən Tofiq Kazımov üç pərdə ilə səhnəyə yorucu, uzunçu ağırlıq gətirmişdi.

Sürət-ritmi tapılmayan tamaşada psixoloji məntiqə sığmayan «vahid finalı özünü doğrulda bilmirdi» (4), dramaturq və rejissor ictimai fikrin söylədiyi tənqidi müddəaların (bax: 5) obyektivliyi ilə barışmaq məcburiyyətində qalırdılar.

Coşqun və açıq ehtirasları ilə səhnəyə temperament, hadisələrə dinamizm gətirən Səməndər Rzayev (Vahid), Şəfiqə Məmmədova (Gülcan), rolun əməl-fəaliyyət xəttini dəqiq icraya çalışan Lütfi Məmmədbəyov (Hatəm) və Kamal Xudaverdiyev (Kamandar) Tofiq Kazımovun bu səhnə təfsirində gücsüz və imkansız görünürdülər.

Emin Sabitoğlunun özlüyündə lirik xarakter daşıyan musiqisinin «Bağlardan gələn səs» tamaşasında psixoloji zəmini və dramatik rejissor təyini aydın deyildi. Tənqidin müəyyən müdafiə mövqeyində durmasına baxmayaraq, rejissor Tofiq Kazımov öz müsahibə və söhbətlərində bu tamaşada düçar olduğu uğursuzluğu yanğıyla, ancaq açıqca etiraf edirdi.

1975-ci ildə hazırlanan və daha çox tamaşaçı yığaraq repertuarda duruş gətirən tamaşa Avqsenti Saqarelinin «Xanuma» komediyası oldu. Tələt Əyyubovun tərcümə etdiyi komediyanı tamaşaya Ələsgər Şərifov hazırlamışdı. Pyesin rejissor yozumunda mübahisəli cəhətlər vardı, təfsirdə bədii mətnə əsaslanmayan nüanslar açıqca görünürdü. Ağasadıq Gəraybəyli (Vano Pantiaşvili), Əliağa Ağayev (Mikiç Kotryans), Mirvari Novruzova (Tekle), Məmməd Sadıqov (Timote) tamaşanın ümumi bütövlüyündən bəzi səhnələrdə təcrid olunmuş tərzdə rol oynayır, əsassız sərbəstliyə yol verirdilər.

Ancaq «Xanuma» şən, oynaq, dinamik, zövqoxşayan tamaşa idi. Çünki rejissorun üzdən, səthi yanaşdığı səhnələri, tərəf-müqabillərin süstləşdirdikləri epizodları Hökümə Qurbanova bütün qüvvə və bacarığını, yumor qabiliyyətini səfərbər etməklə ətə-qana gətirir, boşluğa

ecazkar təbiilik verir, hərəkətlərinin mayasına uyuşuqlu yumor qatırdı. «Aktrisa obrazın mayasında olan xeyirxahlığı, həqiqətpərəstliyi, mənəvi saflığı, insan gözəlliyini qabarıqlaşdırmış» (6), «öz incə məharətli oyunu ilə... tamaşaçının ürəyində gülüş doğurur» (7), ansamblın enerji nüvəsində dayanırdı.

Hökümə xanım coşqun ehtirasla ifa etdiyi rəqsləri (bəstəkar Tofiq Quliyev), məlahətli səs tembrini dramatik, satirik, yumorlu... səhnələrin mahiyyətinə uyğun şəkildə şövqlə dəyişməsi, ekssentrik hərəkətlə sözün vəhdətini harmonik cazibədə təqdimi ilə sehrkar vüsətli, şirin, məlahətli, məhrəm qılıqlı obraz yaradırdı. Xanuma rolu Hökümə Qurbanovanın son on ildəki sənət nailiyyətləri sırasında ən layiqli yerlərdən birini tuturdu.

Teatr bu il növbəti dəfə «Vaqif» tamaşasını bərpa etdi. Ancaq bu cəhd hansısa bir fövqəladə cəhəti ilə seçilmədi. Ədil İsgəndərovun Milli Dram Teatrı tarixində əvəzsiz qiymətləri olan tamaşasına yalnız «arxiv nümunəsi» kimi yanaşmaq özü yaradıcılıq məramından uzaq idi. Tamaşaya əlavə edilmiş aktyorların arasında isə sənətdə təzə sözə çevrilə bilən ifa ilə rastlaşmaq müşkül iş idi...

1975-ci ilin yekunlarına görə parlaq aktyor ifası Hökümə Qurbanovanın Xanuma rolu idi.

Bu il janr axtarışları baxımından teatrın həyatında yenilik baş vermədi.

Mövzu-problematikanın psixoloji, fəlsəfi dərinliyinə cəhd istiqamətində fayda verəcək addım atılmadı.

Teatrın lirik-psixoloji üslubuna rəngarənglik gətirə biləcək quruluş mövcud olmadı.

Tamaşaçılar səhnədə uğurlu aktyor debütü ilə qarşılaşmadılar.

Bəstəkar və rəssam işində tarixə çevrilə biləcək yaradıcılıq məhsulu görünmədi...

* * *

Truppada dəyişmə. 1942-ci il oktyabrın 16-dan Akademik Milli Dram Teatrında işləyən, Xalq artisti, Stalin və Respublika Dövlət mükafatları laureatı Leyla xanım Bədirbəyli mayın 11-də «Azərbaycanfilm» kinostudiyasına keçib bir müddət «Kino aktyoru teatrı»na rəhbərlik etdi.

Amaliya Pənahova istedadının daha da pardaxlandığı dövrdə (4 may) kollektivdən ayrıldı. Əvvəllər də kino çəkilişləri ilə əlaqədar qısa müddətlərdə teatrdan uzaqlaşan Əməkdar artist Eldəniz Zeynalov dekabrın 16-da teatrdan çıxdı, özünə miniatür ansambl yaradaraq sərbəst fəaliyyətə başladı, filmlərə çəkildi, televerilişlərdə oynadı (1992-ci ilədək).

Aktyorluq fakültəsinin 1972-ci il məzunu Zabilə Sadıqova iyunun 21-də teatra daxil oldu.

Xalq artisti, Respublika Dövlət mükafatı laureatı Əli Zeynalov mayın 16-da təqaüdə çıxdı. O dövrlərdə qocaman aktyorlar yaşları çatanda təqaüdə çıxır, ancaq dəvətlə yenidən qayıdıb teatrda işləyirdilər. Təəssüflər ki, gümrah olan, səhhətindən şikayətlənməyən Əli Zeynalov ona dəfələrlə olunan təklifləri qəbul etmədi. Yalnız televiziya və bəzən radio ədəbi verilişlərində çıxış edən Əli Zeynalov (4 aprel 1913 – 4 yanvar 1988) təqaüdə çıxandan on üç il sonra haqq dünyasına köçdü.

İnzibati dəyişmə. Kukla teatrında işləyən Solmaz Haqverdiyeva fevralın 1-də teatra tərtibatçı rəssam götürüldü.

Truppa heyəti. Baş rejissor Tofiq Kazımov. Quruluşçu rejissorlar Mehdi Məmmədov, Ələsgər Şərifov və Əşrəf Quliyev. Rejissor assistenti Məmmədkamal Kazımov. Rejissor köməkçiləri Rəfiqə Kazımova və Elxan Haqverdiyev.

Baş rəssam Nüsrət Fətullayev. Rəssam Solmaz Haqverdiyeva.

Ədəbi hissə müdiri Qeybulla Rəsulov.

Aktyorlar: İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Ağasadıq Gəraybəyli, Möhsün Sənani, Əliağa Ağayev, Əli Zeynalov, Məmmədrza Şeyxzamanov, Həsənağa Salayev, Məlik Dadaşov, Həsən Turabov, Abbas Rzayev, Məmməd Sadıqov, Fateh Fətullayev, Kamil Qubuşov, Səməndər Rzayev, Muxtar Avşarov, Lütfi Məmmədbəyov, Kamal Xudaverdiyev, Eldəniz Zeynalov, Bürcəli Əsgərov, Hamlet Xanızadə, Hamlet Qurbanov, Aqşin Vəlixanlı, Məcnun Hacıbəyov, Mustafa Süleymanov, Ramiz Məlikov, Fuad Poladov, Əliabbas Qədirov, Yaşar Nuriyev, Pərviz Bağırov (aktyor Sadıq Salehin oğlu), Nadir Əsgərov (GTT-dan gəldi və tez də qayıtdı), Sadıq İbrahimov, Rafiq Əzimov.

Aktrisalar: Hökümə Qurbanova, Sona Hacıyeva, Barat Şəkinskaya, Sofiya Bəsirzadə, Nəcibə Məlikova, Məhluqə Sadıqova, Leyla Bədirbəyli, Əminə Nağıyeva, Ətayə Əliyeva, Mirvari Novruzova, Şəfiqə Məmmədova, Hökümə Qasımova, Səadət Zülfüqarova, Şövkət Rzayeva, Rəhilə Mirzəyeva, Safurə İbrahimova, Vəfa Fətullayeva, Amaliya Pənahova, Məhbubə Məlikova, Elmira Haşımzadə.

Təcrübəçi aktyorlar: İlham Əhmədov (Namiq Kamal), Zərnigar Ağakişiyeva, Hacı İsmayılov, Elxan Ağahüseynoğlu (Hüseynov), Mərziyə Məmmədbəyli, Sevil Xəlilova, Zabilə Sadıqova.

Yardım heyəti: Əminə Babayeva, Sona Mirzəyeva, Hafiz Fətullayev, Əsgər Məmmədoğlu, Zemfira Məmmədova, Şahin Cəbrayılov, Əlvida Cəfərov.

Təqaüdə çıxıb faktiki ifaçı maaşı alanlar: Ağahüseyn Cavadov, Sadıq Saleh (Bağırov), Hacıməmməd Qafqazlı, Məcid Şamxalov.

Truppa müdiri Məmmədşah Atayev. Musiqi hissə müdiri Aleksandr Delerzon.

Əcəl aldı... Xeyli müddət əvvəllər təqaüdə çıxmış, Azərbaycanın ilk Xalq artisti (1932-ci il) Hacıağa Abbasov (16.6.1888 – 7.5.1975) vəfat etdi. Təhsilini rus-tatar məktəbində almış Hacıağa Abbasov səhnəyə ilk dəfə 1905-ci ildə çıxmışdır. 1906 – 1909-cu illərdə Petrovsk-Portda (indiki Mahaç-Qala şəhəri) oxuyanda Teymurxanşurada (Dağıstan ərazisində) Azərbaycan dilində teatr dəstəsi təşkil etmişdir. Bakıya qayıdaraq Mirzə Ələkbər Sabirlə birlikdə müəllimlik etmiş, həm də teatr tamaşalarında oynamışdır. Bakıda Azad Tənqid və Təbliğ Teatrının yaradıcılarından biri və ilk direktoru olmuşdur. (1921-ci il 13 noyabr). Akademik Milli Dram Teatrının (1925 – 1930), Bakı Teatr Texnikumunun (1930 – 1937) direktoru olmuş, Azərbaycan İncəsənət İşləri İdarəsində rəis işləmiş, Türkmənistan və Tacikistan respublikalarında mədəniyyət sahəsində çalışmışdır. «Ağa Məhəmməd şah Qacar və Molla Pənah Vaqif», «Sabirin məhkəməsi», «Qırmızı əsgər oğluma», «İnqilab şərarələri» və s. kiçikhəcmli pyeslərin müəllifidir. Ən yaxşı rolları bunlardır: Şeyx Nəsrulla («Ölülər», Mirzə Cəlil), Məşədi İbad, Soltan bəy, Kəblə Qubad, («O olmasın, bu olsun», «Arşın mal alan», «Ər və arvad», Üzeyir bəy Hacıbəyli), Mirzə Mehdi xan və Şamdan bəy («Nadir şah» və «Şamdan bəy», Nəriman Nərimanov),

Hacı Qəmbər («Yağışdan çıxdıq, yağmura düşdük», Nəcəf bəy Vəzirov)...

Dramaturq. Avqsenti Antonoviç Saqareli (21.2.1857 – 25.8.1902). Gürcü dramaturqudur, aktyorluq və rejissorluq da edib. «Xanuma», «Simbireli», «Haynan gələn, vaynan gedər», «Keto və Kote», «İndi özgə əyyamdı», «Gürcü anası»... dramları gürcü ədəbiyyatının klassik irslərindən sayılır.

Mənbələr

1. Cəlal Məmmədov. «Əks-səda». – «Kommunist», 23 aprel 1975.

2. Ağamusa Axundov. «Əks-səda». – «Azərbaycan gəncləri», 24 may 1975; Ağakişi Kazımov. «Əks-səda». – «Ədəbiyyat və incəsənət», 29 mart 1975.

3. Yaşar Qarayev. «Bağlardan gələn səs». – «Kommunist», 30 dekabr 1975.

4. Yenə orada.

5. Camal Yusifzadə. «Tamah və məsuliyyət hissi». – «Ədəbiyyat və incəsənət», 15 noyabr 1975.

6. Məryəm Əlizadə. «Xanumanın kələkləri». – «Ədəbiyyat və incəsənət», 5 iyul 1975.

7. Mirzə İbrahimov. «Şən tamaşa». – «Kommunist», 6 yanvar 1976.

1976-cı il

19 mart. «Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı romanı üzrə.

3 pərdəli dram.

Pyesin müəllifi və quruluşçu rejissoru Tofiq Kazımov, rəssam Fuad Qafarov, bəstəkar Oqtay Kazımov, rejissor assistenti İsrafil İsrafilov.

Rollarda: Hacı İsmayılov (Carçı), Fuad Poladov (İlyas-Nizami), Kamal Xudaverdiyev (Fəxrəddin), Şükufə Yusupova (Rəna), Məcnun Hacıbəyov (Sultan Toğrul), Bürcəli Əsgərov (Atabəy Məhəmməd), Ramiz Məlikov (Qızıl Arslan), Səməndər Rzayev (Əmir İnanc),



«Ümid», Maqsud İbrahimbəyov. Nərminə – Məhbubə Məlikova və Rauf – İlham Əhmədov (Namiq Kamal). 1976-cı il



«Qılınc və qələm», Məmməd Səid Ordubadi. Soldan: Mühakim – İlham Əhmədov (Namiq Kamal), Əmir İnanc – Səməndər Rzayev və Mərcan – Rafiq Əzimov. 1976-cı il

Nəcibə Məlikova (Safiyə), Əminə Babayeva (Qətibə), Hamlet Xanızadə (Hüsaməddin), Kamil Qubuşov (Toxtamış), Rafiq Əzimov (Mərcan), Məhbubə Məlikova (Dilşad), İlham Əhmədov (Mühakim), Elxan Ağahüseynoğlu (Şəmsəddin), Mustafa Süleymanov (Canpolad), Sevil Xəlilova (Gözəl), Pərviz Bağırov (Dustaq), Ələsgər Məmmədoğlu (Bağban), Şahin Cəbrayılov (Çapar), Mikayıl Mirzəyev (Sərkərdə), Hafiz Fətullayev və Əlvida Cəfərov (xidmətçilər), Vətən Kərimov, Elxan Quliyev, Vaqif Bədəlov və Rafiq İbrahimov (döyüşçülər), Mərziyə Məmmədbəyli və Zabilə Sadıqova (cariyələr).

15 may. «Kəndçi qız», Mirzə İbrahimov.

2 hissəli komediya.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Sevda İbrahimova, Rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Fuad Poladov (Vahid), Vəfa Fətullayeva (Bənövşə), Ağasadıq Gəraybəyli, Fateh Fətullayev və Sadıq Saleh* (Mahmud Səfayi), Ətayə Əliyeva (Reyhan**), Sadıq İbrahimov (Rəşid), Mikayıl Mirzəyev (Aslan), Əminə Babayeva (Leyla), Safurə İbrahimova və Rəhilə Mirzəyeva*** (Göyərçin), Yaşar Nuriyev (Alışov), Hamlet Qurbanov (Şəkərlinski), Mustafa Süleymanov və Firuz Xudaverdiyev (Sarvan), Zabilə Sadıqova və Lalə Bağırova (Ayxanım).

* *Qeyd.* Sadıq Saleh məşq elədi, ancaq tamaşada Mahmud Səfayi rolunu oynamadı.

** *Qeyd.* Reyhan rolunu bir qədər sonra Barat Şəkinskaya da oynadı.

*** *Qeyd.* Rəhilə Mirzəyeva məşq elədi, ancaq tamaşada Göyərçin rolunu oynamadı. Bəzi məramnamədə aktrisanın soyadı səhvən «Məmmədova» yazılıb.

5 iyun. «Kölgələr pıçıldaşır», Seyfəddin Dağlı.

2 hissəli komediya.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rejissor İsrafil İsrafilov, rəssam Kamal Şıxəliyev, bəstəkar Ramiz Mirişli, rejissor assistenti Şaiq Səfərov.

Rollarda: İsmayıl Osmanlı və Muxtar Avşarov (Qocazadə), Fateh Fətullayev və Aqşin Vəlixanov (Qaplanov), Əliağa Ağayev və Məmməd Sadıqov* (Rüstəm Zaloviç), Əliabbas Qədirov (Coşqun), Zərni-

gar Ağakişiyeva (Şəfəq), Sevil Xəlilova və Məhbubə Məlikova (Çeşmə), Pərviz Bağırov və Mikayıl Mirzəyev (Həsrət), Barat Şəkinskaya və Mirvari Novruzova (Ayna), Hacı İsmayılov (Yanvar), Səadət Zülfüqarova, Rəhilə Mirzəyeva (İydə), Mustafa Süleymanov və Əlvida Cəfərov (Nəzərli), Nəcəf Həsənzadə, Şahin Cəbrayılov, Mərziyə Məmmədbəyli və Ələsgər Məmmədoğlu (kölgələr).

* *Qeyd.* Məmməd Sadıqov məşq etdi, ancaq tamaşada Rüstəm Zaloviç rolunu oynamadı.

2 oktyabr. «Solğun çiçəklər»*, Cəfər Cabbarlı.

2 hissəli melodrama.

Quruluşçu rejssor Əliheydər Ələkbərov, rejissor Məmmədkamal Kazımov, rəssam Nüsrət Fətullayev, musiqi tərtibatçısı Nurəddin Fətullayev.

Rollarda: Zabilə Sadıqova (Sara), Sofiya Bəsirzadə (Gülnisə), Məhbubə Məlikova (Pəri), Bürcəli Əsgərov (Bəhram), Muxtar Avşarov (Əbdül, Elxan Ağahüseynoğlu (Həmzə bəy), Əlvida Cəfərov (Qurban), Məcnun Hacıbəyov (Axund), Nəcəf Həsənzadə (Molla).

* *Qeyd.* Bu tamaşanın quruluşu bərpa idi. Rollar dəyişdirilmişdi.

27 noyabr. «Ümid», Maqsud İbrahimbəyov.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Fuad Qafarov, bəstəkar Oqtay Kazımov, rejissor assistenti Şaiq Səfərov.

Rollarda: Rafael Dadaşov (Zaur), İlham Əhmədov (Rauf), Məhbubə Məlikova (Nərminə), Nəcibə Məlikova (Nərminənin anası), Bürcəli Əsgərov (Bədirov), İsmayıl Dağıstanlı (Sabir), Hamlet Qurbanov və Kamal Xudaverdiyev (Tahirov), Lalə Bağırova (Sevda).

26 dekabr. «Vəkil neyləsin?..», Ramiz Fətəliyev.

2 hissəli dram.

Quruluşçu rejissor Fikrət Sultanov, rəssam Solmaz Haqverdiyeva, musiqi tərtibatçısı Marat Haşımov.

Rollarda: Məmmədrza Şeyxzamanov (Vəkil), Fuad Poladov (Oqtay), Şükufə Yusupova (Mahirə), Lütfi Məmmədbəyov (Zeynal), Ramiz Məlikov (Nazim), Əliabbas Qədirov və Mikayıl Mirzəyev (Balağa), Hamlet Qurbanov (Müstəntiq), Fateh Fətullayev və Kamil Qubuşov* (Prokuror), Hamlet Xanızadə və Hacı İsmayılov (Rüstəm), Sevil

Xəlilova (Vera), Aqşin Vəlixanov (Hakim), Mərziyə Məmmədbəyli (Xidmətçi qız), Elxan Quliyev (Oğlan), Əlvida Cəfərov (Milis işçisi).

* *Qeyd.* Kamil Qubuşov məşq elədi, ancaq tamaşada Prokuror rolunu oynamadı.

* * *

Tofiq Kazımov bir neçə il idi Məmməd Səid Ordubadinin «Qılınc və qələm» romanının motivləri əsasında eyniadlı pyes üzərində işləyirdi. Nəhayət, baş rejissor ötən ilin payızında «Qılınc və qələm» pyesini yazıb bədii şurada oxunuşunu keçirtdi. Bəyənilən (müəyyən iradlar göstərilib düzəlməsi tövsiyə edilməklə) pyesin quruluşçu rejissoru özü təyin edildi. O, bəstəkar Oqtay Kazımovla və rəssam Fuad Qafarovla işləməyə başladı.

Martın 19-da premyerası oynanılan «Qılınc və qələm» tamaşası ictimaiyyət və tənqid tərəfindən birtərəfli qarşılanmadı. Xüsusən tarixçi alimlər, görkəmli şəxsiyyətlər olmuş Qızıl Arslan, Atabəy, Məhəmməd (Cahan Pəhləvan), Sultan III Toğrul, Əmir İnanc, Nizami Gəncəvi obrazlarının pyesdə və eyni zamanda tamaşada təhrifli təsvirini tənqid edirdilər.

Qəribə burası idi ki, vaxtilə roman çap olunanda tənqidçi və tarixçilərdən heç kim Ordubadinin nüfuzu qarşısında irad tutmağa cürət göstərməmişdi. Yalnız yazıçı və tənqidçi Mehdi Hüseyn romanın bütün bədii dəyərini yüksək qiymətləndirməklə, tarixi hadisə və şəxsiyyətlərin təhriflərini də göstərmişdi.

Romantik təmayüllü lirik-psixoloji üslubda hazırlanmış «Qılınc və qələm» tamaşasından resenziya və ya məqalə yazan müəlliflər isə, əsasən, romandan gələn haqlı, elmi əsasları olmayan qüsurları rejissor Tofiq Kazımovun ayağına yazırdılar. Akademik Ziya Bünyadov kimi nüfuzlu tarixçi, Nizami Gəncəvi dövrünü, Atabəylər hakimiyyəti mərhələsini dərindən bilən alim yazırdı: «Nizami heç vaxt Gəncədən kənara çıxmayıb. Ancaq ömründə bir dəfə şəhər kənarına gedib, Sultanı və Atabəy Qızıl Arslanı qarşılamağa. Onda da Qızıl Arslan onu məzəmmət eləyib ki, nahaq yerə böyük sənətkar narahat olub: o, yəni Atabəy özü onun ayağına gəlməlidir. Pyesdə isə Nizami təbliğ xarakterli şeirlər deyən, bəməzə adama bənzəyir (burada aktyorun heç bir günahı yoxdur. Çünki o öz xoşu ilə Qızıl Arslanın elçisinə çevrilməyib).

Özü də kimin, kimin qarşısında? – Rey hakimi İnancın. Axı tarixdə belə bir şey olmayıb.

Atabəy Cahan Pəhləvan heç vaxt Gəncədə olmayıb. Özü də pyesdəki obraz Cahan Pəhləvana qətiyyən bənzəmir. Pyesdə o, Dümanın müşketyorlarını xatırladır. Və Cahan Pəhləvanın qardaşı Qızıl Arslanla da heç bir münaqişəsi olmayıb. Əksinə, qardaşlar çox mehriban imişlər və Cahan Pəhləvan kiçik qardaşına böyük qayğı ilə yanaşarmış.

Sultan III Toğrul isə boylu-buxunlu və güclü adam olub. Onun qalxanını heç kim qaldıra bilməyib, yayını heç kim sona kimi darta bilməyib. Bəs, pyesdə? Pyesdə o, yekəqarın və qorxaq bir tələxəkdir. Hüsaməddinin rolu tamamilə aydın deyil... Belə bir sərkərdə olub, amma Gəncədə yox, Şirvanda» (1).

Ziya Bünyadov öz mülahizələrində tarixçi kimi haqlı idi. O, tamaşa barədə fikir söyləməyib. Ancaq qəzetin elə həmin nömrəsində və həmin səhifəsində çap olunmuş məqaləsində tamaşanı geniş təhlilə çəkən Camal Yusifzadə səhnə şərtiliyi ilə tarixin dəqiqliyinin vacibliyini Tofiq Kazımovun qoruya bilmədiyini göstərir. «İnanc Xatunun fəaliyyətini Qətibənin (Kutaybə) adına yazmaq, Sultan III Toğrul kimi güclü, iradəli bir şəxsiyyəti tələxəyə çevirmək, Atabəylər – Cahan Pəhləvanla qardaşı Qızıl Arslan arasında konflikt uydurmaq, Rey hakimini Gəncə hakimi kimi qələmə vermək, ən nəhayət, Nizami kimi böyük bir şəxsiyyəti «müasirləşdirmək», başqa sözlə desək, modernizə etmək kimə və nəyə gərəkdir?!

Əgər rəssamın (Fuad Qafarov. – *İ.R.*) Atabəylər Cahan Pəhləvan, Qızıl Arslan və Sultan III Toğrul üçün seçdiyi qəribə geyimləri və aktyorlar Məcnun Hacıbəyov, Bürcəli Əsgərov və Ramiz Məlikovun bayağı, bəsit oyununu da buraya əlavə etsək, bu şəxsiyyətlərin nə dərəcədə cılızlaşdığını görərik» (2).

Tamaşanın daha çox bədii cəhətdən dəyərli, mövzunun rejissor həlli baxımından uğurlu məqamlarını səxavətlə qeyd edən müəlliflər belə aktyor ifalarındakı qabarıq qüsurları göstərməkdən yan keçə bilməmişdilər (bax: 3). Səhnə tərtibatının qüsurları da göstərilirdi. Ancaq bəstəkar Oqtay Kazımovun musiqisi rəğbətlə qarşılanırdı.

Bütün bunlarla belə, «Qılınc və qələm» tamaşasının romantik vüsətinin poetik həllində Tofiq Kazımovun sənətkarlığı, rejissor üslubu-

nun təravəti aydınca görünürdü. Teatra qəbul olunandan bəri neçə epizod rol oynayan Əminə Babayevaya tamaşanın mərkəzində duran, bütün hadisələrin hərəkətvericisi olan Qətibə obrazını tapşırmaq rejissorun açıq riski idi. Rejissorun bu mövqeyi, ümumən, özünü doğrultdu. Gənc aktrisa təcrübəsizlikdən gələn müəyyən xırda qüsurlara yol versə də, daxili ehtirasını, səs tembrini, səhnə davranışını obrazın mürəkkəb psixoloji varlığının açılmasına, dramatik-fəci dönüşlərin bədii təqdiminə yönəldə bilirdi.

Pyesdən gələn nöqsanlar aktyorlardan Fuad Poladovun (İlyas – Nizami), Kamal Xudaverdiyevin (Fəxrəddin), Hamlet Xanızadənin (Hüsaməddin) oyunlarında bəzən sözlə hərəkətin psixoloji məntiqini pozurdu. Romantik təmayüllü lirik-psixoloji üslubun tələb etdiyi oyun tərzinə Səməndər Rzayev (Əmir İnanc) və Nəcibə Məlikova (Safiyə) yöndaşları ilə müqayisədə həssaslıqla, uyarlı vasitələrlə əməl edirdilər.

«Qılınc və qələm» tamaşası hadisələrin və bəzi personajların tarixi təhrifinə baxmayaraq, romantik ahəngi, mürəkkəb və mənalı kompozisiya həlli, sərt, lirik, dramatik mizanların ahəngdarlığı, ali məqsədin bədii realizəsi, mövzunun vətənpərvərlik ruhu ilə seçilirdi.

1976-cı ildə Tofiq Kazımovun quruluş verdiyi ikinci tamaşa Maqsud İbrahimbəyovun «Ümid» pyesi oldu. Nəsr və dram əsərlərini rusca yazan Maqsud İbrahimbəyovun pyesləri başqa teatrlarda oynansa da, Akademik teatrda ilk dəfəydi tamaşaya qoyulurdu. Əsərin ilk adı «Mezozoy əhvalatı» idi. Mezozoy yer kürəsinin bioloji qatında orta eraya aiddir.

Neftin yerin ən dərin laylarından çıxarılması elmə məlum olsa da, insan münasibətlərinin «mezozoy» qatları çox mürəkkəbdir, idrakın dərkində təfəkkürəgəlməz qatları var.

Dramaturq pyesində buna xüsusi diqqət vermişdi və Tofiq Kazımov da universal tipli lirik-psixoloji üslubda onun səhnə təfsirinə çalışmışdı. Düzdür, tamaşa elə bir diqqətçəkən səviyyədə alınmamışdı. Hadisələr boyu lirik üslubu tənzimləyən Sabir rolunun ifaçısı İsmayıl Dağıstanlının oyunundakı deklarativ pafos janrın əsas göstəricilərini sındırırdı. Bürcəli Əsgərovun (Bədirov), Hamlet Qurbanovun (Tahirov), Lalə Bağırovanın (Sevda) oyunlarındakı ağırlıq, janra qeyri-səmimi, məntiqsiz münasibət pərakəndəliyi artırır, tamaşaya primitivlik gətirirdi.

Tofiq Kazımov hər tamaşada təzə gənc aktyorlarla səhnə əsərinin cazibəsini dərinləşdirməyə, maraq dairəsini genişləndirməyə çalışan rejissor idi. «Ümid» tamaşasında konfliktin əsas qütbündə duran, dramaturji gərginliyə təkan verən Zaur roluna görkəmcə xoşsima, fiziki fakturası maraq doğuran Rafael Dadaşovu dəvət etmişdi. Teatrda debütü olan, tanınmış aktyorlar Məlik Dadaşov ilə Sofiya Hüseynovanın (Naxçıvan Dövlət Musiqili Dram Teatrı) oğlu Rafael səhnədə Zaur rolunda parlaq nəticə göstərə bilmədi. «Ümid» tamaşası sönük, həyat mövqeyi passiv tamaşa kimi tezliklə unuduldu.

Maqsud İbrahimbəyovdan sonra teatr başqa bir gənc müəllifin, əsəri Akademik sənət ocağında ilk və son dəfə oynanılan Ramiz Fətəliyevin dramaturgiyasına müraciət etdi. Daha çox kino yaradıcılığına meyil göstərən Ramiz Fətəliyevin «Vəkil neyləsin?..» dramı dekabrın 26-da ilk dəfə göstərildi. Bu pyes də rusca yazılmışdı və tərcümədə (tərcümə müəllifi göstərilməyib) çox şey itirmişdi. Gənc rejissor, Tofiq Kazımov məktəbinin davamçısı, mürəkkəb mənəvi problemlərə maraq göstərən Fikrət Sultanovun bütün cəhdlərinə baxmayaraq, «Vəkil neyləsin?..» tamaşası bütövlükdən məhrum idi.

Məramnamədə «komediya» yazılan, janrca satirik komediyaya yaxın olan «Kölgələr pıçıldaşır» (Seyfəddin Dağlı) tamaşasının da aqibəti «Ümid» kimi uğursuz oldu. Dramaturji naqislikdən gələn zəifliklər quruluşçu rejissor Məmmədkamal Kazımov bir qədər də dərinləşdirmişdi. Hərəkətdən məhrum olan söz və dialoqlar əsasında qurulmuş hadisələrin aparıcı personajları Qocazadə (İsmayıl Osmanlı və Muxtar Avşarov), Qaplanov (Fateh Fətullayev), Coşqun (Əliabbas Qədirov), Yanvar (Hacı İsmayılov), İydə (Səadət Zülfüqarova), Nəzərli (Mustafa Süleymanov), Şəfəq (Zərnigar Ağakişiyeva) tamaşanın canına primitivlik hopdurmuşdular. Kamal Şıxəliyevin tərtibatı sönüklüyü daha da dərinləşdirmişdi.

Mirzə İbrahimovun «Kəndçi qızı» komediyası ilk dəfə 1962-ci ildə oynanılmışdı. 1976-cı ildə Əşrəf Quliyev bu əsəri yeni təfsirdə tamaşaçılara təqdim etdi. Mövzusu 1960-cı illərdə aktual olan komediya bu gün o qədər də vacib görünmürdü. Mehdi Məmmədovun sosial komediya yozumu qarşısında Əşrəf Quliyevin məişət komediyası hazırlaması da bir qədər cansıxıcı və yorucu görünürdü.

Tamaşanın qəhrəmanı Bənövşə Hökümə Qurbanovanın müasir rolları içərisində xüsusi seçilirdi. Təzə quruluşda bu rolu görkəmli aktrisanın qızı Vəfa Fətullayeva oynayırdı. Mahmud Səfayinin ilk ifaçısı Ağasadıq Gəraybəylinin Əşrəf Quliyevin quruluşunda da həmin obrazı oynaması istənilən müsbət nəticəni vermədi.

Günün estetik tələbləri baxımından Göyərçin (Safurə İbrahimova), Reyhan (Ətayə Əliyeva), Ayxanım (Zabilə Sadıqova), Rəşid (Sadıq İbrahimov), Leyla (Əminə Babayeva), Aslan (Mikayıl Mirzəyev) obrazlarının dramaturji qüsurları, sxematikliyi daha qabarıq nəzərə çarpmaqla tamaşaya süstlük gətirirdi. «Kəndçi qızı» tamaşasının məqsəd və məramı, əsasən, aydın deyildi. Aydın olduğu məqamlarda isə müasirlik duyumu zəif, estetik təsir gücü sönük, hadisə bağları əlaqəsiz görünürdü.

İfa baxımından nisbətən şirəli obraz Yaşar Nuriyevin oynadığı Alışov və Aqşin Vəlixanovla Hamlet Qurbanovun ifa etdikləri Şəkərlinski rolları idi.

Öz tərtibatlarında obrazlı detallara üstünlük verən Solmaz Haqverdiyevanın «Kəndçi qızı»ndakı işində dinamik cazibə, mənalı ifadə dəqiqliyi çatışmırdı. Dramaturq Mirzə İbrahimovun istedadlı qızı, bəstəkar Sevda İbrahimova da tamaşa üçün orijinal, komizmlə yoğrulmuş lirik-poetik musiqi bəstələyə bilməmişdi.

İlk tamaşadakı tərtibat (rəssam Sadıq Şərifzadə) və musiqi (bəstəkar Soltan Hacıbəyov) təzə quruluşla müqayisədə daha obrazlı alınmışdı.

Qırxıncı illərdə Cəfər Cabbarlının «Solğun çiçəklər» və «Vəfalı Səriyyə» melodramlarını birləşdirərək «Solğun çiçəklər» adı ilə uğurla tamaşaya hazırlamış Əliheydər Ələkbərov yenidən öz quruluşuna qayıtdı. İlk təfsiri, ümumən, olduğu kimi saxlayan rejissor bir növ «Solğun çiçəklər»i bərpa etdi. Ancaq ifaçıların hamısını dəyişdi. Sara rolunu gənc aktrisa Zabilə Sadıqova, Pərini onun həmyaşıdı Məhbubə Məlikova, uzun illər Mustafa Mərdanovla İsmayıl Osmanlının ifa etdikləri Əbdül kişini Muxtar Avşarov oynadılar.

«Solğun çiçəklər»in bərpası ilk quruluşdan zəif alınmışdı. Aktyor oyunlarında da elə bir gözlənilməz, parlaq nailiyyət yox idi.

Bu il Tofiq Kazımov ona qarşı təzyiqlərə görə baş rejissorluqdan imtina etdi, ancaq onun istəyi rəsmiləşmədi.

* * *

Truppada dəyişiklik. Truppaya qəbul olunan aktyorlar arasında teatr ictimaiyyətinə tanınanı, İncəsənət İnstitutunun Tədris teatrında, televiziyada maraqlı rollar oynamış Mikayıl Mirzəyev (Mirzə) daha ümidverici idi.

Tədris teatrında işləyən, İncəsənət İnstitutunda dərs deyən Mikayıl Mirzəyev (13 yanvar), Mingəçevir Dövlət Dram Teatrının aktyoru Firuz Xudaverdiyev (10 sentyabr), Naxçıvanda və Bakıda mədəniyyət sahələrində çalışmış Rafael Dadaşov (16 iyul), aktyorluq fakültəsinin məzunu Şükufə Yusupova (1 sentyabr), Lalə Bağırova (1 iyul) truppaya daxil edildilər.

Zabilə Sadıqova (1 iyul) bir il, Hafiz Fətullayev (16 dekabr) beş il işləyərək, ancaq diqqətçəkən nailiyyət qazanmadan aktyorluq sənətindən uzaqlaşdılar. Hafiz sonralar televiziyada və Daşkənd şəhərində rejissorluq etdi.

Qəflətən iflic olmuş Həsənağa Dərya oğlu Salayev yanvarın 21-də təqaüdə çıxdı.

Əcəl aldı... Yaddaqalan epizodik rollar oynamış Əməkdar artist Abbas Mahmudəli oğlu Rzayev (3.3.1904 – 12.6.1976) vəfat etdi.

Dramaturqlar. Ramiz Məmmədəli oğlu Fətəliyev (1946). Azərbaycan kinodramaturqu. İxtisasca neftçidir, Moskvada Ali ssenari və rejissor kurslarını bitirib (1970 – 1972). «Həyat səhifələri», «Birisi gün gecə yarısı», «İş üzrə şahidlər»... ssenariləri əsasında filmlər çəkilib. Roman və pyesləri də var. Akademik teatrda yalnız «Vəkil neyləsin?..» pyesi oynanılıb.

Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov (11.5.1935). Azərbaycan nasiri, kinodramaturqu və dramaturqu. İxtisasca inşaatçıdır. Moskvada Ali ssenari kursunu bitirib (1964), sonra rejissor təhsili alıb (1973). Çoxlu nəsr əsərlərindən əlavə, «Mezozoy əhvalatı» (AMDT-da «Ümid» adıyla oynanılıb), «Kərgədan buynuzu», «Bütün yaxşılıqlar üçün – ölüm!» və digər pyesləri də var.

Mənbələr

1. Ziya Bünyadov. «Tarixi dəqiqlik mühüm şərtdir». – «Ədəbiyyat və incəsənət», 10 iyun 1976.

2. Camal Yusifzadə. «Qılıncla qələmin ittifaqı». – «Ədəbiyyat və incəsənət», 10 iyul 1976.

3. Mirzə İbrahimov. «Qılınc və qələm». – «Kommunist», 18 aprel, 1976; Вета Надирова. «Мечь и перо». – «Баку», 22 апреля 1976; Ильяс Эфендиев. «Удачи и потери одного спектакля». – «Бакинский рабочий», 8 июня 1976.

1977-ci il

6 mart. «Bəşərin komediyası və yaxud Don Juan», Mirzə İbrahimov. Jan Batist Molyerin «Don Juan» pyesinin motivləri əsasında.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Fuad Qafarov bəstəkar Vasif Adıgözəlov, rejissor assistenti Məlik Dadaşov, rəqslərin quruluşçusu Rimma Məmmədova, qılınc döyüşünün təlimçisi Viktor Şerbakov.

Rollarda: Rafael Dadaşov (Don Juan), Yaşar Nuriyev (Sqanarel), Rəhilə Mirzəyeva (Marsela), Şəfiqə Məmmədova (Teodora), Hamlet Xanızadə (Don Martin), Sadıq İbrahimov (Don Lope), Sevil Xəlilova (Donna Anna), Mərziyə Məmmədbəyli (Donna Diana), Əminə Babayeva (Kamilla), Məhbubə Məlikova (Berta), İlham Əhmədov (Namiq Kamal) (Pedro), Pərviz Bağırov (Quldur).

7 may. «Məhəbbət əfsanəsi», Nazim Hikmət. Azərbaycan türkcəsinə çevirəni İslam İbrahimov.

3 pərdəli dram.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Dmitri Tavadze, bəstəkar Aqşin Əlizadə, rejissor assistenti Elxan Haqverdiyev (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu).

Rollarda: Hökümə Qurbanova (Məhmənəbanu), Fuad Poladov (Fərhad),Vəfa Fətullayeva (Şirin), Bürcəli Əsgərov (Vəzir), Hamlet Qurbanov (Gəlmə), Sofiya Bəsirzadə (Dayə), Muxtar Avşarov (Bəhzad), Aqşin Vəlixanlı (Münəccim), Mustafa Süleymanov (Həkimbaşı), Əliabbas Qədirov (Şərif), Şövkət Rzayeva və Mərziyə Məmmədbəyli (Sərvinaz), Şahin Cəbrayılov (Sərvinazın əri), Məcnun Hacıbəyov (Ustabaşı), Hacı İsmayılov (Səmərqəndli), Nəcəf Həsənzadə (Dərviş),

Elxan Ağahüseynoğlu (Qısaboylu), Vətən Kərimov (Uzunboylu), Lalə Bağırova (Birinci qız), Əminə Babayeva (İkinci qız).

27 may. «Daşqın», Anatoli Safronov. Tərcümə edəni İshaq İbrahimov.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Nüsrət Fətullayev, rejissor assistentləri İsrafil İsrafilov və Şaiq Səfərov.

Rollarda: İsmayıl Dağıstanlı (Anton Petroviç), Səməndər Rzayev (Beryozin Qriqori), Safurə İbrahimova (Fyodorovna), Zərnigar Ağakişiyeva (Olqa Semyonovna), Nəcibə Məlikova və Sofiya Bəsirzadə* (Anna Yermakova), Şükufə Yusupova (Anyuta), Məhluqə Sadıqova və Mirvari Novruzova (Sinitsa Yevdokiya), Əliağa Ağayev və İlham Əhmədov (Çakan Yemelyan), Rafiq Əzimov Dudko (Zaxar), Əminə Nağıyeva və Hökümə Qasımova (Klavdiya), Məmməd Sadıqov və Firuz Xudaverdiyev (Koşkin Nikolay), Pərviz Bağırov və Şahin Cəbrayılov (İvan).

* *Qeyd.* Sofiya Bəsirzadə məşq elədi, ancaq tamaşada Anna Yermakova rolunu oynamadı.

30 oktyabr. «Yollara iz düşür...», Bəxtiyar Vahabzadə.

2 hissəli dram.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Elçin Aslanov, bəstəkar Adil Bəbirov, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Kamal Xudaverdiyev (Loğman), Bürcəli Əsgərov (Alxan), Sofiya Bəsirzadə və Zərnigar Ağakişiyeva* (Aynur), Əliabbas Qədirov və Hacı İsmayılov (Daşqın), Vəfa Fətullayeva və Məhbubə Məlikova (Göyərçin), Ramiz Məlikov və Yaşar Nuriyev** (Səlim), Mikayıl Mirzəyev (Şair), Şahin Cəbrayılov (Tərlan), Lalə Bağırova (Katibə).

* *Qeyd.* Zərnigar Ağakişiyeva (Aynur) məşq etdi, ancaq tamaşada oynamadı.

** *Qeyd.* Yaşar Nuriyev (Səlim) tamaşada oynamadı.

16 dekabr. «Şəhərin yay günləri», Anar.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu.

Rollarda: Məlik Dadaşov* və Səməndər Rzayev (Bəhram Zeynallı), Sofiya Bəsirzadə (Rüxsarə), Həsən Turabov (Qiyas Zeynallı), Şəfiqə Məmmədova (Dilarə), Pərviz Bağırov (Rasim),Yaşar Nuriyev (Namiq), Hamlet Qurbanov (Şamxal), Muxtar Avşarov (Əjdər), Mərziyə Məmmədbəyli (Tamara), Fuad Poladov (Ağarəfi), Sevil Xəlilova (Qumru), İlham Əhmədov (Namiq Kamal) (Firuz), Nəcəf Həsənzadə (Qoyun gətirən).

* *Qeyd.* Məlik Dadaşov (Bəhram Zeynallı) məşq etdi, ancaq tamaşada oynamadı.

30 dekabr. «Qızıldan qiymətli»*, Draqomir Asenov. Tərcümə edəni Ənvər Məmmədxanlı.

3 pərdəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rejissor Lütfi Məmmədbəyov, rəssam Nüsrət Fətullayev.

Rollarda: Məmmədrza Şeyxzamanov (Spasov), Məhluqə Sadıqova və Şövkət Rzayeva** (Marinçeva), Məcnun Hacıbəyov (Lekov), Safurə İbrahimova (Nuneva), Lütfi Məmmədbəyov*** və Ramiz Məlikov (Petrunov), Sevil Xəlilova və Əminə Babayeva**** (Vasilka), Telman Adıgözəlov (Xinko).

**Qeyd.* «Qızıldan qiymətli» tamaşası cəmi altı dəfə göstərildi.

***Qeyd.* Şövkət Rzayeva məşq elədi, ancaq tamaşada Marinçeva rolunu oynamadı.

****Qeyd.* Lütfi Məmmədbəyov məşq elədi, ancaq tamaşada Petrunov rolunu oynamadı.

*****Qeyd.* Əminə Babayeva məşq elədi, ancaq tamaşada Vasilka rolunu oynamadı

* * *

Bu il teatrın baş rejissoru Tofiq Kazımovun yaradıcılığının təbəddülatlı və sənətkarın özünün sıxışdırıldığı dövr-mərhələ ilə daha səciyyəvidir. O, məcburiyyət qarşısında qalıb Mirzə İbrahimovun «Bəşərin komediyası və yaxud Don Juan» (Molyerin «Don Juan» komediyasının motivləri əsasında), bolqar dramaturqu Draqomir Asenovun «Qızıldan qiymətli» (tərcüməçi Ənvər Məmmədxanlı) və İshaq İbrahimovun tərcüməsində Anatoli Safronovun «Daşqın» dramlarını

«Qızıldan qiymətli», Draqomir Asenov. Soldan: Nuneva – Safurə İbrahimova, Xinko – Telman Adıgözəlov və Vasilka – Sevil Xəlilova. 1976-cı il

«Şəhərin yay günləri», Anar. Qiyas Zeynallı – Həsən Turabov və Dilarə – Şəfiqə Məmmədova. 1977-ci il

tamaşaya hazırladı. Pyeslərin heç biri toxunduğu problemə, xarakterlərin bədii təsvirinə, konfliktin ictimai-sosial məğzinə görə Tofiq Kazımovun nə ruhuna, nə rejissor qayəsinə, nə üslub dəst-xəttinə uyğun gəlmirdi.

Həmin əsərlərin üçünü də müəyyən münasibət və ideoloji tələblərə görə tamaşaya hazırlayan Tofiq Kazımov özünün sənət kredosuna, uzun illər boyu formalaşdırdığı konsepsiyasına, fəal sənətkar mövqeyinə, yumşaq desəm, xəyanət etmiş oldu. Rejissor bu tamaşalarda, əsasən, özünün yetişdirdiyi lirik-psixoloji üslubun təmsilçi aktyorları sayılan Şəfiqə Məmmədova (Teodora, «Don Juan»), Yaşar Nuriyev (Sqanarel, «Don Juan»), Hamlet Xanızadə (Don Martin, «Don Juan»), Səməndər Rzayev (Beryozin Qriqori, «Daşqın»), Safurə İbrahimova (Yevgeniya, «Daşqın» və Nuneva, «Qızıldan qiymətli»), İlham Əhmədov (Pedro, «Don Juan» və Çakan, «Daşqın»), Əminə Babayeva (Kamilla, «Don Juan» və Vasilka, «Qızıldan qiymətli»), Rafael Dadaşov (Don Juan), Şükufə Yusupova (Anyuta, «Daşqın»), Ramiz Məlikov (Petrunov, «Qızıldan qiymətli»), Məhbubə Məlikova (Berta, «Don Juan»), Sevil Xəlilova (Vasilka, «Qızıldan qiymətli» və Donna Anna, «Don Juan») ilə işləmişdi. Ancaq bu ifaların heç biri nə rejissorun nə də ifaçıların yaradıcılığına yüksək dəyərlərlə daxil ola bilmədi.

«Daşqın» və «Qızıldan qiymətli» tamaşalarında rejissorun rəssam Nüsrət Fətullayevlə birgə işinin də səmərəli bəhrəsi alınmamışdı. «Don Juan» tamaşasının bədii tərtibatını vermiş Fuad Qafarov yeniliyə, məkanın obrazlı həllinə çalışmışdı. Əvvəlki iki tamaşasında seçmə musiqinin tərtibatına üstünlük verən rejissorun «Don Juan»da bəstəkar Vasif Adıgözəlovla əməkdaşlığının işıqlı tərəfləri görünürdü.

1974-cü ilin iyul ayının 19-da «Ədəbiyyat və incəsənət» qəzetində Anarın «101-ci il» başlıqlı məqaləsində onun yaş nəslinin teatra yaxın buraxılmadığından giley-güzar edilirdi. Əslində, öz məqaləsində teatrın müxtəlif problemlərini təhlilə çəkəndə çıxardığı qənaətlərdə haqlı Anarın baş rejissor Tofiq Kazımovdan məhz bu gileyinin zəminli əsasları yox idi. Çünki nə o, nə də onun istedadlarına güvəndiyi Əkrəm Əylisli, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov, Elçin, Vaqif Səmədoğlu... və digərləri teatra elə bir sanballı əsər təqdim etməmişdilər. Deməli, onları «teatra yaxın buraxmırlar» hökmü əsassız

idi. Tofiq Kazımov özü həmin illərdə müasir mövzulu, mürəkkəb konfliktli pyes axtarışında idi. Nəhayət, ilin əvvəlində Anar ali məktəb həyatından, qəbul imtahanlarından bəhs edən «Şəhərin yay günləri» pyesini teatra verdi.

Anar dram əsərlərində psixoloji dərinliyə daha çox meyil edir, müəllif məqsədinin əsasında dayanan insan ləyaqətinin müqəddəsliyini müxtəlif səpkidə təsdiqləyir. Psixoloji realizm üslubunda yazdığı «Şəhərin yay günləri» Anarın ilk pyesidir ki, Akademik teatrın marağına səbəb oldu. Pyesin yazılış üslubu, mövzu-problematikası, konfliktin qoyuluşu Tofiq Kazımovun teatr prinsiplərinə, ifadə vasitələrinə, yaradıcılıq axtarışlarına, bədiiyyata maraq dairəsinə uyğun gəlirdi. Bütün bunların məntiqi nəticəsi kimi Tofiq Kazımov ciddi səylə qısa müddətə əsəri səhnədə ustalıqla «qurdu». Dinamik, şux, düşündürən, tərəddüdləri parçalayan, fərdi öz daxili «məni» ilə dialoqa çəkən tamaşa yarandı (bu hissələrin bütöv mətni üçün müəllifin aşağıdakı məqaləsinə bax: İlham Rəhimli. İnsan ləyaqətinin təntənəsi – «Azərbaycan gəncləri», 7 fevral 1978).

Rejissorun tamaşadakı ali məqsədi aydın verilmişdi. Və bütün əsər boyu diqqətlə gözlənilir, meyar pozulmurdu. «İnsanlar, hansı şəraitdə, hansı vəziyyətdə, hansı psixoloji mübarizələr burulğanında olsanız da, ləyaqətinizi uca tutun» ali məqsədi tamaşada poetik çağırış, fəlsəfi kamillik təntənəsi kimi səslənirdi. Ana xəttə xidmətdə verildiyindən ali məqsədin çağdaşlığı, vacibliyi, bütövlüyü daha da qabarıqlaşmışdı. Hər cür kənar mühitin mənfi təsirindən, cazibəsindən insan ləyaqətini qorumaq ana xəttə çevrilərək bütün hadisələri birləşdirib eyni məqsədə yönəltmişdi.

Tamaşada dramatik mübarizə bir cəmiyyətdə yaşayan iki əksqütblü insanlar arasında gedirdi. Mübarizənin özəyini isə fikir müxtəlifliyi, mənəvi əksliklər, əqidə, amal ayrılığı təşkil edirdi. Mübarizə meydanında üz-üzə dayanmış, qütblərin ən güclü və bilərəkdən qabarıq verilmiş nümayəndələri Həsən Turabovun ilhamla, dərin psixoloji çalarlarla yaratdığı Qiyas Zeynallı və Səməndər Rzayevin yumorlu və dramatik boyaların sintezi ilə oynadığı Bəhram Zeynallı obrazları idi.

Bəhram öz şəxsi mənafeyi üçün hər cür «güzəştə» getməyə hazırdır və gedir də. Qiyas isə şəxsiyyətin böyüklüyünü, cəmiyyət

üçün yararlı olduğunu ictimai borcu hər cür şəxsi istəklərdən üstün tutması ilə təsdiqləyirdi. Təbiidir ki, bəhramlar da, qiyaslar da mübarizəni öz mövqelərindən aparırdılar. Nəticədə fikir toqquşmaları daha kəskin şəkil alır, həyəcan doğurur, tamaşaçı daxili rahatsızlıq keçirir, epizodları intizar və maraqla izləyirdi. Diqqətçəkən, əsasən, o idi ki, tamaşaçı Qiyasın mübarizə arqumentinin, mübarizə mövqeyinin sağlam ruhunu görür, həqiqətin, düzlüyün onun tərəfində olduğuna bütün varlığı ilə inanırdı. Tamaşanın müasirliyi, aktuallığı, ideya vacibliyi bu inamın güclülüyündə, insanları saflığa, xeyirxahlığa, müqəddəsliyə, düzlüyə, mənəvi bütövlüyə çağırmasında idi.

Elə buradaca qeyd edim ki, konfliktin kulminasiya nöqtəsi və düyünlərin açılması ilə bağlı nöqsanlar nəzərə çarpırdı. Bəhramın oğlu Rasimin, Namiqin və Qumrunun avtomobil qəzasına uğradığı səhnədə münaqişələr zirvəyə çatır. Lakin bundan sonrakı şəkil-epizodlar (hadisələr) məntiq və mənaca böyük əhəmiyyətli olsa da, az sanki yarımçıq idi, təsvirdə bədii tələskənlik vardı. Halbuki dramaturq, lap elə rejissor ekspozisiyanı (birinci, ikinci və üçüncü şəkilləri) bir qədər qısaldıb bu səhnələri uzatmaqla dinamikliyi daha da gücləndirə, nəticələrin səbəblərini daha sanballı edə bilərdilər.

«Şəhərin yay günləri» düşündürən, qəlblərə sirayət edən tamaşa idi. Onun hüsnü bir də orasında idi ki, psixoloji-realizm üslubunda oynayan aktyorların xarakter yaratmaq üçün sənətin dərin qatlarına necə cəsarətlə müdaxilə etdikləri aydın nəzərə çarpırdı. Hətta tamaşanın ən epizodik, ən kiçik və aktyor üçün bədii materialı ən az olan Qoyun gətirən adam obrazını Nəcəf Həsənzadə elə tipikləşdirmişdi ki, dolğun xarakter kimi baxılırdı.

Qoyun gətirənin əsas bir mətni var: «Əsədulla sizin üçün qoyun göndərib». Tofiq Kazımov elə mizanlar vermişdi ki, bu beşkəlməlik cümlə müəyyən məqsəd və ovqatı açıqlayan vasitəyə çevrilirdi. Rejissorun təfsirində və Nəcəf Həsənzadənin oyununda Qoyun gətirən obrazı buyruq quludur, Əsədullanın mütisidir, onun əmrlərinə müntəzirdir. Onun bircə məqsədi var: tapşırılmış işi, vəziyyətdən asılı olmayaraq, icra etsin. Bunun üçün də aktyorun mətn kimi yuxarıda dediyimiz bircə cümləsi var. Lakin rejissor Nəcəf Həsənzadəyə elə xarakterik detallar, bədii ifadə vasitələri tapmışdı ki, onun səhnəyə

hər çıxışı salona təzə hava gətirirdi. Aktyorun gəlişi üçün tapılmış musiqi də maraqlıydı. Şeypurun boğuq, eyni zamanda müəmmalı səsi Nəcəfin oyununu tamamlayırdı.

Sözsüz ki, «Şəhərin yay günləri» tamaşasında ən parlaq aktyor oyunu Həsən Turabov, Şəfiqə Məmmədova və Səməndər Rzayev üçlüyünə məxsus idi. Onların üçlükdə, ikilikdə və təklikdə səhnələri rejissor tərəfindən dəqiqliklə, yüksək zövqlə, heyranedici cazibədarlıqla işlənmişdi.

Emosional, dramatik aktyor Həsən Turabov Qiyas obrazının ifasına rol xarakterindən doğan komik və fəci elementləri də cəsarətlə əlavə edirdi. Qiyas Zeynallı ali məktəb müəllimidir. O, əmisi Bəhram Zeynallının himayəsində böyüyüb. Sadədir, haradasa bir qədər qəribədir. Bu qəribəlik obraza bütövlük gətirir. Həsən Turabov meyarı unutmur, qəribəliyi mürəkkəb hadisələrdən doğan, gözlənilməzlikdən irəli gələn, Qiyası çaş-baş salmış yardımçı cəhət kimi oynayırdı. Aktyor qəribəliyin kökünü isə Qiyasın həqiqətpərəstliyi, prinsipiallığı, obyektivliyi, «gör məni, görüm səni fəlsəfəsinə» iyrənclik, rəzillik, alçaqlıq kimi baxması ilə səciyyələndirirdi. İnsan ləyaqəti Həsən Turabovun səhnədəki işinin şah damarıdır, aktyor məqsədinin özəyində dururdu. Digər əlavə qollara baxmayaraq, Qiyas – Həsən Turabov əqidə, amal rəqibləri Bəhramla, Şamxalla (Hamlet Qurbanov) üzləşdiyi səhnələrdə mənən qələbə çalır. Aktyor oynadığı obrazı birdənbirə təqdim etmir, mürəkkəbliyi səhnədən-səhnəyə canlandıraraq finalda kamil xarakter səviyyəsinə çatdırırdı. Bəhram Zeynallının zabitəli baxışları altında sıxılan, yazıqlaşan Qiyas – Həsən Turabov zəhmli deyilsə də, təmizqəlbli, müqəddəs amallı olduğu, ictimai borcu, vicdan təmizliyini üstün tutduğu, ləyaqətini qoruduğu üçün qələbə çalır. Bu məqamları aktyor elə səmimi, elə gözəl oynayırdı ki, rəqiblərinin, mənəvi düşmənlərinin cılızlıqları, daxili puçluqları və eybəcərlikləri nifrət doğururdu.

Tamaşada Qiyasın yuxu gördüyü səhnə obrazın açılması üçün əhəmiyyətlidir və rejissor tapıntısı kimi maraqlıdır. Həmin səhnədə aktyorlar da səylə oynayırdılar. Ancaq ümumi yozum bir qədər bəsit idi, istənilən təsir gücündə deyildi. Burada musiqi də psixoloji vəziyyətin xarakterinə uyğun deyildi.

Tamaşanın ən mürəkkəb, ən ziddiyyətli personajı Bəhram Zeynallıdır. O, gözəl həkim, professor, sənətinin bilicisidir, dünyanın bir sıra ölkələrində elmi məzuniyyətdə olub. Eyni zamanda həyat fəlsəfəsi çürük zəmin üzərində qurulub: rüşvətxordur, şəxsi mənfəətini hər şeydən üstün tutur, övladının xoşbəxtliyini harınlıqda görür, etdiyi yaxşılıqların mütləq əvəzini güdür və ən nəhayət, dəhşətli dərəcədə riyakardır.

Göründüyü kimi, bu rolu oynamaq, onu dramaturq və rejissorun istəyi səviyyəsinə çatdırmaq asan deyil, aktyordan daxili zənginlik tələb edir. Səməndər Rzayevdə saydığımız aktyorluq keyfiyyətləri də vardı, hələ üstəlik onları bu rolun (həmçinin, digər rolların) xarakterinə uyğun tərzdə obrazın canına, qanına hopdurmaq bacarığı da. Səməndər Rzayevin ustalığı, ilk növbədə, onda idi ki, Bəhram Zeynallını tamaşaçıya birinci pərdədən bütünlüklə təqdim etmirdi. Obrazın xarakterini hadisələrlə bağlı şəkildə çözələyə-çözələyə açır, nəhayətdə ziddiyyətli tipin səhnə «heykəlini yonurdu». Bunun üçün aktyorun bir neçə ifadə vasitəsi vəhdət təşkil edirdi. Bəhram – Səməndər Rzayev səhnəyə zabitəli, iri və cəld addımlarla gəlir, sanki yerə-göyə sığmırdı. Niyə? Bu sualın cavabını Səməndər öz oyununun mənalı və əsaslı olmasıyla verirdi. Onun aktyor təfsirində və rejissorun yozumunda Bəhram özündən o qədər razıdır ki, fərdi öz gümanında barmaq qoyduğu, baş qoşduğu hər müşkül iş düzəlməlidir. Buna görə də Səməndər Rzayevin ifasında Bəhram səhnəyə çıxanda meydan sulayır, hamıya üstdən aşağı baxırdı.

Başqa bir cəhət. Bəhramın ən təhlükəli cəhəti odur ki, «ovuyla» açıq mübarizə aparmır, müəyyən vasitələrlə onu tələyə salıb sonra «iş» görür. Tələyə salmaq üçün isə çox vaxt özü barədə illüziya yaratmaqdan istifadə edir. Xarici ölkələrdə gördüklərindən danışır və gözlənilmədən «sözüm onda deyil» deyib, əsas mətləbə keçərək müsahibini çaş-baş salır. Bu vasitə ilə də istəyinə nail olur. Səməndər Rzayev illüziya vasitəsinin tamaşaçıları yormamasından ötrü maraqlı forma tapmışdı və hər dəfə bu formanın fərqli variasiyalarından istifadə edirdi.

Nəhayət, Bəhram Zeynallı özünü nə qədər tox tutsa da, Qiyasa və onun əməllərinə biganə olduğunu göstərmək istəsə də, daxilində sək-

səkə, qorxu var. Bu qorxu Bəhramın boğmaq istədiyi həqiqətin səsidir, kabus kimi onu izləyir. Tamaşaçı Bəhram Zeynallının varlığını bürümüş səksəkəni, qorxu hissini Səməndər Rzayevin mənalı gözlərində, hərdən baxışlarının hansı nöqtədəsə ilişib qalmasında, dalğınlığında görür və duyurdu.

Bəhram Zeynallının arvadı Rüxsarə də maraqlı obrazdır, real və həyatidir. Ancaq dramaturq onu Bəhram kimi ziddiyyətli, mürəkkəb, ziqzaqlı deyil, birtərəfli, düzxətli verib. Rüxsarə həyatın mənasını bahalı daş-qaşda, brilyant üzüklərin çoxluğunda, geyimdə, bir sözlə, əşyabazlıqda görür. Belə harınlığın, nəinki adicə tənqidi, hətta köklü ifşası da həyatın və insanlığın tələbi kimi səslənirdi. Rüxsarə rolunun ifaçısı Sofiya Bəsirzadə öz oyun proqramında rejissorun qarşıya qoyduğu tələbi işgüzarcasına yerinə yetirirdi. Bununla belə, dramaturqun məşhur professorun həyat yoldaşını bu dərəcədə küt, korazehin verməsi inandırıcı deyildi, obrazın bədii kamilliyini, psixoloji mürəkkəbliyini zəiflədirdi.

Qiyas Zeynallının həyat yoldaşı Dilarəni Şəfiqə Məmmədova ürək çırpıntısıyla, hərarətlə və bir qədər də coşqunluqla oynayırdı. Onun ifasında Dilarə Qiyas kimi dözümlü olmasa da, safürəklidir, təmiz qəlbi var və əqidəcə ərinin mövqeyində durur, insan ləyaqətinə üstünlük verirdi. Belə müqəddəs hislə yaşadığı üçün həyatda büdrəsə də, yıxılmamasını aktrisa öz oyununda məharətlə əsaslandırırdı.

Dilarənin küsüb evdən getməsi, sonra qayıtması hadisələrin psixoloji inkişafı, ideyanın tamlığı üçün vacib olsa da, tamaşa müəlliflləri tərəfindən dəmir məntiqlə əsaslandırılmamışdı. Bu, müəyyən mənada tamaşanın sürət-ritmini səngidirdi.

Öz meyli baxımından komik planda inkişaf edən Yaşar Nuriyev «Şəhərin yay günləri» tamaşasında dramatik səpkili Namiq rolunu oynamaqla, istedadının təzə çalarını açdı. Onun qabiliyyəti rejissorların diqqətini cəlb etdi və Yaşar Nuriyevin gələcək yaradıcılığının bir qolunun təməl daşı məhz bu tamaşada, Tofiq Kazımovun cəsarətli addımı sayəsində qoyuldu. Yaşar Nuriyevin oyunu ürəyəyatımlı və səmimi idi. O, Namiqin təmizliyini, saflığını, sevginin ülviliyini ön plana çəkməklə tamaşaçını özünün emosional, bəzən kövrək oyununa inandırırdı.

Bədii siqlətinə, tutumuna görə Namiqlə müqayisədə Bəhramın oğlu Rasim (Pərviz Bağırov) və Tamara (Mərziyə Məmmədbəyli) obrazları cılız çıxmışdılar. Bəlkə də, rejissor Tofiq Kazımov fikri əsas hadisələrə yönəltdiyinə görə haqqında danışdığımız yardımçı surətləri bilərəkdən passiv vermək istəmişdi. Təbii ki, passivlik sönüklük deyil. Tamaşada Rasim və Tamara obrazları məhz sönük çıxmışdılar, dramatik hadisələrə qaynayıb-qarışmırdılar. Tamaşanın əvvəlində Rasim kimi harın böyüyənlərə qarşı mübarizə başlayırdı, lakin sona çatdırılmır, ilk şəkillərdən sonra həmin xətt itirdi. Pərviz Bağırov rejissor tərəfindən üzərinə düşən «yükü» daşımağa ciddi cəhd göstərirdi. Mərziyə Məmmədbəylinin ifası isə sönük, aktyor səyi passiv idi.

Qumru rolunu oynayan Sevil Xəlilovanın da ifası zəif çıxmışdı. Pyesin özündə Qumru səmimi idi, dramaturq onu ləyaqətli vermişdi. Sevil Xəlilova buradan çıxış edib obrazın məhəbbətini nağılvari poetiklik səviyyəsinə qaldırmalıydı. Buna nail olsaydı, Qumrunun ölümü tamaşaçılarda emosional reaksiya oyadar, kövrək, həzin yanğı hissi doğurardı.

Aktyorların cəhdlərinə baxmayaraq, Əjdər (Muxtar Avşarov) və Firuz (İlham Əhmədov) obrazlarının rejissor tərəfindən yanlış yozumu, daha doğrusu, tamaşanın ümumi konsepsiyasına uyuşmayan poetika prinsipləri ilə tələqqisi cazibədarlığı zəiflətmiş, həmin personajlarla bağlı mənaları kölgələndirmişdi.

Fuad Poladovun oynadığı Ağarəfi isə həm bədiiliyi, həm də aktyor ifası baxımından diqqəti cəlb edirdi. Aktyorun oyun manerası, ifa tərzi, sifət ifadələri, əl hərəkətləri düşünülmüş məna kəsb edən davranış təsiri bağışlayırdı.

«Şəhərin yay günləri» tamaşasının quruluşçu rəssamı Solmaz Haqverdiyevanın işindəki yığcamlıq tamaşanın ümumi bədii səviyyəsinə cavab verirdi. Tərtibat konstruksiya etibarilə konkret və mənalı idi, asan dərk edilirdi. Belə mənalılıq Emin Sabitoğlunun musiqisində də hiss olunurdu. Bununla belə, Namiq xətti ilə bağlı lirik musiqi parçaları dramatik səhnələrdəkindən daha qüvvətli çıxmışdı. İkinci mövzuda bəstəkarın tələskənliyi aydın sezilirdi.

«Şəhərin yay günləri» tamaşasının yaradıcı heyətindən Tofiq Kazımov (quruluşçu rejissor), Səməndər Rzayev (Bəhram Zeynallı),

Şəfiqə Məmmədova (Dilarə) 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görüldülər.

Nazim Hikmət dramaturgiyasına xüsusi rəğbəti olan teatr onun İslam İbrahimov tərəfindən tərcümə olunmuş «Məhəbbət əfsanəsi» dramını Ələsgər Şərifovun quruluşunda oynadı. Romantik oyun üslubu tələb edən əsərin adi dram janrında təfsiri dramaturqun bəşəri ideyalarının tərənnümünü cılızlaşdırırdı. Rejissor təfsirindən gələn naqisliklərin nəticəsində Hökümə Qurbanovanın Məhmənəbanu, Fuad Poladovun Fərhad, Vəfa Fətullayevanın Şirin, Sofiya Bəsirzadənin Dayə, Bürcəli Əsgərovun Vəzir, Əliabbas Qədirovun Şərif, Hamlet Qurbanovun Gəlmə, Muxtar Avşarovun Bəhzad rolları dramaturji materialdan uzaq, sönük, bəzi məqamlarda cansız təsiri bağışlayırdılar.

Gəncə teatrı ilə sıx əlaqə saxlayan, oranın baş rejissoru Yusif Bağırovun quruluşlarına tərtibat verən Dmitri Tavadzenin «Məhəbbət əfsanəsi»ndəki işində güclü maraq doğura biləcək nailiyyətlərlə rastlaşmaq olmurdu. Onun müqabilində Aqşin Əlizadənin musiqisi mənalı idi, hər dəfə müəyyən psixoloji ovqatın açılmasına xidmət edirdi.

Bəxtiyar Vahabzadənin üzərində dönə-dönə işlədiyi, əvvəl «Artıq adam» adlandırılan «Yollara iz düşür...» pyesi mövzu baxımından aktual və maraqlı olsa da, dramaturji cəhətdən natamam təsiri bağışlayırdı. Pyesi tamaşaya hazırlayan quruluşçu rejissor Əşrəf Quliyev (rəssam Elçin Aslanov, bəstəkar Adil Bəbirov) mövcud qüsurları islah etmək əvəzinə, tamaşanın təfsir və yozumunda onları daha da dərinləşdirmiş, bununla da ortalığa bədiiyyatdan uzaqlaşan əsər çıxarmışdı.

Teatr «Gülməyi sevənlər üçün» adlı iki hissəli bədii gülüş gecəsi hazırladı. Proqrama orijinal və tərcümə olunmuş vodevillər, sketçlər, intermediyalar, monoloqlar, tamaşalardan səhnələr daxil idi. Eldəniz Zeynalovun, İlham Əhmədovun, Rafiq Əzimovun, Mərziyə Məmmədbəylinin, Pərviz Bağırovun, Əsgər Məmmədoğlunun iştirak etdikləri gecə, əsasən, rayonlarda, Bakının kəndlərində və məktəblərində göstərilirdi.

1977-ci ildə teatr janr büdrəmələrinə, üslub qarışıqlığına daha çox yol verdi.

* * *

Yubileylər. İlin əvvəlində Cəfər Cabbarlının anadan olmasının 75 illiyinə həsr edilmiş xatirə gecəsi keçirildi. Ədibin «Oqtay Eloğlu» (üçüncü şəkil), «1905-ci ildə» (üçüncü şəkil), «Solğun çiçəklər» (üçüncü şəkil), «Almaz» (üçüncü şəkil), «Aydın» (üçüncü şəkil) tamaşalarından parçalar göstərildi.

Dekabrın 24-də İsmayıl Dağıstanlının anadan olmasının 70 və səhnə fəaliyyətinin 50 illik yubileyi keçirildi. Şəmsi Bədəlbəyli gecəni açdı və Əli İsmayılov məruzə söylədi. Yusif Bağırov (Gəncə teatrı), Salman Dadaşov (Sumqayıt teatrı), Məhluqə Sadıqova, Yaşar Nuriyev, Əliağa Ağayev, Əliabbas Qədirov, Ətayə Əliyeva, Səməndər Rzayev... sənət dostlarını təbrik etdilər. Gecənin bədii hissəsi olmadı, əvvəldən belə planlaşdırılmışdı.

1000-ci tamaşa. Mayın 31-də «Vaqif» tamaşası 1000-ci dəfə oynanıldı. Vaqif rolunu İsmayıl Dağıstanlı, Xuramanı Nəcibə Məlikova, Qacarı Məmmədrza Şeyxzamanov, Vidadini İsmayıl Osmanlı ifa etdilər.

Qastrol. Teatr Respublikanın cənub bölgələrinə bir aydan çox müddətə (5 iyul – 7 avqust) qastrola çıxdı. Lənkəran, Masallı, Astara, Cəlilabad, Puşkin (indiki Biləsuvar) rayonlarında on beş əsərin altmış tamaşası oynanıldı. Repertuara aşağıdakı əsərlər daxil edilmişdi: «İnsan» və «Vaqif», (Səməd Vurğun), «Kölgələr pıçıldaşır « (Seyfəddin Dağlı), «Kəndçi qızı», «Bəşərin komediyası və yaxud Don Juan» (Mirzə İbrahimov), «Qəribə oğlan», «Unuda bilmirəm» (İlyas Əfəndiyev), «Nakam qız» (Aleksandr Şirvanzadə), «Övlad» (Aleksandr Vampilov), «Qılınc və qələm» (Məmməd Səid Ordubadi), «Yağışdan sonra» (Bəxtiyar Vahabzadə), «Əks-səda» (Nəbi Xəzri), «Darıxma, ana!» (Nodar Dumbadze), «Vəkil neyləsin?..» (Ramiz Fətəliyev), «Daşqın» (Anatoli Safronov).

Truppada dəyişmə. Sumqayıt Dövlət Dram Teatrının aktrisası, lirik rollara maraq doğuran Sevil Abbasova dekabrın 12-də aktyor heyətinə qəbul edildi. Elmira Haşımova isə aprelin 18-də Sumqayıt teatrına qayıtdı.

Məlik Dadaşov müvəqqəti ayrılıqdan sonra noyabrın 10-da kollektivə gəldi.

Əcəl aldı... Uzun illər Akademik teatrda çalışan yumorlu, dramatik epizodik rollarla həmişə repertuarın əksər tamaşalarında iştirak edən Əminə Əliabbas qızı Nağıyeva (Sultanova) 1971-ci il sentyabrın 30-da təqaüdə çıxdı. Ancaq aktrisa dəvətlə çağırılıb tamaşalarda öz rollarını ifa edirdi. Əminə xanım iyulun 23-də, daha çox faciə və dramatik janrlı pyeslərdə oynamış aktyorlardan, Əməkdar artist Sadıq Saleh Xəlil oğlu Bağırov sentyabrın 24-də, Kamil Mehdi oğlu Qubuşov oktyabrın 31-də vəfat etdilər.

Dramaturqlar. Anar (Rzayev Anar Rəsul oğlu. 4.3.1938) – Azərbaycanın Xalq yazıçısı. ADU-nun filologiya fakültəsini (1960), Moskvada isə Ali ssenari (1964) və kino rejissorluğu (1972) kurslarını bitirib. Respublika Dövlət mükafatı laureatıdır. «Qaravəlli», «Şəhərin yay günləri», «Keçən ilin son gecəsi», «Sizi deyib gəlmişəm...», «Təhminə və Zaur», «Adamın adamı», «Səhra yuxuları»... pyesləri və sevilən nəsr əsərləri var.

Draqomir Asenov (15.5.1925 – 19.6.1981). Bolqar dramaturqu və nasiri. Əsl adı Jak Nisim Melameddir. «Ad günü», «Bizim taqım», «Qadın ürəyi haqqında elegiya», «Vicdan» əsərləri var.

1978-ci il

18 mart. «İstintaq», Rüstəm İbrahimbəyov.

2 hissəli dram.

Quruluşçu rejissor Rasim Ocaqov, rejissor İsrafil İsrafilov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Xəyyam Mirzəzadə.

Rollarda: Həsən Turabov və Rafael Dadaşov (Müstəntiq), Hamlet Xanızadə və Əliabbas Qədirov* (Müttəhim), Məlik Dadaşov (Kamera qonşusu), Şükufə Yusupova (Müttəhimin arvadı), Şəfiqə Məmmədova və Zərnigar Ağakişiyeva (Müstəntiqin arvadı), Kamal Xudaverdiyev (Həmkar).

* *Qeyd.* Əliabbas Qədirov məşq elədi, ancaq tamaşada Müttəhim rolunu oynamadı.

29 aprel. «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə.

2 hissəli faciəvi komediya.

Quruluşçu rejissor Mehdi Məmmədov, rejissor Məmmədkamal Kazımov, rəssam Elçin Məmmədov, bəstəkar Cahangir Cahangirov.

Rollarda: Həzrəti Əşrəf, İsmayıl Osmanlı və Fateh Fətullayev (Hacı Naib), Hamlet Qurbanov (Doktor Lalbyuz), Elxan Ağahüseynoğlu (Şimirəli), Hamlet Xanızadə və Həsən Turabov* (Dəli Molla Abbas), Şəfiqə Məmmədova və Şükufə Yusupova (Pırpız Sona), Ramiz Məlikov və Fuad Poladov** (Farmasyon Rüstəm), Yaşar Nuriyev (Sərsəm Salman), Rafiq Əzimov və Şahin Cəbrayılov*** (Həmzad Qurban), Kamal Xudaverdiyev və Mikayıl Mirzəyev (Cinni Mustafa), Bürcəli Əsgərov (Hacı Məhəmmədəli), Muxtar Avşarov (Hacı Xudaverdi), Hacı İsmayılov (Hacı Cəfər), Sadıq İbrahimov (Hacı İslam), Fateh Fətullayev (Məşədi Hacı), Ağasadıq Gəraybəyli və İlham Əhmədov (Hacı Mədinə), Əliağa Ağayev (Hacı Əbdüləzim), Məmmədrza Şeyxzamanov (Nəcəfül Əşrəf), Məmməd Sadıqov və Pərviz Bağırov**** (Hacı Bağdad), Mustafa Süleymanov (Kərbalayı Türbət), Aqşin Vəlixanlı və Ələsgər Məmmədoğlu (Məkkə Məhəmməd), Səməndər Rzayev (Fazil Küleyni), Mirvari Novruzova və Ətayə Əliyeva (Məşədi Zeynəb), Mərziyə Məmmədbəyli (Ümmü Gülsüm), Rəhilə Mirzəyeva və Səadət Zülfüqarova (Əminə), Məhbubə Məlikova (Səkinə), Məcnun Hacıbəyov (Çavuş Ələlfələh), Firuz Xudaverdiyev (Bir kişi), Azər Xudaverdiyev (Uşaq), Sevil Xəlilova, Lalə Bağırova və Sevil Abbasova (zəvvarlar), Əlvida Cəfərov, Vətən Kərimov, Əsgər Məmmədoğlu, Şahin Cəbrayılov, Elxan Quliyev, Rafael Baxışov və Telman Adıgözəlov (zəncirvuranlar).

* *Qeyd.* Həsən Turabov Molla Abbas rolunu bir neçə dəfə məşq etdi, lakin tamaşada oynamadı. Proqram əvvəldən quruluşçu rejissor tərəfindən tərtib edilib çapa verildiyi üçün orada Həsən Turabovun adı getmişdi. Aydınlıq üçün onu da qeyd edim ki, Həsən Turabov səhnədə deyil, mizarxası məşqlərdə olub.

** *Qeyd.* Fuad Poladov məşq elədi, ancaq tamaşada Farmasyon Rüstəm rolunu oynamadı.

*** *Qeyd.* Şahin Cəbrayılov məşq elədi, ancaq tamaşada Həmzad Qurban rolunu oynamadı.

**** *Qeyd.* Pərviz Bağırov məşq elədi, ancaq tamaşada Hacı Bağdad rolunu oynamadı.

30 iyun. «Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə.

«Dəli yığıncağı», Cəlil Məmmədquluzadə. Tamaşadan səhnə. 1978-ci il

«Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə.
Soldan: Qulaməli – Yaşar Nuriyev, Məstəlişah – Məlik Dadaşov,
Xanpəri – Məhluqə Sadıqova, Şərəfnisə – Vəfa Fətullayeva və Şərəbanu –
Nəcibə Məlikova. 1978-ci il

2 hissəli komediya.

Quruluşçu rejissor Tofiq Kazımov, rejissor İsrafil İsrafilov, tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı Solmaz Haqverdiyeva, bəstəkar Oqtay Kazımov.

Rollarda: Məlik Dadaşov (Dərviş Məstəlişah), Rafiq Əzimov və İlham Əhmədov (Müsyö Jordan), Səməndər Rzayev və Məcnun Hacıbəyov* (Hatəmxan ağa), Nəcibə Məlikova (Şərəbanu), Vəfa Fətullayeva (Şərəfnisə), Sevil Abbasova (Gülçöhrə), Məhluqə Sadıqova və Mirvari Novruzova (Xanpəri), Fuad Poladov və Rafael Dadaşov** (Şahbaz bəy), Yaşar Nuriyev və Elxan Ağahüseynoğlu (Qulaməli).

* *Qeyd.* Məcnun Hacıbəyov (Hatəmxan ağa) məşq etdi, ancaq tamaşada oynamadı.

** *Qeyd.* Rafael Dadaşov (Şahbaz bəy) məşq etdi, ancaq tamaşada oynamadı.

18 noyabr. «Sevil», Cəfər Cabbarlı.

2 hissəli dram.

Böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 80 illiyinə həsr edilir.

Quruluşçu rejissorlar Fuad Hacıyev və Zəminə Hacıyeva, rəssam Solmaz Haqverdiyeva, musiqi tərtibatçısı Tofiq Babayev, rəqslərin quruluşçusu Xanımana Haşımova.

Rollarda: Safurə İbrahimova (Sevil), Məhbubə Məlikova və Lalə Bağırova (Gülüş), Əliabbas Qədirov (Balaş), Zərnigar Ağakişiyeva və Əminə Babayeva (Dilbər), Ağasadıq Gəraybəyli və Muxtar Avşarov (Atakişi), Əliağa Ağayev və Məmməd Sadıqov (Babakişi), Yaşar Nuriyev (Əbdüləli bəy), Məcnun Hacıbəyov və Hacı İsmayılov (Məmmədəlibəy), Mirvari Novruzova və Rəhilə Mirzəyeva* (Tafta), Sevil Abbasova (Gündüz).

* *Qeyd.* Rəhilə Mirzəyeva məşq elədi, ancaq tamaşada Tafta rolunu oynamadı.

29 dekabr. «Quşu uçan budaqlar», Əkrəm Əylisli.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rejissor Lütfi Məmmədbəyov, rəssam Kamal Şıxəliyev, bəstəkar Cahangir Cahangirov.

Rollarda: Həsən Turabov (Qədir), Bəsti Cəfərova (Səltənət), Məmmədrza Şeyxzamanov (Səltənətin atası), Şükufə Yusupova (Cəlil), Yaşar Nuriyev (Qasım), Hacı İsmayılov (Ərşad), İlham Əhmədov (Feyzulla), Səməndər Rzayev (Müzəffər), Mirvari Novruzova (Gülgəz), Məcnun Hacıbəyov (Mehdiqulu), Əlvida Cəfərov (Birinci cavan), Rüstəm Əliyev (İkinci cavan).

* * *

Yetmişinci illərin ortalarında Moskvada çıxan «Teatr» jurnalı statistik araşdırma keçirmişdi. Məlum olmuşdu ki, SSRİ-nin teatrlarında pyesləri ən çox oynanılan üç dramaturqdan biri Rüstəm İbrahimbəyovdur. Bir il ərzində onun əlliyə yaxın dramı tamaşaya qoyulmuşdur. Rus dilində yazan, milli dramaturgiyamızda universal tipli lirik-psixoloji üslubun yaradıcısı olan Rüstəm İbrahimbəyovun yaradıcılığına Akademik teatr ilk dəfə müraciət etdi.

Teatr dramaturqun «İstintaq» pyesi üzərində dayandı. Tamaşanı hazırlamaq üçün Rüstəm İbrahimbəyovun həyat və sənət dostu, «Azərbaycanfilm»in rejissoru Rasim Ocaqov çağırıldı. Elə həmin vaxtlar dramaturq və ssenarist Rüstəm İbrahimbəyovla Rasim Ocaqov «İstintaq»ı ekranlaşdırmaq barədə yaradıcılıq axtarışları aparırdılar. Kəskin süjetli, dərin sözaltı mənası olan, xaraktercə üzdə sadə, psixoloji dönüşləri mürəkkəb, universal tipli lirik-psixoloji üslubun səhnəmizdə qaranquşu sayılan «İstintaq»ın tamaşası müəllif və rejissorun gələcək kino işləri üçün bir növ sınaq xarakteri daşıdı.

Premyeradan bir ay əvvəl, fevralın 19-da «Kommunist» qəzetinə müsahibə verən Rasim Ocaqov dramaturqun janr təyininə əsaslanaraq tamaşanın ali məqsədini necə müəyyənləşdirəcəyi barədə deyirdi: «... Müəllif istəyindən çıxış edərək tamaşanı həmin janrda hazırlayırıq. Janrın tələbləri bizə imkan verir ki, hadisələrin gərginliyini artıraq, psixoloji dərinliyi gücləndirək, xarakterlərin mənəvi varlığını ön plana çəkək, həqiqətin təntənəsi mövzusunu qabarıqlaşdıraq».

Konflikti ictimai və şəxsi mənafelərin toqquşmasında kəskinləşən «İstintaq» tamaşasının ideyası həqiqətin mürəkkəb psixoloji təsdiqinin keçdiyi təzadlar üzərində qurulmuşdu. Təzadların kəskin əks-qütb təmsilçiləri yox idi. Müstəntiq (Həsən Turabov və Rafael Dadaşov)

və müttəhim (Hamlet Xanızadə və Əliabbas Qədirov), Kamera qonşusu (Məlik Dadaşov) və Həmkar (Kamal Xudaverdiyev), Müttəhimin arvadı (Şükufə Yusupova) və Müstəntiqin arvadı (Şəfiqə Məmmədova və Zərnigar Ağakişiyeva) müxtəlif şəkillərdə və müxtəlif vəziyyətlərdə, müxtəlif psixoloji məhvərdə və demək olar, eyni hadisələr zəminində qütb təmsilçisi mövqelərini dəyişirdilər.

Həsən Turabov tamaşada ikinci, üçüncü planı sakit, zəngin daxili həyəcan və emosiyalarla, böyük məharətlə oynayırdı. Aktyor coşqun ehtirasla müdrik sakitliyi, çılğın hərəkətlərlə aram, mənalı baxışlarını eyni məqsəddə birləşdirir, böyük bir fikri qısa pauzada verə bilirdi.

Həsən Turabov obrazın bilavasitə iştirak etdiyi hər səhnəni müxtəlif ifadə vasitələri ilə, müxtəlif texniki fəndlərlə oynamaqla Müstəntiq surətinə psixoloji meydan açırdı. Bu müxtəliflikdən son dərəcə həssaslıqla nəzərə çarpan ana xətt keçirdi. Müstəntiq riyakarlığa düşmən, həqiqətə işıq tutan, mənəviyyatlı şəxsiyyətdir.

Həsən Turabovun belə dəyərli oyunu müqabilində rolun ikinci ifaçısı Rafael Dadaşov quru, deklorativ oyun göstərirdi.

Hamlet Xanızadə dərin psixoloji sarsıntı keçirən müttəhimin daxili rahatsızlığını birinci pərdədə sakit oyun manerası ilə təcəssüm etdirirdi. İkinci pərdədə kulminasiyanın son həddində isə həyəcanlarını, psixoloji gərginliyini hərəkətlərin məna və mahiyyətində verirdi.

Məlik Dadaşovun ekssentrik hərəkətlər toplusunda həm daxili, həm də zahiri ifadə vasitələrini sənətkarlıqla birləşdirərək Kamera qonşusunu zavallı və miskin mənəvi etirafa hazır olan və həm də asanca riyakarlıq edə biləcək mürəkkəb tip kimi oynayırdı. Onun oyunundakı rənglər sərt, soyuq, çılğın və təzadlı idi. Təbii ki, bu müxtəliflik Kamera qonşusu rolunun xarakterinə mürəkkəb psixoloji dərinlik verirdi.

Şükufə Yusupova (Müttəhimin arvadı) və Zərnigar Ağakişiyeva (Müstəntiqin arvadı) tamaşanın janrını oyun tərzində saxlamağa çətinlik çəkirdilər. Ancaq Şəfiqə Məmmədova lirizmdən satiraya, satiradan dramatizmə, gözlənilməz melodramaya sərbəstcə keçir, Müstəntiqin arvadı rolunu həm ictimai-sosial, həm də ailə-məişət mövqeyindən aydınlıqla rəsm edirdi.

Kinoda hər epizodun baxım bucağını, ekran görümünü böyük incəliklə qura bilən Rasim Ocaqov tamaşada da belə mizanlar vermişdi.

Ancaq səhnənin ümumi dağınıq kompozisiyasında (rəssam Solmaz Haqverdiyeva), işığın texniki icrasının səliqəsizliyi nəticəsində belə incəliklər effektini itirirdi. Kinodakı ümumi, orta, iri planların səhnədən qeyri-mümkünlüyü rejissorun bir sıra tapıntılarını anlaşılmaz etmişdi.

Təsadüfi deyil ki, az sonra «İstintaq» filmini çəkən rejissor, həmçinin ssenari müəllifi Rüstəm İbrahimbəyov, Şəfiqə Məmmədova (Müstəntiqin arvadı), Moskva Akademik Bədaye Teatrının aktyoru Aleksandr Kalyagin (Müstəntiq), Həsən Məmmədov (Müttəhim) 1981-ci ildə SSRİ Dövlət mükafatına layiq görüldülər.

Pyesi Akademik teatrda ilk dəfə oynanılan Əkrəm Əylislinin «Quşu uçan budaqlar» dramını tamaşaya Tofiq Kazımov hazırlamışdı. Pyes teatra «Qədir ağacı» adı ilə təqdim edilmişdi. Nəsrimizdə lirik-psixoloji üslubun görkəmli təmsilçilərindən sayılan Əylisli bu pyesi özünün «Kür qırağının meşələri» povestinin motivləri əsasında yazmışdı. Dünya, o cümlədən Azərbaycandakı cəhdlərin təcrübəsi (məsələn: «Dumanlı Təbriz» və «Qılınc və qələm», Məmməd Səid Ordubadi) göstərir ki, povestdən, romandan pyesə çevirmə prosesində nəsr əsəri mütləq itirir. Ancaq pyesin janr həlli, dramaturji bütövlüyü, kompozisiya qurumu bədiiliyin ölçülərinə sənətkarlıqla uyğun gələndə nəsrin itkiləri o qədər də nəzərə çarpmır. Yaxud bu itkilər tamaşanın uğuruna o qədər də mane olmur.

Əkrəm Əylislinin povesti ilə müqayisədə «Quşu uçan budaqlar» pyesi zəif alınmışdı. Ədibin obrazları içərisində çılğınlığı, haqqı müdafiə mövqeyi, sərt və eyni zamanda kövrək lirizmi, psixoloji təzadları ilə Qədir xüsusi yer tutur. Qədir həm də ümumi nəsrimizin layiqli və orijinal obrazlarındandır. Pyesdə isə Qədirin psixoloji fəaliyyət meydanı bir qədər daraldılıb məhdudlaşdırılmışdı. Belə məhdudiyyət Qasım və Səltənət surətlərinin dramaturji təqdimində də vardı.

Üslub və ruhən Əkrəm Əylisli ilə eyni pərdədə köklənmiş Tofiq Kazımov, söz boşluğunu pauza və hərəkət monoloqları ilə məharətlə doldura bilən Həsən Turabov (Qədir), yumorunun hərarəti bütün səhnəyə emosional sirayət edən Yaşar Nuriyev (Qasım), kəskin hadisəli obrazlarda da istedadının texniki sərbəstliyini mənalı məqsədə yönəldən Səməndər Rzayev (Müzəffər), sözlərin mənasını psixoloji ləngərlə əyaniləşdirən Məmmədrza Şeyxzamanov (Səltənətin atası)

«Quşu uçan budaqlar» tamaşasının uğurunu təminatlandırmışdılar. Belə bir ansamblda pyesin qüsurları nisbətən görünməz olmuşdu. Cahangir Cahangirovun musiqisindəki dərin lirizm tamaşaya kövrək ahəng vermişdi.

«Quşu uçan budaqlar» tamaşasındakı Səltənət rolu istedadlı aktrisa Bəsti Cəfərovanın debütü oldu. Hələ üçüncü kurs tələbəsi olan Bəsti teatra Həsən Turabovun təklifi ilə dəvət almışdı. Onun səhnə sərbəstliyi, çevik davranışı, emosional ifadə vasitələrinin zərifliyi Səltənət roluna canlılıq və təbiilik vermişdi (bax: 1).

Səylə oynamağa çalışan Mirvari Novruzovanın (Gülgəz), Hacı İsmayılovun (Ərşad), Şükufə Yusupovanın (Cəlil), Məcnun Hacıbəyovun (Mehdiqulu) ifalarında natamam görünən məqamlar da vardı. Bu natamamlığın kökündə obrazların dramaturji naqisliyi dururdu.

«Quşu uçan budaqlar»dan əvvəl Tofiq Kazımov Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəlişah» komediyasına quruluş vermişdi. Əvvəlcə tamaşanın premyerasının tarixi barədə.

Axundzadə yaradıcılığını dərindən bilən, onun bəşəri ideyalarını səhnə komizmi dili ilə verməkdə xüsusi bacarığı olan Tofiq Kazımov «Müsyö Jordan və Dərviş Məstəlişah» komediyasını qısa müddətə hazırladı. İyun ayının 30-da tamaşanın premyerası göstərildi. Adətən, dalbadal iki, üç, bəzən dörd premyera oynayan teatr iyun ayının 30-da bir tamaşa oynadı və yay mövsümü sona çatdı. İkinci tamaşa isə sentyabrın 12-də, payız mövsümünün açılışında göstərildi. Həmin tamaşa da premyera adlandı və ona məxsusi afişalar buraxıldı. Bu, əksər tədqiqatçıları çaşdırmış və onlar «Müsyö Jordan və Dərviş Məstəlişah» komediyasının ilk tamaşasının 12 sentyabrda oynadığını yazmaqla yanlışlığa yol vermişlər.

Tofiq Kazımov tamaşanı məsxərə və qaravəllinin başlıca prinsipləri əsasında hazırlamışdı. Oqtay Kazımovun musiqisi rejissorun qaravəlliyə meyxana və dərviş rəqs çalarları verməsi üçün bədii vasitə idi.

Tamaşada qaravəlli ritminə uyğun dinamika verən rejissor aktyorlar qarşısında əməl-fəaliyyət xətlərinin əsasında məhz həmin ahəngi saxlamağı tələb etmişdi. Məlik Dadaşov (Məstəlişah), Yaşar Nuriyev (Qulaməli), Səməndər Rzayev (Hatəmxan ağa), Nəcibə Məlikova (Şə-

rəbanu), Mirvari Novruzova (Xanpəri), Vəfa Fətullayeva (Şərəfnisə) rejissorun bu tələbini öz istedadlarının imkanları dərəcəsində icra edirdilər. Onda tamaşanın şuxluğu, dadı-məzəsi, əyləncəli cazibəsi daha mənalı görünürdü. Elxan Ağahüseynoğlu (Qulaməli) və Məhluqə Sadıqova (Xanpəri) rejissor yozumunun tələb etdiyi başlıca ifadə vasitələrini səhnədə reallaşdırmaqda çətinlik çəkirdilər. Rafiq Əzimovun oynadığı Müsyö Jordan rolu sürət-ritm lənglivi ilə tamaşanın əsas hərəkət ahəngini pozurdu. Bu rolda İlham Əhmədov daha yapışıqlı idi. Fuad Poladovun oynadığı Şahbaz bəy rolunda lənglik bir qədər başqa formada təcəssüm tapmışdı.

Cəfər Cabbarlının anadan olmasının 80 illiyi münasibətilə teatr Fuad və Zəminə Hacıyevlərin quruluşunda dramaturqun «Sevil» tamaşasını göstərdi. Zahiri görkəmcə hər şey yerli-yerində olan tamaşada başlıca amil olan müasirlik duyğusu, pyesin çağdaş oxunuşu, mövzunun günümüzlə bağlılığının estetik göstəriciləri çatışmırdı. «Sevil»in səhnəyə təzə gəlişini sevinclə qarşılayan resenziya müəllifəri də bu məsələnin üstündən sükutla keçmiş, tamaşanı ümumi sözlərlə təsvir və təbliğ etməyə çalışmışdılar (bax: 2).

«Sevil» tamaşası əvvəldən axıradək, əsasən, süst gedirdi. Yaşar Nuriyev (Əbdüləli bəy), Əliağa Ağayev (Babakişi), Ağasadıq Gəraybəyli (Atakişi) bu süstlüyə, azacıq da olsa, canlanma verirdilər. Fəlsəfi-estetik anlam kimi «balaşçılığın» ifşası tapılmamışdı.

Sevilin əsrimizin 70-ci illəri üçün xarakterik olan həyatı, Gülüşün ictimai mövqeyinə müasir baxış tamaşada duyulmurdu. Üstəlik Lalə Bağırovanın qeyri-səmimi, mətləbsiz oyunu Gülüşü az qala karikatura personajına bənzədirdi. Məhbubə Məlikova isə Gülüşü nisbətən dramatik tərzdə oynayırdı.

Ancaq onun, eyni zamanda Məcnun Hacıbəyovla Hacı İsmayılovun (Məmmədəli bəy), Safurə İbrahimovanın (Sevil), Əliabbas Qədirovun (Balaş), Mirvari Novruzovanın (Tafta) ifalarının səmərəsiz qalması quruluşçu rejissorların pyesin müasir obrazını tapa bilməmələrindən irəli gəlirdi.

1978-ci ilin üslubca teatrın ümumi fəaliyyətindən kəskin şəkildə fərqlənən tamaşası «Dəli yığıncağı» oldu. Cəlil Məmmədquluzadənin bu faciəsi Akademik teatrda birinci dəfə oynanılırdı. Mehdi Məm-

mədov kollektivin bütün yaradıcı potensiyasını parlaqlıqla təcəssüm etdirən, ictimai-sosial problemləri fəlsəfi biçimdə göstərən monumental tamaşa yaratmışdı.

Millətin nadanlığına Mirzə Cəlil kədəri, cəmiyyətin fanatizminə Mirzə Cəlil yanğısı, sərsəm başların idrak sahiblərinə dəlilik donu biçib onları çarmıxa çəkməsinə Mirzə Cəlil fəryadı, kütlüyə, əbləhliyə, mənəvi eybəcərliyə qarşı Mirzə Cəlil hayqırtısı tamaşanın fəlsəfi vüsətini, estetik hüsnünü müəyyənləşdirmişdi.

Sərsəm cəmiyyətdə dəli görünən, daha doğrusu, əbləhlərin «dəli» adlandırdıqları Molla Abbas (Hamlet Xanızadə) obrazına müdrik rejissorun fəlsəfi qənaətlərinin daşıyıcısı kimi təfsir-yozum verilmişdi. Həmin yozumun digər qanadı Pırpız Sonanın (Şəfiqə Məmmədova) və Cinni Mustafanın (Kamal Xudaverdiyev və Mikayıl Mirzə) simasında təmsil olunurdu.

Üslubca müxtəlif aktyor məktəblərinə mənsub Əliağa Ağayev (Hacı Əbdüləzim), Məmmədrza Şeyxzamanov (Nəcəfül Əşrəf), Aqşin Vəlixanlı (Məkkə Məhəmməd), Səməndər Rzayev (Fazil Küleyni), Ətayə Əliyeva (Məşədi Zeynəb), Yaşar Nuriyev (Sərsəm Salman), Hacı İsmayılov (Hacı Cəfər), Ağasadıq Gəraybəyli (Hacı Mədinə), Hamlet Qurbanov (Doktor Lalbyuz), İsmayıl Osmanlı (Hacı Naib) faciəvi komediyanın ideya müstəvisində həm kəsişir, həm də biri-birini həssaslıqla tamamlayırdılar.

Mehdi Məmmədovun oğlu Elçin Məmmədovun Akademik teatrda tamaşalara verdiyi tərtibatlar arasında «Dəli yığıncağı»ndakı işi daha obrazlı və daha mənalı, fəlsəfi yükü dəqiq bölüşdürülən tərtibat təsiri bağışlayırdı. Səhnə boyu qurulmuş qövsvari məkan mərtəbəli idi. Yataq, çardaq, məhlə, qəbir evi... kimi mənalanan dekorun çoxqatlı qurumu rejissorun fəlsəfi fikirlərinin ayrı-ayrı laylarının açılmasına təkan verirdi.

Bəstəkar Cahangir Cahangirovun «Xəyyam» tamaşasından sonra «Dəli yığıncağı»ndakı musiqisi öz əzəməti, fikir dərinliyi ilə sənətkarın sənət qələbəsinə çevrildi.

«Dəli yığıncağı» tamaşasındakı Hacı Naib rolunu doqquz dəfə dalbadal İsmayıl Osmanlı oynadı. Onuncu tamaşa ərəfəsində o, qəflətən xəstələnib yatağa düşdü. Yataqdan qalxmayan sənətkarı Hacı Naib rolunda dublyoru Fateh Fətullayev əvəz etdi.

Qeybulla Rəsulovun «Tut ağacının kölgəsində» pyesi iki dəfə bədii şurada oxundu. İkinci dəfə əlavə qeyd və iradlarla əsər teatrın repertuarına qəbul edildi. Ancaq nə həmin il, nə də sonralar «Tut ağacının kölgəsində» pyesi tamaşaya qoyulmadı.

Tamaşası bu il üçün planlaşdırılmış Uilyam Şekspirin «Heç nədən hay-küy» komediyasının sentyabrda başlanan məşqləri arada dayandırıldı. Müəyyən fasilədən sonra məşqləri bərpa edilən tamaşanın premyerası 1979-cu il martın 10-da göstərildi.

* * *

Fəxri adlar. 1978-ci il yanvar ayının 11-də Məhluqə Sadıqova Azərbaycan Respublikasının Xalq artisti, may ayının 25-də Məmmədkamal Kazımov Əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görüldülər.

Təltif. Əliabbas Qədirova «Sevinc buxtası» filmində oynadığı rola görə Respublika Dövlət mükafatı verildi.

Keçən il oynanılmış «Şəhərin yay günləri» (Anar) tamaşasının quruluşçu rejissoru Tofiq Kazımov, Şəfiqə Məmmədova (Dilarə), Səməndər Rzayev (Bəhram Zeynallı) Respublika Dövlət mükafatı laureatı oldular.

Truppada dəyişmə. Epizod və yardımçı rollar ifaçıları Hökümə Qasımova avqustun 10-da, Şövkət Rzayeva mayın 10-da təqaüdə çıxdılar.

Azərbaycan Dövlət İncəsənət İnstitutu dram və kino aktyorluğu fakültəsinin məzunları Səidə Quliyeva və Nurəddin Quliyev sentyabrın 1-də təyinatla Akademik teatra işə götürüldülər. Amaliya Pənahova iki il yarımlıq fasilədən sonra dekabrın 15-də teatra qayıtdı.

Əcəl aldı... Epizodik xarakterlər ustası kimi teatr tariximizin parlaq səhifələrindən birini təşkil edən, səhnədə Xaspolad («Oqtay Eloğlu»), Əbdül («Solğun çiçəklər», Cəfər Cabbarlı), Qasım və Xəlil («Əliqulu evlənir» və «Nişanlı qız», Sabit Rəhman), Şəkərlinski, Heydərqulu («Kəndçi qızı» və «Həyat», Mirzə İbrahimov), Məşədi Oruc («Ölülər», Mirzə Cəlil), Cəbi («Yağışdan çıxdıq, yağmura düşdük», Nəcəf bəy Vəzirov), Karandışev («Cehizsiz qız», Aleksandr Ostrovski), Təlxək («On ikinci gecə», Uilyam Şekspir), Kərim Rəhimli («Alov»,

Mehdi Hüseyn), Vahidov («Şirvan gözəli», Ənvər Məmmədxanlı), Lyapkin-Tyapkin («Müfəttiş», Qoqol), ekranda «26 Bakı Komissarı», «O olmasın, bu olsun», «Mən ki gözəl deyildim», «Dəli kür», «Poçt qutusu», «Yeddi oğul istərəm», «Yenilməz batalyon», «Ulduzlar sönmür» filmlərindəki Şahbazov, Rza bəy, Şərif, Faytonçu Məmmədəli, Kələntər dayı, Usta Yusif, Milyonçu Tağıyev kimi rollar yaratmış, realist aktyor məktəbinin layiqli yetirməsi, SSRİ Xalq artisti İsmayıl Osman oğlu Osmanlının vəfatı (24 aprel 1902 – 22 iyun 1978) Akademik teatr üçün böyük itki oldu.

Dramaturqlar. Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov (5.2.1939). Azərbaycan nasiri, dramaturqu və kino ssenaristi. Rusca yazır. İxtisası neft mühəndisidir, ancaq Moskvada Ali ssenari kursunu bitirib. Xalq yazıçısı (1998), SSRİ Dövlət (1981) və «Oskar» (1995) mükafatları laureatıdır. Çağdaş Azərbaycan dramaturqlarından keçmiş SSRİ məkanında və xaricdə ən çox əsərləri oynanılan müəllifdir. «İstintaq», «Ultimatum», «Qum üstündə ev», «Biganələr oteli», «Təmas», «Kabinet tarixçəsi», «Şirə bənzər», «Kaliforniyada dəfn», «Yaşıl qapı arxasında», «Ürək... ürək...» və bu kimi dəyərli pyeslərin müəllifidir.

Əkrəm Nəcəf oğlu Əylisli Naibov (6.12.1937). Ordubadın Əylis kəndində doğulub və Moskvada ali ədəbiyyat təhsili alıb. Əsasən, povest, hekayə və romanlar yazır. Özünün nəsr əsərləri əsasında «Mənim nəğməkar bibim», «Quşu uçan budaqlar», «Yastı təpə», «Sevmə məni, yazığam», «Vəzifə»... dramlarını qələmə alıb.

Mənbələr

1. Loğman Rəşidzadə. «Köçəri quşlar qayıdanda...». – «Sovet kəndi», 8 fevral 1979; Abbas Zamanov. «Qədirin iztirabları...». – «Ədəbiyyat və incəsənət», 30 mart 1979.

2. Aydın Cabbarzadə. «Sevil»in təzə quruluşu. – «Azərbaycan gəncləri», 10 aprel 1978; M. Allahverdiyev. «Sevil». – «Bakı», 21 fevral 1979; Seyfəddin Dağlı. «Sevil» yeni quruluşda. – «Kommunist», 23 dekabr 1978; S.Əbdül Səlimzadə, «Sevil» tamaşası yeni quruluşda. – «Azərbaycan müəllimi», 20 iyun 1979; İslam İbrahimov. «Sevil» yaşayır. – «Ədəbiyyat və incəsənət», 10 fevral 1979.

1979-cu il

10 mart. «Heç nədən hay-küy», Uilyam Şekspir. Tərcümə edəni Mirzə İbrahimov.

2 hissəli komediya.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Nüsrət Fətullayev, bəstəkar Xəyyam Mirzəzadə, rəqslərin quruluşçusu Rimma Məmmədova, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Hamlet Xanızadə (Don Pedro), Ramiz Məlikov (Don Xuan), Rafael Dadaşov (Klavdio), Fuad Poladov (Benedikt), Hamlet Qurbanov (Leonato), Rüstəm Əliyev (Antonio), Pərviz Bağırov (Baltazar), Rafiq Əzimov (Boraçio), Şahin Cəbrayılov (Konrad), Fateh Fətullayev* və Mustafa Süleymanov (Fransisko ata), Səməndər Rzayev (Doqberi), Aqşin Vəlixanlı (Bulava), Nəcəf Həsənzadə (Protokolçu), Əlvida Cəfərov (Birinci gözətçi), Əsgər Məmmədoğlu (İkinci gözətçi), Səidə Quliyeva (Hero), Vəfa Fətullayeva (Beatriçe), Mərziyə Məmmədbəyli (Marqarita), Sevil Xəlilova və Sevil Abbasova** (Ursula), Elxan Quliyev və Vətən Kərimov*** (Çapar), Rafael Baxışov (Xidmətçi), Elxan Ağahüseynoğlu (Təlxək).

* *Qeyd.* Fateh Fətullayev məşq elədi, ancaq tamaşada Fransisko ata rolunu oynamadı.

** *Qeyd.* Sevil Abbasova məşq elədi, ancaq tamaşada Ursula rolunu oynamadı.

*** *Qeyd.* Vətən Kərimov məşq elədi, ancaq tamaşada Çapar rolunu oynamadı.

11 may. «Adamın adamı», Anar.

2 hissəli satirik komediya.

Quruluşçu rejissor Anar, rejissor Həsən Turabov, rəssam Elçin Aslanov, bəstəkar Emin Sabitoğlu.

Rollarda: Əliağa Ağayev (İbiş İbişli), Hamlet Xanızadə (Fənd Fərəc), Şəfiqə Məmmədova (Nazlı Qəmzəli), Şükufə Yusupova (Süsən Sünbül), Rafiq Əzimov və Hacı İsmayılov (Fənd Bağır), Safurə İbrahimova və Əminə Babayeva (Balaxanım), Mikayıl Mirzəyev (Tərs Tahir), Zərnigar Ağakişiyeva və Əminə Babayeva (Xəbərçi Xədicə), Aqşin Vəlixanlı (Əhməd Biqəm), Məmməd Sadıqov və Muxtar

«Heç nədən hay-küy», Uilyam Şekspir.
1979-cu il

«Adamın adamı», Anar. Soldan: Fənd Bağır – Rafiq Əzimov, Həfçi Məlik – Yaşar Nuriyev və Xoca Zığzığ – Muxtar Avşarov. 1979-cu il

Avşarov (Xoca zığ-zığ), Səməndər Rzayev (Əli Əyrizadə), Hamlet Qurbanov və Məcnun Hacıbəyov (Mərd Məzarov), Yaşar Nuriyev (Həfçi Məlik), İlham Əhmədov (Tarik Tərlan), Elxan Ağahüseynoğlu (Bufetçi Ağabala), Nəcəf Həsənzadə, Əsgər Məmmədoğlu və Əlvida Cəfərov (epizodlar).

9 may. «Fitnə», Abdulla Şaiq. Nizami Gəncəvinin «Yeddi gözəl» poemasının motivləri əsasında.

2 hissəli mənzum dram.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Oqtay Kazımov, rəqslərin quruluşçusu Xəyyam Kələntərov.

Rollarda: Əliabbas Qədirov və Rafael Dadaşov (Bəhram), Fateh Fətullayev, Kamal Xudaverdiyev* və Mustafa Süleymanov (Vəzir), Sofiya Bəsirzadə və Ətayə Əliyeva (Gövhər), Sadıq İbrahimov və Mikayıl Mirzəyev (Bəxtiyar), Sevil Abbasova və Səkinə Əbdülhəsənova (Afət), Sevil Xəlilova və Əminə Babayeva (Fitnə), Elxan Ağahüseynoğlu və Pərviz Bağırov (Əyyar), Əsgər Məmmədoğlu (Vəkil), Mustafa Süleymanov, Məmməd Sadıqov** və Firuz Xudaverdiyev (Qoca), Firuz Xudaverdiyev və Elxan Quliyev (Birinci qulam), Rafael Baxışov (İkinci qulam), Əlvida Cəfərov və Şahin Cəbrayılov (Cavan kəndli).

* *Qeyd.* Kamal Xudaverdiyev məşq elədi, ancaq tamaşada Vəzir rolunu oynamadı.

** *Qeyd.* Məmməd Sadıqov Qoca rolunun məşqlərindən yarımçıq uzaqlaşdı.

27 oktyabr. «Cehizsiz qız», Aleksandr Ostrovski. Tərcümə edəni Ənvər Məmmədxanlı.

2 hissəli dram.

Quruluşçu rejissor Ələsgər Şərifov, rəssam Nüsrət Fətullayev, bəstəkar Tofiq Babayev, rəqslərin quruluşçusu Xəyyam Kələntərov.

Rollarda: Nəcibə Məlikova (Oqudalova), Amaliya Pənahova və Əminə Babayeva* (Larisa), Səməndər Rzayev (Knurov), Məlik Dadaşov (Paratov), Rafiq Əzimov (Karandışev), Rafael Dadaşov (Vojevatov), Mirvari Novruzova və Rəhilə Mirzəyeva** (Ekfrisinya Potapovna), Elxan Ağahüseynoğlu (Robinzon), Məmməd Sadıqov

(Qavrilo), Pərviz Bağırov (İvan), Şahin Cəbrayılov (İlya), Mərziyə Məmmədbəyli, Sevil Xəlilova, Sevil Abbasova, Firuz Xudaverdiyev, Rafael Baxışov, Əlvida Cəfərov, Ələsgər Məmmədoğlu və Lalə Bağırova (qaraçılar).

* *Qeyd.* Əminə Babayeva məşq etdi, ancaq tamaşada Larisa rolunu oynamadı.

** *Qeyd.* Rəhilə Mirzəyeva məşq elədi, ancaq tamaşada Ekfrisinya Potapovna rolunu oynamadı.

30 dekabr. «Bu qadın mənimdir», Raymondo Juniyor. Tərcümə edəni Tofiq Kazımov.

2 pərdəli komediya.

Quruluşçu rejissor Oqtay Salamov (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu), rəssam Kamal Şıxəliyev. Tamaşanın bədii rəhbəri Tofiq Kazımov.

Rollarda: Fuad Poladov (Joan Qanqorra), Safurə İbrahimova (Mariyetta Teles), Lütfi Məmmədbəyov (Leonel Mourano), Məhluqə Sadıqova (Adeliya Mourano), Sofiya Bəsirzadə (Avrora Mourano), Əliağa Ağayev (Keşiş Bazilio), Pərviz Bağırov (Bələdiyyə rəisi).

Martın 20-də Nikolay Poqodinin «Kreml saatı» (1975) tamaşası bərpa edildi.

* * *

Yeddi aylıq məşqdən sonra Əşrəf Quliyevin rejissorluğunda Uilyam Şekspirin «Heç nədən hay-küy» komediyası martın 10-da tamaşaçılara göstərildi. Pyesi Mirzə İbrahimov tərcümə etmişdi. Tamaşanın rəssamı Nüsrət Fətullayev, bəstəkarı Xəyyam Mirzəzadə idi.

«Heç nədən hay-küy» tamaşası lirik romantizmdən, Şekspir yumorunun canındakı nikbin həyat eşqindən məhrum olunmuşdu. Rejissor dramatik yumorlu və xarakterik tipajları öz təfsirində sxematik prinsipdə göstərməklə, Şekspir dramaturgiyasındakı rəngarəng həyatiliyi itirmişdi.

Rəqslərin quruluşçusu Rimma Məmmədovanın çəkdiyi zəhmətə baxmayaraq, əksər aktyorlar dörd əsr əvvəlki İngiltərə kübar cəmiyyətinin, orta təbəqənin, adi həyat adamlarının rəqslərini, ədalarını, məişət davranışlarını, ali məclisdə, gündəlik həyatda qadın – xanım

müraciət formalarının məğzini sənətkarlıqla göstərə bilmirdilər. Obrazların geyimlərində də ciddi qüsurlar, uyarsızlıqlar vardı.

Əşrəf Quliyevin Uilyam Şekspirin komediyalarına xas olan zahiri sadəliyi vodevil yüngüllüyü, plastik həll tələb edən sadə münasibət formalarını fars elementləri ilə əvəz etməklə, sanki əsərdəki ictimai-sosial münasibətlərin üstündən qara xətt çəkmişdi. Aktyorların əksəriyyəti, Mustafa Süleymanov (Fransisko ata), Rüstəm Əliyev (Antonio), Rafiq Əzimov (Boraçio), Şahin Cəbrayılov (Konnrad), Mərziyə Məmmədbəyli (Marqarita), Pərviz Bağırov (Baltazar), Hamlet Qurbanov (Leonato) rejissorun komediyanı yanlış təfsirinin əsiri olmaqla, Şekspir ruhuna bir qədər yad səhnə obrazları təqdim edirdilər.

Dünya klassikasından digər nümunənin, Aleksandr Ostrovskinin «Cehizsiz qız» dramının tamaşası da məna və məzmunca dramaturqun sənət qayəsindən uzaq idi. Rus klassiklərini tamaşaya hazırlamaqda səriştəli olan Ələsgər Şərifov «Cehizsiz qız»ın ikinci quruluşunda dramın kəskin ictimai konfliktini yeni baxış bucağından səhnədə canlandıra bilməmişdi.

Tamaşanın forma həllini tapa bilməyən, məzmunun fəlsəfi dərinliyinə müdaxilədə çətinlik çəkən quruluşçu rejissor Larisa (Amaliya Pənahova), Oqudalova (Nəcibə Məlikova), Karandışev (Rafiq Əzimov), Vojevatov (Rafael Dadaşov), Robinzon (Elxan Ağahüseynoğlu), Ekfrisinya Potapovna (Mirvari Novruzova) rolları üçün aktyorları düzgün seçməmişdi. Bəlkə də, rejissor öz aktyor seçimində haqlı idi. Lakin nəticə etibarilə açıqca görünürdü ki, obrazların indiki məzmun və formada təqdimi Ostrovski dramaturgiyasının müasirliyinə yaddır.

Tamaşanın canlı, dinamik obrazları Məlik Dadaşovun oynadığı Paratov və Səməndər Rzayevin ifa etdiyi Knurov rolları idi. Onlarla bağlı səhnələrdə, ünsiyyətə girdikləri dialoqlarda digər ifaçıların zəifliyi aydın görünürdü.

«Cehizsiz qız» tamaşasında hadisələrin ritmi də düzgün tapılmamışdı. Nəticədə ikihissəli tamaşa həm uzun, həm də cansıxıcı təsir bağışlayırdı. Qaraçılar səhnəsində bədiilik tamamilə itirdi.

İlin cari xarakter daşıyan, heç bir iz qoymadan unudulan tamaşalarından biri də Raymondo Juniyorun «Bu qadın mənimdir» komediyası oldu. Plandan kənar hazırlanan, tərtibatına və geyimlərinə elə bir

vəsait xərclənməyən «Bu qadın mənimdir» tamaşasının rejissoru İncəsənət İnstitutunun diplomçusu Oqtay Salamov idi. Kollektiv bu işə ciddi yanaşmamış, daha bir tələbəyə rejissor diplomu verilməsinin ciddiliyini vəziyyətə göz yummaqla əvəz etmişdi.

Nizami Gəncəvinin «Yeddi gözəl» poemasının motivləri əsasında Abdulla Şaiqin yazdığı «Fitnə» dramını teatr Beynəlxalq Uşaq ilinə həsr etmişdi. Quruluşçu rejissor Məmmədkamal Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Oqtay Kazımov, aktyorlardan Əliabbas Qədirov (Bəhram), Fateh Fətullayev (Vəzir), Sofiya Bəsirzadə (Gövhər), Mikayıl Mirzəyev və Sadıq İbrahimov (Bəxtiyar), Sevil Xəlilova (Fitnə), Sevil Abbasova (Afət) uşaqlar üçün tərbiyəvi, ibrətamiz ideyalı, əlvan rəngli tamaşa ortalığa çıxarmışdılar. Xüsusən yuxarı sinif şagirdləri «Fitnə»yə ciddi maraq göstərirdilər.

Akademik teatrın tarixində nadir hadisə idi ki, Şəki (başqa sözlə rayon) teatrında oynanmış hər hansı əsəri öz repertuarına daxil edirdi. Anarın «Adamın adamı» satirik komediyası Şəki teatrında qazandığı böyük uğurundan sonra Akademik teatrda tamaşaya hazırlandı. Tamaşanın quruluşçu rejissoru Anar idi. Əsas məşqləri isə Həsən Turabov aparmışdı.

Buffonada, karnaval estetikaları, məsxərə, qaravəlli ifadə elementləri əsasında qurulmuş, qroteskə istiqamətlənmiş «Adamın adamı» tamaşasında Əliağa Ağayev (İbiş İbişli), Hamlet Xanızadə (Fənd Fərəc), Şəfiqə Məmmədova (Nazlı Qəmzəli), Safurə İbrahimova və Əminə Babayeva (Balaxanım), Səməndər Rzayev (Əli Əyrizadə), Aqşin Vəlixanlı (Əhməd Biqəm), Yaşar Nuriyev (Həfçi Məlik), İlham Əhmədov (Tarik Tərlan) duzlu-məzəli, ekssentrik təmayüllü obrazlar yaradır, salona səxavətlə bolluca gülüş bəxş edirdilər.

* * *

Qastrol. Teatrın kollektivi noyabr ayının 12-dən 14-dək Gürcüstan Respublikasının paytaxtı Tiflisdə üçgünlük qastrolda oldu. O vaxt Azərbaycan Teatr Cəmiyyətinin (bu gün Teatr Xadimləri İttifaqıdır) nəzdində fəaliyyət göstərən «Dostluq teatrı»nın xətti ilə təşkil olunmuş bu səfərdə həmyerlilərimiz «Ölülər» (Mirzə Cəlil) və «Şəhərin yay günləri» (Anar) tamaşalarını oynadılar.

Əcəl aldı... Azərbaycanın Xalq artisti, on dörd yaşından anası Əzizə xanım Məmmədovanın və Abbasmirzə Şərifzadənin səyi ilə səhnəyə gələn Sona xanım Salman qızı Hacıyeva ilin sonunda rəhmətə getdi (25 iyun 1906 – 24 dekabr 1979). Fitri istedad sahibi olan Sona xanım klassik milli opera və operettalarda məharətlə çıxış etmək, filmlərə çəkilməklə yanaşı, Akademik teatrın səhnəsində onlarca rol oynamışdı. Bunların sırasında Nazlı («Ölülər», Mirzə Cəlil), Xumar və Çin qızı («Şeyx Sənan» və «Səyavuş», Hüseyn Cavid), Zinyət («Toy» Sabit Rəhman), Atlas («Həyat», Mirzə İbrahimov), Zöhrə («Eşq və intiqam», Süleyman Sani Axundov), Səadət («Bahar suları», İlyas Əfəndiyev), Anna («Həyatın dibində», Maksim Qorki), Varvara («Tufan», Aleksandr Ostrovski), Fnşetta («Fiqaronun toyu», Pyer Bomarşe), Ofeliya, Cülyetta («Hamlet», «Romeo və Cülyetta», Uilyam Şekspir), Cəfər Cabbarlının Solmaz, Sevil, Gülüş, Yaqut, Sevər, Almaz, Sona və Gülsabah obrazları daha nəzərə çarpan və əhəmiyyətlidir.

1980-ci il

23 fevral. «Karıxmış sultan», Taufiq əl Hakimi. Tərcümə edəni Ələsgər Şərifov.

2 hissəli pyes.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Nəriman Məmmədov, rejissor assistenti Məmmədrza Şeyxzamanov.

Rollarda: Hamlet Qurbanov (Sultan), Vəfa Fətullayeva (Qadın), Mirvari Novruzova (Xidmətçi qadın), Məmmədrza Şeyxzamanov (Vəzir), Muxtar Avşarov (Baş həkim), Səməndər Rzayev (Cəllad), Rafiq Əzimov (Müəzzin), Məcnun Hacıbəyov (Qul alverçisi), Yaşar Nuriyev (Meyxanaçı), İlham Əhmədov (Çəkməçi), Hacı İsmayılov (Naməlum adam).

27 aprel. «Yastı təpə», Əkrəm Əylisli.

2 hissəli dram.

Quruluşçu rejissor Tofiq Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Fərhəng Hüseynov, rejissor assistenti Ramiz Məlikov.

Rollarda: Şəfiqə Məmmədova (Bəyaz), Məlik Dadaşov (Manaflı), Məcnun Hacıbəyov (Qulam), Fuad Poladov (Murad), Zərnigar

Ağakişiyeva (Reyhan), Zemfira Nərimanova (Şeyda), Bürcəli Əsgərov (Mürsəl), Ramiz Məlikov (Teymur), Muxtar Avşarov (Məşədi İslam).

21 iyun. «Pepo», Qabriel Sundukyan. Tərcümə edəni Əbdürrəhim bəy Haqverdiyev.

3 pərdəli komediya.

Quruluşçu rejissor Məmmədkamal Kazımov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Mübariz Məlikov.

Rollarda: İlham Əhmədov (Pepo), Məhluqə Sadıqova (Şuşan), Şükufə Yusupova (Kekel), Əliağa Ağayev (Zümzümov), Məhbubə Məlikova (Epemiya), Rafiq Əzimov (Kiqo), Mikayıl Mirzəyev (Kakuli), Mərziyə Məmmədbəyli (Solome), Əlvida Cəfərov (Qiqoli).

3 oktyabr. «Əliqulu evlənir», Sabit Rəhman.

2 hissəli komediya.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Nazim Bəykişiyev, bəstəkar Emin Sabitoğlu, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Ağasadıq Gəraybəyli və Hamlet Qurbanov (Əliqulu), Sofiya Bəsirzadə (Gövhər), Sevil Abbasova və Firəngiz Mütəllimova (Qumral), Məcnun Hacıbəyov və Aqşin Vəlixanov (Xəlil), Sevil Xəlilova (Humay), Rafael Dadaşov və Nurəddin Quliyev* (Rövşən), Bəsti Cəfərova (Nazlı), Pərviz Bağırov (Kamal), Əminə Babayeva (Səadət), Hacı İsmayılov** və Əsgər Məmmədoğlu (Səfər), Şahin Cəbrayılov (Azad), Əlvida Cəfərov (Qarmonçalan), Nəcəf Həsənzadə (Nağaraçalan)

**Qeyd.* Nurəddin Quliyev məşq elədi, ancaq tamaşada Rövşən rolunu oynamadı.

*** Qeyd.* Hacı İsmayılov məşq elədi, ancaq tamaşada Səfər rolunu oynamadı. Sonralar Səfər rolunu Yaşar Nuriyev də ifa etdi.

26 dekabr. «Yad adam», Leonqard Frank. Tərcümə edəni Tofiq Kazımov.

2 hissəli dram.

Quruluşçu rejissor Oruc Qurbanov, rəssam Nüsrət Fətullayev, musiqi tərtibatçısı Mübariz Məlikov, rejissor assistenti Ramiz Məlikov.

Rollarda: Mikayıl Mirzəyev (Qoca), Məlik Dadaşov və Əliabbas Qədirov (Ruprex), Zərnigar Ağakişiyeva (Amaliya), Ramiz Məlikov və Pərviz Bağırov (Valter), Anar Məlikov və Mətin Mirzəyev*

«Yad adam», Leonqard Frank. Lizel – Safurə İbrahimova
və Ruprex – Məlik Dadaşov. 1980-ci il

«Yad adam», Leonqard Frank. Soldan: Valter – Ramiz Məlikov,
Sofi – Zemfira Nərimanova və Ruprex – Məlik Dadaşov. 1980-ci il

(Balaca Valter), Zemfira Nərimanova (Sofi), Yaşar Nuriyev (Eduard), Safurə İbrahimova və Əminə Babayeva (Lizel), Lütfi Məmmədbəyov (Polis komissarı), Əsgər Məmmədoğlu (Cənab Şrumf), Fateh Fətullayev və Saleh Babayev (Professor Simblok), Məzahir Cəlilov (Vəkil Vadenbirn), Rəhilə Mirzəyeva və Mərziyə Məmmədbəyli (Mamaça), Səidə Quliyeva (Qadın), Bürcəli Əsgərov (Dənizçi), Firuz Xudaverdiyev (Çolaq), Nəcəf Həsənzadə (Kor).

**Qeyd.* Anar aktyor Ramiz Məlikovun, Mətin isə Mikayıl Mirzəyevin övladlarıdır.

* * *

Mənəviyyat problemlərini öz quruluşlarında müxtəlif ictimai-sosial qatlardakı hadisələr məhvərində araşdıran Tofiq Kazımov həmin problemin səhnə təfsirini Şərq sultanlıq və padşahlıq üsul-idarəsinin siyasət zəminində vermək üçün çağdaş Misir dramaturqu Taufiq əl-Hakiminin «Karıxmış sultan» pyesi üzərində düşünürdü. Əsəri rejissor Ələsgər Şərifov tərcümə etmişdi. Ötən il oktyabrın 10-da oxunuş olmuşdu. Bir qədər sonra məşqlər başlandı və 1980-ci ilin ilk yeni tamaşası fevralın 23-də göstərilən «Karıxmış sultan» oldu.

Tez-tez səhhətindən gileylənən, cəmiyyətin siyasi durumundan, yuxarıların sənətə münasibətlərindəki liberallıqdan təngə gəldiyini bildirən Tofiq Kazımov siyasət fonunda psixoloji-satirik janrda tamaşa hazırlamışdı. Rejissorun tamaşada qayəsi bu idi ki, dövlət başçısının karıxması, haqq yolundan sapması, əbləhliyi, rəzilliyi, yaxud belə mənfiliklərə meydan açması bir fərdin yox, bir millətin faciələrinə səbəb ola bilər. Bir sultanın siyasi-mənəvi karıxması həmin cəmiyyətdə qanunları baş-ayaq edir, pul kisəsi qanuna çevrildikdə isə şərin dəyirmanına su tökülür.

Sultan rolunu Hamlet Qurbanov səksəkəli, azdığı haqq yoluna dönməkdə iradəsi, qətiyyəti çatmayan, siyasi və mənəvi əqidəsini ötəri hislərin içində əritməsindən karıxmış xarakter kimi oynayırdı. Obrazın səhnə təfsirini, əsasən, düzgün tələqqi edən aktyor, bəzən sultanın kütlüyünü, əbləhliyini fiziki naqislik kimi göstərirdi. Belə məqamlarda tamaşanın ictimai kəsərinə, siyasət və mənəviyyat problemi ətrafında dərindən düşünməyə xələl gəlirdi. Əslində, Sultan fiziki

cəhətdən şikəst deyil, o, mənəvi şikəstliyə yuvarlanıb və onun, həmçinin idarə etdiyi dövlətin faciəsi elə bundadır.

Sultanın Qadınla (Vəfa Fətullayeva) söhbətində, az sonra Vəzirlə (Məmmədrza Şeyxzamanov) və Baş hakimlə (Muxtar Avşarov) dialoqunda tez-tez döyüküb bərəlmiş gözlərlə key-key ətrafa baxması aktyoru məqsəddən yayındırırdı. Sultanın bu baxışlarında onun daxili sarsıntıları, tərəddüdlərinin mənəvi və siyasi tərəfləri, keçirdiyi psixoloji gərginliklər lazımınca göstərilmirdi. Halbuki «həyatın dibində» yaşayan Meyxanaçının (Yaşar Nuriyev) və Çəkməçinin (İlham Əhmədov) acı da olsa, həqiqət tamlı sözlərinin sətiraltı mənası ilə sultanın psixoloji tərəddüdləri, «karıxmasının» ictimai-estetik mahiyyəti (alt qatda) biri-birini tamamlayırdı. Sözsüz ki, belə səhnə yozumu təqdirində Cəlladın (Səməndər Rzayev) mövzusu bir növ tükənməz, hakim-dövlət, qurumcəmiyyət hadisələr xəttinin harmoniyasında daha sanballı və tutarlı məna kəsb edərdi. Səməndər Rzayevin ambivalet (ikili) oyununun məna cazibəsi, aktyorluq istedadının gücü də buna zəmin yaradırdı.

Bir qayda olaraq, tamaşalarda sürət-ritmi dəqiqliklə, hadisələrə və janra uyğun şəkildə qura bilən Tofiq Kazımov, görünür, keçirdiyi xəstəliyin, ona qarşı gizli və açıq psixoloji təzyiqlərin nəticəsində «Karıxmış sultan» tamaşasında buna tam estetik təsdiqlə nail ola bilməmişdi. Acı həqiqət olsa da, etirafa məcburam ki, dediyim nöqsan, üstəgəl kompozisiya həllinin natamamlığı, Tofiq Kazımova məxsus çarpaz mizanların poetik təsvirinin zəif icrası rejissorun «Yastı təpə» (27 aprel) tamaşasında da hiss olunurdu.

Əkrəm Əylislinin «Yastı təpə» pyesinin özünün dramaturji qüsurları vardı. Nəsrində təsirli və mənalı, lirik-psixoloji təsvirlər yaradan, müəllif sözü ilə real lövhələr təsvir edən, nağılvari dialoqları poetik cazibədarlıqla qura bilən Əkrəm Əylisli dram janrının sərt və vacib tələblərini bədii həssaslıqla gözləyə bilməmişdi. Nəsrin drama çevrilməsi prosesində, adətən, birinci itirir. Düzdür, Əkrəm Əylislinin nəsri drama çevirməkdə müəyyən təcrübəsi vardı. Onun «Mənim nəğməkar bibim» povesti eyni adla Gənc Tamaşaçılar Teatrında (1975), «Kür qırağının meşələri» isə «Quşu uçan budaqlar» adı ilə Akademik teatrda (1978) tamaşaya qoyulmuşdu. Onlarda da müəyyən dramaturji qüsurlar vardı, lakin hər iki tamaşa təqdirəlayiq idi, lirik-psixoloji tələblərə,

əsasən, cavab verirdi. Ancaq «Yastı təpə» dramında janr qurumunun başlıca prinsiplərinə sənətkarlıqla əməl olunmamışdı. Buna görə də Şəfiqə Məmmədovanın (Bəyaz) lirik, Məlik Dadaşovun (Manaflı) dramatik, Fuad Poladovun (Murad) realist, Məcnun Hacıbəyovun (Qulam) məişət yumorlu oyunlarının təbiiliyinə baxmayaraq, «Yastı təpə» tamaşası bütöv və kamil səhnə əsəri təsiri bağışlaya bilmədi.

Tofiq Kazımovun rəssam Solmaz Haqverdiyeva ilə işinin nəticəsi qüsurlu idi. Rejissor teatrda ilk dəfə bəstəkar Fərhəng Hüseynovla işlədi və bu iş birliyində işıqlı tərəflər də görünürdü. Nədənsə, sonralar, rejissorlardan heç kim bu bəstəkarla yaradıcılıq əlaqəsi yaratmadı.

«Yastı təpə» tamaşası Akademik Milli Dram Teatrının tarixində böyük xidmətlər göstərmiş, milli səhnə sənətimizdə lirik-psixoloji üslubun təşəkkülü və inkişafı bilavasitə onun yaradıcılığı ilə bağlı olan Tofiq Kazımovun son rejissorluq işi idi. Həkimlərin məsləhəti ilə əsəblərini sakitləşdirib, müalicə etdirmək üçün Göygölə gedən sənətkar avqustun 2-də avtomobil qəzasında faciəli şəkildə dünyasını dəyişdi.

Tofiq Kazımov baş rejissor kimi ümidverən gəncləri istedadlar cərgəsinə yazmaq üçün sınaqdan çıxarmağı xoşlayırdı. Onun tövsiyəsi ilə komik təmayüllü gənc aktyor İlham Əhmədovun müxtəlif həcmli nailiyyətlərini ümumiləşdirmək üçün Qabriel Sundukyanın (1825 – 1912) «Pepo» komediyası aprelin əvvəlində repertuara qəbul olundu. Əbdürrəhim bəy Haqverdiyevin əsrimizin əvvəllərində tərcümə etdiyi «Pepo»nun məşqlərinə quruluşçu rejissor Məmmədkamal Kazımov aprelin 8-də başladı.

İlham Əhmədovun (Pepo), Məhluqə Sadıqovanın (Şuşan), Əliağa Ağayevin (Zümzümov), Mikayıl Mirzəyevin (Kakuli), Şükufə Yusupovanın (Kekel), Məhbubə Məlikovanın (Epemiya) və başqalarının oynadıqları «Pepo» tamaşası (21 iyun) vodevil kimi öz səhnə həllini tapmışdı. Tamaşa şən və məzəli olsa da, burada İlham Əhmədovdan başqa parlaq aktyor oyunu nümayiş etdirən yox idi. Kamal Şıxəliyevin verdiyi tərtibat sönük və cansıxıcı idi, emosional təsir oyatmırdı. Mübariz Məlikovun seçdiyi musiqi parçaları da çox yerdə məzmuna uyğun gəlmirdi.

«Pepo»nun məşqləri ilə paralel, daha bir komediya üzərində yaradıcılıq işləri başlanmışdı. Rejissor Əşrəf Quliyev dövrə, əsərin çağdaş durumda necə səslənəcəyinə, müasir tamaşaçını hansı mənəvi-əxlaqi

məsələlərlə düşündürə biləcəyinə məhəl qoymadan Sabit Rəhmanın «Əliqulu evlənir» komediyasını tamaşaya hazırladı. Oktyabrın 3-də göstərilən tamaşa baş rejissorun «qayçısından» çıxmadığı üçün səliqəsizliyi, qüsurları daha çılpaq görünürdü.

Rejissor tamaşada Əliqulu rolunu əsərin 1961-ci ildəki ilk quruluşunun ifaçısı Ağasadıq Gəraybəyliyə və Hamlet Qurbanova tapşırmışdı. Səksən üç yaşlı aktyorun fiziki cəhətdən dinamika, çeviklik tələb edən Əliqulu obrazını komediyanın mərkəz surəti kimi oynaya bilməsi, sözsüz ki, mümkün deyildi. Tamaşalarda açıqca hiss olunurdu ki, aktyor özü çıxılmaz vəziyyətdə qalıb. Gəraybəylinin, nəinki hərəkətlərində dinamika yox idi, üstəlik, sözlərin tələffüzündən aydın olmayan çoxlu məqamlar vardı.

Əliqulunun ifaçısı Hamlet Qurbanov mənən miskin, rəzil komediya obrazı oynamaq əvəzinə, ruhi xəstəyə bənzər tip yaratmağa səy göstərməklə mövzunun əsas mahiyyətindən uzaqlaşırdı. Əvvəlki quruluşla (rejissor Mehdi Məmmədov) müqayisədə Əliqulunun mizanlarında elə bir yenilik hiss olunmur, əksinə, primitiv təkrarçılıq görünürdü.

İfaçı aktyorların əksəriyyəti rejissorun əsərə verdiyi nöqsanlı quruluşun nəticəsində ciddi oyundan uzaq idilər. «Əliqulu evlənir» tamaşasına xeyirxah niyyətli, qeyri-obyektiv resenziya yazan müəllif də «bəzi hallarda ölçü hissi itirilir, şarja yol verilir» (1) etirafından qaça bilməmişdi.

«Müsbət» qütbün daşıyıcıları olan Qumral (Sevil Abbasova və Firəngiz Mütəllimova), Kamal (Pərviz Bağırov), Rövşən (Rafael Dadaşov), Azad (Şahin Cəbrayılov), Səadət (Əminə Babayeva) obrazları rejissorun yozumunda plakatvari personajlar təsiri bağışlayırdılar.

«Əliqulu evlənir» komediyasında rəğbət oyadan duzlu-məzəli komik obraz Xəlil, nifrət doğuran, ikiüzlü, yaltaq, riyakar komediya personajı Səfərdir. Vaxtilə Xəlili böyük ustalıqla Məmmədəli Vəlixanlı və İsmayıl Osmanlı, Səfəri isə bacarıqla Məmməd Sadıqov oynamışlar. Əşrəf Quliyevin quruluşunda atasının oynadığı Xəlili oğlu Aqşin Vəlixanov və Məcnun Hacıbəyov ifa edirdilər. Onların oyununda səmimiyyət, yumorun zərifliyi çatmırdı. Hər iki aktyor gülüşü qatılaşdırmaqla, Xəlil obrazının bədii kökündən uzaqlaşırdılar. Əsgər Məmmədoğlu isə Səfər rolunda şarja uyur, nəticəni ilk səhnədən təqdim etməklə, obrazın sonrakı bədii inkişafını izləməyə tamaşaçı marağını söndürürdü.

Bunu hiss edən Əşrəf Quliyev xəstəlikdən durmuş Məmməd Sadıqovu sonralar tamaşaya, Səfər roluna əlavə etdi. Ancaq rejissorun bu cəhdinin də müsbət nəticəsi olmadı, yaş burada da öz təsirini göstərdi. Arada həmin rolu Yaşar Nuriyev də oynadı. Onun Səfəri daha mənalı, daha canlı, daha çevik və mahiyyətcə daha qorxulu, mənən daha eybəcər idi. Yaşarın oynadığı obraz «qılaflanmış» ikiüzlü, marıta yatıb fürsət gözləyən yırtıcı idi.

Yuxarıda «Karıxmış sultan»dan danışanda qeyd etdim ki, Tofiq Kazımovu axır vaxtlar mövzu və formaca siyasi-psixoloji əsərlər maraqlandırırdı. Həmin marağın bir nümunəsi də alman dramaturqu Leonqard Frankın (1882 – 1961) «Yad adam» dramı idi. Tofiq Kazımov əsəri özü tərcümə etmişdi, ancaq faciə tutumlu pyesi tamaşaya gənc rejissor Oruc Qurbanov hazırladı (26 dekabr).

Faşist Almaniyası dövründə Reyx ordusuna xidmət edən fabrikantla bağlı hadisələrdən danışan «Yad adam» tamaşasında həm əqidə, həm də güclü xarakterlərin şəxsi maraq toqquşmaları vardı. Rejissor pyesdəki güclü sarkazmı, ictimai-siyasi satiranı, «ezop dilini» saxlamağa çalışmışdı. Mikayıl Mirzəyevin (Qoca), Məlik Dadaşovun (Ruprext), Yaşar Nuriyevin (Eduard), Zərnigar Ağakişiyevanın (Amaliya), Zemfira Nərimanovanın (Sofi) oyunlarında obrazlar siyasi-psixoloji dram janrının bədii personajları idi.

Rejissor tamaşanın digər ifaçıları Rəhilə Mirzəyeva (Mamaça), Firuz Xudaverdiyev (Çolaq), Fateh Fətullayev və Saleh Babayev (Professor Simblok) və Əsgər Məmmədoğlu (Cənab Şrumf ilə lazımi səviyyədə işləyə bilməmişdi. Bu da tamaşanın bütövlüyünə, dramaturqun fikrinin mətnaltı fəlsəfi mənasına, müharibə mövzusunun müasir realist həllinə müəyyən xələl gətirirdi. Sanki finala doğru rejissorun yaradıcılıq, axtarış nəfəsi təngiyirdi və bu tıncıxma tamaşanın ümumi ruhunda hiss olunurdu.

Rejissor Ələsgər Şərifovun 1975-ci ildə tamaşaya hazırladığı Nikolay Poqodinin «Kreml saatı» əsəri bərpa olunub martın 20-də repertuara daxil edildi. Lenin rolunu Həsən Turabov oynadı. Rafael Dadaşov, Şükufə Yusupova və Elxan Ağahüseynoğlu tamaşaya Djerzinski, Qorxaq qadın, Optimist rollarına əlavə edildilər.

* * *

Yubiley. Aprelin 15-də dramaturq Sabit Rəhmanın 70 illik yubileyi keçirildi. Yazıçılar İmran Qasımov, Anar, tənqidçi Yaşar Qarayev,

nasir-dramaturq Ənvər Məmmədxanlı, ədibin oğlu, bəstəkar Emin Sabitoğlu və başqaları Sabit Rəhman barədə xatirələrini, ürək sözlərini söylədilər. Komediya ustasının «Toy», «Əliqulu evlənir», «Xoşbəxtlər» tamaşalarından parçalar oynanıldı.

Təltif. Aktyor Hacı İsmayılov kinorejissor Rasim Ocaqovun Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi «Ad günü» bədii filmindəki Mustafa roluna görə Respublika Dövlət mükafatına layiq görüldü.

Truppada dəyişmə. Epizodik rollarda oynayan aktrisa Səadət Zülfüqarova yanvarın 31-də təqaüdə çıxdı. Aktrisa sonralar teatrın dəvəti ilə gəlib bəzi rolları oynayırdı.

Aktyorluq fakültəsinin məzunları Bəsti Cəfərova, Zemfira Nərimanova, İlham Əsgərov təyinatla avqust ayının 26-da, Firəngiz Mütəllimova və Saleh Babayev sentyabrın 1-də, Tədris teatrının aktyoru Telman Adıgözəlov sentyabrın 22-də, Lənkəran teatrından gəlmiş Məzahir Cəlilov sentyabrın 11-də yaradıcı heyətə qəbul olundular.

Truppa heyəti. Baş rejissor Tofiq Kazımov (avqustun 2-də vəfat etdi). Quruluşçu rejissorlar Ələsgər Şərifov və Əşrəf Quliyev. Rejissor köməkçiləri Nəcəf Həsənzadə və Rəfiqə Kazımova. Rejissor assistenti Məmmədkamal Kazımov.

Aktyorlar: Ağasadıq Gəraybəyli, Möhsün Sənani, İsmayıl Dağıstanlı, Məmmədrza Şeyxzamanov, Əliağa Ağayev, Həsən Turabov, Məlik Dadaşov, Məmməd Sadıqov, Fateh Fətullayev, Bürcəli Əsgərov, Lütfi Məmmədbəyov, Muxtar Avşarov, Hamlet Xanızadə, Hamlet Qurbanov, Məcnun Hacıbəyov, Kamal Xudaverdiyev, Səməndər Rzayev, Əliabbas Qədirov, Yaşar Nuriyev, Fuad Poladov, Mustafa Süleymanov, Ramiz Məlikov, İlham Əhmədov, Elxan Ağahüseynoğlu, Hacı İsmayılov, Zərnigar Ağakişiyeva, Mikayıl Mirzəyev, Sadıq İbrahimov, Pərviz Bağırov, Rafael Dadaşov, Telman Adıgözəlov, İlham Əsgərov, Nurəddin Quliyev, Firuz Xudaverdiyev, Şahin Cəbrayılov, Elxan Quliyev, Əlvida Cəfərov, Məzahir Cəlilov, Rafiq Əzimov.

Aktrisalar: Hökümə Qurbanova, Sofiya Bəsirzadə, Nəcibə Məlikova, Şəfiqə Məmmədova, Məhluqə Sadıqova, Vəfa Fətullayeva, Amaliya Pənahova, Əminə Babayeva, Zemfira Nərimanova, Məhbubə Məlikova, Bəsti Cəfərova, Firəngiz Mütəllimova, Şükufə Yusupova, Sevil Xəlilova, Mərziyə Məmmədbəyli.

Təcrübəçi-aktyorlar: Sevil Abbasova, Lalə Bağırova, Səidə Quliyeva, Saleh Babayev...

Baş rəssam Nüsrət Fətullayev. Rəssam Solmaz Haqverdiyeva.

Ədəbi hissə müdiri Qeybulla Rəsulov.

Truppa müdiri Qürbət Qurbanov.

Musiqi hissə müdiri Mübariz Məlikov.

Əcəl aldı... Qüdrətli reformator, milli səhnəmizdə misilsiz xidmətləri olan, əvəzsiz rejissor, Xalq artisti, iki dəfə Dövlət mükafatı laureatı Tofiq Səməd Mənsur oğlu Kazımov (14 yanvar 1923 – 2 avqust 1980) Gəncə ərazisində avtomobil qəzasında faciəli şəkildə həlak oldu.

SSRİ Xalq artisti, Stalin və Respublika Dövlət mükafatları laureatı, əsl soyadı Hacıyev olan İsmayıl Yusif oğlu Dağıstanlı (6 yanvar 1907 – 1 aprel 1980) üç ay sürən xəstəlikdən dünyasını dəyişdi. 1926-cı ildən Akademik teatrda işləyən aktyor bu səhnədə Nəriman Nərimanov («Közərən ocaqlar», Mirzə İbrahimov), Otello («Otello», Uilyam Şekspir), Lenin («Zamanın hökmü», Nikolay Poqodin), Kral («Sevilya ulduzu», Lope de Veqa), Əli bəy, Qacar və Vaqif («Vaqif», Səməd Vurğun), Neznamov, Boris («Günahsız müqəssirlər», «Tufan», Aleksandr Ostrovski), Astrov («Vanya dayı», Anton Çexov), Bəhram («Cavanşir», Mehdi Hüseyn), Bəhram («Solğun çiçəklər», Cəfər Cabbarlı), Qatır Məmməd, («Qatır Məmməd», Zeynal Xəlil), Elmar, Böyükbəy («İşıqlı yollar», «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev), İldırım («İldırım», Cabbar Məcnunbəyov), Sebastian («On ikinci gecə», Uilyam Şekspir), Prezident («Məkr və məhəbbət», Fridrix Şiller), Şeyx Sənan («Şeyx Sənan», Cavid), Azər («Od içində», Ənvər Məmmədxanlı), Gipson («İkinci cəbhə arxasında», Vadim Sobko), İqnatyev («Tanya», Aleksey Arbuzov)... rollarını oynayıb.

Dramaturq. Leonqard Frank (4.9.1882–18.8.1961). Alman ədibi. Uzun illər (1953–1950) Fransada, ABŞ-da və Böyük Britaniyada mühacirətdə yaşayıb. «Yad adam», «Quldur dəstəsi», «İsanın şagirdləri» pyesləri yaradıcılığında xüsusi yer tutur.

Mənbə

1. Araz Dadaşzadə. «Əliqulu evlənir» yeni quruluşda. – «Kommunist», 26 noyabr 1980.

FƏRDİ ÜSLUBLAR VƏ JANR PƏRAKƏNDƏLİYİ

1981-ci il

28 fevral. «Səhra yuxuları», Anar.

2 hissəli dram.

Quruluşçu rejissor Vaqif Həsənov*, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Polad Bülbüloğlu, səs operatoru Eldar Həsənli.

Rollarda: Hamlet Qurbanov (Hovard Bruk), Bəsti Cəfərova (Luiza Bruk), Fuad Poladov (Tom Soyer), Həsən Turabov və Yaşar Nuriyev (Polkovnik Əmir), Hamlet Xanızadə (Doktor Kərim), Firəngiz Mütəllimova və Hicran Qəşəmova** (Leyla), Hacı İsmayılov (Ruzigar), Nurəddin Quliyev və Nəbi Qədirov (Mehdi), Fəxrəddin Manafov (Həbib), Rafiq Əzimov (Doktor Mahmud), Əsgər Məmmədoğlu (Birinci şahid), Telman Adıgözəlov (İkinci şahid), Şahin Cəbrayılov (Üçüncü şahid), Elxan Quliyev və Rüstəm Əliyev (Laldinməz polis), Məcnun Hacıbəyov (Hərbi tribunalın sədri), Nəcəf Həsənzadə (Həbsxana mollası), Firuz Xudaverdiyev (Birinci polis), Əlvida Cəfərov (İkinci polis), Saleh Babayev (Üçüncü polis), Məzahir Cəlilov (Dördüncü polis), Rafael Dadaşov (Birinci reportyor), Nəbi Qədirov və Nurəddin Quliyev (İkinci reportyor), Sadıq İbrahimov (Üçüncü reportyor), Sevil Abbasova (Dördüncü reportyor).

* *Qeyd.* Rejissor Vaqif Həsənov sonralar «İbrahimoğlu» soyadı ilə fəaliyyət göstərdi və milli teatrımızın şöhrətli sənətkarlarından oldu.

** *Qeyd.* Sonralar tamaşa proqramlarında Hicran xanımın soyadı «Nəsirova» yazılıb.

9 may. «Şərqli diş həkimi», Akop Paronyan. Tərcümə edəni Hidayət Orucov. Pyesin yeni səhnə redaksiyasının müəllifi Hraçya Qaplanyandır.

2 hissəli komediya.

Quruluşçu rejissor Hraçya Qaplanyan, rəssam Vasili Vartanyan, bəstəkar Robert Əmirxanyan, baletmeyster Kamal Həsənov.

Rollarda: Hökümə Qurbanova (Marta), Məlik Dadaşov (Toparnikos), Firəngiz Mütəllimova və Zemfira Nərimanova (Yeremyak),

«Səhra yuxuları», Anar. Soldan: Doktor Kərim – Hamlet Xanızadə və Əmir – Həsən Turabov. 1981-ci il



«Kimdir haqlı?», Bəxtiyar Vahabzadə. Arzu – Vəfa Fətullayeva və Rəşad – Əliabbas Qədirov. 1981-ci il

İlham Əhmədov (Markos), Yaşar Nuriyev (Niko), Səməndər Rzayev (Tovmas), Amaliya Pənahova (Sofi), Telman Adıgözəlov (Levon), Əsgər Məmmədoğlu (Kirakos), Bəsti Cəfərova (Ripsime), Elxan Quliyev, Şahin Cəbrayılov, Saleh Babayev və Rüstəm Əliyev (xidmətçilər), Sevil Abbasova, Səidə Quliyeva və Lalə Bağırova (xidmətçi qızlar).

2 sentyabr. «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rejissor Ramiz Məlikov, rəssam Elçin Aslanov, bəstəkar Arif Məlikov. Məsləhətçi Bəylər Məmmədov, filologiya elmləri namizədi.

Rollarda: Amaliya Pənahova (Xurşidbanu), Əliabbas Qədirov (Seyid Hüseyn), Rafael Dadaşov (Knyaz Xasay), Nurəddin Quliyev (Hidayət xan), Mustafa Süleymanov (Mirzə Ruhulla), Fateh Fətullayev* (Aleksandr Düma), Firəngiz Mütəllimova və Səidə Quliyeva (Bəyim), Hacı İsmayılov (Muradalı), Telman Adıgözəlov Daşdəmir, Ağasadıq Gəraybəyli və Bürcəli Əsgərov (Qoca Knyaz), Hamlet Qurbanov (Canişin), Ramiz Məlikov (Mixaylov), Ramiz Novruzov (Nəvvab), Firuz Xudaverdiyev (Ter-Vahan), Elxan Ağahüseynoğlu (Zahir Fəda), Saleh Babayev (Mamayı), İlham Əhmədov (İran şahzadəsi), Muxtar Avşarov (Məliküldövlə), Məcnun Hacıbəyov (Kor Eyvaz), Məzahir Cəlilov (Möhnət), Əlvida Cəfərov (Şahmar), Zemfira Nərimanova və Şükufə Yusupova (Təhminə), Rüstəm Əliyev (Fərəc bəy), İftixar Piriyev (Birinci şəxs), Nəcəf Həsənzadə (İkinci şəxs).

* *Qeyd.* İctimai baxışdan sonra Aleksandr Düma obrazı və onunla bağlı epizod tamaşadan çıxarıldı.

19 noyabr. «Maqbet», Uilyam Şekspir. Tərcümə edəni Hacıbaba Nəzərli.

2 hissəli faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Fuad Qafarov, musiqi tərtibatçısı Cavanşir Quliyev.

Rollarda: Muxtar Avşarov (Dunkan), Fuad Poladov (Malkolm), İlham Əhmədov (Donalbayn), Məlik Dadaşov (Maqbet), Bürcəli Əsgərov (Banko), Kamal Xudaverdiyev (Makduf), Pərviz Bağırov (Lennoks), Nurəddin Quliyev (Ross), Şahin Cəbrayılov (Mentis),

Elxan Quliyev (Kaytnes), Telman Adıgözəlov (Flins), Aqşin Vəlixanov (Sivard), Saleh Babayev (Gənc Sivard), Ramiz Novruzov (Seyton), Rafiq Əzimov və Hacı İsmayılov (Həkim), Sadıq İbrahimov (Yaralı əsgər), Məmməd Sadıqov (Qapıçı), Məzahir Cəlilov (Qasid), Hökümə Qurbanova (Ledi Maqbet), Ətayə Əliyeva və Məhbubə Məlikova (Ledi Maqbetin saray qadını), Əminə Babayeva (Hekata), Amaliya Pənahova (Birinci cadugər), Sofiya Bəsirzadə (İkinci cadugər), Mirvari Novruzova (Üçüncü cadugər), Əsgər Məmmədoğlu (Birinci qatil), Məcnun Hacıbəyov (İkinci qatil), Rüstəm Əliyev (Üçüncü qatil), Firəngiz Mütəllimova (Birinci kölgə), Səidə Quliyeva (İkinci kölgə), Lalə Bağırova (Üçüncü kölgə), Firuz Xudaverdiyev (Əsgər), Əlvida Cəfərov və İftixar Piriyev (litavraçılar).

27 dekabr. «Kimdir haqlı?», Bəxtiyar Vahabzadə.

2 hissəli dram.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Solmaz Haqverdiyeva.

Rollarda: Əliabbas Qədirov (Rəşad), Safurə İbrahimova (Həyat), Vəfa Fətullayeva və Zemfira Nərimanova (Arzu), Rafael Dadaşov (Fikrət), Hamlet Qurbanov (Şükürbəy), Sevil Xəlilova və Gülnarə Nəsirova* (Məlahət), Zərnigar Ağakişiyeva və Bəsti Cəfərova (Zeynəb), Sevil Abbasova (İradə).

* *Qeyd.* Gülnarə Nəsirova məşq elədi, ancaq tamaşada Məlahət rolunu oynamadı.

* * *

Teatr yeni mövsümdə fəaliyyətinə baş rejissorsuz başladı. Tofiq Kazımov kimi qüdrətli sənətkarın yoxluğu, kollektivin yaradıcılıq istiqamətini, repertuar siyasətini, mövzu-problematika yolunu müəyyənləşdirən yaradıcı rəhbərin olmaması əvvəl-əvvəl nəzərə çarpmırdı. Sonralar baş rejissorun «redaktəsi» olmadan səhnəyə çıxan bir sıra tamaşaların uğursuz aqibəti Tofiq Kazımov itkisinin ağrı-acısını açıqca hiss etdirdi. Teatrın beş ildən çox baş rejissorsuz qalması vəziyyəti daha da gərginləşdirdi.

Bununla belə, həmin müddətdə teatrın yaradıcılığında müəyyən işıqlı quruluşlar oldu, cəsarətli addımlar da atıldı.

Yetmişinci illərin sonunda və səksəninci illərin əvvəllərində Azərbaycan teatrında yeni, orijinal janrlı tamaşalar hazırlamağa meyil gücləndi. Bu proses sənətkarların şəxsiyyət və cəmiyyət, insan və zaman problemlərini intim mənəvi-əxlaqi münasibətlərin daxili qatında çalışmaları ilə bağlı idi.

Tamaşaların janrında təzəliyə, yenilik prosesinə gənc rejissorlar arasında, ilk növbədə, Vaqif İbrahimoğlu (Həsənov) cəsarətlə müraciət edir, bir növ ştamplaşmış prinsipləri sındırmağa səy göstərirdi. Bu, bilavasitə rejissorun insan mənəviyyatına, eyniköklü konfliktə müxtəlif baxış bucaqlarından yanaşması ilə bağlı idi.

Vaqif İbrahimoğlunun istedadının bu yönü eksperimental studiyada (Aktyor evi nəzdində) və İncəsənət İnstitutunun Tədris teatrında quruluş verdiyi «Yığıncaq» (Mirzə Cəlil), «Ac həriflər» (Əbdürrəhim bəy Haqverdiyev) komediyalarında, «Yaylağa gedir» (Cəfər Cabbarlı) satirik pamfletində, «Evlənmə» (Anton Çexov), «Lord Avqust iş başında...» (Bernard Şou), «Axmaq» (Luici Pirandello), «Məcnun» (Füzulinin «Leyli və Məcnun»u əsasında), «Zəncirbənd» (Anar), «Var olsun günəş» (Kamal Aslanov), «Mən Dədə Qorqud...» (Səhnələşdirmə özünündür), «Kiçik şahzadə» (Antuan Ekzüpri) tamaşalarında açıqlanmış, rejissorluq elmi-nəzəri prinsiplərini bəyan etmişdi.

Anarın «Səhra yuxuları» pyesi müəllifin Akademik teatrda oynanılan ikinci, quruluşçu rejissor, Tofiq Kazımovun tələbəsi Vaqif İbrahimoğlunun isə ilk işi oldu. Tamaşanın rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Polad Bülbüloğlu idi. Vaqif İbrahimoğlu tamaşanı «pyes-qəzet» janrında hazırlamışdı. Tamaşada yaratdığı zaman-məkan vəhdəti pyesdəki üç müstəqil qatı üzvi surətdə birləşdirmişdi. Rejissor siyasi, publisist, psixoloji qatlarda «Səhra yuxuları» dramındakı personajların dumanlı dünyagörüşlərini araşdırmağa çalışmışdı.

Janr təyinindəki «qəzet» sözü publisistikaya açıq işarə idi. Rejissor həm tamaşanın ümumi ruhunda, həm hadisələrin dramatik inkişafında, həm də mövzunun bədii həllində, publisistik psixologizmi daha qabarıq vermək üçün qəzet-dekorasiyadan, səhnənin dərinliyindən asılmış ekranda göstərilən slaydlardan istifadə etmişdi. Dar küçə, mehmanxana, aeroport, otaq... slaydları hadisələrin məkanını tamaşaçı təsəvvüründə əyaniləşdirirdi və Vaqifin rejissurasının əsas prinsiplə-

rindən olan surət-ritmin dinamikliyini tənzimləyirdi. Ekranda slaydların göstərilməsinin digər funksiyası siyasi-publisist qatı ön plana çəkməklə bağlıydı. Pyesdə hadisələr qəzet məqalələri prinsipində qurulmuşdu. İlk baxışda müxtəlif mövzulu publisist hadisələrin biribiri ilə əlaqəsi yoxdur, ancaq daxili qatda rejissor onları vahid məqsəd-süjet ətrafında birləşdirmişdi.

«Səhra yuxuları» pyesində məkan mücərrəd, zaman isə real verilmişdi. Bu ikilik (ambivaletlik), həmçinin hadisələrdə, obrazların əməlfəaliyyət xəttində də özünü göstərirdi. Onu saxlamaq, əksliyin vəhdətində hadisələrin ritmik və dinamik inkişafının ahəngdarlığını yaratmaq üçün Vaqif İbrahimoğlu tapdığı forma və üsluba bütün tamaşa boyu əməl etmişdi. Aktyorlar səhnənin ortasında qoyulmuş «dəzgah» (bu, çap dəzgahını xatırladır) üzərində oynayırdılar. Aktyorlar epizodu, səhnəni ifa edib dəzgahdan kənara düşən kimi roldan da «çıxıb» özgələşir, hadisələrin – «səhra yuxusunun» ümumi axınından ayrılırdılar.

Qəzetin səhifələrinin sayına işarə olan «dördlük» prinsipi jurnalistlərin iş-əməl fəaliyyətində gözlənilməklə bərabər, xarakterləri sistemləşdirmək bölgüsündə də saxlanmışdı. «Dördlük» sisteminin şahmatvari quruluşu tamaşanın səhnə strukturu ilə ahəngdar səslənmiş, rejissor konsepsiyası ilə bağlılıq yaratmışdı... «Səhra yuxuları» tamaşasında dörd şahid, dörd əsgər, dörd terrorçu, dörd rəzil (Əmir, Həbsxana mollası, Laldinməz polis və Hərbi tribunalın sədri) və müxtəlif detal funksiyasını daşıyan yardımçı qurğu (furka) vardı. Səhnə, arxa pərdə, texniki məkan (qəzet lövhəsi) da, real məkanlar (otaq, kabinet və sairə) da «dördlük» vəhdəti yaradır, ideya dərinliyinə və kompozisiya bütövlüyünə xidmət funksiyasını doğruldurdu.

Polad Bülbüloğlunun tamaşaya bəstələdiyi musiqinin də dörd əsas mövzusu vardı: romantik-idillik xarakterli səhra mövzusu, mürəkkəb, təzadlı sintetik çalarlarla yoğrulmuş, harayı xatırladan azadlıq mövzusu, lirik-poetik, həzin-dramatik təranəli jurnalistlər mövzusu və psixoloji-fəci notları üstünlük təşkil edən Kərim mövzusu. Bu mövzuların hər biri özlüyündə müşayiət etdiyi obrazların və onlarla bağlı hadisələrin psixoloji qatının açılmasında katalizator rolunu oynayırdı.

«Dördlük» prinsipi tamaşanın rəssamı Solmaz Haqverdiyevanın da işinin əsasını təşkil edirdi. O, real və idillik zaman-məkan vəhdətinə

əməl edərək bir ali məqsəd ətrafında birləşmiş müxtəlif hadisələrlə uyuşan mühit-dekorasiya yaratmışdı. Rəssam furkalar üzərində işıq-musiqini elə qurmuşdu ki, səhnənin «yuxu» atmosferi qabarıqlaşmışdı.

Tamaşanın janrı, texniki-bədii həlli nə qədər cazibədar olsa da, əsas hüsnü aktyor oyun üslubunun yeniliyində idi. Bütöv obraz kimi götürülmüş repartyor «dördlüyü» (Rafael Dadaşov, Nəbi Qədirov, Sadıq İbrahimov, Sevil Abbasova), konflikt-münaqişənin bir qütbündə duran terrorçular «dördlüyü» (Leyla – Firəngiz Mütəllimova və Hicran Qəşəmova, Ruzigar – Hacı İsmayılov, Mehdi – Nurəddin Quliyev, Həbib – Fəxrəddin Manafov) tamaşanın janrının və publisistik ruhunun açıq icraçıları idi.

Konflikt-münaqişənin digər qütbündəki «dördlüyü» Əmir – Həsən Turabov və Yaşar Nuriyev, Hərbi tribunalın sədri – Məcnun Hacıbəyov, Laldinməz polis – Elxan Quliyev və Rüstəm Əliyev, Həbsxana mollası – Nəcəf Həsənzadə təmsil edirdilər. Əmir rolu həm Həsən, həm də Yaşar üçün yeni söz, ciddi yaradıcılıq nailiyyəti idi.

Həsən Turabovun ifasında Əmir daxilən çox qorxunc, vəhşi təbiətli və qansızdır. Zahirən özünü yüngülxasiyyət, sadəlövh, hətta bəzən maymaq kimi göstərir. Çünki təcrübəli faşist-diktatordur. İntellektual oyun tərzi seçən Həsən Turabovun ifasında psixoloji dərinlik güclü idi. Aktyor tamaşada Əmirin xarakterində paradoksal görünən cəhətləri paralel aparırdı. Turabovun Əmiri vəhşiliklər törədir, bəzən hadisələr münasibətində baxışlarından kədər süzülsə də, kiməsə verdiyi cəza-işgəncədən qətiyyən geri dönmür. Onun üçün «Səhra yuxularının» illüziya şüşələri sevdiyi Leylanı öz əli ilə asandan sonra çiliklənir, ancaq yenə mənfur niyyətindən dönmür, dəhşətli və qorxuludur. Buna görə Həsən Turabovun oyununda ictimai-sosial-publisist qat üstdə idi.

Yaşar Nuriyevin oyununda isə fərdi-psixoloji qat dominant idi. Cazibədar və yapışıqlı oyun seçmiş Yaşar bu rolda da emosional aktyor kimi çıxış edirdi. O, Əmirin despotluğunu onun psixoloji quruluşunun sadəliyi ilə bağlayırdı. Yaşarın yozumunda Əmir cəlladlıq mövqeyinə təsadüfən gəlib və onun bütün hərəkətlərinin özəyində fərdi intim duyğuları durur. Ona görə də bir qədər səksəkəlidir, hətta haradasa gülüncdür.

Həm janr, həm üslub qanunlarını gözləyən hər iki aktyorun oyunu eyni musiqi notunun müxtəlif ladlarda səslənməsinə bənzəyirdi.

Fuad Poladovun (Tom Soyer), Hamlet Xanızadənin (Kərim), Bəsti Cəfərovanın (Luiza Bruk) oyunları onların bir növ vərdiş etdiyimiz rollarından, ifa tərzindən fərqlənirdi.

Vaqif İbrahimoğlunun «Səhra yuxuları» tamaşasına İncəsənət İnstitutunun Tədris teatrından dəvət etdiyi gənc aktyorlar Fəxrəddin Manafov (Həbib), Hicran Qəşəmova (Leyla), Nəbi Qədirov (İkinci reportyor və Mehdi) ümumi aktyor ansamblından ayrılmırdılar.

Aktyor oyunlarından alınan bədii-estetik həzzə, rejissorun axtarış cəsarətinə, tapdığı formanın yenilik gücünə, janr və üslub vəhdətinə, janrın tələb etdiyi ifa tərzinə görə, 1981-ci ilin ən cəsarətli addımı «Səhra yuxuları» tamaşası idi. Təəssüflər ki, tənqid bunu layiqincə qiymətləndirə bilmədi.

Bir il əvvəl İrəvana yubileyə dəvət olunmuş Məlik Dadaşov orada SSRİ Xalq artisti, həmin dövrdə İrəvan Gənclər Teatrına bədii rəhbərlik edən Hraçya Qaplanyanla görüşüb yaradıcılıq əlaqələri barədə söhbət aparmışdı. O, Bakıda baş rolu Məlik Dadaşov oynamaqla Uilyam Şekspirin «IV Henri», yaxud «III Riçard» faciəsini Akademik teatrda tamaşaya qoymağa razılıq vermişdi. Qaplanyan ilin əvvəlində Bakıya gəlib truppa ilə tanış oldu, tamaşalara baxdı, İrəvana gedib bir aydan sonra qayıtdı. Kollektivə Hakop Paronyanın «Şərqli diş həkimi» (tərcüməçi Hidayət Orucov) pyesini özünün işlədiyi yeni səhnə redaksiyasında (rəssam – Vasili Vartanyan, bəstəkar – Robert Əmirxanyan) hazırlamaq istədiyini bildirdi. Onun bu gözlənilməz təklifinə nə Azərbaycan Respublika Mədəniyyət Nazirliyi, nə də teatrın rəhbərliyi (direktor Əli İsmayılov idi) etirazlarını bildirmədilər. Direktor «Şərqli diş həkimi» pyesinin məşqlərinə başlamaq barədə əmr verdi (9 mart, əmr №44). Prinsipsiz mövqe nəticəsində Akademik teatrın qisməti uğursuz tamaşa oldu.

Üç il əvvəl Qaplanyan İrəvan Gənclər Teatrında hazırladığı «Şərqli diş həkimi» tamaşasının şovinist ruhunu, müsəlman şərqinə açıq sarkazmı, bədii ifadə üslublarını daha primitiv, zövqsüz şəkildə Akademik teatrın işinə calaq-montaj etdi. Premyerası mayın 9-da göstərilən, səhnəni çarpaz, spiralvari, dolaşıq mizanlarla, konkret məna

güdməyən rəqslərlə «yükləyən» rejissorun ali məqsədi məlum olmayan tamaşada Hökümə Qurbanova (Marta), Məlik Dadaşov (Toparnikos), Səməndər Rzayev (Tovmas), Amaliya Pənahova (Sofi) kimi sənətkarları Kaplanyan çıxılmaz vəziyyətə salmışdı. Rəssam tərtibatındakı ayrı-ayrı dekor və detallar səhnənin dərinliyini, orta hissəni, hətta ön səhnəni (avansenanı) tutmuşdu. Rejissor da sanki bilərəkdən mizanları, tamaşanın sürət-ritmini elə qurmuşdu ki, gənclik yaşları keçmiş Hökümə xanım, Məlik Dadaşov və həmçinin gənc, bədəncə cantaraq Səməndər Rzayev az qala yüyürməkdən, dolaşıq labirint-dekorların arasından çətinliklə keçməkdən təngnəfəs olurdular.

«Şərqli diş həkimi» tamaşası gənc aktyorlar Yaşar Nuriyevin, İlham Əhmədovun, yeniyetmə Firəngiz Mütəllimovanın, Zemfira Nərimanovanın, Bəsti Cəfərovanın, Telman Adıgözəlovun, Səidə Quliyevanın, Sevil Abbasovanın... səhnədə boy artımlarına heç bir zəmin yarada bilmədi.

«Şərqli diş həkimi»nin daxili baxışı olan gün «Xurşidbanu Natəvan» pyesinin ikinci dəfə məşqlərinə başlamaq barədə 73 saylı əmr verildi (7 may). Quruluşçu rejissorluq yenə də Mərahim Fərzəlibəyova tapşırıldı.

Sankt-Peterburq Dövlət Teatr, Musiqi, Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində təhsil almış (1971 – 1976) Mərahim Fərzəlibəyov bir müddət Qroznı şəhərindəki Mixail Lermontov adına Rus Dövlət Dram Teatrında rejissor işləyib. Orada «Tartüf» (Jan Batist Molyer), «Arzu tramvayı» (Tennessi Uilyams) kimi maraqlı tamaşalar hazırlayan Mərahim Sumqayıt Dövlət Dram Teatrına sıravi quruluşçu rejissor dəvət olundu. Uğurla hazırladığı «Poladəridənlər» (Aleksandr Bokarev) tamaşasından sonra baş rejissor keçdi. Mixail Lermontovun «Maskarad», İsidor Ştokun «İlahi komediya», Nəriman Həsənzadənin «Bütün Şərq bilsin», A.Çxeidzenin «Sərbəst mövzu» pyeslərinə və digər dramlara maraqlı quruluşlar verən Mərahim Fərzəlibəyovun ciddi rejissurası nəzərə çarpırdı.

O, 1980-ci ilin əvvəllərində İlyas Əfəndiyevin «Xurşidbanu Natəvan» əsərinə quruluş vermək üçün Akademik teatra dəvət aldı. Tərtibat rəssam Elçin Aslanova, musiqi Arif Məlikova tapşırılmaqla, Mərahim Fərzəlibəyov tezliklə məşqlərə başladı. Əsas rolları Şəfiqə

Məmmədova (Natəvan), Həsən Turabov və Hamlet Xanızadə (Xasay), Kamal Xudaverdiyev (Hidayət xan), Fuad Poladov (Seyid Hüseyn), Məmmədrza Şeyxzamanov (Mirzə Ruhulla), Yaşar Nuriyev (Daşdəmir), Mikayıl Mirzəyev (Kor Eyvaz), Bəsti Cəfərova (Bəyim) və başqaları məşq edirdilər.

Akademik teatrda ilk işi olan Mərahim Fərzəlibəyov məşqlərə ciddi yanaşır, maraqlı tapıntılar, mizan improvizələri edir, aparıcı aktyorlar başda olmaqla, bütün yaradıcı heyət həvəslə, yaradıcılıqla işləyirdilər. May ayında teatrın baş rejissoru Tofiq Kazımov yekun qurama məşqlərə baxıb öz qeydlərini, bəzi iradlarını, səmərəli təkliflərini söylədi. İyun ayının ilk günlərində Mərahim Fərzəlibəyov tutulan iradları düzəltdi. Natəvan rolunu təkidlə oynamaq istəyən Amaliya Pənahova ilə bağlı yaranmış müəyyən narazılıqlara rəvac verməmək üçün teatr «Xurşidbanu Natəvan» tamaşasının qapalı ictimai baxışını keçirtdi. Müzakirədə tamaşanın kompozisiyasına bəzi iradlar tutuldu və iki günə onların aradan qaldırılması quruluşçu rejissora tapşırıldı. Şəfiqə xanımın, Həsən Turabovun, Fuad Poladovun, Kamal Xudaverdiyevin oyunları yüksək qiymətləndirilməklə, tamaşa repertuara salınmaq üçün qəbul olundu. Hətta tamaşanın premyera günü müəyyənləşdirildi.

Həmin dövrdə dramaturq İlyas Əfəndiyev Moskvada xəstəxanada müalicə olunurdu. Teatr ictimai baxış günü ondan teleqram aldı. Müəllif bildirdi ki, «Xurşidbanu Natəvan»ın premyerasının onsuz göstərilməsinə qəti etiraz edir. Danosbazlıq öz işini görmüşdü. Bədii şuranın qərarı ilə tamaşa qəbul edildi, oynanılması isə dramaturqun qayıtmasına qədər təxirə salındı.

1981-ci ilin yazında İlyas Əfəndiyev Moskvadan qayıtdı və yuxarıda qeyd etdiyim kimi, mayın 7-də pyes üzərində yenidən işləmək Mərahim Fərzəlibəyova tapşırıldı. Nə üçün yenidən? Dramaturqun təklifi ilə Amaliya Pənahova Natəvan rolunun əsas ifaçısı kimi təsdiqləndi. Uğurlu bir sənət əsərinin yaradıcıları Şəfiqə Məmmədova, Həsən Turabov, Hamlet Xanızadə, Məmmədrza Şeyxzamanov, Fuad Poladov, Kamal Xudaverdiyev, Yaşar Nuriyev, Mikayıl Mirzəyev, Bəsti Cəfərova və daha bir neçə aktyor rollarından imtina etdilər. Bəzi epizodlar (məsələn, Natəvanla Aleksandr Dümanın görüşü və sairə),

hətta obrazlar, o cümlədən Düma (Fateh Fətullayev), Talıbzadə (Rafael Dadaşov) surətləri pyesdən çıxarıldı. Rəssam və bəstəkar işi xırda dəyişikliklərlə olduğu kimi saxlanıldı.

Tamaşa yay məzuniyyəti ərəfəsində hazır oldu, ancaq premyera payıza saxlandı. Yeni mövsümün ilk üç günündə (11, 12, 13 sentyabr) «Xurşidbanu Natəvan» tamaşası oynanıldı.

Aktrisanın bütün cəhdlərinə baxmayaraq, Natəvan rolu Amaliya Pənahovanın yaradıcılığında Nargilə və Nərminlə müqayisədə çox parlaq nailiyyətə çevrilmədi. Bütövlükdə isə aktrisa bu obrazı dramatik-psixoloji ifadə vasitələri ilə göstərməyə çalışırdı. Müəyyən məqamlarda Amaliya xanım faciə elementlərindən də istifadə edirdi. Qocaman səhnə ustası Ağasadıq Gəraybəyli özünün son rollarından olan Qoca Knyazı ilhamla oynayırdı. Firəngiz Mütəllimova (Bəyim) və Telman Adıgözəlov (Daşdəmir) dueti tamaşanın ən duzlu, yumorlu, şən, koloritli personajlarıydı. Xatırladım ki, İlyas Əfəndiyev «Mahnı dağlarda qaldı» pyesindəki Gülgəz – Rəhman lirik-komik obrazlarından sonra ikinci dəfə idi ki, psixoloji gərginliyi «sındıran» belə personajlar yaradırdı.

Tamaşanın aparıcı surətlərindən olan rolların içərisində Əliabbas Qədirovun (Seyid Hüseyn), Rafael Dadaşovun (Knyaz Xasay), epizodik xarakterlərin səhnə həllində Məcnun Hacıbəyovun (Kor Eyvaz), Zemfira Nərimanova və Şükufə Yusupovanın (Təhminə) ifaları dəyərliydi.

Mərahim Fərzəlibəyovun quruluşunda rəmz-obrazların ağırlıq gətirən çoxluğuna, müəyyən epizodların ana xətlə zəif bağlanmasına baxmayaraq, rejissorun iş üslubu, məşqlərdəki çevikliyi, aktyorlara sərbəstlik verməsi, rəssamla anlaşıqlı işi baxımından kollektivdə müəyyən inam və rahatlıq doğurdu. Təəssüf ki, rejissorun ikinci işindəki, Uilyam Şekspirin «Maqbet» faciəsinə verdiyi quruluşdakı nöqsanlar dediyim inama kölgəli xallar saldı.

Dünya teatr təcrübəsində dəfələrlə sınaqdan çıxıb ki, Uilyam Şekspirin «Otello», «Hamlet», «Maqbet», «IV Henri», «III Riçard» faciələrinin səhnə müvəffəqiyyətinin ilkin rəhni pyesin qəhrəmanlarını oynayacaq aktyorların uğurla seçilməsindən və onların səhnədə düzgün rejissor tələqqisindən çox asılıdır.

Mərahim Fərzəlibəyovun konstruktiv quruluşda Ledi Maqbeti Hökümə Qurbanova kimi romantik aktrisaya verməsi, onun mövcud fiziki imkanlarının nəzərə alınmaması, Maqbetin mürəkkəb xarakterinin səhnə təfsirindəki yanlış rejissor fəlsəfi-psixoloji qənaətləri tamaşanı iflic vəziyyətinə salmışdı.

Kütləvi səhnələrin quruluşundakı primitivlik, əyanların geyimlərinin nizamsızlığı, nizə, qılınc, qalxan ilə səriştəsiz davranış, əsas obrazlara rəssam Fuad Qafarovun verdiyi geyim eskizlərinin qeyri-peşəkar icrası, demək olar, bütün aktyorların Maqbet dövrünün atmosfer ruhunu tuta bilməyərək kənara sapmaları ciddi qüsurlar idi.

Cadugərlər üçün tapılmış oyun tərzinə, qara pərdə ilə müəyyən ovqatları yaratmaq istəklərinə, Amaliya Pənahovanın, Sofiya Bəsirzadənin, Mirvari Novruzovanın aktyorluq məsuliyyətlərinə baxmayaraq, bu səhnələr «Maqbet» tamaşasının ümumi ruhundan, oyun üslubundan, əsas mövzudan ayrılırdı. Rejissor zahiri faktlara uyaraq daxili əlaqə bağlarını tapmağı sanki lazım bilməmişdi.

Məlik Dadaşov kimi istedadlı aktyor rejissorun səhv yozumu (traktovkası) nəticəsində, Maqbetin obraz kimi fəlsəfi-estetik bütövlüyünü düzgün müəyyənləşdirə bilməmişdi. Maqbetin cinayəti ilə cəzası arasında «vicdan» kateqoriyasının dominant rolu unudulmuşdu. Halbuki pyesdə obrazın mənəvi aləmindəki təbəddülatların səbəbləri bu kontekstdə açılır. Maqbetin sarsıntılarının nəticələri yox, səbəbləri, şəxsi faciəsi, məhz mən – mən, mən – dövlət, mən – dövlət – cəmiyyət – mən fəlsəfi-estetik qatlarının psixoloji dərinliyində üzə çıxır.

Rejissor Mərahim Fərzəlibəyovun tamaşada rəmzlərə çox uyması da əməl-fəaliyyət xətti, ideya istiqaməti baxımından qüsurlu və mübahisəli idi. Kompozisiyanın zahiri əlamətlərinə, texniki effekt və vasitələrə mahiyyətə varmadan aludəlik rejissoru məzmunla formanı monolit şəkildə birləşdirməkdən uzaqlaşdırmışdı.

Şekspirin əsərləri spektr rənglərinə bənzəyir. Onu səhnədə bütün rənglərin harmoniyasında vermək lazımdır. Mərahim Fərzəlibəyov Şekspirin isti, qaynar və coşqun rənglərini atmış, özünə «lazım» olanları (?) saxlamışdı. Və onların da «lazımlılıq» yönü qeyri-müəyyən qalmışdı. Müəyyən fars, karnaval, fəlsəfi mükalimə elementlərinin

konkret göstərilməsi, ancaq Şekspir humanist dünyagörüşünə bağlanmaması da rejissor diqqətsizliyinin nəticəsi idi.

Geniş ictimaiyyətin ixtiyarına noyabr ayının 19-da verilən «Maqbet» tamaşası dekabrda İrəvanda keçirilən Ümumittifaq Festivalına aparıldı. Maraqsız qarşılanan tamaşa festivalın yekun müzakirəsində ciddi və kəskin tənqid edildi. Bəzi tənqidçilər Şekspir əsərlərini oynamaqda şöhrətli ənənəsi olan kollektivin «Maqbet» tamaşasına təəccüb və açıq-aydın etiraz etdilər.

Tənqidin yarınma cəhdinə («Klassiklərin hakimiyyəti», Gülrux Əlibəyova. «Bakinskiy raboçiy» qəzeti, 29 yanvar 1982) baxmayaraq, Mərahim Fərzəlibəyovun quruluş verdiyi «Maqbet» repertuarda duruş gətirə, Azərbaycan Şekspir teatrının nailiyyətləri sırasına daxil ola bilmədi.

İki klassik, bir mücərrəd məkanlı və bir tərcümə əsərindən sonra teatr yenidən müasir mövzunun vacibliyini təsdiqləmək məcburiyyətində qalaraq Bəxtiyar Vahabzadənin yaradıcılığına üz tutdu. Teatr şair-dramaturqun on iki il əvvəl Əşrəf Quliyevin rejissorluğu ilə oynanılan «İkinci səs» pyesi üzərində dayandı.

Tamaşanın quruluşçu rejissoru Lütfi Məmmədbəyov, rəssamı Solmaz Haqverdiyeva oldu. Janrı dram adlandırsa da, pyesdəki melodrama motivlərini cücərdən rejissorun təklifi ilə müəllif əsərin adını dəyişib «Kimdir haqlı?» qoydu. Beləliklə, sırf ailə-məişət mövzulu, psixologizmə meyilli kamera tamaşası hasilə gəldi.

Tamaşaçılar yeni rejissor konsepsiyası, fikirləri qanadlandıran tapıntılar, mürəkkəb ideyalar toqquşmasının fəlsəfi qənaətləri, dərin mənalı mizanlar ilə rastlaşmadılar. Əslində, buna nə pyesdə zəmin vardı, nə də Lütfi Məmmədbəyovun belə bir istedadı və məqsədi. O, sadə mizanlardan, aydın kompozisiyadan ibarət, ağırlıq və aparıcılıq aktyorların üzərinə düşən, axtarışlar da onların öz öhdəsinə buraxılmış tamaşa meydana çıxartdı.

İlin sonunda (27 dekabr) ilk tamaşası göstərilən səhnə əsərində əsas rolları Əliabbas Qədirov (Rəşad), Safurə İbrahimova (Həyat), Vəfa Fətullayeva və Zemfira Nərimanova (Arzu), Rafael Dadaşov (Fikrət), Hamlet Qurbanov (Şükür bəy) oynayırdılar. Sonrakı teatr mövsümlərində Rafael Dadaşov, həmçinin Rəşadı, Bəsti Cəfərova

Arzunu, Sadıq İbrahimov Fikrəti ifa etdilər. Zeynəb və Məlahət rollarının ifaçılarında da dəyişiklik edildi.

Repertuarda çox duruş tutan «Kimdir haqlı?» tamaşası ailə-məişət mövzusunda teatrın nisbətən məqsədyönlü işlərindən sayıla bilər və bu da bilavasitə aktyorların xidməti idi.

May ayının 22 -də teatr İlyas Əfəndiyevin «Unuda bilmirəm» pyesinin 1968-ci il noyabrın 1-də premyerası olmuş tamaşasını bərpa edib repertuara saldı. Hələ yetmişinci illərin ortalarında Mustafa Süleymanov Möhsünzadə rolunda Məmmədrza Şeyxzamanova, Məhbubə Məlikova Nərmində Amaliya Pənahovaya, Elxan Ağahüseynoğlu Kamran surətində Həsən Turabova dublyor verilmişdi. Əvvəl Elxan Ağahüseynoğlunun oynadığı Muradov Əlvida Cəfərova, Lənkəran Dövlət Dram Teatrına işləməyə gedən Qabil Quliyevin ifa etdiyi İsmayıl Sadıq İbrahimova tapşırılmışdı. Yeni bərpada İlham Əhmədovla Rafael Dadaşov Cəmili, Məcnun Hacıbəyovla Əlvida Cəfərov Milis mayorunu, Saleh Babayev isə İsmayılı ifa etdilər. Muradov obrazı tamaşadan çıxarıldı.

Bərpa uğursuz alındı və aktyorların cəhdlərinə baxmayaraq, tamaşa ilk təravətini, bədii dəyərini, cazibədarlığını itirmişdi. Kassa gəliri məqsədilə atılan addımda yeni aktyorlar sənət baxımından heç nə qazana bilmədilər.

* * *

Qastrol. İyul ayında Akademik teatr Zaqatala, Qax, Balakən, Şəki rayonlarına qastrol səfərinə çıxdı. Qastrol müddətində (1 – 28 iyul) kollektiv «Əliqulu evlənir» (Sabit Rəhman), «Qəribə oğlan», «Unuda bilmirəm» (İlyas Əfəndiyev), «Yollara iz düşür» (Bəxtiyar Vahabzadə), «Qılınc və qələm» (Məmməd Səid Ordubadi), «Quşu uçan budaqlar» (Əkrəm Əylisli) tamaşalarını ümumilikdə əlli beş dəfə oynadı.

Təltif. Şəfiqə xanım Məmmədova «İstintaq» filmindəki Gülya roluna görə, SSRİ Dövlət mükafatı laureatı oldu.

Truppada dəyişmə. Mart ayının 9-da Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru Mərahim Fərzəlibəyov teatra rejissor, yenə orada çox az müddət işləmiş Ramiz Novruzov, həmçinin Rüstəm Əliyev (11 mart) aktyor götürüldülər (16 may). Sentyabrın 1-də Zöhrə

Şirinova və İftixar Piriyev, sentyabrın 22-də Abbas Qəhrəmanov təyinatla teatra gəldilər.

Əməkdar incəsənət xadimi, quruluşçu rejissor Əşrəf Quliyev İncəsənət İnstitutunda aktyor sənəti kafedrasına müdir seçildiyi üçün sentyabrın 1-də teatrdan tamamilə uzaqlaşdı.

Əcəl aldı... Səhnə fəaliyyətinə 1920-ci ildə başlamış Ağahüseyn Xəlil oğlu Cavadov bu il vəfat etdi. O, müxtəlif illərdə Azad Tənqid və Təbliğ və Bakı Türk İşçi (1921 – 1933), Gəncə Dövlət Dram (1933 – 1938) və Musiqili Komediya (1938 – 1942) teatrlarında işləmişdir. 1942-ci ildən Akademik Milli Dram Teatrında aktyorluq edən sənətkar burada Musa, Bərbərzadə («Toy», «Xoşbəxtlər», Sabit Rəhman), Ocaqqulu, İmamverdi («Almaz», «1905-ci ildə», Cəfər Cabbarlı), Cəlal, Məmişov («Həyat», «Məhəbbət», Mirzə İbrahimov), Luka Lukiç («Müfəttiş», Nikolay Qoqol), Brabansio («Otello», Uilyam Şekspir), Mürsəl («Qaçaq Nəbi», Süleyman Rüstəm), İmran («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Sima Popoviç («Nazirin xanımı», Branislav Nuşiç), Brəhmən Maytreya («Hind gözəli», Yuri Osnos, Viktor Vinnikov)... rollarını oynamışdır. Ağahüseyn Cavadov (22 aprel 1894 – 20 iyul 1981) vəfatından bir neçə il əvvəl təqaüdə çıxsa da, ömrünün axırınadək, yeri gələndə dəvətlə çağırılıb səhnədə çıxış edirdi.

Akademik teatrda onlarca klassik, müasir, tərcümə əsərlərində yüzdən çox dramatik, əsasən, komik, baməzə, məsxərəli rollar yaratmış sənətkarlardan biri də teatr fəaliyyətinə Tiflisdə başlayıb, Bakıda sənətin zirvəsinə çatmış Möhsün Sənanidir. Şəkinski, Şərif, Rəbi, Pirqulu («Oqtay Eloğlu», «Almaz», «Od gəlini», «Aydın», Cəfər Cabbarlı), Vasif, Serqo, Kinto («İblis», «Şeyx Sənan», «Knyaz», Cavid), Xasay («Vəfa», Rəsul Rza), Qoşqar («İntiqam», Zeynal Xəlil), Həsənağa («Göz həkimi», İslam Səfərli), Eldar («Vaqif», Səməd Vurğun), Tofiq, Mahir, Vahid («Həyat», «Məhəbbət», «Kəndçi qızı», Mirzə İbrahimov), Sadıq («Xoşbəxtlər», Sabit Rəhman), Kassio («Otello», Şekspir), Nəbi («Qaçaq Nəbi», Süleyman Rüstəm), Məmməd («Türkiyədə», Nazim Hikmət), Mehdi-Mixaylo («Uzaq sahillərdə», İmran Qasımov və Həsən Seyidbəyli) obrazları ilə teatr tariximizin əbədiləşmiş Xalq artisti Möhsün Sənani (Möhsün Sadıq oğlu Cəfərov) il təzə başlayanda (19 iyun 1900 – 2 fevral 1981) vəfat etdi.

Məşhur dram və faciə aktyoru, Xalq artisti 1936-cı ildən Akademik teatrda işləyən Həsənağa Salayev (5 dekabr 1921) xeyli müddət idi, iflicdən xəstə yatırdı. Teatr sənəti sərvətimizə Eldar, Qacar, Vaqif («Vaqif», Səməd Vurğun), Florizel və Leont, Sezar, Montano («Qış nağılı», «Antoni və Kleopatra», «Otello», Uilyam Şekspir), Qorxmaz, Oqtay, İbad, Bəhram («Od gəlini», «Oqtay Eloğlu», «Almaz», «Solğun çiçəklər», Cəfər Cabbarlı), Qartal və Söhrab, Əmin («Cavanşir», «Alov», Mehdi Hüseyn), Maksim («Daş qartal», Pavel Malyarevski), Çarudatta («Hind gözəli», Yuri Osnos, Viktor Vinnikov), Doktor («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Heydər bəy («Hacı Qara», Mirzə Fətəli Axundzadə), Dünüa («Orlean qızı», Fridrix Şiller), Fərhad («Sənsiz», Şıxəli Qurbanov), Riçard Dadcen («Şeytanın şagirdi», Bernard Şou), Rəşad («İkinci səs», Bəxtiyar Vahabzadə), Vəli («Qaçaq Nəbi», Süleyman Rüstəm), Keykavus («Səyavuş», Hüseyn Cavid), Şeyda («Şirvan gözəli», Ənvər Məmmədxanlı), Abbas («Həyat», Mirzə İbrahimov) rollarını bəxş etmiş Həsənağa Dərya oğlu Salayev 1981-ci il oktyabrın 22-də gözlərini əbədi yumdu.

1982-ci il

26 mart. «Mirzə Şəfi»*, Nəbi Xəzri.

2 hissəli dram.

Quruluşçu rejissor Ağakişi Kazımov, quruluşçu rəssam Nüsrət Fətullayev, rəssam Kamal Şıxəliyev, bəstəkar Cahangir Cahangirov, rəqslərin quruluşçusu Kamal Həsənov, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Fuad Poladov (Mirzə Şəfi), Əliabbas Qədirov** və Rafael Dadaşov (Mirzə Fətəli), İlham Əhmədov (Bodenşdet), Hacı İsmayılov və Pərviz Bağırov (Barataşvili), Elxan Ağahüseynoğlu və Elxan Quliyev (Abovyan), Fateh Fətullayev (Rəhim bəy), Mirvari Novruzova və Ətayə Əliyeva (Səltənət), Vəfa Fətullayeva və Bəsti Cəfərova (Pakizə), Muxtar Avşarov (Məşədi Qulam), Yaşar Nuriyev (Qurbanqulu), Nəcibə Məlikova (Zübeydə xanım), Aqşin Vəlixanov (Saday bəy), Ramiz Novruzov (Molla Əhməd), Firəngiz Mütəllimova və Sevil Abbasova (Qaratel), Əsgər Məmmədoğlu və Telman Adıgözəlov (Abırlı), Məhbubə Məlikova və Şükufə Yusupova (Fatma),

İftixar Piriyev (Əkbər), Əlvida Cəfərov, Firuz Xudaverdiyev və Nəcəf Həsənzadə (kəndlilər), Rüstəm Əliyev (Qoçu), Səidə Quliyeva və Lalə Bağırova (Pakizənin rəfiqələri).

* *Qeyd.* Tamaşanın adı bəzi sonrakı məramnamələrdə «Mirzə Şəfi Vazeh» də yazılıb.

** *Qeyd.* Əliabbas Qədirov məşq elədi, ancaq tamaşada Mirzə Fətəli rolunu oynamadı.

15 may. «Sizi deyib gəlmişəm», Anar.

2 hissəli satirik komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Cavanşir Quliyev, rəqslərin quruluşçusu Kamal Həsənov, rejissor assistenti Namiq Ağayev.

Rollarda: Həsən Turabov və Əliabbas Qədirov (Mirzə Cəlil), Mikayıl Mirzəyev (Sabir), Şükufə Yusupova və Əminə Babayeva (Həmidə xanım), Saleh Babayev (Ömər Faiq), Yaşar Nuriyev (Molla Nəsrəddin), Rafiq Əzimov (Mozalan), İlham Əhmədov (Lağlağı), Pərviz Bağırov (Hərdəmxəyal), Hacı İsmayılov (Məmmədhəsən əmi), Səməndər Rzayev (Xudayar bəy), Vəfa Fətullayeva (Zeynəb), Ətayə Əliyeva və Mirvari Novruzova (İzzət), İftixar Piriyev (Vəliqulu), Səidə Quliyeva və Lalə Bağırova (Şərəf), Tahir Xudaverdiyev və Dadaş Sadıqov (Əhməd), Sofiya Bəsirzadə (Səkinə), Rüstəm Əliyev və Telman Adıgözəlov* (Uçitel), Məmməd Sadıqov (Molla Həzrətqulu), Əliağa Ağayev və Əsgər Məmmədoğlu (Qazı), Məzahir Cəlilov (Naçalnik), Muxtar Avşarov və Mustafa Süleymanov (Kərbalayı Cəfər), Elxan Ağahüseynoğlu (Karapet ağa), Əlvida Cəfərov (Çavuş), Məhbubə Məlikova, Sevil Xəlilova, Bəsti Cəfərova, Sevil Abbasova, Zemfira Şirinova, Firəngiz Mütəllimova, Zemfira Nərimanova, Səidə Quliyeva, Lalə Bağırova (çadralı qadınlar).

* *Qeyd.* Altıncı tamaşadan sonra Telman Adıgözəlov Vəliqulunu oynadı, Uçitel Həsənovu isə ifa etmədi.

31 may. Kiçik səhnədə. «Medeya», Jan Anuy. Tərcümə edəni Natiq Səfərov.

Faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva.

«Sizi deyib gəlmişəm», Anar. İzzət – Ətayə Əliyeva və Kərbalayı Cəfər – Hacı İsmayılov. 1982-ci il



«Sizi deyib gəlmişəm», Anar. Soldan: Ömər Faiq – Saleh Babayev və Mirzə Cəlil – Həsən Turabov. 1982-ci il

Rollarda: Amaliya Pənahova (Medeya), Sofiya Bəsirzadə (Dayə), Nurəddin Quliyev (Yazon), Ramiz Novruzov (Kreon), İftixar Piriyev (Oğlan), Əlvida Cəfərov (Mühafiz).

2 sentyabr. «Gecənin sirri», Anatoli Safronov. Tərcümə edəni Mirzə İbrahimov.

2 hissəli dram.

Quruluşçu rejissor Əşrəf Quliyev, rəssam Kamal Şıxəliyev, bəstəkar Sevda İbrahimova, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Məhluqə Sadıqova (Mariya), Amaliya Pənahova (Zina), Sevil Abbasova (Pavel, kiçik), Nurəddin Quliyev (Pavel, böyük), Ramiz Novruzov (Nikolay), Zərnigar Ağakişiyeva (Klavdiya), Telman Adıgözəlov (Mixail), Sadıq İbrahimov (Xorst), Firuz Xudaverdiyev (Hans).

21 dekabr. Kiçik səhnədə. «Məhəbbət yaşadır», Nahid Hacıyev.

2 hissəli dram.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Fuad Qafarov, bəstəkar Elza İbrahimova.

Rollarda: Səməndər Rzayev və Lütfi Məmmədbəyov* (Cığatay), Firəngiz Mütəllimova və Zemfira Nərimanova (Nübar), Oqtay Quliyev (Elcan), Zərnigar Ağakişiyeva (Nilufər), Yaşar Nuriyev və Hacı İsmayılov (Ziyad), Əminə Babayeva (Gözəl).

* *Qeyd.* Lütfi Məmmədbəyov Cığatay obrazını hazırladı, ancaq Səməndər Rzayevin gözəl oyunundan sonra özü könüllü şəkildə roldan imtina etdi.

30 dekabr. «Közərən ocaqlar», Mirzə İbrahimov.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssamlar Nüsrət Fətullayev və Kamal Şıxəliyev, bəstəkar Fikrət Əmirov, rejissor assistentləri Rövşən Qocayev və Namiq Ağayev.

Rollarda: Həsən Turabov və Lütfi Məmmədbəyov (Vladimir İliç Lenin), Məlik Dadaşov (Nəriman Nərimanov), Səməndər Rzayev (Mazar bəy), Zərnigar Ağakişiyeva (Maral), Aqşin Vəlixanov (Martenburov), Nurəddin Quliyev (Kərim bəy), Mustafa Süleymanov (Usta baba), Mirvari Novruzova (Tükəz), Yaşar Nuriyev* və Məcnun Hacıbəyov (Məmmədəli), İlham Əhmədov (Qulaməli), Ətayə Əliyeva** (Reyhan), Elmira Haşımzadə (Leyla), Ramiz Novruzov (Nazim),

Telman Adıgözəlov (Xanəhməd), İlham Əsgərov (Əli), Saleh Babayev (Nikolay), Məzahir Cəlilov (Sərkis), Nəcəf Həsənzadə (Mazurov), Mirzə Ağayev (Qoçu).

* *Qeyd.* Yaşar Nuriyev məşq elədi, ancaq tamaşada Məmmədəli rolunu oynamadı.

** *Qeyd.* Üçüncü, dördüncü və beşinci tamaşada Reyhan rolunu Sofiya Bəsirzadə ifa etdi.

9 oktyabrda Anarın «Şəhərin yay günləri» pyesinin tamaşası (1977) bərpa edildi.

* * *

Şair-dramaturq Nəbi Xəzri iki il idi, mətbuata verdiyi müsahibələrdə, yazdığı məqalələrdə klassik Azərbaycan şairi Mirzə Şəfi Vazehin həyatının, əsasən, gənclik və qocalıq dövründən bəhs edən pyes üzərində işlədiyini bildirmişdi. Onu da bildirmişdi ki, rejissor Ağakişi Kazımov bu işdə ona dəyərli məsləhətlər verir, səmərəli ideyalar irəli sürür. Müəllif və rejissor mətn üzərində xeyli işləyəndən sonra keçən il dekabrın 9-da «Mirzə Şəfi» (bəzi proqramlarda «Mirzə Şəfi Vazeh» də yazılıb. – *İ.R.*) dramının məşqlərinə başlandı.

Tamaşada tarixi faktlara xronoloji ardıcıllıqla, elmi dəqiqliklə yanaşılsa da, bədii münasibətlərdən hiss olunurdu ki, Nəbi Xəzri müraciət etdiyi mövzuya və Mirzə Şəfinin həyatına, yaşadığı dövrə aid kifayət qədər məlumat toplayıb. Dramaturq və rejissor Mirzə Şəfini lirik nəğmələr ustadı kimi təqdim etməklə yanaşı, onu siyasi hadisələr burulğanında, ictimai-sosial münasibətlərin məngənəsində də vermişdilər. Tamaşada Qurbanqulu (Yaşar Nuriyev), Əkbər (İftixar Piriyev), Pakizə (Vəfa Fətullayeva və Bəsti Cəfərova) kimi həyati, canlı obrazlar vardı.

Mirzə Şəfi – Zübeydə xanım (Nəcibə Məlikova), Mirzə Şəfi – Qaratel (Firəngiz Mütəllimova), Saday bəy (Aqşin Vəlixanov) – Qurbanqulu (Yaşar Nuriyev) kimi dramatik, lirik, fəci xətlər vardı. Bunların işlənməsində dramaturq-rejissor-aktyor həmfikirliyinin səmərəsi aydın görünürdü.

Tamaşanın birinci hissəsində «Zübeydə xatunla olan dialoqu nəzərdə tutmasaq, süst və passiv görünən» (1) Fuad Poladov ikinci

hissədə obrazın müəyyən tərəflərinin zəif işlənməsindən əziyyət çəkirdi. Mirzə Şəfinin sədaqətli simsarı Məşədi Qulamla (Muxtar Avşarov) Pakizəni qaçırdığı epizodun bədii səhnə təsdiqi tapılmamışdı. Mirzə Şəfinin daxili sarsıntılarını, keçirdiyi psixoloji gərginlikləri, hətta ruhi təbəddülatlarını səhnədə göstərmək baxımından şairin həyatının Tiflis dövrü xüsusi əhəmiyyətə malikdir. Tamaşada həmin dövrün faciəvi-dramatik, fəlsəfi-psixoloji tamlığını, Mirzə Şəfinin xarakterini açan, konfliktin ictimai motivini gücləndirən bütöv və kamil səhnələr görünmürdü. Mirzə Şəfi – Mirzə Fətəli (Rafael Dadaşov), Mirzə Şəfi – Bodenştedt (İlham Əhmədov), Mirzə Şəfi – Baratəşvili (Hacı İsmayılov və Pərviz Bağırov) – Abovyan (Elxan Ağahüseynoğlu və Elxan Quliyev) xətləri zəif və bədii cəhətdən kəsərsiz, yarımçıq alınmışdı. Elə bil bu obrazlar səhnəyə yalnız tarixi fakt naminə tələsik gətirilib, tələsik də çıxarılırdı.

Finalda Mirzə Şəfinin Avropadakı şöhrətindən qısaca məlumat verilir və şairin qəbri, Pakizə və Qaratelin onun məzarı yanında yaraşıqlı, yarıqaranlıq siluetləri görünürdü.

Cahangir Cahangirovun musiqisi bu səhnədə əzəmətli, ovqatca psixoloji cəhətdən əsaslı, bir qədər də kövrək səsləndirdi. Nədənsə, rejissor tapdığı finalı axıradək qura bilməmişdi. Halbuki burada musiqinin ahənginə, fikrin məntiqinə uyğun şəkildə yalnız hərəkətlərlə daha mənalı, daha dramatik final səhnəsi qurmaq mümkün idi.

1906-cı ildə «Molla Nəsrəddin» məcmuəsi nəşrə başladı. Məcmuənin birinci sayını «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım...» cümləsi ilə başlayan Cəlil Məmmədquluzadənin ilk üç sözünü Anar növbəti pyesinə sərlövhə seçdi. Mirzə Cəlilin həyatının epizodik fraqmentlərini, dahi satira ustasının «Eşşəyin itməkliyi», «Danabaş kəndinin məktəbi» əsərlərindən epizodları, Mirzə Ələkbər Sabir satirasından parçaları, «Molla Nəsrəddin» məcmuəsindən felyetonları, Ömər Faiq Nemanzadə, Həmidə xanım, Mirzə Ələkbər Sabir kimi tarixi dühaları təcəssüm etdirən satirik komediyanı tamaşaya Mərahim Fərzəlibəyov hazırlamışdı. Premyerası 15 mayda göstərilən tamaşa janrca publisist-faciəvi-komediya idi. Mərahim Fərzəlibəyov tamaşa üçün tapdığı forma (rəssam Solmaz Haqverdiyeva), Mirzə Cəlil kədərini, Mirzə Cəlil ağrısını, Mirzə Cəlil fəryadını əks etdirən

musiqidən (bəstəkar Cavanşir Quliyev) bacarıqla istifadə etməsi ilə dinamik, yapışıqlı və mənalı tamaşa yaratmağa, əsasən, nail olmuşdu.

Təklikdə Mirzə Cəlili (Həsən Turabov) tamaşadakı hadisələrin mərkəzində saxlayan dramaturq və rejissor qəzet publisistikasının «dördlük» (dörd səhifə) prinsipinə əsaslanaraq, Mirzə Cəlilin imzaları Molla Nəsrəddini (Yaşar Nuriyev), Mozalanı (Rafiq Əzimov), Lağlağını (İlham Əhmədov), Hərdəmxəyalı (Pərviz Bağırov) həm ayrılıqda, həm də bütövlükdə bir obraz kimi göstərməklə, əsas məqsədi Mirzə Cəlil fenomeninin açılmasına yönəltmişdilər. Düzdür, dramaturji təsvirdən Mirzə Cəlilin öz əsərlərinə keçid epizodlarında bu dördlüyün funksiyalarını rejissor tam həll edə bilməsə də, satira siqləti səhnədə saxlanılırdı.

Mirzə Ələkbər Sabirin şeirinin vəznini, kinayə və satira hədəfini, psixoloji tutumunu Mikayıl Mirzəyev, Xudayar bəyin nadanlığının – faciələrini, mənəvi kasadlığını, fiziki kobudluğunu, insani yöndəmsizliyini Səməndər Rzayev, Məmmədhəsən əminin zavallılığını, nadanlıqdan çəkdiyi zülmü, miskin həyat tərzini Hacı İsmayılov, Zeynəbin ilkin İslama dəxli olmayan «müsəlmanlıqda» boğulmasını Vəfa Fətullayeva, Həmidə xanımın ağayanalığını, bəy nəslinə mənsub qürurunu Şükufə Yusupova məharətlə oynayırdılar. Əliağa Ağayevin Qazı, İftixar Piriyevin və sonra bu rolda çıxış edən Telman Adıgözəlovun Vəliqulu, Sofiya Bəsirzadənin Səkinə rolları da maraqla baxılırdı. Rejissorun Ömər Faiq (Saleh Babayev) obrazına verdiyi təfsirlə və bədii imkanlar, zahiri görkəm baxımından onun ifasına seçdiyi aktyorun oyun tərzi ilə razılaşmaq qətiyyən mümkün deyildi. Mərahim Fərzəlibəyov bu istiqamətdə meyarı Çavuş (Əlvida Cəfərov), Karapet Ağa (Elxan Ağahüseynoğlu), Kərbalayı Cəfər (Muxtar Avşarov), Molla Həzrətqulu (Məmməd Sadıqov) ilə bağlı epizodlarda da bəzən gözləyə bilmirdi.

Mirzə Cəlili – qəlbi xalq dərdindən, milləti rəzalətə sürükləyən nadanlıqdan qövr eləyən, hayqırtısı bütün Yaxın Şərqi, Hindistanı silkələyən dahini «Həsən Turabov zahirən təmkinli, soyuqqanlı, nifrətini və rəğbətini açıq büruzə verməyən bir şəxsiyyət kimi təqdim etsə də, Cəlil Məmmədquluzadənin sadəliyini, bütövlüyünü, əzəmətini,

qüdrətini yetirən daxili keyfiyyətlərini geniş potensial imkanlara malik olan seçimli aktyor fərdiyyəti ilə ayıra və monumentallaşdıra bilir (2). Turabov verilən mizanlardan, əsasən, hərəkətlərdən «xəsisliklə» istifadə edərək səsinin tembr və ahəng vurğusu ilə ustalıqla davranaraq Mirzə Cəlilin dühalığının mahiyyətini açırdı.

Əvvəlki və sonrakı tamaşaları ilə müqayisədə Mərahim Fərzəlibəyov «Sizi deyib gəlmişəm...» əsərində kompozisiya ölçülərindən istənilən formada istifadədə, geniş, çarpaz, dalğavari mizanlar qurmaqda daha cəsarətli, məqsədcə daha qənaətbəxş idi. Bəzən boş meydanda işıq effektlərindən istifadə baxımından da Mərahim Fərzəlibəyovun bu işi uğurlu alınmışdı.

Xalq yazıçısı Mirzə İbrahimovun təkidi və tərcüməsi ilə «Oqonyok» jurnalının baş redaktoru Anatoli Safronovun «Gecənin sirri» kimi zəif əsərini Əşrəf Quliyev tamaşaya qoydu. Nə məzmunca, nə rejissor və aktyor işinə, nə konsepsiya istiqamətinə görə «Gecənin sirri» teatrın həyatında əhəmiyyətli rol oynaya bilmədi. Əksər aktyorlar bu tamaşada səhnəyə əlacsız çıxdıqlarını etiraf edirdilər. Qəribədir ki, o zaman SSRİ-də Anatoli Safronovun ən çox tərcümə pyesini oynayan, məhz Akademik Dram Teatrı olmuşdur. Bunun da kökündə yaradıcılıq yanğısı, axtarışlar ehtirası yox, çürük «əl əli yuyar...» prinsipi dururdu.

Dekabr ayında tərcümədən əlavə, Mirzə İbrahimovun ilk tamaşası 1967-ci ildə oynanılan «Közərən ocaqlar» dramı da Mərahim Fərzəlibəyovun quruluşunda tamaşaya qoyuldu. İlk tamaşada Mazar bəyi oynamış Məlik Dadaşov təzə quruluşda Nəriman Nərimanov, az-az səhnəyə çıxan, əsasən, televiziyada tamaşalar hazırlayan Lütfi Məmmədbəyov isə ilk dəfə Vladimir İliç Lenin rollarında çıxış etdilər.

«Közərən ocaqlar» tamaşası repertuardakı əsərləri say hesabı ilə artırsa da, teatrın sənət nailiyyətlərini zənginləşdirə bilmədi.

Yetmişinci illərin axırlarında SSRİ-də bir sıra qabaqcıl sənət ocaqları yaradıcılıq sərbəstliyi qazanmaq, pyes seçimində, rejissor üslubunda, aktyor oyununda eksperimentlər aparmaq üçün öz nəzdlərində kiçik səhnələr yaratdılar. Bu səmərəli axına qoşulan Akademik Milli Dram Teatrı da belə bir addım atdı. Binanın sol qanadında, dördüncü mərtəbədə yerləşən böyük məşq otağı Kiçik səhnəyə çevrildi.

Buranın səhnəsi söküldü və dörd tərəfdən döşəməyə bərkidilməyən oturacaqlar düzüldü. Bunu o məqsədlə etdilər ki, hər rejissorun tapdığı formaya uyğun olaraq, səhnə zalın istənilən məkanında «qurula», oturacaqların yönü sərbəst dəyişdirilə bilsin. Küçəyə baxan böyük pəncərələrə qara örtük tutuldu. Pərdələrin açılıb-bağlanması da rejissorlar üçün sərbəst idi. Aktyorlar öz qrim otaqlarında soyunub-geyinir, mizana uyğun olaraq sağ və sol dəhlizdən Kiçik səhnədəki «səhnəyə» daxil olurdular. Tamaşaçıların giriş-çıxışı yalnız sol dəhlizdən idi. Bu dəhlizin qurtaracağında, açılan qapının yanında otaq-köşk düzəldildi. Bu köşkdən tamaşanın işığı verilir və musiqinin lent yazıları səsləndirilib tənzim edilirdi. Salonda, yəni Kiçik səhnədə zalın eninə bir neçə dartıcı bağ bərkidildi. Bunlar ştanget (qaldırıb-endirən boru) funksiyasını icra edir, onlardan pərdələr, dekorlar, məkan lövhələri asılırdı. Sağ və sol divarda hərəkət (145 dərəcə bucaq altında) edən projektorlar bərkidildi.

Kiçik səhnədə aktyorun, rejissorun tamaşa qoyması, əsər seçməsi, aktyorla işləməsi sərbəst idi. Burada məşqlər əsas səhnənin işləri bitəndən sonra başlayırdı. Bəzən sərbəst aktyorlar böyük səhnə ilə paralel məşq edirdilər.

Kiçik səhnədə ilk iş çağdaş fransız yazıçısı Jan Anuyun süjetini antik yunan dramaturgiyasından götürdüyü «Medeya» faciəsi oldu. Jurnalist-yazıçı Natiq Səfərovun tərcümə etdiyi əsəri tamaşaya Mərahim Fərzəlibəyov hazırladı. Tərtibatın müəllifi Solmaz Haqverdiyeva idi. Tərtibat iki paralel və bir tək uzun dayaqdan (postamentdən) ibarət idi. İlk tamaşa uğurlu oldu. Tamaşaçılar qırx ildən artıq səhnə təcrübəsinə malik Sofiya Bəsirzadəni (Dayə), artıq lirik-psixoloji aktrisa kimi tanınmış Amaliya Pənahovanı (Medeya), tələbə auditoriyalarından lap yaxın keçmişdə ayrılmış Nurəddin Quliyevi (Yazon), Ramiz Novruzovu (Kreon), İftixar Piriyevi (Oğlan) yeni sınaqlarda görə bildilər.

Kiçik səhnə üçün ilk orijinal pyesi Nahid Hacıyev yazdı. Uzun illər televiziyanın ədəbi-dram verilişləri redaksiyasına başçılıq edən Nahid Hacıyev həm aktyorları yaxşı tanıyırdı, həm də Lütfi Məmmədbəyovun iş üslubuna bələd idi. Bəlkə də, buna görə kamera tamaşası kimi melodrama ruhlu «Məhəbbət yaşadır» pyesi Lütfi Məmməd-

bəyovun quruluşunda nisbətən uğurlu alındı. Əsər teatrın ümumi yaradıcılıq konsepsiyası istiqamətindəki axtarışlarının tələblərinə cavab verə bilməsə də, səmimi ruhu, insani münasibətlər, məişət qayğıları, dramatik vəziyyətin doğmalığı baxımından maraqlı idi. Fuad Qafarovun tərtibatı, Elza İbrahimovanın musiqisi, Səməndər Rzayevin Cığatay, Firəngiz Mütəllimova və Zemfira Nərimanovanın Nübar, Yaşar Nuriyevin Ziyad, Əminə Babayevanın Gözəl rollarındakı ifaları janrın və Kiçik səhnənin bədii tələblərinə uyğun gəlirdi.

«Məhəbbət yaşadır» tamaşası ifaçı yığcamlığına və tərtibat sadəliyinə, əlbəsə yüngüllüyünə görə teatrın qastrol repertuarına da daxil edildi, bir sıra rayonlarda göstərildi.

1982-ci ildə teatr Hüseyn Cavidin anadan olmasının bir il sonra keçiriləcək 100 illik yubileyinə hazırlaşmağa başladı.

* * *

Truppada dəyişmə. Respublikanın Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, qüdrətli səhnə ustası Şəfiqə xanım Məmmədova oktyabrın 14-də otuz yeddi yaşında gözlənilmədən teatrı tərk edib pedaqoji fəaliyyətə keçdi. Dəfələrlə, xüsusən Həsən Turabovun bədii rəhbərliyi dövründə səy göstərilsə də, Şəfiqə xanım söz verdi, ancaq teatra qayıtmadı.

Mayın 26-da Tədris teatrında işləyən Mirzə Ağayev, noyabrın 1-də Sumqayıt Dövlət Dram Teatrının aktrisası Elmira Haşımzadə ikinci dəfə kollektivə qəbul edildilər.

Fəxri adlar. 1982-ci il dekabr ayının 1-də teatrın bir qrup sənətkarına Azərbaycan Respublikasının fəxri adları verildi.

Xalq artisti: Həsən Səftər oğlu Turabova və Şəfiqə Məmmədovaya.

Əməkdar incəsənət xadimi: Mərahim Fərzəli oğlu Fərzəlibəyova.

Əməkdar artist: Vəfa Nüsrət qızı Fətullayevaya, Kamal Ağahüseyn oğlu Xudaverdiyevə, Əliabbas Gülabbas oğlu Qədirova, Yaşar Məmmədsadıq oğlu Nuriyevə, Bürcəli Veysəl oğlu Əsgərova, Ramiz Ağarza oğlu Məlikova, Zərnigar Ağakişiyevaya, İlham Namiq Kamal oğlu Əhmədova, Hamlet Bəbir oğlu Xanızadəyə, Fuad Ağarəhim oğlu Poladova, Hamlet Ağadadaş oğlu Qurbanova, Elmira İbrahim

qızı Haşımzadəyə (onun təqdimatı Sumqayıt teatrından olmuşdu) və Rafiq Əşrəf oğlu Əzimova.

400-cü tamaşa. Tofiq Kazımovun 1 noyabr 1968-ci ildə quruluş verdiyi «Unuda bilmirəm» (İlyas Əfəndiyev) səhnə əsərinin 400-cü tamaşası 1982-ci il dekabrın 21-də oynanıldı. Əsas rolları Həsən Turabov (Kamran), Amaliya Pənahova (Nərmin), Məmmədrza Şeyxzamanov (Möhsünzadə), Sofiya Bəsirzadə (Səadət xanım), İlham Əsgərov (Cəmil)... ifa etdilər.

Əcəl aldı... Azərbaycanın Xalq artisti, qocaman rejissor Ələsgər Məmmədtağı oğlu Şərifov (25 dekabr 1909 – 28 sentyabr 1982) vəfat etdi. Bakı Teatr Texnikumunda və Moskvada Teatr Sənəti İnstitutunda təhsil almış Ələsgər Şərifov 1934-cü ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrında quruluşçu rejissor oldu. Əsasən, rus klassiklərinin əsərlərinin tamaşaya qoyulmasında böyük səriştəsi olan sənətkarın «Cehizsiz qız», «Tufan», «Günahsız müqəssirlər» (Aleksandr Ostrovski), «Vanya dayı» (Anton Çexov), «Tufanlı il» (Aleksey Kapler), «Zamanın hökmü» (Nikolay Poqodin), «Qış nağılı» (Uilyam Şekspir), «Şəxsi iş» (Aleksandr Şteyn), «Məhəbbət əfsanəsi» (Nazim Hikmət), «Dumanlı Təbriz» (Məmməd Səid Ordubadi), «Kimdir müqəssir?» (Georgi Mdivani), «Qaliblər» (Boris Çirskov), «Şeyx Sənan» (Hüseyn Cavid), «Közərən ocaqlar» (Mirzə İbrahimov), «İpək naxışlar» (Abdulla Qəhhar) tamaşaları neçə-neçə aktyorun istedadının pardaqlanmasına təkan vermişdir.

Epizodik xarakter rolların ifasında tanınmış aktyor, Respublikanın Əməkdar artisti Hacıməmməd Ələkbər oğlu Qafqazlı (Quliyev) səksən dörd yaşında (24 mart 1898 – 21 sentyabr 1982) vəfat etdi.

Dramaturqlar. Jan Anuy. XX əsr fransız dramaturqudur. Antik dramaturgiyanın süjetləri əsasında «Antiqona», «Medeya», Uilyam Şekspirin eyniadlı əsəri əsasında «Romeo və Cülyetta» faciələrini, həmçinin «Sanlisedə görüş», «Oğruların balı», «Qəsrə dəvət», «Vəhşi qadın», «Torağay», «Barxanasız sərnişin», «Evridika», «Zirzəmi», «Ssenari», «Həbs»... dramlarını yazıb.

Nahid Rəhim oğlu Hacızadə (Hacıyev. 14.3.1936). Azərbaycan nasiri. ADU-nun filologiya fakültəsini bitirərək uzun müddət televiziyada işləmişdir. Nəsr əsərlərindən əlavə, «Məhəbbət yaşadır», «Ömür

gözləyir», «Ömrün sorağında», «Qisas qiyamətə qalmaz»... pyesləri də var. Radiopyeslər də yazıb.

Mənbələr

1. Zemfira Nərimanova. «Mirzə Şəfi ilə görüş». – «Azərbaycan gəncləri», 5 iyun 1982.
2. Məryəm Əlizadə. «Sizi deyib gəlmişəm...». – «Bakı», 28 iyun 1982.

1983-cü il

19 mart. «İblis», Hüseyn Cavid.

2 hissəli faciə.

Tamaşa böyük şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyinə həsr edilir.

Quruluşçu rejissor Mehdi Məmmədov, rejissorlar Həsən Turabov və Məmmədkamal Kazımov, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, bəstəkar Aydın Əzimov, rəqslərin quruluşçusu Kamal Həsənov, rejissor assistenti Rövşən Qocayev.

Rollarda: Həsən Turabov və Hamlet Xanızadə (İblis), Əminə Babayeva və Sevil Xəlilova (Mələk), Əliabbas Qədirov və Rafael Dadaşov (Vasif), Rasim Balayev və Ramiz Məlikov (Arif), Ağasadıq Gəraybəyli və Məmmədrza Şeyxzamanov (İxtiyar), Bəsti Cəfərova, Şükufə Yusupova və Firəngiz Mütəllimova* (Xavər), Vəfa Fətullayeva, Safurə İbrahimova və Zemfira Nərimanova** (Rəna), Kamal Xudaverdiyev və Səməndər Rzayev (İbn Yəmin), Rüstəm Əliyev və Hamlet Qurbanov (Zənci çavuş), Nurəddin Quliyev və Mikayıl Mirzəyev (Elxan), Sofiya Bəsirzadə və Məhluqə Sadıqova (Qadın), Sadıq İbrahimov və Rafiq Əzimov (Kiçik zabit), Hacı İsmayılov (Yaralı zabit), Saleh Babayev və Aqşin Vəlixanov (Ərəb zabiti), İlham Əsgərov (Ərəb əsgəri), Bürcəli Əsgərov (Birinci zabit), Hamlet Qurbanov və Əsgər Məmmədoğlu (İkinci zabit), Pərviz Bağırov (Üçüncü zabit), Firuz Xudaverdiyev (Birinci qanun), Ramiz Novruzov (İkinci qanun), Şahin Cəbrayılov (Birinci qaçaq), Əlvida Cəfərov (İkinci qaçaq), Mustafa Süleymanov (Növbətçi qaçaq), Məzahir Cəlilov (Papas), Muxtar

Avşarov (Şeyx), Elxan Ağahüseynoğlu (Xaxam), Telman Adıgözəlov (Şeypurçu), Lalə Bağırova, Bəsti Cəfərova, Firəngiz Mütəllimova, İftixar Piriyev, Mərziyə Məmmədbəyli, Zemfira Nərimanova, Zöhrə Şirinova və Mətanət Atakişiyeva (qaraçılar), Tərlan Babayev, Elman Babayev, Leyla Musayeva və Tahir Xudaverdiyev (uşaqlar).

* *Qeyd.* Firəngiz Mütəllimova məşq elədi, ancaq tamaşada Xavər rolunu oynamadı.

** *Qeyd.* Zemfira Nərimanova məşq elədi, ancaq tamaşada Rəna rolunu oynamadı.

7 iyun. Kiçik səhnədə. «Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev.

Faciə.

Quruluşçu rejissor Rövşən Qocayev (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu), rəssam Solmaz Haqverdiyeva, rejissor assistenti Rza Məmmədov. Tamaşanın bədii rəhbəri Mehdi Məmmədov,

Rollarda: Hamlet Xanızadə* və Məzahir Cəlilov (Hacı Səməd ağa), Telman Adıgözəlov və İftixar Piriyev (Çingiz), İlham Əsgərov və Nurəddin Quliyev (Fərhad), Mirvari Novruzova (Mehri xanım), Saleh Babayev (Musa), Rafiq Əzimov və Elxan Ağahüseynoğlu (Mirzə Qoşunəli), Məmməd Sadıqov və Firuz Xudaverdiyev (Kərbalayı Bəndəli), Mirzə Ağayev (Birinci kəndli), Əlvida Cəfərov (İkinci kəndli), Elxan Quliyev (Üçüncü kəndli).

* *Qeyd.* Hamlet Xanızadə (Hacı Səməd ağa) məşq etdi, ancaq tamaşada oynamadı.

17 sentyabr. «Büllur sarayda», İlyas Əfəndiyev.

2 hissəli dram.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Tahir Tahirov, bəstəkar Oqtay Kazımov, rəqslərin quruluşçusu Kamal Həsənov.

Rollarda: Hamlet Qurbanov (Ağahüseyn), Sofiya Bəsirzadə (Cəvahir xanım), Amaliya Pənahova (Aynur*), Nəcibə Məlikova (Qonça), Bəsti Cəfərova (Lalə), Hacı İsmayılov (Fariz), Rafael Dadaşov** (Qədim), Əliabbas Qədirov və İlham Əsgərov (Həbib), Şükufə Yusupova və Sevil Xəlilova (Sədaqət), Yaşar Nuriyev (Bayandur), Nurəddin Quliyev (Təbriz).

**Qeyd.* Firəngiz Mütəllimova Aynur rolunu məşq etdi. Ancaq Amaliya Pənahova onun oynamasına etiraz etdi və buna görə Firəngiz Mütəllimovanın əmrdə olsa da, proqrama adı düşmədi. Firəngiz Aynuru dörd il sonra oynaya bildi.

** *Qeyd.* İlk tamaşada Qədim obrazını Fuad Poladov oynayıb və sonralar da həmin rolu ifa edib. Ancaq nədənsə, onun adı premyera tamaşasının proqramına yazılmayıb.

24 dekabr. «Atabəylər», Nəriman Həsənzadə.

2 hissəli mənzum dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Fuad Qafarov, bəstəkar Arif Məlikov. Elmi məsləhətçi akademik Ziya Bünyadov.

Rollarda: Hamlet Xanızadə (Nizami), Aqşin Vəlixanov və Sadıq İbrahimov (Əcəmi), Kamal Xudaverdiyev (Qızıl Arslan), Vəfa Fətullayeva və Safurə İbrahimova (İnanc xatun), Ramiz Məlikov (Toğrul bəy), İlham Əsgərov (Əbubəkr), Pərviz Bağırov (Mahmud), Nurəddin Quliyev (Ruz), Ramiz Novruzov (Ayəba), Elmira Haşımzadə (Gülaçar), Mustafa Süleymanov (Bağban), Məcnun Hacıbəyov (Əbuşər), Hacı İsmayılov (Yad adam), Zöhrə Şirinova (Baş kəniz), Zemfira Nərimanova, Səidə Quliyeva, Lalə Bağırova və Mətanət Atakişiyeva (kənizlər), Əlvida Cəfərov (Aydoğdu), Saleh Babayev (Tural), Mirzə Ağayev (Satmaz), Elxan Quliyev (Qıran), İftixar Piriyev (Yıxan), Rüstəm Əliyev və Abbas Qəhrəmanov (sərkərdələr).

28 dekabr. «Sehrli alma», Yozef Lada.

2 hissəli uşaq nağılı.

Təbdil edib işləyəni və quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Mübariz Məlikov, rəqslərin quruluşçusu Əminə Dilbazi.

Rollarda: Məmməd Sadıqov, Məzahir Cəlilov və Məcnun Hacıbəyov (Piri baba), Sofiya Bəsirzadə və Ətayə Əliyeva (Ballı xala), Abbas Qəhrəmanov və Mirzə Ağayev (Nəzər), Muxtar Avşarov və Elxan Ağahüseynoğlu (Şah), Firəngiz Mütəllimova və Sevil Abbasova (Nərgiz), Firuz Xudaverdiyev və Elxan Quliyev (Aşpaz Abbas), Şahin Cəbrayılov və Saleh Babayev (Sərkərdə), Mətanət Atakişiyeva və Mərziyə Məmmədbəyli (Dayə).

«İblis», Hüseyn Cavid. Soldan: Arif – Rasim Balayev, İblis – Həsən Turabov, Rəna – Vəfa Fətullayeva və Elxan – Mikayıl Mirzə. 1983-cü il

«Atabəylər», Nəriman Həsənzadə. Qızıl Arslan – Kamal Xudaverdiyev və İnanc xatun – Safurə İbrahimova. 1983-cü il

30 dekabr. Kiçik səhnədə. «İlham pərisi», Cahan Əfruz.

Müasir vodevil.

Quruluşçu rejissor Məhərrəm Bədirzadə, rəssam Kamal Şıxəliyev.

Rollarda: Ramiz Novruzov (Oqtay), Telman Adıgözəlov (İlham pərisi), Elxan Ağahüseynoğlu (Rəhim Rəhimoviç), Bəsti Cəfərova (Gülya), Lalə Bağırova və Sevil Abbasova (Zoya), Səidə Quliyeva (Lalə), İlham Əsgərov (Araz), Firuz Xudaverdiyev (Vəli).

* * *

Akademik teatr keçən ildən Hüseyn Cavidin anadan olmasının 100 illiyi münasibətilə ədibin «İblis» faciəsini repertuar planına daxil etmişdi. Əvvəl «Şeyx Sənan» faciəsi üzərində dayanan teatr «İblis»in oynanılmasını, məhz Mehdi Məmmədovun təklifinə əsasən planlaşdırmışdı. Ötən il mayın 15-dən rejissor məşqlərə başlasa da, ilk tamaşanı göstərmək yalnız 1983-cü il martın 19-da mümkün oldu.

«İblis» Hüseyn Cavidin ən mürəkkəb və ən çox tamaşaya qoyulmuş faciələrindəndir. Əsər 1918-ci ildə yazılsa da, ilk tamaşası Abbasmirzə Şərifzadənin quruluşunda 1920-ci il 20 dekabrda göstərilib. Milli teatr bu faciəni ikinci dəfə yenə Şərifzadənin (8 aprel 1921), sonralar Aleksandr İvanovun (3 mart 1922), Aleksandr Tuqanovun (11 noyabr 1926) quruluşlarında oynayıb. Bu quruluşların hər birinin öz üstünlükləri, öz qüsurları olub. Mehdi Məmmədovun hazırladığı «İblis» fəlsəfi-psixoloji dərinliyi, monumentallıqla modern teatr üsullarının sintezi, mövzunun çağdaş beynəlxalq siyasətin başlıca mahiyyətləri ilə həssaslıqla əlaqələndirilməsi baxımından orijinal, təravətli və kompozisiyaca əzəmətli idi (bax: 1).

Mehdi Məmmədov insanlıqla iblisliyin əbədi xeyir-şər konfliktində mübarizəsinin, onun bəşəri-fəlsəfi mahiyyətinin səhnə təfsirini Cavidin poetik qüdrəti ilə verə bilmişdi. Rejissor iblisliyi bəşəriyyəti səksəkədə qoyan nüvə silahlarının, hidrogen bombalarının, onların planetlərarası daşıyıcısı olan raketlərin rəmzini tərtibatda (Elçin Məmmədov və Nazim Bəykişiyev) ümumiləşdirmişdi. Səhnə içində «səhnə» qurmuş rejissorun təfsirində qalın zəncirlərlə bəndlənmiş, hadisələrə uyğun vahiməli musiqinin (Aydın Əzimov) müşayiəti ilə

enib-qalxan raket rəngli metal tavan insanlığın başı üzərini almış nüvə müharibəsinin törədə biləcəyi faciələrdən soraq verirdi. Ona görə də Həsən Turabovla Hamlet Xanızadənin oynadıqları İblis mifik şər təmsilçisi kimi deyil, insanlığa yabançı hislərin ümumiləşdirilmiş, damokl qılıncı təki yuxarıdan asılmış fəlakət kabusu obrazı yerində idi.

Quruluşçu rejissorun epik teatr poetikası ənənələrinə əsaslanan quruluşunda aktyorlar «oyun içində oyun» prinsipinə əməl edirdilər. Əsas hadisələr səhnənin ortasında, yuxarıda dediyim bəyaz rəngli metal tavan altında baş verirdi. Bu «məkandan» çıxan aktyorlar «İblis» faciəsinin hadisələrindən uzaqlaşsalar da, rejissorun qurduğu hadisələrin təmsilçi-iştirakçıları kimi qalırdılar.

Aktyorlar, ilk növbədə, «oyunçu» idilər: olmuş və ola biləcək hadisələrin səhnə oyunçuları.

Mehdi Məmmədov Arif roluna Ramiz Məlikovla yanaşı, kinostudiyanın aktyoru, Xalq artisti, eyniadlı filmdə Nəsimi rolu ilə gənc yaşlarından şöhrətlənmiş Rasim Balayevi də dəvət etmişdi. Vaxtilə institutda bir müddət Mehdi Məmmədovdan dərs almış Rasim Balayevin oyununda çox səmimi emosionallıq, zahirən mehriban və sakit, daxilən rahatsız və coşqun psixologizm vardı. Aktyor Arifi həm başqarin şaşırmış övladını, həm Cavidin mənəvi harayını, həm də rejissorun fəlsəfi qənaətini birləşdirən psixoloji-poetik faciə obrazı səviyyəsində oynayırdı. Təəssüflər olsun ki, teatr rejissorlarımız Rasim Balayevin səhnəyə bu qədəmini layiqincə qiymətləndirib, yaradıcılığa Tədris teatrında teatr aktyoru kimi başlamış, Dövlət bəy («Aydın»), Həsənzadə («Sən həmişə mənimləsən»), Karl Moor («Qaçaqlar») rolları ilə hələ tələbəlikdən Moskva, Bakı, Sankt-Peterburq festivallarında qələbələr qazanmış, zəngin daxili aləmli aktyordan uzun müddət istifadə etmədilər. Rasim Balayev özü də həmişə mənimlə söhbətlərində buna yanğıyla, kövrək incəliklə təəssüflənib. Teatrda böyük həvəslə işləmək istədiyini bildirib.

«İblis» tamaşasında Səməndər Rzayevin İbn Yəmin, Əliabbas Qədirovun Vasif, Məmmədrza Şeyxzamanovun İxtiyar, Mikayıl Mirzəyevin Elxan rolundakı oyunları poetik-epik teatrın ölçü-prinsiplərinə daha uyğun gəlirdi. Bu aktyorlar Hüseyn Cavid şeiriyyətinin dramatik hüsnünü, məna vurğularını həssaslıqla tuta bilirdilər. Bir sıra

aktyorların diksiyalarında bu ahəngdarlıq nisbətən pozulur, əruz vəzninin ləngərli, dərin mənalı axarı, musiqi ritmi itkilərə məruz qalırdı.

«İblis» ictimai-fəlsəfi tamaşasından sonra yalnız beşinci ayda, sentyabrın 17-də premyera oldu. İlyas Əfəndiyevin məişət mövzulu «Büllur sarayda» pyesinin oxunuşu keçən il oktyabrın 5-də olmuşdu. Əsər «Aynur» adı ilə dekabrda yeni redaktədə rejissor Ağakişi Kazımova təqdim edildi və o, 1983-cü il yanvarın ilk günlərində məşqlərə başladı. Arada pyesin məşqləri «Yuxu deyildi sevgimiz...» adı ilə də aparıldı. Teatrdaxili intizamın pozulması, Ağakişi Kazımovun lirik-psixoloji janrın incəliklərinə bir qədər ləng varması tamaşanın hasilə gəlməsini uzadırdı. Nəhayət, «Büllur sarayda» tamaşası repertuara ayaq açdı.

Aynur obrazının həyat mövqeyi, məişət davranışı baxımından, Lalə personajının milli etik-əxlaqi problemləri öz əqidəsincə, şəxsi «qənaəti çərçivəsində» ölçməsi ilə maraqlı cəhətləri vardı. Həmin obrazlar müxtəlif qatlarda konfliktə ictimai-sosial vurğu gətirirdilər. Ancaq Aynurun təfsirində rejissorun baş mövzudan uzaqlaşması, aktrisanın tamaşa boyu ondan çox geyim dəyişməsi dinamik ritm tarazlığını pozurdu. Hətta Amaliya Pənahovanın paltarlarını dəyişməyə çətinlik çəkdiyinə görə rejissor epizodlararası keçidlərə tez-tez səhnəni qaranlıq verməli və yaxud mətləbsiz musiqi səsləndirməli olurdu.

Bəsti Cəfərova isə səhnə ciddiliyi, emosional coşqunluğu, obrazın ikinci-üçüncü planlarını da rolun ifasında saxlaması ilə daha təbii idi. Lalə rolu aktrisanın işlədiyi üç il müddətində bədii tutumuna və ifaçılıq sənətkarlığına görə ən uğurlu iş alınmışdı. Bu rolla Bəsti Cəfərova güclü istedad sahibi olduğunu sübut etdi, öz aktrisa gələcəyinə böyük ümidlər doğurdu.

Tamaşanın yumor gücünü, dalğavari, çevik, yığılıb-açılan ritmini Yaşar Nuriyev (Bayandur) tənzimləyirdi. Kənd mühitindən yenicə ayrılmış, hər cür riyakarlıqdan, mənəvi saxtalıqdan uzaq, müəyyən mənada hərəkətlərində «yonulmamış»lıq təsiri bağışlayan Bayandur ruhən, əqidəcə dramaturqun arzusunda olduğu obraz idi. Aktyorlardan Sofiya Bəsirzadənin (Cəvahir xanım), Nəcibə Məlikovanın (Qonça), Əliabbas Qədirovun (Həbib), Hamlet Qurbanovun (Ağahüseyn), Fuad Poladov və Rafael Dadaşovun (Qədim) ifalarında tamlıq vardı.

Bəstəkar Oqtay Kazımovun musiqisinin mayasında lirizm dururdu. Rejissor da çalışmışdı ki, musiqi parçalarından səmərəli istifadə etsin. Müqayisədə Həbib – Aynur lirik-intim xəttində verilən musiqi daha canlı, daha mənalı və daha təsirli alınmışdı. Dramatik musiqi leytmotivi psixoloji obrazlarla Lalə – Qədim epizodlarına hakim idi. Mizanlar elə qurulmuşdu ki, bağ evinin ikinci qatına qalxan pilləkənin ən sonuncu ayaqlığında (rəssam Tahir Tahirov) Lalənin daxili dramatizmi, həyəcanı ilə musiqinin ritm ahəngi üst-üstə düşürdü.

«Büllur sarayda» tamaşasında çürük mənəviyyatları ilə ailə faciələrini açan, Hacı İsmayılovun oynadığı Fariz (Fariz – Lalə, Fariz – Ağahüseyn və sairə) və Şükufə Yusupova ilə Sevil Xəlilovanın ifa etdikləri Sədaqət mövzuları, onlarla ilişgili epizodlar zəif işlənmişdi. Finalda həm rəmzi mənada, həm də real məkan mənasında «büllur sarayın» çürük sütunlarının sökülüb dağılmasının estetik səhnə həlli də tapılmamışdı. Bununla belə, teatrın mənəvi-əxlaqi mövzu axtarışlarının əlaqə bağları qırılmamışdı, davam edirdi.

Şair Nəriman Həsənzadə neçə illər idi ki, Azərbaycan tarixinin parlaq, təzadlı, tərəddüdlü səhifələrlə dolu bir dövrünü əks etdirən, Atabəylər hökmdarlıq sülaləsinin mühüm hadisə-zamanından bəhs olunan mənzum dram üzərində işləyirdi. Yeddi il əvvəl həmin mövzuda Məmməd Səid Ordubadinin «Qılınc və Qələm» əsərinin tamaşası oynanılmışdı. Görünür, teatr bu mövzuya yeni rakursdan baxmaq istəyirdi. Müəllif pyesini kollektivə oxumuşdu, ancaq əsər üzərində işləmək üçün çoxlu dəyərli tövsiyələr edilmişdi. Nəriman Həsənzadə «Atabəylər» pyesinə rejissor Mərahim Fərzəlibəyovla məsləhətləşmədən sonra yenidən əl gəzdirdi. Onun bu rejissorla yaradıcılıq ünsiyyəti Sumqayıt teatrından başlanmışdı. Mərahim Fərzəlibəyov burada şairin ilk dram əsəri olan «Bütün Şərq bilsin» pyes-kompozisiyasına quruluş vermişdi.

Məşqləri doqquz aydan çox çəkən, premyerası 24 dekabrda oynanılan «Atabəylər» tamaşasının elmi məsləhətçisi, akademik Ziya Bünyadov idi. Pyesdə mənzum şeir parçaları hərəkət dramatizmini zəiflədir, dialoqları hadisələr toqquşmasından uzaqlaşdıraraq adi informasiya səviyyəsinə endirirdi. Hamlet Xanızadənin oynadığı Nizami Gəncəvi, Aqşin Vəlixanovun ifa etdiyi memar Əcəmi kimi tarixi şəxsiyyətlərin obrazlarının bədii, dramatik təsviri zəif alınmışdı. Müəllif

öz fantaziyasının məhsulu olan, müəyyən hadisələrdə az və ya çox iştirak edən Gülaçar (Elmira Haşımzadə), Əbuşər (Məcnun Hacıbəyov), Bağban (Mustafa Süleymanov), Aydoğdu (Əlvida Cəfərov), Tural (Saleh Babayev), Qıran (Elxan Quliyev) surətləri həm dramaturji, həm də aktyor ifaları baxımından zəif və qüsurlu idilər.

Mərahim Fərzəlibəyov mənzum hekayətçiliyi yığışdırıb poetik tamaşa yaratmaq istəsə də, müəllifdən gələn bütün qüsurları islah edə bilməmişdi. Rəssam Fuad Qafarovun məkan-tərtibatda monumentallığa cəhd göstərməsi, Arif Məlikovun milli və klassik dünya musiqisinin qovuşuğunda tarixin fəlsəfi-psixoloji, ictimai-sosial ruhunu poetikliklə canlandıran musiqisi də tamaşadakı boşluğu doldura, qüsurları ört-basdır edə bilmədi.

Tamaşada ciddi aktyor axtarışlarının bəhrəsi olan Qızıl Arslan (Kamal Xudaverdiyev), İnanc xatun (Vəfa Fətullayeva və Safurə İbrahimova), Əbubəkr (İlham Əsgərov), Toğrul bəy (Ramiz Məlikov), Ayəba (Ramiz Novruzov), Ruz (Nurəddin Quliyev) obrazları da pyesdən gələn ümumi nöqsanlara görə möhtəşəmlik səviyyəsinə qalxa bilmirdilər. Kütləvi səhnələr qurmağı xoşlamayan Mərahim Fərzəlibəyov «Atabəylər» tamaşasında döyüş epizodlarının yığcam, estetik həllinə çalışmışdı. Amma o da, aktyorlar da buna tam nail ola bilməmişdilər. Bu baxımdan kənizlərlə bağlı mövzu da ana xətlə hərəkət dramatizmində birləşdirilməmişdi.

İlin sonuna bir həftə qalmış Akademik teatr «Atabəylər»dən əlavə, «Sehrli alma» (28 dekabr) və Kiçik səhnədə «İlham pərisi» (30 dekabr) tamaşalarını göstərdi. Ağakişi Kazımov çex yazıçısı Yozef Ladanın nağılları əsasında təbdil edilmiş «Sehrli alma» nağıl-tamaşasına quruluş verdi. Bu tamaşa məktəblilərin qış tətili və yeni il şənlikləri üçün nəzərdə tutulmuşdu. Azərbaycanlaşdırılmış, hər obrazın iki-üç ifaçısı olan «Sehrli alma» tamaşası dekabrın 28-dən yanvarın 10-dək, gündə dörd-beş dəfə oynanılırdı. İlk tamaşa saat 10-da başlanırdı.

Bu il Kiçik səhnədə iki tamaşa hazırlanmışdı. İncəsənət İnstitutu rejissorluq fakültəsinin tələbəsi Rövşən Qocayev diplom işi kimi Əbdürrəhim bəy Haqverdiyevin «Bəxtsiz cavan» faciəsinə quruluş verdi. Tamaşa iyunun 7-də göstərildi. «Bəxtsiz cavan»ın tamaşasının bədii rəhbəri diplomçunun ixtisas müəllimi Mehdi Məmmədov idi.

Hacı Səməd ağa rolunu Hamlet Xanızadə məşq etdi, ancaq tamaşada oynamadı. Onu Məzahir Cəlilovla əvəz etdilər. «Bəxtsiz cavan» tamaşası bir dəfə Kiçik səhnədə, beş dəfə də rayon qastrolunda göstərilərək repertuardan çıxarıldı.

Kiçik səhnədəki ikinci tamaşanın, Cahan Əfruzun «İlham pərisi» müasir vodevilinin quruluşunu televiziya rejissoru Məhərrəm Bədirzadə vermişdi. Qədim yunan rəvayətlərinin qəhrəmanlarından İlham pərisi Taliyaya həsr edilmiş tamaşada hadisələr məkanca Azərbaycanda, zamanca bu gün baş verirdi. Ramiz Novruzov (Oqtay), Bəsti Cəfərova (Gülya), Sevil Abbasova (Zoya), İlham Əsgərov (Araz) oynaq və şən, komik və satirik, yumorlu və məzəli vodevil oynamağa həvəslə çalışırdılar.

«İlham pərisi» tamaşasının ağırlıq mərkəzi dörd rol (İlham pərisi, Qaya, Nüsrət, Briqadir) oynayan Telman Adıgözəlovun ekssentrik ifasında cəmləşirdi. Aktyor «bütün səhnələrdə yumoru ön plana çəkir, öz ehtiraslı oyunu ilə rəğbət qazanır» (2), şux boyalara üstünlük verməklə, salonda da belə ovqat yaradırdı.

Xeyli müddət idi, Şəfiqə xanım Məmmədova teatrdan uzaqlaşdığına görə onun oynadığı tamaşalar (əlbəttə ki, dublyoru olmayan tamaşalar) repertuardan çıxarılmışdı, «Şəhərin yay günləri» tamaşası da oynanılmırdı. Tamaşanın quruluşçu rejissoru Tofiq Kazımov rəhmətə getmişdi. Ona görə də baş qəhrəman Qiyas Zeynallı rolunun ifaçısı Həsən Turabov «Şəhərin yay günləri» tamaşasını bərpa edib repertuara saldı. Rafael Dadaşov, Amaliya Pənahova, İftixar Piriyev, Yaşar Nuriyev tamaşaya Qiyas Zeynallı, Dilarə, Namiq və Ağarəfi rollarına əlavə olundular.

İlin axırlarında teatrda nizam-intizam, yaradıcılıq həvəsi bir qədər də zəiflədi. Cari repertuarla kifayətlənən teatr perspektivli, məqsədyönlü yaradıcılıq planları barədə, demək olar, düşünmürdü. Bunun da əsas səbəbi, şəksiz ki, ilk növbədə, kollektivin baş rejissorsuz qalması, direktorun liberal mövqe tutması idi.

Martın 10-da Azərbaycan Mədəniyyət Nazirliyi və Respublika Teatr İctimaiyyəti teatrın 110 illiyini bayram etdi. Akademik teatr «Müsyö Jordan və Dərviş Məstəlişah» (Mirzə Fətəli Axundzadə), «Közərən ocaqlar» (Mirzə İbrahimov), Musiqili Komediya Teatrı «Danabaş kən-

dinin əhvalatları» (Mirzə Cəlil və Oqtay Kazımov), Rus Dram Teatrı «Bayram yuxusu» (Aleksandr Ostrovski), Opera teatrı «Leyli və Məcnun» (Üzeyir bəy Hacıbəyli), GTT «Hacı Qəmbər» (Nəcəf bəy Vəzirov), Kukla teatrı «Qaravəlli» (Anar) tamaşalarından parçalar oynadılar.

* * *

Truppada dəyişmə. Əsgər Məmmədoğlu yanvarın 26-da Sumqayıt Dövlət Dram Teatrında işləməyə getdi.

Mətanət Atakişiyeva sentyabrın 8-də təyinatla teatra aktyor götürüldü.

Rejissor Məmmədkamal Kazımov Ağdam Dövlət Dram Teatrına baş rejissor keçməsi ilə əlaqədar fevralın 22-də işdən çıxdı. Ancaq rejissorlardan biri kimi adı «İblis» tamaşasının proqramına yazılmışdı.

Əcəl aldı... Respublikanın Xalq artisti, milyonlarla tamaşaçının «O olmasın, bu olsun» filmindən Məşədi İbad kimi tanıdığı, görkəmli gülüş ustası Əliağa İsmayıl oğlu Ağayev qonaqlıq məclisində lətifə danışdığı yerdə gülə-gülə ömrünü bağışladı. Əliağa Ağayev (22 mart 1913 – 13 noyabr 1983) səhnəyə 1936-cı ildə gəlmiş, uzun illər Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərmiş, 1961-ci ildən son mənzilədək Akademik səhnə ocağında çalışmışdır.

Təqaüdə çıxsa da, tamaşalarda oynayan Əməkdar artist Fateh Möhsün oğlu Fətullayev (25 noyabr 1909 – 4 may 1983) vəfat etdi.

Dramaturqlar. Nəriman Əliməmməd oğlu Həsənzadə (18.2.1932. Qazax rayonu). Şair, nasir, dramaturq. Gəncədə pedaqoji, Moskvada Ali ədəbiyyat institutlarını bitirib. «Qoy bütün Şərq bilsin», «Pompeyin Qafqaza yürüşü», «Atabəylər»... dramlarının müəllifidir.

Cahan Əfruz (Cahan Hüseyn qızı Dilanova. 21.5.1922 – 6.12. 1984). Tovuz rayonunun Öysüzlü kəndində doğulub, şair, nasir və dramaturqdur. «Qanqın işıqları», «İlham pərisi», «Qanqın böyük dalğası» dramlarını qələmə alıb.

Mənbələr

1. Bəkir Nəbiyev. «İblis». – «Ədəbiyyat və incəsənət», 8 aprel 1983; Xəlil Rza. «İki qüdrət əl-ələ». – «Azərbaycan

müəllimi», 30 mart 1983; Abbas Zamanov. «Cavid sənətinin qələbəsi». – «Kommunist», 2 aprel 1983; Məryəm Əlizadə. «İblis» ittiham edir. – «Bakı», 12 aprel 1983; Юнис Багиров. Метамарфоза Демона. – «Вышка», 15 апреля 1983. Т.Тахмасиб. В ответе за все. – «Молодежь Азербайджана», 16 августа 1983; Вета Надирова. Еще раз об «Иблисе». – «Бакинский рабочий», 22 апреля 1983.

2. İslam İbrahimov. «Taliya komediya pərisidir». – «Bakı», 5 iyun 1984.

1984-cü il

24 Mart. «Fəryad», Bəxtiyar Vahabzadə.

2 hissəli mənzum dram.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Cavanşir Quliyev, rejissor assistenti Şaiq Səfərov, rəqslərin quruluşçusu Əli Əşari.

Rollarda: Səməndər Rzayev (Əmir), Fuad Poladov (Vəliəhd), Ramiz Novruzov (Loğman), Firəngiz Mütəllimova (Aypara), Kamal Xudaverdiyev (Birinci Nəsimi), Hamlet Xanızadə (İkinci Nəsimi), Mikayıl Mirzəyev (Zahid), Ramiz Məlikov (Dəyanət), Rüstəm Əliyev (Vəzir), Məzahir Cəlilov (Çalpapaq), Elxan Ağahüseynoğlu (Gözətçi), Yaşar Nuriyev (Rəhman), Sadıq İbrahimov (Qoca şair), Nurəddin Quliyev (Cavan şair), Əlvida Cəfərov (Sübhan), Elxan Quliyev (Kəramət), Saleh Babayev (Şübhələnən adam), Abbas Qəhrəmanov (Mərvan), Mirzə Ağayev (Lal).

28 aprel. Kiçik səhnədə. «Səməndər Quşu», Firidun Ağayev.

2 hissəli dram.

Quruluşçu rejissor Namiq Ağayev (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu), rəssam Adil Azayev, rejissor assistenti Rza Məmmədov. Diplom işinin rəhbəri Mehdi Məmmədov, bədii tərtibat məsləhətçisi Nüsrət Fətullayev.

Rollarda: Nurəddin Quliyev (İdris), Ramiz Novruzov (Saday), Bəsti Cəfərova (Məleykə və Sevilino), Abbas Qəhrəmanov (Anri), Rüstəm Əliyev (Klaus).

12 may. «Nişanlı qız», Sabit Rəhman.

2 hissəli komediya.

Quruluşçu rejissor Məlik Dadaşov, tərtibat rəssamı Nüsrət Fətullayev, geyim rəssamı Altay Nəsirli, bəstəkar Emin Sabitoğlu, rəqslərin quruluşçusu Rəşid Gülməmmədov, rejissor assistenti Şahin Cəbrayılov.

Rollarda: Bəsti Cəfərova (Bənövşə), Mirvari Novruzova və Əminə Babayeva (Ceyran xala), İlham Əhmədov və Rafael Dadaşov (Camal), Məcnun Hacıbəyov (Mirzə Salman), Amaliya Pənahova (Zərifə), İlham Əsgərov (Yusif), Zemfira Nərimanova və Mətanət Atakişiyeva (Qəmər), Səyavuş Aslan (Mindilli), Rafiq Əzimov və Şahin Cəbrayılov (Qasım), Məmməd Sadıqov və Telman Adıgözəlov (Çeşməkli kişi).

15 sentyabr. «Qarabağ əfsanəsi», Qeybulla Rəsulov.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov*, rəssam Kamal Şıxəliyev, bəstəkar Ramiz Mirişli.

Rollarda: Hökümə Qurbanova (Günəş), Elmira Haşımzadə (Çılğın), Nəcibə Məlikova (Şəhla xanım), Hamlet Qurbanov (Şəfioğlu), Bürcəli Əsgərov (Qara), Əliabbas Qədirov (Toral), Hacı İsmayılov (Orduxanov), Məhluqə Sadıqova (Kəlbiqızı), Abbas Qəhrəmanov (Çinar), İlham Əhmədov (Canəli), Muxtar Avşarov (Zeyni baba), Həsən Əbluc (Bədirxan), Səidə Quliyeva və Zöhrə Şirinova (Sədəf), Əminə Babayeva və Məhbubə Məlikova (Badisəba), Rüstəm Əliyev və İlham Əsgərov (İldırım), Mustafa Süleymanov (Mədət), Mirzə Ağayev (Camal), Telman Adıgözəlov (Fətiş).

* *Qeyd.* İlk tamaşalar oynanılan müddətdə bəzi proqramlarda səhvən Lütfi Məmmədbəyov quruluşçu rejissor yazılıb.

9 dekabr. «Biganələr oteli», Rüstəm İbrahimbəyov.

2 hissəli dram.

Tamaşa böyük qələbənin 40 illiyinə həsr olunur.

Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov, rejissor Həsən Əbluc.

Rollarda: Ramiz Məlikov (Birinci), Fuad Poladov (İkinci), Şükufə Yusupova (Radmila), Hamlet Xanızadə (Caiç), Yaşar Nuriyev (Milan),



«Fəryad», Bəxtiyar Vahabzadə. Soldan: İkinci Nəsimi – Hamlet Xanızadə, Rəhman – Yaşar Nuriyev və Birinci Nəsimi – Kamal Xudaverdiyev. 1984-cü il

«Nişanlı qız», Sabit Rəhman. Soldan: Qəmər – Zemfira Nərimanova və Zərifə – Amaliya Pənahova. 1984-cü il

Əliabbas Qədirov və Həsən Əbluc (Diş həkimi), Lalə Bağırova (Xanəndə qız), Hamlet Qurbanov (Vəkil), Ramiz Novruzov (Yaralı zabit), Elxan Ağahüseynoğlu (Yapon kommersantı), Hacı İsmayılov (Ruhani), Nurəddin Quliyev (Boksçu), Rafiq Əzimov (Amerika yazıçısı), Firəngiz Mütəllimova (Tereza), Zemfira Nərimanova (Mariya), Firuz Xudaverdiyev (Xəstə).

29 dekabr. Kiçik səhnədə. «Səadət sorağında», Xalid Əlimirzəyev.

2 hissəli dram

Quruluşçu rejissor Şaiq Səfərov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Mübariz Məlikov, rejissor assistenti Rza Məmmədov.

Rollarda: Bürcəli Əsgərov (Aslanov, tikinti idarəsinin rəisi), Səidə Quliyeva və Zöhrə Şirinova (Dilşad, onun qızı), Ramiz Novruzov və İlham Əsgərov (Rövşən, baş mühəndis), Elxan Quliyev və Saleh Babayev (Tahir, mühəndis), Məhbubə Məlikova (Səkinə, katibə), Telman Adıgözəlov və Əlvida Cəfərov (Murad, sürücü).

* * *

İki il əvvəl oktyabrın 12-də Bəxtiyar Vahabzadə kollektivə «Sükutda fəryad» pyesini oxumuşdu və əsər bəyənilmişdi. Ancaq müəllif mənzum dramını hansı rejissorun tamaşaya hazırlaması qərarına gəlməkdə tərəddüd göstərirdi. Teatrın hələ də baş rejissorsuz olması, bu prosesi daha da uzadırdı. Nəhayət, Bəxtiyar Vahabzadə Şəki Dövlət Dram Teatrında baş rejissor Hüseynağa Atakişiyevin tamaşalarına baxandan sonra qərarını qətiləşdirdi. İlin əvvəlində rejissor Hüseynağa Atakişiyev, rəssam Solmaz Haqverdiyeva və bəstəkar Cavanşir Quliyev «Sükutda fəryad» pyesinin məşqlərinə başladılar. Yaradıcılıq axtarışları prosesində rejissorun təklifi ilə «sükutda» sözü pyesin adından götürüldü və «Fəryad» qaldı. Monumental poetik tamaşa yaratmaq istəyindən uzaq olan Hüseynağa Atakişiyev əsas diqqəti müəllif fikrinin aydın şərhinə və ansamblın düzgün seçilməsinə yönəldərək faciə tutumlu tamaşa təqdim etmişdi.

Əsərin mövvusu XIV əsrin sonu, XV əsrin əvvəllərində (1369 – 1417) Azərbaycan mütəfəkkiri Nəsiminin dövründən, hürufizmdən bəhs edirdi. Nəsimi obrazı əsərdə olmasa da, Nəsimi idrakı, Nəsimi

əqidəsi, onun mənəvi buxovlardan xilas yolunda, azadlıq ideyaları uğrunda fədailərin mübarizələri təsvir edilib. Quruluşçu rejissor publisistik pafosdan qaçmağa çalışaraq «zülmətdən işığa, məhkumluqdan azadlığa doğru mübarizə aparan insanların haqq səsinin» (1) fəryadını, nadanlıqla barışığa, əbləhliyin müdrikliyi tapdalamasına, fanatizmin yırtıcılığına qarşı fəryadların toplu harayını təcəssüm etdirməyi tamaşanın ali məqsədi kimi müəyyənləşdirmişdi. Zəka nurunun zülmətdə çırpınması tamaşanın faciə notlarını istiqamətləndirir, Zahidin (Mikayıl Mirzəyev) öz əshabələri ilə işıqlı ideyalara, haqq səslərə qənim kəsilib mənəvi saflıqlara, insanlığa cəllad olması fəlsəfi psixologizmin estetik mahiyyətini açıqlayırdı.

Zəkanın, idrakın işığını qapamağı amala çevirmiş, hakim, kütbeyin Əmiri (Səməndər Rzayev) barmağına dolayan Zahid obrazı Mikayıl Mirzəyevin ifasında qədəmi dəyən yerdə torpağı da yandıran İblisdir. Riyakarlığa, törətdiyi rəzalətlərə, mənfur işdəklərinə, qana çalxanan əməllərinə ədalət donu «biçən» İblis!

Zahid obrazı 1976-cı ildən Akademik teatrda işləyən Mikayıl Mirzəyevin indiyədək oynadığı rollar arasında ən uğurlusu idi. Təbiətən romantik aktyor məktəbi ruhunda boy atan Mikayıl Mirzəyev «öz ecazkar, möcüzəli oyunu ilə... ikiüzlü, qəddar» (2) din dəllallarının tipikləşdirilmiş mürəkkəb, xaraktercə dəyişkən, mənfur əqidəsindən dönməyən obrazı olan Zahidi ümumiləşdirilmiş Şərq İblisi kimi oynayırdı. Janr etibarilə Mikayıl Mirzəyevin ifa üslubu romantik faciə ruhlu idi və «Cavid teatrı» poetikasının əsas göstəriciləri üzərində köklənmişdi.

Sonralar aktyorun məhz bu istedad yönündən teatr çox az istifadə edə bildi.

Ruhən nəsimiçilərə doğmalıq göstərib, onlara qoşulmuş oğlu Dəyanətin (Ramiz Məlikov) barəsində Zahidin hakim Əmirdən özünə əfv, övladına ölüm dilədiyi epizod «Fəryad» tamaşasının təsirli səhnələrindən idi. Səməndər Rzayevin ecazkar oyunu, Əmirin adamı dəhşətə gətirən nadanlığını pillə-pillə qaldırıb, ən açıq şəkildə milli fəlakət kimi ümumiləşdirməsi ilə amansız Zahidin həmin nadanlığın özünü millətin idrakına qarşı dəhşətli silaha çevirməsi tamaşanın ideya təntənəsi kimi səslənirdi. Hər iki aktyorun sənətkarlığı dramaturq və rejissor fikrinin aydınlığını təsdiqləyirdi.

«Fəryad» tamaşasında mürəkkəb kolliziyalı, dəyişkən süjetli hadisələri yox, əqidə toqquşmalarının tablosunu görürdük. Zahidə, başqa sözlə, nadanlığa qarşı mübarizə qütbündə dayanmış Birinci Nəsimi və İkinci Nəsimi obrazları nicatı idrakda görənlərin təmsilçiləri idi. Kamal Xudaverdiyevin və Hamlet Xanızadənin ifalarında hər iki surət «iti, ağıllı, azad ruhlu, aqil insan səviyyəsinə yüksəlir...» (3) qopardıqları mənəvi fəryadı mübarizə bayrağı kimi mənalandırırdılar.

Tamaşanın bütövlüyündə Yaşar Nuriyevin (Rəhman), Ramiz Novruzovun (Loğman), Nurəddin Quliyevin (Cavan şair), Abbas Qəhrəmanovun (Mərvan), Məzahir Cəlilovun (Çalpapaq) da aktyor xidmətləri vardı. Xorun qısa haraylarından da mənalı istifadə edilmişdi. Ancaq pantomim səpkili əl hərəkətləri, onların nizamsız icrası yersiz görünürdü. Mirzə Ağayevin oynadığı Lalın ölüm epizodu fikircə tamaşada vacib olsa da, onun səhnə həlli tapılmamışdı.

«Fəryad» tamaşasında təqdim etdiyi yaradıcılıq məramı Hüseynağa Atakişiyevin sonrakı işlərində müəyyən dərəcədə özünü göstərsə də, təəssüflər olsun ki, parlaq yüksəlişini tapa bilmədi.

1953-cü ildə, ilk tamaşasında Camal rolunu oynamış aktyor Məlik Dadaşov Mədəniyyət Nazirliyindən icazə alıb, Sabit Rəhmanın «Nişanlı qız» komediyasını hazırladı. Premyerası mayın 12-də oynanılan tamaşada Camal rolunu Məlik Dadaşovun oğlu Rafael Dadaşov və İlham Əhmədov ifa etdilər. Tamaşanın tərtibatını Nüsrət Fətullayev verdi və musiqisini Emin Sabitoğlu bəstələdi.

«Nişanlı qız» tamaşasının quruluşu onunla əlamətdar idi ki, çoxdan bəri Akademik teatrda işləmək arzusunda olan, buna dəfələrlə səy göstərsə də, nəticəsi alınmayan, Musiqili Komediya Teatrının aparıcı aktyorlarından Səyavuş Aslan Mindilli rolunu ifa etdi. Rola dəvətlə çağırılan aktyor oktyabr ayının 5-də Akademik teatra ştata götürüldü.

Məlik Dadaşovun rejissorluq səriştəsi olmadığına görə, tamaşada vahid janr poetikası hiss olunmurdu. Tamaşada ayrı-ayrılıqda məsxərə, qrotesk, buffonada elementlərinin aydın təcəssümünü görmək olurdu, lakin onlar bir üslub əsasında birləşmədikləri üçün əhəmiyyətlərini itirirdi. İlham Əhmədov Camalı lovğa, bir qədər yüngülxasiyyət, Rafael Dadaşov isə təkəbbürlü, bəzi məqamlarda daqqa, adamayovuşmaz kimi oynayırdılar. Telman Adıgözəlov (Çeşməkli kişi) qroteskdən,

Məcnun Hacıbəyov (Mirzə Salman) məişət komediyası elementlərindən, Rafiq Əzimov (Qasım) məsxərədən, Zemfira Nərimanova və Mətanət Atakişiyeva (Qəmər) yumorlu melodramadan, Amaliya Pənahova (Zərifə) buffonadadan, Bəsti Cəfərova (Bənövşə) sosial dram vasitələrindən istifadə etməklə, tamaşada oyun-üslub pərakəndəliyi yaradırdılar. Ona görə də Amaliya, Zemfira, Mətanət və Məcnun ürəklə, cani-dildən oynasalar da, Mirzə Salman – Zərifə, Zərifə – Qəmər, Qəmər – Ceyran xala (Əminə Babayeva), Bənövşə – Zərifə epizodlarındakı yumorun səmimiyyəti tam duyulmurdu.

Tamaşada yaddaqalan mizan, sırf satirik, sırf yumorlu bitkin epizod, əməl-fəaliyyət prinsipinə tam əməl edilən səhnə yox idi. Mindilli Bənövşəgildə ağac dalında gizləndiyi, Qasımın kimisə karate ilə qorxutduğu, Yusifin (İlham Əsgərov) Bənövşəni ovundurduğu və Qəmərin onu gördüyü... epizodlar yumoristik konflikt üçün vacib olsa da, tamaşada bədii rejissor həllini tapmamışdı. Verilən mizanların primitivliyini səhnədəki tərtibat səliqəsizliyi bir qədər də sıxırdı. Emin Sabitoğlunun musiqisində də yeni, maraqlı tapıntılar hiss olunmurdu.

Son illər Akademik teatrın səhnəsində «kənd mövzusunda» pyes tamaşaya qoyulmamışdı. Bu mənada teatrın öz kollektivinin ədəbi hissə müdiri Qeybulla Rəsulovun «Qarabağ əfsanəsi» pyesinə müraciəti diqqəti cəlb etdi. Əsərin əvvəlki adı «Qarabağ axşamları» idi və müəllif onu hələ 1982-ci ildə kollektivə oxumuşdu. İşlənmiş variantdakı pyesdə səhnə əsəri üçün material ola biləcək hadisələr, gərgin dramaturji vəziyyətlər az deyildi. Kompozisiya dağınıqlığı, vahid süjetin yoxluğu, ritmsizlik, hər mövzunun özlüyündə məqsədə çevrilməsi, əsas mövzuya bağlanmaması az-çox işıqlı cəhətləri də kölgədə qoymuşdu. Üstəlik rejissor redaktəsindən, rejissor səliqəsindən məhrum olan pyesin tamaşasında (15 sentyabr) nöqsanlar daha qabarıq görünürdü.

Bir sıra əvvəlki tamaşalarında da zahiri və texniki effektlərə meyil göstərən, həmin effekti əksər hallarda səhnənin estetik tələbləri, hadisənin, konfliktin mahiyyəti ilə, bədii dəyərlə əlaqələndirə bilməyən rejissor Mərahim Fərzəlibəyov quruluş verdiyi «Qarabağ əfsanəsi» tamaşasında bu nöqsanları təkrarlayaraq daha da dərinləşdirmişdi.

Tamaşada rejissorun ədəbi materiala peşəkar yanaşması hiss olunmurdu. Tamaşanın janr təyini qeyri-müəyyən di, konfliktlərdə dramaturji gərginlik az idi, təqdim olunan hadisələrdə montajçılıq vardı, ali məqsəd boşluqda qalmışdı, hərəkətlər sözün, fikrin bədii məntiqindən doğmadığına görə ifaçı aktyorların əksəriyyəti səhnədə ora-bura çox qaçsalar da, «işsiz» görünürdülər. Mənasız qaçışlar anlaşılmırdı, onları mizan kimi qəbul etmək mümkün deyildi. Rejissor istər ekspozisiyada (ilk gəlişlərdə), istərsə də tamaşa boyu janr səliqəsinə məhəl qoymamışdı.

Toralın (Əliabbas Qədirov) kəndə gəldiyi səhnədə verdiyi, təəccüb doğuran mizanlar və obrazların ünsiyyətinin qəribə rejissor yozumu göstərirdi ki, Mərahim Fərzəlibəyov müasir Azərbaycan kəndini, oradakı əsrlər boyu formalaşmış cavan-ağsaqqal etik münasibətlərinin ictimai-psixoloji, mənəvi-əxlaqi dəyərlərini dərindən bilmir.

«Qarabağ əfsanəsi»ndə kulminasiya hadisəsinə dramaturq və rejissor «zorla» zəmin hazırlamışdılar. Finala az qalmış bu hadisə baş verirdi. Sədəfin toyunda oynayacağına söz vermiş Günəş (Hökümə Qurbanova) şənlik yerində qızı Çılğının faciəli ölüm xəbərini eşidir. Daxili sarsıntı keçirən Günəş hadisəni toy sahiblərinə bildirmir və söz verdiyi kimi... rəqs edir.

Əvvəla, tamaşada Çılğının ölümü inandırıcı deyildi. Çünki Çinarın (Abbas Qəhrəmanov) Çılğını Torala qısqanması bədii əsasdan məhrum idi. Rejissor bunun üçün zəmin hazırlaya, bacarığına inam bəslənən Abbas Qəhrəmanov isə məntiqli oyun vasitələri ilə tamaşaçıları inandıra bilməmişdilər.

İkincisi, Toralla Çinarın traktorla «tarana» çıxmalarına psixoloji-dramatik səbəb yox idi. Hadisələr müəllifin və rejissorun finalda Günəşin toy və yas hislərini eyni anda keçirməsi istəklərinə «tabe edilərək» süni şəkildə belə istiqamətləndirilmişdi. Belə «zorakılıq» tamaşaçının qavrayışına ciddi əngəl törədirdi və aktyor yaradıcılığının faydalı iş əmsalını heçə endirirdi.

Digər tərəfdən, Elmira Haşımzadənin emosionallıqdan uzaq oyunu, çığırtılı danışığı, hərəkətlərinin biçimsizliyi, sözü hərəkətin, hərəkəti sözün ekvivalentinə (əvəzedicisinə) çevirə bilməməsi, Çılğının adının mənasını kod kimi qəbul edən rejissorun obrazın daxili çılğın-

lığını qaçmaq mizanları ilə ifadə etməsi də aktrisanı əsas məqsədi oynamaqdan uzaqlaşdırmışdı.

Əsassız dialoqların, uzun-uzadı söhbətlərin məntiqsizliyinə «əsaslanan» rejissor finalın texniki və bədii qurumunu plakatçılığa çevirmişdi. Çılğının ölüm xəbərinin Günəşə çatdırılmasının forma həlli tapılmamışdı. Günəş qızının faciəsini Qaradan (Bürcəli Əsgərov) eşidəndən sonra daxili nalə-fəryadla toyda rəqs edir. O, oynadıqca hadisə yerində olmuş Orduxanov (Hacı İsmayılov), faciənin səbəbkarları Toral və Çinar da gəlib orada, arxa planda dayanırlar... Hətta Günəşin rəqsinə əl də çalırlar. Elə bu səhnədəcə Hökümə Qurbanovadan başqa, bütün aktyorlar əvvəlki epizodlara nisbətən daha çox «işsiz» görünürdülər. Çünki dramaturji təsviri maraq doğuran epizodun və Hökümə xanımın böyük ustalıqla oynadığı həmin səhnənin psixoloji təfsiri, aktyorların əməl xətləri düzgün tapılmamışdı.

Ümumiyyətlə, personajların əməl xətti baxımından tamaşanın təqdimatında Orduxanov (Hacı İsmayılov), Camal (Mirzə Ağayev), Canəli (İlham Əhmədov), Şəfioğlu (Hamlet Qurbanov), Kəlbiqızı (Məhluqə Sadıqova), Bədirxan (Həsən Əbluc), Mədət (Mustafa Süleymanov), Zeyni baba (Muxtar Avşarov) obrazları olmadan da keçinmək mümkün idi. Düzdür, Kəlbiqızı və Zeyni baba obrazlarının mayasındakı cüzi şirinlik və aktyorların səyi səhnəyə müəyyən şuxluq gətirmişdi. Amma onların da iştirakı əsas mövzuya – Günəşin taleyi mövzusunun yeni nöqtədən işıqlandırılmasına təkan ola bilməmişdi.

Şəfioğlu – Qara – Günəş konfliktinin, Bədirxan – Camal, Camal – Fətiş xətlərinin əsas ideya, konflikt, mübarizələr toqquşması ilə bağlılıqda nəyə xidmət etdiyinə rejissor konkret səhnə cavabı tapa bilməmişdi. Buna görə də ifaçı aktyorlar Hamlet Qurbanov, Bürcəli Əsgərov, Həsən Əbluc, Mirzə Ağayev və Telman Adıgözəlov (Fətiş) çıxılmaz vəziyyətə düşmüşdülər.

Sədəf rolunun birinci ifaçısı Səidə Quliyeva müəyyən cəhdlərlə boşluğu doldurmağa çalışırdı. İkinci ifaçı Zöhrə Şirinova isə quruluğu, sifət cizgilərinin ifadəsizliyi, süstlüyü, yöndəşla ünsiyyət yarada bilməməsi ilə onsuz da bədii cəhətdən zəif obrazı daha da primitivləşdirmişdi.

Şəhla xanım (Nəcibə Məlikova) Günəşin bacısıdır. Qırx ildən artıqdır, xarici ölkədə yaşayır. Dramaturqun niyyəti işıqlıdır, vətənsiz-

liyin, el-oba həsrətinin ağrılarını, onunla paralel torpaq qeyrəti çəkməyin vacibliyini vermək istəmişdir. Günəş – Şəhla xanım obrazlarının daxili dramatizmdən tam şirələnməmiş, dramaturqun işıqlı niyyəti bədii təsdiqini tapmamışdı. Quruluşçu rejissor bu nöqsanı daha da dərinləşdirmişdi. Nəcibə Məlikovanın təsirli oyunu, xarakterik davranış tərzi, texniki ustalığı, «özgələşmə effekti» məharəti də ümumi vəziyyəti dəyişməkdə köməksiz idi.

Rəssam Kamal Şıxəliyevin verdiyi tərtibatda dinamik bütövlüyün, fəza genişliyinin, obrazlılığın, məna dərinliyinin yoxluğu tamaşanın poetika bütövlüyündə texniki kateqoriyaları bir növ «buxovlamışdı».

Hökümə xanım teatra aid söhbətlərimizdə səhnədə «işsiz» qaldığından, çağdaş mövzulu əsərdə mürəkkəb rol oynamaq istədiyindən yana-yana danışırdı. «Qarabağ əfsanəsi»ndəki zəif bədii təsvirli Günəş, «Şərqli diş həkimi»ndə rejissorun hoqqabazlığına məruz qalan Marta rolları ilə də ürəyinin yaratmaq yanğısına su çiləyə bilmədi. Məcburiyyət qarşısında yaşına, fiziki gücünə uyğun gəlməyən Ledi Maqbeti oynamaq cəhdi də «Maqbet» (Uilyam Şekspir) tamaşasının rejissoru Mərahim Fərzəlibəyovun qələbəsi ilə deyil, uğursuzluğu ilə üst-üstə düşdü. Qüdrətli aktrisanın yaratmaq ehtirası teatra yenicə qədəm basan Bəhram Osmanovun Kiçik səhnədə hazırladığı Tennessi Uilyamsın «Şüşə heyvanxana» (2 iyun 1985) tamaşasındakı Amanda rolunda nisbətən rahatlıq tapdı.

Moskvada, SSRİ-nin əksər teatrlarında pyesləri oynanılan, dramaturgiya ilə müntəzəm məşğul olan Rüstəm İbrahimbəyov altıillik fasilədən sonra Akademik teatra Böyük Vətən müharibəsi (1941–1945) mövzusu ilə bağlı «Vivaldinin musiqisi altında» pyesini verdi. Sentyabrın 12-də pyesin oxunuşu oldu və səhərisi GTT-nin baş rejissoru Azər Paşa Nemətov məşqlərə başladı. Dekabrın 9-da ilk tamaşa oynanıldı.

Qələbənin 40 illiyinə həsr edilən tamaşada əvvəldən sonadək italyan bəstəkarı, skripkaçı Vivaldi Antonionun (1678–1741) musiqisi səslənirdi. Hadisələr bir Qərb ölkəsinin sakit otelində cərəyan edirdi. Buranın sakinləri zahirən ətraf hadisələrə biganə təsiri bağışlayırlar. Həqiqətdə isə, bu «biganəliyin» arxasında gərgin, dramatik proseslər gedir. Məna yükünün bir qədər dramatik olması, «Vivaldi» adının

çoxları üçün qaranlıq qalacağını nəzərə alaraq Azər Paşa Nemətov dramaturqdan icazə alaraq əsərin adını dəyişdirib «Biganələr oteli» qoydu.

«Biganələr oteli» Akademik teatrda siyasi təmayüllü lirik-psixoloji üslubda hazırlanan ilk tamaşa idi. Tamaşanın tərtibatında (Elçin Məmmədov), aktyor oyununda, bütövlükdə əsərin səhnə kompozisiyasında Vivaldinin musiqisinin lirik sakitliyi, psixoloji ahəngdarlığı, ruhi dincliyi vardı. Bəzən iki məkanda – alt-üst mərtəbələrdə gedən hadisələrdə də «biganəlik» iqlimi gözlənilir, aktyorların üslub meyarı itmirdi. Mizanlarda da «siyasi dəqiqliyin» yumşaqlığını bacarıqla gözləyən Azər Paşa Nemətovun aktyorlarla işində bütövlük və tamlıq vardı. Yaşar Nuriyev (Milan), Əliabbas Qədirov (Diş həkimi), Hamlet Xanızadə (Caiç), Şükufə Yusupova (Radmila), Fuad Poladov (İkinci), Ramiz Məlikov (Birinci), Ramiz Novruzov (Yaralı zabit) siyasi mövzunun görünməyən qatlarındakı prosesləri lirik-psixoloji-dramatik səpkidə, dəqiq ölçülərlə və daxili aktyor hərarəti ilə oynayırdılar.

«Biganələr oteli» tamaşasını siyasi-psixoloji dərinliyinə, konfliktin gizli dramatik qatlarına görə geniş tamaşaçı kütləsi çətin qavrasa da, səhnə əsərində peşəkarlıq keyfiyyətləri üstünlük təşkil edirdi.

Bu il Kiçik səhnədə iki tamaşa hazırlandı. Yazıçı Firidun Ağayevin oğlu Namiq Ağayev atasının «Səməndər quşu» dramına səhnə quruluşu verdi. Bu onun diplom tamaşası idi və Namiqin diplom rəhbəri, rejissorluq müəllimi Mehdi Məmmədov ona qayğı ilə yanaşmışdı. Sonralar, Namiq Ağayev Azərbaycan Dövlət Kukla teatrında rejissor işləyəndə burada maraqlı quruluşlar verdi.

Kiçik səhnədə oynanılan ikinci tamaşa Xalid Əlimirzəyevin «Səadət sorağında» əsəri oldu. Pyesi tamaşaya gənc rejissor Şaiq Səfərov hazırlamışdı. Rejissorluq cəhdləri, yeni nəzəri-təcrübi üslublardan bəhrələnmələri ilə müəyyən ümidlər oyadan hər iki rejissorun tamaşası beş dəfə oynanıldı. Tamaşaların hər ikisi yalnız Kiçik səhnədə göstərildi.

* * *

Yubileylər. Aprelin 13-də Azərbaycan komediya aktyorluğu məktəbinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti, iki dəfə Stalin müka-

fatı laureatı Mirzağa Əliyevin 100 illik yubileyi keçirildi. Mədəniyyət naziri Zakir Bağırovun açdığı iclasda Mehdi Məmmədov məruzə etdi. Azərbaycanın Xalq artistləri Leyla Bədirbəyli, Məlik Dadaşov, Vera Şirye (Rus Dram Teatrı), SSRİ Xalq artisti Zakir Mühəmmədcanov (özbək), sənətşünaslıq doktoru Nadejda Şalutaşvili (gürcü) və başqaları ürək sözlərini söylədilər, xatirələr danışdılar. Müxtəlif teatrların tamaşalarından parçalar oynanıldı.

İyunun 1-də Xalq yazıçısı İlyas Əfəndiyevin Akademik teatrda yubileyi keçirildi, 70 illik yubileyin təntənəli gecəsini Xalq şairi Süleyman Rüstəm açdı, nasir-pedaqoq İsmayıl Şıxlı məruzə etdi. Mədəniyyət naziri Zakir Bağırov, Akademiyanın müxbir üzvü Aslan Aslanov, akademik Məmməd Cəfər, şairə Mədinə Gülgün, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri (o zaman Az.TC idi. – *İ.R.*), Xalq artisti Şəmsi Bədəlbəyli, Xalq artisti Həsən Turabov və başqaları çıxış etdilər. Gecədə Dövlət və hökumət nümayəndələri iştirak edirdilər. Bədii hissədə nasir-dramaturq İlyas Əfəndiyevin Akademik teatrda hazırlanan «Mahnı dağlarda qaldı», «Unuda bilmirəm», «Atayevlər ailəsində», «Büllur sarayda», «Xurşidbanu Natəvan» pyeslərinin tamaşalarından parçalar oynanıldı.

Bir həftə sonra, iyunun 8-də şair-dramaturq, milli poetik teatrımızın banisi Hüseyn Cavidin 100 illiyi bayram edildi. Beynəlxalq səviyyəli təntənədə Azərbaycanın dövlət rəhbərləri rəyasət heyətində əyləşmişdilər. İclası Xalq yazıçısı Mirzə İbrahimov açdı və Xalq şairi Bəxtiyar Vahabzadə məruzə oxudu. Çakarbati Satyasadkan (Hindistan), İbrahim Bozyel (Türkiyə), Kon Qulam Məhəmməd (Mozambik), Pranas Raşyus (Litva), Səid Əhməd (Özbəkistan), Azərbaycanın Xalq şairəsi Mirvarid Dilbazi, SSRİ Xalq artisti, professor Mehdi Məmmədov, Əməkdar incəsənət xadimi, yazıçı Anar... xitabət kürsüsündən Cavid barədə söz söylədilər. Bədii hissədə Cavidin pyeslərinin tamaşalarından müxtəlif teatrlar parçalar oynadılar. Ədibin sözlərinə bəstələnmiş musiqilər, oğlu Ərtoğrul Cavidin fortepiano üçün yazdığı əsəri və sairə səsləndi.

Azərbaycanın Xalq artisti Məlik Dadaşovun anadan olmasının 60, səhnə fəaliyyətinin 40 illik yubileyi noyabrın 30-da oldu. Gecəni yubilyarın oğlu Rafael Dadaşov və aktrisa Zemfira Nərimanova aparır-

dılar. Xəlil Rza aktyora həsr etdiyi şeirini oxudu. Sənət dostları Amaliya Pənahovanın, Azər Paşa Nemətovun, Arif Quliyevin, Məmmədağa Dadaşovun (GTT), teatrşünas Novruz Təhməzovun və digərlərinin çıxışlarında Məlik Dadaşovun yaradıcılıq xüsusiyyətlərindən danışıldı. Yubilyarın iştirak etdiyi filmlərdən və tamaşalardan parçalar göstərildi.

Qastrol. Yazın ortalarından Akademik teatr Tiflisə qastrola ciddi hazırlaşmağa başladı. Bəzi tamaşalara yenidən əl gəzdirildi, təzə ifaçılar əlavə olundu, oraya aparılacaq əsərlər repertuara daxil edildi. Kollektiv repertuardakı iyirmi tamaşadan on ikisinin üzərində qəti dayandı. Qərara alındı ki, Gürcüstana Hüseyn Cavidin «İblis», İlyas Əfəndiyevin «Büllur sarayda», «Xurşidbanu Natəvan», Bəxtiyar Vahabzadənin «Fəryad», «Kimdir haqlı?», Nəriman Həsənzadənin «Atabəylər», Sabit Rəhmanın «Nişanlı qız», Nahid Hacıyevin «Məhəbbət yaşadır», Nəbi Xəzrinin «Mirzə Şəfi Vazeh», Anarın «Şəhərin yay günləri», «Sizi deyib gəlmişəm...», Jan Anuyun «Medeya» pyeslərinin tamaşaları aparılsın.

Qastrolun (26 iyun – 15 avqust) açılışı Qriboyedov adına Gürcüstan Dövlət Rus Dram Teatrının binasında «İblis» tamaşası ilə oldu. Səfər müddətində Akademik teatr, əsasən, açılış olan binada çıxış etməklə yanaşı, Marcanaşvili adına teatrda, Respublikanın azərbaycanlılar yaşayan rayonlarında tamaşalar oynadılar.

Təltif. Ötən ilin uğurlarına görə aprelin 27-də Hüseyn Cavidin «İblis» tamaşasının yaradıcı heyətindən quruluşçu rejissor Mehdi Məmmədov, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, aktyorlardan Məmmədrza Şeyxzamanov (İxtiyar. Ölümündən sonra), Hamlet Xanızadə (İblis), Ramiz Məlikov (Arif), Vəfa Fətullayeva və Safurə İbrahimova (Rəna) Respublika Dövlət mükafatına layiq görüldülər.

Truppada dəyişmə. Musiqili Komediya Teatrının aktyoru, Xalq artisti Səyavuş Aslan oktyabrın 5-də Akademik teatrın kollektivinə daxil oldu.

Gənc Tamaşaçılar Teatrında uzun müddət aktyor işləmiş, Akademik teatrda «Adsız ulduz» (Mixail Sebastian) tamaşasını hazırlamış, müəyyən rollar oynamış Həsən Əbluc fevralın 11-də teatra aktyor götürüldü. O, bir il sonra, fevralın 1-də rejissor ştatına keçdi.

Teatrda işlədiyi on iki il müddətində elə bir əhəmiyyətli rol oynamamış Mərziyə Məmmədbəyli mayın 15-də kollektivdən uzaqlaşdı.

Əcəl aldı... 1915-ci il avqustun 4-də Nizami Gəncəvi yurdunda doğulmuş Məmmədrza Şeyxzamanov uzun illər Gəncə Dövlət Dram Teatrında işləmiş, 1954-cü ildən Akademik teatra aktyor qəbul olunmuşdur. O bu teatrda Nəbi («Qaçaq Nəbi», Süleyman Rüstəm), Xosrov, Qacar («Xosrov və Şirin», «Vaqif», Səməd Vurğun), Barsuq, Həsənalı, Möhsünzadə («Qəribə oğlan», «Mahnı dağlarda qaldı», «Unuda bilmirəm», İlyas Əfəndiyev), Hacı Həsən ağa («Ölülər», Mirzə Cəlil), Edqar, Poloni («Antoni və Kleopatra», «Hamlet», Uilyam Şekspir), İxtiyar, Müfti («İblis», «Xəyyam», Hüseyn Cavid), Homua («Mariya Tüdor», Viktor Hüqo), Şahbazov («Göz həkimi», İslam Səfərli), Sarafanov («Övlad», Aleksandr Vampilov), Bertlet («Qızıl», Yucin O'Nil) və digər rollar yaratmışdır. Azərbaycanın Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov 1984-cü il yanvarın 25-də uzun sürən xəstəlikdən sonra vəfat etdi.

Dramaturqlar. Firidun Balakişi oğlu Ağayev (22.11.1933 – 16.10.1995). Romanların, povestlərin, hekayələrin, kino ssenarilərinin və «Qayğı», «Xoruz», «Cırtdanın sərgüzəştləri» uşaq pyeslərinin, «Səməndər quşu» dramının müəllifidir.

Xalid Əlimirzə oğlu Əlimirzəyev (16.12.1936). Azərbaycanlı alim, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor. Ədəbiyyatşünaslığa aid bir neçə kitabın, o cümlədən Cəlil Məmmədquluzadəyə həsr olunmuş «Xarakterlər dramaturgiyası» monoqrafiyasının müəllifidir. «Səadət sorağında», «Daşa dönmüş ürəklər» kamera dramları yazıb.

Mənbələr

1. Şahin Səfərov. «Fəryad». – «Ədəbiyyat və incəsənət», 11 may 1984.

2. Qulu Xəlilov. «Kamillik, bütövlük». – «Kommunist», 11 may 1984.

3. Məryəm Əlizadə. Əsrlərin arxasından eşidilən «Fəryad». – «Bakı», 23 aprel 1984.

1985-ci il

26 yanvar. «Çahargah fantaziyası», Kərim Kərimov.

2 hissəli komediya.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Nüsrət Fətullayev, bəstəkar Oqtay Kazımov, rejissor assistenti Bəhram Osmanov.

Rollarda: Mikayıl Mirzəyev (Teymur), Bəsti Cəfərova (Nazilə), Məhluqə Sadıqova və Ətayə Əliyeva (Bikə xala), Abbas Qəhrəmanov (Rasim), Səyavuş Aslan (Hüseynbala), Məlik Dadaşov (Mustafa), Muxtar Avşarov (Ağası), Mətanət Atakişiyeva* (Təranə), Məcnun Hacıbəyov və Aqşin Vəlixanov (Murtuz dayı), Tahir Xudaverdiyev (Gülbala), Mahir Mirzəliyev (Bir nəfər**).

* *Qeyd.* Bir neçə məşqə qədər Təranə obrazı əsərdə vardı. Rejissorla aktrisa arasında obrazın təfsiri ilə bağlı müəyyən anlaşılmazlıqlar oldu. Nəticədə, aktrisa bu roldan imtina etdi. Teatrın rəhbərliyinin, pyesin müəllifinin təkidlərinə baxmayaraq, müsbət nəticə hasil olmadı. Aktrisa Mətanət Atakişiyeva roldan imtina etdi və Təranə obrazı əsərdən çıxarıldı, onun sözləri isə digər personajlar arasında paylandı.

** *Qeyd.* İkinci tamaşadan sonra bu obraz iki surətə çevrildi: Birinci nəfər, İkinci nəfər. Rüstəm Əliyev İkinci nəfəri oynadı.

30 mart. «Torpağa sancılan qılınc», Nəbi Xəzri.

2 hissəli mənzum dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Arif Məlikov, rejissor Səməndər Rzayev, rəqslərin quruluşçusu Fərhad Vəliyev, səs rejissoru Cahangir Əliyev. Elmi məsləhətçi Mirəli Seyidov, filologiya elmləri doktoru, professor.

Rollarda: Kamal Xudaverdiyev* və Həsən Əbluc (Dədə Qorqud), Əliabbas Qədirov (Qazan xan), Vəfa Fətullayeva** (Burla xatun), Nurəddin Quliyev (Ulus), Səməndər Rzayev (Qaraca çoban), Zemfira Nərimanova (Çiçək), Elmira Haşımzadə (Şiranə), Fuad Poladov (Şöklü Məlik), Aqşin Vəlixanov (Yassar Çəpgöz), Sadıq İbrahimov (Dəmirgüc), İftixar Piriyev və Mahir Mirzəliyev (Poladgüc), Əlvida Cəfərov (Odoğlu), Məzahir Cəlilov (Sıldırım), Rüstəm Əliyev (Cəllad), Məcnun Hacıbəyov və Mirzə Ağayev (Fərraşbaşı), Sevil

Xəlilova (Gülqız), Səidə Quliyeva və Zöhrə Şirinova (Ayqız), Mərziyə Məmmədbəyli (Qönçəqız), Sevil Abbasova (İncəqız).

* *Qeyd.* Kamal Xudaverdiyev tamaşada Dədə Qorqud rolunu oynamadı. Sonralar o, Mustafa Süleymanovla əvəz edildi.

** *Qeyd.* İkinci tamaşadan başlayaraq Burla xatun rolunu Zöhrə Şirinova da ifa etdi.

2 iyun. Kiçik səhnədə. «Şüşə heyvanxana», Tennessi Uilyams. Tərcümə edəni İslam İbrahimov.

2 hissəli dram.

Quruluşçu rejissor Bəhram Osmanov (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu), rəssam Solmaz Haqverdiyeva, musiqi tərtibatçısı Mübariz Məlikov, rejissor assistenti Rza Məmmədov. Tamaşanın bədii rəhbəri Hüseynağa Atakişiyev.

Rollarda: Hökümə Qurbanova (Amanda), Hamlet Xanızadə (Tom), Fuad Poladov (Cim), Şükufə Yusupova (Laura).

12 oktyabr. «Təhminə və Zaur», Anar. Yazıçının özünün «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının motivləri əsasında.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rejissor Əliabbas Qədirov, rəssamlar Nüsrət Fətullayev, Kamal Şıxəliyev, bəstəkar Emin Sabitoğlu. Mahnı mətnlərinin müəllifi Xalq şairi Nigar Rəfibəylidir.

Rollarda: Amaliya Pənahova (Təhminə), Fuad Poladov (Zaur), Bürcəli Əsgərov (Məcid Zeynallı), Zərnigar Ağakişiyeva (Zivər), Firəngiz Mütəllimova (Firəngiz), Aqşin Vəlixanov (Murtuz Murtuzov), Sofiya Bəsirzadə (Aliyə), Azərbaycan SSR Xalq artisti, Məhluqə Sadıqova (Fizzə), Rüstəm Əliyev (Spartak), Ramiz Novruzov (Muxtar), Elxan Ağahüseynoğlu (Nadir), Əminə Babayeva və Sevil Xəlilova (Mədinə), Məcnun Hacıbəyov (Cəbi), Firuz Xudaverdiyev (Çayçı).

16 noyabr. «Həyatın dibində», Maksim Qorki.

2 hissəli dram.

Tərcümə edəni Ənvər Ülvi. Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rejissor Həsən Əbluc, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Aydın Əzimov, rəqslərin quruluşçusu Əli Əşari.

Rollarda: Bürcəli Əsgərov (Kostılyev), Safurə İbrahimova (Vasilisa Karpovna), Vəfa Fətullayeva* və Məhbubə Məlikova (Nataşa), Hamlet Qurbanov və Rafiq Əzimov (Medvedyev), Kamal Xudaverdiyev (Vaska Pepel), Hamlet Xanızadə (Kle), Şükufə Yusupova və Firəngiz Mütəllimova (Anna), Zemfira Nərimanova və Səidə Quliyeva (Nastya), Nəcibə Məlikova (Kvaşnya), İlham Əhmədov (Bubnov), Fuad Poladov (Baron), Yaşar Nuriyev (Aktyor), Səməndər Rzayev** (Satin), Səyavuş Aslan (Luka), Pərviz Bağırov və Telman Adıgözəlov (Alyoşka), Elxan Ağahüseynoğlu və İlham Əsgərov (Zob), Məmməd Sadıqov və Şahin Cəbrayılov (Tatar), İlham Əsgərov və Elxan Ağahüseynoğlu (Polis rəisi), Telman Adıgözəlov və Pərviz Bağırov (Kabus).

* *Qeyd.* Vəfa Fətullayeva ciddi xəstələndiyinə görə Nataşa rolunu oynamadı.

** *Qeyd.* Doqquz tamaşadan sonra Satin rolunu Şəki teatrının aktyoru Muxtar İbadov ifa etdi.

27 dekabr. «Böyük Romul», Fridrix Dürrenmatt. Tərcümə edəni Tofiq Rüstəmov.

Tarixən dürüst olmayan 2 hissəli komediya.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Aydın Əzimov, rejissor Şahirə Kərimova (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu).

Rollarda: Səyavuş Aslan (Romul Avqustul), Şükufə Yusupova (Yuliya), Firəngiz Mütəllimova (Reya), Elxan Ağahüseynoğlu (İsavriyalı Zenon), Fuad Poladov (Emilian), Kamal Xudaverdiyev (Mares), Hamlet Xanızadə (Tuliy Rotund), İlham Əhmədov (Spuriy Tit Mamma), Rafiq Əzimov (Axill), Şahin Cəbrayılov (Piram), Hacı İsmayılov (Apollion), Səməndər Rzayev* (Sezar Rupf), Telman Adıgözəlov (Filaks), Yaşar Nuriyev (Odoakr), Firuz Xudaverdiyev (Teodorik), Abbas Qəhrəmanov (Aşpaz).

* *Qeyd.* Səməndər Rzayev ciddi xəstələndiyinə görə Sezar Rupf rolunu cəmi iki tamaşada oynadı. Sonra onu Abbas Qəhrəmanov və Aqşin Vəlixanov (Vəlixanlı) əvəz etdilər. Abbas Qəhrəmanovun Aşpaz rolunu isə Nəcəf Həsənzadə oynadı.

«Həyatın dibində», Maksim Qorki. Vaska Pepl – Kamal Xudaverdiyev və Vasilisa Karpovna – Safurə İbrahimova. 1985-ci il

«Həyatın dibində», Maksim Qorki. Soldan: Nastya – Zemfira Nərimanova, Luka – Səyavuş Aslan və Bubnov – İlham Əhmədov (Namiq Kamal). 1985-ci il

* * *

Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrına rəhbərlik etmiş, Respublikanın Əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyev fevralın 4-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təkidi və nazirin sərəncamı ilə Akademik teatra baş rejissor təyin olundu. Baş rejissorun teatra gəlişindən bir həftə əvvəl, yanvarın 26-da Kərim Kərimovun «Çahargah fantaziyası» komediyasının premyerası oynanılmışdı. Əslində, daha çox dram janrına uyğun gələn və sonrakı məramnamələrdə «iki hissəli dram» yazılan, İkinci nəfər obrazı əlavə edilən (Rüstəm Əliyev) «Çahargah fantaziyası» pyesi primitiv detektiv kimi yazılmışdı və ciddi dramaturji qüsurları vardı. Konflikti qurama, süjeti qeyri-müəyyən olan, obrazları müəllif «istəyinə» uyğun davranan, kompozisiya bütövlüyündən məhrum pyesi rejissor Ağakişi Kazımov həmin nöqsanlarla birgə tamaşaya hazırlamışdı.

Ötən il oktyabrın 4-dən məşqlərinə başlanmış Nəbi Xəzrinin «Torpağa sancılan qılınc» mənzum dramı Mərahim Fərzəlibəyovun quruluşunda martın 30-da göstərildi. Teatr ilk dəfə idi Dədə Qorqud mövzusuna müraciət edirdi. Nəbi Xəzri öz əsərində «Kitabi-Dədə Qorqud» dastanının «Salur Qazanın evinin yağmalanması» boyundan istifadə etmişdi. Müəllif Dədə Qorqud (Həsən Əbluc), Qazan xan (Əliabbas Qədirov), Burla xatun (Vəfa Fətullayeva və Zöhrə Şirinova), Ulus (Nurəddin Quliyev), Qaraca Çoban (Səməndər Rzayev), Şöklü Məlik (Fuad Poladov), Yassar Çəpgöz (Aqşin Vəlixanov) kimi dastan obrazları ilə yanaşı, boyun mövzusuna Çiçək (Zemfira Nərimanova), Dəmirgüc (Sadıq İbrahimov), Poladgüc (İftixar Piriyev və Mahir Mirzəliyev), Odoğlu (Əlvida Cəfərov), Sıldırım (Məzahir Cəlilov), İncəqız (Sevil Abbasova), Gülqız (Sevil Xəlilova), Ayqız (Səidə Quliyeva və Zöhrə Şirinova) və digər personajlar daxil etmişdi.

Kompozisiyaca dağınıq, müəyyən epizodları ana xətlə əlaqələndirilməyən, uzunçuluq duyulan, janrı tam aydın olmayan «Torpağa sancılan qılınc» tamaşasında vətənpərvərlik mövzusu, Vətənə, torpağa sədaqət ruhu qabarıq verilmişdi. Arif Məlikovun musiqisində də məhz bu cəhət daha güclü çıxmışdı. Səməndər Rzayev, Vəfa Fətullayeva, Əliabbas Qədirov, Nurəddin Quliyev öz oyunlarında vətənpər-

vərlik motivini əsas götürmüşdülər. Dastanın boyundan götürülmüş mövzu-hadisəyə əlavə edilən müsbət kodlu adların ifaçıları İftixar Piriyevin, Sevil Abbasovanın, Sadıq İbrahimovun, Səidə Quliyevanın ifaları da, əsasən, həmin motivə yardımçı kimi qurulmuşdu.

Ən dramatik səhnələrdə müəllifin heca və qafiyə pozuntusuna yol verməmək «naminə» təsvirlərə meydan açması hərəkət dinamikasını azaltmışdı. Həmin nöqsan səhnədə aktyorlara xarakterik detalları birləşdirməkdə əngəl törədirdi. Rejissor «qılıncın torpağa sancılması», «torpaqda, Vətəndə əmin-amanlıq» ideyasının finaldakı təsdiqini açıq publisistik həllinə çalışmaqla poetik teatrın üslub-ifadə xüsusiyyətlərinə xələl gətirmişdi. Finalın qurulmasında fikir baxımından yetişkənlik hiss olunsa da, texniki icra baxımından çiylik vardı.

Teatr mənəvi-əxlaqi problemlər mövzusunda Anarın «Təhminə və Zaur» pyesinə müraciət etdi. Mərahim Fərzəlibəyovun lirik-psixoloji dram janrında quruluş verməyə çalışdığı bu əsəri Anar özünün «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının motivləri əsasında yazmışdı. Tamaşada səslənən Emin Sabitoğlunun mahnılarının sözləri Anarın anası, Xalq şairi Nigar Rəfibəylinin idi.

Mövzuca məişət melodramasına daha yaxın olan «Təhminə və Zaur» pyesi Təhminə ilə Zaurun kövrək, intim həyatlarının kameravari hekayəti təsiri bağışlayırdı. Ancaq dramaturq sanki bu məişətçiliyə ictimai motiv vermək üçün hadisələrin gözünə Muxtar (Ramiz Novruzov), Nadir (Elxan Ağahüseynoğlu), Cəbi (Məcnun Hacıbəyov), Çayçı (Firuz Xudaverdiyev) kimi «göydəndüşmə», ixtisarı asanlıqla mümkün olan obrazlar da qoşmuşdu. Ona görə də Təhminə (Amaliya Pənahova) – Zaur (Fuad Poladov), Təhminə – Zivər (Zərnigar Ağakişiyeva), Zaur – Mədinə (Əminə Babayeva) səhnə surətlərindəki dramatizm, psixoloji təəssürat yuxarıda adını çəkdiyim surətlərlə bağlı epizodlarda hiss olunmurdu. Firəngiz (Firəngiz Mütəllimova), Spartak (Rüstəm Əliyev), Məcid Zeynallı (Bürcəli Əsgərov), Murtuz Murtuzov (Aqşin Vəlixanov) obrazları ali məqsəd üçün vacib əhəmiyyətli bədii yük daşısalar da, onların dramaturji və səhnə təfsirində natamamlıq, soyuqluq duyulurdu. Bu baxımdan Təhminə və Zaur, digərləri ilə nisbətdə Zivər və Aliyə (Sofiya Bəsirzadə) tamaşanın ən canlı obrazları təsiri bağışlayırdılar.

Emin Sabitoğlunun pyesdəki hadisələrin psixoloji məntiqinə uyğun seçilmiş, incəqəlbli Nigar Rəfibəylinin şeirlərinə bəstələdiyi lirik mahnılarda canlılıq vardı, musiqi Təhminənin açıq görünməyən kövrək ruhuna uyğun gəlirdi. Ancaq bəzən tamaşada musiqi və mahnıların da ölçüsü itir, atribut-obraz meyarı pozulurdu.

«Təhminə və Zaur» tamaşasına ictimai baxış zamanı Mədəniyyət Nazirliyinin komissiyası onun səhnədə göstərilməsinə qəti etiraz etdi. Tamaşa, demək olar, bağlandı. Teatrın direktoru Əli İsmayılovun nazirliklə apardığı danışıqlar səmərə vermədi. Belə olanda o, riski öz üzərinə götürərək tamaşanı repertuara daxil etdi. Melodramaya böyük maraq olduğuna görə «Təhminə və Zaur» tamaşası repertuarda bir neçə il qaldı.

Akademik teatr Maksim Qorkinin «Həyatın dibində» pyesini 1925-ci ildə Aleksandr Tuqanovun, 1927-ci ildə isə Yusif Yulduzun quruluşlarında oynamışdı. Birinci quruluşda Abbasmirzə Şərifzadə Baron, Sidqi Ruhulla Aktyor, Ağasadıq Gəraybəyli Satin, Mərziyə Davudova Nastya, ikinci tamaşada Ülvi Rəcəb Satin, Rza Təhmasib Aktyor, Mirzağa Əliyev Luka obrazlarını məharətlə ifa etmişdilər.

Hüseynağa Atakişiyev yazıçı Ənvər Ülvinin (Yusifoğlu) tərcüməsində «Həyatın dibində» dramının məşqlərinə baş rejissor seçiləndən, təxminən bir ay sonra, aprelin 3-də başladı. Teatr ictimaiyyətində belə bir əminlik yəqinləşmişdi ki, bu tamaşa Hüseynağanın baş rejissorluq fəaliyyətinin konsepsiya məramnaməsi olacaq. Tamaşa müəyyən peşəkarlıq xüsusiyyətləri ilə nəzərə çarpırdı, ancaq proqram xarakteri daşımırdı. Son illərdə az qala unudulan ana xəttin dramatik həlli, hər aktyorun obraza uyğun əməl-fəaliyyətinin aydınlığı, ali məqsədin janrda və mövzunun təqdimatında (təfsirində) təcəssümü, hadisələrin dövrünün ədalarının, geyimlərinin, davranış tərzinin estetik təqdimi maraq doğururdu. Rejissor səhnədə mənəvi-hüquqi, sosial təminatları tapdanmış, ləyaqətləri «alçaldılmış», müxtəlif zümrəyə məxsus insanların həyatın müdhiş çamırlığında hərc-mərcliklə güzəran keçirmələri, öz faciələrini dərk etmək istəmələri... kimi ovqatları birləşdirmiş və ümumi bir bədii iqlim yarada bilmişdi.

Əvvəlki rol bölgüsündə Baron obrazı Həsən Turabova tapşırılmışdı. Məşq prosesində aktyorun Baronu tamaşanın bel sütununa

çevirməsi, baronluğunun puç olduğu ilə barışmaq istəməyən sərt, ötkəm, bəzən çılğın faciə obrazı oynaması təsirli və mənalı idi, səhnəyə canlılıq gətirirdi. Onun belə oyunu yöndaşlarını da ciddi ifaya səfərbər edirdi. Sentyabrın 17-də (əmr №76) Hüseynağa Atakişiyev aktyor Həsən Turabovu, nədənsə Fuad Poladovla əvəz etdi.

Quruluşçu rejissor Lukanı Səyavuş Aslana tapşırmaqla heyrət doğurdu. Bununla yanaşı, aktyorun belə mürəkkəb rolunun ifası müəyyən maraqla gözlənildi. Ancaq heyrət və təəccüb daha əsaslı oldu. Həqiqətən də müəyyən yumor məzəsi olan Lukanın, həmçinin Zemfira Nərimanovanın, Məhbubə Məlikovanın, İlham Əhmədovun, Safurə İbrahimovanın, Hamlet Qurbanovun ifa etdikləri Nastyanın, Nataşanın, Bubnovun, Vasilisa Karpovnanın, Medvedyevin faciəvi cəhətləri tamaşada lazımi səviyyədə təqdim edilmədi. Bir qisim aktyorların mətn üzərində işləri yarımçıq idi, hətta onuncu tamaşada da hiss olunurdu ki, sözləri tam əzbərləməyiblər. Bunun nəticəsində «ayrı-ayrı səhnələrdə aktyorlar məntiqi vurğunu yerində işlətmir, ...qışqırır, bəziləri isə melodramatik ovqatı az qala oyun tərzinə çevirir» (1), Qorkinin dramaturq ruhundan uzaqlaşırdılar.

Səməndər Rzayevin (Satin), Yaşar Nuriyevin (Aktyor), Nəcibə Məlikovanın (Kvaşnya), Hamlet Xanızadənin (Kleş) oyunları janr tələblərinə və dramaturq məqsədinə daha yaxın görünürdü. Epizodik rollar olan Alyoşka və Kabusda Telman Adıgözəlov, Tatar rolunda Şahin Cəbrayılov ifa baxımından daha müsbət təsir oyadırdılar. Solmaz Haqverdiyevanın verdiyi tərtibatda fəlsəfi-psixoloji çalarlar duyulurdu.

«Həyatın dibində» pyesi üzərində işləyə-işləyə Hüseynağa Atakişiyev teatrın perspektiv repertuar planını mətbuatda bəyan etdi. Eyni zamanda «Həyatın dibində»nin premyerasına ay yarım qalmış, oktyabrın 1-də Fridrix Dürrenmattın «Böyük Romul» dramının məşqlərinə başladı. İki mürəkkəb, ağır əsər üzərində paralel işləmək fakt kimi maraqlı olsa da, uğurlu nəticə baxımından şübhə doğururdu. Bunlara baxmayaraq, dekabrın 27-də «Böyük Romul» tamaşasının premyerası göstərildi.

Mənimlə söhbətlərində Həsənağa Turabov dünya şöhrətli İsveçrə dramaturqu Fridrix Dürrenmattın (1921) «Böyük Romul» pyesi,

onun çağdaş dövr üçün yozumu, tarixi-sosial problemləri, yazıçı dilinin sərt sarkazmı, müxtəlif xarakterli aktyorların bir ansamblda birləşməsinə zəmin yaradan maraqlı obrazlar toplusu barədə dəfələrlə danışmışdı. Hətta Romul Avqustulu oynamaq istədiyini də bildirmişdi. Onu da demişdi ki, bu rolu onunla o vaxt Şəkidə çalışan, sonralar Bakıya gəlmiş istedadlı rejissor, mərhum Vaqif Abbasov işləmək istəyib.

Xeyli müddət sonra jurnalist-tərcüməçi Tofiq Rüstəmov «Böyük Romul» dramının tərcüməsini Akademik teatra təqdim etmişdi. Vaqif Abbasov vaxtsız vəfat etdi və Mərahim Fərzəlibəyov əsəri tamaşaya hazırlamağa, nədənsə, tərəddüd göstərdi. Turabovun təkidi ilə Hüseynağa Atakişiyev pyesi oxudu və... bir neçə gündən sonra teatrın inzibati xidmət foyesindəki elanbənddə rol bölgüsünün siyahısı asıldı: Romul Avqustul – Səyavuş Aslan, Yuliya – Şükufə Yusupova, Reya – Firəngiz Mütəllimova, Emilian – Fuad Poladov, Mares – Kamal Xudaverdiyev, Tuliy Rotund – Hamlet Xanızadə, Spuriy Tit Mamma – İlham Əhmədov, Sezar Rupf – Səməndər Rzayev, Odoakr – Yaşar Nuriyev, Apollion – Hacı İsmayılov, Axill – Rafiq Əzimov, Filaks – Telman Adıgözəlov...

Hüseynağa Atakişiyevin rol bölgüsündə rahatsızlıq doğuran, tərəddüdə səbəb olan qənaət yoxdur. Əksinə, Romul kimi mürəkkəb obrazı Səyavuş Aslana tapşırması özü təəccübdən çox maraq doğururdu. Hətta tamaşa peşəkar teatr tənqidçiləri tərəfindən intizarla gözlənilirdi. Rejissorun rol bölgüsündəki cəsarətli addımları tamaşanın bədii həllində, aktyorla işdə yerini zəifliyə vermişdi. Bəlkə də, aktyorların fərdi istedadlarının gücünə arxayın olan rejissor tamaşanın obrazını, Dürrenmattın bədii materialının səhnə ekvivalentini tapa bilməmişdi.

Üstündən neçə il keçəndən sonra Səyavuş Aslan özü səmimi etiraf etdi ki, «mən heç indi də bilmirəm, «Böyük Romul» pyesi nədən bəhs edir?»

Pyesin «tarixən dürüst olmayan komediya» janrını rejissor tamaşada müstəqim mənada yozmuşdu. Bəlkə də, belə yozmamışdı, ancaq tamaşadan alınan ümumi təəssürat bu cürə idi. Aktyorların səhnədəki əməl-fəaliyyətləri qədim Roma dövrünün ictimai-siyasi hadisələr burulğanında gülüş doğuran faciəvi hadisələrin psixoloji təqdiminə deyil, səhnədə buna parodiya çıxartmaq istiqamətinə yön almışdı.

Əksər ifaçıların ədalarındakı sırf Azərbaycan məişət elementlərindən gen-bol istifadə, rəssam Solmaz Haqverdiyevanın verdiyi maraqlı geyim eskizlərinin səliqəsiz icrası səhnədə xoşagəlməz məkan-zaman qarışıqlığı yaratmışdı. Gülüş fikir dərinliyindən deyil, sözlə hərəkətin uyarsızlığından doğurdu.

Rahatsızlıq doğuran və qabarıq nəzərəçarpan başlıca qüsurlardan biri də o idi ki, Hüseynağa Atakişiyevin mürəkkəb, çarpaz, xaçvari mizanlar qurub, onları janrın poetikası prinsipləri əsasında realizə etmək cəhdi də alınmamışdı. Mizanlarda qarmaqarışıqlıq və məntiqsizlik vardı.

1985-ci ildə Kiçik səhnədə bir tamaşa hazırlandı. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu Bəhram Osmanov rejissor kimi ilk müstəqil sənət addımını burada atdı. O, XX əsr Amerika nasiri və dramaturqu Tennessi Uilyamsın 1944-cü ildə yazdığı «Şüşə heyvanxana» dramına İslam İbrahimovun tərcüməsində quruluş verdi (2 iyun). Dörd ifaçıdan ibarət, Hökümə Qurbanovanın, Hamlet Xanızadənin, Fuad Poladovun, Şükufə Yusupovanın oynadıqları Amanda, Tom, Cim və Laura rollarının səliqəsi ilə seçilən kamera tamaşası maraqlıydı. Tamaşa rejissor dəst-xəttinə və xeyli müddət rolsuz qalmış Hökümə xanımın mənalı ifası baxımından da dəyərli idi.

Hökümə Qurbanova və rejissor çalışdılar ki, «Şüşə heyvanxana» tamaşası Kiçik səhnənin repertuarında müntəzəm oynanılsın. Bu səhnədə tamaşalar şənbə və bazar günləri göstərilirdi. Tamaşa müxtəlif vaxtlarda üç dəfə repertuara daxil edildi. Ancaq Laura rolunun ifaçısı Şükufə Yusupovanın şıltaqlığı ucbatından bu tamaşaların heç biri baş tutmadı. Sonralar isə, Hökümə xanım xəstələndiyinə görə «Şüşə heyvanxana» tamaşası cəmi bir dəfə oynanılmaqla unuduldu.

* * *

İnzibati dəyişmə. Solmaz Haqverdiyeva yanvarın 5-də teatra baş rəssam təyin olundu.

Şəki Dövlət Dram Teatrının bədii rəhbəri Hüseynağa Atakişiyev fevralın 4-də kollektivdə baş rejissorluğa başladı.

Əcəl aldı... Respublika teatr ictimaiyyətində ağır itki üz verdi. 1946-cı ildən Akademik teatrda rejissor və baş rejissor (1960 – 1963) işləmiş,

pedaqoji fəaliyyətə keçsə də, doğma səhnədə quruluşlar vermiş, SSRİ Xalq artisti, Respublika Dövlət mükafatı laureatı, sənətşünaslıq doktoru, professor Mehdi Əsədulla oğlu Məmmədov (22 may 1918 – 28 yanvar 1985) qəflətən vəfat etdi. Sənətkarın Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrındakı xidmətləri (1940 – 1945), Opera və Balet Teatrındakı fəaliyyəti, Azərbaycan Dövlət Rus Dram Teatrında verdiyi quruluşlar milli səhnə mədəniyyətimizin yüksəlişində müstəsna qiymətlərə layiqdir. Onun Akademik teatrda quruluş verdiyi «On ikinci gecə» (Uilyam Şekspir), «Rəqs müəllimi» (Lope de Veqa), «Dağılan tifaq» (Əbdürrəhim bəy Haqverdiyev), «Müfəttiş» (Nikolay Qoqol), «Mehmanxana sahibəsi» (Karlo Haldoni), «Yağışdan çıxdıq, yağmura düşdük» və «Hacı Qəmbər» (Nəcəf bəy Vəzirov), «Əliqulu evlənir» (Sabit Rəhman), «Kəndçi qızı» (Mirzə İbrahimov), «Alov» (Mehdi Hüseyn), «Xəyyam» və «İblis» (Hüseyn Cavid), «Canlı meyit» (Lev Tolstoy), «Dəli yığıncağı» (Mirzə Cəlil), tamaşaları sənət ocağının həyatında mədəniyyət hadisəsidir, milli incəsənət sərvətidir.

Dramaturqlar. Kərim Həmid oğlu Kərimov (4.2.1929 – 1999). İxtisasca musiqili tamaşalar rejissorudur. Uzun illər Respublika sarayının direktoru işləyib. «Siçovul ovu» və «Çahargah fantaziyası» dramlarının müəllifidir.

Tennessi Uilyams (əsl adı Tomas Lanir. 26.3.1914 – 1983). Amerika nasiri və dramaturqu. «Arzu tramvayı», «Orfey cəhənnəmə düşür», «Lord Bayrona məhəbbət məktubu», «Tapdalanmış Petunya», «İquanların gecəsi», «Yarımçıq şam yeməyi» və bu kimi dramları var. Missuri universitetində təhsil alıb və ilk öncə – «Mamers» teatrında işləyib.

Fridrix Dürrenmatt XX əsr İsveçrə yazıçısı və dramaturqu. Alman dilində yazır. Silsilə romanları və «Fiziklər», «Böyük Romul», «Yenidən xaçpərəst olanlar», «Belə yazılıb», «Kor», «Cənab Missisipinin nigahı», «Məlik Vavilona gəlir», «V Frank»... dramları çap olunub.

Mənbə

1. İsrafil İsrafilov, Məryəm Əlizadə. «İnsan xeyirxahlıq üçün doğulur». – «Bakı», 9 dekabr 1985.

1986-cı il

13 aprel. «Od gəlini», Cəfər Cabbarlı.

2 hissəli faciə.

Quruluşçu rejissor Ağakişi Kazımov, rejissor Ramiz Məlikov, rəssam Tahir Tahirov, bəstəkar Ramiz Mustafayev, rəqs və qılınc təlimçisi Hüseynağa Hüseynov.

Rollarda: Mikayıl Mirzəyev (Elxan), Ramiz Məlikov (Aqşin), Bəsti Cəfərova (Solmaz), Nurəddin Quliyev (Əbu Übeyd), Yaşar Nuriyev (Altunbay), Ramiz Novruzov və Mahir Mirzəliyev (Rəbi), Sadıq İbrahimov (Torqut), İlham Əsgərov (Qorxmaz), Mirzə Ağayev və Abbas Qəhrəmanov (Dönməz), Elxan Quliyev və Məmməd Səfa (Toğrul), Sofiya Bəsirzadə və Məhbubə Məlikova (Gülgün), Şahin Cəbrayılov* və Pərviz Bağırov (Altay), Hacı İsmayılov (Sönməz), Mustafa Süleymanov (Yanardağ), Səyavuş Aslan (Oddamdı), Rüstəm Əliyev (Zübeyr), Firuz Xudaverdiyev (Atəşbod), Məmməd Sadıqov (Qoca kəndli), Səidə Quliyeva (Birinci qız), Mətanət Atakişiyeva (İkinci qız), Mirzə Ağayev və Abbas Qəhrəmanov (Birinci ərəb), Saleh Babayev (İkinci ərəb), Əlvida Cəfərov (Üçüncü ərəb), Elxan Quliyev (Dördüncü ərəb), Mehriban Abdullayeva (Qorxmazın bacısı).

* *Qeyd.* Şahin Cəbrayılov məşq elədi, ancaq tamaşada Altay rolunu oynamadı.

5 oktyabr. Səməd Vurğunun «Vaqif» pyesinin tamaşası (1938) bərpa edildi.

Rollarda: Həsən Turabov və Əliabbas Qədirov (Vaqif), Vəfa Fətullayeva və Əminə Babayeva (Xuraman), Elmira Haşımzadə, Səidə Quliyeva və Zöhrə Şirinova (Tamara), Ramiz Novruzov və Hacı İsmayılov (Şaliko), Rövşən Abbasov və Qulam Əliyev (Şalikonun qardaşı), Pərviz Bağırov (Arşak), Yaşar Nuriyev və Mirzə Ağayev (Kürd Musa), Məcnun Hacıbəyov (Kənd ağsaqqalı), Məhluqə Sadıqova (Yengə), Elxan Ağahüseynoğlu (Birinci elçi), Saleh Babayev (İkinci elçi), Rüstəm Əliyev və Şahin Cəbrayılov (İlyas), Əlvida Cəfərov (Əhməd kişi), Məməmd Sadıqov (Qurban kişi), Məmməd Səfa (Teymur), Elxan Quliyev (İran əsgəri), Mahir Mirzəliyev (Sərkərdə), Sahib Novruzov (Birinci qaçaq), Taleh İsmayılov (İkinci qaçaq),

Nəcəf Həsənzadə (Üçüncü qaçaq), Abbas Qəhrəmanov və İftixar Piriyev (Əli bəy), Firəngiz Mütəllimova və Mətanət Atakişiyeva (Gülnar), Mirvari Novruzova (Əminə xala), Bürcəli Əsgərov və Rafiq Əzimov (Vidadi), Ətayə Əliyeva (Tükəzban), Lütfi Məmmədbəyov və Hamlet Qurbanov (İbrahim xan), Aqşin Vəlixanov və İlham Əhmədov (Şeyx Alı), Telman Adıgözəlov və Mirzə Ağayev (Təlxək), Muxtar Avşarov və Firuz Xudaverdiyev (Vəzir), İlham Əsgərov (Zülfüqar), Sofiya Bəsirzadə (Qarı), Azad Şükürov (Üləma), Sücəddin Sadıyev (Xanəndə), Mehriban Abdullayeva (Xanəndə qız), Rasim İmanov və Ağalar Bayramov (cəlladlar).

29 oktyabr. Kiçik səhnədə. «Kölgələrin oyunu», Yuli Edlis. Tərcümə edəni Həbibə Məmmədxanlı.

2 hissəli dram.

Quruluşçu rejissor Həsən Əbluc, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Aydın Əzimov.

Rollarda: Kamal Xudaverdiyev (Sezar*), Ramiz Məlikov (Antoni), Zemfira Nərimanova (Kleopatra).

**Qeyd.* Əvvəlcə Sezar rolu Azərbaycanın Xalq artisti Məlik Dadaşova, Antoni rolu isə Rafael Dadaşova tapşırılmışdı. Bir neçə məşqdən sonra rolların ifaçıları dəyişdirildi.

20 dekabr. «Şeyx Xiyabani», İlyas Əfəndiyev.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Solmaz Haqverdiyeva.

Rollarda: Həsən Turabov (Şeyx Xiyabani), İlham Əsgərov (Sarı Mərdan), Bürcəli Əsgərov (Hacı Fərhad), Nurəddin Quliyev (Məşədi Təhməz), Fuad Poladov (Mübarək Səltənə), Amaliya Pənahova (Xanım Mahnur), Rafael Dadaşov (Həsən Soltan), Firəngiz Mütəllimova** və Sevil Xəlilova*** (Gülrux), Ramiz Novruzov (Mayor Edmund), Əliabbas Qədirov və Əlibala Nurəliyev (Şirzad), Mətanət Atakişiyeva və Sevil Abbasova (Səhər), Rafiq Əzimov (Ağayi Möhtəşəm), Məzahir Cəlilov (Mirzə Tağı), Məcnun Hacıbəyov (Mirzə Tahir), Elxan Ağahüseynoğlu (Mirzə Hüseyn xan), İftixar Piriyev (Ayaz), Muxtar Avşarov (Ağa Əbdürrəhim ağa), Əlvida Cəfərov (Hacı Bağır), Mirzə Ağayev (Hacı Sülü), Mustafa Süleymanov (Qoca), Saleh Babayev (Zabit),



«Şeyx Xiyabani», İlyas Əfəndiyev. Soldan: Mübarək Səltənə – Fuad Poladov, xanım Mahnur – Amaliya Pənahova və Hacı Fərhad – Bürcəli Əsgərov. 1986-cı il



«Kölgələrin oyunu», Yuri Edlis. Sezar – Kamal Xudaverdiyev və Kleopatra – Zemfira Nərimanova. 1986-cı il

Abbas Qəhrəmanov, Azad Şükürov və Elxan Quliyev (jurnalistlər), Firuz Xudaverdiyev (Cani), Nəcəf Həsənzadə (Xidmətçi), Rövşən Abbasov, Sücəddin Sadıyev və Taleh İsmayılov (qiyamçılar).

**Qeyd.* İlyas Əfəndiyev bu pyesi teatra «Ayrılıq olmasaydı» adı ilə təqdim etmişdi. Əsəri tamaşaya Hüseynağa Atakişiyev hazırlayırdı. Baş məşqlər ərəfəsində dramaturqun təkidi ilə rejissor dəyişdirildi.

** *Qeyd*. Firəngiz Mütəllimova qəflətən xəstələndiyinə görə Gülrux rolunu üçüncü tamaşadan başlayaraq Bəsti Cəfərova da ifa etdi.

****Qeyd.* Sevil Xəlilova məşq elədi, ancaq tamaşada Gülrux rolunu oynamadı.

31 dekabr. «Məlik Məmməd». Xalq nağılı əsasında.

1 hissəli musiqili tamaşa.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rejissor Namiq Ağayev, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Aydın Əzimov rəqslərin quruluşçusu Əli Əşari.

Rollarda: Bəsti Cəfərova, Nurəddin Quliyev, Zemfira Nərimanova, Ramiz Novruzov, Firəngiz Mütəllimova, İlham Əsgərov, Səidə Quliyeva, Saleh Babayev, İftixar Piriyev, Zöhrə Şirinova, Mətanət Atakişiyeva, Abbas Qəhrəmanov, Nadir Nəcəfov, Mahir Mirzəliyev, Mirzə Ağayev.

Çalır Mübariz Məlikovun idarəsi ilə teatrın instrumental ansamblı. Ansamblın heyəti: Lüdmila Volkova, Rəna Əliyeva, Laura Həsənova, Ayaz Məlikov, Vladimir Afanasyev, Oleq Arutunyan, Babək Vəzirov, Azər Allahverdiyev, Yadigar Abbasov.

* * *

Baş rejissor Hüseynağa Atakişiyev bu il bircə tamaşa hazırlayıb təhvil verdi. Onun işləməyə başladığı «Şeyx Xiyabani» pyesinin məşqləri sona çataçatda yarımçıq qaldı. Rejissorun fərdi yaradıcılıq üslubu baxımından yanaşdıqda, «Böyük Romul», «Həyatın dibində», «Məlik Məmməd» tamaşalarında kompozisiya pərakəndəliyi, üslub qarışıqlığı, janr qeyri-müəyyənliyi, məzmun və forma uyarsızlığı hiss olunurdu. Təəccüb doğuran o idi ki, Hüseynağa Atakişiyevin Şəki teatrındakı nailiyyətlərinin, hətta səciyyəvi işartıları belə, Akademik teatrda nəzərə çarpmırdı.

Baş rejissor məşhur «Məlik Məmməd» xalq nağılı əsasında uşaqlar üçün eyniadlı tamaşanı qısa müddətə hazırladı. O, tamaşanın janrını belə təyin etmişdi: xalq nağılı əsasında bir hissəli musiqili tamaşa. Bu janr təyini Akademik teatr üçün yeni idi və ümid doğururdu ki, tamaşada da təzə-tərliklə qarşılaşacağıq.

İlk baxışda nağıl, musiqi, tamaşa ifadələrinin daşıdığı estetik mənalar tamaşaçıda da maraq doğururdu.

Dediklərimlə yanaşı, yəni niyyət işıqlı olsa da, «Məlik Məmməd» tamaşası bütövlükdə qüsurlu çıxmışdı, nəticə səmərəsiz idi. Bu uğursuzluq hansı nöqtədən başlanmışdı?

Nağılın öz poetika göstəriciləri (forma, dil-ifadə və sairə) var. Pyesə çevrilmədə bu göstəricilər mütləq səhnə tələb-prinsipləri dairəsində həll olunmalı idi. Bir halda ki, rejissor musiqili tamaşa (afişa və proqramda janr belə göstərilir) vəd edirdi, onda gərək, musiqi atributobrazı tapılaydı. Həm də musiqinin daşıyacağı funksiya müstəqillikdən çıxarılıb nağıl-tamaşanın ideya və məqsədinin açılmasına tabe edilməli idi. Tamaşada isə tamaşaçı bunu görmürdü.

Düzdür, Mətanət Atakişiyevanın və Bəsti Cəfərovanın (İspan gözəli), Firəngiz Mütəllimovanın və Zemfira Nərimanovanın (Hind gözəli) cazibədar rəqsləri, yumorlu davranış hərəkətləri nəzəri cəlb edirdi. Lakin onların oyun tərzini rejissor ümumi janrla birləşdirmədiyinə görə həmin ifalar konsert nömrələri təsiri bağışlayırdı.

Xeyir-şər qüvvələrin qarşılaşmasında qəhrəmanlığın, məhəbbətin, xeyirxahlığın, müdrikliyin, ləyaqətin qələbə çalması, insanlığın təntənəsi nağılların, o cümlədən «Məlik Məmməd»in ideya mayasını təşkil edir. Hüseynağa Atakişiyevin verdiyi səhnə təfsirində nağılın süjet qurumu məntiqsiz şəkildə pozulmuşdu. Hətta uşaqların nağıl dünyasının sevimli qəhrəmanlarından olan Məlik Məmmədin təhrifi ideyanı açıq-aşkar parçalayırdı. Aktyorların sxematik qurulmuş ekssentrik ifa tərzləri meydan teatrının oyun prinsipini kölgədə qoyurdu və hadisələrdəki iştirakçı obrazlar nağıllıqdan çıxaraq yabançı parodiya hədəfi olurdular. Nəticədə lağlağı meydan teatrına xas olan incəliklərdən, karnaval şuxluğundan irəli keçirdi və bununla, yenə həm nağılın, həm də tamaşanın ifadə vasitələrinin üzərinə qatı kölgə salırdı. Rejissorun qurduğu mənasız, fikir yükündən məhrum, dolaşıq,

çalın-çarpaz mizanlara qan-tər içində «əməl edən» aktyorlar ifaçıdan daha çox icraçı sirk akrobatlarını xatırladırdılar.

Bu məqamda o da aşkarlandı ki, gənc aktyorların texniki tirinaj hazırlığı yox dərəcəsindədir.

Səksəninci illərdə klassik və çağdaş mövzulu əsərlərdə yurd, ocaq, millət, Vətən problemləri rejissorların təfsirində xüsusi vurğulanırdı. Ağakişi Kazımov mənimlə söhbətlərində Cəfər Cabbarlının «Od gəlini» faciəsinin ideyasını məhz həmin istiqamətə daha qabarıq şəkildə yönəltməyin nəzəri əsaslarını danışır, təcrübi icrasının formalarını sadalayırdı. Əgər onun dedikləri səhnədə öz ifadəsini obrazlı dəqiqliklə tapsaydı, yəqin ki, «Od gəlini» faciəsinin indiyədək göstərilən quruluşlarından fərqlənən maraqlı tamaşa ilə qarşılaşardıq.

Tamaşanın premyerasından (13 aprel 1986) on il sonra yazıb mənə təqdim etdiyi və hazırda şəxsi arxivimdə saxlanan qeydində Ağakişi Kazımov göstərir ki, «Od gəlini» üzərində çox işlədim. Akademik teatrda əvvəllər quruluş verdiyim heç bir əsər məni bu qədər incitmədi. Təəssüf ki, fikrimi səhnədə həyata qismən keçirə bildim. Epizodik və kiçik rolları oynayan aktyorlar mənə çox mane oldular. Bizim yozum-təfsirdə tamaşa oda sitayiş və pərəstiş edən xalqın gəlini Solmaz haqqında idi.

Solmaz obrazı pyesdə böyük olmasa da, biz tamaşada bütün hadisələrin mərkəzində Solmazı görürdük. Od gəlini Odlar yurdunun ləyaqət, namus, paklıq, ülvilik və sairə rəmzi idi. Ərəblər əvvəl həmin rəmzi, onun ardınca ocağımızı (sözün geniş mənasında), sonra da yurdumuzu viran qoydular. Rəmzini, ocağını qorumayan, daha doğrusu, buna qadir ola bilməyən, gücü-qüdrəti çatmayan bir xalq öz yurdunun fəlakətdən xilasında da aciz qalar. Elxan bu acı həqiqəti yalnız finalda başa düşür, ancaq özü də məhv olur...

Göründüyü kimi, Ağakişi Kazımov «Od gəlini» faciəsinin Akademik teatrda quruluşçu rejissorları Aleksandr Tuqanovun (1928), Əhməd Tiriniç və Sergey Mayorovun (1933), İsmayıl Hidayətzadənin (1939), Ələsgər Şərifovun (1951) ənənəvi təfsirlərindən şüurlu surətdə imtina edən, ideyanı tamamilə yeni məntiqdə həllə çalışan tamaşa yaratmaq niyyətində olub. Həmin məqsədin ilkin kod-açarı Tahir Tahirovun verdiyi ocaq rəmzli tərtibatda, səhnənin ortasında yanan,

bütün hadisələrin onun həndəvərində cərəyan etdiyi ocaqda açılmalı idi. Lakin texniki icranın səliqəsizliyi və bütün ifaçıların öz oyunlarını həmin məqsədə xidmətdə qura bilməmələri istənilən forma effektini və məna dərinliyini lazımi bədii səviyyədə verə bilmədi. İzlənən mövzu Ramiz Mustafayevin musiqisində də tam obrazını tapmamışdı.

Rejissor əsərin qəhrəmanı Elxanı ənənəvi romantik teatr məktəbinin oyun prinsiplərində (Abbasmirzə Şərifzadə, Rza Əfqanlı, Ələsgər Ələkbərov, İsmayıl Dağıstanlı) icra edən Mikayıl Mirzəyevə tapşırmışdı. Aktyor da rolu öz potensial imkanları (daxili ehtiras, emosional çılğınlıq, romantik dramatizm, yüksək pafos və sairə, ilaxır) dairəsində oynayırdı. Konfliktin əks-qütbündə dayanan Aqşini isə Ramiz Məlikov realist səpkidə ifa edirdi. Bu, iki aktyorun fərdi oyun üslubu kimi nəzərə çarpırdı.

Digər ifaçılar isə oyun baxımından üç qismə bölünmüşdülər.

Tamaşanın romantik ruhunu əsas götürüb saxlayanlar: Nurəddin Quliyev (Əbu Übeyd), Ramiz Novruzov və Mahir Mirzəliyev (Rəbi), Sofiya Bəsirzadə (Gülgün), Mustafa Süleymanov (Yanardağ), Sadıq İbrahimov (Torqut).

Realist oyun-üslubda faciə janr prinsiplərinə istinad edənlər: Bəsti Cəfərova (Solmaz), İlham Əsgərov (Qorxmaz), Hacı İsmayılov (Sönməz), Elxan Quliyev və Məmməd Səfa (Toğrul), İftixar Piriyev (Altay).

Romantik və realist aktyor məktəbinin oyun prinsiplərini bir poetikada birləşdirməklə, ifa tarazlığını Səyavuş Aslan (Oddamdı) və Yaşar Nuriyev (Altunbay) saxlayırdılar.

«Od gəlini» səhnə əsərində geyim eskizlərinin texniki icrasındakı səliqəsizlik, xüsusən ilk tamaşalarda aktyorların sərbəst səhnə davranışlarına mane olurdu.

Bütün bunlarla yanaşı, Mikayıl Mirzəyev, Bəsti Cəfərova, Yaşar Nuriyev və Səyavuş Aslan tamaşanın ağırlığını ləyaqətlə çəkir, səhnə əsərindən alınan ümumi təəssürat iqlimini tənzimləyirdilər. Epizodik rollarda oynayan aktyorlar ümumi janr poetikasında həmrəy ola bilmirdilər və üstəlik fərdi kənarlaşma üslub pərakəndəliyi yaradırdı. Ərəblərin və qızların mizanları və icra üslubu elə verilmişdi ki, ansambldan kənarlaşma açıq-aşkar görünürdü.

Bütövlükdə Ağakişi Kazımovun «Od gəlini» faciəsi üçün qənaətə gəldiyi nəzəri prinsiplərin həlli təcrübi şəkildə öz təcəssümünü bütün təravəti ilə tapa bilmədi.

Teatr Səməd Vurğunun 80 illik yubileyi münasibətilə ədibin pyeslərindən birini hazırlamaqdansa, «Vaqif» tamaşasını bərpa edib göstərməyi daha üstün tutdu. Bu, Ədil İsgəndərovun premyerası 1938-ci il oktyabrın 5-də göstərilən quruluşunun bərpası idi və bu iş yanvarın 20-də əmrlə Hüseynağa Atakişiyevə tapşırıldı. O, bərpaya ixtisardan, «redaktədən» başladığına görə iş yarımçıq saxlandı. Sonra bərpa Ağakişi Kazımova həvalə edildi. «Vaqif» onun işləməsindən sonra göstərildi.

Əslində, gərək teatr Səməd Vurğunun yubileyini «yubiley xatirinə» yad etməyəydi. Yubiley gecəsi bir gündə öz funksiyasını icra edib qurtarır. Yubiley tamaşası isə sənət sözüdür, kollektivin yeni yaradıcılıq imkanlarını açmaq məqsədi izləməlidir. Bu baxımdan Səməd Vurğunun hər hansı pyesini hazırlamaq, lap elə «Vaqif»in özünü təzə quruluşda tamaşaya qoymaq, bir sıra yaradıcılıq cəhdləri baxımından daha səmərəli ola bilərdi.

Görünür, teatr Ədil İsgəndərovun teatr tarixi salnaməmizə parlaq səhifələrlə yazılmış quruluşuna ehtiram əlaməti olaraq bərpanı üstün tutmuşdu. Lakin nəticə səbəbi doğrultmadı. Vaqif rolunda Əliabbas Qədirov və Nurəddin Quliyev, Qacarın ifasında Məlik Dadaşov və Muxtar Avşarov ciddi sənət nailiyyəti qazana bilmədilər.

Muxtar Avşarovun Qacarı səs «gücünə» oynamağa cəhd göstərməsi aktyoru obrazın xarakterindəki romantik-fəci çalarları açmaqdan uzaqlaşdırır, naqolaylığa meydan verirdi. Mürəkkəb obrazları oynamaqda zəngin təcrübəsi olan Məlik Dadaşovun Qacara verdiyi səhnə təfsiri tamamilə yeni idi. Ancaq o, obrazın yeni təfsirini əsaslandırmaq istədiyi iddianı tamaşada izlənən məqsəd-ideya boyunca cilovlaya bilmirdi. Buna görə Məlik Dadaşovun cəhdi, sərf etdiyi fiziki gücü, texniki bacarığı da nəticə etibarilə uğursuzluqdan qurtulmaqda aciz görünürdü.

İlin əvvəlində İlyas Əfəndiyev yenicə tamamladığı «Ayrılıq olmasaydı» pyesini teatra təqdim etdi. Baş rejissor Hüseynağa Atakişiyev Cənubi Azərbaycanda XX əsrin iyirminci ilinin əvvəllərində Şeyx

Xiyabaninin rəhbərliyi ilə baş vermiş azadlıq mübarizəsindən bəhs edən dramın quruluşunu öz üzərinə götürdü. Səhnə tərtibatı Solmaz Haqverdiyevaya, musiqi bəstəkar Cavanşir Quliyevə tapşırıldı. Məşqlərin qızğın çağında İlyas Əfəndiyev teatra gəlib baş rejissorun işinə baxdı. Məşqdən sonra müzakirədə rejissorla dramaturq arasında fikir ayrılığı yarandı, ortalığa müəyyən mübahisələr çıxdı. Onların birgə yaradıcılığı alınmadı.

Müəyyən tərəddüdlərdən, məsləhət-məşvərətdən, xeyli müddət keçəndən sonra «Ayrılıq olmasaydı» pyesinin quruluşu rejissor Mərahim Fərzəlibəyova tapşırıldı. Rəssam Solmaz Haqverdiyeva tərtibatın müəllifi kimi qaldı. Cavanşir Quliyev yaradıcı qrupdan çıxdı. Mərahim Fərzəlibəyov seçmə musiqiyə üstünlük verdi. Pyesin adı dəyişdirilib «Şeyx Xiyabani» qoyuldu. Hətta bəzi məramnamələrdə tamaşanın adı belə də yazıldı: «Şeyx Məhəmməd Xiyabani». Dramaturq əsərə Zabit (Saleh Babayev), Cani (Firuz Xudaverdiyev), Xidmətçi (Nəcəf Həsənzadə) və qiyamçılar (Rövşən Abbasov, Sücəddin Sadıyev və Taleh İsmayılov) obrazlarını əlavə etdi. Əsas ifaçılar qaldılar, ancaq Məşədi Təhməz rolunu məşq edən Hamlet Qurbanov Nurəddin Quliyevlə əvəz olundu. Müntəzəm məşqlər sayəsində «Şeyx Xiyabani» hazırlanıb teatrın bədii şurasının və ictimai baxışın müzakirəsinə verildi. Üç gün sonra dekabrın 20-də ilk tamaşa oynanıldı.

Rejissor tamaşanı fəlsəfi-publisist faciə janrının prinsipləri əsasında qurmaqla, ictimai motivləri qabarıqlaşdırmışdı. Tamaşaya seçdiyi janrın struktur prinsiplərinin realizəsi, müəyyən məqamlarda səhnə həlli zəif alınsa da, hətta lirik epizodlarda da iki əqidə mübarizəsinin fəlsəfi-siyasi mahiyyəti üzə çıxırdı. Onun seçdiyi musiqi parçaları tamaşanın ali məqsədini tamamlayan obrazlıqdan çıxırdı. Uğursuz seçilmiş musiqi mövzunun bədii tutumunun, lirik-psixoloji bilavasitə faciəvi-dramatik epizodlarda obrazların, həmçinin hadisələrin psixoloji ovqatlarının tamamlanmasında başlıca funksiyasını yerinə yetirmək gücündə deyildi.

«Şeyx Xiyabani» tamaşasında janrın poetika xüsusiyyətləri baxımından aktyor işi daha təqdirəlayiq alınmışdı. Xüsusən Həsən Turabovun Şeyx Xiyabani, Amaliya Pənahovanın Xanım Mahnur, Fuad Poladovun Mübarək Səltənə rollarında ifaları daha bitkin görünürdü.

Eyni poetika dairəsində üç aktyorun hər biri orijinal ifa üslubu seçmişdi. Onlar bəzi səhnələrdə tapdıqları jestlərin rəngarəngliyi ilə musiqi funksiyasını öz üzərlərinə götürürdülər.

Həsən Turabov zahiri hərəkətləri daxili təbəddülata psixoloji gərginliklə tabe etdirən təmkinli oyun üslubunu əsas götürmüşdü. Bu təmkin aktyorun üslubunda çoxçalarlı idi və Turabov hər epizodun istiqamətinə uyğun olaraq daxili ləngəri ustalıqla dəyişirdi. Ritmin dəyişkənliyini aktyor texniki hərəkətlərdə deyil, baxışlarında, sifət ifadələrində və səs dönüşlərində təcəssüm etdirirdi. Bunlardan dördü daha xarakterik görünürdü.

Ehtiraslı, coşqun, qəlbialovlu, səmimi, insanpərvər Şeyx Xiyabani – Həsən Turabov. Xiyabaninin İran şahlığı məngənəsində zülm çəkən xalqının azadlığı uğrunda apardığı mübarizənin məqsədində, inqilab mücahidləri qarşısında çıxışında bu çalar dominant idi.

Yenilməz mübariz, amalı uğrunda canını verməyə hazır olan müdrik şəxsiyyət, riyakarlıqdan uzaq diplomat Şeyx Xiyabani – Həsən Turabov. Ötkəm cavabları, aydın məntiqi, polad iradəsi ilə Mübarək Səltənəni və Xanım Mahnuru mənən sarsıdan, onların siyasi əqidəsinin mənfurluğunu ifşa etdiyi epizodda aktyorun oyununun ritm ahəngi dinamik gərginliyə doğru dəyişirdi.

Zərifqəlbli, kövrək sevgi hisləri uzun illər qəlbində qovrulub qubar eləyən, ancaq azadlıq ideyaları ilə hər cür xırda hislərin fövqündə duran Şeyx Xiyabani – Həsən Turabov. Şeyx Xiyabani ilə Xanım Mahnurun görüş səhnəsindəki lirik-psixoloji dialoqda bu ritm daha parlaq çalarda üzə çıxırdı. Bu səhnə mizan quruluşuna və aktyor ifasına görə tamaşanın ən təsirli epizodlarından idi. Solmaz Haqverdiyevanın bu məkan üçün verdiyi tərtibat tamaşanın üslub poetikasına uyuşmur və darısqallıq aktyorların sərbəst davranışına mane olurdu.

Çılğın, qəzəbi püskürən Şeyx Xiyabani – Həsən Turabov. İnqilaba xəyanətkar çıxanlar barədə eşidəndə, aktyorun mənəvi sarsıntısını təcəssüm etdirən sifət ifadələri, səs variasiyaları hərəkətlərlə paralelləşirdi.

Xanım Mahnurun ifaçısı Amaliya Pənahova obrazı üç qatda oynayırdı. Fərdi-psixoloji qat (Xanım Mahnur – Həsən Soltan); lirik-poetik qat (Xanım Mahnur – Şeyx Xiyabani); ictimai-siyasi qat (Xanım Mahnur – Mübarək Səltənə, Mayor Edmund, Hacı Fərhad).

Fuad Poladov isə oynadığı Mübarək Səltənə rolunun səhnə təfsirində pauzalara üstünlük vermişdi. Tamaşada inqilabın mübarizlik qüdrətini təcəssüm etdirmək yükünü Sarı Mərdan – İlham Əsgərov və cəsurluğu isə Məşədi Təhməz – Nurəddin Quliyev daşıyırdılar. Nurəddin Quliyevin səhnədəki çevikliyi, sözdən hərəkətə, hərəkətdən sözə dinamik keçidləri, İlham Əsgərovun obrazın təqdimində məğrurluğu, ötkəmliyi, iradəni aparıcı xəttə çevirməsi Turabovun təmkinli oyunu ilə birləşərək tamaşadakı vahid Azərbaycan ideyasına bütövlük gətirirdi.

Xanım Mahnurun qadınlığı, analığı, namus, qeyrət kimi müqəddəs duyğuları iyrənc anlayışa çevirməsinə qarşı pyesdə Gülrux (Firəngiz Mütəllimova və Bəsti Cəfərova) və Səhər (Mətanət Atakişiyeva) obrazları qoyulub. Tamaşada isə rejissor Səhər – Həsən Soltan (Rafael Dadaşov), Səhər – Gülrux xətlərini ali məqsədə tabe etdirə bilməmişdi. Təbiətcə lirik aktrisa Firəngiz Mütəllimova Gülruxun dramatik təbiətini, sözün əsl mənasında, «oğlanlığını» şıltaqlıq çərçivəsindən kənara çıxara bilmirdi. Faciəvi epizodun ən gərgin nöqtəsində, Gülruxun atası Hacı Fərhadın (Bürcəli Əsgərov) qatili və əri Mübarək Səltənəni tapança ilə öldürdüyü səhnədə aktrisanın oyununda obrazın qəhrəmanlığının estetik təminatı görünmürdü. Gülruxun digər ifaçısı, tamaşaya Firəngiz xanım xəstələnəndən sonra əlavə edilən Bəsti Cəfərova dinamik oyunu ilə dramaturqun məqsədini dürüst açır, öz ifasını ana xətlə bağlaya bilirdi.

Həsən Soltan rolunun ifaçısı Rafael Dadaşovun obrazın ikili xarakterini, düşüncə və əməli arasındakı təzadı tuta bilməməsi onunla bağlı epizodları tamaşanın dinamik ritmindən ayırırdı.

Mərahim Fərzəlibəyov quruluş verdiyi tamaşalarda şaxəli mizan qurmağa, publisist rəmzlərdən, epik teatr prinsiplərindən istifadə etməyə çalışan rejissordur. Maraqlı tapıntıları da olur, ancaq tapıntılarını axıradək estetik səviyyədə saxlaya bilmir. Tamaşalarını konstruktiv cəhətdən səhnədə qurur, onları cilalamaqla parçalanmaz şəbəkə qurmağa isə elə bil hövsələsi çatmır. «Şeyx Xiyabani tamaşasında da belə məqamlar nəzərə çarpırdı. Həmin epizodlarda publisist rəmz plakatçılığa (qiyamçı dəstənin tül arxasında verilməsi), mürəkkəb şaxəli mizan qurmaq cəhdi qatmaqarışıqlıqla (kütləvi səhnə, xüsusən atışma epizodu) səbəb olmuşdu.

Mərahim Fərzəlibəyov epizodik rolların ifaçıları ilə işi başlamış, ancaq əsas personajların kölgəsində onlar tədricən yaddan çıxmışdılar. Maraqlı oyun göstərən Ramiz Novruzovun (Edmund), Bürcəli Əsgərovun (Hacı Fərhad), Rafiq Əzimovun (Ağayi Möhtəşəm) tamaşanın kompozisiya şəbəkəsinə tam daxil olmaları üçün Mərahim Fərzəlibəyov geniş bədii imkandan tam bəhrələnə bilməmişdi...

1994-cü il may ayının 10-da quruluşçu rejissor Mərahim Fərzəlibəyovun təqdimatına əsasən Şeyx Xiyabani rolunun ifası Nurəddin Quliyevə də tapşırıldı. Həmin vaxtdan Natəvan rolunda («Xurşidbanu Natəvan») Bəsti Cəfərova da çıxış etməyə başladı...

Yaz ağzı rejissor Həsən Əbluc Kiçik səhnədə moskvalı dramaturq Yuli Edlisin «Kölgələrin oyunu» (tərcüməçi Həbibə Məmmədxanlı) pyesini tamaşaya hazırlamaq istəyi barədə rəhbərliyə müraciət etdi.

Sezar – Kleopatra – Antoni. Üçbucaqlı süjet yaradan bu tarixi şəxsiyyətlərin taleyi Şekspir dühasının, Bernard Şou istedadının mövzusu olub dünya ədəbiyyatını zinətləndirən dramatik faciə əsərlərinin yaranmasına meydan açıb. Məşhur bir hadisəni, hətta az qala, tarixi fakta çevrilmiş əhvalatı «Kölgələrin oyunu» pyesində yenidən işləyən Yuli Edlis onun səhnə həllində yığcamlığa və sadəliyə əsaslanıb. Pyesin pritça (rəvayət) janrında yazılması da, məhz bu səbəbdən doğmuşdu. Müəllif obrazların taleyində tarixi həqiqətlərin dəqiqliyindən daha çox rəvayət elementlərinin dramatik həllinə əsaslanıb.

Akademik teatr öz tarixində ilk dəfə pritça janrına müraciət edirdi. Bəlkə də, buna görə müəyyən ənənənin olmaması səbəbindən «Kölgələrin oyunu» tamaşasında janrın poetika göstəriciləri tam həllini tapmamışdı. Tamaşanın janr qanunlarına rejissor və ifaçılar da bir qədər laqeyd qalmışdılar.

Həsən Əblucun rol bölgüsü əvvəlcə belə idi: Sezar – Məlik Dadaşov, Antoni – Rafael Dadaşov, Kleopatra – Zemfira Nərimanova. Mizarxası məşqlərin yekununda Zemfira xanım qalmaqla digər iki ifaçını Kamal Xudaverdiyev və Ramiz Məlikov əvəz etdilər.

Kamal və Ramizin oyunlarında onların ifa üslublarında indiyədək rastlaşmadığımız çalarlar vardı. Onlar Kleopatra səpkili rolları oynamaqda təcrübəsiz olan Zemfira Nərimanovaya səhnədə diqqət və qayğı ilə yanaşırdılar. Tamaşanın üslub formasından, mizanların quru-

luşundan asılı olaraq, yeri gəldikcə, onun üçün «oyun mövqeyi» yaradırdılar. Kleopatra rolunun Zemfira Nərimanovaya tapşırılması, nəticə etibarilə, təqdirediləcək risk idi. Neçə il burada işləməsinə baxmayaraq, aktrisa ilk dəfə istedadının dramatik faciə tərəflərini göstərə bildi.

Gəncə, Lənkəran, Sumqayıt Dövlət teatrlarında tamaşalar hazırlamış Oruc Qurbanov antik yunan dramaturqu Evripidin (b.e.ə.480–406) «İfigeniya» faciəsini tamaşaya hazırlamaq istədi. Onun niyyətini rəhbərlik bəyəndi və noyabrın 13-də (əmr № 49) əsərin Kiçik səhnədə hazırlanmasına icazə verildi. Nüsrət Fətullayev və Kamal Şıxəliyev rəssam təyin olundular, musiqi tərtibatı isə Mübariz Məlikova tapşırıldı. Bir aydan sonra Oruc Qurbanovun təqdim etdiyi rol bölgüsü də təsdiqlənib aktyorlara elan edildi. Aqamemnon – Fuad Poladov, İfigeniya – Firəngiz Mütəllimova, Menelay – Aqşin Vəlixanov, Axill – Ramiz Novruzov, Qoca – Bürcəli Əsgərov, Birinci qadın – Səidə Quliyeva, İkinci qadın – Sevil Abbasova. Klitemenestra əvvəl Amaliya Pənahovaya verildi. Onun teatrdan müvəqqəti uzaqlaşması ilə bağlı rol Vəfa Fətullayevaya tapşırıldı. Vəfa xanım xəstələndiyi üçün onu Zemfira Nərimanova əvəz etdi. Məşqlər başlandı. Ancaq Oruc Qurbanovun teatra müntəzəm gəlməməsi, iddiası ilə əməlinin üst-üstə düşməməsi ucbatından tamaşa üzərində iş başa çatdırılmadı.

* * *

Qastrol. Teatr Naxçıvan Muxtar Respublikasına qastrola yazdan hazırlaşırdı. Kollektiv on tamaşadan ibarət repertuarla səfərə çıxdı. Qastrol müddətində (1 – 24 iyun) truppa Naxçıvan şəhərində, Ordubad, İliç (indiki Şərur), Şahbuz rayonlarında teatr binasında, mədəniyyət saraylarında, mədəniyyət evlərində, böyük klublarda tamaşalar oynayırdı. Qastrol müddətində Muxtar Respublika teatrsevərləri Hüseyn Cavidin «İblis», İlyas Əfəndiyevin «Xurşidbanu Natəvan», «Büllur sarayda», Anarın «Təhminə və Zaur», Nəbi Xəzrinin «Torpağa sancılan qılınc», Bəxtiyar Vahabzadənin «Kimdir haqlı?», «Fəryad», Sabit Rəhmanın «Nişanlı qız», Nəriman Həsənzadənin «Atabəylər», Kərim Kərimovun «Çahargah fantaziyası» pyeslərinin tamaşalarına baxmaq imkanı qazandılar.

Bu səfərdə teatrın gənc aktyorları Firəngiz Mütəllimovaya, Sevil Xəlilovaya və Nurəddin Quliyevə Naxçıvan MR-in Əməkdar artisti fəxri adları verildi (23 iyun 1986).

Truppada dəyişmə. Xarakteri, ifa tərzi, istedadının yönü baxımından Akademik teatrda rəqibi olmayan, geniş imkanlı, kollektivin həmişə qayğı və rəğbət bəslədiyi Əməkdar artist Hamlet Xanızadə mayın 20-də heç kimin gözləmədiyi halda, «Azərbaycanfilm» kinostudiyasında işləməyə getdi. Bu addımı hamıda təəccüb doğuran aktyor teatra qayıtmadı və üç il sonra dünyasını dəyişdi (5 iyun 1941– 23 fevral 1990).

Aktyorluq fakültəsinin müdavimi Mahir Mirzəliyev sentyabrın 16-da, Sumqayıt Dövlət Dram Teatrının aktyoru və direktoru Əlibala Nurəliyev sentyabrın 20-də, Tədris teatrının aktrisası Hicran Nəsirova (Qəşəmova) dekabrın 10-da Akademik teatrın kollektivinə qəbul edildilər.

Təltif. Azərbaycanın Xalq artisti Məlik Dadaşov «Azərbaycanfilm»in istehsal etdiyi «Birisi gün gecə yarısı» bədii filmindəki Nəriman Nərimanov roluna görə Respublikanın Dövlət mükafatına layiq görüldü.

Əcəl aldı... Fitri istedad sahibi, qüdrətli faciə aktyoru, dramatik rolların son dərəcə mahir ifaçısı, duzlu yumoru ilə tamaşaçıları valeh edən, cingiltili və qəltanlı səsi, bənzərsiz səhnə texnikası, hərtərəfli yaradıcılıq imkanları olan Səməndər Mənsum oğlu Rzayev «Böyük Romul»un məşqlərində Sezar Rupfu hazırlayarkən qaraciyər xəstəliyindən yatağa düşdü. Qırx bir yaşında (2 yanvar 1945 – 27 mart 1986) haqq dərgahına qovuşdu.

Bu itkinin acı nəticələri teatrın repertuarında özünü göstərdi.

Cari repertuardakı tamaşaların Bakıda və qastrollarda göstərilməsini təmin etmək məqsədilə sentyabr – oktyabr aylarında (əmr № 39 və əmr № 40) «Atabəylər» (Nəriman Həsənzadə) əsərində Nizami rolu Sadıq İbrahimova və Əlibala Nurəliyevə, «Közərən ocaqlar»da (Mirzə İbrahimov) Mazar bəy obrazı Rafael Dadaşova, «Sizi deyib gəlmişəm...» (Anar) tamaşasında Xudayar bəy surəti Səyavuş Aslana tapşırıldı. Onlar tezliklə məşq edib heyətə daxil oldular.

1987-ci il

14 fevral. «Günah», Rəhman Əlizadə.

2 hissəli dram.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rəssam Nazim Bəykişiyev, bəstəkar Fərəc Qarayev, rejissor assistenti Namiq Ağayev.

Rollarda: Hamlet Qurbanov və Kamal Xudaverdiyev (Loğman), İlham Əhmədov və Abbas Qəhrəmanov (Fərrux), Məhbubə Məlikova və Hicran Nəsirova (Nabat), Nurəddin Quliyev və İftixar Piriyev (Fərhad), Yaşar Nuriyev və Elxan Quliyev (Böyükağa), Zərnigar Ağakişiyeva (Fəridə), Səyavuş Aslan və Elxan Ağahüseynoğlu (Ağəli), Firəngiz Mütəllimova və Bəsti Cəfərova (Əsmər), Pərviz Bağırov və Mirzə Ağayev* (Namiq), Hacı İsmayılov (Çopur).

* *Qeyd.* Mirzə Ağayev məşq elədi, ancaq tamaşada Namiq rolunu oynamadı.

18 aprel. «Üç quruşluq opera», Bertolt Brext, Kurt Vayl. Tərcümə edəni Vaqif Səmədoğlu.

2 hissəli pyes.

Quruluşçu rejissor Karl Georq Kayzer, rəssam Aksel Pfefferkorn, rejissor Ramiz Məlikov, musiqi rəhbəri Aydın Əzimov, baletmeyster Rimma Məmmədova.

Rollarda: Fuad Poladov (Makxit), Yaşar Nuriyev (Conatan Piçem*), Zərnigar Ağakişiyeva (Seliya Piçem), Şükufə Yusupova (Polli Piçem), Kamal Xudaverdiyev (Braun), Zemfira Nərimanova (Moruq Cenni), Səidə Quliyeva (Lyusi), Ramiz Novruzov (Smit), Elxan Ağahüseynoğlu (Kimbel), Rafiq Əzimov (Filç), İlham Əhmədov (Mattias), Elxan Quliyev (Cekob), Şahin Cəbrayılov (Robert), İlham Əsgərov (Eddi), Mahir Mirzəliyev (Cimmi), Telman Adıgözəlov (Uolter), Sofiya Bəsirzadə (Dolli), Əminə Babayeva və Məhbubə Məlikova (Molli), Lalə Bağırova (Viksen), Zöhrə Şirinova (Betti), Sevil Xəlilova və Sevil Abbasova (Kitti), Mirzə Ağayev, Əlvida Cəfərov, Hicran Nəsirova, Məzahir Cəlilov və Firuz Xudaverdiyev (dilənçilər), Saleh Babayev, İftixar Piriyev, Nadir Nəcəfov və Nəcəf Həsənzadə (polislər), Abbas Qəhrəmanov (Küçə müğənnisi), Ağalar Bayramov, Azad Şükürov, Rasim İmanov və Sücəddin Sadıyev (şəxslər).

Tamaşada teatrın instrumental ansamblı çalır. Dirijor Mübariz Məlikovdur.

* *Qeyd.* Conatan Piçem rolu əvvəl Səyavuş Aslana verilmişdi. O, Nəbi Xəzrinin «Mənsiz dünya» pyesinin məşqlərində Qərib Qulamı hazırladığına görə vaxt çatdırmırdı. Conatan Piçem rolu aprelin 7-də (əmr №23) Yaşar Nuriyevə tapşırıldı.

21 iyun. «Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə.

2 hissəli komediya.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rejissor Həsən Əbluc, rəssam Nazim Bəykişiyev, bəstəkar Aydın Əzimov, rəqslərin quruluşçusu Əli Əşari. Mahnı mətnlərinin müəllifi Rəhman Əlizadə.

Rollarda: Aqşin Vəlixanov və Sadıq İbrahimov (Xan), Səyavuş Aslan və Yaşar Nuriyev (Vəzir), Nəcibə Məlikova və Əminə Babayeva (Ziba xanım), Şükufə Yusupova və Zöhrə Şirinova (Şölə xanım), Firəngiz Mütəllimova və Zemfira Nərimanova (Nisə xanım), Məhluqə Sadıqova və Ətayə Əliyeva (Pəri xanım), Əliabbas Qədirov* və İlham Əhmədov (Teymur ağa), Mirzə Ağayev (Hacı Saleh), Elxan Quliyev (Ağa Bəşir), Əlvida Cəfərov (Heydər), Şahin Cəbrayılov (Kərim), Mahir Mirzəliyev (Xacə Məsud), Ramiz Novruzov (Səlim bəy), İftixar Piriyev (Səməd bəy), Abbas Qəhrəmanov (Əziz ağa), Mirzə Ağayev (Qədir bəy), Nadir Nəcəfov (Birinci şikayətçi), Saleh Babayev (İkinci şikayətçi), Firuz Xudaverdiyev (Üçüncü şikayətçi), Əlvida Cəfərov (Dördüncü şikayətçi), Məcnun Hacıbəyov (Aparıcı).

**Qeyd.* Əliabbas Qədirov məşq elədi, ancaq tamaşada Teymur ağa rolunu oynamadı.

10 sentyabr. «Mənsiz dünya», Nəbi Xəzri.

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rasim Babayev, bəstəkar Arif Məlikov.

Rollarda: Əliabbas Qədirov və Mikayıl Mirzəyev* (Mirzə Şəfi), Əlibala Nurəliyev və Sadıq İbrahimov (Mirzə Fətəli), Məlik Dadaşov və Aqşin Vəlixanov (Fridrix Bodenştedt), Amaliya Pənahova və Məhbubə Məlikova (Zübeydə xanım), Həsən Turabov və Hacı İsmayılov (Hacı Əsədulla), Məhluqə Sadıqova və Sofiya Bəsirzadə (Frau

Anna), Sevil Abbasova və Hicran Nəsirova** (Simuzər), Səyavuş Aslan və Firuz Xudaverdiyev (Qərib Qulam), Elmira Haşımzadə və Bəsti Cəfərova (Züleyxa), Səidə Quliyeva və Mətanət Atakişiyeva (Qaratel), Abbas Qəhrəmanov və İftixar Piriyev (Əkbər), Elxan Ağahüseynoğlu və Rüstəm Əliyev (Çar məmuru), Mahir Mirzəliyev (Birinci molla), Əlvida Cəfərov (İkinci molla), Mirzə Ağayev (Üçüncü molla), Sücəddin Sadıyev (Dördüncü molla), Saleh Babayev (Beşinci molla), Nəcəf Həsənzadə (Lakey), Zöhrə Şirinova, Məhbubə Məlikova, Lalə Bağırova, Məlahət Abbasova və Mehriban Abdullayeva (qadınlar).

**Qeyd.* Mikayıl Mirzəyev (Mirzə Şəfi) məşq etdi, ancaq tamaşada oynamadı.

** *Qeyd.* Hicran Nəsirova (Simuzər) məşq etdi, ancaq tamaşada oynamadı.

4 dekabr. «Tufandan əvvəl», Arif Süleymanov.

2 hissəli dram.

Quruluşçu rejissor Azər Paşa Nemətov, rejissor Həsən Əbluc, rəssam Elçin Məmmədov, bəstəkar Aqşin Əlizadə, rejissor assistenti Bəhram Osmanov.

Rollarda: Həsən Turabov və Lütfi Məmmədbəyov (Vladimir İliç Lenin), Amaliya Pənahova və Safurə İbrahimova (Krupskaya), Fuad Poladov*, Mikayıl Mirzəyev** və Nurəddin Quliyev (Əzizbəyov), Ramiz Novruzov və İlham Əsgərov (Qafqazlı), Əliabbas Qədirov və Rafael Dadaşov*** (Dan), Sadıq İbrahimov və Elxan Ağahüseynoğlu**** (Doqadov), Məlik Dadaşov və Hamlet Qurbanov (Bakı Polis İdarəsinin rəisi), Zemfira Nərimanova və Məlahət Abbasova (Məhəbbət), Ramiz Məlikov və Rafiq Əzimov (İvanov), Səyavuş Aslan və Yaşar Nuriyev***** (Mikayılov), Hacı İsmayılov (Həkim), Məzahir Cəlilov (Həbsxana gözətçisi), Firuz Xudaverdiyev (Xəfiyyə), Mahir Mirzəliyev (Birinci fəhlə), Saleh Babayev (İkinci fəhlə), Əlibala Nurəliyev (Nümayəndə), Abbas Qəhrəmanov (Yavər).

* *Qeyd.* Fuad Poladov məşq elədi, ancaq tamaşada Əzizbəyov rolunu oynamadı.

** *Qeyd.* Mikayıl Mirzəyev məşq etdi, ancaq tamaşada Əzizbəyov rolunu oynamadı.

*** *Qeyd.* Rafael Dadaşov məşq elədi, ancaq tamaşada Dan rolunu oynamadı.

**** *Qeyd.* Elxan Ağahüseynoğlu məşq etdi, ancaq tamaşada Doqadov rolunu oynamadı.

***** *Qeyd.* Yaşar Nuriyev məşq elədi, ancaq tamaşada Mikayılov rolunu oynamadı.

26 dekabr. «Kərgədan buynuzu», Maqsud İbrahimbəyov.

2 hissəli dram.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Emin Sabitoğlu, rəqslərin quruluşçusu Əli Əşari.

Rollarda: Fuad Poladov və Rafael Dadaşov* (Rauf) Safurə İbrahimova və Zöhrə Şirinova (Xalidə), Hamlet Qurbanov və Muxtar Avşarov** (Qayınata), Sofiya Bəsirzadə və Nəcibə Məlikova (Diləfruz xanım), Zemfira Nərimanova və Səidə Quliyeva (Kama), İlham Əhmədov və Ramiz Novruzov*** (Əsgərov), Səyavuş Aslan və Aqşin Vəlixanov**** (Arif), Yaşar Nuriyev***** və Hacı İsmayılov (Ağasəfa), Azərbaycan SSR Əməkdar artisti, Mirzə Ağayev və Şahin Cəbrayılov (Cavan dəllək******), Bəsti Cəfərova və Əminə Babayeva (Aliyə xanım), Elxan Ağahüseynoğlu (Həbsxana rəisi), Mahir Mirzəliyev (Nəzarətçi), Sadıq İbrahimov (Nəcəfov), Abbas Qəhrəmanov və İftixar Piriyev (Prokuror), Saleh Babayev (Vəkil), Əlvida Cəfərov (Hakim), Firuz Xudaverdiyev (Nümayəndə).

* *Qeyd.* Rafael Dadaşov məşq elədi, ancaq tamaşada Rauf rolunu oynamadı.

** *Qeyd.* Muxtar Avşarov məşq elədi, ancaq tamaşada Qayınata rolunu oynamadı.

*** *Qeyd.* Ramiz Novruzov məşq elədi, ancaq tamaşada Əsgərov rolunu oynamadı.

**** *Qeyd.* Aqşin Vəlixanov məşq elədi, ancaq tamaşada Arif rolunu oynamadı.

***** *Qeyd.* Yaşar Nuriyev məşq elədi, ancaq tamaşada Ağasəfa rolunu oynamadı.

****** *Qeyd.* Premyeradan sonra Cavan dəllək obrazının adını dəyişib Məhərrəm qoydular.

* * *

Kollektiv il ərzində altı tamaşa hazırladı. Kiçik səhnədə isə yeni əsər göstərilmədi. Siyahısı oxuculara təqdim edilən tamaşalar barədə tənqid və tərifbaxımından həm obyektiv, həm də subyektiv mövqedə duran məqalələr yazılmışdı. Teatr tamaşaçı və tamaşa planını doldurmuş, ayrı-ayrı ifaçılar mükafat da almışdılar. Bir sözlə, dəftərxana göstəricilərinə görə bütün işlər qaydasında idi. İctimai həyatdakı, sənət aləmindəki qaynar proseslər prizmasından yanaşanda həmin tamaşalarda teatrın axsayan, təəssüf doğuran məsələ və mətləbləri də üzə çıxırdı.

İlin sonunda istər-istəməz bu suallar ortalığa çıxdı: teatr yüz on dörd yaşına qədəm basdığı tamaşalarla hadisəyə çevriləcək rejissor nailiyyəti qazana bildimi? Bu altı tamaşada o zamankı ittifaq miqyasına çıxa bilən aktyor oyunu oldumu? Həmin tamaşalarda hansı gənc aktyor kəşf edildi?..

Hüseynağa Atakişiyevin baş rejissor kimi teatr ətrafında dramaturqlar toplamaq istəyi təqdiredici idi. Bu addım atılırdı, yeni pyes qəbul olunurdu və sanki bununla da iş bitirdi, dramaturq-rejissor yaradıcılıq axtarışları unudulurdu. Rəhman Əlizadənin «Günah», Maqsud İbrahimbəyovun «Kərgədan buynuzu», Vaqif Səmədoğlunun «Yayda qartopu oyunu» müasir mövzulu pyeslərinin uğursuz tamaşalarının əsas səbəbini, ilk növbədə, həmin nöqtədə axtarmaq lazımdır.

Mürəkkəb həyat hadisələri ilə qarşılaşmada insanın ikiləşməsi, ictimai-siyasi məsələlərə laqeydlik, qarşılıqlı münasibətlərdə biganəliyin törətdiyi fəsadlar Rəhman Əlizadənin «Günah» pyesində qaldırılan əsas mövzulardır. Müəllif və quruluşçu rejissor Hüseynağa Atakişiyevin öz çağdaşlarını rahatsız edən mənəviyyat probleminin bədii təcəssümünə yönəlmiş məramları yaxşı idi. Ancaq teatrın pyes üzərində müəlliflə birgə yaradıcılıq işi səmərəli alınmadı.

«Günah» pyesində ağac rəmz-obraz kimi götürülüb. Bununla bağlı verilən informasiya belədir: Loğman kişinin həyətində çox yaşlı tut ağacı var. Onun kürəkəni Böyükağa şefi Fərəməzin göstərişi ilə tut ağacının kəsilməsinə nail olmalıdır. Fərəməz burada restoran tikmək istəyir, tut ağacı onun planına mane (?) olur.

Birinci müəmma elə buradan doğurdu. Fərəməz nə üçün burada restoran tikmək istəyir? Loğmanın evinin düz kandarında (tamaşada Nazim Bəykişiyevin verdiyi tərtibatın rəssam və rejissor həlli belə idi) bitən ağac nəyə və necə mane olur? Konfliktin predmeti, başqa sözlə, tamaşada rəmz-obrazla bağlı bu kimi suallara məntiqi cavab verilmirdi. Mübarizə və onun psixoloji inkişafı müəmmalı qalmışdı.

Əgər ağacın mövcudluğu münaqişə üçün əsas səbəb kimi götürülürdüsə, bu, real olmalı, həm də bədii cəhətdən aydınlaşmalı idi. Tamaşada isə, bu fikrin dramaturji həlli görünmürdü. Hadisə-epizodlar konfliktə bağlanmamışdı. Nəticədə heç biri sona çatdırılmayan günah və onun estetik anlamı, adət-ənənəyə münasibət, ailə səadəti, halallıq... mövzularının pərakəndəliyi yaranmışdı.

Rəhman Əlizadə ilk epizodlardan obrazları rəmzlə təqdim etmişdi. Çopur (Hacı İsmayılov) qəbirqazandır, Namiq (Pərviz Bağırov) zibildaşıyan maşın sürür, Fəridə (Zərnigar Ağakişiyeva) qürbətdə yaşayır... Pyesdə rəmzlərin ayrılıqda məna və fikircə aydın olmaması tamaşada dramaturji məsələləri də kölgədə qoymuş, obrazları sxematikləşdirmişdi. Rejissor obrazların müəllif təqdimatının primitivliyə aparan cazibəsindən çıxa bilməmişdi.

Janr anlaşılmazlığı və obrazların qeyri-müəyyənliyi nəticəsində Səyavuş Aslanın (Ağəli), Yaşar Nuriyevin (Böyükağa), İlham Əhmədovun (Fərrux) yumorlu oyunları, Kamal Xudaverdiyevin (Loğman), Hacı İsmayılovun (Çopur), Məhbubə Məlikovanın (Nabat) dramatik rol təqdim etmək cəhdləri də tamaşanı cansıxıcılıqdan xilas edə bilməmişdi. Fərhad və Əsmər duetindəki məntiqsiz rejissor yozumu istedadlı gənclər Nurəddin Quliyevlə Bəsti Cəfərovanın oyunlarını səmərəsizlik həddinə endirmişdi.

Dramaturq və rejissorun premyeradan az sonra televiziyadakı çıxışlarından aydınlaşırdı ki, «günah» estetik anlayışı «Günah» tamaşasında mövzunun mayasıdır, hadisələr onun şaxələrində birləşib. Niyyət nə qədər səmərəli olsa da, tamaşada həmin şaxələrin bədii dayağı görünmürdü. Günah əyar kimi bütün vicdanları aşqarlamalı, hər fərdin mənəvi varlığını açmalıydı. Əsmər hələ dünyaya gəlməmiş övladını məhv etmək istəyir – günahdır! Böyükağa ata ləyaqətini tapdalayır – günahdır! Həyatın

mənasını yapon xoruzunun banlamasında görən Ağəli atalıq hissini itirib – günahdır! Fəridə xalqına, doğma ocağa xor baxır – günahdır!..

Tamaşada bu günahlar toplusu diqqət mərkəzinə çəkilib dramatik təcəssümünü tapsaydı, yəqin ki, «Günah»ın tamaşaçını nəyə çağırdığı, onu hansı ülvi duyğulara səslədiyi cavablanardı.

Bu il keçiriləcək görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin anadan olmasının 175 illik yubileyi münasibətilə Akademik teatr ədibin «Lənkəran xanının vəziri» komediyasını repertuara daxil etdi. 1987-ci il dekabrın 15–19-da Azərbaycan Mədəniyyət Nazirliyinin və Teatr Xadimləri İttifaqının keçirdikləri festivalda Akademik teatr bu əsərlə, Gəncə teatrı «Təbriz vəkilləri» («Mürafiə vəkilləri»), Lənkəran kollektivi «Molla İbrahimxəlil kimyagər», Şəki Dövlət Dram Teatrı «Müsyö Jordan və Dərviş Məstəlişah» komediyalarını oynadılar.

Hüseynağa Atakişiyev «Lənkəran xanının vəziri» komediyasını da Meydan teatrı prinsipində hazırlamışdı. Əslində, pyesin mövzu və süjet qurumu belə bir forma üçün əsas verir. Rejissor «göstərmə» oyun prinsipini əsaslandırmaq, söyləmə-rəvayətə rəvac vermək üçün tamaşaya Aparıcı (Məcnun Hacıbəyov) obrazı əlavə etmişdi. Onun funksiyası nə vaxtsa baş vermiş hadisənin harada vaqe «olduğunu» nəql etmək və olmuş hadisənin «oyununu çıxarmaqda» aktyorlara (meydan teatrı ifadə təbirincə – məsxərəbazlara) kömək durmaqdan ibarət idi. Məhz bu nöqtədən, ümumiyyətlə, aparıcı ilə bağlı bütün səhnələrdə rejissor tamaşa üçün vacib olan məkan-zaman bağlılığı estetik prinsipini pozmuşdu.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev «Məlikməmməd»də olduğu kimi, bir az başqa səpkidə burada da musiqidən (bəstəkar Aydın Əzimov) çox geniş istifadə etmişdi. Müəyyən məqamlarda millilik xarakter çalarlarını itirən musiqi və rəqs (quruluşçu Əli Əşari) nömrələrinin çoxluğu aktyorları çaşdırırdı. Bu həm də onların musiqi oyun prinsipində səriştələrinin az olmasından irəli gəlirdi. Aktyorlar musiqi nömrələrini ifa edəndə «oyundan» çıxırdılar və teatr üçün vacib hərəkət, dinamika pozulurdu. Halbuki sözlə deyilən, dialoqlarda hasilə çıxan, müəyyən mətləblərdən doğan ovqatı musiqi yeni qatda tamamlamalı idi. Məzəli, gülməli, şən və əyləncəli tamaşa yaratmaq rejissorun əsas məqsədi idi. Tərtibatda da Nazim Bəykişiyev buna səylə

çalışmışdı. Ancaq musiqidə ölçü hissi gözlənilmirdi, Rəhman Əlizadənin yazdığı şeir və kupletlər musiqi ilə birgə Mirzə Fətəli Axundzadənin dramaturgiyasında yad səslənirdi. Əli Əşarinin quruluş verdiyi çevik (?) rəqs ritmlərini aktyorlar tuta bilmirdilər və ümumiyyətlə, rəqsin tamaşaya nə üçün salındığı cavablanmırdı.

Tamaşanın uğur payı, əsasən, aktyorlardan Səyavuş Aslanın və Yaşar Nuriyevin (Vəzir), Nəcibə Məlikovanın və Əminə Babayevanın (Ziba xanım), Firəngiz Mütəllimovanın və Zemfira Nərimanovanın (Nisə xanım) oyunlarında idi. Onlar səhnəyə ilıq iqlim, şux ovqat gətirməklə, Axundzadə dramaturgiyasının estetik meyarlarından kənara çıxmamağa çalışırdılar. Janrın tələblərinə istinad, canlı komik obraz yaratmağa cəhd Səlim bəy, Qədir bəy, Səməd bəy, Hacı Saleh rollarının ifaçıları Ramiz Novruzovun, İftixar Piriyevin, Abbas Qəhrəmanovun və Mirzə Ağayevin oyunlarında da duyulurdu. Ancaq quruluşçu rejissorun «ikinci dərəcəli» obrazlara «ikinci dərəcəli münasibəti» mənfi təsirini göstərmişdi.

Tamaşa hazırlamaq üçün başqa respublikalardan, hətta xaricdən rejissor dəvət eləmək barədə neçə illər idi Akademik teatrda söhbət gedirdi. Bu il Almaniyadan (o vaxt ADR hələ mövcud idi. – *İ.R.*) gəlmiş rejissor Karl Qorq Kayzer və rəssam Aksel Pfefferkorn alman Bertolt Brextin və Kurt Vaylın «Üç quruşluq opera» pyesini tamaşaya hazırladılar. Əsəri Vaqif Səmədoğlu tərcümə etmişdi. Sübuta ehtiyac yoxdur ki, dünya teatrları təcrübəsində bu, faydalı təşəbbüsdür, belə qarşılıqlı bəhrələnmənin səmərələri tarix boyu görünməkdədir. Təəssüflər ki, teatr bunu ənənəyə çevirməyə çalışsa da, istəyinə nail olmadı.

Qabaqcıl teatrların bu istiqamətdə təcrübələri göstərir ki, başqa ölkədən dəvət olunan rejissor çağırıldığı kollektivin milli sənətkarlıq özünəməxsusluğunun vacib prinsiplərini ayırd edə bilməlidir. Bunlar nəzərə alınsaydı, Akademik teatrın repertuarına uzunçuluq hökm sürən daha bir tamaşa daxil olmazdı. Düzdür, ümumi baxımda tamaşada zahiri səhnə mədəniyyəti hiss olunurdu, aktyorların əksəriyyəti qüvvə əsirgəmədən işləyirdilər. Tamaşaçılar Conatan Piçem rolunda Yaşar Nuriyevin və Makxit obrazının ifasında Fuad Poladovun aktyorluq imkanlarının müəyyən mənada yeni çalarları ilə rastlaşdılar. Bununla belə, tamaşada yorucu, sərt desək, bezikdirici uzunçuluq vardı.

Bir neçə dəfə göstərildikdən və dəvət olunan quruluşçular gedəndən sonra teatrın baş rejissoru tamaşa üzərində ciddi əl gəzdirdi. Müəyyən epizodlar qısaldıldı, bəzi dialoqlar çıxarıldı, bir sıra musiqi nömrələri ləğv edildi, ancaq yorucu uzunçuluq yenə də heç bir estetik qavrama çərçivəsinə sığmırdı.

Bertolt Brext elə adında sarkazm olmayan satirik «Üç quruşluq opera» pyesini iyirminci illərin sonunda yazıb. Sonralar Kurt Vayl onun musiqisini işləyib. Pyes yazılan vaxt Brextin bu gün dünyada məşhur olan «epik teatrının» poetika xüsusiyyətləri, estetik prinsipləri hələ bərkiməmişdi, hətta skletvari qurum şəklində idi. Eyni zamanda ədibin dünyagörüşü, dünyaduyumu, sənətə münasibəti qırxıncı illərdəki Brextdən müqayisəyəgəlməz dərəcədə fərqlənirdi. Rejissor Kayzer isə Brextin hazır, formalaşmış konsepsiyasını, sənət modelini götürərək «Üç quruşluq opera» pyesini janr və üslubca ona tabe etdirməyi üstün tutmuşdu.

Özlüyündə kinayəyə çevrilən, qiyməti üç quruş səviyyəsinə endirilən «operanın» (başqa sözlə, pyesin musiqisinin) sənətkarlıqla işlənmiş musiqi obrazı var.

Bəstəkar Kurt Vaylın dramaturq Bertolt Brextin fəlsəfi-psixoloji mətninə əsaslanan kinayə, sarkazm dolu musiqisi primitivliyin, zövqsüzlüyün özünə parodiyadır. Bir neçə nəfərin orta səviyyəli bacarığı istisna edilməklə, vokal vərdişləri, aktyorların hərəkətləri, dialoqların psixoloji mahiyyətinin yeni qatda musiqi obrazının incəliklərini duya, musiqi-hərəkət psixoloji ovqatını «oynaya» bilməmələri primitivliyə gətirib çıxarmışdı.

Beş il əvvəl Akademik teatrda Ağakişi Kazımovun rejissorluğu ilə tamaşaya qoyulmuş «Mirzə Şəfi» pyesinin mövzusuna Nəbi Xəzri yenidən müraciət etdi. Faciəvi dram janrında yazılmış «Mənsiz dünya» əsərində konfliktin özəyində taleyi keşməkeşlərlə dolu olan Mirzə Şəfi Vazehin ahıl vaxtının hadisələri, Fridrix Bodenştedtlə bağlı tarixi faktlar, şairin nurlu idrakı ilə qaragüruhçuların nadanlığı, mənəvi rəzilliyi arasındakı təzadlı mübarizələr, lirik Şəfi – Zübeydə münasibətləri təsvir edilmişdi.

Dram janrının estetik qurum prinsipləri, obrazların bədiiyyatı, dialoqların yığcam və dramatik lakonikliyi baxımından «Mirzə Şəfi» ilə

müqayisədə «Mənsiz dünya»da müsbət dəyişikliklər duyulurdu. Yeni dramda Mirzə Şəfinin insani duyğularının, müdrik düşüncələrinin tərənnümçüsü olan Hacı Əsədulla və şairin qəmini, idrakların buxovlanmasına qarşı mənəvi üsyanını, mübarizədə gücsüzlüyünü, zavallılığını özündə cəmləşdirən Qərib Qulam kimi maraqlı personajlar vardı və onlarla bağlı epizodlar aktyor oyunları üçün dramatik imkanlar yaratmışdı.

İyunun 20-də premyerası oynanılan «Mənsiz dünya»nın quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, rəssamı Respublikanın Əməkdar rəssamı Rasim Babayev, bəstəkarı SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Arif Məlikov idi.

Quruluşçu rejissor Mirzə Şəfi rolunu Əliabbas Qədirova və Mikayıl Mirzəyevə tapşırmışdı. Mikayıl çılğın, dərdli-qayğılı Şəfini oynamağa çalışırdı. Məşqlər bir qədər gərgin, aktyor və rejissor arasında yaradıcılıq mübahisələrinə səbəb olsa da, maraqlı gedirdi, Mirzəyev səylə çalışırdı. Premyera ərəfəsində obrazın təfsir yozumunun müəyyən məqamlarında rejissorla fikirləri üst-üstə düşmədi və nəticədə Mikayıl Mirzəyev rolu oynamaqdan imtina etdi.

Məşqləri diqqətlə izlədiyim üçün təəssüflə deyə bilərəm ki, tamaşaçıların onun ifasında sanballı səhnə obrazı ilə rastlaşmaq imkanı qırıldı.

Əliabbas Qədirov obrazı zahirən sakit, qayğılı, baxışlarından kədər süzülən, daxilən isə rahatsız, burulğanlarla çarpışan şair-mütəfəkkir oynayırdı. Aktyorun səsinin yapışığı, diksiyasının aydınlığı üç variasiyada köklənmişdi: şair Vazeh, müəllim, ağsaqqal, filosof Vazeh, məhəbbət duyğuları saf olduğu qədər də təravətli Vazeh. Əliabbas Qədirov hər epizodda səsinin aparıcı məna dəyərinə uyğun da jest-hərəkətlər, səhnə davranışı tapmışdı.

Səhnənin ən ucqar nöqtələrində, aktyorlara əks-qütblərdə mizan verməyi xoşlayan Mərahim Fərzəlibəyov Mirzə Şəfi – Zübeydə xanım, Mirzə Şəfi – Hacı Əsədulla epizodlarında romantik və realistik teatr oyun üslublarının bütöv estetik birliyini pərakəndəlikdən xilas edə bilmədiyinə görə həmin səhnələrdə təəssürat bir qədər aşağı düşürdü.

Romantik və realist oyun üslubu öz ifasında rejissor sapıntılarından qoruya bilmiş Həsən Turabovun ifası bütövlükdə tamaşanın iqli-

mini tənzimləyirdi. Turabovun asta yerişi, təmkinli danışığı ilə pauzalardakı hərəkət tapıntıları harmonik oyun təəssüratı doğurur, fəci hadisələrin görünməyən tərəflərinin dəhşətlərinin, ürək giziltilərinin ab-havasını səhnəyə gətirirdi. Aktyor Hacı Əsədulla obrazının hərəkət ritmi ilə hadisələrə uyğun psixoloji dəyişmələri arasında üzvi əlaqəni məharətlə təqdim edirdi.

Aktyor nailiyyətləri baxımından Səyavuş Aslanın realist-fəci cizgilərlə, həmişə dramatik-psixoloji tarımda ifa etdiyi Qərib Qulam cazibədarlığı, xarakter bütövlüyü ilə seçilirdi. O, yumorun kiçicik elementindən də istifadə etmədən realist oyunla səmimi insan obrazı yaradırdı.

Səhnədəki hadisələrin lirizm qolunu təcəssüm etdirən Səidə Quliyeva və Mətanət Atakişiyeva (Qaratel), Sevil Abbasova (Simuzər), konfliktin özəyində duran hadisələrin təmsilçilərini oynayan Məlik Dadaşov və Aqşin Vəlixanov (Fridrix Bodenştedt), Əlibala Nurəliyev və Sadıq İbrahimov (Mirzə Fətəli), Sofiya Bəsirzadə və Məhluqə Sadıqova (Frau Anna) bütöv ansamblın yaranmasına inamla səy göstərirdilər.

Epizodik rolların işlənməsində rejissor yenə də tələskənliyə yol vermişdi. Buna görə də bəzi epizodlarda (məsələn, çar məmuru ilə, mollalarla, Əkbərlə bağlı səhnələr) ansambl baxımından əsas ifaçılarla onlar arasında əlaqəsizlik hiss olunurdu. Halbuki hadisələrin bütöv qavranılması üçün aktyor ansamblının da bütövlüyünün vacibliyi sübuta ehtiyacı olmayan həqiqətdir. Kütləvi səhnələrə və epizodik rollara Mərahim Fərzəlibəyovun da ciddi yanaşmadığı monumental səpkili «Atabəylər», «Torpağa sancılan qılınc» və digər tamaşalarda da hiss olunacaq dərəcədə qabarıqdır.

Yarım ilin yekununda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin əlaqədar şöbəsindən teatra irad tutuldu ki, Oktyabr inqilabının 70 illik yubileyinə tamaşa hazırlanmayıb. Kollektivə təklif edilən tərcümə əsərlərindən heç birini rəhbərlik bəyənmədi. Payızda Arif Süleymanov «Tufandan əvvəl» pyesini teatra verdi. Müəllif indiyədək görüb-oxuduğumuz mövzunu Azərbaycanın o dövrki ictimai-siyasi hadisələrinin fonunda vermiş, əsas diqqəti xalqımızın mənəvi bütövlüyünün, kişilik, mərdlik, ləyaqət, əxlaq kateqoriyaları göstəri-

cilərinin bədii təcəssümünə yönəltmişdi. Lenin, Krupskaya, Əzizbəyov mövzuları ikinci-üçüncü plana keçmiş, ictimai vəhdət deyil, sosial-psixoloji münasibətlərin təzadları konfliktin məhvərinə salınmışdı.

Pyesi tamaşaya hazırlamaq üçün Gənc Tamaşaçılar Teatrından Azər Paşa Nemətov quruluşçu rejissor dəvət olundu. Həsən Əbluc ona rejissor, Bəhram Osmanov isə rejissor assistenti təyin edildilər. Azər Paşa başqa teatrlarda ondan çox tamaşada bir yerdə işlədikləri Elçin Məmmədova «Tufandan əvvəl»in bədii tərtibatını, Dövlət mükafatı laureatı Aqşin Əlizadəyə bəstəkar işini tapşırdı.

Gərgin və səmərəli məşqlər sayəsində dinamik ritmli, mövzu ağırlığı yüngülləşdirilmiş, ideya və məqsədlər bilavasitə aktyor oyununda həllini tapmaqla səhnə obrazı çevikləşmiş tamaşa meydana çıxdı. İlk tamaşası dekabrın 4-də oynanılan əsərdə Azər Paşa Nemətovun səliqəsi, janrın realizəsi üçün maraqlı kompozisiya qurmaq bacarığı özünü göstərmişdi. Rəssam Elçin Məmmədovun sadə tərtibatında aktyorların səhnə davranışları sərbəstləşmişdi.

«Tufandan əvvəl» tamaşasındakı Mikayılov rolunda teatrsevərlər Səyavuş Aslanın yaradıcılığının yeni, maraqlı, dramatik çalarları ilə rastlaşdılar. Aktyor Bakı milyonçusu Mikayılovu indiyədək vərdiş etdiyimiz «xasiyyətlərdən» təmizləyərək ləyaqətini uca tutan, qarşısındakılara insani xilqətinə, mənəviyyatlarına görə qiymət verən, əqidəsində satılmayan mürəkkəb xarakterli obraz kimi təqdim edirdi. Səyavuş Aslan pauzalarla və biçimli sifət ifadələri ilə oynadığı epizodlarda səmimi və inandırıcı idi.

Xalq artisti Məlik Dadaşovun Polis rəisi, Əməkdar artist Əliabbas Qədirovun Dan, Hacı İsmayılovun Həkim, aktrisa Zemfira Nərimanova və Məlahət Abbasovanın Məhəbbət, Ramiz Novruzovla İlham Əhmədovun Qafqazlı rollarındakı ifaları tamaşanın uğurlu aktyor oyunlarındakı ansambl bütövlüyünü təminatlandırırdı.

Bəstəkar hər aktyorun səhnə davranışının sürət-ritminə və obrazın məzmununa uyğun musiqi mövzu-leytmotivi işləmişdi və rejissor da onun icrasında estetik ölçülərin dəqiqliyini gözləməyə çalışmışdı. Aktyorlar da öz oyunlarında musiqinin mövzusunu hərəkətlərlə tamamlamağa diqqət verirdilər.

Dalbadal üç tarixi mövzudan sonra teatr müasirlərimizin mənəvi-əxlaqi problemlərindən bəhs edən, sosial gərginliklərə toxunan «Kərgədan buynuzu» pyesini yaradıcılıq prosesinə buraxdı. Bu, Maqsud İbrahimbəyovun «Ümid» («Mezozoy əhvalatı») pyesindən sonra Akademik teatra təqdim etdiyi ikinci dram əsəri idi. «Ümid» isə doqquz il əvvəl oynanılmışdı. 1976-cı ildən sonra teatrla görüşə nasir-dramaturq Maqsud İbrahimbəyov eyniadlı povesti əsasında yazdığı «Kərgədan buynuzu» pyesi ilə gəlmişdi. İlk müqayisədə povest pyesdən güclü çıxmışdı və nəsrdən gələn təsvir, dialoq uzunçuluğunun dinamikanı azaltdığı, obrazların psixoloji münasibətlərindəki dramatizmi dramda zəiflətdiyi aydın hiss olunurdu. Əsərin oxunuşunda bu və bu kimi nöqsanlar göstərildi, eyni zamanda tapşırıldı ki, quruluşçu rejissor müəlliflə işində bunlara diqqət yetirsin.

Hüseynağa Atakişiyev tamaşanın bədii tərtibatını Solmaz Haqverdiyevaya, musiqisini Emin Sabitoğluna tapşırdı. Rəqslərin quruluşunu Əli Əşari verdi. Dekabr ayının 24-də «Kərgədan buynuzu» tamaşasının daxili baxışı oldu və ictimai müzakirə keçirildi. «İndiki vəziyyətdə tamaşanı göstərmək olmaz» fikri üzərində daha çox dayanıldı. Təklif olundu ki, quruluşçu rejissora bir həftə vaxt və əlavə məşqlər üçün səhnə verilsin, söylənilən səmərəli tənqidlərin aradan qaldırılması təminatlandırılsın. Mədəniyyət Nazirliyinin tamaşanı qəbul edən komissiyasının səhərisi çıxardığı (?) qərarla iki gün sonra dekabrın 26-da «Kərgədan buynuzu» tamaşasının premyerası oynanıldı.

Tamaşanın sürət-ritmi tapılmamışdı və ölgün dinamikada köklənmiş səhnə əsərinin gedişi dörd saata yaxın vaxt çəkirdi. Nə bəzi aktyorların cəhdləri, nə də Emin Sabitoğlunun ifadə baxımından tamaşanın mövzusundan kənara çıxan estrada-caz elementli oynaq musiqisi yoruculuğu aradan qaldıra bilmirdi.

Quruluşçu rejissor «Kərgədan buynuzu»nun janrını dram adlandırsa da, ümumi kompozisiyada və aktyor oyununda həmin prinsiplər pozulmuşdu. Aktyorlardan yalnız Səyavuş Aslan (Arif) və nisbətən Fuad Poladov (Rauf) janrın poetikasını gözləyə bilmişdilər.

Özlüyündə nisbətən maraqlı (təəccüblü olsa belə) görünən «açıq teatr» oyun üslubu müstəntiq otağında, məhkəmə prosesində, həbsxanada... ümumi kompozisiyada boşluqdan asılı qalırdı, daşıdığı fikir

yükü aydınlaşmırdı və yenə dram janrının heç bir ölçüsünə sığmırdı. Pyesdə olmayıb, tamaşada gen-bol işlənilən rus kəlmələri, replikalar mətnin ciddiliyinə, sətiraltı psixoloji dərinliyə balta çalırdı.

Aktyorların əksəriyyətinin mətnə, dialoqlara əsaslanmayan illüstrativ hərəkətləri ayrı-ayrı epizodlarda təklif olunan vəziyyətlərdən kənarlaşmaya aparırdı. İnstitut tələbəsi Kamanın (Zemfira Nərimanova) Raufla (Fuad Poladov) küçədə görüşündə dramaturq iki qütbün mənəvi mahiyyətini qarşılaşdırıb vəziyyəti pardaqlamaq, sonrakı epizodlara keçid yaratmaq niyyətindədir.

Ancaq aktrisanın oyununda və quruluşçu rejissorun səhv yozumunda «məişət pozğunu» rəngindən başqa ayrı rəng, deməli, həm də ayrı fikir-məna görünmürdü.

Həbsxanada Raufla Nəcəfovun (Sadıq İbrahimov) ağ paltarda, sürrealist estetikası forma-rənglərində təqdimi, Əsgərovun (İlham Əhmədov) tamaşada mövqeyinin, daşıdığı yükün qeyri-müəyyənliyi və aktyorun hər səhnədə müxtəlif ləhcə ilə danışığı, sirk akrobatlarına bənzəyən ölçüsüz-biçimsiz əl-qol hərəkətləri janr qarışıqlığını lap dolaşdırırdı. Elxan Ağahüseynoğlunun həbsxana rəisinin mətnə əsaslanmayan küt, əbləh kimi təqdimi, Raufun təsvirindəki sarkazmın şitləndirilməsi, ümumiyyətlə, dramdakı kinayəli ictimai yumorun məişət məsxərəsi dairəsində həlli məntiqsizliyi artırmışdı.

«Kərgədan buynuzu» tamaşasındakı ayrı-ayrı qüsurlar ideya qeyri-sabitliyinə, ali məqsədin aydınlaşmamasına, üslub qarışıqlığına, vacib mövzunun «şikəst» yozumuna, ansambl pərakəndəliyinə zəmin yaratmışdı. Bütün bunların əsəri qavramağa mane olduğuna görə tamaşa uğursuzluqdan xilas ola bilmədi.

Bu tamaşadakı ciddi uğursuzluğu Hüseynağa Atakişiyevin baş rejissorluq kürsüsündə əyləşməsinə ciddi zərbə oldu. Teatr ictimaiyyətinin şübhəli qənaətləri də qətiləşdi. Təəssüf ki, uduzan yenə teatr oldu, «Həyatın dibində», «Böyük Romul», «Lənkəran xanının vəziri», «Günah», «Kərgədan buynuzu» tamaşalarında, «Məlikməmməd» nağıl-tamaşasında ciddi forma nailiyyətləri, yaradıcılıq qələbəsi sayıla biləcək aktyor oyunu ilə rastlaşmadıq. Halbuki Hüseynağa Atakişiyev Şəki teatrındakı fəaliyyətini elə həmin istiqamətdə, o üslub-formaya uyğun kollektivdə davam etdirsəydi, həm onun özünə,

həm də bütövlükdə milli teatr həyatımıza, yəqin ki, faydası dəyərdi. Onun sonralar, Dövlət Gənclər Teatrında müəyyən uğurları da bunu sübut etdi.

Təcrübə-eksperiment göstərdi ki, Tofiq Kazımovun yaratdığı məktəbin estetik göstəricilərinin birdən-birə inkarı, yaxud onun əleyhinə getmək heç cürə sərfəli deyil və bəhrə verə bilməz...

Bu ilin fevral ayında Respublikanın Xalq artisti Həsən Turabov kollektivin açıq seçkisi ilə teatra direktor təyin olundu. Tezliklə daxili nizam-intizamda, digər inzibati məsələlərdə müsbət yeniləşmə işartıları görünməyə başladı. Ümumilikdə görüləsi işlər hələ həddindən çox idi. Sırf yaradıcılıq məsələlərinə birbaşa cavabdehlik isə baş rejissorun üzərində idi. Hüseynağa Atakişiyev bu vəzifədə işlədiyi üç il müddətində teatrın yaradıcılıq iqlimində yüksəlişə doğru işıqlı dəyişikliklər edə, addımlar ata bilmədi.

* * *

Yubiley. Yanvarın 30-da Akademik teatrda SSRİ Xalq artisti, Stalin mükafatı laureatı Sidqi Ruhullanın anadan olmasının 100 illik yubileyi keçirildi.

Qastrol. Teatr «Çahargah fantaziyası» ilə Ağdaşa dördgünlük səfərdən sonra Sumqayıt şəhərində teatr günləri keçirdi. Günlərdə (26 – 29 noyabr) kollektiv «Büllur sarayda», «Nişanlı qız», «Günah» tamaşalarını oynadı.

Yarımçıq işlər. Ağakişi Kazımov «Od gəlini» faciəsindən əvvəl Norveç dramaturqu Henri İbsenin (1828 – 1906) «Nora» («Kukla evi») dramı barədə fikirləşirdi. Mənimlə söhbətlərində tamaşanın qayəsi, məqsədi barədə fikirlərini söyləmişdi. Teatrın rəhbərliyi 1987-ci il fevralın 17-də üç saylı əmrlə «Nora» pyesinin hazırlanması, yaradıcı qrupu müəyyənləşdirməsi üçün Ağakişi Kazımovu quruluşçu rejissor təyin etdi. Əsərin tərcüməsi üçün sərəncam verildi və Ağakişi Kazımov nasir-dramaturq Mirzə İbrahimovla danışdı, ümumi razılığa gəlindi. Rejissor əsas obraz Noranı Amaliya Pənahovaya, Kruqstadı Məlik Dadaşova, digər rolları Fuad Poladova, Safurə İbrahimovaya, Muxtar Avşarova... tapşırmaq niyyətində idi. Üç aydan sonra qərara alındı ki, «Nora» bu ilin repertuar planına daxil edilməsin. İldən-ilə

keçdiyindən, Ağakişi Kazımov ayrı tamaşalar hazırladığından və sonra Gənc Tamaşaçılar Teatrının Azərbaycan bölməsinə baş rejissor təyin olunduğu üçün bu təşəbbüs həyata keçmədi.

İlin başlanğıcında gənc rejissor Bəhram Osmanov Kiçik səhnədə S.Startiyevin SSRİ-nin müxtəlif teatrlarında çox oynanılan «Avtobus» pyesinin məşqlərinə başladı. Əsas rolları Yaşar Nuriyev (Ağıllı), Firəngiz Mütəllimova (Məşuqə), Sadıq İbrahimov (Ər), Telman Adıgözəlov (Virtuoz), Zərnigar Ağakişiyeva (Arvad), Ramiz Novruzov (Məsuliyyətsiz)... məşq edirdilər. Baş məşqlər ərəfəsində Bəhram Osmanov paralel olaraq, yazıçı Seyran Səxavətin «Qızıl teşt» povestinin səhnələşdirilməsi üzərində işləyirdi. Mövzunun aktuallığı, müasir dramatik faciənin vacibliyi nəzərə alınaraq teatr rəhbərliyinin xüsusi əmri ilə «Avtobus»un məşqləri dayandırıldı. Rejissor sonra həmin əsərə qayıtmadı. 1995-ci ildə Bəhram Osmanovdan bunun səbəbini soruşdum. Həmin pyesdəki mövzu-problematika aktuallıq baxımından bu gün onun maraq dairəsinə uyğun gəlmədiyini söylədi.

Truppada dəyişmə. Ümidverən gənclər Füzuli Hüseynov aprelin 9-da və Məlahət Abbasova avqustun 30-da Akademik teatrın kollektivinə aktyor götürüldülər. Hərbi xidmətdən yenicə qayıtmış, «Şüşə heyvanxana» (Tennessi Uilyams) diplom tamaşası ilə Milli teatra tanış olan Bəhram Osmanov direktor Həsən Turabovun təşəbbüsü ilə rejissor qəbul edildi. Dördillik fasilədən sonra Əsgər Məmmədoğlu noyabrın 24-də yenidən teatra qayıtdı. Uzun illər Lənkəran Dövlət Dram Teatrında işləmiş, Əməkdar artist Əlinazir (Nazir) Əliyev də dekabrın 1-dən Akademik teatrın aktyoru oldu.

Baş rəssam Solmaz Haqverdiyeva sentyabrın 11-də işini Azərbaycan Dövlət Kukla Teatrına eyni vəzifəyə dəyişdi. Elə həmin gün Akademik teatra onun yerinə baş rəssam Elçin Aslanov təyin olundu.

İnzibati dəyişmə. Fevralın 16-da Əli İsmayılov Mədəniyyət Nazirliyinə işə keçməsi ilə əlaqədar direktorluqdan çıxdı. Teatrda seçki keçirildi. Fevralın 18-də olan seçkidə kollektiv Həsən Turabovu teatra direktor seçdi.

Fəxri adlar. 1987-ci il mart ayının 20-də kollektivin üzvlərindən bir neçə nəfər Azərbaycan Respublikasının fəxri adları ilə təltif olundular.

Xalq artisti: Fuad Ağarəhim oğlu Poladov.

Əməkdar incəsənət xadimi: rejissorlar Ağakişi Şamməd oğlu Kazımov, həmçinin Akademik teatrla yaradıcılıq əlaqəsi saxlayan Azər Paşa Zəfər oğlu Nemətov.

Əməkdar artist: Mikayıl Şahvələd oğlu Mirzəyev və Rafael Məlik oğlu Dadaşov.

Əcəl aldı... Görkəmli aktrisa Hökümə xanım Qurbanovanın qızı, məktəbli ikən Şekspirin «Qış nağılı»nda Mamilya rolu ilə səhnəyə çıxmış (1955), teatrşünaslıq fakültəsinin dördüncü kursunda Tofiq Kazımovun təşəbbüsü ilə «Məhv olmuş gündəliklər» tamaşasındakı Fəridə rolu ilə həmişəlik səhnəyə bağlanmış Vəfa Fətullayeva ağır xəstəliyə düçar olmuşdu. Moskvada ana qohumu, müğənni Müslüm Maqomayevin köməkliyi ilə müalicədən sonra qışın axırlarında həvəslə teatra gələn, «səhnə üçün elə darıxmışam, elə darıxmışam... vallah, lap burnumun ucu göynəyir, səhnənin yanından keçəndə...» deyən Vəfa Nüsrət qızı Fətullayeva yazda vəfat etdi (25 avqust 1945 – 21 may 1987). Qırx iki il ömür sürən aktrisadan oynadığı rollar, bir də şaqraq gülüşü xatirələrə hopmuş təbəssümlü çöhrə yadigar qaldı.

1935-ci ildən Akademik teatrda tərtibatçı rəssamlıqla işə başlamış Xalq artisti, Stalin və Azərbaycan Dövlət mükafatları laureatı Nüsrət Fətullayev (29 may 1913 – 1 sentyabr 1987) əbədiyyətə qovuşdu. Burada, həmçinin baş rəssam işləmiş Nüsrət Fətullayev yüzdən artıq tamaşaya bədii tərtibat verib. Bunların arasında «Donanmanın məhvi» (Aleksandr Korneyçuk), «Skapenin kələkləri» (Jan Batist Molyer), «Gizli döyüş» (Tur qardaşları), «Pəri cadu» (Əbdürrəhim bəy Haqverdiyev), «Rəqs müəllimi» (Lope de Veqa), «Otello», «Qış nağılı» (Uilyam Şekspir), «Almaz», «Sevil», «Oqtay Eloğlu», «Od gəlini», «1905-ci ildə» (Cəfər Cabbarlı), İsmayıl Axundovla birgə «Vaqif» (Səməd Vurğun), «Səyavuş», «Şeyx Sənan» (Cavid), «Dumanlı Təbriz» (Məmməd Səid Ordubadi), «Qatır Məmməd» (Zeynal Xəlil), Stalin mükafatı almış «Şərqin səhəri» (Ənvər Məmmədxanlı), Respublika Dövlət mükafatına layiq görülmüş «Mahnı dağlarda qaldı» (İlyas Əfəndiyev) tamaşalarının bədii tərtibatları monumentallıqları ilə seçilirlər.

Dramaturqlar. Rəhman Balarza oğlu Əlizadə (19.12.1947). Azərbaycan dramaturqu. Mərdəkanda doğulub, Azərbaycan Dövlət

İncəsənət İnstitutunda təhsil alıb. Satirik şeirler müəllifidir və «Laləli düzən», «Kəndimizin narları», «Don Kixot Abşeronski», «Dadaşbala əməliyyatı», «Doğmalar», «Günah», «Sabah çoxdan başlayıb», «Dünyanın axırı», «Bəxtimin kələyi», «Ay dəli», «Əzrayıl», «Bilqamus əfsanəsi», «Sindibadın xoşbəxtlik adasına səyahəti» komediya və dramları, uşaqlar üçün «Hamam hamam içində», «Damdabaca» pyesləri var.

Bertolt Brext (10.2.1898 – 14.8.1956). Alman yazıçısı, ictimai və teatr xadimi, dramaturq. «Berliner ansambl» teatrının yaradıcısıdır. «Ana» (Maksim Qorkinin «Ana» romanı əsasında), «Kuraj ana və uşaqları», «Qalileyin həyatı», «Artur Uinin karyerası», «Üç quruşluq opera» (musiqisi Kurt Vaylındır), «Qafqaz təbaşir dairəsi», «Sezuanlı mehriban adam», «Puntilla və onun xidmətçisi»... dramlarının müəllifidir.

Arif Süleymanov ixtisasca tarixçi olub və uzun illər Partiya Tarixi İnstitutunda çalışıb. «Tufandan əvvəl» onun yeganə dram əsəridir. Müəllif tamaşanın premyerası ərəfəsində vəfat edib.

1988-ci il

5 fevral. Kiçik səhnədə. «Günəbaxanlar», Rafiq Səməndər.

2 hissəli dram.

Quruluşçu rejissor Həsən Əbluc, rəssam Solmaz Haqverdiyeva, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Məcnun Hacıbəyov (Rəşid kişi), Telman Adıgözəlov və Pərviz Bağırov (Fotoqraf), Məhbubə Məlikova (Zərifə), Mirvari Novruzova (Gülbacı), Elxan Quliyev (Eyvaz, Mirzə və Cabir), Elxan Ağahüseynoğlu (Sahə müvəkkili), Mirzə Ağayev (Sürücü).

9 aprel. «Bizim qəribə taleyimiz», İlyas Əfəndiyev.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Elçin Aslanov, bəstəkar Emin Sabitoğlu, rejissor assistenti Mehriban Ələkbərova (Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun diplomçusu).

Rollarda: Həsən Turabov və Əliabbas Qədirov (Kamran), Amaliya Pənahova (Nərmin), Muxtar Avşarov və Məzahir Cəlilov (Kərəm dayı), Füzuli Hüseynov və İftixar Piriyev* (Samir), Məlahət Abbaso-

va (Nərgiz), Rafael Dadaşov (Cəmil), Safurə İbrahimova və Şükufə Yusupova (Zərxanım), Firəngiz Mütəllimova və Səidə Quliyeva** (Mələk), Nurəddin Quliyev (Cavanşir), Yaşar Nuriyev və Abbas Qəhrəmanov*** (Davud), Mirzə Ağayev**** və Əsgər Məmmədoğlu (Musa), Mikayıl Mirzəyev və Rafiq Əzimov (Rəhmanzadə), Əlibala Nurəliyev və Mahir Mirzəliyev (Muradov), Bürcəli Əsgərov (Ataxan), Səyavuş Aslan və Aqşin Vəlixanov***** (Fəriş), Elxan Ağahüseynoğlu və Əlvida Cəfərov (Cümü), Rüstəm Əliyev (Müstəntiq), Saleh Babayev (Barmen), Sevil Xəlilova və Mehriban Abdullayeva (Sənubər), Firuz Xudaverdiyev (Cəmilin qonağı).

* *Qeyd.* İftixar Piriyev məşq elədi, ancaq tamaşada Samir rolunu oynamadı.

** *Qeyd.* Səidə Quliyeva məşq elədi, ancaq tamaşada Mələk rolunu oynamadı.

*** *Qeyd.* Abbas Qəhrəmanov məşq elədi, ancaq tamaşada Davud rolunu oynamadı.

**** *Qeyd.* Mirzə Ağayev məşq elədi, ancaq tamaşada Musa rolunu oynamadı.

***** *Qeyd.* Həmçinin Aqşin Vəlixanov məşq elədi, ancaq tamaşada Fəriş rolunu oynamadı.

7 may. «Qızıl teşt», Seyran Səxavət.

2 hissəli müasir faciə.

Quruluşçu rejissor Bəhram Osmanov, rejissor Ramiz Məlikov, tərtibat rəssamı Elçin Aslanov, geyim rəssamı Ənvər Qarayev, bəstəkar Adil Bəbirov.

Rollarda: Məhluqə Sadıqova (Güləndam), Muxtar Avşarov (Qədim), Həsən Turabov* və Kamal Xudaverdiyev (Hüseynov), Bürcəli Əsgərov** və Elxan Ağahüseynoğlu (Dəmirov), Ramiz Novruzov (Toğrul), Nazir Əliyev*** (Kamil), Yaşar Nuriyev (Xanəhməd), Rafiq Əzimov (Aleksandr Petroviç), Abbas Qəhrəmanov (Qara), Məcnun Hacıbəyov (Qaranın atası), Məzahir Cəlilov (Məlikov), Zərnigar Ağakişiyeva (Qəbula gələn qadın), Şükufə Yusupova (Sosialist əməyi qəhrəmanı), Əsgər Məmmədoğlu (Quliyev), Məlahət Abbasova (Katibə), Səidə Quliyeva (Diliş), Pərviz Bağırov (Alqış), Şahin Cəbrayılov və Elxan Quliyev (Qarğış).

* *Qeyd.* Həsən Turabov məşqlərdə bir qədər iştirak etdi, ancaq direktor kimi qayğıları çoxaldığına görə rolu tam hazırlaya bilmədi. Proqram tərtib ediləndə hələ proqon məşqlər başlanmamışdı və rejissorun fikrincə, Turabov rolu bir neçə məşqə hazırlayıb səhnəyə çıxa bilərdi. Ancaq aktyor Hüseynov rolunu ifa etmədi.

** *Qeyd.* Bürcəli Əsgərov məşq elədi, ancaq Dəmirov rolunu tamaşada oynamadı.

*** *Qeyd.* Aktyorun əsl adı Əlinazirdir. Proqramlarda «Nazir» yazdırıb. Hərdən «Nazir Kərimoğlu», «Əlinazir Kərimoğlu» da verilib.

2 iyun. Kiçik səhnədə. «Dəfn edilməmiş ölülər», Jan Pol Sartr. Tərcümə edəni Rəfiq Zəka Xəndan.

Psixoloji dram.

Quruluşçu rejissor Mehriban Ələkbərova, rəssam Ənvər Qarayev, musiqi tərtibatçısı Mübariz Məlikov.

Rollarda: Şükufə Yusupova (Lüsi), Ramiz Məlikov (Jan), Ramiz Novruzov (Anri), Vaqif Cabbarov (Sorbye), Abbas Qəhrəmanov (Fransua), Saleh Babayev (Kanoris).

24 sentyabr. «Qanlı Nigar», Sadiq Şendil.

3 hissəli komediya.

Tərcümə edəni və quruluşçu rejissor Vaqif Həsənov, rəssam Tərlan Qorçiyev, rejissor assistenti Rüstəm Əliyev.

Rollarda: Yaşar Nuriyev, Azərbaycan SSR Əməkdar artisti, Respublika Lenin komsomolu mükafatı laureatı (Abdi), Rüstəm Əliyev və Mahir Mirzəliyev (İstinyeli), Əlibala Nurəliyev və Elxan Ağahüseynoğlu (Agah), Amaliya Pənahova, Azərbaycan SSR Xalq artisti, Respublika Dövlət və Lenin komsomolu mükafatları laureatı və Hicran Mehbalıyeva (Nigar), Zöhrə Şirinova və Firəngiz Mütəllimova (Nədidə), Bəsti Cəfərova və Sevil Xəlilova (Bədidə), Əminə Babayeva (Bacı), İlham Əhmədov və İlham Əsgərov (Narçın), Əsgər Məmmədoğlu və Firuz Xudaverdiyev (Əcəm), Telman Adıgözəlov və Mirzə Ağayev (Laz).

15 oktyabr. «Yayda qartopu oyunu», Vaqif Səmədoğlu.

Bir az qəmli komediya.

Quruluşçu rejissor Hüseynağa Atakişiyev, rəssam Nazim Bəykişiyev, bəstəkar Aydın Əzimov, rejissor Həsən Əbluc.

Rollarda: Ətayə Əliyeva və Zərnigar Ağakişiyeva* (Adilə xanım), Füzuli Hüseynov və Ramiz Novruzov** (Adil), Zemfira Nərimanova və Zöhrə Şirinova (Ayna xanım), Hacı İsmayılov (İmanov), Sofiya Bəsirzadə (Tacmahal), Hamlet Qurbanov və Elxan Ağahüseynoğlu (Əmir), Səidə Quliyeva və Məhbubə Məlikova (Mərmər), Nazir Əliyev və Rüstəm Əliyev (Bahadur), İftixar Piriyev və Mahir Mirzəliyev (Niftalı), Elxan Ağahüseynoğlu (Ziyad), Elxan Quliyev və Şahin Cəbrayılov (Məmmədağa), Mirzə Ağayev (Molla Mahmud), Saleh Babayev (Səbzəli), Əlvida Cəfərov («Bülbül»).

* *Qeyd.* Zərnigar Ağakişiyeva məşq elədi, ancaq Adilə xanım rolunu tamaşada oynamadı.

** *Qeyd.* Ramiz Novruzov məşq elədi, ancaq Adil rolunu tamaşada oynamadı.

6 noyabr. «Qadın faciəsi», Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin.

2 hissəli faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Zemfira Əliyeva, musiqi tərtibatçısı İlham Abdullayev, səs rejissoru Cahangir Əliyev rəqslərin quruluşçusu Yulana Əlikişizadə.

Rollarda: Elmira Haşımzadə (Yerma), Məhluqə Sadıqova (Dolores), Mirvari Novruzova (Dinsiz qadın), Nurəddin Quliyev (Xuan), Sofiya Bəsirzadə (Birinci qadın), Ətayə Əliyeva (İkinci qadın), Məhbubə Məlikova (Üçüncü qadın), Ramiz Novruzov* və Oqtay Quliyev (Viktor), Sevil Abbasova (Mariya), Mahir Mirzəliyev (Birinci kişi), İlham Əsgərov və Tərlan Tahirov (İkinci kişi), Mehriban Abdullayeva (Birinci rəfiqə), Mehriban Xanlarova (İkinci rəfiqə), Nəcəf Həsənzadə və Sücəddin Sadıyev (Qarımış baldız).

**Qeyd.* Ramiz Novruzov məşq elədi, ancaq Viktor rolunu tamaşada oynamadı.

* * *

İlin ilk aylarında Azərbaycan Respublikasının siyasi həyatında gözlənilməz partlayışlar baş verdi. Əvvəl-əvvəl sosial problemlər səviyyəsində qəbul olunan konflikt aylardan, illərdən sonra uzunmüddətli Azərbaycan – Ermənistan müharibəsinə çevrildi.

Sözsüz ki, ictimai-siyasi həyatın iqlimi tədricən həm açıq, gözəgörünməz şəkildə, mədəniyyət və incəsənətin fəaliyyət prosesinə, ayrılıqda hər bir növünə təsir göstərdi. Teatr da həmin təsirdən kənarda qalmadı. İlk növbədə, repertuarı sabitləşdirmək üçün teatrın portfelinə qəbul olunan pyeslər tez-tez dəyişirdi.

1988-ci il siyasi prosesin başlanğıcı olduğundan onun teatra açıq təsiri ilk baxışda nəzərə çarpmırdı. Bu il repertuar siyasətinin müəyyən məqamları və məramları ötən il Həsən Turabovun teatra direktor seçilməsindən başlanmışdı.

İyirmi il əvvəl Xalq yazıçısı, nasir və dramaturq İlyas Əfəndiyevin «Unuda bilmirəm» pyesi Akademik teatrda böyük uğurla tamaşaya qoyulmuşdu. Gənclərin mənəvi-estetik tərbiyəsində böyük rol oynayan «Unuda bilmirəm» tamaşasında əsas aparıcı surətlər təmizqəlbli, bir qədər şıltaq», həyatın sərt sınağında büdrəyən Nərmin (Amaliya Pənahova), əsl vətəndaşlıq mövqeyi uğrundakı mübarizəsində ictimai amalı bütün şəxsi duyğudan uca tutan Kamran (Həsən Turabov) idi. Tamaşa bu iki gəncin şirin, ülvi arzuları üzərində köklənən və acı, kədərli sonluqla bitən məhəbbətləri haqqında lirik-psixoloji hekayət idi.

Öz pyeslərində məhəbbət-ailə, cəmiyyət kontekstində mürəkkəb insan xarakterləri yaradan İlyas Əfəndiyev iyirmi ildən sonra «Unuda bilmirəm» əsərinin mövzusuna, süjetinə yenidən müraciət etdi. Sevimli qəhrəmanları Kamranla Nərminin sonrakı taleləri, müdrik sənətkarın «Bizim qəribə taleyimiz» adlandırdığı psixoloji dramın konfliktinin özəyində saxlanmışdı. Müəllifin «qəribə» adlandırdığı talenin sosial axarında güclü həyat məntiqi dururdu.

Tamaşaçılar, xüsusən 1968-ci ildə Kamran və Nərmin yaşda olanlar «Bizim qəribə taleyimiz»ə istər-istəməz maraq göstərirdilər. Çünki «Unuda bilmirəm»dəki həzin məhəbbət hekayəti unudulmur. Ancaq ilk baxışda vaxtilə «Unuda bilmirəm»i görənlərdə sual da doğurdu: Nərmin Cəmilə ərə getdi, Kamran Borçalıda prokuror işləyir. Görəsən, Kamran və Nərmin ömrünün «qəribə taleyi» yeni dramaturji materialda hansı istiqamətdə verilib?

İlyas Əfəndiyev «Bizim qəribə taleyimiz» əsərində çağdaş ictimai-psixoloji, mənəvi-əxlaqi, ictimai-sosial hadisələrin mahiyyətini

bütün ziddiyyətləri ilə vermək, cəmiyyət və şəxsiyyət, insan və zaman problemlərini dramatik konfliktə çəkmək üçün Kamranla Nərminin həyatından bədii vasitə kimi istifadə edib. Mənəviyyatsızlığın, ləyaqətsizliyin təkcə insanlara deyil, iqtisadiyyata, cəmiyyətin sosial iqliminə vurduğu zərbələrin aşkarlıq siyasətinin gur işığında necə dəhşətli göründüyünü açıqlamaq dramaturqun başlıca məqsədi kimi qabarıqlaşırdı.

Haram yolla pul qazanmaq ehtirası ülvi duyğuları parçalayır. Cəmil (Rafael Dadaşov) kimi istedadlı adamlar belə nazir səviyyəsinə qədər yüksəlsələr də, haramlıq ehtirası onların gözlərini pərdələyir, insani duyğularda kirəcləşmə gedir, müqəddəslik, ideallıq ölür. Onun yerində rəzillik, riyakarlıq, saxtakarlıq cücərir.

Harama dadanmaq yaltaqlığa meydan açmaqdır. Bu meydanda at sulayan Cümü (Əlvida Cəfərov) kimilər üçün namus hər şeydən əvvəl puldur. O bilir ki, arvadı Zərxanım (Safurə İbrahimova və Şükufə Yusupova) ailə namusunun çox da səbatlı keşikçisi deyil, Cəmil – Zərxanım münasibətlərinin gizli mahiyyətini duyur. Ancaq Cümünün qətiyyətli addım atmağa cəsarəti çatmır, çünki riyakarlıq, ikiüzlülük yaltaqlıq onun xarakterini, iradəsini parçalayıb. Buna görə də tamaşada Cümü kimilər cəmiyyətimiz üçün təhlükəli «yaralar» kimi səciyyələndirilirdi.

Harama dadanmaq fərdi el-obaya qarşı qoyur. Ataxan (Bürcəli Əsgərov) otuz ildir sovxoz direktorudur. Əvvəllər yaxşı işləyən, lakin ildən-ilə yalanın ayaq tutub yeridiyini görən Ataxan təsərrüfat göstəricilərində rəqəmləri şişirdir. Rəqəmlər şişdikcə, onun da şöhrəti şişir, haramlıq xərçəng kimi mənəviyyatını yeyir. Ataxan vətən qeyrətindən dəm vurur, amma torpağın namusunu əsl övlad, vətəndaş kimi çəkmir. Oğluna on iki otaqlı mülk tikdirir, amma əliqabarlı kəndliyə özünə bir koma qaraltmağa imkan vermir.

Tamaşanın doğurduğu ilkin təəssüratda bütün bu mənfiliklər, rəzilliklər ifşa olunur. Ancaq İlyas Əfəndiyevin yazıçı rahatsızlığının, vətəndaş harayının kökləri daha dərin qatlara işləyir. Fərişlərin, ataxanların, cümülərin çürük «fəlsəfəsi» gənclərin mənəviyyatlarını zəhərləyib. Onların övladları Musa (Əsgər Məmmədoğlu), Mələk (Firəngiz Mütəllimova), Cavanşir (Nurəddin Quliyev) həyatın mənа-

sını yalnız konyak şüşəsində, bədənlərinə morfi yeritməkdə, anaşa çəkməkdə görürlər. Rejissor yozumunda və aktyor oyunlarında bu hərəkətlər onların insani duyğularını kütləşdirir, əqidələrini zəhərləyir, mənəviyyatlarında çürümə başlayır.

Kamran Bakıya inzibati orqanlara mühüm işə gəlib. Daxili duyğularında biri-birini unutmayan ahıl Kamran və yaşa dolmuş Nərmin taleyin qismətindən yenə görüşürlər. Bu görüş həzin xatirələrdən su içsə də, xeyirxahlığa, Nərminin oğlu Samirin gələcək həyat yoluna körpüdür.

Kamran rəzilliyin, ikiüzlülüyün, rüşvətxorluğun qarşısında sarsılmaz və alınmaz qaladır. «Bizim qəribə taleyimiz» tamaşasının quruluşçu rejissoru Mərahim Fərzəlibəyovun təfsirində və Kamran rolunun ifaçıları Həsən Turabov və Əliabbas Qədirovun aktyor məqsədlərində də bu ideyanın daha qabarıq verilməsi əsas götürülmüşdü.

Həsən Turabovun oyununda «Unuda bilmirəm» tamaşasındakı Kamranın müəyyən hərəkətləri, davranışı hiss olunurdu. Bu hiss olunmada Kamranın ictimai mövqeyi, insanlıq ləyaqəti, mübarizliyi, mənəvi vicdanın təmizliyi daha aydın nəzərə çarpır və birbaşa tamaşanın ali məqsədinə, əsas ideyasına xidmət edirdi. Həsən Turabov Kamranın səhnələrində, xüsusən Nərminlə bağlı epizodlarda daha çox fəlsəfi dərinliyə əsaslanırdı. «Kamranın hərəkətləri emosionallıqla yoğrulsa da, əsas aparıcısı ağlın düzgün qənaətidir. Samir və Nərgizlə söhbətlərində Həsən Turabov Kamranın atalıq, böyüklük duyğularını, daxili qürurunu ön plana çəkirdi. Narkomanlarla dialoqda tamaşaçı təkcə inzibati işçi yox, bu faciənin kökünü axtaran, ürəkağrısı keçirən vətəndaş-ata görürdü. Cəmillə, Ataxanla, Fərişlə, Zərxanımla dialoqlarında Kamran torpaq, xalq, vətən qeyrəti çəkən vətəndaş kimi nəzəri cəlb edirdi. Öz obrazının psixoloji dönüşlərini rəngarəng çalarlarla yaradan Həsən Turabovun ifasının kökündə lirizm hopmuş dərin realizm vardı.

Əliabbas Qədirov isə Kamran obrazına qatı dramatiklik verirdi. Kamran hislərinin burulğanında özü daha çox əzab çəkir, tamaşaçı onun gərginliyini hər məqamda hiss edirdi.

«Bizim qəribə taleyimiz» tamaşasında duet-obrazlar vardı. Kamran – Nərmin dueti keçmişin kövrək xatirələri və günün mürəkkəb hə-

yat hadisələri üzərində köklənib. Samir – Nərgiz dueti romantik duyğuların, ülvi arzuların məhvərində fırlanırdı. Nərgiz Məlahət Abbasovanın, Samir isə Füzuli Hüseynovun Akademik teatrda ilk böyük işləri idi. Buna görə də tənqid onların oyunlarındakı xırda qüsurlardan yan keçərək teatrın bu təşəbbüsünün ümumilikdə səmərəli olduğunu və bəyənildiyini ayrıca vurğulayırdı.

Mələk – Davud dueti təravətli yumoru, satirik kəsəri ilə hər epizoda şuxluq gətirirdi. Bu təravət, bu şuxluq bilavasitə Yaşar Nuriyevlə Firəngiz Mütəllimovanın aktyorluq məharəti ilə bağlı idi.

Bütöv, bitkin aktyor oyunu baxımından Səyavuş Aslanın (Fəriş), Rafael Dadaşovun (Cəmil), Rafiq Əzimovun (Rəhmanzadə) ifaları da diqqəti cəlb edirdi.

Həmin dövrdə deyilişi və fəaliyyəti dəbdə olan yenidənqurmanın, aşkarlığın bədii-estetik təcəssümü baxımından «Bizim qəribə taleyimiz» tamaşası cəmiyyətimizin neqativ hallarını tənqid etməklə yanaşı, məhəbbət haqqında poetik nəğmə, insanlıq ləyaqəti barədə ənənə ilə səsləşən müasir söz təsiri bağışlayırdı.

Milli səhnə sənətimizdə açıq teatr (başqa sözlə, tamaşaçı ilə publisist mükalimə) oyun üslubuna ilk dəfə müraciət edən Akademik teatr oldu. Birinci addım görkəmli nasir və dramaturqumuz, o dövrdə on beş pyes müəllifi İlyas Əfəndiyevin «Bizim qəribə taleyimiz» dramının tamaşası ilə atıldı. Açıq teatrın bədii göstəriciləri, üslub prinsipləri, ifadə vasitələrinin çevikliyi, mütəhərrikliyi «Qızıl teşt» tamaşasında əsərin yaradıcılarının başlıca qayəsinə çevrildi. Əlbəttə, tamaşanın dəyəri bilavasitə açıq teatrın sənət şərtlərinin bədii məntiqə, ali məqsədə, əsas ideyaya yüksək sənətkarlıqla xidmətinin estetik təcəssümündədir.

Açıq teatrın, yəni publisist teatrın başlıca məziyyətlərindən biri odur ki, ən kəskin və ən çağdaş ictimai bəlalara ziddiyyətli, təzadlı, mürəkkəb həyat hadisələrinə müraciət etməklə, yeni-yeni janrlara əsaslanır. «Qızıl teşt»in janrı «müasir faciə» kimi müəyyənləşdirilmişdi. Son iyirmi ildə nəsrimizdə, hətta poeziyamızda bu janrın sənət nümunələri yaranıb, ancaq teatrda müasir faciə birinci dəfə idi oynanılırdı. Bəlkə, elə ilk addım olduğuna görə rejissor və müəllif povestin drama çevrilməsinə daha cəsarətlə girişmişdilər.

Seyran Səxavət rejissor Bəhram Osmanovla nəsr əsərinin səhnə variantını yaradanda publisist povest-pyes formasına əsaslanmışdılar. Onlar publisistikanın açıqlığını, müstəqimliyini saxlamaqla yanaşı, dramatik kəsəri fəlsəfi-psixoloji məcrada axtarmışdılar. Publisist səhnə povest-pyesi dairəsində də tamaşanın dərin ictimai-sosial yüklü «müasir faciə» janrı müəyyənləşmiş, onun poetika göstəriciləri açıq teatr oyun üslubuna xidmətə yönəldilmişdi.

Mövzunun publisist təqdimatı musiqi (Adil Bəbirov) və tərtibat (Elçin Aslanov) müəlliflərini də janrın poetika xüsusiyyətlərinin tələblərini gözləməyə tabe etdirmişdi. Pərdə açılan kimi gördüyümüz məkanın həm illüstrativ, həm rəmzi məna daşıyan, həm sırf real detalları, eləcə də musiqinin ilk notundan tutmuş son təranəsinə qədər hər şey publisist deyim istiqamətində idi. Faciəvilik səviyyəsinə qaldırılan «müasir faciə» janrının məna çaları musiqidə, tərtibatda gah açıq şəkildə, gah da «gizli», «örtülü» halda (yəni ikinci, üçüncü planda, incə mətləblərdə), diqqətə çatdırılmaqla, bütöv halda tamaşanın psixoloji ovqatının mayasında dururdu.

Tamaşa janr poetikasının bütün qatlarda incəliklə realizə olunması, kompozisiya bütövlüyü, fərdi aktyor oyunları, bütünlükdə ansamblın ali məqsədə, əsas ideyaya ana xətt boyu xidməti, bir də rejissorun dəstxəttinin bitkinliyi, ifadə vasitələrinin çoxmənalılığı ilə dəyərlənirdi.

Fərdi məişət qatında obrazların mikroaləmlərinin müəyyən tərəfləri üzə çıxırdı. Bir növ ayrılıqda hər surətin fərdi duyğularından ictimai mühitə pəncərə açılırdı. İctimai qatda ayrılıqda hər fərdin cəmiyyət-şəxsiyyət probleminə münasibətlərinin və mövqelərinin mahiyyəti üzə çıxırdı. Fərdi-məişət, ictimai və sosial qatların bütün toqquşma və kəsişmə nöqtələrində, paralel inkişaflarında, hətta meyiletmə bucaqlarında psixoloji qat münasibətlərin, hadisələrin məhvərində dururdu.

Belə bir rejissor yozumunda səhnə ilə tamaşaçı salonunun ünsiyyətindəki publisist çalar daha da artırdı. Mizanlar da elə verilmişdi ki, dramatizmin yüksək gərginlik nöqtəsinə çatdığı məqamlarda Hüseynov (Kamal Xudaverdiyev), Xanəhməd (Yaşar Nuriyev), Diliş (Səidə Quliyeva) öz suallarına cavabı sanki birbaşa tamaşaçı salonundan istəyirdilər. Bəhram Osmanovun verdiyi mizanlar, qurduğu hərəkət monoloqları, hərəkət dialoqları, pauzalar, epizod keçidləri incə dəqiq-

liyi, parlaqlığı, əsas ideya ilə harmonik inkişafına görə diqqəti cəlb edir, aktyor oyununu təravətləndirir, cazibəni artırırdı.

Xanəhməd dramaturqun hayqıran səsi, publisist ideyalarının psixoloji daşıyıcısıdır. Həm həssasdır, həm haqsızlıqdan danışanda çılğındır, həm də xarakterində bamәzəlik var. Həmin bamәzəlik Yaşar Nuriyevin aktyor şirinliyi ilə yoğrularaq Xanəhmədin davranışına təravət, yapışıqlıq gətirir, sözün əsl mənasında, obrazı koloritləşdirirdi. O, səhnədə tək olduğu epizodlarda bütün ifadə vasitələrindən sərbəstliklə bəhrələnirdi. Hadisələrin dalğavari inkişafına uyğun olaraq əsas vasitə kimi gah hərəkətlərə, gah da danışığa üstünlük verirdi. Bəzən isə hər iki vasitədən paralel istifadə edirdi. Söz-hərəkət-söz keçidlərində aktyor sərbəstliyini saxlayır, bunu peşəkarlıqla keçir, Xanəhmədin psixoloji gərginliyinin düzgün təqdimatına zərrəcə xələl gəlmirdi.

Kamal Xudaverdiyevin təqdimatında Hüseynov mürəkkəb psixoloji dönüşlərdən keçən obraz idi. Aktyor xalq arasında qorxu, vahimə yaratmış Hüseynovu zahiri və daxili tutumu ilə təqdim edirdi. Ramiz Novruzovun Toğrul, Zərnigar Ağakişiyevanın Qadın, Səidə Quliyevanın Diliş, Muxtar Avşarovun Qədim, Məhluqə Sadıqovanın Güləndam rolları tamaşanın faciə notlarını təravətlə canlandırırdı.

Təcrübə göstərdi ki, «müasir faciə» janrında, publisist dərinliklə tamaşa hazırlamaq səmərəlidir.

Vaqif Həsənov (İbrahimoğlu) Türkiyədən yaradıcılıq ezamiyyətindən qayıtdıqdan sonra Akademik teatrda türk ədibi Sadıq Şendilin «Qanlı Nigar» komediyasını tamaşaya qoydu. Rəssam Tərlan Qorçiyevin miniatür elementləri əsasında zərif, asanlıqla müxtəlif formalara düşərək məkanları dəyişən tərtibat verdiyi «Qanlı Nigar» şux, oynaq, məzəli və düşünməyə vadar edən komediya idi (bax: 1).

Komediyada gülüşün məna və əhəmiyyətini bir neçə qatda qurmağı xoşlayan Vaqif İbrahimoğlu aktyor oyununda hazırladığı tamaşada Yaşar Nuriyevin (Abdi), Amaliya Pənahovanın (Nigar), Bəsti Cəfərovanın (Bədidə), Zöhrə Şirinova və Firəngiz Mütəllimovanın (Nədidə), Telman Adıgözəlovun və Mirzə Ağayevin (Laz), Mahir Mirzəliyevin (İstinyeli), İlham Əhmədovla İlham Əsgərovun (Narçın) oyunlarının dadı, məzəsi nə qədər xoş idisə, Qaravəlli poetikasından bacarıqla bəhrələnənlərin nəticələri bir o qədər təravətli idi. Yaşar

Nuriyev – Amaliya Pənahova dueti tamaşanın bel sütunu, ağırlıq mərkəzi idi. Hər iki aktyor güclü fiziki hazırlıq tələb edən ekssentrik ifanın çətin sədlərini ustalıqla keçirdilər.

«Qanlı Nigar» tamaşasının bədii tərtibatı da Akademik teatrın səhnəqrafiya ənənələri baxımından təzə və təravətli idi. «Rəssam Tərlan Qorçiyev rejissor konsepsiyasını səmərəli və ifadəli etmək üçün sərt müstəvilər qurur. Şaquli müstəvi bir neçə çərçivə müstəviyə bölünür və kölgə teatrı burada ifadə olunur. Səhnəyə gələn aktyorlar isə o çərçivələri mənimsəyib, vaxtaşırı bu çərçivələrdə öz fiqurları ilə miniatürü andıran kompozisiyalar yaradırlar» (2).

İl yenicə başlayanda Mədəniyyət Nazirliyinin sərəncamı ilə Hüseynağa Atakişiyev baş rejissorluqdan çıxarıldı. Teatr bir il baş rejissorsuz qaldı. Atakişiyev sıravi rejissor kimi on dörd ayda bir əsər tamaşaya hazırladı.

Akademik teatra ilk müraciəti olan Vaqif Səmədoğlu «Yayda qartopu oyunu» komediyasını teatra ötən ildən vermişdi. Hüseynağa Atakişiyev məşqlərə yazda başlayıb tamaşanı oktyabrda təhvil verdi. Tamaşanın rəssamı Nazim Bəykişiyev, bəstəkarı Aydın Əzimov idi.

Bir az qəmli komediya janrında yazılmış «Yayda qartopu oyunu» pyesindən gələn obrazların illüstrativ rəsmi, hadisələrin zahiri əlamət cizgiləri, konfliktin müəllif «istəyi» ilə gərginləşməsi, uzunçuluq, dialoqların zəifliyi tamaşada da təkrarlanmışdı. Tamaşaçılar Ayna xanım (Zemfira Nərimanova), Tacmahal (Sofiya Bəsirzadə), Əmir (Hamlet Qurbanov), Bahadur (Nazir Əliyev) obrazlarını dramatik kolliziyalarda, konfliktə bağlı əməl-fəaliyyətdə görmürdülər.

Dramaturqa görə, ətrafdakı obrazların mənəviyyatlarının açılmasında, mürəkkəb insani münasibətlərin təzadlı rənglərlə təqdimatında Adil (Füzuli Hüseynov) surəti ilə qarşılaşma katalizator, mütəhərrik çevikliyində olmalıdır. Ancaq quruluşçu rejissorun sentimental janr yozumunda və aktyorun məntiqsiz tələqqisində Adilin zavallı yox, miskin yazıqlığını oynadığına görə istənilən niyyətin bədii, səmərəli nəticəsi alınmadı.

Teatr öz yaradıcılığında, ilk dəfə olaraq, ispan şair-dramaturqu Federiko Qarsia Lorkanın (1898 – 1936) yaradıcılığına müraciət edərək ədibin dünya şöhrətli «Yerma» faciəsini Mərahim Fərzəlibəyovun

quruluşunda «Qadın faciəsi» adı ilə tamaşaya qoydu. Şair-tərcüməçi Teymur Elçinin çevirməsində səhnədə göstərilən əsərin rəssamı Zemfira Əliyeva, musiqi tərtibatçısı İlham Abdullayev, səs rejissoru Cahangir Əliyev, rəqslərin quruluşçusu Yulana Əlikişizadə idi.

İstər teatrın, istərsə də quruluşçu rejissorun 1933-cü ildə yazılmış mürəkkəb kolliziyalı, fəlsəfi dəyərli, o dövrün bəzi izmlərinin nəzəri prinsiplərini özündə əritmiş «Yerma» faciəsinə müraciəti cəsarətli addım idi. Ancaq baş rolun uğursuzluğu bu cəsarətin inamlı sənət nailiyyətinə çevrilməsinə zəmin yaratmadı. Əvvəla, Yerma obrazının ifaçıdan tələb etdiyi yüksək, faciə notlu səs tembri, daxili ehtirası hərəkətlərdə «əritmək» bacarığı, güclü fiziki-texniki fəndlər Elmira Haşımzadənin yaradıcılıq potensialında lazımi səviyyədə deyildi. Digər tərəfdən, bir halda ki, rejissor müəllifin qayəsinin bədii təsdiqini aktrisa Elmira Haşımzadədə görmüşdü, onda gərək tamaşanın ümumi kompozisiyasını da həmin imkanlar dairəsində həll edəydi. Tamaşada isə rejissorun belə bir səydə bulunması görünmürdü. Ona görə də Sofiya Bəsirzadənin (Birinci qadın), Mirvari Novruzovanın (Dinsiz qadın), Məhluqə Sadıqovanın (Dolores), Nurəddin Quliyevin (Xuan) daxili təmkinlə, dramatik gərginliklə oynadıqları obrazların epizodları baş mövzuya qaynayıb-qarışmırdı.

Mərahim Fərzəlibəyov bu tamaşada qurduğu kompozisiyanı, yaratmaq istədiyi iqlimi axıra çatdırmamışdı. İlk baxışda hər şey yerliyerində görünən «Qadın faciəsi» tamaşasında Lorkanın bir qədər mistik, fəlsəfi faciəsinin qaynar ruhuna darıxdırıcı soyuqluq çökmüşdü. Rəssamın hadisələrin ruhuna uyuşmayan dekor rəngləri bu soyuqluğu artırırdı.

Rejissor Həsən Əbluc «Kölgələrin oyunu» tamaşasından sonra yenə Kiçik səhnədə hazırlamaq üçün Rafiq Səməndərin «Günəbaxanlar» pyesini götürdü. Məşqlər 1987-ci ildə başlandı, arada səhnənin məşğulluğu ilə bağlı məşqlər dayandırıldı. 1988-ci il yanvarın 28-də «Günəbaxanlar» əsərinin ilk tamaşası oynanıldı. Yığcam, kamera xarakterli, birhissəli tamaşanın rəssamı Solmaz Haqverdiyeva, bəstəkarı Cavanşir Quliyev idi.

Dramın kövrək süjeti vardı. Rəşid kişi namuslu, vicdanlı, torpağa bağlı adamdır. İki oğul, bir qız böyüdüb, ömür-gün yoldaşını itirib,

nəvələri var. Ancaq onu heç kəs yoluxmur. Gecə-gündüz torpaqla əlləşən Rəşid kişi günəbaxan becərib və arzusu budur ki, onları nəvələri gəlib dərsinlər. Arzusu Rəşid kişinin ürəyində qalır.

Quruluşçu rejissor pyesə səhnədə kövrək məişət dramı janrında təfsir vermişdi. Tərtibat da, musiqi də, ümumi kompozisiya, aktyor oyunu da həmin janrın bədii-estetik tələblərinə xidmətə yönəldilmişdi.

Rəşid kişi rolu Məcnun Hacıbəyova tapşırılmışdı. Aktyor maraqlı obraz yaratmışdı və finalı, xüsusilə cazibədar oynayırdı. Rəşid kişi – Məcnun Hacıbəyov səhnədə təkdir. O, günəbaxanlarla, eyni zamanda gəlib çıxmayan nəvələri ilə danışır. Hətta hansı günəbaxanı necə dərməyi nəvələrinə göstərir. Aktyor bu səhnəni Rəşidin aldanmış duyğularına təskinlik vermək və ümidinin nə vaxtsa, günəbaxanlar kimi çiçəklənəcəyinə inam hisləri ilə oynayırdı.

Rejissor Rəşid kişinin tənhalığını nisbətən unutduran Fotoqraf (Telman Adıgözəlov), Sahə müvəkkili (Mirzə Ağayev) ilə bağlı epizodları mayasında kövrəklik duran yumorla işləmişdi. Həmin səhnədə Telman tənha babanın mənəvi faciəsini duya-duya komik boyaları tündləşdirməklə, həmsöhbətinin dərdlərini unutdurmaq istəyini maraqlı oynayırdı.

Epizodik rol prinsiplərini janrın tələbləri baxımından düzgün müəyyənləşdirdikləri üçün Mirvari Novruzovanın (Gülbacı), Məhbubə Məlikovanın (Zərifə), Elxan Quliyevin (Eyvaz, Mirzə, Cabir) oyunlarındakı aktyor məqsədi tamaşanın ali məqsədinə xidmətə yönəlirdi.

Kiçik səhnədə iki tamaşa hazırlaması Həsən Əblucun əsas səhnədə rejissorluğuna təminat yaratdı.

İyunun 11-də Kiçik səhnədə daha bir premyera oldu. Rejissorluq fakültəsinin diplomçusu Mehriban Ələkbərova buraxılış imtahanı üçün fransız dramaturqu Jan Pol Sartrın «Dəfn edilməmiş ölülər» faciəsini Rəfiq Zəka Xəndanın tərcüməsində tamaşaya hazırladı. Tamaşanın tərtibatı Ənvər Qarayevə, hadisələrə uyğun musiqi seçmək isə Mübariz Məlikova tapşırılmışdı.

Eksperiment xarakterli, müəyyən kirəcləşmiş səhnə «qanunlarını» sındıran tamaşada Şükufə Yusupova (Lüsi), Ramiz Məlikov (Jan), Ramiz Novruzov (Anri), Abbas Qəhrəmanov (Fransua) aktyor «sərbəstliyi» qazanmaqla müəyyən oyun tərzini sınaqdan çıxarırdılar.

Geniş repertuar üçün planda tutulmayan və cəmi bir dəfə oynanılan «Dəfn edilməmiş ölülər» tamaşasında Mehriban Ələkbərova mövzuya cəsarətlə girişməsi, aktyorların vərdiş etmədikləri yeni ifadə vasitələrindən istifadə cəhdi, axtarışa meyilli olması ilə nəzərdə qaldı.

Bu il Akademik teatrın kollektivindən uzaqlaşan aktyor olmadı. Teatra yuxarıdan olan ideoloji basqılar (təzyiqlər) nisbətən azaldı, mövzu seçiminə müəyyən mənada sərbəstlik yarandı.

1988-ci ilin fevralında Azərbaycan Respublikasının Dağlıq Qarabağ problemi ilə bağlı ağrılı günləri başlandı. Meydan hadisələri, on minlərlə iştirakçısı olan mitinqlər, ayrı-ayrı siyasi qüvvələrin toqquşması, qədim İrəvan qəzasından azərbaycanlıların kütləvi qovulması, Bakıda, sonralar müxtəlif rayonlarda yaranmış qeyri-stabillik istər-istəməz teatr həyatına, onun canlı orqanizminə, repertuar siyasətinə də müəyyən təsir göstərdi.

* * *

Qastrol. Teatr məqsədli qastrola çıxmadı, ancaq Sabirabad və Saatlı rayonlarında Rəhman Əlizadənin «Günah» (27 – 30 yanvar), Kərim Kərimovun «Çahargah fantaziyası» (7 – 10 fevral), Bərdədə Bəxtiyar Vahabzadənin «Kimdir haqlı?» (28 – 30 aprel), Beyləqanda İlyas Əfəndiyevin «Büllur sarayda» (11 – 13 may), Sabirabad, Saatlı, Əli Bayramlı və İmişlidə «Büllur sarayda» (14 – 21 iyun), Şamaxıda Kərim Kərimovu «Çahargah fantaziyası» (16 – 9 mart) pyeslərinin tamaşalarını oynadı.

Yarımçıq işlər. Yanvarın 7-də 1 nömrəli əmr verildi: İspan dramaturqu Lope de Veqanın «Aşiq, həm də ağıllı» (tərcümə Tofiq Bayramındır) pyesi üzərində iş başlanılsın. Quruluşçu heyət aşağıdakı kimi təsdiq edilsin: Quruluşçu rejissor – Ağakişi Kazımov, rəssam – Vladimir Juyko, bəstəkar – Leonid Vaynşteyn, rəqslərin quruluşu – Xumar Zülfüqarova.

On iki gün sonra quruluşçu rejissorun təqdimatına əsasən (əmr №4, 19 yanvar) rol bölgüsü də elan olundu. Nəcibə Məlikova və Zərnigar Ağakişiyeva (Belisa), Hicran Mehbalıyeva və Bəsti Cəfərova (Fenisa), Məlik Dadaşov və Muxtar Avşarov (Kapitan), Fuad Poladov və

Nurəddin Quliyev (Lyusindo), Səyavuş Aslan və Telman Adıgözəlov (Ernando) və ilaxır.

Martda əsərin adı dəyişdirilib «Hiyləgər məşuqə» adlandırıldı, bir sıra ifaçılar dəyişdirildi. Ağakişi Kazımov Leninqraddan (indiki Sankt-Peterburq) dəvət olunmuş rəssam Vladimir Juyko ilə xeyli işlədi, müəyyən maketlər hazırlandı və onlardan biri hazırda Akademik teatrdadır. Teatrın yay məzuniyyətinə çıxmaq ərəfəsində «indi komediya oynamaq düz çıxmaz» təkidləri ilə «Hiyləgər məşuqə»nin məşqlərinə xitam verildi.

Martın 20-də (əmr № 21) dramaturq-bəstəkar Ruhəngiz Qasımovanın «Şahnaz» pyesi üzərində plandan əlavə, Kiçik səhnədə hazırlıq işinə başlamaq üçün yaradıcı heyət və rol bölgüsü təsdiqləndi. Əsərə quruluş vermək üçün teatrın sınaqdan çıxarmaq istədiyi gənc rejissor Elmira Məlikova dəvət olundu. O, tərtibatı rəssam Kamal Şıxəliyevə tapşırdı və musiqi bəstələnməsini Ruhəngiz xanım öz öhdəsinə götürdü. Mikayıl Mirzəyev Fərid, Ətayə Əliyeva Məryəm, Sadıq İbrahimov Mirəli, Hamlet Qurbanov Dədə, Sofiya Bəsirzadə Ana, Hacı İsmayılov İbrahim, İlham Əhmədov Ziya Mahmudoviç, Zemfira Nərimanova Tela, Şükufə Yusupova və Zöhrə Şirinova Şahnaz rollarında məşqlərə başladılar. Bir neçə ifaçı məşq prosesində roldan rola keçirildi. Böyük məşq otağındakı ilkin hazırlıqdan Kiçik səhnədə mizan məşqlərinə keçəndə müəlliflə rejissor arasında anlaşılmazlıq yarandı. Tərəflərdən heç biri güzəştə getmək addımını atmadığından məşqlər dayandırıldı. Ruhəngiz xanımın başlanmış işi rejissor Vaqif İbrahimoğlu ilə sona çatdırmaq arzusu da baş tutmadı.

Teatrın direktoru Həsən Turabovun şəxsi təşəbbüsü ilə Moskvanın yaradıcılığı üzdə olan rejissorlarından Pavel Xomski Bakıya dəvət olundu. O, Akademik teatrın repertuarındakı tamaşalara baxdı, aktyorların qabiliyyəti və istedadlarının yönü ilə tanış oldu. Qərara alındı ki, Roman Solntsevin kəskin psixoloji konfliktli «Səmada sükunət» pyesini Akademik teatrda tamaşaya hazırlansın. Quruluşçu rejissor təsdiqlənən Xomskinin təklifi ilə rejissor M.Mamilovanın rəssam M.Rıbasovanın olmaları barədə əmr verildi. «Səmada sükunət» tamaşasının hazırlanmasına Həsən Turabov və Kamal Xudaverdiyev (Maxonin), Safurə İbrahimova (Faya), Sofiya Bəsirzadə

(Lyovuşkina), Səyavuş Aslan (Qneuşev), Yaşar Nuriyev (Parmonov), Lütfi Məmmədbəyov və Muxtar Avşarov (Orlov), Ramiz Məlikov (Kurgin), Amaliya Pənahova (Laletina), Telman Adıgözəlov (Nikitenko), Rafael Dadaşov (Popov), Mikayıl Mirzəyev (Müəllif), Zemfira Nərimanova (Popova) və digər müxtəlif yaş nəslinə mənsub aktyorlar cəlb olundular.

Məşqlər çox sürətlə, səmərəli və maraqlı keçirdi. Siyasi hadisələrin dalğası Pavel Xamskini öz işini yarımçıq qoymağa vadar etdi. Nə qədər təəssüfdoğurucu olsa da, tam cəsarətlə deməliyəm ki, teatr cazibədar, xaraktercə yeni aktyor oyunları, təzə rejissor dəst-xətti ilə tamaşaçıların qarşısına çıxmaq imkanını itirdi.

Bu hadisə Moskva mətbuatında hallandı və Həsən Turabovun keçmiş SSRİ-nin başqa respublikalarından, xarici ölkələrdən dəvət etdiyi rejissorların Bakıya gəlməsində əngəl yaratdı.

Teatr neçə il idi Şekspirdən tamaşa hazırlayıb repertuara daxil etmək istəyirdi. Oktyabrın 25-də Bəhram Osmanov 39 saylı əmrlə «Afinalı Timon» əsərinin məşqlərinə başladı. Azərbaycan teatrının ilk dəfə müraciət etdiyi bu faciənin səhnə rəssamlığı Tahir Salahova, bəstəkarlığı Adil Bəbirova tapşırıldı. Noyabr ayının 10-da (əmr №42) ifaçıların siyahısı tam dəqiqləşdirilib kollektivə elan edildi: Timon – Kamal Xudaverdiyev, Lutsi – Aqşin Vəlixanov, Lukull – Hamlet Qurbanov, Semproni – Məcnun Hacıbəyov, Alkiviad – Məlik Dadaşov və Ramiz Məlikov, Apemant – Səyavuş Aslan, Flavi – Yaşar Nuriyev, Ventidi – Əliabbas Qədirov və Hacı İsmayılov, Rəssam – Ramiz Novruzov, Zərgər – Rafiq Əzimov, Timandra – Zemfira Nərimanova, Verronun nökəri – İlham Əsgərov.

Bəhram Osmanov «Afinalı Timon»un hazırlanmasına əsər barədə mövzu, özünün rejissor məqsədi haqqında aktyorlarla söhbətdən başladı. Pyesin tərcüməsi Tofiq Bayramdan alınıb o vaxt Mərkəzi Komitədə işləyən bir nəfərə verildi. Onun tərcümə dili rejissoru heç cür qane etmədi, müştərək redaktə işi də baş tutmadı. Yenə uduzan teatr oldu.

Tərcümə üzərində iş gedəndə vaxt boşluğundan səmərəli istifadə etmək üçün Bəhram Osmanov Üzeyir bəy Hacıbəylinin «Şah Abbas və Xurşidbanu» pyesini hazırlamağa cəhd göstərdi (17 noyabr, əmr

№44). Bakıda komendant saatlarının tətbiqi teatrın fəaliyyətində bir sıra yaradıcılıq işlərinə, o cümlədən Üzeyir bəyin əsərinin məşqlərinə əngəl törətdi.

Akademik teatrın səhnəsində quruluş verdiyi «Səhra yuxuları» (Anar), «Qanlı Nigar» (Sadıq Şəndil), öz teatr-studiyasında hazırladığı silsilə tamaşalarla teatr ictimaiyyətində ciddi maraq oyadan Vaqif İbrahimoğlu Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» faciəsini hazırlamaq və Qacar rolunu Həsən Turabova vermək fikrini nəhayət açıq bəyan etdi. Noyabrın 28-də əmr verildi, ancaq Vaqifin Türkiyəyə tamaşa hazırlamağa dəvəti, sonralar teatrın təmirə bağlanması bu işi başlamağa imkan vermədi.

Truppada dəyişmə. Lənkəran Dövlət Dram Teatrının aktrisası Münəvvər Əliyeva (bir il əvvəl teatra aktyor götürülmuş Əlinazir Əliyevin arvadı) əvvəl Akademik teatra texniki işçi, bir qədər sonra, noyabrın 16-da isə aktrisa götürüldü.

Əcəl aldı... Uilyam Şekspirin «On ikinci gecə», «Qış nağılı», «Antoni və Kleopatra» əsərlərində Oliviya, Hermiona, Kleopatra, Mirzə İbrahimovun «Kəndçi qızı», «Həyat» dramlarında Bənövşə, Həyat, Səməd Vurğunun «Fərhad və Şirin», Viktor Hüqonun «Mariya Tüdor», Fridrix Şillerin «Orlean qızı», Hüseyn Cavidin «Şeyx Sənan», «Səyavuş», Nəcəf bəy Vəzirovun «Müsibəti-Fəxrəddin», Nazim Hikmətin «Məhəbbət əfsanəsi» faciələrində Şirin və Məryəm, Mariya, Janna, Xumar, Südabə, Gülbahar, Məhmənəbanu, Çexovun «Vanya dayı», Şıxəli Qurbanovun «Sənsiz», Avqsenti Saqarelinin «Xanuma» pyeslərində Yelena Andreyevna, Sevinc, Xanuma rolları Azərbaycan aktyorluq sənəti tarixində parlaq yer tutan, SSRİ Xalq aristi Hökümə Qurbanova qızı Vəfa Fətullayeva vəfat edəndə xəstə yatırdı. Vəfanın ölümü ecazkar səsli, alovlu qəlbə, güclü səhnə ehtirasına malik Hökümə xanımı dəhşətli sarsıntılara məruz qoydu. Səhnəmizin bir parlaq ulduzu da söndü. Milli teatrın Hökümə Abbasəli qızı Qurbanova (2 iyun 1913 – 2 noyabr 1988) fenomeni tarixin yaddaşına köçdü.

On iki il İşçi teatrında işləmiş, 1933-cü ildən bəri Akademik teatrın səhnəsində Altunbay, Salamov və General qubernator («Od gəlini», «1905-ci ildə», Cəfər Cabbarlı), İsgəndər («Ölülər», Mirzə Cəlil), Əfrasiyab, Alp Arslan («Səyavuş», «Xəyyam», Hüseyn Cavid), Bələ-

diyyə rəisi («Müfəttiş», Nikolay Qoqol), Knyaz Abrezkov («Canlı meyit», Lev Tolstoy), Əliqulu Nəsirov («Əliqulu evlənir», «Xoşbəxtlər», Sabit Rəhman), Simon Renar («Mariya Tüdor», Viktor Hüqo), Ser Tobi («On ikinci gecə», Uilyam Şekspir), Tebano («Rəqs müəllimi», Lope de Veqa), Fon Valter («Məkr və məhəbbət», Fridrix Şiller), İsmayıl («Türkiyədə», Nazim Hikmət), Məşədi Hüseyn («Həyat», Mirzə İbrahimov), Hacı Mehdi («Dumanlı Təbriz», Məmməd Səid Ordubadi), Qoca Knyaz («Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), kinoda Rüstəm bəy («O olmasın, bu olsun»), Ağabala («Bəxtiyar») kimi unudulmaz rollar yaratmış komik, dramatik, fəci aktyor Ağasadıq Ağəli oğlu Gəraybəyli (15 mart 1897 – 5 dekabr 1988) vəfat etdi.

Dramaturqlar. Seyran Səxavət (Seyran Əsgər oğlu Xanlarov. 23.3.1946). Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində doğulub, nasir və şairdir. İxtisasca şərqşünasdır, bir müddət İranda, xeyli vaxt «Ədəbiyyat və incəsənət» qəzeti, «Ulduz» jurnalı redaksiyalarında çalışıb. «Qızıl teşt» pyesini özünün eyniadlı povesti əsasında işləyib.

Rafiq Səməndər (Rafiq Səməndər oğlu Ələddinov 10.1.1949. Quba rayonu) ADU-nun filologiya fakültəsini bitirib. Roman və povestləri ilə yanaşı, «Günəbaxanlar», «Şəhidlər», «İlhamın sərgüzəştləri», «Yorğan əhvalatı», «Girovlar», «Novruz» və digər dramları, telepyesləri var.

Jan Pol Sartr (21.6.1905 – 15.4.1980). Fransız yazıçısı, publisist, filosof və dramaturq. Nobel mükafatı laureatıdır (1964). Ancaq həmin mükafatı almaqdan imtina edib. «Milçəklər», «Bağlı qapı arxasında», «Şeytan və Allah», «Altona məhbusları», «Dəfn edilməmiş ölülər», «Səxavətli fahişə»... dramları çox məşhurdur.

Vaqif Səmədoğlu (Vaqif Səməd Vurğun oğlu Vəkilov. 5.6.1939) Bakıda və Moskvada konservatoriyada musiqi təhsili alıb. Yaradıcılığa şeirlə başlayıb. «Bəxt üzüyü», «Yayda qartopu oyunu», «Generalın son əmri», «Uca dağ başında», «Yaşıl eynəkli adam»... telepyesi və dramları tamaşaya qoyulub.

Qarsia Lorka Federiko (5.6.1898 – 19.8.1936). İspan şair və dramaturqu. «Qanlı toy», «Yerma», «Bernard Albanın evi», «Ecazkar başmaqçı qız», «Dona Perlimplinanın məhəbbəti», «Donya Rosita, yaxud çiçəklərin dili»... dramları bir çox dillərə çevrilib.

Mənbələr

1. Eldar Quliyev. «Rəzalət burulğanında işıq ümidi». – «Kommunist», 20 oktyabr 1988; Xatirə Quliyeva. «Qanlı Nigar». – «Azərbaycan gəncləri», 2 oktyabr 1988.

2. Məryəm Əlizadə. «Dirilik suyu». – «Bakı», 3 noyabr 1988.

1989-cu il

21 aprel. «Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev.

2 hissəli faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rasim Nəzirov*, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Nurəddin Mehdixanlı* və Füzuli Hüseynov (Ayaz Turan), Kamal Xudaverdiyev (Səlim Babayev), Safurə İbrahimova və Şükufə Yusupova (Mədinə xanım), Hicran Mehbalıyeva və Məlahət Abbasova (Zəhra***), Ramiz Məlikov və Rafael Dadaşov (Mayis), Səyavuş Aslan və Nazir Əliyev (Cabbar), Əliabbas Qədirov (Mir Cəfər Bağırov), Bürcəli Əsgərov və Məzahir Cəlilov (Afşar Hüseyn), Fikrət Vəliyev (Tərəkəmə Hacıqulu), Ramiz Novruzov (Məhəmməd Cuvarlı), Sadıq İbrahimov (Ədhəm Nəcəfov), İlham Əsgərov (Anaşkin), Tərlan Tahirov (Birinci milis), Sabir Məmmədov (İkinci milis).

* *Qeyd.* Rəssam Rasim Nəsirov premyera ərəfəsində rejissorla mübahisə edib tamaşadan imtina etdi. Ancaq proqram əvvəldən çap olunduğuna görə onun adı rəssam kimi verilib. Bəzi proqramlarda Mərahim Fərzəlibəyov həm də tamaşanın bədii tərtibatçısı kimi göstərilib.

** *Qeyd.* Aktyor Nurəddin Quliyev həm də soyadını «Mehdixanlı» yazdırır.

*** *Qeyd.* Proqram çap olunandan bir neçə gün sonra İlyas Əfəndiyev Zəhra adını dəyişib Xumar qoydu. Premyera və bütün sonrakı tamaşalar Xumar adı ilə oynanıldı.

27 may. «Gülüstanda qətl», Cəmil Əlibəyov.

2 hissəli dram-macəra.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Tahir Salahov, bəstəkar Emin Sabitoğlu, məsləhətçi milis polkovniki Səadət İsmayılov.



«Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev.
Soldan: Ədhəm Nəcəfov – Sadıq İbrahimov, Cabbar – Səyavuş Aslan
və Mir Cəfər Bağırov – Əliabbas Qədirov. 1989-cu il

«Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev.
Turan – Füzuli Hüseynov və Xumar – Məlahət Abbasova. 1989-cu il

Rollarda: Nəcibə Məlikova* və Zərnigar Ağakişiyeva (Bəyim nənə), Həsən Turabov**, Həsən Məmmədov və Bürcəli Əsgərov (İlyas İsbatov), Əminə Babayeva (Safurə), Fəxrəddin Manafov və İlqar Vəliyev (Elyar), Səyavuş Aslan (Mayılov), Firəngiz Mütəllimova və Mehriban Abdullayeva (Salehə), Yaşar Nuri*** və Ramiz Novruzov (Şahməmməd), Nazir Əliyev (Yekəpər), Əli Nurzadə**** və Mirzə Ağayev (Qələndər), İlham Əsgərov (İsmayılov), Məcnun Hacıbəyov (Rəhil), Hamlet Qurbanov (General), İftixar Piriyev və Tərlan Tahirov (Sədm işçisi), Nəcəf Həsənzadə (Serjant).

* *Qeyd.* Nəcibə Məlikova məşq elədi, ancaq tamaşada Bəyim nənə rolunu oynamadı.

** *Qeyd.* Həsən Turabov məşq etdi, ancaq tamaşada İsbatov rolunu oynamadı.

*** *Qeyd.* Yaşar Nuriyevin adı və soyadı bu ildən başlayaraq bəzi tamaşaların proqramlarında «Yaşar Nuri» kimi yazılıb.

**** *Qeyd.* Əlibala Nurəliyevin adı bu ildən etibarən bəzi proqramlarda «Əli Nurzadə», «Əli Nuri», «Əli Nur» kimi də verilib.

30 sentyabr. «Gecə döyülən qapılar», Nəbi Xəzri.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, tərtibat rəssamı Rafis İsmayılov, geyim rəssamı Vaqif Abdullayev, bəstəkar Eldar Mansurov, səs rejissoru Cahangir Əliyev.

Rollarda: Amaliya Pənahova (Mehri ana), Nurəddin Mehdixanlı* və İftixar Piriyev (Xəzər), Fikrət Vəliyev (Prokuror Kərimov), Füzuli Hüseynov və Sabir Məmmədov (Səfər), Məhbubə Məlikova, Münəvvər Əliyeva və Hicran Nəsirova (Zöhrə), Əminə Babayeva (Nisə arvad), Sadıq İbrahimov və Ramiz Novruzov (Müzəffər), Tərlan Tahirov (İsrafil), Bürcəli Əsgərov və Rafiq Əzimov (Qəni müəllim), Firəngiz Mütəllimova və Sevil Abbasova (Əsmər), Ramiz Məlikov (Katib), Mahir Mirzəliyev (Hüseyn), Əsgər Məmmədoğlu (Vəli), Saleh Babayev (Rəis), Həqiqət Nəbiyeva (Sənubər), Firuz Xudaverdiyev (Birinci milis), Əlvida Cəfərov (İkinci milis), Nəcəf Həsənzadə (Qonşu).

**Qeyd.* Nurəddin Mehdixanlı teatrdan çıxdığı üçün Xəzər rolunu oynamadı.

2 noyabr. «Qanqın böyük dalğası», Cahan Əfruz.

2 hissəli dram.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Arif Əbdürrəhmanov, musiqi tərtibatçısı İsmayıl Dadaşov, rəqslərin quruluşçusu Yulana Əlikişizadə.

Rollarda: Bəsti Cəfərova və Elmira Haşımzadə (Safi), Sevil Xəlilova (Nərgiz), Əli Nurzadə və Sabir Məmmədov (Kumar), İlham Əsgərov və Fikrət Vəliyev (Valeh), İlqar Vəliyev və Tərlan Tahirov (Çandr), Məcnun Hacıbəyov və Məzahir Cəlilov (Marvar), Hicran Nəsirova və Həqiqət Nəbiyeva (Şayrobha), Hacı İsmayılov və Əsgər Məmmədoğlu (Əhməd), Afayət Pənahov (Şinu), Nəcəf Həsənzadə və Firuz Xudaverdiyev (Roşik), Aqşin Vəlixanov və Elxan Ağahüseynoğlu (Odhor).

* * *

Adətən, ildən-ilə keçən məşq prosesi 1989-cu ildə də oldu. İlyas Əfəndiyevin «Sevgililərin cəhənnəmdə vüsalı» faciəsi və Cəmil Əlibəyovun «Gülüstanda qətl» dram-macərası üzərində yaradıcılıq işinə keçən ilin payızından başlanmışdı. Şıxəli Qurbanovun «Sənsiz»inin proqon məşqləri ilin əvvəlində də oldu və yenə sona çatdırılmadı. Rejissor Elmira Məlikova ilə dramaturq arasında müəyyən istilik yarandığı üçün Ruhəngiz Qasımovanın «Şahnaz» pyesinin məşqləri yanvarda başlandı və fevralda yenə bağlandı.

Cəfər Cabbarlının «Solğun çiçəklər» melodramasının tamaşasına yanvarın 18-də ictimai baxış oldu. Firəngiz Mütəllimovanın (Sara), Nurəddin Quliyev və Əlibala Nurzadənin (Bəhram), Bəsti Cəfərova və Hicran Nəsirovanın (Pəri), Məzahir Cəlilov və Rüstəm Əliyevin (Həmzə), Mahir Mirzəliyev və Elxan Quliyevin (Qurban)... oynadıqları tamaşa qəbul olunmadığı üçün səhnədə işıq üzü görmədi. Ağakişi Kazımovun hazırladığı bu tamaşa sonralar bir dəfə televiziyada oynanıldı.

Lope de Veqanın «Hiyləgər məşuqə» komediyasının məşqləri bir müddət bərpa olunub davam etdirilsə də, yenə yarımçıq qaldı.

İlyas Əfəndiyevin «Sevgililərin cəhənnəmdə vüsalı» faciəsini dörd aya yaxın Həsən Əbluc məşq etdi. Tərtibatı Rasim Nəzərov verirdi və

musiqini Cavanşir Quliyev bəstələmişdi. Hətta tamaşanın proqramı da çap olunmuşdu. Yekun məşqlərində dramaturqla quruluşçu rejissor arasında əsərin səhnə yozumu ilə bağlı mübahisə oldu. İlyas Əfəndiyev quruluşa qəti etiraz etdiyinə görə tamaşanın rejissorluğu rəsmi əmrlə Mərahim Fərzəlibəyova tapşırıldı. Rəssam, bəstəkar və bütün ifaçılar yerində qaldılar. Yalnız Ayaz Turan roluna Nurəddin Mehdixanlı (Quliyev) ilə dublyor olan Füzuli Hüseynov məşqlərə gəlmədi.

Bir neçə tamaşa oynanılandan sonra Nurəddin Mehdixanlı teatrdan uzaqlaşdı. Sonrakı tamaşalarda, Türkiyə, Almaniya qastrollarında Ayaz Turanı Füzuli Hüseynov oynadı.

Premyera (21 aprel) ərəfəsində rəssam Ramiz Nəzərov onun verdiyi tərtibatda rejissorun ciddi dəyişikliklər etməsinə etirazını bildirdi. Sonrakı proqramda «quruluşçu rejissor və səhnə tərtibatçısı Mərahim Fərzəlibəyov» yazıldı. Yeni quruluşda Zəhra obrazının adı dəyişdirilib Xumar oldu, əsərə Tərəkəmə Hacıqulu (Fikrət Vəliyev), Birinci milis (Tərlan Tahirov), İkinci milis (Sabir Məmmədov) epizodik obrazları əlavə edildi.

«Sevgililərin cəhənnəmdə vüsalı» faciəsi şəxsiyyətə pərəstiş dövrünün 1937 – 1938-ci il müsibətlərindən açıq bəhs edən ilk milli səhnə əsəridir. Düzdür, «Sənsiz» (1967) də həmin mövzuya həsr edilmişdir, ancaq orada hadisələr 1950-ci illərin axırlarından, bəraətdən sonrakı dövrdən bəhs edirdi. İlyas Əfəndiyevin bu pyesi isə məhz 1937 – 1938-ci illərdəki hadisələrin dramatizmi əsasında yazılmışdı, burada o zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləmiş Mir Cəfər Bağırovun obrazı da vardı. Müəyyən tarixi reallığa əsaslanan tamaşada həyati insanlar olmuş Mir Cəfər Bağırov (Əliabbas Qədirov), Məhəmməd Cuvarlı (Ramiz Novruzov) personajları ilə yanaşı, prototiplər, ümumiləşdirilmiş bədii obrazlar da işlənmişdi. Bunların içərisində «ÇK» (fövqəladə komissarlıq) işçiləri Səlim Babayev (Kamal Xudaverdiyev), Mayis (Ramiz Məlikov və Rafael Dadaşov), həyat adamı Avşar Hüseyn (Bürcəli Əsgərov), aktyor Cabbar (Səyavuş Aslan və Nazir Əliyev) ifa baxımından daha bitkin təsir doğururdu.

Tamaşanın qəhrəmanı Ayaz Turan (Nurəddin Mehdixanlı) şəxsiyyətə pərəstişin qurbanı, qüdrətli faciə aktyoru Abbasmirzə Şərifzadə-

nin prototipi olsa da, dramaturq, rejissor və aktyor onu bədii faciə obrazı kimi işləmişdilər. Faciə janrına İlyas Əfəndiyev ilk dəfə müraciət etmişdi. Və buna görə konfliktə bağlanan hadisələr baxımından janrın prinsiplərinə uyuşmayan məqamlar da vardı. Ancaq ruhən, mənəvi əzabların tərənnümü, əbədi məhəbbət və əzab mövzusunun işlənməsi (Ayaz Turan – Xumar) baxımından, əqidə çarpışmalarının ictimai-sosial zəmini nöqteyi-nəzərindən «Sevgililərin cəhənnəmdə vüsalı» tamaşası faciə idi. Faciəni aydın vermək üçün dramaturq əsərin adı üzərində də çox fikirləşmiş («Cəhənnəmdə görüş», «Cəhənnəm və sevgi», «Sevgililərin cəhənnəmdə görüşü»), sonda indiki adda qalmışdı. «Cəhənnəm» məfhumu tamaşada o dövrün adi həyatdakı siyasi faciələrlə zindandakı fiziki işgəncələri əhatələyən rəmzi məna daşıyırdı.

Tamaşanın musiqisində də, epizodların mizan qurumlarında da, aktyorların çöhrələrində də xof, səksəkə ruhu hakim idi. Səhnədəki boz rənglər bunu daha da vahimələndirib tamamlayırdı. Səksəkəni, xofu, daxili vahiməni sözsüz hərəkətlərdə, psixoloji daxili sarsıntılarda Kamal Xudaverdiyev (Səlim Babayev) əvvəldən axıradək, Əliabbas Qədirov isə Mir Cəfər Bağırovun Məhəmməd Cuvarlı ilə səhnəsində daha real-dəqiqliklə oynayırdılar. Mənəvi faciənin əzablarının daşıyıcısı Mədinə xanım (Safurə İbrahimova və Şükufə Yusupova), ləyaqəti hər cür rəzillikdən uca tutub ölümün üstünə yeriyən Afşar Hüseyn (Bürcəli Əsgərov), fiziki faciənin iradələrini ikiqat bükdüyü Ədhəm Nəcəfov (Sadıq İbrahimov) və Cabbar (Səyavuş Aslan) obrazlarının ifası aktyorların, əsasən, düzgün səhnə təfsirində tamaşanın janr poetikasına tabe edilmişdi.

İki il əvvəl teatra götürülmüş gənc aktrisa Məlahət Abbasova bunadək ifa etdiyi Məhəbbət («Tufandan əvvəl») və Nərgiz («Bizim qəribə taleyimiz») obrazlarına nisbətən Xumar rolunda daha canlı və daha ümidverici görünürdü. Məlahətin oyunu Füzuli Hüseynovla (Ayaz Turan) daha emosional çıxırdı, Nurəddin Quliyevdə isə daxili gərginlik lirizmi üstələyirdi.

Teatrın sentyabrın 30-da oynadığı Nəbi Xəzrinin «Gecə döyülən qapılar» dramı da şəxsiyyətə pərəstiş dövrünün dəhşətləri mövzusunda idi. Mövzu etibarilə faciə olsa da, mahiyyətcə ictimai dram janrına

daha yaxın «Gecə döyülən qapılar» pyesində hadisələr kənd rayonunda baş verirdi. Bu tamaşada xof və səksəkə, əsasən, hansısa günahsız zavallının gecələrdən birində qapılarının döyülə biləcək duyğularında idi. Bu tamaşada da Mir Cəfər Bağırovun obrazı Katib (Ramiz Məlikov) adı ilə vardı və Mərahim Fərzəlibəyovun yeni işində həmin surət ümumiləşdirilməyə daha çox meyilli idi. Bu obraz özü Katib – rayon katibləri – ÇK və digər fəlakət törədənlər zəncirbəndində daha yuxarılarla bağlı zəncirin əlaqələndirici halqası idi.

«Gecə döyülən qapılar» dramaturji materiala və rejissor yozumuna görə, Ana faciəsinin dramatik-psixoloji təsviri idi. Həmin istək Amaliya Pənahovanın oynadığı Mehri ana obrazında cəmləşdirilmişdi. Aktrisa Mehri ananın daxili sarsıntılarını müdrikliklə ürəyində dərdə çevirdiyi epizodlarda təbii, canlı, təsirli idi. Ancaq fəryadını səs ucalığında oynadığı son səhnələrdə ümumi ovqata bir qədər qeyri-səmimilik gətirirdi. Yöndaşları Əminə Babayeva (Nisə arvad), Bürcəli Əsgərov (Qəni müəllim), Firəngiz Mütəllimova və Sevil Abbasova (Əsmər) ilə səhnələrdə aktrisa «birinci plana cəhd göstərəndə» yenə oyun ciddiliyindən çıxırdı. Amma o səhnələrdə ki, mövzuya uyğun obrazın yeni psixoloji sarsıntısını «sakitcə» oynayırdı, onda ümumi ovqatın dramatik aydınlığına güclü təsir göstərirdi, ifası sirayətediciydi.

O dövrün kənd həyatının təmsilçiləri arasında tipajlıq göstərmək nöqteyi-nəzərdən Mahir Mirzəliyevin (Hüseyn) və Əsgər Məmmədoğlunun (Vəli) oyunları daha səlist, qroteskli, yumorlu, satirik ifşalı, nifrət doğuran, ana xətlə məzmunca bağlı idi. Səmimiyyətinə, Mehri ananın faciəsinin müxtəlif notlarda səslənməsinə yardımına, tipik kənd həyatının mühitinə bağlılığına, koloritinə görə İftixar Piriyevin oynadığı Xəzər obrazı tamaşanın ən «diri», çevik personajı idi. Aktyor bir balağı topuqdan yuxarı, bir balağı dizəcən çırmalı şalvarda, ayaqyalın, əynində «tökülən» nimdaş, yaxasıaçıq köynəkdə, dəcəl, şıltaq, ancaq daxilən təmiz, qabiliyyətli onuncu sinif şagirdini təbii ştrixlərlə ifa edirdi. O, obrazın zahiri görkəminin «diktəsi ilə» daxili harmoniyanı həssaslıqla saxlayırdı. Yoxsa, birincinin ikincini üstələməsi Xəzərin bədii funksiyasını itirə bilərdi.

Yaxın keçmişə müraciət edən teatr, həmçinin çağdaş mənəvi problemlərlə də maraqlanır, mövcud siyasi-ictimai qurumun insan müna-

sibətlərinə təsirini səhnəyə çıxarmağa çalışırdı. Nasir Cəmil Əlibəyovla teatrın ilk yaradıcılıq əlaqəsi bu niyyətdən doğdu. Ağakişi Kazımov yazıçının «Gülüstanda qətl» dram-macərasını psixoloji macəra janrında tamaşaya hazırladı (27 may).

Məşqlər prosesində dramaturqun rejissorun təfsiri ilə razılaşmadığı məqamlar vardı və bu, proqon məşqlərdə daha da artdı. İlyas İsbatovla, Elyar – Bəyim nənə – Salehə, Şahməmməd – İlyas İsbatov xətlərinin səhnə həlli ilə bağlı daha çox mübahisələr yarandı. İlyas İsbatov rolunun ifaçısı, teatrın bədii rəhbəri Həsən Turabov işə qarışmalı oldu. Bir neçə epizod çıxarıldı, bəzi səhnələrin yeri dəyişdirildi, aktyorların əməl-fəaliyyət xətləri aydınlaşdırıldı.

Bəyim nənə rolunun əsas məşqlərini Zərnigar Ağakişiyeva apardı, çünki o dövrdə xəstə olan Nəcibə Məlikova ümumi sürət-ritmə uyğunlaşa bilmirdi. Elyar roluna kinostudiyanın aktyoru Fəxrəddin Manafov çağırıldı, Mehriban Abdullayevanın məşq elədiyi Salehə, həmçinin Firəngiz Mütəllimovaya tapşırıldı. Həsən Turabov özü İlyas İsbatovun məşqinə imkan tapmadı və həmin rol Bürcəli Əsgərovdan başqa kinoaktyor Həsən Məmmədova da tapşırıldı. Teatrdan çoxdan ayrılmış Həsən Məmmədovun Akademik teatrın tam ştatına keçməsinə bu rol bir növ təkan oldu.

İlyas İsbatov prokurorluq işçisidir. Şahməmməd kimi mafiozları ifşa etmək istədiyi üçün onun Əfqanıstan müharibəsində kontuziya almış oğlu Elyarın sevgilisi Salehəni «Gülüstan» restoranında öldürürlər. Salehənin belində Elyarın nənəsi Bəyim nənənin bağışladığı qiymətli kəmər olub...

Bu detektiv süjetdə müəlliflər mənəvi-əxlaqi problemlərin vacib cəhətlərinin səhnə təcəssümünə çalışmışdılar. Janrın tələblərinə uyğun sərt hadisələr dönüşü, gözlənilməz aktyor oyunları olmasa da, «Gülüstanda qətl»də Yaşar Nuriyevin gizli yumorla, «bükülmüş» dramatik-faciə çaları ilə oynadığı Şahməmməd, Səyavuş Aslanın tərəddüdlü Mayılov, Fəxrəddin Manafovun ekssentrik hərəkətlər tələb edən Elyar, Həsən Məmmədovun daxili sarsıntılarından əriyən İlyas İsbatov və Zərnigar Ağakişiyevanın koloritli Bəyim nənə obrazları müəyyən mənada bütöv təsiri bağışlayırdı. Tamaşada siyasi hadisələrə sabahın gözü ilə baxmağa çağıran işarələr də vardı.

Direktorun Akademik teatrın repertuar siyasətində ciddi dönüşlər yaratmaq barədə mətbuatda açıq çıxışlarından, atdığı cəsarətli addımlardan sonra birdən-birə repertuarda Cahan Əfruzun primitiv, adi dramaturgiya tələblərinə cavab verə bilməyən «Qanqın böyük dalğası» pyesinin görünməsi (2 noyabr) təəccüb doğurdu. Teatrın səhnəsində cəmi səkkiz dəfə (altı dəfə də Bakının kəndlərində, rayonlarında və məktəblərdə oynanıldı) göstərilən Lütfi Məmmədbəyovun sönük, zövqsüz quruluş verdiyi, hind həyatından bəhs edən «Qanqın böyük dalğası» tamaşası teatrın çox uğursuz və məqsədyönsüz addımı idi. Tamaşada, heç olmasa, orta səviyyəli aktyor oyunu, baxanların ürəyinə toxuna biləcək dramatik epizod, peşəkar görünən mizan belə yox idi. Beləliklə, teatr ili uğursuz tamaşa ilə başa vurmalı oldu.

* * *

Yarımçıq işlər. 1988-ci ildə başlanan Qarabağ probleminin, Meydan hərəkatının siyasi-sosial dalğası 1989-cu ilin repertuarına da müəyyən təsir göstərdi. Bəhram Osmanovun quruluş verdiyi (rəssam Arif Əbdürrəhmanov, bəstəkar – Adil Bəbirov idi) Cəfər Cabbarlının «1905-ci ildə» pyesinin məşqləri bağlandı. Qeyd edim ki, Bəhram bu pyes üzərində 1986-cı ildən düşünürdü və əsərin maraqlı rejissor həllini tapmışdı, aktyorları orijinal oyun-formada sınağa çəkəcəkdi. Azərbaycan-erməni-rus siyasi üçbucağına baxım bucağında ənənədən çıxmışdı və yeni qənaətlər əldə etmişdi. Qalırdı onların səhnədə realizəsi. Hər halda, rejissorun əsərə yanaşma meyili təzə idi. Çox güman ki, (bunu məşqlərin gedişi də göstərirdi) teatrsevərlər Yaşar Nuriyevin (General qubernator) və Səyavuş Aslanın (Salamov) dəyərli işlərini görə biləcəkdilər.

Noyabr ayında (əmr. №70, 20 oktyabr) yenə Bəhram Osmanovun növbəti rejissor cəhdinə də «ölüm hökmü» kəsildi. Teatrda Hüseyn Cavidin «Peyğəmbər» faciəsinin məşqləri getdiyini (rəssam – Sənan Qurbanov, bəstəkar – Adil Bəbirov) eşidən Bakı üləmaları qəti etirazlarını bildirdilər. Təzəpir məscidinin həyətində mitinq çağırıb oradan kütləvi şəkildə teatra gələcəklərini, hətta binanı odlayacaqlarını söylədilər. Başda teatrın direktoru və bədii rəhbəri Həsən Turabov olmaqla, nümayəndə heyətinin Təzəpir məscidinə söhbətə getməsi də nəticə

vermədi. Tamaşa «doğulmamış» bağlandı. Aktyorlardan Kamal Xudaverdiyev (Abdulla oğlu), Əliabbas Qədirov (Xəttab oğlu), Ramiz Məlikov və Ramiz Novruzov (Əbu Talib oğlu), Yaşar Nuriyev (Baş rəis), Hamlet Qurbanov (Baş kahin), Firəngiz Mütəllimova və Zemfira Nərimanova (Şəmsa), Bəsti Cəfərova (Mələk), Bürcəli Əsgərov (Birinci rəis) və başqaları növbəti rollardan məhrum oldular.

Truppada dəyişmə. Uzun illər teatrda çalışmış, yaradıcılığı xarakterik epizod rollarda çıxış etmək istiqamətində nəzəri cəlb edən, Respublikanın Əməkdar artisti Mirvari xanım Novruzova öz ərizəsi ilə təqaüdə çıxdı (30 yanvar 1989).

Teatrda hər cür yaradıcılıq imkanı verilmiş, rəhbərliyin həmişə qayğı göstərdiyi istedadlı aktyor, Respublikanın Xalq artisti Fuad Poladov gözlənilməz addım atdı. O, fevral ayının 13-də Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının kollektivinə üzv oldu.

Əməkdar incəsənət xadimi, baş rejissorluqdan sonra ştatda quruluşçu rejissor qalmış Hüseynağa Atakişiyev martın 10-da teatrdan çıxdı.

Əməkdar artist İlham Əhmədov özü müstəqil «Miniatür teatr» açmaq niyyəti ilə 11 oktyabr 1989-cu ildə ərizə yazıb kollektivdən uzaqlaşdı. Əvvəl Hüseynağa Atakişiyevin təzəcə yaratdığı Gənclər teatrında işlədi, sonra isə özü şəxsən «İlham Miniatür Teatrı»nı açdı.

Abbas Qəhrəmanov martın 29-da, Nurəddin Quliyev (Mehdixanlı) isə oktyabrın 2-də ərizə yazıb işdən çıxdılar.

Baş rəssam Elçin Aslanov aprelin 4-də öz ərizəsi ilə teatrı tərk etdi.

Gənc Tamaşaçılar Teatrından Fikrət Vəliyev (1 aprel), Sumqayıt Dövlət Musiqili Dram Teatrından Həqiqət Nəbiyeva (10 mart), Sabir Məmmədov (1 aprel), Namis Şirməmmədov (1 dekabr), Naxçıvan Dövlət Musiqili Dram Teatrından Xalq artisti Zemfira Əliyeva (1 oktyabr) Akademik teatrın kollektivinə qəbul edildilər.

Dekabr ayının 1-də Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Elçin Məmmədov Akademik Milli Dram Teatrına baş rəssam təyin olundu. O, baş rəssamlığa qədər Gəncə, Sumqayıt, Lənkəran, Şəki teatrlarında, Musiqili Komediya Teatrında, Opera və Balet, Gənc Tamaşaçılar teatrlarında, Moskvada, Sankt-Peterburqda, Arxangelskdə, Tallində... Elçin Məmmədovun bədii tərtibatında tamaşalar oynanılmışdı. Akademik teatrda o, «İnsan» (Səməd Vurğun), «Dəli yığıncağı»

(Mirzə Cəlil), «Meşşanlar» (Maksim Qorki), «Tufandan əvvəl» (Arif Süleymanov) tamaşalarında işləmişdi.

Fəxri adlar. 1989-cu il mart ayının 23-də teatrın bir qrup yaradıcı heyəti fəxri adlarla təltif olundular.

Xalq artisti: Yaşar Məmmədsadıq oğlu Nuriyev.

Əməkdar artist: Aqşin Məmmədəli oğlu Vəlixanov.

1989-cu il may ayının 17-də.

Xalq artisti: Əliabbas Gülabbas oğlu Qədirov.

Əməkdar artist: Məcnun Salam oğlu Hacıbəyov, Bəsti Əli qızı Cəfərova, Hacı Məcid oğlu İsmayılov.

Əməkdar mədəniyyət işçisi: Nəcəf Abbas oğlu Həsənzadə (rejissor assistenti).

Dramaturq. Cəmil Adil oğlu Əlibəyov (5.12.1927). Azərbaycan jurnalisti və nasiri. Füzuli rayonunun Dədəli kəndində doğulub. Roman və povestləri ilə bərabər, «Gülüstanda qətl» dramını yazıb.

1990-cı il

Ötən ilin sonlarında məlum hadisələrlə bağlı mitinqlər gecə-gündüz davam edirdi. Arada kütləvi nümayişlər zor gücünə dağıdıldı. Bu ilin əvvəllərində əlavə sovet ordusunun Bakıya daxil olmasının qarşısını almaq niyyəti ilə şəhərin hava, şose, su yolu qapılarında barrikadalar qurulmuşdu. Bütün bunlara baxmayaraq, yanvarın 19-dan 20-nə keçən gecə ordu dəstələri hər üç istiqamətdə şəhərə soxuldu. Yüzdən çox silahsız adam qətlə yetirildi, minə yaxın yaralanan oldu.

Tezdən teatrın yaradıcı heyəti yas içində yığıldı. Yollar kəsildiyi, nəqliyyat sistemi pozulduğu üçün kollektivin şəhərin müxtəlif guşələrindən gəlib teatra çıxması müşkül idi. Buna baxmayaraq, hamı gəlmişdi. Akademik teatr milli fəlakətin qırxgünlük yasına qoşulanların ilkinlərindən oldu. Bir həftə sonra teatr və kino xadimləri, müəyyən jurnalistlər teatra toplaşıb 20 yanvarda gecə kinostudiya operatorlarının qəhrəmanlıqla çəkdikləri videolentlərə baxdılar...

Qırx gündən sonra da teatr heç bir tamaşa oynamadı. Aktyorlar dəstələrə bölünüb cəbhə bölgələrinə gedir, əsgərlər qarşısında çıxış edirdilər. İlin ortalarında teatrda bəzi əsərlərin məşqi başlandı.

Rejissor Oruc Qurbanov Xalid Əlimirzəyevin «Daşa dönmüş ürəklər» pyesinin məşqlərinə başladı. Tamaşanın proqonları da oldu. Ancaq rejissorun məsuliyyətsizliyi ucbatından (o vaxt Oruc Qurbanov Gəncədə işləyirdi) Aqşin Vəlixanovun (Yunus), Əliabbas Qədirovun (Ziya), Mikayıl Mirzəyevin (İlham), Zərnigar Ağakişiyevanın (Firəngiz), Məcnun Hacıbəyovun (Cəmşid), Əli Nurzadənin (Bəhram), Nazir Əliyevin (Sərxan) və başqalarının iştirak etdikləri tamaşa üzərində iş sona çatmadı.

Aprelin 20-də rejissor Ağakişi Kazımov Gənc Tamaşaçılar Teatrının Azərbaycan bölməsinə Azər Paşa Nemətovun yerinə baş rejissor keçdi. Akademik teatrda Rüstəm İbrahimbəyovun «Biganələr oteli» (9 dekabr 1984) və Arif Süleymanovun «Tufandan əvvəl» (14 fevral 1987) pyeslərini tamaşaya qoymuş, GTT-nin rus bölməsində «Qardaşım klarnet çalır» (A.Aleksin, R.Rojdestvenski, O.Feltsman), «İki ağcaqayın» (Yevgeni Şvarst), «Necəsən, cavan oğlan?» (Şandar və Tost), «Bumbaraş» (Arkadi Qaydarın povesti əsasında), «Pin və Qvin» (K.Meşkov), «Keçən ilin son gecəsi» (Anar), «Təmas» (Rüstəm İbrahimbəyov), Azərbaycan kollektivi ilə Mirzə Cəlilin «Danabaş kəndinin məktəbi» pyeslərini tamaşaya qoymuş, Tallin, İrəvan, Arxengelsk, Sankt-Peterburq şəhərlərinin müxtəlif teatrlarında quruluşlar vermiş Azər Paşa Nemətov Milli teatra rejissor qəbul olundu.

Sentyabr ayının 1-də Azərbaycan Dövlət İncəsənət Universitetinin yetirmələri Mahəddin Əsgərov və Laləzar Mustafayeva, 16-da Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının aktyorları İradə Həsənova və Əjdər Həmidov Akademik teatrın yaradıcı heyətinə qəbul olundular.

Xalq artisti Məhluqə xanım Sadıqova və Əməkdar artist Muxtar Avşarov martın 19-da təqaüdə çıxdılar. Onlar bir müddət müqavilə ilə gəlib tamaşalarda oynadılar. Amaliya Pənahova Bakı Bələdiyyə Teatrını açanda, hər ikisi həmin kollektivə daxil oldu.

Bacarıqlı aktrisa Əminə Babayeva sentyabrın 17-də ailə qayğıları ilə bağlı ərizə yazıb işdən çıxdı.

İlin axırına yaxın kiçik zallarda məşqlər ciddi rejimlə aparılmağa başladı. Fikir bu idi ki, 20 Yanvar müsibətinin ildönümündən sonra teatr yeni tamaşaları təhvil versin.

1920-ci ildən bəri Akademik teatr ilk dəfə bu il mayın 1-dən 15-dək Türkiyədə qastrol səfərində oldu. Tamaşalar İstanbul və Ankara şəhərlərinin teatrlarında, Atatürk Kültür Mərkəzində göstərilirdi. Teatr Türkiyəyə İlyas Əfəndiyevin «Bizim qəribə taleyimiz» və «Sevgililərin cəhənnəmdə vüsalı» pyeslərinin tamaşalarını aparmışdı.

Teatrın qastrolu uğurla keçdi və bu, iki dilbir ölkə arasında səhnə mədəniyyəti əlaqələrinin yaranıb inkişaf etməsi üçün güclü zəminə çevrildi.

Teatrın rəhbərliyi ilin ortasından səhnəni əsaslı təmirə bağladı. Səhnənin işıq sistemi təchizatı, dairənin fırlanma texnikası, qaldırıb-endirmə boruları (ştangetlər) 40-cı illərin avadanlıqları olduğuna görə heç vəchlə çağdaş tələblərə cavab verə bilmirdi. Səhnənin döşəməsi dəyişdirildi, on santimetr yuxarı qaldırıldı və avansena bir qədər genişləndi, səhnənin sağ tərəfindəki işıqçı çökəyi bağlandı. Tamamilə kompyuter sisteminə keçmək üçün səhnəyə avadanlıqlar alındı, quraşdırıldı, lakin tam hasilə gəlməsi üçün müəyyən aparatların alınmasını Dövlət dairələrində ilbəil təxirə saldılar.

Paralel olaraq, teatrın giriş foyesi, geniş foye, tamaşaçı salonu tədricən təmir olunub qurtardı, oturacaqlar dəyişdirildi. Səhnə isə tam təchiz olunmadığı üçün bağlı qaldı. Yalnız 1996-cı ilin əvvəllərində orada məşq etməyə yanğınsöndürənlərdən və texniki-nəzarət işçilərindən icazə alındı.

Bütün bunlara görə də 1991-ci ildən başlayaraq teatr hazır, yeni tamaşalarını çətinliklə kirayə götürdüyü binalarda oynayırdı. İri həcmli tamaşaları rayonlara aparmaq mümkün olmadığına görə onlar tezliklə repertuardan çıxarılırdı. Yaxud da müvəqqəti dayandırılırdı ki, teatrın öz səhnəsi açılanda göstərilsin.

Müvəqqəti bağlanan səhnənin bir neçə aparatını almaq üçün pul tapmaq isə, hələ də burulğana düşmüşdü.

Beləcə, teatr 1991-ci ilə qədəm qoydu.

ÖLKƏ MÜSTƏQİLLİYİNDƏ YARADICILIQ ÜFÜQLƏRİ

1991-ci il

26 fevral. «Yalan», Sabit Rəhman.

2 hissəli komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafiq Abdullayev, bəstəkar Emin Sabitoğlu.

Rollarda: Amaliya Pənahova və Zöhrə Şirinova (Şələlə*), Sofiya Bəsirzadə və Zemfira Əliyeva** (Tərlan xanım), Səyavuş Aslan (Aslan), Hacı İsmayılov və Saleh Babayev (Umud), Yaşar Nuriyev və Məcnun Hacıbəyov (Saleh), Əsgər Məmmədoğlu və Sabir Məmmədov (Fərman), Məhluqə Sadıqova (Güllü xala), Firuz Xudaverdiyev (Bilal kişi), Hicran Nəsirova və Sevil Abbasova (Xumar***), Münəvvər Əliyeva (Rəfiqə), İftixar Piriyev və Pərviz Bağırov (Zəki), Elmira Haşımzadə və Həqiqət Nəbiyeva (Kəklik), Fikrət Vəliyev və Füzuli Hüseynov (Şamil).

* *Qeyd.* Şələlə rolunu bir qədər sonra teatra təzə qəbul olunan aktrisa Laləzar Mustafayeva da ifa etdi.

** *Qeyd.* Zemfira Əliyeva premyera ərəfəsində Tərlan rolundan çıxıb Güllü xala obrazını ifa etdi. Güllü xala surətini məşq edən Məhluqə Sadıqova isə tamaşada oynamadı.

*** *Qeyd.* Elə ilk günlərdən Xumar rolunu Mətanət Atakişiyeva da oynadı.

6 mart. «Tənha iydə ağacı», İlyas Əfəndiyev.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafis İsmayılov, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Əliabbas Qədirov (Kərim bəy), Amaliya Pənahova və Bəsti Cəfərova (Sürəyya), Firəngiz Mütəllimova (Gülnaz), Məlahət Abbasova (Kəklik), Nəcibə Məlikova və Ətayə Əliyeva (Xanbikə), Rafiq Əzimov (Behbud bəy), Mikayıl Mirzəyev (Eyvaz), Əli Nurzadə və İlham Əsgərov (Doktor Altay), Səyavuş Aslan (Ağayi Əşrəfi), Fikrət Vəliyev (Rövşən bəy), Tərlan Tahirov (Yad adam), Firuz Xuda-

verdiyev (Birinci polis), Namis Şirməmmədov (İkinci polis), Nəcəf Həsənzadə (Kelner).

27 mart. «Sənsiz», Şıxəli Qurbanov.

2 hissəli dram.

Quruluşçu rejissor Oruc Qurbanov, rəssam Asif Məmmədov, bəstəkar Elza İbrahimova.

Rollarda: Hicran Mehbalıyeva (Sevinc), Əliabbas Qədirov (Tərlan), Ramiz Novruzov (Fərhad), Firəngiz Mütəllimova (Maral).

30 sentyabr. «Hara gedir bu dünya?»*, Bəxtiyar Vahabzadə.

2 hissəli özünü arama.

Quruluşçu rejissor Bəhram Osmanov, tərtibat rəssamı Arif Əbdürrəhmanov, geyim rəssamı Yaşar Mahmudov, bəstəkar Adil Bəbirov.

Rollarda: Ramiz Novruzov (Laçın), Zemfira Əliyeva və Münəvvər Əliyeva ** (Nərgiz), Yaşar Nuri (Şahbaz), Laləzar Mustafayeva (Ayla), Kamal Xudaverdiyev*** (Ulu Əcdad), Hacı İsmayılov (Katib-robot), Əsgər Məmmədoğlu (Vəlizadə), Məzahir Cəlilov (Qoca), Elxan Quliyev (Birinci kişi), Elxan Ağahüseynoğlu (İkinci kişi), Fikrət Vəliyev (Üçüncü kişi).

* *Qeyd.* «Hara gedir bu dünya?» tamaşasından başlayaraq proqramlarda fəxri adların qarşısında yazılan Azərbaycan Respublikasından «SSR» sözü götürülüb.

** *Qeyd.* Münəvvər Əliyeva məşq elədi, ancaq tamaşada Nərgiz rolunu oynamadı.

*** *Qeyd.* Proqram əvvəldən çap olunduğu üçün Kamal Xudaverdiyevin, Elxan Ağahüseynoğlunun mayın 22-də layiq görüldükləri Xalq artisti və Əməkdar artist fəxri adları yazılmayıb. «Məhəbbət və azadlıq» tamaşasının proqramının çapında da belə tələskənlik olub.

12 noyabr. «Məhəbbət və azadlıq» (yaxud «Tülkü və üzüm»), Gilveria Fiqeyredu. Tərcümə edəni Ələkbər Seyfi.

2 hissəli dram.

Quruluşçu rejissor Həsən Əbluc, rəssam Rafiq Abdullayev, bəstəkar Aydın Əzimov, rejissor assistenti Fikrət Vəliyev.

Rollarda: Həsən Əbluc və Mikayıl Mirzə* (Ezop), Aqşin Vəlixanov və Elxan Ağahüseynoğlu (Ksanf), Zemfira Nərimanova və Mətanət Atakişiyeva (Kleya), İlham Əsgərov və Fikrət Vəliyev (Aqnostos),

Sevil Abbasova və Mahi Səfərova (Melita), Mahir Mirzəliyev və Namis Şirməmmədov (Həbəş).

* *Qeyd.* Ezop rolunu premyeraya qədər, əsasən, Mikayıl Mirzə məşq etdi. Hətta ilk bir neçə proqramda onun adı da getdi. Ancaq o, tamaşada oynamadı. Ezopu, əsasən, rolu ekspromt hazırlayan Məzahir Cəlilov oynadı. Həmçinin Aqşin Vəlixanov (Ksanf) və Mahir Mirzəliyev (Həbəş) rollarını ifa etmədilər.

24 dekabr. «Dişi canavar», Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin. 2 hissəli olmuş əhvalat.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafiq Abdullayev, bəstəkar Eldar Mansurov, səs rejissoru Cahangir Əliyev.

Rollarda: Zərnigar Ağakişiyeva (Bernardo), Sofiya Bəsirzadə (Mariya Xosefa), Bəsti Cəfərova (Martirio), Kübrabəyim Əliyeva (Ponsiya), Firəngiz Mütəllimova (Adela), Elmira Haşımzadə (Anqustias), Zöhrə Şirinova və Hicran Nəsirova (Maqdalena), Laləzar Mustafayeva* və İradə Həsənova (Ameliya), Safurə İbrahimova (Prudensiya), Məhbubə Məlikova (Dolores), Həqiqət Nəbiyeva (Günaha batmış), Hicran Nəsirova (Dilənçi qadın), Münəvvər Əliyeva (Dərdli qadın), Aynur Bağırova (Uşaq).

* *Qeyd.* Laləzar Mustafayeva məşq elədi, ancaq tamaşada Ameliya rolunu oynamadı.

* * *

Teatr təmirə bağlandığına görə ötən ildən məşqləri gedən, hətta hazır olan tamaşalar 1991-ci ildə Respublika sarayında, Azərbaycan Dövlət Rus Dram Teatrının və Aktyorlar evinin səhnələrində oynanıldı. Kollektivdə yaradıcılıq rahatsızlığı, siyasi hadisələrin güclü təsirindən tərəddüd duyulurdu, aktyorlar cani-dildən məşq etmir, səhnəyə də bəzən həvəssiz çıxırdılar. Ən acınacaqlısı bu idi ki, sabaha inam duyulmurdu. Respublikada müəyyən müxalif qüvvələrin hərəkətləri ilə bağlı bəzən komendant saatları tətbiq edilirdi və bu da çox vaxtlar axşam tamaşalarının göstərilməsinə əngəl törədirdi. Bütün bunlarla yanaşı, Akademik teatrda müəyyən anlaşılmazlıqlar yaransa və ciddi sənət münaqişələrinə meydan açılsa da zəif yaradıcılıq prosesi gedirdi.

Rejissorların arasında Mərahim Fərzəlibəyov daha çox fəallıq göstərirdi. O, 1991-ci ildə İlyas Əfəndiyevlə yaradıcılıq əlaqəsini davam etdirərək onun «Tənha iydə ağacı», ispan dramaturqu Qarsia Lorkanın «Qadın faciəsi»ndən (1988) sonra onun «Dişi canavar» dramını və ilk dəfə Sabit Rəhmana müraciət edərək ədibin «Yalan» pyesini tamaşaya hazırladı.

On altı ildən sonra «Yalan» komediyasına müraciət etməkdə teatrın ilkin məqsədi başı müsibət çəkən xalqın əsəblərinə su çiləmək, onları ruhən bir qədər ovundurmaq idi. Əsərin ilk rejissoru Tofiq Kazımovdan fərqli olaraq, Mərahim Fərzəlibəyov dramaturq mətnində ixtisar aparmamış, müəyyən ağırlıq törədən, uzunçuluq hiss olunan səhnələri olduğu kimi təkrarlamışdı. Bu, tamaşanın ritminə açıq-aydın təsir göstərirdi və üstəlik əsərin Respublika sarayında oynanılması Akademik teatrın səhnə ölçüləri üçün nəzərdə tutulmuş tərtibat (rəssam Rafiq Abdullayev) mahiyyətini, atribut-obraz funksiyasını itirirdi. Respublika sarayının səhnə düzgüsü üç dəfə böyük olduğuna görə, aktyorlar sütunlararası mizanları sözlə uzlaşdıra bilmədiklərinə görə yüyürmək məcburiyyətində qalırdılar.

Emin Sabitoğlunun 1965-ci ildəki quruluşa bəstələdiyi musiqi ilə yeni işi arasında nəzərəçarpan uğurlu yeniliklər hiss olunmurdu.

Rejissorun rol bölgüsündə maraq doğuran cəhətlər də vardı. Şələləni Amaliya Pənahova kimi təcrübəli aktrisa ilə yanaşı, belə qrotesk səciyyəli rolda ilk dəfə çıxış edən gənc Zöhrə Şirinova da oynayırdı. Və çox da canlı, məişət və ictimai kontekstlər dairəsində hərəkət edən mürəkkəb obraz yaradır, ifasında məsxərə və karnaval estetikasından məharətlə istifadə edirdi. Birinci quruluşda Tərlan xanımı oynamış Sofiya Bəsirzadəyə rejissor Zemfira Əliyevanı dublyor vermişdi. Aktrisa həvəslə məşq edərək maraqlı ştrixlər, obrazın xarakterik davranış tərzini tapmışdı. Premyeraya yaxın Məhluqə Sadıqova Güllü xala rolundan çıxdı və rejissor həmin obrazı Zemfira Əliyevaya verdi. Beləliklə, tamaşaçılar bu istedadlı aktrisanı ifşa satirasının özəyində duran Tərlan xanım rolunda görə bilmədilər. Yaşar Nuriyevlə Məcnun Hacıbəyov (Saleh) və Səyavuş Aslan (Aslan) karnaval estetikasında təsirli məişət tipi oynayırdılar.

Quruluşçu rejissor yalanın faciəsinin sosial mənşəyini, cəmiyyətdə, insan münasibətlərində riyakarlıq bəlasına çevrilməsini qabarıq

verməkdənsə, daha çox məişət mövzulu vəziyyət komediyası hasilə gətirmişdi. Belə bir təfsirin özünü də bütün obrazlarla əlaqələndirib canlandıra bilməmişdi. Əsgər Məmmədoğlunun (Fərman), Firuz Xudaverdiyevin (Bilal kişi), Münəvvər Əliyevanın (Rəfiqə), Elmira Haşımzadə və Həqiqət Nəbiyevanın (Kəklik), Fikrət Vəliyevlə Füzuli Hüseynovun (Şamil), Hacı İsmayılovla Saleh Babayevin (Umud) oyunları dramaturji quruluğun şablonvari səhnə variantı təsiri bağışlayırdı.

«Yalan»ın ilk tamaşasından səkkiz gün sonra martın 6-da Mərahim Fərzəlibəyovun quruluşunda «Tənha iydə ağacı» tamaşası göstərildi. Rejissorun rəssam Rafis İsmayılov və bəstəkar Cavanşir Quliyevlə birgə işlədiyi bu tamaşa da Respublika sarayında oynanıldı. Texniki imkanların, ölçülərin uyğun gəlməməsi «Yalan» tamaşasına vurduğu zərbələr «Tənha iydə ağacı» dramında da təkrarlandı. Adətən, səhnənin eni boyu mizan verməyi xoşlayan Mərahim Fərzəlibəyovun tamaşa üçün qurduğu kompozisiya Respublika sarayında pozulur, poetik təəssüratını itirirdi.

İlyas Əfəndiyevin qürbətdəki soydaşlarımızın vətən həsrəti mövzusundan bəhs edən dramında mənəvi faciəyə çevrilən nisgil psixoloji əsaslar üzərində qurulsa da, elə ilk şəkillərdən daha çox qəzet publisistikası prinsipində davam etdirilirdi. Dramaturqun yaradıcılığı baxımından nisbətən yeni təsiri bağışlayan Eyvaz (Mikayıl Mirzəyev), Ağayi Əşrəfi (Səyavuş Aslan), Xanbikə (Nəcibə Məlikova və Ətayə Əliyeva), Kərim bəy (Əliabbas Qədirov) obrazları ümumi mövzunun axarında tam psixoloji dayaqlarını tapmamışdı. Aktyorların məsuliyyətli oyunları da bu nöqsanı dəf edə bilmirdi. Doktor Altay (Əli Nurzadə və İlham Əsgərov), Rövşən bəy (Fikrət Vəliyev), Gülnaz (Firəngiz Mütəllimova), Kəklik (Məlahət Abbasova), Sürəyya (Amaliya Pənahova və Bəsti Cəfərova) obrazları müxtəlif dərəcədə baş mövzuya bağlılıqda sonadək dramaturji əsaslarla işlənməmişdi.

Tamaşada Eyvazın ölüm epizodu, Kərim bəyin evindəki qonaqlıq səhnəsi, onun çərkəzi libasda səhnəyə çıxması özlüyündə maraqlı olsa da, ana xəttə xidmət funksiyasını nisbətən itirirdi. Aktyorların obrazları səhnədə hadisələr burulğanında təfsir əvəzinə, daha çox tərənnümə, gözəl libaslarda təsvirə meyilli olmaları psixoloji lirizmi sanki məngənəyə salıb sıxırdı.

Uzun fasilələrlə oynanılan bir neçə tamaşadan sonra «Tənha iydə ağacı»nın ifaçılarına əlavə və dəyişikliklər edildi. Kərim bəyi Kamal Xudaverdiyev də oynadı. Gülnaz rolunda Firəngiz Mütəllimovanı Zemfira Nərimanova, Kəklik rolunda Məlahət Abbasovanı Hicran Nəsirova, Xanbikə obrazında Nəcibə xanımla Ətayə xanımı Kübrabəyim Əliyeva, Yad adam surətində Tərlan Tahirovu Mahir Mirzəliyev əvəz etdilər. İkinci polis (Namis Şirməmmədov) obrazı tamaşadan çıxarıldı.

Aktyor ifalarının rəngarəngliyi, faciə notlarının psixoloji dramatizmdə həlli, formanın (rəssam Rafiq Abdullayev) və musiqinin (bəstəkar Eldar Mansurov) baş mövzu ilə bağlılığı, ritmik ümumi ahəngdarlığı baxımından Mərahim Fərzəlibəyovun «Dişi canavar» tamaşası daha bütöv alınmışdı. On dörd iştirakçının hamısı qadın olan tamaşada Zərnigar Ağakişiyevanın (Bernardo), Bəsti Cəfərovanın (Martirio), Kübrabəyim Əliyevanın (Ponsiya), İradə Həsənovanın (Ameliya), Safurə İbrahimovanın (Prudensiya) və Zöhrə Şirinovanın (Maqdalena) oyunları təravəti, dramatik gərginliyi, aktyorların faciə obrazlarının ifası üçün tələb olunan potensial imkanları ilə seçilirdi.

Tərtibatda böyük dekorasiyadan qaçmağa çalışan, mizanları səhnə mərkəzində, əksər hallarda oturaqlı quran Mərahim Fərzəlibəyovun təkidi ilə «Dişi canavar» tamaşası dekabrın 24-də Rus Dram Teatrının binasında oynanıldığına görə effekt və bədiiyyat itkiləri Respublika sarayında göstərilən digər iki tamaşaya nisbətən az oldu. Aktyorları bilavasitə qara örtük-bürüncəkdə oynamağa vadar edən rejissor işıqdan daha çox istifadə ilə əsas diqqəti ifaçıların sifət ifadələrinə, gözlərlə oyuna yönəldə bilmişdi.

Məşqlərinə 1985-ci il, 31 yanvarda başlanılmış Şıxəli Qurbanovun «Sənsiz» pyesinin ilk tamaşası yalnız altı ildən sonra göstərilibdir. İki il müxtəlif vaxtlarda əsər «Tərlan və Sevinc», «Sevinc», «Sevinc və Tərlan» adları ilə məşq edildi. Qalan illərdə bir ay, iki ay məşq olub, sonra bağlanırdı. Onda əsər «Sənsiz» adı ilə məşq edilirdi. İlk tamaşası martın 27-də Beynəlxalq teatr günündə Rus Dram Teatrının binasında göstərildi. Əsəri tamaşaya həmin vaxtlar Gəncə Dövlət Dram Teatrında rejissor işləyən Oruc Qurbanov hazırladı. Rəssam Gəncədə işləyən Asif Məmmədov və bəstəkar Elza İbrahimova idi-

lər. Rolları Hicran Mehbalıyeva (Sevinc), Əliabbas Qədirov (Tərlan), Ramiz Novruzov (Fərhad) və Firəngiz Mütəllimova (Maral) ifa edirdilər.

Teatra bədii rəhbər təyin olunanda Həsən Turabov çalışırdı ki, Respublikanın müxtəlif bölgələrində, Bakının ayrı-ayrı sənət ocaqlarında çalışan bacarıqlı gənc rejissorlar Akademik teatrda tamaşa hazırlasınlar. Oruc Qurbanov da bu məqsədlə dəvət olunmuşdu. Onun Lənkəran və Sumqayıt teatrında müəyyən dərəcədə maraqlı tamaşaları olmuşdu. Oruc Qurbanov həm əsəri uzun müddətə hazırladı (əvvəlcə Tərlan rolunu Ağdam teatrının aktyoru Tofiq Qarayev məşq edirdi), həm də hasilə gətirdiyi iş heç bir cəhəti ilə maraq doğurmadı. İşdə bir qədər məsuliyyətsizliyi nəticəsində ona tapşırılmış növbəti əsər işıq üzü görmədi.

Bəhram Osmanovun xeyli müddət məşq etdiyi, hətta Kiçik səhnədə ictimai baxış keçirdiyi Bəxtiyar Vahabzadənin «Hara gedir bu dünya?» dramının ilk tamaşası sentyabrın 30-da Rus Dram Teatrının səhnəsində oynanıldı. Mənəvi-əxlaqi ənənənin millətin formalaşmasındakı rolu, zamanın insanların psixoloji durumuna ciddi təsiri mövzusuna həsr edilmiş didaktika dramatik dialoqları üstələmişdi. Müəllif öz istəyinə hadisələrin mübarizəsində deyil, şeir forma biçimləri ilə nail olmağa çalışdığına görə çox epizodlarda səhnə üçün vacib hərəkətin mütəhərrikliyi itmişdi. Bəhram Osmanovun ciddi səylərinə baxmayaraq, qüsurlar tamaşada açıq, nəzərəçarpan dərəcədə idi.

Dramaturq Laçın (Ramiz Novruzov), Katib-robot (Hacı İsmayılov), Şahbaz (Yaşar Nuri), xüsusən Ulu Əcdad (Kamal Xudaverdiyev) kimi bədii-dramatik rüşeymləri olan maraqlı surətlər yaratmaq istəmişdi. Ancaq söz-hərəkət vəhdətinin ölçüləri gözlənilmədiyinə görə aktyorların çalışqanlığı, istedadlarını səfərbər etmələri də qüsurları islahda aciz qaldı. Tamaşanın kompozisiya qurumunda, mizanların icrasında, yas səhnəsinin təsvirində rejissor səliqəsizliyi, tərtibatda (Arif Əbdürrəhmanov) ifadəsizlik vardı.

XX əsr Braziliya yazıçısı Gilermo Fiqeyredunun «Ezop» əsərinin (tərcüməçi Ələkbər Seyfi) də məşqləri çox uzun çəkdi.

Ezopu Mikayıl Mirzə məşq edirdi və axtarışlarında obrazın filosof kamilliyinə uyuşan, psixoloji sanbala dəlalət edən cəhətlər vardı.

Aktyor həm də səmərəli təkliflər söyləyirdi və bunlar nədənsə, rejissor Həsən Əblucu qane etmir, aralarında tez-tez narazılıq olurdu. Premyera ərəfəsində Mikayıl Mirzə roldan imtina etdi və məşqlərdə Ezopu Həsən Əbluc özü ifa etdi. Tezliklə Məzahir Cəlilov tamaşaya daxil edilərək Ezopu oynadı. Aktyorluq imkanları baxımından Məzahir Cəlilov mürəkkəb xarakterli Ezopdan uzaq idi.

«Məhəbbət və azadlıq» («Ezop») adı ilə təqdim edilən tamaşada rejissor işi kamil alınmamışdı, aktyorların əməl-fəaliyyət xətti düzgün qurulmamışdı. Tarixi şəxsiyyət olmuş Ezopun dünyada məşhur «Ezop dili», «Ezop hazırcavablığı», «Ezop məntiqi» tamaşada nəzəri cəlb etmirdi. Halbuki Fiqeyredunun pyesində sözaltı ifadələrlə, bəzən açıq dialoqlarda dediklərimizin əsası vardır. Ezop dövrünü əks etdirən geyimlərdə (rəssam Rafiq Abdullayev) müəyyən təzad və uyarsızlıqlar nəzərə çarpırdı. Həsən Əblucun bəstəkar Aydın Əzimovla işinin səmərəli bəhrəsi görünmürdü, ancaq musiqidə müəyyən təsirli və mənalı notlar üstünlük təşkil edirdi.

İlk tamaşası noyabrın 12-də olan «Məhəbbət və azadlıq» tamaşasında Mətanət Atakişiyevanın (Kleya) və Sevil Abbasovanın (Melita) oyunlarında başqaları ilə müqayisədə məlahət, bütövlük hiss olunurdu.

* * *

Truppada dəyişmə. Gənc rejissor, üç il əvvəl kiçik səhnədə hazırladığı «Dəfn edilməmiş ölülər» (Jan Pol Sartr) tamaşası ilə diplom müdafiə edən Mehriban Ələkbərova yanvarın 25-də teatra ştata götürüldü.

Gəncə, Sumqayıt Dövlət teatrlarında, Musiqili Komediya Teatrında işləmiş aktrisa Kübrabəyim Əliyeva sentyabrın 16-da Akademik teatra keçdi. Gənc Tamaşaçılar Teatrında işləyən Abbas Qəhrəmanov oktyabrın 24-də yenidən kollektivə qayıtdı.

Məlahət Abbasova Türkiyəyə köçməsi ilə əlaqədar iyunun 6-da ərizə yazıb teatrdan çıxdı.

Təltif. Yaşar Nuriyev «Yaramaz» filmindəki (rejissor Vaqif Mustafayev) Maşallah roluna görə Respublika Dövlət mükafatına layiq görüldü.

Fəxri adlar. 1991-ci il may ayının 22-də teatrın bir qrup sənətkarına Azərbaycan Respublikasının fəxri adları verildi.

Xalq artisti: Mikayıl Şahvələd oğlu Mirzəyev, Kamal Ağahüseyn oğlu Xudaverdiyev, Lütfi Şahbaz oğlu Məmmədbəyov.

Əməkdar artist: Elxan Ağahüseyn oğlu Hüseynov, Şükufə Mühəddin qızı Yusupova, Zemfira Əli qızı Nərimanova, Firəngiz Bəhər qızı Mütəllimova.

Dramaturq. Gilerma Fiqeyredu (Oliveyradi). XX əsr Braziliya nasiri, şairi və dramaturqudur. Teatr tənqidi ilə də məşğul olub. «Ümumtətil», «Allahın gecələdiyi ev» (Aristofanın «Lisistirata» əsəri əsasında), «Tülkü və üzüm» («Ezop»), «Faciəvi fars», «Şeytan üçün ballada», «Mariya De Ponti»... dramlarını qələmə alıb.

1992-ci il

25 aprel. «Qədr gecəsi»*, Eldar Baxış.

2 hissəli nağıl-pyes.

Quruluşçu rejissor Həsən Əbluc, rəssam Kamal Şıxəliyev, bəstəkar Cavanşir Quliyev, rəqslərin quruluşçusu Əli Əşari.

Rollarda: Elxan Ağahüseynoğlu və Nazir Əliyev, Məzahir Cəlilov, İftixar Piriyev, Rüstəm Əliyev, Firuz Xudaverdiyev, Əlvida Cəfərov, Elxan Quliyev, Mirzə Ağayev, Abbas Qəhrəmanov, Ramiz Novruzov, Namis Şirməmmədov, Saleh Babayev, Əjdər Həmidov, Mahir Mirzəliyev, Məhəddin Əsgərov, Telman Adıgözəlov.

* *Qeyd.* Eldar Baxışın «Qədr gecəsi» nağıl-pyesi teatra «Novruz nağılı» adı ilə qəbul olundu. Məşqlər də bu ad altında aparılırdı. Premyeraya az qalmış tamaşanın adı dəyişdirildi. Tamaşa nağıl kimi qurulduğuna görə personajların adı yox idi.

30 iyun. «Ox, qadınlar, qadınlar», Marat Haqverdiyev.

2 hissəli satirik komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Kamal Şıxəliyev, bəstəkar Eldar Mansurov.

Rollarda: Səyavuş Aslan (Maqsud), Zemfira Əliyeva (Rəhilə), Firəngiz Mütəllimova (Dilarə), Əjdər Həmidov (Adil), Sevil Xəlilova (Qadın).

9 noyabr. «Dəlilər və ağıllılar», İlyas Əfəndiyev.

2 hissəli dramatik komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, bəstəkar Vasif Adıgözəlov, tərtibat rəssamı Rafiq Abdullayev, geyim rəssamı İlham Məmmədov, rejissor assistenti Əlinazir Kərimoğlu.

Rollarda: Rafael Dadaşov (Ədhəm Tağıyev), Firəngiz Mütəllimova (Azadə xanım*), Səyavuş Aslan və Hamlet Qurbanov (Ağamusa Fərəcov), Kübrabəyim Əliyeva (Nazilə), Hacı İsmayılov və Eldəniz Zeynalov (Ağadadaş Nəcəfov), Əlinazir Kərimoğlu (Cümü), Sabir Məmmədov (Şahmar), Zemfira Nərimanova (Südabə), Əjdər Həmidov (Müxbir), Namis Şirməmmədov (Kərəm), İlqar Vəliyev və Mahəddin Əsgərov (Rövşən), Nəcəf Həsənzadə (Milis).

* *Qeyd.* Bir neçə tamaşadan sonra Azadə xanım rolunu, əsasən, Bəsti Cəfərova oynadı.

* * *

Təmirin aybaay, ilbəil uzanması teatrın yaradıcılıq iqliminə psixoloji təsir göstərirdi. Hətta yaradıcılıq ehtirası öləziyənlər, əli işdən soyuyanlar da vardı. Yaranmış acınacaqlı vəziyyətlə əlaqədar rejissorlar monumental tamaşalar hazırlamaqdan, mürəkkəb səhnə tərtibatı tələb edən klassik pyeslərə müraciət etməkdən qaçırdılar. Hətta tamaşaya qoyulması iki-üç il əvvəl planlaşdırılmış əsərləri hazırlamağa da teatr səy göstərmir, yaxud başqa binalara uyğun klassik səhnə əsərini işləməyə risk etmirdi. Çünki Bakıdakı teatr binalarının səhnə parametrləri, işıq quruluşu sistemi hamısı kəskin şəkildə biri-birindən fərqlənir. Akademik teatr bir tamaşanı hər dəfə başqa binada oynayanda mütləq tərtibatı, işığı, mizanları həmin səhnəyə uyğun «qayçılayıb» «ütüləmək» məcburiyyətində qalırdı. Sözsüz ki, bütün bunlar bədiiliyə ciddi təsir göstərir, rejissor fikri təhrif olunur, aktyorlar rol oynamaqdan daha çox diqqətlərini səhnəyə, təzə mizana uyğunlaşmağa yönəldirdilər.

Teatrın tamaşa oynamaq üçün bina kirayəsi özü də müşkül məsələyə çevrilmişdi. Hazırlanan tamaşalar, əsasən, rayon klublarında, məktəblərdə oynanılır, ən maraqlı tamaşa belə, peşəkar teatr səhnəsində barmaqla sayılacaq qədər az göstərilirdi. Tamaşaların səyyar nümayişi isə yaradıcılığa dəlalət etməsə də, plana cavabdeh inzibatçıların bir növ vəziyyətdən çıxış yolu idi.

Yaranmış nataraz vəziyyət səhnəyə zəif, «yüngül» quruluş tələb edən pyeslərin ayaq açmasına zəmin yaradırdı. 1992-ci ildə tamaşaya qoyulan üç pyesdən ikisinin ciddi bədii naqisliklər vardı. Akademik teatrda ilk işləri olan şair Eldar Baxışın «Qədr gecəsi» və inşaatçı Marat Haqverdiyevin «Ox, qadınlar, qadınlar» pyesləri dramaturgiyanın janr prinsipləri ölçülərinə uyğun gəlmirdi, dialoqlar dramaturji yükdən məhrum idi.

Teatr Novruz bayramını səhnə sənətinin doğum günü və milli mərasim kimi yüksək sənət nailiyyətləri səviyyəsində qarşılamaq üçün ötən ilin sonlarından müəyyən yazıçılarla danışıqlar aparmış, pyes yazmağı onlardan təvəqqe etmişdi. Ancaq ortalığa əsər çıxmamışdı. Hətta hasilə gələcək güman yeri də yox dərəcəsində idi. Belə vaxtda lirik və publisist şeirləri ilə tanınan Eldar Baxış uşaqlar üçün nəzərdə tutduğu «Novruz nağılı» pyes-nağılını teatra təqdim etdi. Teatrın tövsiyəsindən, müəyyən qeyd və iradlarından sonra müəllif qısa müddətə əsərin ovqatını böyüklər üçün dəyişib «Novruz nağılı»nı teatra qaytardı.

Novruz bayramına həsr olunacaq tamaşanın premyerasını axır çərşənbədə göstərmək üçün rəhbərlik yaradıcı qrupun işə başlamasına əmr verdi. Quruluşçu rejissorluq Həsən Əbluca tapşırıldı və o, tərtibatı qısa müddətə icra etməkdən ötrü teatrın rəssamı Kamal Şıxəliyevlə, musiqini isə Cavanşir Quliyevlə işləməyə başladı.

Nağıl janrının göstərmə oyun prinsipinə əsaslandığına görə tamaşada on yeddi ifaçıdan heç birinin oynadığı obrazın adı yox idi. Şoukarnaval janr prinsipləri əsasında musiqiyə və rəqsə (rəqslərin quruluşçusu Əli Əşari idi) gen-bol yol verilmiş tamaşada teatr üçün vacib olan fikir, məqsəd, ali məqsəd və söz-hərəkət vəhdəti sanki bilərəkdən diqqət mərkəzində saxlanılmamışdı.

Rəhbərlik tamaşanın göstərilməsinə qəti etiraz etdi və yaradıcı qrup yenidən dəyişikliklərlə məşqlərə başladı. İkinci cəhd də uğursuz alındı. Kollektiv tamaşanı Novruz bayramına çatdıra bilmədi. Üçüncü cəhdin məşqlərində nağıl-pyesin adı dəyişdirilib «Qədr gecəsi» qoyuldu. Eldar Baxış təzə variantda maraqlı meydana oyun ünsürlərindən, məsxərə-oyun elementlərindən bəhrələnərək cazibədar epizodlar yarada bilmişdi. Qədr gecəsi sözünün etimologiyasını və

semantik mənasını, Novruz mərasimi anlamındakı məna yükünü açan dialoqlar əlavə etmişdi. Cavanşir Quliyev folklorla çağdaş avanqard musiqi janrının qovuşuğunda bayram ovqatlı musiqi-obraz yaratmağa səy göstərmişdi. Onun cəsarətli axtarışlarının bəhrəsi də vardı.

Aprelin 25-də teatrın Kiçik səhnəsində «Qədr gecəsi»nin birinci və... sonuncu tamaşası oynanıldı. Tamaşa iki dəfə də məktəblərdə göstərildi və repertuardan çıxarıldı.

Əsərin poetik çalarlı nağıl-oyun ovqatının cazibədarlığı, musiqinin bədii materiala istinad edən karnaval şuxluğu, Novruz bayramının özünün mərasim ruhu rejissor işində, onun təqdim etdiyi oyun və tərtibat formasında təcəssüm tapmamışdı. Həsən Əbluc istəməyərəkdən, özü də hiss etmədən ümumi hadisələrin ruhundakı nağılvari ayinləri nağıllaşdırmaq (qeyri-reallığa, mücərrədliyə meyil) yolunu tutmuşdu. Sözlərdəki, deyim yozumlarındakı rəngarəng əlvanlıq səhnə təfsirində yekrəngliklə buxovlanmışdı.

Aktyorlardan Mahəddin Əsgərov, Firuz Xudaverdiyev, Saleh Babayev, onlarla müqayisədə təcrübələri çox olan Əməkdar artistlər Nazir Əliyev və Elxan Ağahüseynoğlu rejissorun «rəng palitrasından» kənarlaşa bilmirdilər. Onların musiqi-ritm oyun üslubunu çevikliklə tuta bilməmələri, davranış lənglikləri də qabarıq görünürdü.

Karnaval estetikasının poetika prinsiplərini oyun-mərasim tərzi, folklor ruhu ilə birləşdirən Telman Adıgözəlov, Mirzə Ağayev, Abbas Qəhrəmanov, Mahir Mirzəliyev öz oyunlarında ürəyəyatımlı idilər. Sərbəst, daxili bayram ovqatını hərəkətlərdə yumşaqlıqla saxlaya bilirdilər.

Təbii haldır ki, bu nailiyyətlər də teatrın başlıca məqsədinin, bayram mərasim xonçasının «Qədr gecəsi» tamaşasında qorunub sənət dili ilə bəyan edilməsinə əsaslı zəmin yarada bilmədi. Buna əsas səbəb isə istedadına güvənilən Həsən Əblucun milli meydan teatrı prinsiplərinə teatr səhnə meydanında ekvivalent tapa bilməməsi idi.

«Qədr gecəsi» tamaşasının premyerası ərəfəsində rejissor Mərahim Fərzəlibəyov özünün şəxsi təşəbbüsü ilə Marat Haqverdiyevin «Ox, qadınlar, qadınlar» satirik komediyasını hazırlamaq istədiyini bildirdi. Pyesdəki ciddi bədii nöqsanları iş prosesində müəlliflə birgə düzəldəcəyi nəzərə alınaraq yaradıcı qrupun fəaliyyətə başlamasına

sərəncam verildi. Mərahim Fərzəlibəyov da səhnə tərtibatına əlavə xərc çəkməmək və müxtəlif yerlərdə oynanılacağını nəzərə alaraq rəssamlığı Kamal Şıxəliyevə tapşırdı. O da, ilk növbədə, yüngül «yığma dekorlar» (başqa-başqa tamaşalardan) hesabına tərtibat hazırladı.

İstedadlı mahnı bəstəkarı (həmçinin digər musiqi janrlarında işləyən) Eldar Mansurovun «Ox, qadınlar, qadınlar» tamaşasındakı əməyi də nəzərəçarpan nailiyyət qazanmadı. Qeyd edim ki, Mərahim Fərzəlibəyov əsas diqqəti tamaşanın kompozisiyasının illüstrativ qurumuna yönəltdiyi üçün əksər tamaşalarında bəstəkar və rəssamla işləməyə bu və ya başqa dərəcədə ciddi əhəmiyyət vermir. Eldar Mansurovla işində də, məhz bu xoşagəlməz vərdişin acı bəhrələrinin tamı vardı.

Mərahim Fərzəlibəyov pyesdən gələn qüsurları dramaturqla yenidən işləmək əvəzinə, aktyor ansamblı ilə onları ört-basdır etmək yolunu tutmuşdu. Xalq artistləri Səyavuş Aslan (Maqsud), Zemfira Əliyeva (Rəhilə), Əməkdar artist Firəngiz Mütəllimova (Dilarə), Naxçıvanın Əməkdar artisti Sevil Xəlilova (Qadın) və Əjdər Həmidov (Adil) nə qədər səy göstərsələr də, müəllif Marat Haqverdiyevin dramaturji naqisliklərini aradan qaldıra bilməmişdilər.

Gənc Tamaşaçılar Teatrında göstəriləcək ilk tamaşanın (30 iyun) afişaları şəhərdəki elanbəndlərə vurulanda «satirik komediya» janr təyini maraq doğurdu. Teatr çoxdan idi həmin janrda tamaşa hazırlamamışdı və ümid etmək olardı ki, mövcud dövrdəki ictimai, iqtisadi, siyasi, mənəvi aşınmalar prosesində satirik səhnə əsəri ilə kəskin söz deməklə, öz mövqeyini bildirəcək. Acı təəssüflər ki, belə olmadı.

Pyesdən gələn və tamaşada bəzən olduğu təki, bəzən daha qabarıq şəkildə təkrarlanan kobud səhvlər vardı.

Dialoqlarda uzunçuluğa o dərəcədə aludə olunmuşdu ki, sözün dramaturji kəsəri itmişdi.

Konfliktin nə ictimai, nə də sosial bazası əsaslandırılmamışdı.

Obrazların səhnə gediş-gəlişləri hadisələrin dramatik bətnindən doğmur, yalnız müəllifin «istəyi»ilə icra edilirdi.

«Satirik» sözü ancaq janr «göstəricisi» idi və nə hadisələrdə, nə müəllif mövqeyində, nə də obrazların təqdimatında təcəssümünü tapmamışdı.

Vahid süjet xətti yox idi.

Pyesi nəsrdən fərqləndirən janr prinsiplərinin bədii təcəssümü tapılmamışdı.

Obrazların hadisələrə uyğun inkişaf və fəaliyyəti məntiqsizliklə sanki kənardan «idarə olunmuşdu».

Ekspozisiya, münaqişə-konflikt, düyün nöqtəsi, zavyazka... və bu kimi digər dram janr prinsiplərinin yeri çəlpəşik salınmışdı.

Bütün epizodları birləşdirən ana xətti dramaturq təqdimatında görmək olmurdu...

Qəribə burasıdır ki, rejissor Mərahim Fərzəlibəyov bir il sonra dramaturgiyada naşı olan Marat Haqverdiyevin «Qısqanc ürəklər» adlı başqa bir pyesini təkidlə tamaşaya hazırlamaqla, yenə teatrı tənqid hədəfinə çevirdi.

«Qəribə oğlan» lirik komediyasından on doqquz il sonra İlyas Əfəndiyev yenidən bu janra müraciət edərək «Dəlilər və ağıllılar» dramatik komediyasını yazıb teatra təqdim etdi.

Müəllif mənəvi düşkünlüyü, əxlaqsızlığı, məişət pozğunluğunu ifşa hədəfi seçmişdi. Niyyət maraqlı olsa da, nəticə tamaşada bədii cəhətdən təsdiqlənməmişdi. Hadisələr psixoloji zəmindən məhrum idi. Obrazların əksəriyyəti sxematik və quru çıxmışdı, onların daxili təbəddülatı, dramatik gərginlikləri reallığa əsaslanmamışdı. Xalq cəbhəsinin «mənəvi təmizliyini» vermək niyyəti ilə hadisələri, janrın tələblərinə uyğun olmayaraq Sabir, Ağadadaş Nəcəfov, Cümü obrazlarını istədiyi səmtə yönəldirdi.

İfaçılar vahid ali məqsəddən çıxış etmir, hər biri istədikləri formada və istədikləri janr prinsiplərində «sərbəst» davranırdılar. Replikaların vacibliyini gözləmirdilər və buna görə də bəzən yöndaşlıq dialoq aparıcılığından çıxaraq paralel söz deyənlərin əlaqəsiz deyişməsi təsirini bağışlayırdı.

Tamaşada Rafael Dadaşov (Ədhəm Tağıyev), Səyavuş Aslan və Hamlet Qurbanov (Ağamusa Fərəcov), Hacı İsmayılov və Eldəniz Zeynalov (Ağadadaş Nəcəfov), Əlinazir Kərimoğlu (Cümü), Zemfira Nərimanova (Südabə) kimi təcrübəli aktyorlar oynayırdılar.

Kübrabəyim Əliyevanın (Nazilə) və Sabir Məmmədovun (Şahmar) oyunlarında dramatik komediya janrı tələbləri dairəsində obraz yaratmaq cəhdləri, əsasən, səmərəli alınmışdı.

Azadə xanımın ifaçısı Firəngiz Mütəllimova teatrdan uzaqlaşandan sonra həmin rolu Bəsti Cəfərova da oynadı. Bəsti xanım da janrın ölçülərini ustalıqla gözləyirdi. Azadə xanımın gözlənilməz və əndazəsiz davranışlarını çevik səhnə hərəkətlərində mənalandırırdı. Obrazın psixoloji ovqatını səhnənin (epizodun) tələbinə uyğun pərdələməyir, gizlətmir, açıq verir, guya, rahatsızlıq keçirdiyini dəqiqliklə oynayırdı.

Üç ifaçının təbii və real oyunları da ümumi aktyor ansamblındakı laxlamanı aradan qaldıra, əlaqəsizliyi bərpa edə bilmirdi.

Noyabr ayının 9-da ilk tamaşası Rus Dram Teatrının binasında oynanılan «Dəlilər və ağıllılar» səhnə əsəri çox göstərilsə də, yenə müəyyən normal həddə düşmədi. Çünki rejissor deyilən nöqsanları düzəltmək, müəyyən səhnələri ixtisara salmaq, bəzi epizodları yığcamlaşdırmaq, ölçü-biçisiz mizanlara əl gəzdirmək fikrində olmadı. Ümumiyyətlə, Mərahim Fərzəlibəyov tamaşanı təhvil verəndən sonra əsəri bütövləşdirmək, daha da bitkin etmək naminə yenidən (düzəliş, ixtisar, səliqəni artırmaq və sairə) ona qayıtmağı xoşlamır. Təəssüflər ki, bu iş üslubu onun uğurlu işlərinin cilalanmasında da müəyyən çətinliklər yaradır.

Xalq artisti Vasif Adıgözəlovun bəstələdiyi musiqinin məna çalarları, ifadəliliyi tamaşada tam dəqiqliyi ilə təcəssüm tapmamışdı. Çünki rejissor musiqinin epizodda oynaya biləcəyi psixoloji məqamları tam tutmamışdı.

Bədii tərtibatda (Rafiq Abdullayev) da xoşagəlimlilik, məna dərinliyi duyulmurdu.

Repertuar əlvanlığı, gənclərin boy artımı, şöhrətli sənətkarların yeni sənət uğurları qazanması, üslub istiqamətinin formalaşması, janr yeniliyi... və bu kimi digər sənət meyarları ilə yanaşanda 1992-ci ili teatrın taleyində uğursuz mərhələ kimi təəssüflə qeyd etmək məcburiyyətində qalırıq.

Teatra təqdim edilmiş müxtəlif müəlliflərin yeddi pyesindən heç biri tamaşaya qoyulmağa yaramadı.

Rejissorlardan heç biri sənət nümunəsi yaratmaq cəhdində olmadı. Cəhd olsa da, nəticəsiz qaldı, ortalığa hadisəyə çevrilən tamaşa çıxmadı. Aktyorlarda rola, səhnəyə laqeydlik, özünə güvənmə, təkəbbür... kimi xoşagəlməz hallar cücərməyə başladı.

Dövlətin Akademik Milli Dram Teatrına himayəsi ilin sonunda sıfır həddinə yaxınlaşdı.

Teatrın rəhbərliyinin bütün cəhdlərinə baxmayaraq, Bakıya gətirilmiş səhnə avadanlığının alınmasına pul ayrılmadı.

Müxtəlif iri müəssisələrdə ilin axırında iqtisadi blokadanın gərginləşməsi müqabilində işlər tamam aşağı düşdü. Hətta bəzi fabrik və zavodlar bağlandı. Ona görə sponsorluğu öhdəsinə götürmüş müəssisələr də teatra yardım əlini geri çəkmək məcburiyyətində qaldı.

Hakimiyyətə gəlmiş Xalq Cəbhəsi liderləri, hətta prezident Əbülfəz Elçibəy də söz verdilər, lakin səhnənin fəaliyyəti üçün heç bir əməli iş görülmədi.

* * *

Qastrol. Yanvar ayının 27-dən 31-dək teatr Şəki və Zaqatalada Bəxtiyar Vahabzadənin «Hara gedir bu dünya?» tamaşası ilə qısa qastrolda oldu. 15 – 26 iyulda isə «Sənsiz» (Şıxəli Qurbanov) və «Ox, qadınlar, qadınlar» (Marat Haqverdiyev) tamaşaları Şəkidə, Balakəndə, Qəbələdə və İsmayıllıda göstərildi.

Teatrın rəhbərliyi mart ayında Türkiyə ilə qastrol barədə danışıqlar apardı, müəyyən qənaətə gəlindi və aprelin əvvəllərində vaxt, şəhər dəqiqləşdirildi. Mayın əvvəlində kollektiv Bəxtiyar Vahabzadənin «Hara gedir bu dünya?» tamaşası ilə avtobusla İstanbula yola düşdü. Mayın 6-dan 24-dək teatr sözü gedən tamaşanı İstanbul şəhərində və Kiprdə dəfələrlə oynadı.

Oktyabrın 13-dən 19-dək Almaniyanın Berlin şəhərində Dünya Kültür Evində «Azərbaycan Teatr və Film Günləri» keçirildi. Günlərdə Xalq artistləri Mikayıl Mirzəyev klassik və çağdaş şeirlər toplusu ilə, Səyavuş Aslan, Afaq Bəşirqızı, Arif Quliyev, Yaşar Nuriyev, Əməkdar artist Firəngiz Mütəllimova Üzeyir bəy Hacıbəylinin, Səid Rüstəmovun operettalarından parçalar ifa etdilər. Tofiq Tağızadənin «Ölülər» filmi göstərildi. Emin Sabitoğlu öz mahnıları, İncəsənət Universitetinin tələbələri konsert proqramları ilə çıxış etdilər.

Alman teatrsevərləri üçün Akademik teatr İlyas Əfəndiyevin rejissor Mərahim Fərzəlibəyov tərəfindən hazırlanmış «Sevgililərin cəhənnəmdə vüsalı» pyesinin tamaşasını oynadı. Həsən Turabov

və teatrşünas İlham Rəhimli Berlində Türk televiziya proqramında milli teatrımızın inkişaf yolu, çağdaş durumu barədə çıxış etdilər, birbaşa telefonla suallara cavab verdilər. Kollektivlə müxtəlif səviyyələrdə ictimaiyyətin, orada yaşayan həmvətənlərimizin, soydaşlarımızın görüşləri keçirildi.

Truppada dəyişmə. Maraqlı rollar oynamış, Respublikanın Əməkdar artisti Zərnigar Ağakişiyeva özünə fərdi teatr açmaq niyyəti ilə iyulun 15-də, teatrda nəzərə çarpan rol oynamamış Lalə Bağırova iyulun 1-də, Rüstəm Əliyev isə iyulun 31-də kollektivdən ayrıldılar.

Xalq artisti, Dövlət mükafatı laureatı Amaliya Pənahova müstəqil teatr açmaq niyyəti ilə dekabrın 1-də teatrdan çıxdı.

Firəngiz Mütəllimova ailəsi ilə birgə xarici ölkəyə köçdüyünə görə oktyabrın 30-da ərizə yazıb teatrdan getdi. Noyabrın 11-də Zöhrə Şirinova da Türkiyəyə getdiyinə görə ərizə yazıb işdən çıxdı.

Əməkdar artist Eldəniz Zeynalov uzun fasilədən sonra sentyabrın 2-də doğma kollektivə qayıtdı.

Tanınmış aktyor Arif Quliyev Musiqili Komediya Teatrından Akademik teatra keçdi (2 noyabr).

İstedadlı bəstəkar, Əməkdar incəsənət xadimi Cavanşir Quliyev sentyabrın 1-də teatra musiqi hissə müdiri gəldi.

Gənc yaşlarından şöhrətlənmiş, milyonların rəğbətini qazanmış Xalq artisti, Respublika Dövlət və Komsomol mükafatı laureatı Yaşar Nuriyev son illərdəki sənət nailiyyətlərinə görə Azərbaycan Teatr Xadimləri İttifaqının «Qızıl Dərviş» mükafatına layiq görüldü.

Fəxri ad. Musiqili Komediya Teatrından ayrılıb Akademik səhnəyə yenicə gəlmiş Əməkdar artist, Komsomol mükafatı laureatı Arif Quliyev 1992-ci il noyabr ayının 16-da Xalq artisti fəxri adına layiq görüldü.

Əcəl aldı... Milli teatr sənətimizin məlahətli aktrisası Nəcibə Haşım qızı Məlikova (25 oktyabr 1921 – 26 iyul 1992) vəfat etdi. 1938-ci ildə Akademik teatrın səhnəsində ilk addımlar atan Nəcibə xanım müxtəlif teatrlarda, kinostudiyada işləmiş, 1952-ci ildən müəyyən fasilələrlə ömrünün sonunadək Akademik Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Onun Esterelya («Sevilya ulduzu», Lope de Veqa), Şölə xanım, Şəhrəbanu xanım («Lənkəran xanının vəziri»,

Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Xumar («Şeyx Sənan», Hüseyn Cavid), Safiyə xatun («Qılınc və qələm», Məmməd Səid Ordubadi), Zübeydə xanım («Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Qonça («Büllur sarayda», İlyas Əfəndiyev), Qadın («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Aqnessa («Orlean qızı», Fridrix Şiller), Sofya İvanovna («Zıkovlar», Maksim Qorki), Dilavər xanım («Mənziliniz mübarək!», Seyfəddin Dağlı) səhnə və Dilarə («Ögey ana»), Aygün («Aygün»), Cahan xala («Arşın mal alan»), Nərgiz xala («Əhməd haradadır?») kimi ekran rolları ürəklərdə yaşayır.

Dramaturqlar. Eldar Baxış (Eldar Baxış oğlu Ağayev 22.6.1947–22.5.1996). Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirib. Şair və jurnalistdir. «Qədr gecəsi» pyesini xalq oyun-mərasimlərinin motivləri əsasında yazıb.

Marat Xanlar oğlu Haqverdiyev (20.6.1938). Anası Cahan Əfruz da dramaturgiya ilə məşğul olub. Özü ixtisasca inşaatçıdır. Rus dilində yazdığı «Ox, qadınlar, qadınlar», «Qısqanc ürəklər» dramları tərcümə olunaraq AMDT-da oynanılmışdır.

1993-cü il

9 fevral. «Əcəb işə düşdük», Şıxəli Qurbanov.

2 hissəli komediya.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Rafael Əsədov, musiqi tərtibatçısı Sabir Əliyev.

Rollarda: Səyavuş Aslan və Aqşin Vəlixanov (Abış Surxayeviç), Əliabbas Qədirov və Eldəniz Zeynalov (Misirxanov), Kübrabəyim Əliyeva və Səidə Quliyeva (Əntiqə), Bəsti Cəfərova və Məleykə Əsədova (Dilarə), Abbas Qəhrəmanov və İftixar Piriyev* (İlqar), Hicran Nəsirova və Həqiqət Nəbiyeva (Məlahət), Əjdər Həmidov və Mahəddin Əsgərov (Zahid), Mahir Mirzəliyev və Pərviz Bağırov (Lütfiyar), Zemfira Əliyeva və Məhbubə Məlikova (Məsmə), Məcnun Hacıbəyov), Nazir Əliyev (İmran), Sadıq İbrahimov və Namis Şirməmmədov (Nadirov).

* *Qeyd.* İftixar Piriyev (İlqar) məşq etdi, ancaq tamaşada oynamadı.

18 may. Sabit Rəhmanın «Nişanlı qız» komediyasının tamaşası bərpa edildi.

24 may. «Qısqanc ürəklər», Marat Haqverdiyev.

2 hissəli komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Kamal Şıxəliyev, bəstəkar Həsənağa Qurbanov.

Rollarda: Yaşar Nuri Seyidbala (Rəhimov), Səmayə Məmmədova (Sevil), Laləzar Mustafayeva (Leyla), Arif Quliyev (Əjdər), Zemfira Əliyeva (Zübeydə), Məcnun Hacıbəyov (Murtuz Canquliyev), Nəcəf Həsənzadə (Ofisiant).

* * *

Respublika hakimiyyətində siyasi qüvvələrin çəkişməsi, müəyyən ixtilafların törənməsi, Xalq Cəbhəsinin dövlət strukturlarında bərqərar ola bilməməsi, ölkənin vətəndaş müharibəsi həddinə çatması... bütün sahələrdə olduğu kimi, mədəniyyət iqlimində də müəyyən gərginliklər yaratmışdı. Səhnənin yarımçıq qalmış avadanlıqlarını almaq üçün pul ayrılması ilin əvvəlindən yenə düyünə düşdü. Ən yüksək dairələrdə söz verilməsinə baxmayaraq, xarici avadanlıqları almaq üçün valyuta ayrılmadı.

Arada teatr Rusiyanın xariclə birbaşa əlaqəsi və müştərəkliyi olan firmaya çıxıb onların nümayəndəsini Bakıya dəvət etdi. Onun iqtisadi hesablamaları daha ucuz və qısa müddətə işi hasilə gətirmək üçün bəyənildi. Dövlət rəhbərliyinə sənədlər təqdim olundu... Ancaq teatr üçün yenə lazımi vəsait ayrılmadı.

Belə çəkilmə-qabarmalarla bağlı kollektivin sənətə münasibət ovqatında müəyyən inamsızlıq yarandı, rejissor və aktyorların yaradıcılıq həvəslərinə xal düşdü. Müəyyən klassik pyeslər üzərində işlər yavaş-yavaş saxlanıldı. Get-gedə işçilərə maaş vermək də problemə çevrildi. Aylarla zəhməthaqqı ala bilməyən aktyorların bir qismi əlavə işlərlə (biznes və sairə) məşğuliyyətə başladı.

Teatr, heç olmasa, gəlir gətirə bilən kassa tamaşası hazırlamaq məcburiyyətində qaldı. Məqsəd də bu oldu ki, yığcam və yüngül tərtibatlı komediyaların səyyar tamaşalarını göstərməklə teatra müəyyən gəlir gətirsin və onunla maaşların verilməsi təminatlandırılsın.

Rejissorlar Lütfi Məmmədbəyov dramaturq Şıxəli Qurbanovun «Əcəb işə düşdük», Mərahim Fərzəlibəyov isə Marat Haqverdiyevin «Qısqanc ürəklər» komediyalarını hazırlamaq təklifi ilə rəhbərliyə müraciət etdilər. Təəssüflər ki, bu müraciət-cəhdlərin heç biri sənət qələbəsinə çevrilmədi.

Teatrın Şıxəli Qurbanovun barəsində danışdığımız əsərinə iyirmi iki ildən sonra yenidən müraciəti tənqiddə müəyyən maraq doğurmuşdu. Aktyorlar da həvəslə məşq edirdilər. Quruluşçu rejissor Lütfi Məmmədbəyov bütün personajları iki ifaçı ilə məşq edirdi. Birinci və ikinci heyətlərlə qarışıq məşqlər aparılırdı. Sona yaxın heyətlər müstəqil məşq edirdilər və artıq hər aktyorun yöndaşı müəyyənləşirdi.

Rejissorun istəyini nəzərə alaraq rəssam Rafael Əsədov tamaşa üçün məhdud dekorlardan ibarət tərtibat vermişdi. Əsər üçün xüsusi musiqi yazdırmaq da xərc baxımından məqsədəuyğun sayılmadı. Sabir Əliyev seçmə nömrələrlə tamaşanın musiqi tərtibatını verdi. Tərtibatda ruhoxşayan, müəyyən bədii yük daşıyan mənalı, cazibədar tərtibat olmadığı kimi, musiqinin seçilməsində də sənətkarlıq, xüsusi səriştəli məqsəd duyulmurdu.

Məşqlər, demək olar, həftə ərzində fasiləsiz davam edir, hətta bəzi günlər səhər və axşam da aparılırdı. Məkanı istənilən səhnə ölçülərinə uyğun biçimə «salınan» «Əcəb işə düşdük» pyesinin ilk tamaşası fevralın 9-da Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının binasında oynanıldı.

İftixar Piriyevi (İlqar) çıxmaq şərtilə, tamaşa hər iki heyətin ifasında oynanılırdı. Abış Surxayeviçi Xalq artisti Səyavuş Aslan və Əməkdar artist Aqşin Vəlixanov, Misirxanovu Xalq artisti Əliabbas Qədirov və Əməkdar artist Eldəniz Zeynalov, Əntiqəni Kübrabəyim Əliyeva və Səidə Quliyeva, İmranı Əməkdar artistlər Məcnun Hacıbəyov və Nazir Əliyev, Məsməni Xalq artisti Zemfira Əliyeva və Məhbubə Məlikova, Zahidi Əjdər Həmidov və Mahəddin Əsgərov, Lütfiyarı Mahir Mirzəliyev və Pərviz Bağırov, Nadirovu Sadıq İbrahimov və Namis Şirməmmədov, Məlahəti Hicran Nəsirova və Həqiqət Nəbiyeva, Dilarəni Əməkdar artist Bəsti Cəfərova və Məleykə Əsədova, İlqarı Abbas Qəhrəmanov oynayırdılar. Rejissorla fikirləri üst-üstə düşmədiyi üçün İftixar Piriyev İlqar rolunu oynamaqdan imtina etdi.

Bir il sonra rejissorun təqdimatına əsasən Abış Surxayeviçi Nazir Əliyev, Misirxanovu Əjdər Həmidov, Məsməni Sevil Xəlilova da ifa etdilər.

Uzun fasilədən sonra Eldəniz Zeynalov kollektivdə səhnəyə ilk dəfə Misirxanov rolu ilə çıxdı. Çoxillik aktyorluq təcrübəsinə, qabiliyyət və bacarığına baxmayaraq, onun uzun müddət Akademik teatr səhnəsindən uzaq düşməsi tamaşada özünü göstərirdi. Aktyor ansambla tam daxil ola bilmirdi.

Dövlət Gənclər Teatrının aktrisası Məleykə Əsədova Əməkdar artist Bəsti Cəfərovaya dublyor verilmişdi. Bəstinin səhnə məlahəti, çevikliyi, şaqraq gülüşü və obrazın məqsədini dəqiq müəyyənləşdirməsi Dilarəni ifa baxımından nəzərəçarpan etmişdi. Milli teatrda ilk rolu olan Məleykə Əsədova səhnədə sıxıntı duyan, daxilən gərginlik keçirən təsiri bağışlayırdı. Aktrisanın bu vəziyyəti ötəri olmadı, hətta onuncu tamaşada da hiss edilirdi.

«Əcəb işə düşdük» tamaşasının premyerasından doqquz gün sonra ilk rolu ilə heç bir uğur qazana bilməyən Məleykə Əsədova Akademik teatrın kollektivinə ştata götürüldü. Qeyd edim ki, həmin dövrdə teatrda yeniyetmə aktrisa və aktyor yoxluğu açıq-aydın duyulurdu. Məleykənin, il yarım sonra Kazım Həsənquliyevin Akademik teatra qəbulu müəyyən mənada həmin boşluğu doldurmaq məqsədi daşıyırdı.

İlin ilk əsəri olan «Əcəb işə düşdük» tamaşasında rejissor nailiyyəti sayıla bilən cəhət yox idi. Lütfi Məmmədbəyov heç o təmənnada olmamışdı da və ona görə tamaşanın keyfiyyətinə dəlalət edə biləcək çox mətləbləri sərbəstcə aktyorların ixtiyarlarına buraxmışdı. Bu da tamaşada üslub qarışıqlığı, məqsəd qeyri-müəyyənliyi, janr sürüşkənliyi, səhnədə mətləbsiz, «sərbəst» davranma, özbaşınalıq yaratmışdı.

Səyavuş Aslanın oyun üslubunda qaravəlli, Nazir Əliyevin ifasında məsxərə, Eldəniz Zeynalovun hərəkətlərində fars, Məcnun Hacıbəyovun davranışında buffonada elementləri dominantlıq daşıyırdı. Ətrafın «sərbəstliyi» Əliabbas Qədirovun (Misirxanov) ciddi və maraqlı oyununu kölgədə qoyurdu.

Rejissorun, sabit olmasa da, təqdim etdiyi janrın poetika prinsiplərinə Kübrabəyim Əliyeva daha səriştəli və mənalı tərzdə əməl edirdi.

Şıxəli Qurbanovun «Əcəb işə düşdük» komediyasında dramaturqdan gəlmə vəziyyət qondarmaçılığı, mətləb uzunçuluğu var. Bəzi epizodlar ana xətlə bağlanmır və yalnız zahiri gülüş doğurmaq məqsədi daşıyır. Quruluşçu rejissor Lütfi Məmmədbəyov ya bilərəkdən, ya da diqqətsizlik nəticəsində səhnədə həmin qüsurları təkrarlamaqla, ümumilikdə, tamaşanın sürət-ritminə lənglik gətirmişdi.

Kollektivin may ayının 25-də Rus Dram Teatrı binasında ictimaiyyətə təqdim etdiyi Marat Haqverdiyevin «Qısqanc ürəklər» komediyası öz primitivliyi, qeyri-peşəkarlığı ilə daha tez nəzərə çarpırdı.

İnşaatçı Marat Haqverdiyevin ötən mövsümdə Mərahim Fərzəlibəyov tərəfindən tamaşaya qoyulmuş zəif «Ox, qadınlar, qadınlar» pyesindən sonra yenidən həmin müəllifin «Qısqanc ürəklər» kimi primitiv dramının səhnəyə gəlməsi özü müəmmalı idi. Bu pyes bədii şuranın müzakirəsinə verilmədən, rejissorun təkidi ilə repertuara daxil edilmişdi. Bəlkə də, ümid etmək olardı ki, Mərahim Fərzəlibəyov pyesin üzərində müəlliflə işləyəcəyinə, optimal qənaətə gələcəyinə arxalanaraq belə riskə getmişdi. Ancaq müəllifin teatra təqdim etdiyi əl yazısı ilə rejissor variantını tutuşduranda heç bir dəyişiklik edilmədiyi aydınlaşır. İlk növbədə, təəccüb doğuran da elə rejissorun bu laqeydliyi, səhlənkarlığı idi.

Mərahim Fərzəlibəyov sonralar özü dəfələrlə etiraf edirdi ki, son dərəcə nöqsanlı, ümumilikdə, dram janrının adi tələblərinə cavab verməyən «Qısqanc ürəklər»in repertuara daxil edilməsi, qüsurlu və hətta ziyanlı tamaşa hasilə gətirməsi məhz onun fərdi nöqsanıdır.

Mərkəzdə cəmi ikicə dəfə oynanılan (doqquz dəfə də səyyar «səhnələrdə» göstərilib) «Qısqanc ürəklər» tamaşasının Kamal Şıxəliyev tərəfindən verilmiş tərtibatının, bəstəkar Həsənağa Qurbanovun musiqisinin aparıcı funksiyaları, məqsədyönlüyü rejissor yozumunda aydınlaşmamışdı.

Quruluşçu rejissorun Sevil roluna dəvət etdiyi Səmayə Məmmədovanın qeyri-estetik ifası Akademik teatrın heç bir oyun-üslub ölçülərinə uyğun gəlmirdi. Laləzar Mustafayevanın (Leyla), Xalq artistləri Arif Quliyevin (Əjdər), Zemfira Əliyevanın (Zübeydə), Əməkdar artist Məcnun Hacıbəyovun (Murtuz Canquliyev) əməl-fəaliyyət xəttinin rejissor təyini mücərrəd qalmışdı. Bu, aktyorları çıxılmaz vəziyyətə

salmışdı və ümumi nəticədə ifaçıların səhnə davranışlarını məntiqsizliyə gətirib çıxarmışdı. Hətta Yaşar Nuriyev kimi fitri istedad sahibi də müəllif və rejissor labirintinin sonsuz qarmaqarışıqlığından xilas ola bilməmişdi.

Bu mövsümdə teatrın üçüncü yaradıcılıq cəhdi doqquz il əvvəl səhnəyə qoyulmuş Sabit Rəhmanın «Nişanlı qız» tamaşasını bərpa etmək oldu.

Tamaşanın quruluşçu rejissoru Məlik Dadaşov bir müddət Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında direktor işlədi. Doğma kollektivə qayıdanda (22 yanvar 1993) onun ilk təşəbbüsü «Nişanlı qız» tamaşasının bərpasını hasilə gətirib cari repertuara daxil etmək oldu.

«Nişanlı qız»ın bərpası mayın 18-də səhnədə göstərildi. Əvvəlki tamaşalardakı Bənövşə (Bəsti Cəfərova), Camal (Rafael Dadaşov), Mindilli (Səyavuş Aslan), Qasım (Rafiq Əzimov və Şahin Cəbrayılov) rollarının ifaçıları dəyişilmədi. Ceyran xalanın ifaçıları Mirvari Novruzova və Əminə Babayeva teatrdan çıxdıqlarına görə həmin rol Xalq artisti Zemfira Əliyevaya tapşırıldı. Zərifə rolunu oynayan Sevil Xəlilovanı Məleykə Əsədova əvəz etdi. Qəmər rolunda Həqiqət Nəbiyeva Əməkdar artist Zemfira Nərimanovaya, Firuz Xudaverdiyev Çeşməkli kişini oynayan Telman Adıgözəlova, Mahəddin Əsgərov Yusif obrazında İlham Əsgərova dublyor verildilər. Əməkdar artist Məcnun Hacıbəyovun məharətlə ifa etdiyi Mirzə Salman rolunu bərpadan sonra Əməkdar artist Nazir Əliyev maraqlı və cazibədar oynayırdı.

Yeni ifaçıların arasında Zemfira Əliyevanın da oyununda nəzərəçarpan müsbət cəhətlər vardı. Digər ifaçıların heç biri diqqətçəkən oyun nümayiş etdirə bilmədilər.

«Nişanlı qız» tamaşası bilavasitə rayonlarda, Bakı kəndlərində, hərbi hissələrdə oynanıldı. Rəssam Fuad Qafarovun tərtibatı quruluşçu rejissorun təklifi və təkidi ilə qat-qat yığcamlaşdırılıb sadələşdirilmişdi. Çünki əvvəlki quruluşdakı tərtibatı, asma və quraşdırma dekorları səyyar səhnələrdə yerbəyer etmək mümkün deyildi. Həmçinin teatr nəqliyyat çətinliyinə görə dekorları daşımaqda imkansız idi. Sıradan çıxmış yük maşınlarını yenisi ilə əvəz etməkdə nəinki teatr, Mədəniyyət Nazirliyi, hətta Nazirlər Kabineti də çətinlik çəkirdi.

Teatr rəhbərliyinin neçə illik ciddi səyinə baxmayaraq, 1989-cu ildən 1997-ci ilədək teatra heç bir texnika, nəqliyyat vasitəsi verilmədi. Açıq bazardan almağa isə teatrın heç cürə maliyyə imkanı yox idi.

1993-cü ildə teatrın əsas yaradıcı qüvvələrinin əksəriyyəti, demək olar, yenə «işsiz» qaldılar. Hətta elə qisim aktyorlar vardı ki, teatrın binası «təmirə» dayanandan bəri bir dəfə də olsun səhnəyə çıxmamışdı.

Başqa bir qisim aktyorlara isə təzə tamaşalarda rejissorlar rol tapşırmamışdılar.

Bütün bunlar təbii ki, Akademik Milli Dram Teatrının yaradıcılıq nüfuzuna xələl gətirir, ciddi sənət nailiyyətlərinə əngəl törədirdi. Müəyyən peşəkarlıq vərdişləri gücdən düşür, axtarış meyilləri yönünü, istiqamətini tapmamış yarımçıq sönürdü...

* * *

Qastrol. Bu il də bütün kollektivin birgə qastrola maddi imkan (yol haqqı, mehmanxana pulu, gündəlik xərclər və sairə) olmadı. «Nişanlı qız» Qubada, Qusarda, Xaçmazda, Dəvəçidə (6 – 15 iyul), «Qısqanc ürəklər» tamaşası isə Mingəçevirdə, Ağdaşda, Qəbələdə, İsmayıllıda, Ağsuda (23 – 29 iyul) göstərildi. Tamaşalar bəzən gündə iki dəfə – həm rayon mərkəzində, həm də kənddə oynanılırdı.

Teatrın tanınmış aktyorları Yaşar Nuriyev, Arif Quliyev, Səyavuş Aslan... yığcam dəstələr bağlayıb konsert-tamaşa proqramları, bədii teatral kompozisiyalarla cəbhə bölgələrində, döyüş zolaqlarında, səngərlərdə çıxışlar edirdilər. Bu iş elə qurulmuşdu ki, bütün döyüş yerləri mütləq əhatə olunurdu.

Truppada dəyişmə. Xalq artisti, SSRİ və Respublika Dövlət mükafatları laureatı, tanınmış kino aktyoru Həsən (Əbdülhəsən) Məmmədov noyabrın 21-də «Azərbaycanfilm» kinostudiyasından Akademik teatra aktyor ştatına keçdi.

Dövlət Gənclər Teatrının aktrisası Məleykə Əsədova (18 fevral) kollektivə qəbul edildi.

Rus Dram Teatrından uzaqlaşandan sonra Məlik Dadaşov yalnız pedaqoji fəaliyyətlə məşğul oldu. Mədəniyyət və İncəsənət Universitetində aktyorluqdan dərs dedi. Yanvarın 23-də Həsən Turabovun ciddi təkidi ilə o, teatra qayıtdı, həmçinin müəllimliyində qaldı.

Fəxri ad. İstedadlı aktyor, eyniadlı filmdə general Həzi Aslanov rolundan sonra daha da şöhrətlənən Ramiz Qəvvam oğlu Novruzov 1993-cü il fevral ayının 7-də Respublikanın *Əməkdar artisti* fəxri adına layiq görüldü.

1994-cü il

28 aprel. «Anamın kitabı», Cəlil Məmmədquluzadə.

4 məclisli dram.

Quruluşçu rejissor Həsən Əbluc, rəssam Şamil Nəcəfzadə, musiqi tərtibatçısı İsmayıl Dadaşov.

Rollarda: Safurə İbrahimova (Zəhra bəyim), Rafiq Əzimov (Rüstəm bəy), Əli Nurzadə və İlham Əsgərov (Mirzə Məhəmmədəli), Əjdər Həmidov (Səməd Vahid), Sevil Xəlilova və İradə Həsənova (Zivər xanım), Bəsti Cəfərova və Laləzar Mustafayeva (Gülbahar), Aqşin Vəlixanov və Elxan Ağahüseynoğlu (Senzor Mirzə Cəfər), Saleh Babayev və Pərviz Bağırov (Mirzə Həsən), Sabir Məmmədov (Teymur bəy), Namis Şirməmmədov (Qəmbər), Məzahir Cəlilov (Qurban), Əlicavad Cavadov (Zaman), Sadıq İbrahimov (Aslan bəy), Əsgər Məmmədoğlu (Hüseyn Şahid), Nazir Əliyev (Mirzə Baxşəli), Nəcəf Həsənzadə (Birinci hambal), Əlvida Cəfərov (İkinci hambal), Firuz Xudaverdiyev (Məşədi Cəfər), İlham Əsgərov və Əli Nurzadə (Atanın ruhu), Pərviz Bağırov və Saleh Babayev (Polis məmuru), İlqar Əliyev (Birinci fərraş), Kazım Həsənquliyev (İkinci fərraş).

18 sentyabr. «Məhəbbət yaşadır»,* Nahid Hacızadə.

2 hissəli kövrək məhəbbət tarixçəsi.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam İsgəndər İsmayılov, bəstəkar Taleh Hacıyev.

Rollarda: Bürcəli Əsgərov və Rafiq Əzimov (Cığatay), Məleykə Əsədova (Nübar), Kazım Həsənquliyev (Elcan), Səidə Quliyeva və Xalidə Şərifova (Nilufər), Məcnun Hacıbəyov və Hacı İsmayılov (Ziyad), Sevil Xəlilova (Gözəl).

* *Qeyd.* Bu tamaşadan başlayaraq fəxri adlar proqramlarda daha yığcam verildi: «Xalq artisti», «Əməkdar incəsənət xadimi, «Əməkdar artist», «Əməkdar rəssam» və sair.

26 dekabr. «Qaraağaclar altında ehtiraslar», Yucin O`Nil. Tərcümə edəni Bəhram Osmanov.

2 hissəli dram.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Rafis İsmayılov, musiqi tərtibatçısı İsmayıl Dadaşov.

Rollarda: Kamal Xudaverdiyev (Efraim Kebot), Laləzar Mustafayeva (Abbi Patnem), Abbas Qəhrəmanov (Ebin Kebot).

* * *

Mirzə Cəlilin gecikmiş yubileyi ilə əlaqədar Respublika teatrlarında ədibin tamaşaya qoyulmuş pyeslərinə baxış-müsabiqə keçirilməsi nəzərdə tutulmuşdu. Respublika Mədəniyyət Nazirliyinin və Teatr Xadimləri İttifaqının birgə keçirdikləri tədbirdə iştirak etmək məqsədilə bəzi sənət ocaqları əvvəlki maraqlı tamaşalarını bərpa edir (məsələn: GTT «Danabaş kəndinin məktəbi»ni oynadı), müəyyən teatrlar yeni əsər hazırlayırdılar.

Bu məqsədlə Akademik teatr rejissor Həsən Əblucun təklifi ilə Mirzə Cəlilin «Anamın kitabı» faciəsinin üzərində dayandı. Söhbətlərindən bu qənaətə gəlmək olurdu ki, Həsən Əbluc əsərin səhnə təcəssümü barədə üç ildən çoxdur fikirləşir, müəyyən səhnə variantlarını özü üçün işləyib. Danışıqlarında faciənin məzmunundakı incə mətləblərlə bağlı maraqlı fikirlər də söyləyirdi.

Mirzə Cəlil «Anamın kitabı» faciəsini 1919-cu ildə tamamlasa da, onun ilk tamaşası 11 aprel 1922-ci ildə mümkün oldu. İkinci quruluş isə 1923-cü il yanvarın 15-də göstərildi. Yetmiş bir illik müddətdən sonra Milli teatrın bu ölməz əsərə müraciətinin özəyində, ilk növbədə, respublikamızdakı ictimai-siyasi durum, ayrı-ayrı siyasi qüvvələrin, partiyaların milli həmrəylik çağırışlarının əmələ çevrilməməsi, yalnız sözdə, hay-küydə qalması dururdu. 1918 – 1919-cu illərdə Azərbaycandakı siyasi hərc-mərclik, beynəlxalq nüfuzlu Dünya ölkələrinin respublikamıza münasibətlərindəki haçalanma, qeyri-səmimilik, müəyyən mənada bilərəkdən qərəzlik mövqeyi tutmaları, milli sərvətlərimizin ağına-bozuna baxmadan talanı, millətin xaricə təfəkkür axını, mədəniyyətə laqeyd münasibət... eynilə əsərin oynanıldığı günlərdə də mövcud idi.

Həsən Əbluc əvvəldən yazdığı rejissor eksplikasiyasında bunu xüsusi vurğuladığı kimi, səhnədə də ona ayrıca məntiqi diqqət yetirirdi. Məşqlərdə öz məqsədini ifaçı aktyorlara dönə-dönə bəyan edirdi.

Tamaşanın rəssamı, Akademik teatrda ilk işi olan Şamil Nəcəfzadə miniatür ölçü-formalarda verdiyi tərtibatda rejissorun izlədiyi ideyanı, Mirzə Cəlil fəryadının fəci ağrılarını həssaslıqla saxlaya bilmişdi. Onun dekorlar, əlbəsə üçün seçdiyi rənglərdə üşənti verən soyuqluq, vahimə, səksəkə ruhu vardı. Bu, faciənin mövzu-problematikasının, Zəhra bəyimin övladları Rüstəm bəyə, Mirzə Məhəmmədəliyə, Səməd Vahidə və Gülbahara təqdim etdiyi ata vəsiyyətinin məhz «Ana kitabı» kimi mənalandırılmasının dramaturq məramına, rejissor məqsədinin məzmununa uyğun idi.

İsmayıl Dadaşovun musiqi tərtibatında həmin ruh tam, bütöv şəkildə olmasa da, müəyyən epizodlarda nisbətən saxlanılmışdı. Ancaq yenə də seçilən musiqi Mirzə Cəlilin fəlsəfəsini, Mirzə Cəlilin qəm fəryadını təmsil edə bilmirdi.

Adətən, əsər üzərində aramla, ağıryana işləyən Həsən Əbluc «Anamın kitabı»na da eyni münasibətlə, ancaq saatlarla, yorulmadan, gərginliklə işləyirdi. Teatrın ikinci mərtəbəsindəki bədii şura otağında proqon məşqlər gedirdi, geyimlər sınaqdan çıxarılır, qrimlər dəqiqləşdirilirdi. Nəzərdə tutulmuşdu ki, faciənin ilk tamaşası Novruz bayramında oynanılsın. Həmin səviyyədə işləməklə yaradıcı heyət mütləq istəyinə nail olacaqdı.

Martın 14-də günortadan bir az keçmiş məşq zamanı Həsən Əblucun ürək ağrıları başladı. Təcili yardım çağırıldı, müəyyən iynələr vuruldu. Halı nisbətən yaxşılaşdı və heç yarım saat keçməmiş vəziyyət yenə dəyişdi. Xəstəxanaya aparılan Həsən Əblucu ölümün pəncəsindən xilas etmək mümkün olmadı.

Dünyasını dəyişən sənət dostumuzun işini tamamlamaq mərhumun qardaşı, kinorejissor Ənvər Əbluca həvalə edildi.

Bütün teatr kollektivinin, bilavasitə tamaşa iştirakçılarının yaxından qayğısı sayəsində Həsən Əblucun müstəqil aktyor yaradıcılığına başladığı Gənc Tamaşaçılar Teatrının binasında aprelin 28-də «Anamın kitabı» tamaşası oynanıldı.

Əməkdar artist, Dövlət mükafatı laureatı Safurə İbrahimovanın Zəhra bəyimi aktrisanın son yeddi-səkkiz ildə ən uğurlu rolu kimi səciyyələndirildi. Əməkdar artistlər Bəsti Cəfərovanın Gülbahar, Aqşin Vəlixanovun Senzor Mirzə Cəfər bəy, aktyorlar İlham Əsgərovun Mirzə Məhəmmədəli, İradə Həsənovanın Zivər xanım, Əjdər Həmidovun Səməd Vahid, Sabir Məmmədovun Teymur bəy rolları ifa səlistliyi baxımından tamaşanın janr ruhuna daha uyğun idi.

Teatrın öz səhnəsinin hazır olmaması ucbatından «Anamın kitabı» tamaşası ikicə dəfə oynanıldı. Mərhum sənətkar Həsən Əblucun ölümündən sonra uğurlu rejissor işinə görə böyük bir firmanın təsisçisi olduğu «Həsən Turabov mükafatı»na layiq görüldü. «Anamın kitabı» baxış-müsabiqədə də bədii bütövlüyü baxımından tənqidin diqqətindən yayınmadı, ayrıca qeyd edildi.

Binanın işləməməsi yenə teatrı repertuar seçməkdə çətin vəziyyətdə qoyur, rəhbərlik müəyyən sənət güzəştlərinə getmək məcburiyyətində qalırdı. «Otello»nun məşqləri sona çatsa da, quruluşçu rejissor Cənnət Səlimova tamaşanı başqa binada oynamağa qəti etiraz edirdi. Şekspirin «Kral Lir» faciəsinin məşqlərini rejissor Bəhram Osmanov yarımçıq saxlamalı olmuşdu.

Bina ilə əlaqədar gərginliyi, ötən ildən mövcud olub, hələ də davam edən maliyyə çətinliklərini nisbətən yüngülləşdirmək məqsədilə teatr kamera pyesinə müraciət məcburiyyətində qaldı. On iki il əvvəl teatrın Kiçik səhnəsində Lütfi Məmmədbəyovun rejissorluğu ilə hazırlanıb oynanılmış Nahid Hacızadənin (Hacıyevin) «Məhəbbət yaşadır» dramı yenidən repertuar planına daxil edildi. Tamaşanın rejissorluğu bu dəfə də Lütfi Məmmədbəyova tapşırıldı.

Quruluşçu rejissorun tamaşanın başqa kiçikhəcmli müxtəlif səhnələrdə oynanılacağını əsas götürüb təklif etdiyi formanı rəssam, Əməkdar mədəniyyət işçisi İsgəndər İsmayılov bədii tərtibatda saxlamağa çalışmışdı.

Məşhur bəstəkar, gözəl mahnılar müəllifi Şəfiqə xanım Axundovanın oğlu Tale Hacıyev «Məhəbbət yaşadır» tamaşasının musiqisini yazmaq üçün teatra dəvət olundu. Gənc bəstəkar əsərə emosional mövzunu həssaslıq ruhunda təcəssüm etdirən lirik ovqatlı xoş musiqi bəstələdi. Onun bəstəsi həm özü atribut obraz idi, həm də ifaçıların fərdi mövzularının düzgün istiqamətdə təfsirinə təkan verirdi.

«Məhəbbət yaşadır» lirik dramının ilk tamaşası sentyabr ayının 18-də Gənc Tamaşaçılar Teatrının səhnəsində oynanıldı. Kamera tamaşası forma-üslub tələblərinə cavab verən bu tamaşa bədii təqdimatının əlverişli olması baxımından repertuarda davamlı duruş gətirdi. Tamaşalar, əsasən, GTT-də, Rus Dram Teatrı binasında, o cümlədən Bakının mədəniyyət saraylarında, ali məktəblərdə, rayonlarda oynanılır və maraqla qarşılanırdı.

Ənənəvi süjetdə, dəfələrlə işlənmiş kiçik ailə-məişət mövzusunda hekayəti səmimiyyətlə qələmə almış Nahid Hacızadənin qəhrəmanları Cığatay, Nübar, Elcan, epizodik obrazlar Nilufər, Ziyad və Gözəl kamera janrının tələbləri dairəsində işlənmişdi. Lütfi Məmmədbəyov da onlara kəskin ictimai ruh aşılamadan, psixoloji müdaxilə etmədən olduğu kimi təfsir verməyə çalışmışdı.

Məleykə Əsədova Nübar rolu ilə aktyorluğuna müəyyən inam yaratmağa səy göstərirdi. Elcanı oynayan bacarıqlı gənc Kazım Həsənquliyevin daxili soyuqluğu, quruluğunun obrazın emosionallığını boğması aktyorun özünü sübut cəhdini nisbətən kölgələyirdi.

Ziyad rolunun ifaçıları, Əməkdar artistlər Məcnun Hacıbəyovla Hacı İsmayılovun məzmunca eyni, rəng palitrası baxımından isə kəskin fərqlənən oyunları tamaşanın yumor ruhunu tənzimləyən barometri xatırladırdı. Aktyorların təqdim etdikləri yumorda güclü həyat nəfəsi, qəmə diz verməmək, yaxşılığa ehtiram göstərmək təbiiliyi vardı.

Səidə Quliyevanın coşqun hərəkətlərlə, ehtiraslı daxili çırpıntı ilə oynadığı Nilufər və Sevil Xəlilovanın səmimiyyət, sadəlövhlük aşıladığı Gözəl istiliyi, tamaşaçı məhrəmi qazanması ilə maraq doğururdu.

«Məhəbbət yaşadır» tamaşası iki ildə iki yüz dəfədən çox göstərildi.

Yığcam tamaşa hazırlamaq tərcümə pyesləri seçməyə də sirayət edərək öz təsirini göstərdi. Kəskin ictimai-sosial konfliktləri, psixoloji xarakter toqquşmalarını xoşlayan Bəhram Osmanov «Kral Lir» üzərində işini yarımçıq qoymaq məcburiyyətində qalandan sonra məşhur Amerika dramaturqu Yucin O`Nilin 1924-cü ildə qələmə aldığı «Qaraağaclar altında məhəbbət» dramına müraciət etdi. Bu, Milli teatrın O`Nil dramaturgiyasına Tofiq Kazımovun 1971-ci ildə tamaşaya qoyduğu «Qızıl»dan sonra ikinci müraciət idi. Azərbaycanda ikinci dəfə oynanılan pyesi (birinci dəfə 1927-ci ildə Bakı İşçi Teatrında

tamaşaya qoyulub) Bəhram Osmanov özü tərcümə etmişdi. Onun çevirməsi tərz-ifadə baxımından aktyorlar üçün diləyatımlı idi.

Əsər «Qaraağaclar altında məhəbbət» adı ilə məşq edildi, daxili baxış oynanıldı. Ancaq rəhbərliyin təkidi ilə tamaşanın adı afişalarda «Qaraağaclar altında ehtiraslar» yazıldı.

Tamaşa teatr üçün cüzi xərc bahasına başa gəldi. Musiqi tərtibatı İsmayıl Dadaşovun idi. Üç ifaçısı olan tamaşa üçün teatrın qarderobundan geyimlər seçilmişdi. Rəssam Rafael İsmayılov əldə olan hazır texniki qurğulara əsaslanan tərtibat vermişdi.

Üçbucaq süjeti təmsil edən dramın obrazlarını tamaşada Xalq artisti Kamal Xudaverdiyev (Efraim Kebot), Laləzar Mustafayeva (Abbi Patnem) və Abbas Qəhrəmanov (Ebin Kebot) oynayırdılar.

Bəhram Osmanov tamaşanı qısa müddətə hazırlayıb təhvil verdi. Kral Lirin məşqlərindən sonra Kamal Xudaverdiyev yeni səpkidə məharətlə məşq edirdi. Abbas və Laləzarın təzə oyun tələb edən ifalarında da xoşagəlimlik vardı.

«Qaraağaclar altında məhəbbət» tamaşasının premyerası (həmçinin son tamaşası) Musiqili Komediya Teatrının binası yenidən tikildiyi üçün müvəqqəti fəaliyyət göstərdiyi 26-lar Mədəniyyət sarayında, dekabrın 26-da oldu. Tamaşa hazır əsər kimi repertuarda saxlanıldı, lakin oynanılmadı. Repertuarda o ümidlə saxlanıldı ki, teatrın binası təhvil veriləndə bir neçə məşqə unudulan mizanları, sözləri yerbəyer edib yenidən tamaşaçılara göstərilsin.

Bəhram Osmanov Yucin O`Nilin pyesini məşq edəndə teatrda paralel şəkildə başqa əsərlərin üzərində mizarxası, qurama məşqləri də gedirdi. Ancaq onlar tamaşaçılara bir neçə ay sonra 1995-ci ildə göstərildi.

Şair-dramaturq Nəriman Həsənzadə ilin sonunda «Pompeyin Qafqaza yürüşü» mənzum-dramatik xronikasını yenidən işləyib teatra təqdim etdi. Həmin əsərin ilk oxunuşunda mövzuya rejissor Bəhram Osmanov maraq göstərmişdi. Elə müəyyən qeydləri də müəllifə o söyləmişdi. Rəhbərliklə də razılığa gəlmişdi ki, «Pompeyin Qafqaza yürüşü» pyesinin məşqlərinə yalnız «Kral Lir» təhvil veriləndən sonra başlanılsın. Bu qərar 1995-ci ildə də qüvvədə qaldı.

Quruluşçu rejissor Lütfi Məmmədbəyovun özünün rəhbərliyi ilə «Məhəbbət yaşadır» tamaşası Şəmkir, Gədəbəy və Tovuzda

(18 – 30 sentyabr), Neftçala və Salyanda (24 – 31 oktyabr) dəfələrlə oynanıldı.

İlyas Əfəndiyevin «Dəlilər və ağıllılar» komediyasının tamaşası isə Zaqatala və Şəkidə (22 – 31 iyul) göstərildi.

Aktyor Yaşar Nuriyev müxtəlif rayonlara fərdi qastrola çıxdı.

* * *

Truppada dəyişmə. Saleh Babayev və Mahəddin Əsgərov (1 fevral), Füzuli Hüseynov (15 aprel), Mirzə Ağayev (1 avqust), Məhbubə Məlikova (7 sentyabr) teatrdan ayrıldılar.

Xalq artisti, Stalin və Respublika Dövlət mükafatları laureatı Leyla xanım Bədirbəyli (3 mart) və Naxçıvanın Əməkdar artisti Nurəddin Quliyev (18 aprel) teatra qayıtdılar.

Gənclərdən Münəvvər Əliyeva (Sabir qızı) iyulun 22-də, Kazım Həsənquliyev sentyabrın 1-də, Lənkəran Dövlət Dram Teatrının aktrisası Xalidə Şərifova mayın 5-də kollektivin üzvü oldular.

Əcəl aldı... Respublikanın Əməkdar artisti Həsən Əbluc (22 aprel 1942 – 14 mart 1994) Mirzə Cəlilin «Anamın kitabı» faciəsini qızğın məşq edirdi. Məşqin birində onun ürəyindən sancı tutdu və təcili yardımla xəstəxanaya aparılan rejissor elə həmin gün orada keçindi.

Azərbaycanın Əməkdar artisti, bir sıra maraqlı səhnə surətləri yaratmış, mərhum aktyor Əli Zeynalovun arvadı Mirvari Balahacı qızı Novruzova (21 mart 1923 – 20 mart 1994) dünyasını dəyişdi.

1995-ci il

12 yanvar. «Min illərin işığı», Kamil Abdullayev.

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Mehriban Ələkbərova*, rəssam Elçin Məmmədov, bəstəkar Cavanşir Quliyev, rejissor köməkçisi Xəzangül Talıbova.

Rollarda: Rafiq Əzimov və İlham Əsgərov** (Şeyx Pir Sultan), Pərviz Bağırov, Abbas Qəhrəmanov, Əjdər Həmidov, Fikrət Vəliyev, Saleh Babayev, Məzahir Cəlilov və Əlvida Cəfərov (dərvişlər), Sadıq İbrahimov (Soltan Mahmud Paşa), Bürcəli Əsgərov (Xoca Abdulla),

Zemfira Əliyeva (Reyhan xanım), Səidə Quliyeva (Səlimə xanım), Ramiz Novruzov (Nizaməddin), Yaşar Nuri (Qoca), Ramiz Məlikov (Nofəl), Firuz Xudaverdiyev (Qoca), Sofiya Bəsirzadə (Qarı), İlqar Vəliyev və Rəşid Rzayev (Zeyd), Sevil Abbasova (Leyli), Loğman Kərimov, İlqar Vəliyev və Rəşid Rzayev (Qeys).

* *Qeyd.* Mehriban xanım sonradan soyadını «Ələkbərzadə» yazdırdı.

** *Qeyd.* Binasızlıq ucbatından tamaşa bir dəfə oynanıldı. Buna görə İlham Əsgərov (Şeyx Pir Sultan), həmçinin GTT-nin aktyoru Loğman Kərimov, tələbə Rəşid Rzayev (Qeys) və İlqar Vəliyev (Zeyd) öz rollarını oynamadılar.

8 aprel. «Dindirir əsr bizi...», Davud Aslan. Pyesdə Mirzə Ələkbər Sabirin şeirlərindən istifadə olunub.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Cahangir Əliyev, rejissor assistenti Məzahir Cəlilov.

Rollarda: Sabir Məmmədov (Mirzə Ələkbər Sabir), Rafiq Əzimov (Vəli), Xalidə Şərifova (Sabah), Münəvvər Sabirqızı (Fərəh), Məzahir Cəlilov (Molla Nağı), Əlvida Cəfərov (Teymur), Firuz Xudaverdiyev (Molla Vəli), Pərviz Bağırov (Həmid), Kazım Həsənquliyev (Əli), Nəcəf Həsənzadə (Qoca).

18 may. «Ana intiqamı», Vidadi Babanlı.

2 hissəli dram.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Rafael Əlizadə, musiqi tərtibatçısı İsmayıl Dadaşov.

Rollarda: Leyla Bədirbəyli və Zemfira Əliyeva* (Qumru müəlliməsi), İlqar Vəliyev** və Mətləb Abdullayev (Qaraxan), Məleykə Əsədova (Şahanə), Nazir Əliyev (Qafar), Məzahir Cəlilov (Mərdan), Namis Şirməmmədov (Zabit), Sabir Məmmədov (Mahmudov), Elxan Ağahüseynoğlu (Professor), Əjdər Həmidov (Yerli müəllim), Nəcəf Həsənzadə (Arakel), Kazım Həsənquliyev (Erməni əsgəri), Safurə İbrahimova (Səltənət), Həqiqət Nəbiyeva (Hayqanuş).

* *Qeyd.* Zemfira Əliyeva rola hazır olsa da, tamaşada Qumru müəlliməni oynamadı. Həmin rolu daha çox tamaşaya sonradan daxil olan Laləzar Mustafayeva ifa etdi.

** *Qeyd.* İlqar Vəliyev məşq elədi, ancaq tamaşada Qaraxan rolunu oynamadı.

24 may. «Qisas qiyamətə qalmaz», Nahid Hacızadə.

2 hissəli dram.

Azərbaycan Respublikasının istiqlalına ithaf.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Rafael Əsədov, bəstəkar Adil Bəbirov.

Rollarda: Həsənağa Turablı*, Əliabbas Qədirov** və Həsən Məmmədov (Umud), Yaşar Nuri və Hacı İsmayılov (Simran), Bürcəli Əsgərov və Nazir Əliyev (Curxan), Leyla Bədirbəyli***, Zemfira Əliyeva və Safurə İbrahimova (Salatın), Məleykə Əsədova və Vəfa Zeynalova (Mehri), Ramiz Novruzov və Fikrət Vəliyev (Qoşqar), Kazım Həsənquliyev və İntiqam Əsgərov**** (Rövşən), Elşən Şahinoğlu və Rəşid Səməndər (Nurlan).

* *Qeyd.* Həsən Turabovun soyadı bəzi proqramlarda «Turablı» yazılıb.

** *Qeyd.* Əliabbas Qədirov məşq elədi, ancaq tamaşada Umud rolunu oynamadı.

*** *Qeyd.* «Ana intiqamı» əsərində paralel məşqlər getdiyi üçün Leyla xanım Salatın rolunu oynamadı.

**** *Qeyd.* Aktyorluq fakültəsinin tələbəsi İntiqam Əsgərov həmin ərəfədə xəstələndiyi üçün Rövşən rolunu oynamadı.

4 iyun. Kiçik səhnədə. «Müəmmalı bir qətlin üç versiyası». Ryunesko Akutaqava.

1 hissəli faciə.

Müəllifin «Cəngəllikdə» hekayəsi əsasında səhnələşdirəni Elmira Əliyeva, quruluşçu rejissor Mehriban Ələkbərzadə, rəssam Elxan Haqverdiyev, musiqi tərtibatçısı İsmayıl Dadaşov.

Rollarda: Şükufə Yusupova (Qadın), Rafiq Əliyev* (Qatil), Abbas Qəhrəmanov (Ər), Elxan Quliyev və Fikrət Vəliyev (şahidlər).

* *Qeyd.* Rafiq Əliyev Gənc Tamaşaçılar Teatrından dəvət edilmişdi.

12 dekabr. «Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli.

Siyasət fonunda 2 hissəli məhəbbət dramı.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Lətifə Quluzadə, musiqi tərtibatçısı İsmayıl Dadaşov, rejissor köməkçisi Rəfiqə Musayeva.

Rollarda: Ağqoyunlular: Kamal Xudaverdiyev (Ata), Hicran Nəsirova (Ana), Ramiz Novruzov (Əmi), Məzahir Cəlilov (Dayı), Məleykə Əsədova (Fidan).

Qaraqoyunlular: Yaşar Nuriyev və Məcnun Hacıbəyov (Ata), Səidə Quliyeva və Laləzar Mustafayeva* (Ana), Elxan Ağahüseynoğlu və Rafiq Əzimov (Əmi), Ramiz Məlik** (Dayı), İradə Ağasıbəyli*** (Bibi), Kazım Həsənquliyev (Fərid).

* *Qeyd.* Laləzar Mustafayeva məşq elədi, ancaq tamaşada Ana rolunu oynamadı.

** *Qeyd.* Bu tamaşadan başlayaraq proqram və afişalarda Ramiz Məlikovun soyadı «Məlik» kimi də yazıldı.

*** *Qeyd.* İradə Həsənovanın soyadı bu tamaşadan başlayaraq proqramlarda «Ağasıbəyli» kimi də yazıldı.

* * *

Bakıda 1990-cı ilin 20 Yanvar müsibətindən sonra teatrın həmin mövzuda pyes yazmaq çağırışına qoşulanlar oldu, ancaq hazır əsər ortalığa çıxmadı. Həmin il yeni tamaşalara quruluş verməyən teatr bir neçə klassik əsər üzərində dayanmaqla yanaşı, Kamil Abdullayevin «Qeys və Leyli» pyesinə də maraq göstərdi. Füzulinin «Leyli və Məcnun» poemasının süjeti ətrafında, tarixi-etnik, mənəvi-estetik problemlər məhvərində Kamil Abdullayev ciddi, ictimai-siyasi məhəbbət elegiyası yazmışdı.

Məlum süjetə yeni rakursdan yanaşma, konfliktin ictimai-sosial dərinliklərə getməsi, fəlsəfi-əxlaqi dünyagörüşlərindən şirələnməsi, Şeyx Pir Sultan, Qoca, Nizaməddin, Sultan Mahmud Paşa, Xoca Abdulla kimi müdrik həyati obrazları ilə maraq doğuran «Qeys və Leyli» pyesi bədii şuranın tövsiyəsi ilə qəbul edildi. Akademik teatrda bədii şuranın üzvü Vaqif İbrahimoğlu fəlsəfi məhəbbət faciəsi janrında yazılmış «Qeys və Leyli»ni tamaşaya hazırlamaq istədi. Ancaq işlədiyi «Yuğ» teatrında iki paralel tamaşa üzərində işlədiyindən və kollektiv Türkiyə səfəri ərəfəsində olduğundan Vaqifin niyyəti həyata keçmədi.

Diplom işindən («Dəfn edilməmiş ölülər», Jan Pol Sartr) sonra Akademik teatrda tamaşa hazırlamamış Mehriban Ələkbərova pyes

üzərində işləməyə başladı. Arada müəyyən səbəblər ucbatından bir neçə dəfə üç-beş ay fasilələrlə məşqlər davam etdirilirdi. Səhnə hazır olmadığına görə məşqlər kiçik məşq salonlarında, Qeys-Leyli səhnələrinin hazırlığı teatrın ikinci qatdakı işıqlı foyesində aparılırdı.

Tamaşanın rəssamı Elçin Məmmədov tərtibatın maketini hazırlayıb bədii şuranın müzakirəsinə vermişdi. Cüzi qeydlərlə tərtibat bəyənilmiş və icra üçün bədii quruluş sahəsi xidmətinə verilmişdi. Quruluşçu rejissorun tamaşanın bəstəkarı Cavanşir Quliyevlə işi də sona çatmışdı. Həsən Turabovun Kiçik səhnədə rejissorun bir növ baxış kimi təqdim etdiyi «Qeys və Leyli»yə baxıb bəyənməsinə baxmayaraq, tamaşanın premyerası daha iki ilə qədər uzandı.

1994-cü ilin dekabrından Mehriban Ələkbərova intensiv şəkildə məşqlərin bərpasına başladı. «Qeys və Leyli» adı dəyişdirildi və «Min illərin işığı» adı ilə 1995-ci il yanvarın 12-də Rus Dram Teatrının binasında premyerası göstərildi. Bu həm premyera, həm də son tamaşa oldu. Sonralar bina kirayəsinin çətinlikləri, bu sahədə nə dramaturqun, nə də rejissorun səriştəsinin olmaması ucbatından «Min illərin işığı» tamaşası teatrın öz binasının açılacağı günədək ehtiyat repertuar siyahısına daxil edildi.

Quruluşçu rejissor «Min illərin işığı» adını pyesin ideyasını, dramaturq fikrini açmaq üçün kod kimi götürmüşdü. Bu işıq məhəbbət işığı idi, bu işıq xalq təfəkküründün müdriklik yolunun işığı idi. Rejissor həmin işığın nəsil ötürücülərini Şeyx Pir Sultan (Rafiq Əzimov) – Nizaməddin (Ramiz Novruzov) – Qeys (İlqar Vəliyev) və Leyli (Sevil Abbasova) obrazlarının timsalında təcəssüm etdirmişdi. Məhəbbət və idrak həqiqət-əfsanələrinin yayıcıları kimi yeddi dərviş (Pərviz Bağırov, Abbas Qəhrəmanov, Əjdər Həmidov, Fikrət Vəliyev, Saleh Babayev, Məzahir Cəlilov və Əlvida Cəfərov) götürülmüşdü. Oyunları səma dərvişlərinin həyat tərzi prinsipləri üzərində qurulan aktyorların müəyyən məqamlarda dramatik «icraçı» kimi görünmələri poetikliyi pozurdu.

Rejissor Qeys və Leylinin məhəbbət duyğularını sözlə hərəkətin qarşılıqlı əvəzetmələrində vermişdi. Bəzən aktyorların hərəkətlərin məhvərindən çıxa bilməmələri və rejissorun da «xəsislik etməməsi» yoruculuğa səbəb olurdu. Leylini xeyli müddət rejissorların diqqətin-

dən kənarda qalan Sevil Abbasova oynayırdı. Güman etmək olardı ki, onun ifası, həmçinin bütövlükdə tamaşanın özü oynanıldıqca cilalanacaq.

Qeysin birinci ifaçısı İlqar Vəliyev emosional gücü, daxili ifadə vasitələri, texniki vərdişlərinin icrası ilə quruluşçu rejissorun tələblərindən aşağı idi. Aktyorun «gücsüzlüyü» ümumi həzin poetikliyə xələl gətirirdi. Qeysi Gənc Tamaşaçılar Teatrının aktyoru Loğman Kərimov və mərhum səhnə ustası Səməndər Rzayevin oğlu, aktyorluq fakültəsinin dördüncü kurs tələbəsi Rəşid Rzayev də məşq edirdilər. Məşqlərə dəfələrlə baxdığım üçün əminliklə deyə bilərəm ki, Rəşidin oyunu dramaturqun qayəsinə və rejissorun lirik-romantik ruhuna daha yaxın görünürdü.

Lirik-romantik-poetik faciə notunun oyun-üslubda dominant götürüldüyü epizodlarda Bürcəli Əsgərov (Xoca Abdulla), Sadıq İbrahimov (Soltan Mahmud Paşa), Yaşar Nuriyev (Qoca), Sofiya Bəsirzadə (Qarı), Zemfira Əliyeva (Reyhan xanım), Səidə Quliyeva (Səlimə xanım) tamaşanın ümumi ruhundan çıxmırdılar. O yerdəki ölçü rejissorun diqqətindən qaçmışdı və aktyorlar da dramatik faciənin ictimai ruhunu pafosla yükləyirdilər, onda Nizaməddin (Ramiz Novruzov), Nofəl (Ramiz Məlikov), Qoca (Firuz Xudaverdiyev) bəzi səhnələrdə dərvişlər, Xoca Abdulla (Bürcəli Əsgərov) obrazları ifa baxımından tamaşanın janrında parçalanma yaradırdılar.

«Min illərin işığı» tamaşasında bütün bədii-texniki göstəricilərin tələbləri, janr-üslubun, mövzunun poetikası baxımından Cavanşir Quliyevin musiqisi daha poetik və bütöv təsiri bağışlayırdı. Musiqinin dərvişlər, Leyli və Qeys mövzuları cazibədarlığı, emosional obrazlılığı ilə seçilirdi.

Elçin Məmmədovun tərtibatının texniki miqyasları Akademik teatrın səhnə ölçülərinə əsaslandığına görə səhnənin güzgüsü, dərinliyi az qala bir dəfə kiçik olan Rus Dram Teatrında öz effektini xeyli itirmişdi. Asma pərdələr iç-içə girdiyi üçün fəza-yer-oyun ölçüləri məhdudlaşmışdı.

Ümumi aktyor təfsirində rejissorun aktyor hərəkətlərindən «səxavətlə» istifadəsi tamaşanı azı iyirmi-iyirmi beş dəqiqə uzatmışdı.

Bu ilin ən uğursuz tamaşası Davud Aslanın «Dindirir əsr bizi...» səhnə əsəri idi. Əsər Mirzə Ələkbər Sabirin həyatından bəhs etdiyinə görə maraq doğururdu. Pyesi quruluşçu rejissor Mərahim Fərzəlibə-

yov özü bəyənib seçmişdi. Məşqləri də sürətlə aparıb qısa müddətə tamaşanı təhvil verdi. Baş məşqlər prosesində teatrın bədii şurasının bəzi üzvləri əsərə baxmış və rejissor işindəki çiy, qüsurlu cəhətləri qeyd etmişdilər. Rejissor da onları düzəldəcəyinə söz vermişdi. Ancaq premyerası aprelin 8-də Gənc Tamaşaçılar Teatrının binasında oynanılan tamaşanın qeyri-peşəkarlığı göstərdi ki, Mərahim Fərzəlibəyov tutulan iradların heç birini düzəltməmişdir. Ortalığa səliqəsiz formalı (rəssam Kamal Şıxəliyev), musiqisi mətnlə uyuşmayan (musiqi tərtibatı Cahangir Əliyevindir), səliqəsiz mizanlı, fərdi oyunları biri-birini tamamlamayan, aktyor ansamblından məhrum tamaşa çıxmışdı.

Quruluşçu rejissor Akademik teatrda ilk rolu olan Münəvvər Sabirqızı (Fərəh), kollektivdə bərkiyib bişməmiş Sabir Məmmədov (Mirzə Ələkbər Sabir), Xalidə Şərifova (Sabah), Kazım Həsənquliyev (Əli) ilə də tutarlı məşq aparmamış, onları bir növ öz «yağlarında qovrulmağa» təhrik etmişdi.

«Dindirir əsr bizi...» tamaşasına baxan teatr ictimaiyyəti və rəhbərlik onu birmənalı qarşıladı: tamaşanı indiki təqdimatında bir daha göstərmək olmaz. Düzdür, tamaşa qadağan edilmədi, nə də bağlanmadı. Mərahim Fərzəlibəyova tapşırıldı ki, on nöqtə məşq vaxtı alıb tamaşanı redaktə etsin. Mərahim yenə razılıq verdi... amma daha ciddi nöqsanları aradan qaldırmaq mümkün olmadı. Premyeradan başqa bir dəfə də GTT-də, iki dəfə məktəblərdə oynanılandan sonra tamaşa göstərilmədi.

Teatr Qarabağ faciəsi, Azərbaycan – Ermənistan müharibəsi mövzusunda bir neçə yazıçı ilə söhbət aparıb vətənpərvərlik ruhlu pyes sifariş verdi. Təklif razılıqla qarşılansa da, bəhrə vermədi, yəni pyes yazan olmadı. Teatrın öz gücü hesabına tamaşa-kompozisiya hazırlamaq cəhdinə də yazıçılardan hay verən olmadı.

1993-cü ildə «Səhər» qəzeti nasir Vidadi Babanlının «Ana intiqamı» povestini parçalar şəklində çap edirdi. Uzun ayrılıqdan sonra doğma kollektivə qayıtmaq istəyən Leyla xanım Bədirbəyli povesti bəyənib müəllifə onun səhnə variantını işləməyi təklif etmişdi. Teatr bu təklifi dəstəkləyərək Vidadi Babanlı ilə söhbət apardı.

Yazıçı, özünün etiraf etdiyi kimi, həvəslə işə başladı. 1994-cü il dekabrın 14-də əmr (№17) verildi ki, Vidadi Babanlının «Ana intiqamı» pyesi tamaşaya hazırlansın. İlk rol bölgüsü də müəyyənləşdirildi. An-

caq sonralar rejissor Bəhram Osmanovla müəllif əsər üzərində əsaslı şəkildə yenidən işlədilər, bir sıra səhnə və epizodları ixtisar etdilər, yeni parçalar yazıldı... Bəzi personajlar pyesdən çıxarıldı, dialoqlar yığcamlaşdırıldı.

Belə ciddi yaradıcılıq prosesində quruluşçu rejissor məşqlərdə ifaçıların əksəriyyətini dəyişdi. İlk əmrdə tamaşanın bəstəkarı təyin olunmuş Məryəm Əlibəyli də sonrakı yaradıcılıq mərhələsində quruluşçu qrupdan ayrıldı. Tamaşaya musiqi seçmək İsmayıl Dadaşova tapşırıldı.

Povestdən pyesə «keçmə» prosesi Vidadi Babanlının ilk işi olduğuna görə uzun çəkdi. Məşqlərin gedişində dəfələrlə fasilələr yarandı. Nəhayət, mayın 18-də Gənc Tamaşaçılar Teatrında «Ana intiqamı» tamaşasının premyerası oldu.

Sözsüz ki, tamaşa, ilk növbədə, iyirmi illik fasilədən sonra Leyla xanım Bədirbəylinin Qumru müəllimə (Ana) rolu ilə səhnəyə qayıtması baxımından əlamətdar idi. Tamaşadan sonra mən İlham Rəhimli qrim otağında Leyla xanımı təbrik edəndə həyəcanlı idi. «Səhnəyə ilk addımları atanda keçirdiyim hisləri bu gün də keçirdim», dedi.

Bu rolu Xalq artisti Zemfira Əliyeva da hazırlamışdı, ancaq onun oynamasına imkan olmadı. Bir neçə tamaşadan sonra Qumru müəllimə rolunda Leyla xanımın Laləzar Mustafayeva əvəz etdi.

Povest drama çevrilmə prosesində süjet, konflikt, obrazlar baxımından itkilərə məruz qalmışdı. Povest-pyes variantı işləməkdə müəyyən təcrübəsi olan Bəhram Osmanovun cəhdləri də tamaşanı dramaturji nöqsanlardan xilas edə bilməmişdi. Tamaşanın ekspozisiyasında povestin müəllif şərhindən gələn uzunçuluq, hadisələrin təsvirində dialoqa deyil, söyləməyə meyil ümumi dinamikanı, dramatik ritmi zəiflətmişdi.

Aktyorluq fakültəsinin dördüncü kurs tələbəsi Mətləb Abdullayevin bu tamaşadakı Qaraxan rolu da nöqsanlı idi, ifası zəif və primitiv təsir bağışlayırdı, səhnə danışığında qüsurlar duyulurdu. Sonralar bu gənc aktyor öz üzərində səylə çalışıb danışıq qüsurlarını islah etdi.

Bəhram Osmanov faciə məqamlarını psixoloji-dramatik pauzalarda, aktyorların hərəkət və sifət ifadələrində verməyi xoşlayan rejissordur. Nazir Əliyev (Qafar), Safurə İbrahimova (Səltənət), Sabir

Məmmədov (Mahmudov), nisbətən Məleykə Əsədova (Şahanə), Kazım Həsənquliyev (Erməni əsgəri) Bəhramın bu məqsədini icra etməyə nail olmağa çalışırdılar, müəyyən anlarda rejissor-aktyor istəyi aydın, mənalı təcəssümünü tapırdı. Həqiqət Nəbiyeva (Hayqanuş), Elxan Ağahüseynoğlu (Professor), Əjdər Həmidov (Yerli müəllim) rejissorun seçdiyi oyun-üsluba sərbəst keçməyi bacarmır, faciə janrı poetikasının aktyordan tələb etdiyi daxili təbəddülat keçirmə iqliminə tam daxil ola bilmirdilər.

Tamaşanın ideya yükünə səbəb olan hadisələrdəki gərginlik aktyor ansamblının psixoloji tələblərində təcəssüm tapmırdı. Buna görə də faciənin deyil, aktyorların roldakı gərginliyi ali məqsədə kölgə salırdı.

Rəssam Rafael Əlizadə tamaşanın tərtibatını işləyəndə Akademik teatrın səhnə ölçülərinə əsaslanmışdı. Sonra tərtibatı Rus Dram Teatrı səhnəsinə uyğun «qayçıladı». Premyera orada da olmadı və onda Rafael Əlizadə tərtibata yenidən əl gəzdirmək məcburiyyətində qaldı.

Mövzunun vacibliyi, ideya ruhu, müharibə və insan münasibətlərinin faciələri baxımından müəyyən dərəcədə diqqəti cəlb etsə də, «Ana intiqamı» tamaşası Akademik teatrın yaradıcılığında hadisəyə çevrilmədi. Tamaşa xeyli oynanıldı. İki dəfə də səyyar səhnədə dekorsuz göstərildi ki, ümumiyyətlə, teatrın belə tamaşaları heç vəchlə sənət ölçülərinə sığmır.

1995-ci ilin yanvarında Nahid Hacızadə Qarabağ hadisələrindən danışan «Qisas qiyamətə qalmaz» pyesini Akademik teatrın bədii şurasının müzakirəsinə təqdim etdi. Söylənilən təklifləri, tutulan iradları nəzərə almaqla, pyes üzərində yenidən işləmək üçün müəllifə möhlət verildi. O, quruluşçu rejissor Lütfi Məmmədbəyovla qısa müddətə işləyib pyesin təzə variantını kollektivə çatdırdı. Fevralın 21-də (əmr № 03/74) sərəncamla əsəri tamaşaya hazırlamaq üçün yaradıcı qrup müəyyənləşdirildi: Quruluşçu rejissor – Lütfi Məmmədbəyov, rəssam – Nazim Bəykişiyev, bəstəkar – Adil Bəbirov. İlk məşqlərdə Nahid Hacızadənin xahişi ilə Nazim Bəykişiyev televiziya rəssamı Rafael Əsədovla əvəzləndi.

İki heyətdə, hətta bəzi rollar üç aktyor ifasında martdan aparılan məşqlər, təxminən iki ay yarıma yekunlaşdı. Mayın 24-də Rus Dram Teatrının binasında «Qisas qiyamətə qalmaz» tamaşasının premyerası

oynanıldı. Teatrın bina imkansızlığına baxmayaraq, tamaşa müntəzəm olmasa da, vaxtaşırı müxtəlif yerlərdə göstərilirdi.

Teatrın təmiri, direktor və bədii rəhbərlik qayğıları ilə bağlı Həsən Turabov 1980-ci illərin axırlarından yeni rolda səhnəyə çıxmamışdı. «Qisas qiyamətə qalmaz» tamaşasının premyera günü Həsən Turabov Umud rolunu oynadı. Onun ifası səhnəyə psixoloji sabitlik, müdriklik, təmkin iqlimi gətirir, digər ifaçıları da canına faciə hopmuş dramatik lirizm janrının oyun üslubuna səfərbər edirdi. Aktyor bu rolunda səhnə hərəkətlərini, mizanları minimuma endirməklə bütün gücünü səsinin tembr dəyişmələrinə, sözləri xüsusi vurğu ilə söyləməyə, sifət ifadələrinin çoxçalarlı məzmununa yönəltmişdi. O, dediyim ifadə vasitələrinin əsas dörd rəngindən istifadə edirdi.

Kəlbəcər kimi səfalı yurdunun düşmən tapdağında viran qaldığını düşündüyü, səhnədə yalnız fikirləri, daxili harayı ilə təkbətək qaldığı epizodlarda Həsən Turabovun səsi qınaq, özünü yamanlamaq, öz hərəkətini məzəmmət üzərində köklənirdi. Ömür-gün yoldaşı Salatınla (Safurə İbrahimova) dialoqlarında səsi həzinləşirdi, kövrək duyğuları oyanırdı. Oğlunun dağlarda kimsəsiz qalmış məzarını Salatına xatırlatdıqca səsi daxili monoloqa, vicdan harayına çevrilirdi. Simran (Yaşar Nuriyev) – Curxan (Bürcəli Əsgərov) – Umud epizodlarında Turabovun çöhrəsini səmimi, ancaq bir qədər qayğılı təbəssüm bürüyürdü. Səsinin cingiltisini, ərkyanalıq çalarını artırırdı. Nəvəsi Rövşənlə (Kazım Həsənquliyev) görüşündə onun əsgərlikdən yayınmasını fəhmlə duyduğu epizod aktyorun yeni psixoloji səs-hərəkət oyununa körpü atırdı. Oğlu Qoşqarla (Ramiz Novruzov və İlqar Vəliyev) dialoqunda aktyorun səsi və baxışları daxilən tarıma çəkilmiş əsəblərindən soraq verirdi.

Həsən Turabov səbrin faciəsini oynayırdı. Onun üçün gözləmə mövqeyi, ermənilərdən torpaqları silah gücünə deyil, «səbrlə» almaq fikri xülyadır. Bu xülya tamaşa boyu tərəddüd kimi təqdim olunurdu. Finalda aktyor Umudun son monoloqunu söyləyərək qətiyyətli addımlarla səhnədən keçib-getməsini obrazın səbrə qarşı üsyanı, hayqırtısı, imdada inamı kimi ifadələndirirdi.

«Azərbaycan» qəzetində çap etdirdiyi məqaləsində Bəxtiyar Vahabzadə yazırdı: «... Həsən Turabov həm dramaturgiyamızda, həm də

öz yaradıcılığında yeni bir obraz yaratmışdır. Daha doğrusu, Turabovun vaxtilə oynadığı Gəray bəyin yeni şəraitdəki davamını bu günün boyaları ilə əks etdirir... Turabovu bizə sevdirən əsas cəhət onun patetikadan uzaqlığı, iç dünyasına varmaq qabiliyyəti, yalnız sözlərdə deyil, həm də danışan sükutu, eyhamlı baxışları, üzünün mimikası... ilə öz mövqeyinə inandıra bilməsidir» (1).

Umud rolunu yeddiillik fasilədən sonra kinostudiyadan teatra qayıtmış Həsən Məmmədov da ifa etdi. Həsən Məmmədovun Umudu kövrək, daha çox sakit, ümidlə yaşayan, yeri gələndə, tənbehində də yumşaqxasiyyətli, müdrik el ağsaqqalı idi.

Əliabbas Qədirov Umud kişi obrazını məşq edirdi. O, dramatik-romantik oyun üslubunu seçmişdi. Onun ifasında Umud kişi daim qayğılı, baxışları üzgün, fikirləri dalğın idi. Bununla belə, hərəkətlərində qətiyyətli, qənaətində dönməz təsir bağışlayırdı. İctimai baxışda da Əliabbas Qədirov oynadı, ancaq həmin dövrdə ailə qayğıları ilə əlaqədar premyeralarda və sonrakı tamaşalarda iştirak etmədi.

«Qisas qiyamətə qalmaz» tamaşasında ən duzlu-məzəli, dərdini, faciəsini də üzdə kimsəyə bildirməyib qəlbində çəkən Simran (Yaşar Nuriyev) idi. Yaşarın səhnəyə gəlişi bütün ovqatı dəyişirdi, epizoda və salona qaynarlıq, təbəssüm, həyat nəfəsi gətirirdi. Simran – Curxan duetini Yaşar Nuriyev ilə Bürcəli Əsgərov şux yumorla, Hacı İsmayılovla Nazir Əliyev isə yumor qatılmış dramatizmlə oynayırdılar. Salatın rolunun ifaçıları Safurə İbrahimova və Zemfira Əliyeva da oyunlarını həmin duetlərə uyğun kökləyirdilər. Paralel olaraq, «Ana intiqamı»nda məşq edən Leyla xanım Bədirbəyli Salatın, tələbə İntiqam Əsgərov isə xəstələndiyinə görə Rövşən rollarını oynamadılar.

Nurlan rolu dram və kino aktyorluğu fakültəsinin dördüncü kurs tələbəsi Rəşid Səməndərin (Rzayevin) və birinci kurs tələbəsi Elşən Şahinoğlunun Akademik teatrın səhnəsində ilk addımları idi. Quruluşçu rejissor Lütfi Məmmədbəyov risk edərək Mehrini Məleykə Əsədova ilə yanaşı, Elşənin qrup yoldaşı Vəfa Zeynalovaya da tapşırmışdı və müəyyən mənada diqqəti cəlb edən cəhətlər duyulurdu. Ancaq Rövşən rolunun ifaçısı İntiqam Əsgərovun baş məşqlərdəki quru oyunu, yeniyetmə emosionallığını, nəvə şıltaqlığını çığırtılı «yekəxana-

lıqla» əvəz etməsi, baba – nənə – nəvə səhnəsinin ümumi ovqatını, psixoloji dramaturq – rejissor məqsədini pozurdu.

Nahid Hacızadənin «Qisas qiyamətə qalmaz» pyesi «Ana intiqamı» ilə müqayisədə daha uzunömürlü oldu. Mövzu təkcə aktuallığı ilə deyil, səhnədəki bədii-dramatik həlli, həmçinin Umud, Simran, Nurlan, Salatın obrazları ilə də maraq doğururdu.

Gənc Tamaşaçılar Teatrında, televiziyada pyesləri oynanılan nasir-dramaturq Əli Əmirli 1993-cü ildə «Ağqoyunlular və Qaraqoyunlular» dramını Akademik teatra vermişdi. Bədii şura tövsiyə etdi ki, müəllif əsər üzərində əsaslı şəkildə işləsin. Belə də oldu və 1995-ci ilin ortalarında Əli Əmirli pyesin yeni variantını teatra gətirdi. Quruluşçu rejissor Bəhram Osmanovla xeyli müddət işləyəndən sonra rəsmi əmrlə məşqlər başlandı. Tamaşanın tərtibatı uzun müddət Kukla Teatrında işləmiş, Gənc Tamaşaçılar Teatrında, digər kollektivlərdə tamaşalara rəssamlıq etmiş Lətifə Quluzadəyə tapşırıldı. Bu, Lətifə xanımın Akademik teatrda ilk işi oldu.

Əli Əmirlinin pyesində dövrün ictimai-siyasi problemlərinin, iki nəslin təkəbbür və iddialarının, rəzil əməllərinin fonunda mənəvi-əxlaqi durum, gənclərin tərbiyəsi məsələsi dramatizmin mayasında idi. Konflikt ictimai, sosial, əxlaqi qatlarda ardıcıl və paralel hadisələrdə təcəssüm tapmışdı. Fidan – Fərid xəttinin dramatik təsvirində tələsgənlik, onların restorandakı tanışlıqlarından sonra Ağqoyunlular və Qaraqoyunlular ailələrindəki söhbətlərdə zaman uyarsızlığı vardı və təəssüf ki, rejissor da bunları təkrarlamışdı. Fidan (Məleykə Əsədova) və Fərid (Kazım Həsənquliyev) obrazları müəllifin dramaturji məqsədi və rejissorun həmin istiqamətdə verdiyi səhnə təfsiri baxımından emosional bütövlüyü tamamlanmamışdı. Üstəlik, hər iki ifaçının rejissorun qurduğu dairəvi (həyat davam edir), çarpaz (obrazların hadisələr burulğanına düşməsinə işarə), paralel (qarşılıqlı tərəddüdlər) mizanların mahiyyətini əhatəli icra edə bilməmələri də emosional-faciəvi təəssüratı azaldırdı. İsmayıl Dadaşovun tamaşa üçün seçdiyi musiqi çox yerdə mətnin və aktyor oyununun psixoloji məntiqinə uyğun gəlmirdi.

Bununla belə, konfliktin qoyuluşu, mövzunun dalğavari, «qeyri-adi» süjetlərlə inkişafı, dramaturqun xarakter yaratmaq səylərinin

müəyyən səmərəli nəticələri qənaətbəxş idi. «Siyasət fonunda məhəbbət dramı» janrında ilk tamaşa hazırlayan Bəhram Osmanovun ümumi kompozisiya quruluşu, hadisələri səhnədə və səhnə arxasında paralel qurmaq səriştəsi, pauza «monoloqları», mizan ölçü-biçimlərinin səliqəsi baxımlı idi. Kamal Xudaverdiyevin (Ağqoyunlu Ata), Hicran Nəsirovanın (Ağqoyunlu Ana), Ramiz Novruzovun (Ağqoyunlu Əmi), Yaşar Nuriyevin (Qaraqoyunlu Ata), Səidə Quliyevanın (Qaraqoyunlu Ana), İradə Ağasıbəylinin (Qaraqoyunlu bibi) faciə notunda köklənmiş, gərgin vəziyyətlərdə meydana çıxaraq dramatik axara düşən və yumorla, məsxərəylə, bəzən sarkazmla rövnəqlənən oyunları səhnə və salonda canlı əlaqə-ünsiyyət yaradırdı.

«Ağqoyunlular və Qaraqoyunlular» tamaşasının premyerası dekabrın 12-də Gənc Tamaşaçılar Teatrında, ikinci tamaşa isə Rus Dram Teatrında oynanıldı. Növbəti tamaşalar kirayə edilən binalarda, premyera oynanılan teatrda göstərilirdi.

1995-ci ilin əvvəlində Teatr Xadimləri İttifaqı Respublika üzrə Eksperimental Tamaşalar Festivalı keçirəcəyi barədə elan verdi. Mətbuatda, televiziyada elan olunmuş informasiyada deyilirdi ki, festival mayın 27-dən iyunun 4-dək Bakıda keçiriləcək. Rayon teatrları Aktyor evinin səhnəsində, paytaxt kollektivləri isə öz binalarında çıxış edəcəklər.

Akademik teatrın gənc rejissoru Mehriban Ələkbərzadə (Ələkbərova) Ryunesko Akutaqavanın «Cəngəllikdə» hekayəsinin Elmira Əliyevanın səhnələşdirdiyi variantını bədii rəhbər Həsən Turabova təqdim etdi. Onun razılığı ilə Mehribanın bu əsəri «Müəmmalı bir qətlin üç versiyası» adı ilə hazırlanması üçün 1995-ci il aprelin 26-da sərəncam (əmr №18) verildi. Əmrdə göstərilirdi ki, məşqlərə aprelin 28-də başlanılsın və tamaşa mayın 25-də təhvil verilsin.

Quruluşçu rejissorun təklifi ilə tamaşanı hazırlamaq üçün Elxan Haqverdiyev rəssam, İsmayıl Dadaşov isə musiqi tərtibatçısı təsdiqləndilər. Qadın rolu Şükufə Yusupovaya, Qatil obrazı Ramiz Novruzova, Ər surəti Abbas Qəhrəmanova, şahidlər personajları Elxan Quliyevə, İlham Əsgərova və Kazım Həsənquliyevə tapşırıldı.

Məşqlər əmrdə göstərilən tarixdə başlandı. Məşq prosesində rejissor Ramiz Novruzovu Gənc Tamaşaçılar Teatrı rus bölməsinin aktyoru,

Əməkdar artist Rafiq Əliyevlə əvəz etdi. Kazımın oynadığı Üçüncü şahid obrazı əsərdən çıxarıldı. İlham Əsgərovun rolu isə Fikrət Vəliyevə verildi. Gündə, bəzən, iki dəfə məşq nəticəsində tamaşa vaxtında hazırlandı.

«Müəmmalı bir qətlin üç versiyası» tamaşası festivalın onuncu günü, iyunun 4-də Akademik teatrın Kiçik səhnəsində, «Yuğ» Dövlət teatrının müvəqqəti fəaliyyət göstərdiyi salonda oynanıldı.

Mayın 27-də Dövlət Gənclər Teatrının işlədiyi Aktyor evinin səhnəsində rejissor Hüseynağa Atakişiyevin hazırladığı «Mühacirlər» (S.Morjek) tamaşası ilə açılan festivalda aşağıdakı tamaşalar da göstərildi.

«Yuğ» Dövlət teatrı: «Bir, iki bizimki» (Kamal Abdulla).

Dövlət Gənclər Teatrı (ikinci tamaşa. – *İ.R.*): «Güzgüdə» (V.Brüsov).

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı: «İosif və Nadejda» (O.Kuskina).

Abdulla Şaiq adına Dövlət Kukla Teatrı: «Ay, dəli» (Rəhman Əlizadə).

Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrı: «Müsyö Jordan və Dərviş Məstəlişah» (Mirzə Fətəli Axundzadə).

Qazax Dövlət Dram Teatrı: «Ulduzdan düşən adam» (K.Vitlinger).

Mehriban Ələkbərzadənin hazırladığı birhissəli tamaşa festival əsərləri arasında səliqə-sahmanı ilə nisbətən seçilirdi. Şükufə Yusupovaya Qadın rolunun ən yaxşı ifaçısı mükafatı verildi. «Müəmmalı bir qətlin üç versiyası» tamaşası eksperiment-axtarış istiqamətində teatrın qətiyyətli addımı kimi qiymətləndirilə bilərdi. Ancaq, nədənsə, bu təşəbbüs davam etdirilmədi. Üstəlik, «Müəmmalı bir qətlin üç versiyası» tamaşası cəmi bircə dəfə, o da festival günü oynanılmaqla unuduldu.

* * *

Qastrol. Ciddi maliyyə çətinliklərinin yaranması ilə əlaqədar 1995-ci ildə teatr yay qastroluna çıxa bilmədi. Yalnız martın 13-dən 17-dək Quba və Xaçmazda İlyas Əfəndiyevin «Dəlilər və ağıllılar» tamaşası oynanıldı.

Truppada dəyişmə. Akademik teatrda səkkiz ildə bir neçə nəzərə çarpmayan rol oynamış Münəvvər Əliyeva sentyabr ayının 12-də,

onun həyat yoldaşı, müəyyən cəhətdən özünü göstərə bilmiş Əlinazir (Nazir) Əliyev isə dekabrın 6-da xarici ölkəyə getmələri ilə əlaqədar teatrdan çıxdılar.

Əcəl aldı... Teatrın səhnəsində silsilə ana obrazları yaratmış Əməkdar artist, xoşçöhrəli, məlahətli aktrisa Ətayə xanım Qulam qızı Əliyeva (2 may 1920 – 6 aprel 1995) vəfat etdi.

Məktəbli ikən Gəncə Dövlət Dram Teatrında səhnəyə çıxaraq neçə il burada, Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışmış, 1989-cu ildən Akademik teatrda işləyən Xalq artisti Zemfira Əliyeva (25 dekabr 1941 – 27 noyabr 1995) teatrdan məşqdən gedib xəstələndi və birhəftəlik yataqdan qalxmadı.

Respublikanın Xalq artistləri Ağadadaş Qurbanovun və Gülxar Həsənovanın övladları, Əməkdar artist Hamlet Qurbanov (13 oktyabr 1938 – 17 noyabr 1995) uzunsürən ağır xəstəlikdən vəfat etdi.

Dramaturqlar. Davud Aslan (10.12.1929 – 27.11.1989). Ömrü boyu müəllim işləyib. Bir neçə şeir kitabının və «Sabir və zəlzələ» dramının müəllifidir.

Vidadi Yusif oğlu Babanlı (5.1.1927). Qazağın Şıxlı kəndində doğulub. ADU-nun filologiya fakültəsini bitirib. Nasir və şairdir. Özünün eyniadlı povesti əsasında «Ana intiqamı» dramını yazıb.

Ryunesko Akutaqava (1.3.1892–24.7.1927). Yapon yazıçısı. «Raseman», «Burun», «Cəhənnəm əzabı», «Payız», «General», «Zülmətdə dialoq», «Bir səfehin həyatı» nəsr əsərləri çox şöhrətlidir. Yaponiyada onun adına ədəbiyyat mükafatı təsis olunub.

Əli Məmməd oğlu Əmirli (30.10.1948). Ağdamın Novruzlu kəndində doğulub və ADU-nun filologiya fakültəsini bitirib. Yaradıcılığa nəsrlə başlayıb. «Ərizə», «Bala – başa bəla sözündəndir», «Meydan», «Onun iki qabırğası», «Ağqoyunlular və Qaraqoyunlular», «Cəza», «Yeddi məhbusə»... pyeslərini yazıb.

Kamil Abdullayev ixtisasca tarixçidir. Uzun illər telestudiyanın ədəbi-dram verilişləri redaksiyasında işləyib.

Mənbə

1. Bəxtiyar Vahabzadə. «Səhnəmizdə bu günün cəmi». – «Azərbaycan», 6 iyun 1995.

1996-cı il

7 may. «Kral Lir», Uilyam Şekspir. İngiliscədən tərcümə edəni Sabir Mustafa.

2 hissəli siyasi faciə.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Elçin Məmmədov, bəstəkar Adil Bəbirov, rejissor köməkçiləri Rəfiqə Musayeva və Nəcəf Həsənzadə.

Rollarda: Kamal Xudaverdiyev (Kral Lir), Hacı İsmayılov (Qraf Kent), Əliabbas Qədirov (Qraf Qloster), İftixar Piriyev (Edqar), Ramiz Novruzov (Edmund), Bəsti Cəfərova (Qonerilya), Hicran Nəsirova (Reqana), Məleykə Əsədova (Kordeliya), İlham Əsgərov (Fransa kralı), Sabir Məmmədov (Burqund hersoqu), Elxan Ağahüseynoğlu (Hersoq Kornoul), Rafiq Əzimov (Hersoq Albani), Əsgər Məmmədoğlu (Təlxək), Elxan Quliyev (Osvald), Məzahir Cəlilov (Həkim), Əlvida Cəfərov (Zadəgan), Mətləb Abdullayev (Carçı), Kazım Həsənquliyev və Nəcəf Həsənzadə (nökərlər).

15 dekabr. «Hökmdar və qızı», İlyas Əfəndiyev.

3 hissəli tarixi faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam İsmayıl Əsədoğlu*, rejissor köməkçisi Nəcəf Həsənzadə. Polad Bülbüloğlunun və Vasif Adıgözəlovun əsərlərindən istifadə olunub.

Rollarda: Əliabbas Qədirov (İbrahim xan), Bəsti Cəfərova (Ağabəyim ağa), Həsən Məmmədov (Axund Mir Möhsün ağa), Safurə İbrahimova (Tubu xanım), Münəvvər Əliyeva və Vəfa Zeynalova (Səltənətbəyim), Kazım Həsənquliyev (Əbülfət xan), Sabir Məmmədov (Saday bəy), Bürcəli Əsgərov (Cavad xan), Məcnun Hacıbəyov və Ramiz Novruzov (Kəlbəli xan), Şahin Cəbrayılov və İlham Əsgərov (Məhəmməd xan), Rövşən Kərimduxt və Mətləb Abdullayev (Hüseynqulu xan), Aqşin Vəlixanov (Sisyanov), Elxan Ağahüseynoğlu (Lisanoviç), Səyavuş Aslan və Əjdər Həmidov (Vanya koxa), Kübrabəyim Əliyeva və Xalidə Şərifova (Hayqanuş), Nəcəf Həsənzadə (Petya).

Kütləvi səhnələrdə Mədəniyyət və İncəsənət Universitetinin tələbələri iştirak edirlər.

* *Qeyd.* İsmayıl Məmmədovun soyadı tamaşa proqramlarında «Əsədoğlu» kimi də yazılıb.

* * *

Hökumət dairələrində söz verilmişdi ki, səhnənin işıq, qaldırıb-endirmə boruları (ştanget) və digər kompyuterləşdirilmiş texniki avadanlıqla təchizatı 1996-cı ilin ilk ayında həllini tapacaq. Teatrda əsaslı təmir neçə ildir başa çatıb. İşıq, səhnə və sairə texniki xidmətlərin əsas kompyuterləri dörd il əvvəl alınıb, ancaq onlara yardımçı avadanlığa valyuta ayrılması neçə ildir tilsimə düşüb. Əslində, Respublikanın iqtisadi-sosial həyatında ciddi maliyyə çətinlikləri var. Bununla bağlı və bəlkə də, başqa daha ciddi səbəblər ucbatından teatrın açılması üçün göstərilən maliyyə cəhdləri baş tutmur.

Mədəniyyət naziri Polad Bülbüloğlunun göstərişi ilə ötən ilin sonlarında köhnə işıq-xidmət texnikasını başqa teatrların bazaları hesabına bərpa edib teatrın pərdələrini açmaq istəyi də yalnız niyyət olaraq qaldı. Teatrın tamaşaları yenə kirayə binalarda göstərilirdi, o da sistemsiz, uzun fasilələrlə. Səhnənin ümumi ölçülərinin heç bir parametrlə düz gəlməməsi, başqa səhnəyə vərdişkar olmamaq, tərtibatdan tutmuş aktyor oyununa qədər hər bir bədii və texniki keyfiyyətə ciddi mənfi təsir göstərirdi.

Uilyam Şekspirin «Kral Lir», «Otello», Əbdürrəhim bəy Haqverdiyevin «Ağa Məhəmməd şah Qacar» və neçə-neçə klassik, müasir əsərin tamaşaya hazırlanması prosesi bu səbəbdən ləngiyirdi. Əslində, Şekspirin hər iki pyesinin tamaşası çoxdan hazır idi və rejissorlar həmin əsərləri digər teatrlarda göstərmək istəmirdilər. Çünki onda səhnə tərtibatını, deməli, bütün mizanları, tamamilə dağıtmaq lazım gəlirdi.

Elçinin aktual mövzuda yazdığı «Ah, Paris... Paris!..» satirik komediyasını teatr üç il əvvəl qəbul etmişdi. Komediyanın quruluşu əvvəl Vaqif İbrahimoğluna tapşırıldı. Bir müddət sonra onu Azər Paşa Nemətov əvəz etdi. Məşqlərin qızğın çağında Səyavuş Aslan Musiqili Komediya Teatrına bədii rəhbər təyin olundu. Onu rolda Məlik Dadaşov əvəz etdi. Məlik Dadaşov xəstəliyi ilə bağlı məşqlərin gedişini uzun müddət ləngitdi. Sonra Zemfira Əliyeva vəfat etdi. 1995-ci il dekabrın axırından Səyavuş Aslan dəvətlə yenidən roluna çağırılıb məşqlərə başladı.

Fevralın 5-də dramaturq Elçin gəlib teatrın tam hazır olmayan səhnəsində yekun baş məşqinə baxdı. Quruluşçu rejissorun və aktyorların işindən razılığını bildirdi. Eyni zamanda xahiş etdi ki, «Ah, Paris... Paris!...» tamaşası yalnız Akademik teatrın öz səhnəsində göstərilsin.

Beləliklə, teatrın daha bir tamaşası hazır olsa da, tamaşaçılara göstərilmədi.

Elə bu ərəfədə Azərbaycan Teatr Xadimləri İttifaqı Moskvadan məktub aldı. Teatr Xadimləri İttifaqının Beynəlxalq Konfederasiyası keçirdiyi üçaylıq Beynəlxalq İkinci Çexov Festivalında Azərbaycan səhnə ustalarının iştirakını da xahiş edirdi. Bildirilirdi ki, Azərbaycan Respublikası üçün vaxt may ayına ayrılıb. Qərara alındı ki, Moskvaya Bəhram Osmanovun Akademik teatrda hazırladığı, ancaq hələ teatr səhnəsində oynanılmamış «Kral Lir» (Uilyam Şekspir) tamaşası aparılsın.

«Kral Lir»in hazırlanması barədə sərəncam hələ 1989-cu ildə (əmr №81, 1 dekabr) verilmişdi. Demək olar, hər il məşqlər yenidən bərpa olunmuş, hətta Qonerilyanın, Reqananın, Kordeliyanın, Fransa kralının, Edqarın, Edmundun, Burqund hersoqunun, bəzi başqa surətlərin ifaçıları bir neçə dəfə dəyişdirilmişdi. Yenə binanın təmirinin ləngiməsi tamaşanın təhvil verilməsini qeyri-müəyyən vaxtadək uzadırdı.

Yuxarıda dediyim məktub gələndən və ATXİ-nin prezidenti kimi Həsən Turabovun Moskva ilə bir neçə dəfə telefon danışıqlarından sonra Bəhram Osmanov beş gün kiçik məşq salonunda mətnin təkrarlarından, mizanların xatırlanıb yada salınmasından sonra fevralın 7-də səhnədə «Kral Lir»in məşqlərinə başladı.

İki il əvvəl hazırlanmasına sərəncam verilmiş və Mərahim Fərzəlibəyov quruluşçu rejissor olmaqla yaradıcı qrupu təsdiqlənmiş «Xan və qızı» (İlyas Əfəndiyev) pyesi yenidən istehsala buraxıldı. Fevralın 7-dən Mərahim Fərzəlibəyov əsərin mizarxası məşqlərinə başladı.

Aprelin 20-də Bəhram Osmanov «Kral Lir»i tam hazır olmayan tərtibatda (rəssam Elçin Məmmədov) və musiqi ilə (bəstəkar Adil Bəbirov) bir növ daxili baxış kimi rəhbərliyə təqdim etdi. Tamaşanın rejissor fikri, konsepsiyası, ümumən, bəyənildi və tövsiyə edildi ki, bəzi epizodlar (xüsusən Hersoq Albani, Hersoq Kornoul və Kordeliya ilə bağlı səhnələr) ciddi şəkildə işlənib cilalanmalıdır. Qərara alındı ki, tamaşa Moskva səfərinədək iki-üç dəfə göstərilsin. Sonra da bir həftə

hər gün Akademik teatrın səhnəsində həm baş məşq, həm də adi tamaşa kimi oynanılsın və salona aktyorluq fakültəsinin tələbələri də dəvət edilsin ki, təəssürat səmərəli olsun.

Aprelin 22-dən səhnədə günortayadək «Kral Lir», nahardan sonra «Xan və qızı» məşq edilirdi. Bəzən əksinə də olurdu.

Nəhayət, mayın 7-də Rus Dram Teatrının binasında «Kral Lir» tamaşasının premyerası oynanıldı.

Akademik teatr ilk dəfə idi Şekspirin pyesini orijinaldan oynayırdı. Sabir Mustafa əsər üzərində uzun müddət cidd-cəhdlə çalışaraq, ümumən, maraqlı dramatik şəkildə «Kral Lir»i dilimizə çevirmişdi. Dil-ifadənin axıcılığı aktyorların dramatizmi təcəssüm etdirən sözlərin sərbəst ifadəsinə zəmin yaradırdı.

Bəhram Osmanov tamaşanın müasirliyi üçün zəmanəmizdə mövcud mənəvi ləyaqət, riyakarlığın, var-dövlət hərisliyinin vicdanlara qılınc çəkməsi problemlərini Şekspir əsərinin özəyinə çəkmişdi. Bilərəkdən zamanı «sındırmış», səhnədə velosipeddən, yaylı çarpayıdan, bugünkü dünya ölkələri polislərinin geyimlərindən istifadə etmişdi. İstəklə reallıq arasında sərhədsizliyi vermək, riyakarlığın mənəviyyatlar üçün zindan olduğunu nəzərə çarpdırmaqdan ötrü üzərlərinə sellofan çəkilmiş beş məhəccər-çərçivədən istifadə etmişdi. Bu məhəccər-çərçivələrin bəzisində qapı, bəzisində pəncərə vardı və hamısı ştangetlərdən asılmışdı. Aparıcı obrazların ən gərgin anlarda mənəvi ovqat dəyişikliklərində qurğular qalxıb hadisələrə yeni məcrada təkan verir, bəzən də enib mənəvi oyanışda, vicdan təbəddülatında hər iki tərəfi görünən «səddə» çevrilirdi.

Fikir etibarı iki belə tərtibat rejissor qayəsinə xidmətə yönəlirdi. Ancaq onun texniki icrasının primitivliyi, sellofanın səliqəsiz qırışlarının oyatdığı qeyri-estetik təəssürat bədiilikdən uzaq idi. Onların qalxıb-enmə ritmi, aktyorların səhnədəki davranış ritmi ilə uyuşmurdu və ümumi ovqat anlaşılmaz qalırdı.

Tamaşada aktyor oyunlarını mahiyyət etibarilə bağışladığı təsir, oyatdığı fikir baxımından üç qismə ayırmaq olardı. Birinci qisim: Şekspir dühasının bəşəri ideyalarını ruhən duyan və onu rejissorun təfsirinə əsasən çağdaş insanlığın durumu ilə həssaslıqla əlaqələndirən, siyasi faciə janrının tələblərini icraya çalışan aktyorlar. Deyim ki,

Bəhram Osmanov da ali rejissor məqsədinin həyata keçməsi üçün, əsasən, onlara bel bağlamışdı. Xalq artistləri Kamal Xudaverdiyev (Kral Lir), Əliabbas Qədirov (Qraf Qloster), Əməkdar artistlər Hacı İsmayılov (Qraf Kent), Ramiz Novruzov (Edmund), Bəsti Cəfərova (Qonerilya), aktyorlar İftixar Piriyev (Edqar) və Hicran Nəsirova (Reqana) həm fərdi ifa baxımından, həm rejissorun fikrinin icrası nöqteyi-nəzərindən, həm də janrın təmsilçiləri kimi daha real, cazibədar və oyunları ürəyəyatımlı, mənalı idi.

İkinci qismə Şekspir dövrü ilə çağdaş zaman-məkan arasında fikir tarazlığını saxlaya bilməyənlər, oyunlarını çevik ifadə vasitələri ilə əlaqələndirməkdə çətinlik çəkənlər – Rafiq Əzimov (Hersoq Albani) və Elxan Ağahüseynoğlu (Hersoq Kornoul) daxil idilər. Xüsusilə Rafiq Əzimovun mürəkkəb xarakterli, az danışıqda çox məna kəsb edən Albanini yüngül, kütbaxışlı oynaması bütövlükdə tamaşanın konsepsiyasına zidd idi. Bu «yadlıq» elə ilk şəkillərdən açıqca görünürdü.

Üçüncü qisim Şekspirin təsvir etdiyi ülviliyi, zavallılığı yazıqlıqla, naləni hıçqırtı ilə, səsini ahu-zar üstündə kökləməklə obrazın mövzusunu tamaşanın ümumi ruhundan ayırırdı. Bu sürüşkənlik, «Lir faciəsinin» mahiyyətindən sapınma Kordeliyanın ifaçısı Məleykə Əsədovanın oyununda mütəhərrik idi.

Üç saatdan çox çəkən tamaşada ümumi ritm müəyyən məqamlarda aktyor oyunlarındakı «müxtəlifliyə» görə pozulurdu. Bu da darıxdırıcılığa meydan açır, ümumi hərəkət sürət-ritmində qırıqlıq yaradırdı.

«Kral Lir»də Bəhram Osmanovun cəsarətli və mənalı rejissor fikirlərini Elxan Ağahüseynoğlu, Rafiq Əzimov və Məleykə Əsədova ilə yanaşı, özlüyündə maraqlı obraz olan Təlxəyin ifaçısı Əsgər Məmmədoğlu da düzgün bədii şəkildə təcəssüm etdirə bilmirdi.

Bəhram Osmanov əsas diqqətini Kral Lir obrazında cəmləşdirməyə çalışmışdı və aktyor Kamal Xudaverdiyev həm texniki, həm də bədii cəhətdən həmin ağırlığı ləyaqətlə çəkirdi. «Kral Lir» tamaşası, əslində, elə Kamal Xudaverdiyevin yeni sənət sınağının uğuru kimi qiymətli idi. Kamalın oyununa qoşa tarazlığı Ramiz Novruzov və Bəsti Cəfərova gətirirdilər. Əliabbas Qədirovun, Hacı İsmayılovun, Hicran Nəsirovanın və İftixar Piriyevin oyunları isti, həlim və ürəkaçan idi.

Mayın 17-də «Kral Lir» tamaşası Moskvada İkinci Beynəlxalq Çexov Festivalında oynanıldı. Kollektiv festivaldan uğurla qayıtdı (bax: 1). Ancaq Moskva səfərindən sonra «Kral Lir» tamaşası oynanılmadı. Çünki səhnə ölçüləri heç cürə uyğun gəlmədiyinə və tamaşada forma-məkan qurumu vacib atribut-obraz olduğuna, mizanların məhz ona uyğun qurulduğuna görə Bəhram Osmanov başqa teatr binalarında oynamağa bir rejissor kimi qəti etiraz edirdi.

«Kral Lir» tamaşasının yaradıcı heyəti Moskvadan qayıtdıqdan sonra Nəriman Həsənzadənin uzun illərdən bəri üzərində işlədiyi, dəfələrlə teatra təqdim etdiyi, lakin nöqsanları göstərilən, əl gəzdirilməsi məsləhət bilinən «Pompeyin Qafqaza yürüşü» mənzum dramının istehsalata buraxılmasına sərəncam verildi (30 may 1996, əmr №7/h). Quruluşçu rejissorluq Bəhram Osmanova, bədii tərtibat Tahir Tahirova, bəstəkarlıq Fərəc Qarayevə tapşırıldı. Elə həmin gün rejissorun təqdimatına əsasən rol bölgüsü də təsdiqləndi, özü müəlliflə pyes üzərində işləyirdi.

İyun ayının əvvəllərində Mərahim Fərzəlibəyov «Hökmdar və qızı» tamaşasını geyim və qrimdə, tam olmayan tərtibatda bədii şuraya göstərdi. Müzakirədə quruluş barədə ciddi qüsurlar deyildi, bir gün sonra isə İlyas Əfəndiyev İbrahim xan Cavanşirin ifaçısı Rafael Dadaşova etirazını bildirdi. Rejissor nə qədər təkid etsə də, dramaturq fikrindən dönmədi və İbrahim xan rolu ilə özünün 50 illik yubileyini keçirmək istəyən aktyor yaradıcı heyətdən çıxdı. İbrahim xan rolu Əliabbas Qədirova tapşırıldı. Xalidə Şərifova Siranuş, Kübrabəyim Əliyeva Tubu xanım, Firuz Xudaverdiyev Kəlbəli xan rollarından çıxarıldılar. Rollar belə bölündü: Siranuş Kübrabəyim Əliyeva, Tubu xanım Safurə İbrahimova, Kəlbəli xan Məcnun Hacıbəyov. Səltənətbəyim roluna Münəvvər Əliyeva da əlavə edildi.

Tamaşaya resenziya yazan Bəkir Nəbiyev göstərirdi ki, «Hökmdar və qızı» əsəri ilə Milli teatrımızın səhnəsinə «ilk dəfə olaraq, Qarabağ mövzusu gəldi. Tamaşada son səkkiz ildə bütün xalqımızın göynəyən yarasına çevrilmiş Qarabağ probleminin tarixi kökləri çox gərgin dramatik kolliziyalar zəminində açıqlanır. Yaşının çoxluğuna, ağır xəstəliyin törətdiyi hər cür maneələrə baxmayaraq, dramaturq tariximizin keşməkeşli mərhələlərindən biri olan xanlıqların süqutu və ölkənin

iki yerə parçalanması ərəfəsini daha dərindən, hərtərəfli öyrənmək üçün saysız-hesabsız mənbələrə və o cümlədən Qarabağnamələrə baxmış, çoxlu arxiv sənədlərini nəzərdən keçirmişdir...

«Hökmdar və qızı» Azərbaycan dövlətçiliyini, onun birliyini, vəhdətini göz bəbəyi kimi qorumaq haqqında qocaman ədibin öz xalqına, gələcək nəsillərə son sözü, vəsiyyəti kimi xüsusi bədii ümumiləşdirmə qüvvəsi ilə səslənir» (2).

Maraqlıdır ki, İlyas Əfəndiyevin üç tarixi dramına («Xurşidbanu Natəvan», «Şeyx Xiyabani» və «Hökmdar və qızı») səhnə quruluşunu Mərahim Fərzəlibəyov verib. Tamaşanın premyerasından altı il sonra Mərahim Fərzəlibəyov mətbuata verdiyi müsahibəsində deyir: « Mən İlyas Əfəndiyevi, hər şeydən əvvəl, ona görə sevirdim ki, o yazdığı tarixi mövzulu əsərlərə çox həssaslıqla yanaşırdı. Əsərlərini elə tarixi dəqiqliklə işləyirdi ki, sanki hansısa bir tarixi dərslik yazırdı. Onun tarixi mövzuda yazdığı «Xurşidbanu Natəvan», «Şeyx Xiyabani» və «Hökmdar və qızı» tamaşaları Azərbaycan tamaşaçısına çox şey verdi, çox tarixi hadisələrdən onu xəbərdar etdi. Mən İlyas müəllimin tamaşalarının mərkəzindən qırmızı bir xətt kimi keçən vətəndaşlıq mövqeyini yüksək qiymətləndirirəm» (3).

«Hökmdar və qızı» tamaşası təkcə 1996-cı ildə deyil, uzun müddət teatr ictimaiyyətində bəyənilən səhnə əsəri kimi dəyərləndirildi. Türkiyənin görkəmli maarifçi-mesenatı, milliyyətcə azərbaycanlı İhsan Doğramaçı tamaşadan aldığı təəssüratı belə ifadə edirdi: «Mən çox həyəcanlandım. Əlbəttə ki, bu gözəl əsəri tez-tez təkrarlamaq lazımdır» (4).

Akademik teatrın Türkiyə qastrolunda «Hökmdar və qızı» tamaşası rəğbətlə qarşılanıb (bax: 5).

«Hökmdar və qızı» əsərinin ilk üç tamaşasından sonra o vaxt teatrın direktoru və bədii rəhbəri olan Həsən Turabov belə bir fikir söylədi: «Nə qədər ki, Qarabağ problemi həll olunmayıb, Azərbaycanın ulu torpaqları işğal altındadır, biz hər il yeni mövsümü məhz İlyas Əfəndiyevin bu əsərinin tamaşası ilə açacayıq». Onun təklifi həmin vaxtdan ənənə kimi bu günədək davam etdirilir.

1997-ci ildə «Hökmdar və qızı» tamaşasının yaradıcı heyətinin böyük bir qrupu ilin ən yaxşı tamaşasının iştirakçıları kimi Azərbaycan Teatr Xadimləri İttifaqının «Qızıl Dərviş» mükafatına layiq görüldü.

Kollektiv yay məzuniyyətindən sentyabrın 2-də qayıtdı. Bütün yay aylarında səhnədə işıqların quraşdırılması gedirdi. Sentyabrın 10-da Jan Batist Molyerin «Skapenin kələkləri» (tərcüməçi Elçin) komediyasının məşqlərinə başlandı. Tamaşanın quruluşçu rejissorluğu aktyor Yaşar Nuriyevə və Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rejissoru işləmiş, bu ildən Akademik teatrın ştatına götürülən Əsgər Əsgərova tapşırıldı. «Skapenin kələkləri» ilə paralel, «Hökmdar və qızı» pyesinin də məşqləri gedirdi. Hələlik müəllif və rejissor əsərin adının son variantının qənaətinə gəlməmişdilər, «Hökmdar və qızı», «İbrahim xan», «İbrahim xan və qızı» adlarının üçü də işlənirdi.

Məlik Dadaşovun istəyi ilə «Şeyx Sənan» faciəsi repertuar planına daxil edildi və tanınmış aktyor quruluşçu rejissor təsdiqləndi. Ancaq o, pyesin məşqlərinə başlamadı.

Oktyabr ayının 2-də İlyas Əfəndiyev vəfat etdi. «Hökmdar və qızı» tamaşasını görmək ona nəsib olmadı. Dekabrın 10-da mərhum dramaturqun oğlu, Azərbaycan Respublikası baş nazirinin müavini Elçinin iştirakı ilə tamaşaya daxili baxış keçirildi. Premyera dekabrın 15-nə təyin olundu. Həsən Turabovun təkidi ilə İlham Əsgərov Məhəmməd xan, Ramiz Novruzov Kəlbəli xan rollarına əlavə edildilər.

Dekabrın 15-də, altıillik təmirdən sonra teatr «Hökmdar və qızı» tamaşası ilə pərdələrini açdı. Teatrın direktoru və bədii rəhbəri Həsən Turabov, Mədəniyyət naziri Polad Bülbüloğlu, Prezident Aparatının işçisi Fatma Abdullazadə çıxış edib kollektivə gözaydınlığı verdilər.

Teatr «Hara gedir bu dünya?» (Bəxtiyar Vahabzadə), «Qisas qiyamətə qalmaz» (Nahid Hacızadə), «Ağqoyunlular və Qaraqoyunlular» (Əli Əmirli), «Kral Lir» (Uilyam Şekspir) tamaşalarının qısa müddətə məşqlərini apararaq onları repertuara daxil etdi.

Təmirdən sonra teatr binasının əsas texniki göstəriciləri belə oldu: Tamaşa salonu – 607 yer. O cümlədən parter – 376 yer, birinci yarus – 135 yer, ikinci yarus – 96 yer.

Qalxıb-enən boru (ştanket) – 46 ədəd.

Səhnə güzgüsünün hündürlüyü 7,5 metr, uzunluğu (eni də deyilir) 12 metr. Səhnənin ümumi uzunluğu (dərinliyi) 22 metr 30 sm, eni 20 metr. Səhnənin fırlanan dairəsinin diametri 13 metr.

Sağ və sol lojaların hər birinin yuxarısında 24, birinci yarusun alt hissəsində 12 projektor quraşdırıldı.

Səhnədə dörd safit düzəldildi. Hər safitdə işıq sistemindən PRPL –12 ədəd, SVTQ – 1–24 ədəd, SVTQ – 0,5 – 60 ədəd yerləşdirildi.

Orkestr çuxuru örtüldü, avansena genişləndi. Avansenanın qurtaracağındakı səhnə uzunu boya-boy çökəkdə projektorlar yerləşdirildi.

* * *

Truppada dəyişmə. Hacıbaba Bağırov Musiqili Komediya Teatrına direktor təyin olunanda həmin kollektivin bədii rəhbəri Səyavuş Aslan istefa verərək oktyabrın 1-dən Akademik teatra qayıtdı.

Xalq artisti Yaşar Nuriyev dekabrın 15-də işdən çıxmaq barədə ərizə yazdı. Direktor və bədii rəhbər Həsən Turabov elə həmin gün Yaşar Nuriyevin ərizəsinin üzərinə belə bir dərkənar qoydu: «Yaşar Nuriyevi teatrdan buraxmaq olmaz. Bu, Azərbaycan teatr sənətinə xəyanət olardı. 15.12.96».

Əsgər Əsgərov aprelin 1-də, Hafiz Fətullayev oktyabrın 1-də teatra rejissor, oktyabrın 2-də tələbələr Dilarə Nəzirova, Şəlalə Quliyeva, Məsmə Ağaverdiyeva, oktyabrın 10-da yenə tələbələr Vəfa Zeynalova, Rövşən Kərimduxt, Rəşid Səməndər (mərhum aktyor Səməndər Rzayevin oğlu), Gənc Tamaşaçılar Teatrının aktyoru Cəfər Əhmədov (Namiq Kamal), sentyabrın 9-da Dövlət Gənclər Teatrının aktrisası Gülşad Baxşiyeva kollektivə aktyor götürüldülər.

Namis Şirməmmədov iyulun 1-də, Xalq artisti Arif Quliyev sentyabrın 2-də teatrdan işdən çıxdılar. Ancaq Arif Quliyev dəvətlə çağırılıb «Ah, Paris... Paris!..» komediyasında məşq edirdi.

Təltif. Martın 10-da «Qisas qiyamətə qalmaz» tamaşasının yaradıcı heyətindən rejissor Lütfi Məmmədbəyov, bəstəkar Adil Bəbirov, dramaturq Nahid Hacızadə, Simran rolunun ifaçısı Yaşar Nuriyev (ikinci dəfə) «Qızıl Dərviş» mükafatına layiq görüldülər.

Əcəl aldı... Görkəmli dramaturq, Xalq yazıçısı, 1944-cü ildən Milli Dram Teatrının repertuarında pyesləri əsas yer tutan İlyas Əfəndiyev oktyabr ayının 3-də vəfat etdi. Ədib Fəxri xiyabanda dəfn olundu (bu barədə 1944-cü il bölümünə bax).

Noyabrın axırlarında Respublikanın Xalq artisti Məlik Yusif oğlu Dadaşov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Tədris Teatrında dərs keçərkən səhnədə yıxılıb başından zədə aldı. Məşhur aktyor bir müddət sonra gözlərini əbədi yumdu (7.6.1924 – 3.12.1996). Məlik Dadaşov 1950-ci ildən Akademik teatrın səhnəsində fəaliyyət göstərirdi.

Mənbələr

1. Светлана Мирзоева. «Аплодисменты москвичей Азербайджанскому театру». – «Бакинский рабочий», 31 май 1996; «Panorama» qəzeti, 17 sentyabr 1996.

2. Bəkir Nəbiyev. «İbrətamiz tamaşa». – «Azərbaycan», 27 dekabr 1996.

3. «Ekspress» qəzeti, 15 fevral 2011.

4. «Xalq qəzeti», 23 sentyabr 1997.

5. «Müxalifət» qəzeti, 1 dekabr 1998; «Xalq qəzeti», 2 dekabr 1998; «Yeni müsavat» qəzeti, 2 dekabr 1998; «İki sahil» qəzeti, 3 dekabr 1998; «Yeni Azərbaycan» qəzeti, 3 dekabr 1998; «Azərbaycan» qəzeti, 3 dekabr 1998; «Ekspress» qəzeti, 3 – 4 dekabr 1998; «Millət» qəzeti, 5 dekabr 1998; «Xalq qəzeti», 11 dekabr 1998; «Azərbaycan» qəzeti, 13 dekabr 1998; «Müstəqil qəzet», 17 – 23 dekabr 1998.

1997-ci il

1 fevral. «Ah, Paris... Paris!..», Elçin.

2 hissəli komediya.

Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov, musiqi tərtibatçısı Valeri Neverov.

Rollarda: Telman Adıgözəlov (Əhməd), Hacı İsmayılov (Mehdiqulu), Səyavuş Aslan (Əsədulla), Kübrabəyim Əliyeva (Firəngiz), Zemfira Nərimanova (Züleyxa), Arif Quliyev və Cəfər Əhmədov (Eynşteyn), Yaşar Nuriyev (İsgəndərzadə), Dilarə Nəzirova (Güllər), Məleykə Əsədova* və Şəlalə Şahvələdqızı (Gülbəniz), Sevil Abbasova** və Məsumə Aslanqızı*** (Nurbəniz), Elxan Ağahüseynoğlu

(Palyaniçko), Lüdmila Duxovnaya**** (Vera), Kamal Xudaverdiyev Süpürgəçi), Mətləb Abdullayev, Rövşən Kərimduxt, Nurəngiz Quliyeva, Aynur Əhmədova, Bahar Həsənova (şəhər əhli, dedi-qodu ustaları, müxbirlər və sair).

* *Qeyd.* Məleykə Əsədova məşq elədi, ancaq tamaşada Gülbəniz rolunu oynamadı.

** *Qeyd.* Sevil Abbasova məşq elədi, ancaq tamaşada Nurbəniz rolunu oynamadı.

*** *Qeyd.* Məsmənin adı bəzi proqramlarda «Məsumə», «Məsməxanım» kimi yazılıb.

**** *Qeyd.* Lüdmila Duxovnaya Rus Dram Teatrının aktrisasıdır, tamaşada dəvətlə oynayırdı.

7 iyun. «Fərhad və Şirin», Səməd Vurğun.

2 hissəli romantik məhəbbət dramı.

Quruluşçu rejissor Cənnət Səlimova, rəssam Tahir Tahirov, bəstəkar Emin Sabitoğlu, rəqslərin quruluşçusu Afaq Məlikova, səhnə döyüşlərinin quruluşçuları Nataliya və Yuri Baliyevlər.

Rollarda: Mikayıl Mirzə (Fərhad), Məleykə Əsədova (Şirin), Həsən Məmmədov (Xosrov), Bürcəli Əsgərov (Azər baba), Hicran Nəsirova və Gülşad Baxşıyeva* (Məryəm), Laləzar Mustafayeva (Məhinbanu), Elşən Cəbrayılov və Əkbər Əliyev (Şiruyə), Mətanət Atakişiyeva (Fitnə), Mətləb Abdullayev (Topal), İlham Quliyev (Ozan).

Kütləvi səhnələrdə Mədəniyyət və İncəsənət Universitetinin və Mədəni-Maarif Texnikumunun tələbələri iştirak edirlər.

* *Qeyd.* Gülşad Baxşıyeva məşq etdi, ancaq tamaşada Məryəm rolunu oynamadı.

28 noyabr. «Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə.

2 hissəli tarixi xronika.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Tahir Tahirov, bəstəkar Fərəc Qarayev.

Rollarda: Hacı İsmayılov (Teatr aktyoru), Ramiz Novruzov (Pompey), Pərviz Bağırov (Çar Uruz), Laləzar Mustafayeva və Hicran Nəsirova Məleykə (Aydan), Sadıq İbrahimov (Çar Artak), Məleykə Əsədova (İlkcan), Elxan Ağahüseynoğlu və Aqşin Vəlixanov (Feofan),

Cəfər Əhmədov (İkinci Tiqran), Mətləb Abdullayev (Şahzadə Tiqran), Rövşən Kərimduxt (Roma əsgəri), Məzahir Cəlilov (Bələdçi).

25 dekabr. «Şıltaq şahzadənin nağılı». Azərbaycan xalq nağıllarının motivləri əsasında.

1 hissəli kompozisiya.

Quruluşçu rejissor Abbas Qəhrəmanov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Cavanşir Quliyev.

Rollarda: Kazım Həsənquliyev və Rövşən Kərimduxt (Oğlan), Vəfa Zeynalova və Məsməxanım Aslanqızı (Şahzadə), Sabir Məmmədov və Pərviz Bağırov (Şah), Əlvida Cəfərov və Aydın Əliyev (Vəzir), Elxan Ağahüseynoğlu və Rəşid Rzayev* (Loğman), Əjdər Həmidov və Mahir Vətənxah (Təlxək), Abbas Qəhrəmanov və Aslan Şirinov (Aparıcı).

* *Qeyd.* Rəşid Rzayev (Səməndər) uzun müddət xəstə olduğuna görə tamaşada Loğman rolunu oynamadı.

* * *

Uzun müddət texniki səbəblərə görə premyerası gecikdirilən Elçinin «Ah, Paris... Paris!..» satirik komediyasının tamaşası fevralın 1-də və 2-də böyük uğur və təntənə ilə tamaşaçılara göstərildi. Məşhur nasir və ədəbiyyatşünas, yarım əsrdən çox Akademik teatrla sıx yaradıcılıq əlaqəsi saxlamış Xalq yazıçısı İlyas Əfəndiyevin övladı Elçinin əsəri bu sənət ocağında ilk dəfə idi oynanılırdı. Pyesi tamaşaya Azər Paşa Nemət hazırlamışdı. Tamaşanın rəssamı Elçin Məmmədov, musiqi tərtibatçısı isə Valeri Neverov idi.

Tamaşadakı hadisələr 1992-ci ilin payızında cərəyan edirdi. Elçin adi məişət hadisələri zəminində son dərəcə aktual, ictimai-sosial zəmindən rişələnən mənəvi-əxlaqi problemlərə toxunmuşdu. Yüksək estetik zövqə malik, həssas çağdaş siyasi-sosial durumu olan, rejissurasının poetika göstəriciləri orijinallığı ilə seçilən Azər Paşa Nemət məsxərə zəminli satirik komediya janrında şən, şuxovqatlı, tamaşaçını düşündürən və kövrəldən, səliqəsi diqqətçəkən tamaşa yaratmışdı.

«Ah, Paris... Paris!..» tamaşası kompozisiya bütövlüyü, meydan teatr prinsiplərinin çağdaş estetik həlli, mizanların eyni epizodda üçdörd müxtəlif planda (avansenadan tutmuş səhnənin ən arxa divarına

qədər) paralel və əlaqəli şəkildə qurulması ilə seçilirdi. Həm pyesin işlənməsi, həm də tamaşanın təqdimi bədii xüsusiyyətlərinə, məzmun-forma həllinə görə teatr üçün yeni və yeni olduğu qədər də təravətli, ürəkaçan və zövqlü idi.

Azər Paşanın janr təyininin özəlliyi və seçdiyi təfsir-üslub axtarışlarının hüsnü, ilk növbədə, aktyor ansamblına təzə-tərlik gətirmişdi. Ansamblda bütün ifaçılar vahid üslubun həmrəy daşıyıcıları olmaqla yanaşı, ayrılıqda hər bir aktyor fərdi ifadə vasitələrinin zərifliyi, bənzərsizliyi ilə seçilirdilər. Səyavuş Aslanın (Əsədulla) oyunu karnaval estetikasının zərif təcəssümü, Telman Adıgözəlovun (Əhməd) ifası ekssentrik hərəkətlərin estrada gülüşü ilə vəhdəti, Kübrabəyim Əliyevanın (Firəngiz) rol təfsiri məişət yumoru ilə ictimai satiranın eyni ladda ahəngdar səslənməsi, Yaşar Nuriyevin (İsgəndərzadə) qroteskə cəsarətlə üstünlük verməsi son nəticədə tamaşanın məna dərinliyinə və cazibədarlığına xidmət edirdi. Tamaşaçı vahid janrla, al-əlvan, parlaq rənglərlə cilalanmış oyun-üslublarla rastlaşırdı.

Azər Paşa Nemət səhnə məkanını elə qurmuşdu ki, aktyorlar istənilən məqamda improvizə etsələr də, ümumi üsluba xələl gəlmirdi. Hətta Mədəniyyət və İncəsənət Universitetinin tələbələri Şəlalə Şahvələdqızı (Quliyeva) və Məsmə Aslanqızı da Gülbəniz və Nurbəniz rollarındakı debütləri ilə yadda qalır, maraqla baxılırdılar. Teatrın kollektivinə yenicə qəbul olunmuş Cəfər Namiq Kamal (Əhmədov) isə Eynşteyn rolunun əsas ifaçısı Arif Quliyevdən daha məlahətli təsir bağışlayırdı. Bəlkə də, buna görə Arif Quliyev iki tamaşadan sonra rolu oynamaqdan boyun qaçırdı.

Rus Dram Teatrından çağırılmış Xalq artisti Lüdmila Duxovnaya (Vera) və Elxan Ağahüseynoğlu (Palyaniçka) dueti, bütün tamaşa boyu sözü barmaqla sayılacaq qədər az olan Süpürgəçinin ifaçısı Kamal Xudaverdiyevin hərəkət «oyunları» canlı görünürdü, tamaşanın ümumi sürət-ritminə uyuşurdu.

Sevil Abbasova (Nurbəniz) və Məleykə Əsədova (Gülbəniz) məşqlərdə iştirak etdilər, proqramda adları da dərc olundu, lakin heç biri tamaşada oynamadılar. Bir müddət Kübrabəyim Əliyeva xəstə olanda isə Firəngiz rolunu qısa müddətə hazırlayan Səidə Quliyeva ifa etdi. Sözsüz ki, ilk ifaçının oyunu daha bütöv və maraqlı alınmışdı.

«Ah, Paris... Paris!..» tamaşasının ilk tamaşalarından az sonra Elçin «Dəlixanadan dəli qaçıb və yaxud mənim sevimli dəlim» satirik komediyasını teatrın bədii şurasına təqdim etdi.

Yay mövsümü başa çatmaq ərəfəsində teatr Səməd Vurğunun «Fərhad və Şirin» romantik dramının tamaşası üzərində yaradıcılıq işini bitirdi. Səməd Vurğunun 90 illik yubileyi münasibətilə hazırlanan tamaşanın premyerası iyunun 7-də göstərildi. Tamaşanın quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Cənnət Səlimova (o, Kamera Teatrından dəvət olunmuşdu), rəssamı Tahir Tahirov, bəstəkarı Emin Sabitoğlu idi. Rəqslərin quruluşunu Xalq artisti Afaq Məlikova və Zahir Qasımov vermişdilər. Əsas rolları Mikayıl Mirzə (Fərhad), Həsən Məmmədov (Xosrov), Bürcəli Əsgərov (Azər baba), Məleykə Əsədova (Şirin), Hicran Nəsirova (Məryəm), Laləzar Mustafayeva (Məhinbanu), Ramiz Novruzov (Şapur), Rafiq Əzimov (Vəzir), Elşən Cəbrayılov (Şiruyə)... ifa edirdilər.

«Fərhad və Şirin» tamaşası müəyyən mənada Xalq artisti Mikayıl Mirzənin benefisi və sənət bayramı idi. Tamaşanın hasilə gəlməsində hərtərəfli əziyyətlərə qatlaşan, texniki təchizata qədər kömək əlini uzadan Mikayıl, əslində, tamaşanın rejissoru idi. O, aktyorlarla şeirlə yazılmış dialoq və monoloqların dəqiq, düzgün və mənalı ifası üçün günlərlə yorulmadan məşq edir, Fərhadla bağlı ən mürəkkəb epizodları, xüsusən bütün kütləvi səhnələri özü qururdu.

Romantik-monumental səpkidə hazırlanmış tamaşada ən uğurlu aktyor ifası qeyd-şərtsiz Mikayıl Mirzənin yenilməz ərən Fərhadı idi. Tənqid Mikayıl Mirzənin ifasının hüsnünü xüsusi qeyd edərək yazırdı: «Mikayıl Mirzənin tamaşadakı böyük uğurunu təmin edən budur ki, o, Səməd Vurğunun bu obrazın çiyinlərinə qoyduğu fikri – bədii yükün ağırlığını və məsuliyyətini dərindən dərk etmişdir. Fərhad – Mikayıl tamaşadakı bütün hadisələrin, düyünlənə-düyünlənə təşəkkül edən konfliktin mərkəzindədir. O, başlıca obrazların, demək olar ki, hamısı ilə bilavasitə... ünsiyyətdədir. Əsərin personajları silsiləsində onun mövqeyi elədir ki, aktyor səhnəyə hər gəlişi ilə bərqərar olan hadisə və vəziyyətlərə təkan verir, özünün dramatik və fiziki imkanları ilə onların inkişafını təmin edir. Mikayılın Fərhadı bir fəci qəhrəman kimi yüksək təsir qüvvəsinə malikdir. Fərhad – Mikayıl ucaltdığı nə-

həng qalaya baxıb fərəhlənəndə də, sevdiyindən umduğu münasibəti görməyib məyus olanda da, naşı bir yolötənlə mübahisəsində bir qədər şuxluq edəndə də, çapdığı sərt qayanın arasından gur su fəvvarə vurarkən sevincdən coşub-daşanda da, nəhayət, Şirinin «ölümünü» eşidib hönkür-hönkür ağlayanda da eyni dərəcədə təbiidir, inandırıcıdır» (1).

Mikayıl Mirzə bəstəkar Emin Sabitoğlu ilə Fərhad üçün «Açıl, ey səhər» nəğməsi işləmişdilər. Romantik gücü, lirizm ovqatı, psixoloji təəssüratı ilə könüloxşayan mahnını aktyor hər dəfə canlı səslə, şövq və ilhamla, poetik maraqla oxuyurdu. Mikayıl Mirzə Fərhad rolu ilə özünün romantik aktyor məktəbinin layiqli təmsilçisi olduğunu yeni səpkidə və daha geniş miqyasda nümayiş etdirdi. Bu rolun qələbəsindən sonra aktyor çoxdan arzuladığı «Aydın» əsəri haqqında düşünməyə, elmi-nəzəri məqalələr yazmağa başladı. 1998-ci ilin sonlarında Cəfər Cabbarlının «Aydın» faciəsi teatrın repertuar planına daxil edildi.

Şair-dramaturq Nəriman Həsənzadənin uzun illər müxtəlif variantlarda teatra təqdim olunan, ayrı-ayrı rejissorların, bədii şura üzvlərinin qeydləri ilə təkrar-təkrar işlənən «Pompeyin Qafqaza yürüşü» tarixi xronikası, nəhayət ki, 1997-ci ildə tamaşaya hazırlandı. Premyerası noyabrın 28-də oynanılan tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı Tahir Tahirov, bəstəkarı Fərəc Qarayev idi.

Pyes milli tariximizin çox mürəkkəb və çox vacib dövrünün günümüz üçün lazımlı problemlərinə toxunsa da, müəyyən dramaturji qüsurlardan xali deyildi. İstedadına teatrın güvəndiyi Bəhram tarixi xronika janrının estetik səhnə tələblərinə cavab verə bilən tamaşaya nail olmamışdı. Aktyorlardan Ramiz Novruzovun (Pompey), Laləzar Mustafayevanın (Məleykə Aydan), Məleykə Əsədovanın (İlkcan) rollarında həm ciddi ifa qüsurları vardı, həm də onların oyunları üslubjanrca biri-birini inkar edirdi.

Tamaşanın kompozisiya qurumunda, aktyorların ümumi danışıq səs-ahəngində, dövrün mənəvi və geyim-davranış tərzinin təsvirində ciddi qüsurlar nəzərə çarpırdı... Bu kimi qüsurlara görə «Pompeyin Qafqaza yürüşü» tamaşası teatrın yaradıcılıq nailiyyətinə çevrilə bilmədi.

Milli Dram Teatrı yeni il şənliklərində uşaqlar üçün hələ payızdan müəyyən işlər gördü. Xalq nağılları əsasında «Şıltaq şahzadənin

nağılı» adlı oyun-tamaşa hasilə gətirildi. İlk dəfə dekabrın 25-də oynanılan tamaşanın rejissoru teatrın aktyoru Abbas Qəhrəmanov idi. Bu əsər gün ərzində üç dəfə göstərilirdi.

Bu il teatr maddi təchizat baxımından ciddi çətinliklərlə üzləşirdi. Təbii ki, çətinliyin bilavasitə maliyyə ilə bağlılığı monumental, klassik tamaşalar hazırlamaq istəyən teatrı pis vəziyyətdə qoyurdu. Əsərlər işlənmək üçün bu səbəbdən növbəti ilə və ya qeyri-müəyyən ilə keçirilirdi.

Teatr həftədə iki-üç (əsasən, şənbə və bazar günlərində) tamaşa oynamaqla kifayətlənirdi. Camaatın acı güzəranı, kasıbçılığın günügündən artması böhranlı vəziyyəti getdikcə ağırlaşdırırdı...

* * *

Yarımçıq işlər. Rejissor Mərahim Fərzəlibəyov ilin əvvəlindən Anarın «Mən, sən, o və telefon» əsərini tamaşaya hazırlamaq təklifi ilə bədii rəhbər Həsən Turabova müraciət etdi. Razılıq alındı və fevralın 18-dən əsər üzərində «Telefon gecələri» adı ilə məşqlərə başlandı. Sonra məlum oldu ki, rejissor bu barədə Anarla danışmayıb. Dramaturq – teatr anlaşılmazlığı bir qədər gərgin şəkil aldı və nəticədə Mərahim Fərzəlibəyov doqquzuncu məşqdən sonra tamaşanı hazırlamaqdan imtina etdi.

Teatrın rejissor heyətinə yenicə qəbul olunmuş Əsgər Əsgərovla aktyor Yaşar Nuriyevin Jan Batist Molyerin «Skapenin kələkləri» (Elçinin tərcüməsində) komediyasını hazırlamaqları barədə əmr verildi. Aprelin 26-dan isə məşqlərə başlandı, hətta rəssam Nazim Bəykişiyev tərtibatın eskizlərini də verdi. Yaşar özü baş rolu məşq edirdi. Ancaq müəyyən müddətdən sonra əsər üzərində iş gözlənilmədən yarımçıq saxlanıldı.

Yubileylər. Teatrda Lütfi Məmmədbəyovun 70 (15 mart) və Eldəniz Zeynalovun 60 (3 may) illik yubileyləri keçirildi. Oktyabrın 28-də isə Xalq artisti Ağasadıq Gəraybəylinin 100 illik yubileyi təntənə ilə keçirildi (ssenari müəllifi İlham Rəhimli, rejissor Mərahim Fərzəlibəyov). Bədii hissədə «Xurşidbanu Natəvan» (İlyas Əfəndiyev), «Nişanlı qız» (Sabit Rəhman), «Müfəttiş» (Qoqol) tamaşalarından parçalar oynanıldı və qüdrətli sənətkarın çəkildiyi «O olmasın, bu olsun», «Bəxtiyar» filmlərindən kadrlar göstərildi.

Təltif. May ayının 23-də bir qrup Azərbaycan şair və yazıçılarına, o cümlədən Akademik teatrda müxtəlif illərdə əsərləri tamaşaya qoyulmuş Maqsud və Rüstəm İbrahimbəyovlara, Anara, Elçinə, Əkrəm Əylisliyə «Xalq yazıçısı» fəxri adı verildi.

Xalq artistləri Səyavuş Aslan və Əliabbas Qədirov «Hökmdar və qızı» tamaşalarındakı rollarına görə Azərbaycan Teatr Xadimləri İttifaqının «Qızıl Dərviş» mükafatına layiq görüldülər.

Kamal Xudaverdiyev ötən ilin sənət uğurlarına görə «Bakılılar» cəmiyyətinin «Humay quşu» mükafatı ilə təltifləndi.

Truppada dəyişmə. Oktyabr ayının 1-dən etibarən aktyorlardan Fikrət Vəliyev və Mahir Mirzəliyev, noyabrın 1-dən İlham Əsgərov, Elxan Quliyev və Gülşad Baxşəliyeva müqavilə ilə ştatdan çıxıb oyunhesabı müqaviləyə keçdilər. Bu istiqamətdə Nazir Rüstəmov və Almaz Amanova ilə də müqavilə bağlandı.

Sentyabrın 17-də Firəngiz Mütəllimova yenidən teatra ştata qayıtdı. Sənubər İsgəndərova kollektivin yaradıcı heyətinə qəbul olundu. Dekabrın 1-də isə Münəvvər Əliyeva ştata keçdi.

Dramaturq. Elçin (Elçin İlyas oğlu İlyas Əfəndiyev. 13 may 1943). Bakıda doğulub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib (1960 – 1965). Milli Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirib (1965 – 1969). Yaradıcılığa 1959-cu ildə nəsrlə başlayıb. Filologiya elmləri doktorudur. Xalq yazıçısı, Əməkdar incəsənət xadimidir (1984). Aspirantı olduğu elmi müəssisədə kiçik (1969 – 1972), sonra böyük (1972 – 1975) elmi işçi, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin katibi (1975 – 1988), «Vətən» cəmiyyətinin sədri (1988 – 1993), Azərbaycan Nazirlər Kabinetində baş nazirin müavini (1993-cü ildən indiyənədək) işləyib. Bir neçə romanı səhnələşdirilib. Pyesləri: «Poçt şöbəsində xəyal», «Ah, Paris... Paris!..», «Mənim sevimli dəlim» («Dəlixanadan dəli qaçıb»), «Mənim ərim dəlidir» («Diaqnoz «D»), «Qatil», «Ölüm hökmü», «Şekspir», «Arılar arasında».

Mənbə

1. Bəkir Nəbiyev. «Fərhad və Şirin» yeni quruluşda. – «Günay», 24 iyun 1997.

1998-ci il

10 aprel. «Özümüzü kəsən qılınc» («Göytürklər»)**,** Bəxtiyar Vahabzadə.

Tarixi-ictimai faciə.

Tamaşa Göytürk dövlətinin 1450, Azərbaycan Demokratik Cümhuriyyətinin 80 illiyinə həsr olunur.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev, rəqslərin quruluşçusu Nicat Kazımov.

Rollarda: Əliabbas Qədirov və Yaşar Nuri* (Qara Xaqan), Ramiz Məlik və Rafiq Əliyev** (Dulu Xaqan), Nurəddin Mehdixanlı (Gur Şad), Elxan Quliyev və Məzahir Cəlilov*** (Ergin), Laləzar Mustafayeva**** (İçgen xatun), Aydın Əliyev və Rəşid Səməndər (Yan Çunq), Rafiq Əzimov (Mubi Tərxan), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Banuçiçək), Məleykə Əsədova (Selcan), Məcnun Hacıbəyov (Salur xan), Kazım Həsənquliyev və Nazir Rüstəmov (Arslan), Sənubər İsgəndərova (Siyan Şi), Aslan Şirinov və Əjdər Həmidov (Şeytan), Mətanət Atakişiyeva və Şəlalə Şahvələdqızı (Mələk), Elxan Ağahüseynoğlu (Çin zabiti), Əsgər Məmmədoğlu (Gözətçi), Rəsul Həsənzadə (İltəriş), Mətləb Abdullayev (Birinci çapar və Birinci carçı), Rövşən Kərimduxt (İkinci çapar və İkinci carçı), Qönçə Ağabəyli, Məsməxanım Aslanqızı, Nicat Kazımov, Xəyyam Məmmədov (xidmətçilər), Vəfa Zeynalova, Dilarə Nəzirova, Xalidə Şərifova və Həqiqət Nəbiyeva (kənizlər).

* *Qeyd.* Yaşar Nuri məşq elədi, ancaq tamaşada Qara Xaqan rolunu oynamadı.

** *Qeyd.* Gənc Tamaşaçılar Teatrından dəvət olunmuş Rafiq Əliyev (Dulu Xaqan) məşq etdi, ancaq tamaşada oynamadı.

*** *Qeyd.* Məzahir Cəlilov məşq etdi, ancaq tamaşada Ergin rolunu oynamadı.

**** *Qeyd.* Laləzar Mustafayevanın soyadı bəzi proqramlarda «Mustafabəyli» yazılıb.

26 aprel. «Şadlıq sorağında»*, Viktor Rozov. Tərcümə edənlər Əsgər Əsgərov və Vidadi Həsənov.

2 hissəli komediya.

Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Cavanşir Quliyev. Tamaşanın bədii rəhbəri Həsən Turabov.

Rollarda: Sofiya Bəsirzadə və Sevil Xəlilova (Klavdiya Vasilyevna), Əsgər Əsgərov (Fedya), Samirə Məmmədova (Tatyana), Oqtay Mehdiyev (Oleq), Vəfa Zeynalova (Lenoçka), Elxan Ağahüseynoğlu (İvan Lapşin), Rövşən Kərimduxt və İntiqam Əsgərov (Gennadi), Sabir Məmmədov (Terenti Nikolayeviç), Natəvan Əkbərova (Marina), Firuz Xudaverdiyev (Vasili İppolitoviç), Şəlalə Şahvələdqızı (Fira), Məsmə Aslanqızı (Vera Tretyakova), Vidadi Həsənov (Leonid Pavloviç).

* *Qeyd.* Bu tamaşa Mədəniyyət və İncəsənət Universiteti aktyorluq fakültəsinin diplom tamaşası idi. Kursun rəhbəri Həsən Turabov, assistentləri Əsgər Əsgərov və Vidadi Həsənov idilər. Buna görə də tamaşada teatrın aktyorları ilə yanaşı, tələbələrdən Samirə Məmmədova, Oqtay Mehdiyev, İntiqam Əsgərov, Natəvan Əkbərova da oynayırdılar.

23 may. «Mənim sevimli dəlim»*, Elçin.

2 hissəli komediya.

Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov, musiqi tərtibatçısı Valeri Neverov, rejissor assistenti Pünhan Həsənli.

Rollarda: Telman Adıgözəlov (Professor), Kübrabəyim Əliyeva və Şəlalə Şahvələdqızı (Şəfqət bacısı), Səyavuş Aslan və Ramiz Novruzov (Baş redaktor), Hacı İsmayılov (Məsul katib), Eldəniz Zeynalov**, Əsgər Məmmədoğlu (Siyasi icmalçı), Yaşar Nuriyev və Aqşin Vəlixanov (Şöbə müdiri), Elxan Ağahüseynoğlu (Pantaleymon Polikarpoviç), Cəfər Namiq Kamal (Ədəbi işçi), Məsməxanım Aslanqızı (Katibə), Rövşən Kərimduxt və Aslan Şirinov (Polis nəfəri, xəstəxana işçiləri, tamaşanı başlayan, davam etdirən, bitirən, bədii ruh verən, səsləndirən və sair).

* *Qeyd.* Tamaşanın adı müxtəlif mətbuat səhifələrində «Dəlixanadan dəli qaçıb», «Dəlixanadan dəli qaçıb və ya mənim sevimli dəlim», «Mənim sevimli dəlim» («Dəlixanadan dəli qaçıb»)... kimi də yazılıb.

** *Qeyd.* Eldəniz Zeynalov xəstələndiyinə görə tamaşada Siyasi icmalçı rolunu oynamadı.

«Özümüzü kəsən qılınc» («Göytürklər»), Bəxtiyar Vahabzadə.
Soldan: Mubi Tərxan – Rafiq Əzimov
və Qara xaqan – Əliabbas Qədirov. 1998-ci il

«Özümüzü kəsən qılınc» («Göytürklər»), Bəxtiyar Vahabzadə.
İçgen xatun – Laləzar Mustafayeva. 1998-ci il

* * *

Şair-dramaturq Bəxtiyar Vahabzadənin ilk məşqi 1997-ci il iyunun 20-də başlanan «Özümüzü kəsən qılınc» tarixi-ictimai faciəsinin tamaşası, nəhayət, hasilə gəldi. Əvvəlcə «İki qardaş» adı ilə məşqə başlanan əsər sonralar müəllifin istəyi ilə «Özümüzü kəsən qılınc» («Göytürklər») oldu. Bəxtiyar Vahabzadə uzun illər pyesi GTT-nin rejissoru Ağakişi Kazımovla birgə işləmişdi. Ona görə də tamaşaya quruluş vermək üçün o, Akademik teatra dəvət edildi.

Tamaşa Göytürk dövlətinin 1450, Azərbaycan Demokratik Cümhuriyyətinin isə 80 illiyinə həsr olunmuşdu. «Özümüzü kəsən qılınc»ın rəssamı İsmayıl Məmmədov, bəstəkarı Cavanşir Quliyev idi. Rəqslərin quruluşunu Nicat Kazımov verdi.

Tarixi sənədlər əsasında yazılmış əsərin mövzusu eramızın VII əsrində mövcud olmuş Göytürk dövlətinin istiqlal uğrunda apardığı çətin, ziddiyyətli və mürəkkəb mübarizənin siyasi-psixoloji tərəflərindən bəhs edir. Konfliktin mərkəzində dövlət mənafeyi ilə şəxsi istəyin qarşı-qarşıya gəlməsindən yaranan kəskin mübarizə dururdu.

Bəxtiyar Vahabzadə ilk Azərbaycan dramaturqu idi ki, Göytürk mövzusuna, onların Çin dövləti ilə apardığı mübarizənin dramatik, təzadlı mərhələlərinə həsr olunmuş dəyərli dram əsəri yazmışdı. Dramda Qara Xaqan (Əliabbas Qədirov), Dulu Xaqan (Ramiz Məlik), Gur Şad (Nurəddin Mehdixanlı)... kimi tarixi şəxsiyyətlərin obrazları ilə yanaşı, yüksək sənətkarlıqla işlənmiş bədii personajlar da vardı.

Premyerası aprelin 10-da oynanılan «Özümüzü kəsən qılınc» tamaşasında aktyorlardan Sənubər İsgəndərova (Siyan Şi), Məleykə Əsədova (Selcan), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Banuçiçək), Rafiq Əzimov (Mubi Tərxan), Rəşid Səməndər (Yan Çunq), Mətanət Atakişiyeva və Şəlalə Şahvələdqızı (Mələk), Laləzar Mustafayeva (İçgen xatun), Məcnun Hacıbəyov (Salur xan) və başqaları iştirak edirdilər. İltəriş rolunu rejissor köməkçisi Nəcəf Həsənzadənin 6 yaşlı nəvəsi Rəsul Həsənzadə oynayırdı.

Tamaşanın bədii tərtibatındakı sıxlıq, yəni detalların çoxluğu və ölçüsüz yerləşdirilməsi müəyyən məqamlarda aktyorlara mane olurdu. Rejissor Ağakişi Kazımov tarixi-ictimai faciə janrının estetik tələblərinə cavab verə bilən tamaşa yaratmağa uzun müddət səylə çalışsa da,

pyesin bütün bədii dəyər və ləyaqətini təcəssüm etdirməyə nail ola bilmədi. Hətta Bəxtiyar Vahabzadənin özünün qurama məşqlərdə yaxından iştirakı çox nöqsanları islah etsə də, quruluşda həm nəzərə açıq çarpan və həm də güclə sezilən qüsurlar qalmışdı.

Bununla belə, tamaşa teatrın nailiyyəti kimi qiymətləndirilə bilər. Xüsusən Türkiyə səfərində tamaşa uğurla qarşılanıb və Türkiyə Cümhuriyyətinin müxtəlif teatrlarında həmin əsərə müraciət etmək marağı oyatmışdır.

Tamaşanın aktyor oyunu baxımından ən uğurlu nailiyyəti Nurəddin Mehdixanlının ifa etdiyi cilasun Gur Şad obrazı idi. Aktyor faciəvi-dramatik boyalarla rəsm olunan romantik qəhrəmanlıq xarakteri yarada bilirdi. Əliabbas Qədirovun Qara xaqanı sanballı, romantik ruhlu qəhrəmanlıq obrazı təsiri bağışlayırdı. Ramiz Məliyin Dulu Xaqanı aktyorun son beş ildə ən bitkin səhnə uğuru idi.

Siyan Şi rolu Sənubər İsgəndərovanın Milli teatrda ilk işi idi. Əvvəllər Dövlət Gənclər Teatrında işləmiş, «Kişi sözü» filmindən tamaşaçılara tanış olan Sənubər dramaturji materialın bütün bədii-estetik tələblərinə cavab verən səhnə surəti yaradırdı. Aktrisanın emosional, təsirli, yumşaq səhnə plastikası, obrazın ən mürəkkəb psixoloji vəziyyətlərini mənalı hərəkətlərlə təcəssüm etdirmək bacarığı, ifasının ali məqsədini dəqiq təyinləşdirməsi, personajın daxili təbəddülatlarını çevik aktyor ifadələri ilə canlandırması Siyan Şini baxımlı, cazibədar, düşündürən xarakterə çevirmişdi. Bu roldakı nailiyyəti Sənubər İsgəndərovanın Milli teatrda daha inamlı addımlar ata bilmək qabiliyyətindən soraq verirdi.

Həsən Turabovun rəhbərlik etdiyi dördüncü kurs aktyorluq fakültəsinin tələbələri hələ ötən ildən Viktor Rozovun «Şadlıq sorağında» komediyasının məşqlərinə başlamışdılar. Həsən Turabov 1961-ci ildə Mehdi Məmmədovun quruluş verdiyi bu əsərdə Gennadi rolunu oynamışdı. 1997-ci il noyabrın 19-da tamaşanın quruluşçu rejissorluğu Turabovun həmin kursda assistenti və teatrın işçisi Əsgər Əsgərova həvalə olundu. Rolları teatrın aktyorlarından Sofiya Bəsirzadə və Sevil Xəlilova (Klavdiya Vasilyevna), Əsgər Əsgərov (Fedya), Elxan Ağahüseynoğlu (İvan Lapşin), Vəfa Zeynalova (Lenoçka), Sabir Məmmədov (Terenti Nikolayeviç), Firuz Xudaverdiyev (Vasili İppolitoviç), Şəlalə

Şahvələdqızı (Fira), Məsmə Aslanqızı (Vera), «Yuğ» teatrının aktyoru Vidadi Həsənov (Leonid Pavloviç), tələbələrdən Samirə Məmmədli (Tatyana), Elnur Məmmədov (Nikolay), Oqtay Mehdiyev (Nikolay), Natəvan Əkbərova (Marina) oynayırdılar. Baş rol Gennadini isə teatrın aktyoru Rövşən Kərimduxt və tələbə İntiqam Əsgərov ifa edirdilər.

«Şadlıq sorağında» pyesini rejissor Əsgər Əsgərovla Vidadi Həsənov tərcümə etmişdilər. Tamaşanın bədii tərtibatı rəssam Kamal Şıxəliyevə, musiqisi isə Cavanşir Quliyevə tapşırılmışdı.

Gənclər və məktəblilər üçün nəzərdə tutulan tamaşanın premyerası aprel ayının 26-da, gündüz oldu. Tamaşa repertuarda az qaldı.

Elçinin «Mənim sevimli dəlim» («Mənim sevimli dəlim, yaxud dəlixanadan dəli qaçıb») satirik komediyasının premyerası (23, 24, 30 və 31 may) teatrın təntənəsinə çevrildi. «Mənim sevimli dəlim»in səhnə təfsiri dramaturqun öz arzusu ilə «Ah, Paris... Paris!..»in quruluşunu vermiş məşhur rejissor Azər Paşa Nemətə həvalə olunmuşdu. O, ilk məşqə 1997-ci il oktyabrın 10-da başladı, ancaq teatrın Türkiyəyə qastrol səfərlərinə hazırlığı məşq prosesində müəyyən fasilələr yaratdı.

Psixoloji dəqiqliyi, məzmunun poetik forma təfsirini (rəssam Elçin Məmmədov), tamaşanın obrazlı həllinin bütövlüyünü, rejissor konsepsiyasının zərif təcəssümünü böyük səylə, yüksək bədii-estetik dəyərlərlə, cilalanmış şəkildə qurmaqda usta olan Azər Paşa Nemət teatrın janr-üslub axtarışlarında təzə söz olan tamaşa yarada bilmişdi.

Elçinin kəskin ictimai-siyasi hadisələrdən bəhs edən, dövrümüzün mənəvi-əxlaqi, sosial-məişət problemlərinə ciddi şəkildə toxunan «Mənim sevimli dəlim» komediyası bütün bədii dəyər göstəriciləri ilə səhnə həllini tapa bilmişdi. Tamaşada rejissor heyranedici dərəcədə aktyor ansamblı qurmuş və onların öz potensial aktyorluq imkanlarını açmaq üçün məkan genişliyi, ifa sərbəstliyi (vahid üslub-janr dairəsində), üfüqlü, zəngin yaradıcılıq iqlimi yaratmışdı.

Telman Adıgözəlov (Professor), Şəlalə Şahvələdqızı (Şəfqət bacısı), Səyavuş Aslan (Baş redaktor), Hacı İsmayılov (Məsul katib), Əsgər Məmmədoğlu (Siyasi icmalçı), Yaşar Nuriyev və Aqşin Vəlixanov (Şöbə müdiri), Elxan Ağahüseynoğlu (Panteleymon Polikarpoviç), Cəfər Namiq Kamal (Ədəbi işçi), Məsməxanım Aslanqızı (Katibə) təravətli, şux, gülməli səhnə obrazları oynayırdılar.

Tamaşanın əsas ağırlığını isə mübahisəsiz və şəriksiz Səyavuş Aslan çəkirdi. Baş redaktor rolu aktyorun yaradıcılığında təzə sənət qələbəsi, növbəti uğur zirvəsi idi.

Səyavuş Aslan bu rolda məsxərənin, satirik komediyanın, karnaval estetikasının, qrotesk-hiperbolanın elementlərini vahid ifa poetikasında yüksək sənətkarlıqla birləşdirirdi. Azər Paşa Nemətovun dörd-beş planda paralel, həm üfüqi, həm şaquli «mərtəbələrlə» mizan qurmaq hünəri, onun estetik cazibəsi Səyavuş Aslana, eləcə də digər ifaçılara sonsuz yaradıcılıq imkanları açmışdı.

Tamaşanın iki aparıcı dueti vardı: Professor – Şəfqət bacısı və Baş redaktor – Katibə. Telman Adıgözəlov aktyor plastikası, Şəlalə musiqi ritminin ahəngdarlığı, Səyavuş ləzzətli yumor ölçüsü, Məsmə isə gülüş doğuran emosional lirizmi ilə tamaşaçıları heyran qoyurdular.

Azər Paşa Nemət aktyorların oyun sərbəstliyini irəli buraxaraq Elçinin dramaturq ideyasının təntənəsi kimi səslənən qeyri-adi final qurmuşdu. Aktyorların fərdi və «xor» oyunu, Pavorottinin italyan dilində oxuduğu fonoqram mahnı, bütün səhnəyə enən sellofanın düşməsi və onun üstünə yağan yağışın texniki həllinin, işıq qurumunun doğurduğu psixoloji ovqat tamaşa müəlliflərinin qayə-məqsəd təntənəsi kimi səslənib-görünürdü.

Şəfqət bacısı obrazını ilkin mərhələdə Kübrabəyim Əliyeva da məşq edirdi. Aktrisanın oyun üslubu Azər Paşanın janr-üslub təyininə tam uyğun gəlirdi. Heyif ki, aktrisanın qəfildən xəstələnməsi onu bu gözəl roldan uzaqlaşdırdı.

Eldəniz Zeynalov da qarda yıxılıb zədə aldığına görə Siyasi icmalçını oynaya bilmədi.

Yeni il şənlikləri günlərində ötən il hazırlanmış «Şıltaq şahzadənin nağılı» tamaşası bərpa edilib yenidən uşaqlara göstərildi.

* * *

Yubiley. Mayın 15-də Xalq artisti Kamal Xudaverdiyevin 60 illiyi teatrın öz təşəbbüsü ilə bayram edildi. Teatrın direktoru və bədii rəhbəri Həsən Turabovun və bir neçə sənət dostunun təbrik çıxışından sonra Kral Lir rolunda Kamal Xudaverdiyevin iştirakı ilə Uilyam Şekspirin «Kral Lir» faciəsi oynanıldı.

Qastrol. Teatr noyabr ayının 14-də Türkiyəyə qastrol səfərinə çıxdı. Yaradıcı heyət avtobusla yola düşdü. İrandan keçib Türkiyəyə getdilər. Qastrola İlyas Əfəndiyevin «Hökmdar və qızı», Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» («Göytürklər») və Elçinin «Mənim sevimli dəlim» pyeslərinin tamaşaları aparılmışdı. Ərzurumda «Hökmdar və qızı» (17 noyabr), Sevasda «Mənim sevimli dəlim» (19 noyabr), Niqdedə «Özümüzü kəsən qılınc» (21 noyabr), Ankarada «Özümüzü kəsən qılınc» (22 noyabr), «Hökmdar və qızı» (23 noyabr), Kayseridə «Mənim sevimli dəlim» (24 noyabr), «Özümüzü kəsən qılınc» (25 noyabr) tamaşaları oynanıldı.

Dekabrın 5-dən 10-dək isə Ankara Dövlət Teatrosu Ergün Sayın «Vətən, yaxud Namiq Kamal» pyesinin tamaşası ilə Bakıda AMDT-da, Sumqayıtda və Gəncədə çıxışlar etdi.

Yarımçıq işlər. İlk məşqi ötən il noyabrın 28-də başlanan Şıxəli Qurbanovun «Sənsiz» psixoloji dramını Mərahim Fərzəlibəyov qısa müddətə hazırladı. Rolları Bəsti Cəfərova (Sevinc), Cəfər Namiq Kamal (Tərlan), Sabir Məmmədov (Fərhad) və Vəfa Zeynalova (Maral) oynayırdılar. Daxili baxışda müəyyən qeydlər deyildi və mərhum dramaturqun ailəsi hələ baxa bilmədiyinə və teatrın müəyyən texniki səbəblərinə görə «Sənsiz»in premyerası ləngidi. Bu il iyunun 12-də tamaşaya yenidən ictimai baxış oldu. Müzakirədə şair-dramaturq Nəbi Xəzri, teatrşünas İlham Rəhimli, Həsən Turabov, Nurəddin Quliyev (Mehdixanlı), Əliabbas Qədirov, dramaturqun qızı Gülnarə Qurbanova çıxış edib, əsasən, tamaşanın dəyərli tərəflərindən danışdılar. Eyni zamanda qüsurlara da toxunuldu və rejissor Mərahim Fərzəlibəyov onların əksəriyyəti ilə razılaşıb düzəldəcəyini bildirdi. Təəssüflər olsun ki, sonradan dramaturqun ailəsinin telefonla teatrın rəhbərliyinə etirazı nəticəsində «Sənsiz» kimi maraqlı tamaşa işıq üzü görmədi. Rejissorun və aktrisa Bəsti Cəfərovanın cəhdlərinə baxmayaraq, premyera baş tutmadı.

Çex dramaturqu Bukovçanın «Qana qan» pyesini tamaşaya hazırlamaq rejissor Rafiq Atakişiyevə tapşırıldı, rollar bölündü. Teatrda sərəncamçı direktor işləyən Rafiq Atakişiyevin işdən çıxması ilə bağlı əsər üzərində iş prosesi dayandırıldı.

Truppada dəyişmə. İlham Namiq Kamal «İlham Miniatür Teatrı»nda işləməklə yanaşı, müqavilə ilə Milli teatra da qəbul olundu (20 oktyabr). Mehriban Xəlilova truppaya daxil edildi (4 aprel). Aslan Adil oğlu Şirinov müqavilədən ştata keçirildi (1 sentyabr).

Fəxri adlar. Martın 24-də teatrın bir qrup sənətkarına Azərbaycan Respublikasının fəxri adları verildi.

Xalq artisti: Bəsti Əli qızı Cəfərova, Ramiz Qəvvam oğlu Novruzov, Ramiz Ağarza oğlu Məlikov.

Əməkdar artist: Məleykə Əlifağa qızı Məlikova, Nurəddin Ətulla oğlu Quliyev, Laləzar Bəşir qızı Mustafayeva.

Əcəl aldı... Respublikanın Əməkdar artisti, maraqlı komik rollar ifaçısı Aqşin Məmmədəli oğlu Vəlixanlı iyul ayının 18-də qəflətdən vəfat etdi. O, 1936-cı il may ayının 28-də Bakıda aktyor ailəsində doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil alıb (1956 – 1961). 1960-cı ildən Akademik teatrın truppasında çalışırdı.

1999-cu il

3 aprel. «Şah Edip, yaxud alın yazısı» («Şah Edip»), Sofokl. Tərcümə edəni Rafiq Rəhimli.

2 hissəli mistik faciə

Quruluşçu rejissor və bədii tərtibatın müəllifi Bəhram Osmanov, bəstəkar Cavanşir Quliyev, geyim rəssamı Elina Əliyeva.

Rollarda: Kamal Xudaverdiyev (Edip), Sənubər İsgəndərova (İcraçı), Şükufə Yusupova (İokasta), Rəşid Səməndər (Kreont), Münəvvər Əliyeva (Antiqona), Mehriban Xanlarova (İsmena), Sadıq İbrahimov (Fesey), Məzahir Cəlilov (Tirezi), Kazım Həsənquliyev (Polinik), Ələsgər Məmmədoğlu (Çoban), Əli Nur (Kornif qasidi).

9 aprel. «Sokratı anma gecəsi» («Eşşək dərisi üzərində məhkəmə»), Çingiz Aytmatov və Muxtar Şahanov. Tərcümə edəni Dilsuz Mustafayev.

2 hissəli çağdaş tarixi dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Tahir Tahirov, bəstəkar Polad Bülbüloğlu, rejissor assistenti Nurəddin Mehdixanlı, rəqslərin quruluşçusu Fərhad Vəliyev, səs rejissoru Cahangir Əliyev.

Rollarda: Ramiz Novruzov (Ədib), Nurəddin Mehdixanlı (Sokrat və Aydar), Rafael Dadaşov (Mindövlət), Bəsti Cəfərova (Qaliyə və Adlay), İftixar Piriyev və Pərviz Bağırov (Talap), Firəngiz Mütəllimova (Aysulu), Əli Nur (Şair), Sabir Məmmədov (Akkanad), Pərviz Bağırov və Əlvida Cəfərov (Bekan), Kamal Xudaverdiyev və Ramiz Məlik (Çingizxan), Yaşar Nuriyev (Tanrıqut), Zemfira Nərimanova (Dudan), İlham Əsgərov (Kairxan), Ələsgər Məmmədoğlu (Karaşoka), Rafiq Əzimov (Qoca), Rövşən Kərimduxt (Cığatay), İradə Ağasıbəyli (Səadət), Elxan Ağahüseynoğlu (Xau Ri), İftixar Piriyev və Pərviz Bağırov (Birinci hun), Əli Nur (İkinci hun), Məcnun Hacıbəyov (Lao), Xalidə Şərifova (Kədər), Bürcəli Əsgərov (Şairin atası), Mətləb Abdullayev (Çan), Məsməxanım Aslanqızı (Nuri), Qönçə Ağabəyli, Almaz Amanova və Şəlalə Şahvələdqızı (qızlar), Aslan Şirinov (Qapıçı), Şəlalə Şahvələdqızı (Birinci alov), Məsməxanım Aslanqızı (İkinci alov), Nəcəf Həsənzadə (Aşpaz), Aslan Şirinov (Cəllad), Mətləb Abdullayev və Rövşən Kərimduxt (cangüdənlər).

4 iyul. «Burla xatun», Nəbi Xəzri.

2 hissəli mənzum-epik hekayət.

Quruluşçu rejissorlar Vaqif Əsədov və Əsgər Əsgərov, rəssam Adil Azay, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Rafiq Əzimov (İxtiyar), Sənubər İsgəndərova (Burla xatun), Sabir Məmmədov (Ulus), Mətanət Atakişiyeva (Qısırca yengə), Şəlalə Şahvələdqızı və Fidan Axundova (Çiçək), Məsmə Aslanqızı və Qönçə Ağabəyli (Səhəriyyə), Vəfa Zeynalova (Aynişan), Abbas Qəhrəmanov (Şöklü Məlik), Mehriban Xanlarova və Almaz Amanova (Şiranə), Əjdər Həmidov (Birinci kafir), Kazım Həsənquliyev (İkinci kafir), Rövşən Kərimduxt (Üçüncü kafir).

16 oktyabr. «Mənim ərim dəlidir» («Diaqnoz «D»), Elçin.

2 hissəli komediya.

Quruluşçu rejissor Azər Paşa Nemət, rəssam Elçin Məmmədov, musiqi tərtibatçısı Vladimir Neverov.

Rollarda: Səyavuş Aslan və Yaşar Nuriyev* (Kişi), Firəngiz Mütəllimova və Sənubər İsgəndərova** (Arvad), Aslan Şirinov və Rövşən Kərimduxt*** (Oğul), Şəlalə Şahvələdqızı və Ayan Mirqasımova**** (Qız), Hacı İsmayılov və Ələsgər Məmmədoğlu (Qonşu),

Elxan Ağahüseynoğlu (Lider), Zemfira Nərimanova (Xanım), Cəfər Namiq Kamal (Dost), Telman Adıgözəlov (Professor), Məsmə Aslanqızı (Falçı Ağabacı), şagird Aysu Əfəndiyeva*****, şagird Leyla Əsədova və Məsmə Aslanqızı****** (Uşaq), Rövşən Kərimduxt (Cangüdənlərin rəisi), Anar Heybətov (Cangüdən).

* *Qeyd.* Yaşar Nuriyev (Kişi) premyeraya yaxın məşqləri dayandırdı.

** *Qeyd.* Sənubər İsgəndərova (Arvad) «Sərgüzəşti-vəziri-xani-Lənkəran» komediyasının məşqində məşğul olduğu üçün bu rol üzərində işini yarımçıq saxladı.

*** *Qeyd.* Rövşən Kərimduxt iki rolu məşq edirdi, ancaq Oğul obrazını ifa etmədi.

**** *Qeyd.* Rus Dram Teatrından dəvət olunmuş Ayan Mirqasımova (Qız) premyeraya yaxın məşqlərə gəlmədi və tamaşada oynamadı.

***** *Qeyd.* Dramaturq Elçinin qızı Aysu Əfəndiyeva (Uşaq) səhnə məşqlərinə başlayanda bir neçə dəfə iştirak etdi və sonra gəlmədi. Buna görə də tamaşada oynamadı.

****** *Qeyd.* Məsmə Aslanqızı iki rolu məşq edirdi, ancaq Uşaq obrazını oynamadı.

13 noyabr. «Sərgüzəşti-vəziri-xani-Lənkəran», Mirzə Fətəli Axundzadə.

Komediya.

Quruluşçu rejissor Vaqif İbrahimoğlu, rəssam Rəşid Şerif, bəstəkar Səyavuş Kərimi, işıq tərtibçisi Yusif Məmmədov.

Rollarda: İlham Namiq Kamal (Lənkəran xanı), Nəcəf Həsənzadə (Qədir bəy), Anar Heybətov (Əziz ağa), tələbə İsmayıl Atakişiyev (Səməd bəy), tələbə Elxan Rzayev (Səlim bəy), Sabir Məmmədov (Teymur ağa), Rövşən Kərimduxt (Riza bəy), Cəfər Namiq Kamal və Yaşar Nuriyev* (Vəzir Mirzə Həbib), Laləzar Mustafabəyli (Ziba xanım), Zemfira Nərimanova (Şölə xanım), Sənubər İsgəndərova (Nisə xanım), Zərnigar Ağakişiyeva (Pəri xanım), Elxan Quliyev (Ağa Bəşir), Sevil Xəlilova (Xacə Məsud Qara), Aslan Şirinov (Fərraş Heydər), Əli Nur (Mehdər Kərim), Məzahir Cəlilov (Hacı Salah), Firuz Xudaverdiyev (Birinci ərizəçi), Əlvida Cəfərov (İkinci ərizəçi),

Elşən Cəbrayılov (Üçüncü ərizəçi), Mətləb Abdullayev (Dördüncü ərizəçi).

Kütləvi səhnələrdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri Şaban Əsgərov, Elşad Əhmədov, Nəsimi Məmmədov, Namin Nurəliyev, Toğrul Rzayev və Sərdar Rüstəmov iştirak edirlər.

**Qeyd.* Yaşar Nuriyev premyeraya on gün qalmışa qədər Vəzir Mirzə Həbib rolunu məşq etdi, ancaq intizam üstündə rejissorla müəyyən ixtilaflarına görə tamaşada oynamadı.

17 dekabr. «Köhnə ev», Əli Əmirli.

2 hissəli dramatik komediya.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rejissor köməkçisi Nəcəf Həsənzadə.

Rollarda: Eldəniz Zeynalov (Qüdrət), Safurə İbrahimova (Mələk), Şükufə Yusupova (Zəhra), Münəvvər Əliyeva və Vəfa Zeynalova* (Cana), Abbas Qəhrəmanov (Sahib), Cəfər Namiq Kamal (Kamran Qızılsəs), Məsmə Aslanqızı və Dilarə Nəzərova (Böcək).

**Qeyd.* Vəfa Zeynalova (Cana) məşq etdi, ancaq tamaşada oynamadı.

* * *

Teatr son iki ildə (1999 – 2000) on iki tamaşa hazırlayaraq XX əsrə müəyyən sənət qələbələri ilə yekun vurdu və XXI əsrə prespektiv yaradıcılıq planları ilə qədəm qoydu. 1999-cu il aprel ayının 3-də teatr ilk dəfə antik yunan dramaturgiyasına müraciət etdi. Quruluşçu rejissor və bədii tərtibatın müəllifi Bəhram Osmanov (bəstəkar Cavanşir Quliyev) Sofoklun «Şah Edip» faciəsini «Şah Edip, yaxud alın yazısı» adı ilə tamaşaçılara təqdim etdi. Əsas rolları Kamal Xudaverdiyev (Edip), Şükufə Yüsupova (İokasta), Rəşid Səməndər (Kreont), Münəvvər Əliyeva (Antiqona), Mehriban Xanlarova (İsmena), Əli Nur (Kornif qasidi) oynayırdılar.

Dilsuz Mustafayevin tərcüməsində Çingiz Aytmatov və Muxtar Şahanovun «Sokratı anma gecəsi» («Eşşək dərisi üzərində məhkəmə») dramının tamaşası 1999-cu il 9 apreldə oynanıldı. Quruluşçu

«Mənim ərim dəlidir» («Diaqnoz «D»), Elçin.
1999-cu il

«Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə.
Tamaşadan səhnə. 1999-cu il

rejissoru Mərahim Fərzəlibəyov, rəssamı Tahir Tahirov, bəstəkarı Polad Bülbüloğlu olan tamaşa mövzu problematikanın psixoloji-fəlsəfi kökü baxımından «Şah Edip»lə həmahəng səslənirdi. Aktyorlardan Ramiz Novruzov (Ədib), Nurəddin Mehdixanlı (Sokrat və Aydar), Rafael Dadaşov (Mindövlət), Bəsti Cəfərova (Qaliyə və Adlay), İftixar Piriyev və Pərviz Bağırov (Talap), Firəngiz Mütəllimova (Aysulu), Əli Nur (Şair), Sabir Məmmədov (Akkanad), Kamal Xudaverdiyev və Ramiz Məlik (Çingizxan), Yaşar Nuriyev (Tanrıqut), Zemfira Nərimanova (Dudan) maraqlı oyun nümayiş etdirirdilər.

Nəbi Xəzrinin «Burla xatun» əsəri də tarixi mövzuda idi. Quruluşçu rejissorlar Vaqif Əsədov və Əsgər Əsgərov tamaşanı 2 hissəli mənzum-epik hekayət janrında hazırlamışdılar. Tərtibatı rəssam Adil Azayın, musiqisi Cavanşir Quliyevin idi. Burla xatun rolunu Sənubər İsgəndərova ifa edirdi.

Elçinin yeni əsəri «Mənim ərim dəlidir» («Diaqnoz «D») də onun ilk iki pyesinin mövzusunda idi. Daha doğrusu, özünün yazılış üslubu və mövzu-problematikaya baxışı bir konsepsiya ətrafında birləşmişdi. 16 oktyabrda göstərilən tamaşanın da quruluşçu rejissoru Azər Paşa Nemət, rəssamı Elçin Məmmədov idi. Tamaşada daha parlaq aktyor ifasını Səyavuş Aslan (Kişi), Firəngiz Mütəllimova (Arvad), Aslan Şirinov (Oğul), Telman Adıgözəlov (Professor), Məsmə Aslanqızı (Falçı Ağabacı) nümayiş etdirirdilər.

Quruluşçu rejissor Vaqif İbrahimoğlunun hazırladığı Mirzə Fətəli Axundzadənin «Lənkəran xanının vəziri» komediyası (rəssam Rəşid Şerif, bəstəkar Səyavuş Kərimi) çox orijinal formada həll edilmişdi. Əsl milli karnaval estetikasında həll edilmiş tamaşada istisnasız bütün aktyorlar gözəl oynayırdılar. Rejissor əsər üçün tamam yeni ideya tapmışdı. İlham Namiq Kamal (Lənkəran xanı), Anar Heybətov (Əziz ağa), Sabir Məmmədov (Teymur ağa), Rövşən Kərimduxt (Riza bəy), Cəfər Namiq Kamal (Vəzir Mirzə Həbib), Laləzar Mustafabəyli (Ziba xanım), Zemfira Nərimanova (Şölə xanım), Sənubər İsgəndərova (Nisə xanım), Zərnigar Ağakişiyeva (Pəri xanım), Elxan Quliyev (Ağa Bəşir), Sevil Xəlilova (Xacə Məsud Qara), Aslan Şirinov (Fərraş Heydər), Əli Nur (Mehdər Kərim) rejissorun tamaşa üçün müəyyənləşdirdiyi ali məqsədi məharətlə səhnədə canlandırırdılar.

Əli Əmirlinin «Köhnə ev» dramının tamaşası mövzu müasirliyi, obrazların bədii reallığı, kompozisiya həlli, aktyor ifaları baxımından yaradıcılıq nailiyyəti idi. «Köhnə ev»in quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədov idi. Rollarda Eldəniz Zeynalov (Qüdrət), Safurə İbrahimova (Mələk), Şükufə Yusupova (Zəhra), Münəvvər Əliyeva (Cana), Abbas Qəhrəmanov (Sahib), Cəfər Namiq Kamal (Kamran Qızılsəs), Məsmə Aslanqızı və Dilarə Nəzərova (Böcək) çıxış edirdilər. Qüdrət rolu Eldənizin son yaradıcılıq işi oldu.

* * *

Dramaturq. Sofokl (təqribən e.ə.496 – e.ə.406). Antik yunan dramaturqu. Teatr müsabiqələrində dəfələrlə birincilik qazanıb. 120-dən çox dram əsərinin müəllifidir. «Şah Edip», «Edip Kolonda», «Elekutra», «Ayaks», «Filoketet», «Traxinya qadınları», «Antiqona» faciələri dövrümüzə qədər tam şəkildə gəlib çıxıb. Xeyli dram əsərlərində parçalar qorunub saxlanılıb. Faciələrinin mövzusu mifologiyadan götürülsə də, güclü ictimai-etik mahiyyət daşıyır.

2000-ci il

29 yanvar. «Hərdən mənə mələk də deyirlər...», Kamal Abdulla.

2 bölümlü xəyali oyun.

Quruluşçu rejissor Əsgər Əsgərov, tərtibat rəssamı Kamal Şıxəliyev, geyim rəssamı Elina Əliyeva, bəstəkar Cavanşir Quliyev, rejissor assistenti Mətləb Abdullayev. Tamaşanın bədii rəhbəri Vaqif İbrahimoğlu.

Rollarda: Rafiq Əzimov (Kişi), Zemfira Nərimanova (Qadın), Kazım Həsənquliyev və Kamran Yunis (Oğlan).

25 fevral. «Ulduz, yaxud Ədirnə fəthi», Cəfər Cabbarlı. Dramaturqun «Ulduz, yaxud Trablis müharibəsi» və «Ədirnə Fəthi» pyeslərinin motivləri əsasında.

2 hissəli qəhrəmanlıq dramı.

Tamaşa görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 100 illiyinə həsr edilir.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, bəstəkar Oqtay Kazımov.

Rollarda: Nurəddin Mehdixanlı (Orxan), Sənubər İsgəndərova (Ulduz), Əliabbas Qədirov (Ənvər), Pərviz Bağırov (Xaliq), Kamal Xudaverdiyev (İzzət paşa), Əli Nur (Mustafa), Sadıq İbrahimov (Kamil paşa), Mətləb Abdullayev (Əbdürrəhman), Mehriban Xanlarova (Şəmsa), Ramiz Məlik (Haris), Hicran Nəsirova (Havalı qadın), İradə Ağasıbəyli (İnci), Bürcəli Əsgərov (Nazim paşa), Rafiq Əzimov (Şeyx), Məcnun Hacıbəyov (Şüeyb), Kazım Həsənquliyev (Cinner), Əlvida Cəfərov (Vasili), Rövşən Kərimduxt (Dmitri), Məzahir Cəlilov (Sənusi), Elnur Məmmədov (Ərəb).

1 aprel. «Aydın», Cəfər Cabbarlı.

2 hissəli faciə.

Tamaşa görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 100 illiyinə həsr edilir.

Quruluşçu rejissor Mikayıl Mirzə, rəssam Tahir Tahirov, bəstəkar Cavanşir Quliyev, rəqslərin quruluşçusu Mədinə Əliyeva, səhnə döyüşlərini quranlar Yuri və Nataliya Baliyevlər.

Rollarda: Mikayıl Mirzə* və Nurəddin Mehdixanlı (Aydın), Məleykə Əsədova (Gültəkin), Rasim Balayev** (Dövlət bəy), Ramiz Novruzov (Surxay), Hicran Nəsirova (Böyükxanım), Məcnun Hacıbəyov və Sabir Məmmədov*** (Balaxan), Hacı İsmayılov (Novruz bəy), Rafiq Əzimov (Mirzə Cavad), Dilarə Nəzərova (Susanna), Əli Nur (Pirqulu), Əsgər Məmmədoğlu (Səlim), Firuz Xudaverdiyev (Qulam), Elşən Cəbrayılov (İlyas), Mətləb Abdullayev (Qurban), Nəcəf Həsənzadə (Lakey).

Rəqsləri ifa edirlər: Almaz Amanova, Vəfa Zamanova, Qönçə Ağabəyli və Nurəngiz Quliyeva.

* *Qeyd.* Mikayıl Mirzə Aydın roluna tam hazır idi, ancaq tamaşada oynamadı.

** *Qeyd.* Rasim Balayev tamaşada Dövlət bəy rolunu teatrın dəvəti ilə gəlib oynayırdı. Bir neçə tamaşadan sonra həmin rolu aktyor İlham Əsgərov ifa etdi.

*** *Qeyd.* Sabir Məmmədov məşq etdi, ancaq tamaşada Balaxan rolunu oynamadı.

14 may. «Bu dünyanın adamları», Hidayət Orucov.

2 hissəli qəmli komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssamlar Ağarəhim Əliyev və Tahir Tahirov, bəstəkar Eldar Mansurov, rejissor assistenti İlham Əsgərov.

Rollarda: Səyavuş Aslan (Zaman Həsənli), İlham Əsgərov və Pərviz Bağırov* (Nemət Səmədzadə), Yaşar Nuriyev (Yoldaş Əmrah), Hacı İsmayılov və Elxan Ağahüseynoğlu** (Qoşqar Kəngərli), Firəngiz Mütəllimova və Xalidə Şərifova (Sevər), Laləzar Mustafayeva (Hüquqə xanım), Sabir Məmmədov və Mətləb Abdullayev*** (Sarvan), Eldəniz Zeynalov və Məcnun Hacıbəyov (Qulaməli), Dilarə Nəzərova və Mətanət Atakişiyeva (Səkinə), Aslan Şirinov (Səkinənin əri), Almaz Amanova və Qönçə Ağabəyli (Zülya), Əjdər Həmidov (Dadaşzadə), Əsgər Məmmədoğlu (Qasımlı), Əli Nur (Şəfiyev), Nəcəf Həsənzadə (Ofisiant), şagird Rəsul Həsənzadə (Uşaq).

* *Qeyd.* Pərviz Bağırov (Nemət Səmədzadə) məşqləri yarımçıq saxladı və tamaşada oynamadı.

** *Qeyd.* Elxan Ağahüseynoğlu məşq elədi, ancaq tamaşada Qoşqar Kəngərli rolunu oynamadı.

*** *Qeyd.* Mətləb Abdullayev məşq elədi, ancaq tamaşada Sarvan rolunu oynamadı.

11 iyun. «Cəzasız günah», Bəxtiyar Vahabzadə.

2 hissəli lirik-psixoloji dram.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssamlar Ağarəhim Əliyev və Tahir Tahirov, bəstəkar Səyavuş Kərimi.

Rollarda: Ramiz Novruzov (Toğrul), Sənubər İsgəndərova (Aysel), Kamal Xudaverdiyev (Salman Tahirov), Səyavuş Aslan (Nüsrət), Əsgər Məmmədoğlu (Qaçay), Abbas Qəhrəmanov (Qoşqar), Məcnun Hacıbəyov (Loğman), Sadıq İbrahimov (Hüquqşünas), Elxan Ağahüseynoğlu (Həkim).

22 oktyabr. «Eşq və intiqam», Süleyman Sani Axundov.

2 hissəli faciə.

Quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Minurə Əfəndiyeva, rejissor assistenti Mətləb Abdullayev.

Rollarda: Əli Nur (Əlimərdan), İlham Əsgərov və Məzahir Cəlilov (Piri baba), Zərnigar Ağakişiyeva və Xalidə Şərifova (Yasəmən),

Sabir Məmmədov (Çingiz), Fidan Axundova (Qəmər), Əlvida Cəfərova (Cəbi), Bürcəli Əsgərov (Şahbaz bəy), Hicran Nəsirova və Səidə Quliyeva (Həcər xanım), Kazım Həsənquliyev və Aslan Şirinov* (Şəmsi bəy), Vəfa Zeynalova (Zöhrə), Mətləb Abdullayev (Səfi bəy), Nəcəf Həsənzadə (Səfa), Firuz Xudaverdiyev (Heydərqulu), Elşad Əhmədov və Sərdar Rüstəmov (kazaklar).

**Qeyd.* Aslan Şirinov məşq elədi, ancaq tamaşada Şəmsi bəy rolunu oynamadı.

9 dekabr. «Dar ağacı», Bəxtiyar Vahabzadə.

2 hissəli faciə.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Kamal Xudaverdiyev (Aqşin), Nurəddin Mehdixanlı* və İlham Əsgərov (Sabutay), Əli Nur (Babəkin teyfi), Məleykə Əsədova (Çılğın), Hacı İsmayılov və Valeh Kərimov** (İbn Zeyd), Elxan Ağahüseynoğlu (İbn Süheyl), Rafiq Əzimov (İbn Tahir), Zərnigar Ağakişiyeva (Ana), Kazım Həsənquliyev (Altay), Məcnun Hacıbəyov (Ağsaqqal), Samir Qulamov (Gözətçi), Hicran Nəsirova (Çılğının xalası), Elxan Quliyev*** və Rövşən Kərimduxt (Yarqıtay), Elnur Məmmədov (Ərəb zabiti), Elşən İsmayılov (Ərəb əsgəri), Aslan Şirinov (Rəhman), Fidan Axundova (Qaravaş), Vəfa Zamanova (Xidmətçi qız), Nəcəf Həsənzadə (Cəllad).

* *Qeyd.* Nurəddin Mehdixanlı axıradək məşq eləmədiyi üçün tamaşada Sabutay rolunu oynamadı.

** *Qeyd.* Sumqayıt Dövlət Musiqili Dram Teatrının aktyoru Valeh Kərimov bir müddət oyunhesabı müqavilə ilə Akademik teatrda da işlədi.

*** *Qeyd.* Elxan Quliyev məşq elədi, ancaq tamaşada Yarqıtay rolunu oynamadı.

* * *

Ötən əsrin son ilində uğurlu məqamlardan biri o oldu ki, teatr Kamal Abdullanın yaradıcılığına müraciət etdi. Quruluşçu rejissor Əsgər Əsgərovdan, tərtibat rəssamı Kamal Şıxəliyevdən, geyim rəssamı Elina Əliyevadan, bəstəkar Cavanşir Quliyevdən ibarət yaradıcı heyət alim-dramaturqun «Hərdən mənə mələk də deyirlər...»

«Dar ağacı», Bəxtiyar Vahabzadə. Soldan: Sabutay – İlham Əsgərov,
İbn Tahir – Rafiq Əzimov və İbn Zeyd – Hacı İsmayılov. 2000-ci il

«Aydın», Cəfər Cabbarlı. Aydın – Nurəddin Mehdixanlı
və Gültəkin – Məleykə Əsədova. 2000-ci il

psixoloji dramını tamaşaçılara təqdim etdi. Pyes müəyyən bədii məziyyətlərinə görə postmodernizm estetikasının prinsiplərinə cavab verirdi. Üç iştirakçı olan tamaşada rolları Rafiq Əzimov (Kişi), Zemfira Nərimanova (Qadın), Kazım Həsənquliyev və Kamran Yunis (Oğlan) ifa edirdilər.

Teatr Cəfər Cabbarlının 100 illiyinə iki tamaşa hazırladı. 1918 – 1920-ci illərdə dramaturqun «Ədirnə fəthi» və «Ulduz, yaxud Trablis müharibəsi» dramları həm truppalarda, həm də bugünkü Milli Dram Teatrında dəfələrlə tamaşaya qoyulub. Quruluşçu rejissor Bəhram Osmanov (rəssam İsmayıl Məmmədov, bəstəkar Oqtay Kazımov) iki pyesi birləşdirərək «Ulduz, yaxud Ədirnə fəthi» adı ilə tamaşaçılara təqdim etdi. Tamaşada rejissor Ramiz obrazının adını dəyişib Orxan qoymuşdu. Səhnə əsərində əsas rolları Nurəddin Mehdixanlı (Orxan), Sənubər İsgəndərova (Ulduz), Əliabbas Qədirov (Ənvər), Pərviz Bağırov (Xaliq), Kamal Xudaverdiyev (İzzət paşa), Əli Nur (Mustafa), Mehriban Xanlarova (Şəmsa), Ramiz Məlik (Haris), Hicran Nəsirova (Havalı qadın), İradə Ağasıbəyli (İnci), Bürcəli Əsgərov (Nazim paşa) ifa edirdilər.

Yubileyə ikinci hədiyyə Mikayıl Mirzənin rejissorluğunda «Aydın» faciəsi oldu. Tamaşanın rəssamı Tahir Tahirov, bəstəkarı Cavanşir Quliyev, rəqslərin quruluşçusu Mədinə Əliyeva idi. Monumental-romantik səpkidə hazırlanmış tamaşada rolları Nurəddin Mehdixanlı (Aydın), Məleykə Əsədova (Gültəkin), Rasim Balayev (Dövlət bəy), Ramiz Novruzov (Surxay), Hicran Nəsirova (Böyükxanım), Məcnun Hacıbəyov (Balaxan), Hacı İsmayılov (Novruz bəy), Rafiq Əzimov (Mirzə Cavad), Dilarə Nəzərova (Susanna), Əli Nur (Pirqulu) oynayırdılar.

Bəxtiyar Vahabzadənin «Cəzasız günah» (quruluşçu rejissor Bəhram Osmanov, rəssamlar Ağarəhim Əliyev və Tahir Tahirov, bəstəkar Səyavuş Kərimi), Süleyman Sani Axundovun «Eşq və intiqam» (quruluşçu rejissor Lütfi Məmmədbəyov, rəssam Kamal Şıxəliyev) uğursuz tamaşalar siyahısına daxil oldu. Bəxtiyar Vahabzadənin «Dar ağacı» (quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev), Hidayət Orucovun «Bu dünyanın adamları» (quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssamlar Ağa-

rəhim Əliyev və Tahir Tahirov, bəstəkar Eldar Mansurov) müəyyən bədii-estetik dəyərləri və aktyor ifaları ilə maraq doğurdu. «Dar ağacı» tamaşasında Kamal Xudaverdiyevin Aqşin və Zərnigar Ağakişiyevanın Ana obrazları yüksək peşəkarlıq nümunəsi kimi yaddaşlarda qaldı.

* * *

Qastrol. İyul ayının 17-dən 23-nə qədər Türkiyənin Bayburt şəhərində Dədə Qorquda həsr olunmuş altıncı «Uluslararası kültür-sənət şöləni (bayramı)» keçirildi. Teatr həmin bayramda Nəbi Xəzrinin «Burla xatun» pyesinin tamaşasını göstərdi (18 iyul).

Fəxri adlar. Oktyabr ayının 28-də teatrın bir qrup rejissor və aktyoruna Respublikanın fəxri adları verildi.

Xalq artisti: Zərnigar Fəti qızı Ağakişiyeva, Məleykə Əlifağa qızı Əsədova, Rafiq Əşrəf oğlu Əzimov, Mərahim Fərzəli oğlu Fərzəlibəyov, Firəngiz Bəhər qızı Mütəllimova, Eldəniz Məmməd oğlu Zeynalov.

Əməkdar artist: Telman Abbasqulu oğlu Adıgözəlov, Kübrabəyim Ağa qızı Əliyeva, İlham Təvəkkül oğlu Əsgərov, Sadıq Əliabbas oğlu İbrahimov, Səidə Əbülfəz qızı Quliyeva, Hicran Fətəli qızı Nəsirova.

Əcəl aldı... Xalq artisti, şöhrətli teatr və tanınmış kino aktrisası Sofiya Bəsirzadə (Sofiya Bəsir qızı Bəsirzadə) 4 yanvar 2000-ci ildə Bakıda vəfat etdi. O, 28 fevral 1918-ci ildə Kazan quberniyasının Köhnə Çukan kəndində doğulub. İki yaşı olanda ailəsi Bakıya köçüb. 1936-cı ildə Bakı Teatr Məktəbinə daxil olub. Həmin ilin noyabrından Akademik Milli Dram Teatrının əvvəlcə yardım heyətinə, 1938-ci il, sentyabr ayının 1-dən isə aktyor truppasına aktrisa götürülüb. Ondan artıq bədii filmə çəkilib.

YENİ ERA, TƏZƏ BƏDİİ İMKANLAR

2001 -ci il

23 fevral. «Poçt şöbəsində xəyal», Elçin.

2 hissəli dram.

Quruluşçu rejissor Mehriban Ələkbərova, rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev, bəstəkar Səyavuş Kərimi.

Rollarda: Bəsti Cəfərova (Ədilə), Ramiz Məlik (Kişi), Səyavuş Aslan (Yoldaş Tək), Məcnun Hacıbəyov (Baba), Firəngiz Mütəllimova (Gülzar), Hicran Nəsirova (Züleyxa), Cəfər Namiq Kamal (Xəlil), Elxan Ağahüseynoğlu (Professor), Zərnigar Ağakişiyeva (Qadın), Rövşən Kərimduxt (Skripkaçı).

1 noyabr. «Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruzov.

2 hissəli nikbin faciə.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Münəvvər Əliyeva (Sona), Nürəddin Mehdixanlı (Yaralı əsgər), Əliabbas Qədirov (Nostradamus), Əsgər Məmmədoğlu və Əjdər Həmidov (Şou Zəli), Telman Adıgözəlov və Anar Heybətov* (Qumarbaz), Telman Əliyev (Sintezator), Mətləb Abdullayev (Halaypozan), Abbas Qəhrəmanov** və Rəşid Səməndər (Andranik), Pərviz Bağırov (Minas), Rövşən Kərimduxt (Aram), Vəfa Zeynalova (Sona, erməni), Əlvida Cəfərov (Həkim), Nəcəf Həsənzadə (Dəli).

**Qeyd.* Anar Heybətov «Qumarbaz» rolunu teatrın Lənkəran qastrolunda oynadı.

** *Qeyd.* Abbas Qəhrəmanov məşq elədi, ancaq tamaşada Andranik rolunu oynamadı.

* * *

Kollektiv XXI əsrin ilk ilinə yeni mövzu və yeni üslub-janrla qədəm qoydu. Teatr iki tamaşa hazırladı və bu əsərlər həm dramaturji materialın bədii dəyər, həm rejissor işi, həm də aktyor ifaları baxımından uğurlu idilər.

Elçinin «Poçt şöbəsində xəyal» əsəri müəllifin 26 – 28 yaşlarında yazılıb və milli dramaturgiyamızda postmodernizm üslubunda işlənmiş ilk pyesdir. Mehriban Ələkbərova tamaşanın quruluşçu rejissoru idi və əsərə maraqlı səhnə təfsiri vermişdi. Rejissorun təklif etdiyi məkan (rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev), psixoloji-dramatik hadisələr üçün seçdiyi musiqi parçaları (bəstəkar Səyavuş Kərimi) tamaşanın hüsnünü daha da təravətləndirmişdi. Ədilə rolu Bəsti Cəfərovanın son beş ildə ifa etdiyi ən yaxşı rolu idi. Ramiz Məlik (Kişi), Səyavuş Aslan (Yoldaş Tək), Məcnun Hacıbəyov (Baba), Firəngiz Mütəllimova (Gülzar), Hicran Nəsirova (Züleyxa), Cəfər Namiq Kamal (Xəlil), Elxan Ağahüseynoğlu (Professor), Zərnigar Ağakişiyeva (Qadın), Rövşən Kərimduxt (Skripkaçı) cazibəli ifa nümayiş etdirə bilirdilər.

Teatrın ikinci uğurlu işi kollektivin üzvü, aktyor Ramiz Novruzun «Hələ «sevirəm» deməmişdilər...» pyesinin tamaşası idi. Qarabağ mövzusunda işlənmiş pyes janr estetikasına görə teatr üçün yeni idi və quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov bu təzəliyin ruhunu həssaslıqla tamaşanın ruhuna, kompozisiya bütövlüyünə, estetik təsir gücünə aşılamışdılar. Erməni quldurlarının əlinə keçmiş ruhi xəstəxanada baş verən hadisələr psixoloji faciə prinsipləri ilə həssas lirizmlə işlənmişdi. Aktyorlar Münəvvər Əliyeva (Sona), Nürəddin Mehdixanlı (Yaralı əsgər), Əliabbas Qədirov (Nostradamus), Əsgər Məmmədoğlu və Əjdər Həmidov (Şou Zəli), Telman Adıgözəlov (Qumarbaz), Telman Əliyev (Sintezator), Mətləb Abdullayev (Halaypozan), Rəşid Səməndər (Andranik), Pərviz Bağırov (Minas), Rövşən Kərimduxt (Aram), Vəfa Zeynalova (Sona, erməni), Əlvida Cəfərov (Həkim), Nəcəf Həsənzadə (Dəli) öz rollarını yüksək peşəkarlıqla oynayırdılar.

«Hələ «sevirəm» deməmişdilər...» tamaşası kamil aktyor ifası ilə teatrın çox uğurlu yaradıcılıq nailiyyəti kimi dəyərləndirilirdi. Bu ansamblda hətta ən epizodik rolun ifaçısı da ümumi estetik ahəngin əsas səciyyələrindən kənara çıxmırdılar.

Bu ilin yazından Kamal Abdullanın «Dədə Qorqudun Kitabı» dastanının motivləri əsasında yazdığı «Cəsus» dramı (quruluşçu rejissor Vaqif İbrahimoğludur) tamaşaya hazırlanıb. Tamaşaya üç dəfə ictimai baxış olub və əsər bəyənilib. Mədəniyyət Nazirliyinin nümayəndələri

də tamaşanı qəbul ediblər. Çox təəssüflər ki, son dərəcə gözəl, üslubca tamamilə yeni olan, qüdrətli aktyor ifaları nümayiş etdirilən tamaşa repertuara ayaq aça bilmədi.

* * *

Yarımçıq iş. Bu ilin yazından Kamal Abdullanın «Dədə Qorqudun Kitabı» dastanının motivləri əsasında yazdığı «Cəsus» dramı (quruluşçu rejissor Vaqif İbrahimoğludur) tamaşaya hazırlanıb. Tamaşaya üç dəfə ictimai baxış olub və əsər bəyənilib. Mədəniyyət Nazirliyinin nümayəndələri də tamaşanı qəbul ediblər. Ancaq indiyə qədər tamaşanın premyerası oynanılmayıb.

İnzibati dəyişmə. Dekabr ayının 13-də teatrın direktoru və bədii rəhbəri Həsən Səttar oğlu Turabov və sərəncamçı direktor Elxan Mirzə oğlu Haqverdiyev öz vəzifələrindən istefa verdilər. Həmin gün bu vəzifələrə əvvəllər teatrda işləmiş Xalq artisti Şəfiqə Haşım qızı Məmmədova və aktyor İftixar Fərhad oğlu Piriyev təyin olundular. Ancaq Şəfiqə Məmmədova məlum olmayan səbəblərə görə işə çıxmadı. Dekabrın 26-da teatrın direktoru və bədii rəhbəri kürsüsünü sənət ocağının məşhur aktyoru, Xalq artisti Əliabbas Qədirov tutdu.

Əvvəllər Akademik teatrda bir sıra tamaşalara tərtibat vermiş, Dövlət Gənclər Teatrında baş rəssam işləyən Nazim Zöhrab oğlu Bəykişiyev 14 iyun 2001-ci ildə Milli Dram Teatrına eyni vəzifəyə təyin olundu.

Əcəl aldı... Teatrın tanınmış aktyoru Eldəniz Məmməd oğlu Zeynalov (1.1.1937 – 5.11.2001) xeyli müddət idi qarlı havada yıxılıb ayağını sındırmışdı. Həkimlərin ciddi səyinə baxmayaraq, tamaşaçıların sevimli sənətkarı xəstəlik yatağından qalxmadı.

Teatrın baş rəssamı, Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı Elçin Mehdi oğlu Məmmədov (29.5.1946 – 18.2.2001) qəflətən vəfat etdi. O, Bakıda, Azərbaycanın rayonlarında, SSRİ-nin Leninqrad, Arxangelsk, Tallin, Tiflis, İrəvan... şəhərlərində onlarca tamaşaya bədii tərtibat vermişdir. Akademik teatrda «Dəli yığıncağı», «İblis», «Ah, Paris... Paris!..» tamaşalarına verdiyi səhnə tərtibatları öz orijinallığı ilə seçilir. Rəssamın son işi Şekspirin «Hamlet» tamaşasında oldu və özü əsərin premyerasını görmədi.

Dramaturq. Ramiz Qəvvam oğlu Novruzov (29 may 1955) Milli Dram Teatrının aktyorudur. «At ilinin birinci ayı» pyesi Gəncə Dövlət Dram Teatrında oynanılıb.

2002-ci il

29 mart. «Hamlet», Uilyam Şekspir. Cəfər Cabbarlının, Tələt Əyyubovun və Sabir Mustafanın «Hamlet» pyesinin tərcümələri əsasında tamaşa üçün variantı işləyən İlham Rəhimli.

2 hissəli qroteskli faciə.

Tamaşanın müəllifi Azər Paşa Nemət, rejissor Rafiq Əliyev, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, bəstəkar Səyavuş Kərimi, tamaşanın elmi məsləhətçiləri professor Zeydulla Ağayev və dosent Vahid Şərifov.

Rollarda: Fuad Poladov (Hamlet), Rafael Dadaşov (Klavdiya), Sənubər İsgəndərli* (Gertruda), Bürcəli Əsgərov (Kölgə, Hamletin atası), Sabir Məmmədov və Rəşid Səməndər** (Horatsio), Səyavuş Aslan (Poloni), Məsmə Aslan qızı (Ofeliya), Elşən Rüstəmov və Anar Heybətov (Laert), Mətləb Abdullayev (Rozenkrants), Rövşən Kərimduxt (Qildenstren), Kazım Həsənquliyev (Voltimand), Sərdar Rüstəmov (Kornelli), Anar Heybətov və Elşən Rüstəmov (Fortinbrans), Aslan Şirinov (Ozrik), Elnur Məmmədov (Marsel), Məzahir Cəlilov (Keşiş), Yaşar Nuri və Əsgər Məmmədoğlu (Birinci məzarçı), Nəcəf Həsənzadə (İkinci məzarçı), Elxan Ağahüseynoğlu (Birinci aktyor, Kral), Elşən Cəbrayılov (İkinci aktyor, Kraliça), Əlvida Cəfərov (Üçüncü aktyor, Lüsiyan), Firuz Xudaverdiyev (Reynaldo), Elşən Cəbrayılov (Kapitan), Samir Qulamov (Bernardo), Sərdar Rüstəmov (Çapar), Fidan Axundova, Validə Qədimova, Elşən Rüstəmov, Anar Heybətov, Elnur Məmmədov, Aslan Şirinov, tələbələr Sərdar Gözəlov, Rövşən Ağayev, Vüqar Axundov, Elnur Qədirov (aktyorlar).

Kütləvi səhnələrdə teatrın aktyorları və Mədəniyyət və İncəsənət Universitetinin tələbələri iştirak edirlər.

* *Qeyd.* Aktrisa Sənubər İsgəndərovanın soyadı bəzi proqramlarda «İsgəndərli» yazılıb.

** *Qeyd.* Rəşid Səməndər səhhətində olan problemlə bağlı tamaşada Horatsio rolunu oynamadı. Aktyorun soyadı proqramlarda həm «Rzayev», həm də «Səməndər» kimi yazılıb.

18 may. «Kəllə», Nazim Hikmət. Azərbaycan türkcəsinə çevirəni İslam İbrahimov.

2 hissəli publisistik dram.

Tamaşa görkəmli türk dramaturqu Nazim Hikmətin anadan olmasının 100 illiyinə həsr olunub.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Kamal Xudaverdiyev və Əliabbas Qədirov (Dolbanezo), Mehriban Xanlarova və Vəfa Zeynalova (Qız), Elxan Quliyev və Pərviz Bağırov (Pedro), Sabir Məmmədov və Anar Heybətov (Şair), Tofiq Hüseynov* və Əli Nur (Kamsiyonçu), Sevinc Əliyeva (Fahişə), Zərnigar Ağakişiyeva və Səidə Quliyeva (Qadın), Ramiz Məlik (Uilyams), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Paolina), Rafiq Əzimov (Naşir), Yaşar Nuri və Əsgər Məmmədoğlu (Sərsəri), Məzahir Cəlilov (Məmur), Sərdar Rüstəmov və Rövşən Kərimduxt (Təlimçi), Əlvida Cəfərov (Gözətçi), Firuz Xudaverdiyev (Həkim), Fidan Axundova (Birinci müxbir), Ziba Ramazanova (Saqqallı qadın və Dördüncü müxbir), Elnur Məmmədov (Hoqqabaz və Birinci polis), Rəşad Bəxtiyarov (Kişi və Üçüncü müxbir), Samir Qulamov (Pəhləvan və İkinci müxbir), Elnur Qədirov (İkinci Polis), Validə Qədimova (Qoca qarı), məktəbli Cavid Novruz** (Dilənçi oğlan).

* *Qeyd.* Bu ildən etibarən Gənc Tamaşaçılar Teatrının aktyoru Tofiq Hüseynov və Dövlət Gənclər Teatrının aktrisası, Əməkdar artist Sevinc Əliyeva Akademik Teatrın truppasına qəbul olundular.

** *Qeyd.* Cavid Novruz teatrın aktyoru Ramiz Novruzovun kiçik oğludur. O, bir neçə ildir ki, teatrın müxtəlif tamaşalarında sözsüz epizodlarda çıxış edir .

7 iyul. «Fedra», Jan Rasın. Tərcümə edəni Rafiq Rəhimli.

3 pərdəli mistik faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafis İsmayılov, musiqi tərtibatçısı Samir Fərzəliyev, rejissor assistenti Nurəddin Mehdixanlı.

Rollarda: Rafael Dadaşov (Tesey), Bəsti Cəfərova (Fedra), Nurəddin Mehdixanlı (İppolit), Almaz Amanova və Vəfa Zeynalova (Arikiya), Hacı İsmayılov və Telman Əliyev (Teramen), Sevil Xəlilova (Enona), Xalidə Şərifova (İsmena), Dilarə Nəzərova (Panopa).

8 oktyabr. «Cinayət oyunu», Fyodor Dostoyevskinin «Cinayət və cəza» romanı əsasında. Səhnələşdirəni Bəhram Osmanov.

1 hissəli sayıqlama.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Vəfa Zeynalova (Sonya), Kazım Həsənquliyev (Raskolnikov).

14 dekabr. «Hərənin öz payı», Xeyrəddin Qoca.

2 hissəli satirik komediya.

Quruluşçu rejissor və səhnə tərtibatçısı Mərahim Fərzəlibəyov, musiqi tərtibatçısı Samir Fərzəlibəyov.

Rollarda: Hacı İsmayılov və Sabir Məmmədov (Mirzə Ələkbər Sabir), Elxan Quliyev (Mirzə Cəlil), Rafiq Əzimov və Rövşən Kərimduxt (Əbdürrəhim bəy Haqverdiyev), Yaşar Nuri və Əjdər Həmidov (Kommunist partiyasının rəhbəri), İlham Namiq Kamal və Tofiq Hüseynov (Gülən adam), Cəfər Namiq Kamal və Mətləb Abdullayev (Gülməyən adam), Telman Əliyev (Qulamoğlu), Əsgər Məmmədoğlu və Əli Nur (Sifət), İradə Ağasıbəyli (Falçı), Mətanət Atakişiyeva (Gözəl xanım), Sevil Xəlilova (Xədicə xala), Elxan Ağahüseynoğlu (Fəhlə), Almaz Amanova (Müxalifətçi qız), Əlvida Cəfərov (Müxalifətçi oğlan), Şəlalə Şahvələdqızı (Müxbir), Dilarə Nəzərova və Şəhla Əliqızı (Bağdagül), Aslan Şirinov (Xor dirijoru), Elşən Cəbrayılov (Kommunist oğlan), Validə Qədimova (Kommunist qız), Anar Heybətov (Meyxanaçı), Samir Qulamov (Gülməmməd), Məsmə Aslanqızı (Pioner qız), Elnur Qədirov (Pioner oğlan), Sərdar Rüstəmov (Birinci oğlan), Rəşad Babayev (İkinci oğlan), Səyyar Rüstəmov (Üçüncü oğlan), Elşən İsmayılov (Dördüncü oğlan), Fazil Vəliyev (Beşinci oğlan), Saleh Bağırov (Birinci qəzetsatan), Rəşad Bəxtiyarov (İkinci qəzetsatan), Rada Nəsibova (Birinci qız), Ziba Ramazanova (İkinci qız), Nəcəf Həsənzadə (Birinci veteran), Cabbar Cabbarov (İkinci veteran).

* * *

Akademik teatrın tarixində klassik fransız dramaturqu, klassizmin görkəmli nümayəndəsi Jan Rasinin yaradıcılığına maraq göstərildi. Ədibin «Fedra» faciəsi rejissor Mərahim Fərzəlibəyovun quruluşunda tamaşaya qoyuldu (rəssam Rafis İsmayılov). Təəssüf ki, səhnə əsəri teatrın yaradıcılığında iz buraxmadı. Teatr nə əsərin səhnə yozumunda, nə də aktyor ifalarında Rasin dramaturgiyasının fəlsəfi-estetik dərinliyinə vara bilməmişdi. Daha böyük qüsur isə o idi ki, tamaşa çağdaş düşüncə tərzi üçün qaranlıq qalmışdı. Tamaşanın janrı və ali məqsədin mahiyyəti, ideyanın fikir yükü aydın olmadığına görə Rafael Dadaşov (Tesey), Bəsti Cəfərova (Fedra), Nurəddin Mehdixanlı (İppolit), Almaz Amanova və Vəfa Zeynalova (Arikiya), Hacı İsmayılov və Telman Əliyev (Teramen), Sevil Xəlilova (Enona), Xalidə Şərifova (İsmena), Dilarə Nəzərova (Panopa) səhnədə düşündürücü və cazibəli obrazlar təqdim edə bilməmişdilər. Fedra obrazının rejissor yozumu və aktyor ifası daha qüsurlu idi.

Rus klassiki Fyodor Dostoyevskinin də adı Akademik teatrın yaradıcılıq tarixində ilk dəfə göründü. Bəhram Osmanov ədibin «Cinayət və cəza» romanı əsasında səhnələşdirdiyi əsəri «Cinayət oyunu» adı ilə kamera tamaşası kimi təqdim etdi. Tamaşaçılar üçün səhnədə dairəvi şəkildə 50-60 stul qoyulmuşdu. Hadisələr kiçik meydançada göstərilirdi. Bəhram Osmanov həm də tamaşanın quruluşçu rejissoru idi, koloritli tərtibatı rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev vermişdilər.

Rejissor hadisələri iki obraz üzərində qurmuşdu və Raskolnikovun adam öldürəndən sonra keçirdiyi psixoloji-mənəvi sarsıntıları cinayətin oyunu kimi səciyyələndirmişdi. Tamaşa eksperiment kimi müəyyən maraq doğururdu. Gənc aktyorlar Vəfa Zeynalovanın (Sonya) və Kazım Həsənquliyevin (Raskolnikov) yaradıcılıq imkanlarını sınağa çəkmək baxımından da «Cinayət oyunu» müəyyən maraq doğururdu.

Xeyrəddin Qocanın dram janrının adi estetik tələblərinə cavab verməyən «Hərənin öz payı» pyesinin tamaşası (quruluşçu rejissor və səhnə tərtibatçısı Mərahim Fərzəlibəyov, musiqi tərtibatçısı Samir Fərzəlibəyov) teatrın yerində sayması yox, məhz geriyə addımı kimi qəbul olunurdu.

Mirzə Ələkbər Sabir (Hacı İsmayılov və Sabir Məmmədov), Əbdürrəhim bəy Haqverdiyev (Rafiq Əzimov və Rövşən Kərimduxt), Cəlil Məmmədquluzadə (Elxan Quliyev) kimi nəhəng milli klassiklərimizi primitiv, estetik baxımdan qeyri-teatral şəkildə səhnəyə gətirmək teatr üçün bağışlanmaz hal idi. Aktyorlar Yaşar Nuri və Əjdər Həmidov (Kommunist partiyasının rəhbəri), İlham Namiq Kamal və Tofiq Hüseynov (Gülən adam), Cəfər Namiq Kamal və Mətləb Abdullayev (Gülməyən adam), Telman Əliyev (Qulamoğlu), Əsgər Məmmədoğlu və Əli Nur (Sifət), İradə Ağasıbəyli (Falçı), Mətanət Atakişiyeva (Gözəl xanım), Sevil Xəlilova (Xədicə xala), Elxan Ağahüseynoğlu (Fəhlə), Almaz Amanova (Müxalifətçi qız), Əlvida Cəfərov (Müxalifətçi oğlan) nə qədər canfəşanlıq göstərsələr də, bədii mətnin sönüklüyü və rejissorun qeyri-peşəkar işi onları çıxılmaz vəziyyətdə qoyurdu.

Quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı İsmayıl Məmmədov olan Nazim Hikmətin «Kəllə» dramının tamaşası müəyyən məziyyətləri ilə maraqla qarşılandı. Görkəmli türk dramaturqu Nazim Hikmətin anadan olmasının 100 illiyinə həsr olunan tamaşanın bədii materialını Azərbaycan türkcəsinə İslam İbrahimov çevirmişdi. Teatr dramaturqun bir neçə pyesini müxtəlif illərdə tamaşaya qoymuşdu, lakin «Kəllə» ilk dəfə tamaşaçılara təqdim olundu.

«Kəllə» psixoloji dram janrında hazırlansa da, tamaşada müəyyən faciə çalarları da vardı. Belə bir cəhd həm tamaşanın ümumi kompozisiyasında, həm də aktyor ifalarında fəlsəfi-psixoloji dərinliyi artırır, fikrin məna tutumunu genişləndirirdi. Kamal Xudaverdiyev və Əliabbas Qədirov (Dolbanezo), Mehriban Xanlarova və Vəfa Zeynalova (Qız), Elxan Quliyev və Pərviz Bağırov (Pedro), Sabir Məmmədov və Anar Heybətov (Şair), Əli Nur (Kamsiyonçu), Sevinc Əliyeva (Fahişə), Zərnigar Ağakişiyeva və Səidə Quliyeva (Qadın), Ramiz Məlik (Uilyams), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Paolina), Rafiq Əzimov (Naşir), Yaşar Nuri və Əsgər Məmmədoğlu (Sərsəri), Sərdar Rüstəmov və Rövşən Kərimduxt (Təlimçi), Əlvida Cəfərov (Gözətçi) öz ifalarında rejissor Bəhram Osmanovun qabarıq verdiyi ali məqsədi məntiqlə doğrultmağa səylə çalışmışdılar.

Uilyam Şekspirin «Hamlet» faciəsini teatr üç dəfə (1926, 1933, 1968-ci illərdə) oynayıb. Dördüncü tamaşanın müəllifi Azər Paşa

Nemət idi. Tamaşada rejissor Rafiq Əliyev, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, bəstəkar Səyavuş Kərimi idi. Cəfər Cabbarlının, Tələt Əyyubovun və Sabir Mustafanın «Hamlet» pyesinin tərcümələri əsasında tamaşa üçün variantı İlham Rəhimli işləmişdi.

29 martda premyerası oynanılan «Hamlet» tamaşası çağdaş səhnə yozumu ilə çox maraqlı və cazibəli alınmışdı. Səhnənin hər tərəfində yuxarıdan sallanan ilgəkli kəndirlər insanlığı haqqa səsləyən dar ağacları kimi səciyyələnmişdi. Hər bir personaj öz əməlləri müqabilində müəyyən ilgəyin altında, projektorun işığında sözlərini söyləyirdi. Belə bir rejissor yozumu Şekspirin «Bütün dünya həbsxanadır, Danimarka onun ən müdhiş məkanı» fikrini fəlsəfi-estetik baxımdan tamamlayırdı.

«Hamlet» tamaşası geniş mənada rejissor tamaşası idi. Buna görə də Azər Paşa Nemətin məramnamələrdə «tamaşanın müəllifi» kimi təqdim olunması məntiq cəhətdən əsaslı görünürdü. Bununla belə, rejissor aktyorlara böyük inam bəsləmiş və onlara geniş yaradıcılıq meydanı açmışdı. Heç kəsə sirr deyil ki, «Hamlet» faciəsinin müəllifi ingilis dramaturqu Uilyam Şekspirdir və bu əsər dörd əsr əvvəl yazılıb. Ancaq həm İngiltərədə, həm də şərqli və qərbli dünyamızda minlərlə rejissor bu əsərə səhnə quruluşları veriblər. Eyni zamanda yüzlərlə sənət dahisi Şekspirin faciəsinə istinad edərək səhnədə özünün «Hamlet»ini yaratmağa çalışıb. Bu baxımdan Akademik teatrda göstərilən «Hamlet» tamaşasının müəllifi məhz Azər Paşa Nemətdir. Onun müəllifi olduğu tamaşanın rejissoru Rafiq Əliyev də, rəssamları Elçin Məmmədovla Nazim Bəykişiyev də, başda Hamlet, Kral Klavdi, Gertruda, Poloni rollarını oynayan Fuad Poladov, Rafael Dadaşov, Sənubər İsgəndərli, Səyavuş Aslan olmaqla, bütün ifaçı aktyorlar da tamaşanın müəllifi Azər Paşa Nemətin sənət fəlsəfəsinin, sənət estetikasının dərin idrakı mahiyyətinin açılmasına köklənib lər. Belə bir yaradıcılıq köklənməsində bütöv, maraqlı, füsunkar «Hamlet» tamaşası, məhz Akademik Milli Dram Teatrının «Hamlet»i hasilə gəlib və üstəlik də hər aktyorun fərdi keyfiyyətləri üçün ənginlik açılıb. Azərbaycan aktyorluq məktəbinin müxtəlif nümayəndələri səhnəmiz üçün yeni estetik səciyyələr kəsb edən oyun-üslub ifadə vasitələri ilə parlaq qələbələr qazanıblar.

Akademik teatrın yaradıcılığında hələ indiyədək heç bir zaman musiqidən bu dərəcədə genişliklə istifadə olunmayıb. Ancaq bu musiqi heç bir səhnədə tamaşaçını yormur. Hətta bəzən musiqi sanki nəfəsini dərəndə az qalırıq hadisələrin dramatik bürümündən çıxaq. «Hamlet»də musiqi təkcə səslənməklə kifayətlənmir. Musiqi, ilk növbədə, yalqız qalan Hamletin dərdlərinin həmsöhbəti olur. Musiqi həm də oğlunu çox sevən və eyni zamanda zavallılığından əli qana batmış Gertrudanın içində qovrulan duyğularının aktrisanın cazibəli çöhrəsindəki təcəssümünü görmək üçün məhz tamaşaçıya yardımçı olur. Musiqi səhnədə «görünür»: o, bir obraz kimi gah lirik-poetik, gah həzin və kövrək, gah emosional-psixoloji, gah püskürən dramatizm, gah da nikbin qəmlə matəmli duyğunun qol-boyun timsalında səhnədə gərdiş edir. Hətta bəzən ani olaraq səhnədə aktyor olmayanda musiqi ilə işıq dialoqa «girirlər» və tamaşanın müəllifi Azər Paşa Nemətin fəlsəfi düşüncəsinin yeni bir duyğu boğçası tamaşaçıya təqdim olunur.

Azər Paşa Nemət tamamilə yeni janrda faciə hazırlayıb. Onun janr təyini belədir: «qroteskli faciə». Tamaşanın forması gözə dəyən kimi bu janr təyini cazibəli görünür, aktyorların oyun üslubuna baxdıqca isə qrotesk duyğularımıza idrakı emosionallıq donu biçir. Biz həm Şekspirin, həm də tamaşanın müəllifinin «Hamlet kompleksinə» məhz qroteskli faciənin psixoloji köklənməsi zəminində nəzər yetirməli oluruq. Azər Paşanın səhnə təfsirində, tamaşanın müəllifi qənaətində «olumla» «ölümün», «varlıqla» «heçliyin» fərqləri estetik biçimdə faniləşir. Məhz bu rejissorun qənaətinə görə, insan «olum-ölüm» vəhdətini duymaqdan, yaşamaqdan, həyatın şirinliyindən, xeyirxah insani münasibətlərin dadından zövq almalı və məhz sokral (ilahi) azadlığı hiss etməlidir. Bax, bu ülviyyət duyğusunun o biri üzündə rejissor Azər Paşanın dramaturq Uilyam Şekspirin «Hamlet»inin səhnə təfsirinə məhz qrotesklə baxa bilmək istedadı durur.

Rejissor yeni janr təyininin estetik təsdiqi üçün, ilk növbədə, Şekspirin obrazlarının adlarının etimoloji, semantik mənalarına istinad edib. Birlikdə diqqət yetirək. Hamlet sözünün mənası məbədi olmayan, gözdən iraq, kiçik kənd deməkdir. Gertruda sözü işlək arı, daşıyıcı anlamındadır. Ofeliya incə-mincə qız, dadlı tikə, Poloni bir udumluq boloniya kolbasası mənalarını verir. Ozrik kobud, yonulmamış paz və ya adam,

Fortenbrans cəsur, igid, Klavdi topal, taytaq, Horatsio su saatı, zamanın göstəricisi mənalarını daşıyırlar.

Bütün bunlara görə də Məsmə Aslanqızının təqdimatında Ofeliya bir yaz ömrü olan bahar kəpənəyinə bənzəyir. Aktrisa özünün emosional oyununda bu zəriflik və kövrəkliyi axıra qədər saxlaya bilir. Sabir Məmmədovun Horatsiosu faciədəki personajların daxili duyğularının açılmasında məhək daşıdır. Aktyor bunu böyük məharət və cazibədarlıqla oynayır. Rafael Dadaşovun Klavdisi Gertrudaya olan məhəbbəti ilə bütün mənəviyyatını topal etmiş məkrli insandır. Heç nədə səmimi olmayan Klavdi Gertrudaya məhəbbətində qətiyyətlidir. Bu tamaşadan o qənaət hasil olur ki, Klavdinin dəhşətli qatil olmasının kökündə də onun Gertrudanı çılğın ehtiraslarla, coşqun məhəbbətlə sevməsi durur. Sənubər İsgəndərlinin cazibəli, məlahətli oyun tərzində Gertruda şahanə xanımdır, qamətli, cazibədardır, gözləri nurlu və ehtiraslıdır. Bu məlahət, bu gözəllik, bu incəlik öz ehtirasına cavab istəyən Gertrudanı fəlakətlərə sürükləyib. Şekspirin bütün faciə qəhrəman qadınlarının bədii təsvirində spektr rənglərinin əlvanlığı var. O cümlədən də Gertruda xarakterində. Sənubər xanım obrazın isti, yumşaq və cazibəli rənglərini seçib. Sənubər İsgəndərlinin Gertrudası olum-ölüm zəncirinin ən möhkəm bəndində ruhu qanadlarından çarmıxa çəkilən, hissi ağlını çaşdırmış mələksima qadındır.

Belə mürəkkəb səhnə keçidlərində tamaşaçı üçün gözlənilməz olanı və həm də son dərəcə ləzzət verəni Səyavuş Aslanın incə, «bükülü» görkəmdə görünən qroteskli oyunu idi. Çünki fitrətən qüdrətli komik olan Səyavuş Aslan birinci dəfədir ki, Şekspir faciəsində rol oynayır. Böyük aktyorun ləzzətlə, şövqlə yaratdığı Poloni məkrli, əbləh, övladcanlı ata olması ilə yanaşı, simasız, kral hüzurunda hündür görünmək üçün bəzən şərəfini ayağının altına qoyan mürəkkəb obrazdır.

Fuad Poladovun təqdimində Hamlet nə ənənəvi «tərəddüd göstərən, zəif» şahzadə, nə də ingilis və ya fransız səhnəsində estetik təsdiqini tapmış güclü fərd deyil. Nə də onlar Şərqin meyil göstərdiyi idrakca müdrik, həyat mövqeyində isə aciz görünən Hamleti təqdim etmək fikrində olmayıblar. Fuad Poladov azı dörd-beş yüz il məsafəsində uzaq olan hadisələr içərisindəki Hamleti günümüzün mənəvi-əxlaqi duyğularının zənginliyi ilə oynayır. Onun Hamleti, hər şeydən

əvvəl, riyakar cəmiyyətdə yad görünən zavallı, nurlu insandır. Adındakı məna kimi Hamlet öz həqiqətinin nurunu paylamaq üçün müqəddəs məbəd tapa bilməyən və hislərindən qiymə-qiymə doğranan düşüncəli, idraklı insan təsiri bağışlayır. Bax, elə buna görə də Fuadın Ofeliyaya münasibətində bəzən cilovsuz görünən erotik hərəkətlərin də məntiqində cəmiyyətə güclü sarkazm (başqa sözlə, qrotesk) nəzərə çarpır. Bəlkə də, elə buna görə Fuad Poladovun oyunundakı qrotesk çoxqatlıdır və ona uyğun olaraq da çoxmənalı təsir bağışlayır. Poloni ilə səhnələrdə qroteskli sarkazm sosial məna yükü daşıyır, ictimai xarakter kəsb edir.

Öz oyunları ilə tamaşanın ümumi konsepsiyasına ləyaqətlə xidmət etmələri baxımından Kazım Həsənquliyevin (Voltimand), Elxan Ağahüseynoğlunun (Birinci aktyor), Elşən Cəbrayılovun (İkinci aktyor), Məzahir Cəlilovun (Keşiş), Elşən Rüstəmov və Anar Heybətovun (Layert və Fortenbrans), Əsgər Məmmədoğlunun (Birinci məzarçı) ifaları ürəkaçandır. Elə buradaca qeyd edim ki, qroteskli faciə personajı kimi Yaşar Nuriyevin birinci məzarçı obrazı dolğunluğu, şirəli yumoru, ünsiyyət cazibəsi ilə xüsusi seçilir. Mizanları tamaşaçı diqqətindən bilərəkdən bir qədər uzaqda qurulmuş birinci məzarçı, əsasən qəbrin içərisində (qurşağa qədər) hərəkət edir. Buna baxmayaraq, tamaşaçı aktyorun səs bacarığı və sifət ifadə vasitələrinin aydınlığı sayəsində birinci məzarçının oyununun məna və mahiyyətini hərtərəfli duyub dərk edir.

Tamaşanın maraqlı finalı vardı. Gertruda zəhərli şərabdan elə oturduğu kürsünün üstündə canını tapşırıb. Klavdinin murdar cəsədi yelləncəkdən sallana qalıb. Layert cilovsuz hissinin qurbanı olaraq torpağa sərilib. Hamlet sanki anasının dizlərinə baş qoyaraq onun kürsüsünə söykənib və ölüb. Zəfərlə döyüşdən qayıdan Fortenbrans əmr edir ki, Hamlet əsl şahzadəyə layiq təntənə ilə dəfn edilsin. Səhnədə bir işıq zolağı qalır. Hamletin cənazəsi çiyinlərə qaldırılıb səhnənin qaranlıq dərinliyinə aparılır. Matəm «izdihamı» uzaqlaşdıqca, o qaranlıqda səhnə bomboş qalır. Azər Paşa Nemət elə hərəkət mizanları verib ki, ölülərin səhnəni «tərk etməsini» bir kimsə görmür. Səhnədə yalnız Hamletin ruhu qalıb. Aktyor Fuad Poladov – Hamlet matəm musiqisinin təranələri altında qalxır, səhnənin dərinliyinə gedib

dayanır. Yer yarılır və Hamlet torpağın təkinə gedir. Lift burada texniki vasitədən daha çox, emosional fikir daşıyıcısı ovqatı oyadır. Sinəsinə qədər torpağa batan Hamlet qəfildən çönüb tamaşaçı salonuna baxır. Aktyorun baxışları, rejissorun mizanı bu məqamda o dərəcədə sərt, sərrast və çoxqatlıdır ki, sanki bütün faciələrə biz tamaşaçılardan cavab istəyir. Qrotesk bu səhnədə yüksək həddinə çatır, Fuadın baxışları salonun divarlarını yarıb keçir, cəmiyyətin içində pardaxlanıb öz cavabını gözləyir.

* * *

Yeniliklər. Teatrda ötən ildən Həsən Həsənovun «Brüsseldən məktublar» dramının məşqlərinə başlanıb. Əsəri tamaşaya televiziyadan dəvət olunmuş rejissor Ramiz Həsənoğlu hazırlayır.

Rejissor Əsgər Əsgərov plandan kənar, Elçinin tərcüməsi əsasında Jan Batist Molyerin «Skapenin kələkləri» komediyası üzərində çalışır.

Akademik teatrın perspektiv repertuarında Hüseyn Cavidin «Şeyx Sənan», Cəlil Məmmədquluzadənin «Ölülər», Uilyam Şekspirin «Romeo və Cülyetta» əsərlərini tamaşaya hazırlamaq nəzərdə tutulub.

Fəxri adlar. Bu il may ayının 30-da teatrın rəssamları Nazim Zöhrab oğlu Bəykişiyev, İsmayıl Əsəd oğlu Məmmədov, Tahir Rəşid oğlu Tahirov Azərbaycan Respublikasının *əməkdar rəssamı* fəxri adı ilə təltif edildilər.

2002-ci il dekabr ayının 24-də teatrın aktyor truppasının bir qrupuna Azərbaycan Respublikasının fəxri adları verildi.

Xalq artisti: Aktyorlar Elxan Ağahüseyn oğlu Hüseynov, İlham Namiq Kamal oğlu Əhmədov, Safurə Ağabala qızı İbrahimova, Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı).

Əməkdar artist: Mətanət Ağazahir qızı Atakişiyeva, Pərviz Sadıq Saleh oğlu Bağırov, Cəfər Namiq Kamal oğlu Əhmədov, Əjdər Qüdrət oğlu Həmidov, Mehriban Aslan qızı Xanlarova, Firuz İslam oğlu Xudiyev, Sənubər Sabir qızı İsgəndərova, Elxan Əlibala oğlu Quliyev, Sabir Novruz oğlu Məmmədov, Əli Qayıb oğlu Nurzadə.

2002-ci ilin iyul ayına olan məlumata görə, Akademik Milli Dram Teatrının truppa heyəti belədir: Direktor və bədii rəhbər Əliabbas Qədirov. Sərəncamçı direktor İftixar Piriyev.

Rejissorlar: Azər Paşa Nemətov, Mərahim Fərzəlibəyov, Bəhram Osmanov, Əsgər Əsgərov, Mehriban Ələkbərzadə.

Rejissor assistentləri: Nəcəf Həsənzadə, Rəfiqə Musayeva (Kazımova) və Dilbər İsmayılova.

Aktyorlar. Xalq artistləri: Səyavuş Aslan, Həsən Turabov, Rafiq Əzimov, Kamal Xudaverdiyev, Həsən Məmmədov, Ramiz Məlikov (Məlik), Zərnigar Ağakişiyeva, Hacı İsmayılov, Yaşar Nuriyev (Nuri), Ramiz Novruzov, Zemfira Nərimanova, Firəngiz Mütəllimova, Bəsti Cəfərova, Məleykə Əsədova.

Əməkdar artistlər: Bürcəli Əsgərov, Məcnun Hacıbəyov, Elxan Ağahüseynoğlu, Safurə İbrahimova, Sadıq İbrahimov, Rafael Dadaşov, Kübrabəyim Əliyeva, Telman Əliyev, İlham Namiq Kamal (Əhmədov), Telman Adıgözəlov, Şükufə Yusupova, Nurəddin Mehdixanlı (Quliyev), Səidə Quliyeva, Hicran Nəsirova, İlham Əsgərov, Laləzar Mustafayeva (Mustafabəyli), Sevinc Əliyeva, Sevil Xəlilova (Naxçıvan MR-in Əməkdar artisti).

Sıravi aktyorlar: Firuz Xudaverdiyev, Ələsgər (Əsgər) Məmmədoğlu, Məzahir Cəlilov, Əlvida Cəfərov, Tofiq Hüseynov, Əlibala Nurəliyev (Əli Nur), Cəfər Namiq Kamal (Əhmədov), Pərviz Bağırov, Elxan Quliyev, Əjdər Həmidov, Abbas Qəhrəmanov, Sənubər İsgəndərova, Sabir Məmmədov, Mətanət Atakişiyeva, Kazım Həsənquliyev, Almaz Amanova, Aslan Şirinov, Rövşən Kərimduxt, Mətləb Abdullayev, Mehriban Xanlarova, Münəvvər Əliyeva (Sabirqızı), Dilarə Nəzərova, Vəfa Zeynalova, Rəşid Səməndər (Rzayev), Elnur Məmmədov, Şəlalə Şahvələdqızı (Quliyeva), Məsmə Aslanqızı (Məsməxanım Ağaverdiyeva), Elşən Cəbrayılov, Samir Qulamov, Anar Heybətov, Fidan Axundova, Sərdar Rüstəmov.

Ədəbi hissə müdiri İlham Rəhimli. Baş rəssam Nazim Bəykişiyev. Musiqi hissə müdiri Cavanşir Quliyev. Truppa müdiri Qürbət Qurbanov, iyul ayından isə Elnur Məmmədov. Rəssamlar İsmayıl Məmmədov və Tahir Tahirov.

Dramatuqlar. Jan Rasin (21.12.1639 – 21.4.1699). Fransız dramaturqudur, klassizim dramaturgiyasının görkəmli nümayəndəsidir. Onun «Fivanda», «Böyük Aleksandr» dramları və «Andromaxa», «Britannik», «İfiqenya Avliddə», «Afaliya», «Berenika», «Bayazit»,

«Fedra» faciələri çox məşhurdur. Akademik teatr ilk dəfədir Rasin yaradıcılığına müraciət edir.

Fyodor Mixayloviç Dostoyevski (11.11.1821 – 9.2.1881). Görkəmli rus nasiridir. Moskvada həkim ailəsində doğulub. 1843-cü ildə Peterburqda hərbi mühəndislik məktəbini bitirib. Bu sahədə bircə il işləmişdir. 1846-cı ildə ilk romanı olan «Yoxsul insanlar» əsərini yazmışdır. «Bəyaz gecələr», «Oxşarlar», «Qumarbazlar», «Cinayət və cəza», «Netoçka Nezvanova», «Alçaldılmış və təhqir edilmiş insanlar», «Ölü evdən məktublar», «Şeytanlar», «Əbləh», «Yeniyetmə», «Kamramazov qardaşları» dünyanın bir sıra dillərinə tərcümə edilib. Onun nəsr əsərləri, xüsusən «Əbləh» və «Cinayət və cəza» romanları əsasında maraqlı teatr tamaşaları hazırlanmışdır. Yazıçı Peterburqda vəfat etmişdir.

2003-cü il

8 yanvar. «Skapenin kələkləri», Jan Batist Molyer. Tərcümə edəni Elçin.

2 hissəli komediya.

Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Sadıq İbrahimov (Arqant), Səyavuş Aslan (Jeront), Kazım Həsənquliyev (Oktav), Aslan Şirinov və Sərdar Rüstəmov (Leandr), Fidan Axundova (Zerbinetta), Məsmə Aslanqızı (Qiasinta), Sabir Məmmədov (Skapen), Rəşad Bəxtiyarov (Silvestr), Ziba Ramazanova (Nerina), Samir Qulamov və Şəhla Əliqızı (oyunçular).

18 fevral. «Brüsseldən məktublar», Həsən Həsənov (Əzizoğlu).

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Ramiz Həsənoğlu, rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyev, bəstəkar Cavanşir Quliyev, rejissor assistenti Nurəddin Mehdixanlı.

Rollarda: Əliabbas Qədirov (Mirzə Fətəli Axundov), Nurəddin Mehdixanlı (Rəşid Axundov), Sənubər İsgəndərova (Firəngiz və Fransuaza), Yaşar Nuri (Nəcəf), Mətanət Atakişiyeva (Tubu xanım Axundova), Tofiq Hüseynov (Qriqol Orbeliani), Hacı İsmayılov

(Bendjamen Qastino), Elşən Cəbrayılov (Patrik), Sərdar Rüstəmov (Qəzetsatan) Elxan Ağahüseynoğlu (Şarmankaçı), Xədicə Novruzlu (Bələdçi Uşaq), Almaz Amanova (Brüsselli qadın), Firuz Xudaverdiyev (Molla), Nəcəf Həsənzadə (Keşiş), Cabbar Cabbarov (Ravvin), Rəşad Bəxtiyarov (Kinto, Qarson və Rəssam), Elnur Qədirov (Mədrəsə şagirdi), Samir Qulamov, Şələlə Şahvələdqızı, Şəhla Əliqızı, Saleh Bağırov, Elşən İsmayılov, Ziba Ramazanova, Rəşad Babayev, Fazil Vəliyev, Cavid Novruzov (Brüssel Universitetinin tələbələri).

7 mart. «Varlı Qadın», Əli Əmirli.

2 hissəli qara komediya.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Səyavuş Aslan (Sarı), Firəngiz Mütəllimova (Həvva), Anar Heybətov və Aslan Şirinov (Qara), Elşən Şahinoğlu (Vəkil), Natiq Fərzəliyev (Pəhləvan), Tofiq Hüseynov və Rövşən Kərimduxt (Əlvan), Yaşar Nuri* və Telman Əliyev (Dilənçi), Mehriban Xanlarova (Şadxəbər), Rəşad Bəxtiyarov (Bədxəbər), Mətləb Abdullayev (Birinci cangüdən), Samir Qulamov (İkinci cangüdən), Şəhla Əliqızı (Üçüncü cangüdən), Validə Qədimova (Dördüncü cangüdən).

* Qeyd. Yaşar Nuri məşq elədi, ancaq tamaşada Dilənçi rolunu oynamadı.

18 aprel. «Afət», Hüseyn Cavid.

2 hissəli faciə.

Quruluşçu rejissor Mehriban Ələkbərzadə, rəssam Nazim Bəykişiyev, bəstəkar Səyavuş Kərimi.

Rollarda: Bəsti Cəfərova (Afət), İlham Namiq Kamal (Doktor Qaratay), Rafael Dadaşov (Özdəmir), Yaşar Nuri (Xandəmir), Mehriban Xanlarova (Altunsaç), Münəvvər Əliyeva (Alagöz), Nurəddin Mehdixanlı (Ərtoğrul), Sabir Məmmədov (Yavuz), Sevil Xəlilova (İlcay), Samir Qulamov (Oqtay), Mətləb Abdullayev (Qaplan), Rövşən Kərimduxt (Qorxmaz), Rəşad Bəxtiyarov (Orxan).

26 sentyabr. «Qatil», Elçin.

2 hissəli faciə.

«Mesenat»,
Əli Əmirli.
Sara –
Mehriban Xanlarova.
2005-ci il

«Qatil», Elçin.
Oğlan –
Sabir Məmmədov,
Qadın –
Şükufə Yusupova.
2003-cü il

Quruluşçu rejissor Mehriban Ələkbərzadə, rəssam Nazim Bəykişiyev, bəstəkar Aygün Səmədzadə.

Rollarda: Şükufə Yusupova və Həmidə Ömərova* (Qadın), Sabir Məmmədov və Rövşən Kərimduxt** (Oğlan), Yaşar Nuri və Elxan Quliyev (Polis), Firəngiz Mütəllimova*** və Səidə Quliyeva (Qonşu), Mətanət Atakişiyeva və Şəhla Əliqızı (Xanım Həsənzadə).

* *Qeyd.* Həmidə Ömərova məşq elədi, ancaq tamaşada Qadın rolunu oynamadı.

** *Qeyd.* Rövşən Kərimduxt məşq elədi, ancaq tamaşada Oğlan rolunu oynamadı.

*** *Qeyd.* Firəngiz Mütəllimova məşq elədi, ancaq tamaşada Qonşu rolunu oynamadı.

30 noyabr. «Rəqabət», Bəxtiyar Vahabzadə.

2 hissəli lirik dram.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Nurəddin Mehdixanlı və Əliabbas Qədirov (Şahin), İlham Əsgərov (Nadir), Laləzar Mustafayeva və Səidə Quliyeva (Məlahət), Məleykə Əsədova və Şəhla Əliqızı (Kəmalə), Rafiq Əzimov və Əli Nur (Səttar), Əlvida Cəfərov (Səlim), Elxan Quliyev (Əkbər), Yaşar Nuri və Elxan Ağahüseynoğlu (Gülağa), Şələlə Şahvələdqızı və Şəhla Əliqızı (Səbinə), Kazım Həsənquliyev və Saleh Bağırov (Ceyhun), Ramiz Novruzov və Telman Əliyev (Aslan), Abbas Qəhrəmanov və Tofiq Hüseynov (Oqtay), Samir Qulamov və Sərdar Rüstəmov (Rizvan), Anar Heybətov və İlyas Əhmədov (Qaçay), Sevinc Əliyeva (Yazgül).

* * *

Bəxtiyar Vahabzadənin «Rəqabət» pyesinin zəif, sönük, primitiv və qüsurlu tamaşa kimi qəbul olundu (quruluşçu rejissor Ağakişi Kazımov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev). Bir mütəfəkkir kimi Bəxtiyar Vahabzadə özünün «Gülüstan» poemasından başlayaraq milli ictimai düşüncə qarşısında taleyüklü, fundamental və bir qayda olaraq, həlli çətin, mürəkkəb məsələlər qoyur. Müəllif «Vicdan»da vətəndaşlıq, «İkinci səs»də borc və hiss, «Yağışdan

sonra»da cəmiyyət və mənəvi borc, «Dar ağacı»nda tarixi reallıq və milli şüur, «Özümüzü kəsən qılınc»da bəşəriyyətin təkamülü və siyasi təfəkür problemlərini dramaturji konfliktin əsasında qoyub. Bütövlükdə onun bütün dram əsərlərinin baş ideyası azad cəmiyyət, kamil insan, bütöv şəxsiyyət problemini ehtiva edir.

Bəxtiyar Vahabzadə fenomeninin bir sıra estetik açıqlanması var. Üstdə olan isə əsasən, odur ki, o, dramlarında toxunduğu problemlərin insan emosiyalarına təsirini əvvəlcədən gözəl bilir, duyur, hiss edir. Rejissorlar onun pyeslərindəki ideya yükünə həmişə həssas olublar. Buna görə onun dramlarının tamaşalarında müəyyən qüsurlar (aktyor oyununda, hansısa epizodun ali məqsədə bağlanmamasında, finalın bir neçə qatda təqdimində və sairə) nəzərə çarpsa da, səhnə əsərinin ideya-bədii bütövlüyü məhsuldar, səmərəli, sirayətedici olub. «Rəqabət» tamaşasında isə əsərin emosional təsiri ideya-bədii bütövlüklə qəbul edilmirdi. Halbuki tamaşada çoxlu ideya var: məhəbbət və mənəvi paklıq, şəxsiyyət və cəmiyyət, valideyn-övlad münasibətləri və nəhayət, təmiz biznes, ləyaqətli və vicdanlı rəqabət.

Mizanların uyarsızlığı, mövzunun çeynənmiş didaktika təqdimi, dialoqların yorucu və təkrar uzunçuluğu, səhnə tərtibatı ilə mövzu-problemin, realizə olunan janr-üslubun harmonik səslənməməsi, işıq effektlərinin qeyri-peşəkar qurulması həmin qatda qabarıq görünürdü. Səttar obrazı tamaşaçı salonunda benuar lojada oturub və guya, telefonla danışır: «Teatrdayam». «Rəqabət» tamaşasına baxıram, əntiqə əsərdir», – deyir. Bu və bu kimi deyimləri obraza yox, rejissorun səriştəsiz qurulmuş mizanına gülüş doğururdu. Bədii-estetik qatın qeyri-peşəkar və sönük təqdimi tamaşanın ideyalarını emosional qavramaqda mənə çox ciddi şəkildə mane olurdu. Həmin qatın yüksək bədiilikdən məhrum olması tamaşadakı güclü ideyaları da deklorativ şəkildə dondururdu.

«Rəqabət» tamaşasında nəinki quruluşçu rejissorun, geniş anlamda teatrın mövqeyi müəyyən deyildi. Tamaşanın iştirakçı aktyorlarının böyük əksəriyyəti güclü artistlik imkanlarına malikdirlər. Di gəl ki, «Rəqabət» tamaşasında onların ifadə vasitələrinin zənginliyi görünmürdü. Tamaşaçı hisləri, duyğuları titrədən, qəlbioxşayan mürəkkəb, psixoloji cəhətdən əsaslı, əlvan çalarlı oyunla rastlaşmadı. Hətta əksər aktyorların pafoslu, gurultulu danışıqları, obrazın psixoloji dəyişməsi

əvəzinə özlərinin daxili gərginliklərini büruzə vermələri son üç-dörd ildə oynadıqları rollardan heç nə ilə fərqlənmirdi.

«Rəqabət»in uğursuzluğunun təməli, bəlkə də, mətnin səhnə həllinin, aktyor ifalarında təcəssümünün yaradıcılıq prinsipi baxımından düzgün qurulmaması ilə qoyulmuşdu. Üstəlik də, mahiyyətcə dramatik-psixoloji və lirik çalarlı üslubda yazılmış pyesin janr təyini anlaşılmaz qalmışdı. Pyesin mətni üzərində Bəxtiyar Vahabzadə ilə Ağakişi Kazımov uzun müddət işləyiblər. İşləyə-işləyə pyesə yeni səhnələr əlavə ediblər, hansısa epizodu çıxarıblar, dialoqlar artırıblar. Bununla belə, tamaşanın təqdimində tamamlanmamış xətlər, məntiqə söykənməyən epizodlar vardı. Xüsusilə Qaçay – Kəmalə xətti çox qüsurlu, bədii cəhətdən zəif və məntiqsiz idi.

«Rəqabət» tamaşası nə Milli Dram Teatrının, nə də Bəxtiyar Vahabzədənin zəngin yaradıcılığına heç bir nailiyyət əlavə edə bilmədi. Buna qadir olmadı. Düzdür, «Rəqabət»in uğursuzluğu, əsərdəki kimi biznes dili ilə desəm, Bəxtiyar Vahabzadənin dramaturji yaradıcılığını müflis hala salmadı. Ancaq pyeslə tamaşa arasındakı mürvətsiz və ədalətsiz rəqabət Akademik teatrı yaradıcı iflasa (bankrota) düçar etdi.

«Afət» tamaşasında uğursuzluqla üzləşən quruluşçu rejissor Mehriban Ələkbərzadə Elçinin «Qatil» dramının səhnə həllində istedadının parlaqlığını və təxəyyülünün genişliyini cəsarət və inamla göstərə bildi. Rəssam Nazim Bəykişiyevin rəmzi məna daşıyan 2 mərtəbəli tərtibatı, bəstəkar Aygün Səmədzadənin lirik-psixoloji, fəci-dramatik ovqatlı musiqisi detektiv prinsipində dəyişən hadisələrə dərinlik və tamlıq gətirirdi.

Şükufə Yusupova ilham və şövqlə, çılğın daxili ehtirasla oynadığı Qadın rolunda yeni yaradıcılıq uğuru qazandı. Sabir Məmmədov (Oğlan), Yaşar Nuri və Elxan Quliyev (Polis), Səidə Quliyeva (Qonşu), Mətanət Atakişiyeva (Xanım Həsənzadə) tamaşanın janr prinsipində və mövzunun lirik-dramatik psixoloji ahəngində oynayırdılar.

Çağdaş dövrdə insanların mənəvi-əxlaqi dəyərlərindəki aşınmalar, sosial problemlərin ictimai kontekstdə dramaturji gərginliklə verilməsi Əli Əmirlinin «Varlı qadın» dramında bitkin bədii-estetik təcəssümünü tapmışdı. Əsərin tamaşası quruluşçu rejissor Bəhram Osmanovun yeni sənət qələbəsi kimi dəyərləndirildi. Tamaşa üzərində rəssam

İsmayıl Məmmədov, musiqi tərtibatçısı Səbuhi Məmmədovla işləmişdi.

Rejissor tamaşanın janrını «qara komediya» adlandırmışdı. Əslində, səhnə əsəri qroteskli səhnə məsxərəsi janrının estetik prinsiplərinə daha çox cavab verirdi. Aktyorlar Səyavuş Aslan (Sarı), Firəngiz Mütəllimova (Həvva), Anar Heybətov və Aslan Şirinov (Qara), Elşən Şahinoğlu (Vəkil), Natiq Fərzəliyev (Pəhləvan), Tofiq Hüseynov və Rövşən Kərimduxt (Əlvan), Telman Əliyev (Dilənçi), Mehriban Xanlarova (Şadxəbər) məsxərəvari komediya personajları oynayırdılar. Tamaşanın daha parlaq ifası Firəngiz və Səyavuş dueti idi. Bu tamaşada Firəngiz Mütəllimovanın zəngin və cazibəli, məzəli və şirin yumorunun çox maraqlı cəhətləri açılırdı. Aktrisanın səhnə plastikası yeni cazibədarlıqla təqdim olunurdu. Səyavuş Aslan «Ah, Paris... Paris!..», «Mənim ərim dəlidir», «Mənim sevimli dəlim» («Diaqnoz «D») komediyalarından sonra böyük uğurla yeni gülüş personajı təqdim etdi. Sarı rolunda tamaşaçılar aktyorun çoxqatlı yumorunun yeni zavallılıq çaları ilə tanış oldular.

2003-cü ilin ilk tamaşaları Elçinin tərcüməsində Jan Batist Molyerin «Skapenin kələkləri» və Həsən Həsənovun «Brüsseldən məktublar» əsərləri oldu. Molyerin komediyasının quruluşçu rejissoru Əsgər Əsgərov, rəssamı Kamal Şıxəliyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov idi. Əsas rollarda Sadıq İbrahimov (Arqant), Səyavuş Aslan (Jeront), Kazım Həsənquliyev (Oktav), Aslan Şirinov və Sərdar Rüstəmov (Leandr), Fidan Axundova (Zerbinetta), Məsmə Aslanqızı (Qiasinta), Sabir Məmmədov (Skapen), Rəşad Bəxtiyarov (Silvestr), Ziba Ramazanova (Nerina) çıxış edirdilər. Molyer dramaturgiyasını oynamaqda müəyyən səmərəli təcrübəsi olan teatr «Skapenin kələkləri»ni uzunömürlü tamaşa edə bilmədi.

Həsən Həsənovun (Əzizoğlu) ilk dram əsəri olan «Brüsseldən məktublar»ı tamaşaya hazırlamaq üçün məşhur televiziya rejissoru Ramiz Həsənoğlu dəvət edilmişdi. O, tamaşa üzərində rəssamlar Tahir Tahirov və Ağarəhim Əliyevlə, bəstəkar Cavanşir Quliyevlə işlədi. Tamaşa səliqəli alınmışdı, maraqlı rejissor tapıntıları vardı. Əliabbas Qədirov (Mirzə Fətəli Axundov), Sənubər İsgəndərova (Firəngiz və Fransuaza), Yaşar Nuri (Nəcəf), Mətanət Atakişiyeva (Tubu xanım Axundova), Tofiq Hüseynov (Qriqol Orbeliani) ifadəli və məz-

munlu oyun göstərə bilirdilər. Ancaq Nurəddin Mehdixanlının cəhdlə ifa etdiyi Rəşid rolu tamaşanın ağırlıq yükünü tam çəkə bilmirdi. Tamaşanın səliqə-sahmanı yerində olsa da, emosional cazibəsi bir qədər sönük təsir bağışlayırdı.

* * *

Əcəl aldı... Xalq artisti, Dövlət mükafatları laureatı, görkəmli teatr və kino aktyoru, Xalq artisti Həsən Səttar oğlu Turabov 23 fevral 2003-cü ildə dünyasını dəyişdi. O, 1938-ci il martın 24-də Bakıda doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil ala-ala (1956 – 1960) həm radioda, həm də yenicə açılan televiziyada diktor işləyib. 1960-cı ildən Akademik Milli Dram Teatrında işləyirdi. Teatrda direktor və bədii rəhbər işləyib (1987 – 2002). 1991 və 1996-cı illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti seçilib. Avropa Türkləri İslam Birliyinin Qızıl medalı ilə təltif olunub (1994).

Məşhur aktrisa, ömrünün son illərini fərdi təqaüdçü olan Məhluqə Ələsgər qızı Sadıqova 15 avqust 2003-cü ildə Bakıda vəfat etdi. Aktrisa 28 aprel 1917-ci ildə Şuşada doğulub. 1936-cı ildə Bakıda Tibb Texnikumuna daxil olub. Həmin ilin 27 sentyabrından Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. Əlli dörd il bu sənət ocağında çalışıb. Fərdi təqaüdə çıxandan sonra bir müddət Bakı Bələdiyyə Teatrında aktrisa işləyib.

Dramaturq. Əziz Həsən oğlu Həsənov Tiflisdə doğulub. Uzun illər yüksək dövlət və hökumət vəzifələrində çalışıb. Hazırda Rumıniya Respublikasında Azərbaycanın səlahiyyətli səfiridir. Bir sıra publisist və elmi əsərlərin müəllifidir. «Brüsseldən məktublar» onun ilk dram əsəridir.

2004-cü il

3 aprel. «Ölülər», Cəlil Məmmədquluzadə.

2 hissəli qəmli komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Nazim Bəykişiyev, musiqi tərtibatçısı Samir Fərzəlibəyov, rejissor assistentləri Hənifə Ser və Mətləb Abdullayev.

Rollarda: Əliabbas Qədirov və Rafael Dadaşov (Şeyx Nəsrulla), Cəfər Namiq Kamal və Telman Əliyev (Şeyx Əhməd), Hacı İsmayılov və Yaşar Nuri (Hacı Həsən ağa), Zərnigar Ağakişiyeva və Səidə Quliyeva (Kərbalayı Fatma), Sabir Məmmədov (İsgəndər), Rəşad Bəxtiyarov (Cəlal), Məsmə Aslanqızı (Nazlı), Xalidə Şərifova və Günay Rəhimova (Zeynəb), Sərdar Rüstəmov (Əli), Sadıq İbrahimov və Kazım Abdullayev (Hacı Baxşəli), Əlvida Cəfərov (Hacı Kazım), Firuz Xudaverdiyev (Kərbalayı Vəli), Əjdər Həmidov və Pərviz Bağırov (Məşədi Oruc), Sevil Xəlilova (Məşədi Orucun Anası), Əsgər Məmmədoğlu (Mir Bağır Ağa), Məzahir Cəlilov (Kərbalayı Muxtar), Mətləb Abdullayev (Heydər Ağa), Saleh Bağırov (Əli Bəy), Elxan Ağahüseynoğlu (Müəllim), Ziba Ramazanova (Qız).

18 dekabr. «Misir gecələri». Məmməd Səid Ordubadinin «Sevgililər», Nazim Hikmətin «Yusif və Züleyxa», Uilyam Şekspirin «Antoni və Kleopatra» əsərləri əsasında.

2 hissəli məhəbbət faciəsi.

Quruluşçu rejissor və səhnə redaksiyasının müəllifi Mərahim Fərzəlibəyov, tərtibat rəssamı Rafis İsmayılov, modelçi rəssam Zemfira Qurbanova, bəstəkar Eldar Mansurov, rejissor assistenti Əli Nur.

Rollarda: Məleykə Əsədova (Züleyxa və Kleopatra), Füzuli Hüseynov (Yusif və Mark Antoni), Əli Nur (Potifar və Oktavi Sezar), Sevinc Əliyeva (Todexina və Xarmiana), Elxan Quliyev (Zindanbaşı və Enobarb), Ziba Ramazanova (Tutamazis və İrada), Rövşən Kərimduxt (Demetri), Kazım Abdullayev və İlyas Əhmədov (Aleksas).

* * *

Milli Dram Teatrın tarixində Cəlil Məmmədquluzadənin «Ölülər» əsərinin maraqlı quruluşları olub. Xüsusən 1966-cı ildə Tofiq Kazımovun orijinal səhnə təfsiri verdiyi tamaşa teatr tariximizin salnaməsində parlaq və əbədi səhifədir. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Nazim Bəykişiyev, musiqi tərtibatçısı Samir Fərzəlibəyovun hazırladıqları «Ölülər» həmin siyahıya uğurlu tamaşa kimi daxil ola bilmədi. Düzdür, tamaşada Əliabbas Qədirov və Rafael Dadaşov (Şeyx Nəsrulla), Cəfər Namiq Kamal və Telman Əliyev (Şeyx Əhməd), Hacı İsmayılov və Yaşar Nuri (Hacı Həsən ağa),

Zərnigar Ağakişiyeva və Səidə Quliyeva (Kərbalayı Fatma), Sabir Məmmədov (İsgəndər) cidd-cəhdlə oynayırdılar. Lakin tamaşadakı «ölü canlar», «diri ölülər» fəlsəfi-psixoloji anlamının səhnə həlli tapılmamışdı. Tamaşanın çağdaş düşüncəyə təsir edəcək qlobal problem ideyası zəif idi. Rejissor Mirzə Cəlil düşüncəsinin çağdaş tamaşaçılar üçün vacib ola biləcək fikir konsepsiyasına səthi yanaşmışdı.

Rejissor Mərahim Fərzəlibəyov bu il həm maraqlı, həm gözlənilməz, həm qəribə, həm də nəticə etibarilə uğursuz eksperiment etdi. Dramaturgiyanı, onun estetik prinsiplərini yaxşı bilən rejissor Məmməd Səid Ordubadinin «Sevgililər», Nazim Hikmətin «Yusif və Züleyxa», Uilyam Şekspirin «Antoni və Kleopatra» əsərləri əsasında pyes işlədi. Qarışıq janrda səhnələşdirilmiş pyes «Misir gecələri» adlandırıldı. Ancaq Mərahim Fərzəlibəyovun cəsarəti və niyyəti bədii sənət uğuruna çevrilə bilmədi.

Tamaşanın iki əsas qüsuru vardı. İlk çatışmazlıq bədii mətnin əlaqəsiz, vahid ana xətdə birləşməyən montajından irəli gəlirdi. Vahid süjet xətti tapılmamışdı, bir-biri ilə bağlanmayan epizodlar çox idi. İkinci çatışmazlıq isə daxili ehtirasları kükrəyib daşan, çılğınlıqları dramatik faciə yükündə olan Züleyxa və Kleopatra kimi mürəkkəb personajların zəif aktyor ifası ilə bağlıydı. Həmin rollar Məleykə Əsədovanın yaradıcılıq bioqrafiyasına uğursuz səhnə obrazları kimi yazıldı. Quruluşçu rejissor Füzuli Hüseynovun (Yusif və Mark Antoni), Əli Nurun (Potifar və Oktavi Sezar), Sevinc Əliyevanın (Todexina və Xarmiana), Elxan Quliyevin (Zindanbaşı və Enobarb), Ziba Ramazanovanın (Tutamazis və İrada), Rövşən Kərimduxtun (Demetri), Kazım Abdullayev və İlyas Əhmədovun (Aleksas) obrazlarının hadisələrdəki bədii yükünü də dramaturji tarazlıqla verə bilməmişdi.

Səhnədə hündür pillələr qurulmuşdu. Züleyxa-Kleopatranın əsas mizanları zəif işıq altında bu məkanda verilmişdi. Pillələr arasındakı məsafələr səhnə ölçülərinə uyğun deyildi, hündür qurulmuşdu. Buna görə də əksər hallarda aktrisa obrazların mürəkkəb daxili aləmlərini canlandırmaq əvəzinə, yıxılmamaq üçün diqqətini tarazlığını saxlamağa yönəldirdi. Belə xoşagəlməzlik həm aktrisanı mürəkkəb vəziyyətdə qoyur, həm də salonda gülüş doğururdu.

* * *

Truppada dəyişmə. Aktrisa Fidan Elmar qızı Axundova 2004-cü il oktyabr ayının 1-də ərizə yazıb işdən çıxdı.

Teatrın keçmiş aktyoru Füzuli İsmət oğlu Hüseynov aprel ayının 12-də və gənc İlyas Əhməd oğlu Əhmədov oktyabr ayının 4-də truppaya qəbul olundular.

2005-ci il

19 fevral. «Xurşidbanu Natəvan»*, İlyas Əfəndiyev.

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev.

Rollarda: Bəsti Cəfərova (Xurşidbanu Natəvan), Nurəddin Mehdixanlı (Xasay), Sabir Məmmədov (Seyid Hüseyn), Cəfər Namiq Kamal (Şahzadə), Sadıq İbrahimov (Hidayət xan), Kamal Xudaverdiyev (Knyaz), Rafiq Əzimov (Mirzə Ruhulla), Əsgər Məmmədoğlu (Zahir Bəy), Əlvida Cəfərov (Nəvvab), Firuz Xudaverdiyev (Mamayi), Vəfa Zeynalova (Bəyim), Anar Heybətov (Daşdəmir), Mehriban Xanlarova (Təhminə), Kazım Həsənquliyev (Muradalı), Elxan Ağahüseynoğlu (Canişin), Rövşən Kərimduxt (Şahmar), Mətləb Abdullayev (Möhnət), Məzahir Cəlilov (Məlüküldövlə), Aslan Şirinov (Fərəc bəy), Tofiq Hüseynov (Qala rəisi).

**Qeyd.* İlyas Əfəndiyevin «Xurşidbanu Natəvan» dramı Akademik teatrda ilk dəfə 11 sentyabr 1981-ci ildə rejissor Mərahim Fərzəlibəyovun quruluşunda tamaşaya qoyulub.

30 mart. «Ağlasığmaz qətl», Alber Kamyu. Vaqif Əlixanlının və İzaməddin Bağırovun tərcümələri əsasında.

2 hissəli faciə.

Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Kamal Şıxəliyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rejissor assistenti Mətləb Abdullayev.

Rollarda: Zərnigar Ağakişiyeva və Sevil Xəlilova (Ana), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Marta), Rəşid Səməndər və Mətləb Abdullayev (Jan), Şəlalə Şahvələdqızı və Ləman İmanova (Mariya),

«Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı.
Cavanşir – Rövşən Kərimduxt və Həcər – Münəvvər Əliyeva. 2005-ci il

«Xurşidbanu Natəvan», İlyas Əfəndiyev. Natəvan – Bəsti Cəfərova
və Hidayət xan – Sadıq İbrahimov. 2005-ci il

Rafiq Əzimov (Kişi), Rəşad Bəxtiyarov və Cavid Novruzov (Otelin keçmiş sakinləri).

27 may. «Dirilən adam», Mir Cəlal.

2 hissəli ictimai-sosial dram.

Quruluşçu rejissor Oruc İzzətoğlu (Qurbanov), rəssam Nazim Bəykişiyev, bəstəkar Aqşin Əlizadə, səhnə plastikası Hüseyn Xəlilov, rəqslərin quruluşçusu Elşən Şahinoğlu, məsləhətçi Yasif Nəsirli.

Rollarda: Samir Qulamov (Qədir), Şəhla Əliqızı və Aytən Aydınqızı (Qumru), Nurəddin Mehdixanlı (Bəbir Bəy), Bürcəli Əsgərov (Məşədi İslam), Ramiz Novruz (Ələs bəy), Əli Nur (Sarıqlı molla), Tofiq Hüseynov (Bekar Ağabala), Səidə Quliyeva (Çəpəl Suralı), Elşən Şahinoğlu (Miri bəy), Mətləb Abdullayev (Həbib bəy), Firuz Xudaverdiyev (Hacı Hüseyn), Məzahir Cəlilov (Məşədi Cahangir), Kazım Abdullayev (Soltanəli), Elxan Ağahüseynoğlu (Qiyas), Aslan Şirin (Gödək), Əlvida Cəfərov (İsmayıl), İlyas Əhmədov (Bağır), Hicran Nəsirova (Qıssa xanım), Mətanət Atakişiyeva (Madam-madmazel), Sevil Xəlilova (Telli), Dilarə Nəzərova (Şirin), Almaz Amanova (Fizzə), Nəcəf Həsənzadə (Baş qorodovoy), Elnur Qədirov (qorodovoylar), Sərdar Rüstəmov (Baş qarovul), Səyyar Rüstəmov (Qarovul), Rəşad Bəxtiyarov (Birinci yasavul), Elşən İsmayılov (İkinci yasavul), Nemətağa Əliyev (Dustaq).

8 iyul. «Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı.

2 hissəli dram.

Quruluşçu rejissor Rövşən Almuradlı, rəssam Rafis İsmayılov, bəstəkar Sərdar Fərəcov, rəqslərin quruluşçuları Zakir Ağayev və Leyla Ağayeva, rejissor assistenti Ramiz Novruz.

Rollarda: Rövşən Kərimduxt (Cavanşir), Münəvvər Əliyeva (Həcər), Nurəddin Mehdixanlı və Kazım Abdullayev (Şəmistan ağa), Mətanət Atakişiyeva və Sənubər İsgəndərova (Sərvinaz bəyim), Ramiz Məlik və Ramiz Novruz (Qaçaq Süleyman), Sevil Xəlilova və Almaz Amanova (Güləndam), Abbas Qəhrəmanov və Məzahir Cəlilov (Rəşid), Telman Əliyev və Tofiq Hüseynov (Katib), Tofiq Hüseynov və Telman Əliyev (Rəis), Abbas Qəhrəmanov və Məzahir Cəlilov (Xondulu), Şəlalə Şahvələdqızı və Ləman İmanova (Qəndab), Sərdar Rüstəmov (İlyas), İlyas Əhmədov və Mətləb Abdullayev (Nağı), Elnar

Qarayev (Aşıq), Şəhla Əliqızı, Ziba Ramazanova, Ləman İmanova (Kənd qızları), Bəhruz Vaqifoğlu, Samir Gülmalıyev, Malik Məmmədov (qaçaqlar), Rəşad Bəxtiyarov, Sərdar Rüstəmov, Pərviz Həsənov (milislər).

17 noyabr. «Mesenat», Əli Əmirli.

2 hissəli ailə dramı.

Quruluşçu rejissor Bəhram Osmanov, tərtibat rəssamı İsmayıl Məmmədov, geyim rəssamı İlham Əsgərov, bəstəkar Səyavuş Kərimi, rəqslərin quruluşçuları Zakir Ağayev və Leyla Ağayeva.

Rollarda: Əliabbas Qədirov (Hacı Zeynalabdin Tağıyev), Şükufə Yusupova (Sona Ərəblinskaya), Vəfa Zeynalova (Leyla), Mehriban Xanlarova (Sara), Şəlalə Şahvələdqızı (Sürəyya), Kazım Həsənquliyev (Məhəmmədtağı), Firəngiz Mütəllimova (Raisa), Sənubər İsgəndərova (Falçı), Yaşar Nuri (Ağamusa Nağıyev), Kamal Xudaverdiyev (Murtuza Muxtarov), Ləman İmanova (Liza), İradə Ağasıbəyli (Luiza), İlham Əsgərov (Nəriman Nərimanov), Sadıq İbrahimov (Mirzə Abuturab), Kazım Abdullayev (Fətulla bəy), Anar Heybətov (Zeynal bəy Səlimxanov), Rəşad Bəxtiyarov (Katib), Leyla Məmmədova (Şövkət Məmmədova), Elxan Ağahüseynoğlu (Məşədi Səftər), Rəşad Bəxtiyarov (Birinci gənc), Sərdar Rüstəmov (İkinci gənc), Aslan Fətullayev (Xidmətçi).

* * *

Repertuarda iki yeni dramaturq adı göründü. Bunlardan biri fransız yazıçı-filosofu Alber Kamyu idi. Onun «Ağlasığmaz qətl» psixoloji dramını quruluşçu rejissor Əsgər Əsgərov (rəssam Kamal Şıxəliyev) tamaşaya hazırladı. Tamaşa Avropa teatr düşüncəsinin estetik prinsiplər üzərində qurulmuşdu. Ümumi kompozisiyada postmodernizmin estetik ifadə vasitələrinin incə xüsusiyyətləri bəzi məqamlarda daha qabarıq nəzərə çarpırdı. Aktyor ifaları ümumilikdə janrın və Alber Kamyu bədii üslubunun nəzəri prinsiplərinə uyğun gəlirdi.

Tərtibatın rənglərində, tamaşanın ruhunda, kompozisya həllində və işıq qurumunda qəribə «soyuqluq» vardı. Rejissor həmin soyuqluğu obraz kimi ümumiləşdirmişdi və həmin ahəng tamaşanın ana xəttində əvvəldən sonadək həssaslıqla qorunub saxlanılırdı. Həmin cəhddə

Zərnigar Ağakişiyeva (Ana), Zemfira Nərimanova və İradə Ağasıbəyli (Marta), Rəşid Səməndər və Mətləb Abdullayev (Jan), Şəlalə Şahvələdqızı və Ləman İmanova (Mariya), Rafiq Əzimov (Kişi) daha inamlı və cazibəli görünürdülər.

Akademik teatrın yaradıcılığına müraciət etdiyi ikinci yazıçı nasir kimi tanınıb sevilən İsmayıl Şıxlı idi. Onun «Ölüləri qəbiristanlıqda basdırın» dramının tamaşası 8 iyulda göstərildi. Əsəri tamaşaya quruluşçu rejissor Rövşən Almuradlı, rəssam Rafis İsmayılov, bəstəkar Sərdar Fərəcov, rəqs quruluşçuları Zakir Ağayev və Leyla Ağayeva hazırlamışdılar.

Səhnə yozumu psixoloji dram janrında verilmiş tamaşada gənc aktyorlar Rövşən Kərimduxt (Cavanşir), Münəvvər Əliyeva (Həcər) ehtiraslı və coşqun ifaları ilə daha maraqlı oyun nümayiş etdirirdilər. Onların daxili çılğınlıqlarında, bəzən cilovsuz görünən ehtiraslarında qəribə səmimiyyət və bir qədər də zəriflik vardı.

«Ölüləri qəbiristanlıqda basdırın» tamaşasının janr estetikası baxımından Mətanət Atakişiyeva və Sənubər İsgəndərova (Sərvinaz bəyim), Ramiz Məlik və Ramiz Novruz (Qaçaq Süleyman), Abbas Qəhrəmanov (Rəşid və Xondulu), Telman Əliyev və Tofiq Hüseynov (Katib), Tofiq Hüseynov və Telman Əliyev (Rəis) öz obrazlarını məntiqli oynayırdılar. Dramatik gərginliyin çox epizodlarda qabarıq verildiyi səhnələrdə aktyorlar ölçü hissini itirməməyə çalışırdılar.

Teatr səhnələşdirmyə üstünlük verərək Mir Cəlalın «Dirilən adam» əsərini tamaşaçılara göstərdi. Romanı 2 hissəli ictimai-sosial dram janrında Oruc İzzətoğlu səhnələşdirmiş və özü də tamaşaya hazırlamışdı. Onunla birlikdə tamaşa üzərində rəssam Nazim Bəykişiyev, bəstəkar Aqşin Əlizadə, səhnə plastikası Hüseyn Xəlilov, rəqs quruluşçusu Elşən Şahinoğlu, məsləhətçi Yasif Nəsirli də səylə çalışmışdılar.

Tamaşa forma və kompozisiya qurumu baxımından monumentallığa meyil prinsiplərini xatırladırdı. Əsas rolları Samir Qulamov (Qədir), Şəhla Əliqızı və Aytən Aydınqızı (Qumru), Bürcəli Əsgərov (Məşədi İslam), Ramiz Novruz (Ələs bəy), Əli Nur (Sarıqlı molla), Tofiq Hüseynov (Bekar Ağabala), Səidə Quliyeva (Çəpəl Suralı) oynayırdılar. «Dirilən adam» tamaşasının fikir bütövlüyünü Nurəddin Mehdixanlının coşqun ehtirasla ifa etdiyi Bəbir bəy obrazı tamamla-

yırdı. Bu rol aktyorun yaradıcılığı üçün yeni idi və Nurəddin bu təzəliyi ifadəli, tutumlu, koloritli oyunu ilə ustalıqla doğruldurdu.

Yaradıcılıq imkanlarının əsas səciyyələrinə görə Nurəddin Mehdixanlı daha çox romantik aktyor məktəbinin estetik prinsiplərinə uyğundur. Aktyor bu səpkidə xeyli yaddaqalan rollar oynamışdır. O, ifa etdiyi lirik-psixoloji çalarlı rolların ifasında da romantik teatr elementlərindən cəsarətlə istifadə edə bilir. «Dirilən adam» tamaşasında ifa etdiyi Bəbir bəy rolu bütün bədii məziyyətlərinə görə aktyorun indiyədək oynadığı bütün səhnə surətlərindən fərqlənir. Nurəddin Mehdixanlı Bəbir bəyi coşqun daxili ehtirasla və yüksək hərəkət temperamenti ilə oynayır. Onun təqdimində biz, ilk növbədə, realist teatrın satirik faciə janrına aid dəyərli aktyorluq elementləri ilə üzləşirik. Dərəbəyliyi həyat davranışına çevirmiş Bəbir bəyin ikiüzlülüyü, rəzilliyi və riyakarlığı, kasıb kənd camaatını düçar etdiyi fəlakətlər aktyorun oyununda canlı və emosional psixoloji dəqiqliklə təcəssüm tapıb. Aktyor daxili ehtirasını və hərəkətlərinin temperament ritmini bağırtılı səsi ilə harmonik vəhdətdə nizamlayıb. Bəzən isə, vəziyyətin psixoloji fikir yükündən asılı olaraq Nurəddin Mehdixanlı becid danışıq tərzinə keçir. Hətta bəzən sanki dili topuq çalır. Adama elə gəlir ki, indicə aktyorun nəfəsi daralacaq və o, təntiyəcək. Lakin Nurəddin belə danışıq ritmini Bəbir bəyin real vəziyyətdə real davranışı kimi təqdim etməklə obraza canlılıq, tipiklik və cazibəli kolorit verib.

Onun Bəbir bəyi ovunu caynaqlarına keçirmək üçün hər cür rəzilliyə çox asanlıqla gedir. Bəzən gözlənilmədən dara düşəndə (məsələn, arvadı Qıssa xanımın onu Qədirin daxmasından çıxanda yaxalaması) qınına çəkilib tülkü kimi məqam gözləyir. Belə ani psixoloji dönüşlərdə aktyorun oyunu təbiiliyini və reallığını itirmir. Nurəddin Mehdixanlının təqdimində Bəbir bəy həm də heyvərədir. Bəzən bu heyvərəlik onu mənasız, hətərən-pətərən danışığa aparır. Amma aktyorun mənalı oyununun ikinci qatında biz obrazın mənfur niyyətli məqsədinə çatmaq istəyinin hərisliyini və vəhşiyana acgözlüyünü görürük.

Sarkazmın elementlərindən mənalı tərzdə istifadə edən digər ifaçı Ələs bəy rolunu oynayan aktyor Ramiz Novruzdur. Aktyor obrazın bədii təsvirinin psixoloji əsaslarından çıxış edərək Ələs bəyi əbləh

kimi oynayır. Ramiz Novruzun aktyor məntiqi oyununda əsaslanır. Məhz Ələs bəyin və ələs bəylərin nadanlıqları, əbləhlikləri sayəsində kəmfürsət Bəbir bəy Qobular kəndində at oynadır, diri adamdan dirilik kağızı tələb edir. Aktyorun ironiyaları çoxqatlıdır. Bütün qatlarda həmin ironiya Ələs bəyin psixoloji-mənəvi xüsusiyyətlərindən irəli gəlir. Aktyor öz obrazını bədii mətnə uyğun şəkildə, lakin özünün potensial aktyorluq imkanının satirik-dramatik çalarları ilə tamaşaçılara çatdırır.

Ramiz Novruzov oynadığı rollarda obrazın daxili təbəddülatlarını və psixoloji zəminini ilkin götürür. Lakin bu psixologizmi tamaşaçılar hər təzə tamaşada yeni ifadə bürümündə görürlər. Ələs bəyin ifasında haqqında söhbət gedən psixologizmi aktyor milli karnaval oyun estetikasının məsxərə elementləri ilə zənginləşdirib. Belə təqdimdə Ələs bəyin maymaqlığı və əbləhliyi xalq üçün, millətin varlığı üçün daha qorxulu, daha dəhşətli, daha yırtıcı görünür.

«Dirilən adam» tamaşası tiplərin bədii bütövlüyü və əlvanlığı ilə teatrın digər tamaşalarından seçilir. Xoşbəxtlikdən rejissor Oruc İzzətoğlu, böyük-kiçikliyindən asılı olmayaraq, hər obrazın tipik səciyyələrinin dəqiqliliyini və ifadəliliyini aktyorlarla sərrast, anlaşıqlı və məzmunlu işləmişdir. Bürcəli Əsgərov təmkinli, tədbirli, mənən saf Məşədi İslamı ləyaqətli mömin və vicdanlı kəndli, ləyaqətli insan kimi oynayırdı. Aktyor qəflətən dünyasını dəyişdikdən sonra bu rolu Hacı İsmayılov oynayır. Obrazın məram və məqsədini düzgün mənimsəmiş aktyor Məşədi İslamı tamam yeni ifadələrlə rəsm edir.

Əli Nur dramatik-psixoloji üsluba üstünlük verib. Belə oyun tərzində o, Sarıqlı mollanın görmədiyimiz, ancaq hadisələrin mürəkkəbliyindən hiss elədiyimiz qorxulu xasiyyətlərini və vəhşətli əməllərini sanki iri planda aydın görüntüyə gətirir. Aktyor obrazın daxili gərginliyini və mənfur niyyətinə çatmaq üçün ləyaqət və namus hissini itirməsini, eyni zamanda səksəkə keçirməsini həssaslıqla tamaşaçılara çatdırır.

Milli ədəbiyyatımızda arsız, küpəgirən, aradüzəldən, ifritə obrazları kifayət qədərdir. Mir Cəlalın bir rəngdə, lakin çox parlaq çalarla təsvir etdiyi Çəpəl Suralı obrazı orijinallığı ilə seçilir. Müəllif onun dil-ifadə vasitələrini də çox koloritli verib. «Dirilən adam» pyesində

də Çəpəl Suralıya xüsusi yer verilib. Bəbir bəyin murdar niyyətinin həyata keçməsində vasitəçi olan bu küpəgirən qarı aktrisa Səidə Quliyevanın ifasında parlaq səhnə surətidir. Aktrisanın hərəkət dinamikası, danışıq tərzi və sifət mimikaları güclü xarakterin canlı səhnə görümünü yüksək teatrallıqla reallaşdırıb. Onun ifasında Çəpəl Suralı gülməli baxıldığı qədər də vahiməli, sadəlövh göründüyü qədər də fitnələr yuvası olan tip təsiri bağışlayır.

«Dirilən adam» tamaşasının tiplər qalereyasına parlaqlıq və əlvanlıq, canlılıq və təbiilik verən aktyorların sırasında Tofiq Hüseynovun (Bekar Ağabala), Məzahir Cəlilovun (Məşədi Cahangir), Hicran Nəsirovanın (Qızsa xanım), Mətanət Atakişiyevanın (Madam madmazel), Sərdar Rüstəmovun (Baş qarovul), Aslan Şirinin (Gödək), Əlvida Cəfərovun (İsmayıl), Elxan Ağahüseynoğlunun (Qiyas), Kazım Abdullayevin (Soltanəli), Sevil Xəlilovanın (Telli) adlarını, ilk növbədə, çəkmək lazımdır. İfaçılar bütün səhnələrdə və gərginliyi bir-birindən fərqlənən hadisələr zəminində şövqlə və psixoloji həssaslıqla oynayırlar.

İlyas Əfəndiyevin 11 sentyabr 1981-ci ildə Mərahim Fərzəlibəyovun quruluşunda oynanılmış «Xurşidbanu Natəvan» pyesinin yeni tamaşası göstərildi (quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, bəstəkar Cavanşir Quliyev). Əsas rolları Bəsti Cəfərovanın (Xurşidbanu Natəvan), Nurəddin Mehdixanlının (Xasay), Sabir Məmmədovun (Seyid Hüseyn), Cəfər Namiq Kamalın (Şahzadə), Sadıq İbrahimovun (Hidayət xan), Kamal Xudaverdiyevin (Knyaz), Əlvida Cəfərovun (Nəvvab) oynadıqları tamaşa birinci quruluşdan zəif alınmışdı.

Teatrın səhnəsində ilk dəfə məşhur Bakı milyonçuları və mesenatları Hacı Zeynalabdin Tağıyevin (Əliabbas Qədirov), Ağamusa Nağıyevin (Yaşar Nuri), Murtuza Muxtarovun (Kamal Xudaverdiyev) obrazları göründü. Tağıyevin övladları Leyla, Sürəyya, Sara, Məhəmmədtağı da hadisələrdə obraz kimi işlənmişdi. Pyesin adı «Mesenat» idi və onu dramaturq Əli Əmirli yazmışdı. Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, tərtibat rəssamı İsmayıl Məmmədov, geyim rəssamı İlham Əsgərov, bəstəkarı Səyavuş Kərimi, rəqslərin quruluşçuları Zakir Ağayev və Leyla Ağayeva idi. İstedadlı rəssam İsmayıl

Məmmədov zahiri parıltılara uyaraq uğursuz tərtibat vermişdi. Adi aktyor toxunmasından dekorlar əsirdi. Nəticədə aktyorlar dramatik vəziyyətlərdəki mizanları ehtiyatla icra etməyə çalışırdılar. Bununla da tamaşanın ritm ahəngdarlığı pozulurdu.

«Mesenat» tamaşasında orijinal quruluş elementləri və cazibəli aktyor ifaları yox idi. Falçının (Sənubər İsgəndərova) səhnəyə gəlişi həyəcanlı dramatizm doğururdu. Lakin bir neçə dəqiqədən sonra həmin gərginlik darıxdırıcı və uzun-uzadı sözçülüklə əvəzlənirdi. Nəriman Nərimanov (İlham Əsgərov), Mirzə Abuturab (Sadıq İbrahimov) obrazlarının dramaturji bədii yükü zəif işlənmişdi. Firəngiz Mütəllimovanın (Raisa) ifası və oynadığı obraz daha canlı və təravətli təsir bağışlayırdı.

* * *

Truppada dəyişmə. Aktrisa Safurə Ağabala qızı İbrahimova 2005-ci il oktyabr ayının 1-də ərizə yazıb işdən çıxdı.

Sumqayıt teatrının aktyoru Kazım Ənvər oğlu Abdullayev fevral ayının 15-də, Ləman Fuad qızı İmanova fevral ayının 24-də truppaya qəbul olundular.

Fəxri ad. Bu il avqust ayının 1-də teatrın aktrisası Şükufə Mühəddin qızı Yusupova Azərbaycan Respublikasının *Xalq artisti* fəxri adı ilə təltif olundu. Bu ad aktrisaya kino xidmətlərinə görə verildi.

Əcəl aldı... Respublikanın Əməkdar artisti Bürcəli Veysəl oğlu Əsgərov 1 noyabr 2005-ci ildə qəflətən vəfat etdi. Aktyor 15 fevral 1933-cü ildə Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1952 – 1956).1956-cı il sentyabr ayının 12-dən akademik teatrın aktyor truppasında çalışırdı.

Dramaturqlar. İsmayıl Qəhrəman oğlu Şıxlinski (İsmayıl Şıxlı). Azərbaycanın Xalq yazıçısıdır. 22 mart 1919-cu ildə Qazax rayonunun İkinci Şıxlı kəndində doğulub. Nəsr yaradıcılığı və pedaqoji fəaliyyətlə məşğul olub. Ən məşhur əsəri «Dəli Kür» romanıdır. Bu roman əsasında teatr tamaşası hazırlanıb, «Azərbaycanfilm»də kino lenti çəkilib. İsmayıl Şıxlı Bakıda vəfat edib, məzarı Fəxri Xiyabandadır.

Alber Kamyu (7.11.1913 – 4.1.1960). Fransız filosofu, nasiri, dra-

maturqu, publisisti, aktyoru və rejissoru. Əlcəzairin Modovi rayonunda doğulub və 1939-cu ilə kimi orada yaşayıb. 26 yaşında Fransaya gəlib və ömrünün sonuna kimi burada qalıb. Vilblevin şəhərində vəfat edib. Nobel mükafatı laureatıdır (1957). İlk yaradıcılığa «Kəbinkəsmə» və «Astar və üz» əsərləri ilə başlayıb. Ekzistensializmin görkəmli nümayəndələrindəndir. «Yad» povesti, «Taun» romanı, «Sürgün və hökmranlıq» novellası, «Sizif haqqında mif» fəlsəfi əsərləri ona dünya şöhrəti gətirib. «Kaliqula», «Anlaşılmazlıq», «Matyuren» pyesləri daha məşhurdur. Əlcəzairin «Teatr de L'Ekip» teatrında Esxilin «Zəncirlənmiş Prometey», Ben Consun «Qaradinməz qadın», Aleksandr Puşkinin «Daş qonaq», Fyodor Dostayevskinin «Karamazov qardaşları» pyeslərini tamaşaya hazırlayıb və özü də baş rolları ifa edib.

2006-cı il

11 fevral. «İkinci səs», Bəxtiyar Vahabzadə.

2 hissəli dram.

Quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Rafis İsmayılov, bəstəkar Əvəz Muradov, rəqslərin quruluşçusu Zakir Ağayev.

Rollarda: Sabir Məmmədov (Reşad), Kazım Abdullayev (İkinci Reşad), Məleykə Əsədova və Şəlalə Şahvələdqızı (Arzu), Sevinc Əliyeva (İkinci Arzu), Almaz Amanova (Həyat), Hacı İsmayılov (Şükür bəy), Şəhla Əliqızı (Məlahət), Elşən Cəbrayılov (Fikrət), Ləman İmanova (Sənəm), Elxan Ağahüseynoğlu və Mətləb Abdullayev (Müavin), Sərdar Rüstəmov (Elmi işçi), Xədicə Novruzlu (İradə), Ziba Ramazanova (Tibb bacısı).

22 mart. «Eloğlu», Abdulla Şaiq.

2 hissəli xalq dramı.

Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam İlham Əsgərov, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rejissor assistenti Həmid Kazımov.

Rollarda: Əli Nurzadə və Tofiq Hüseynov (Rüstəm xan), Mehriban Xanlarova və Dilarə Nəzərova (Mərcan xanım), Sevil Xəlilova və İradə Həsənova (Cəvahir xanım), Elxan Ağahüseynoğlu və Məzahir Cəlilov (Cümşüd xan), Aslan Şirinov və Rəşad Bəxtiyarov (Bal-

oğlan), Kazım Abdullayev və İlyas Əhmədov (Əkbər), Rafiq Əzimov və Telman Əliyev (Atakişi), Rəşid Rzayev və Mətləb Abdullayev (Səməndər), Şəlalə Quliyeva və Məsmə Aslanqızı (Telli), Anar Heybətov və Sərdar Rüstəmov (Eloğlu), Kübrabəyim Əliyeva və Mətanət Atakişiyeva (Anaxanım), Elxan Quliyev və Əsgər Məmmədoğlu (Polad), Vəfa Zeynalova və Ziba Ramazanova (Zümrüd), Pərviz Bağırov və Əlvida Cəfərov (Qəhrəman), Səidə Quliyeva və Şəhla İsmayılova (Ana torpaq).

15 aprel. «Kaş araba aşmayaydı!..», Otia İoseliani. Dramaturqun «Araba hələ aşmayıb» və «Araba aşdı, yaxud on ildən sonra» dramları əsasında. Tərcümə edəni Ələsgər Qurbanov.

2 hissəli tragikomediya.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Nazim Bəykişiyev, musiqi tərtibatçısı Fəxrəddin Dünyamalıyev.

Rollarda: Səyavuş Aslan (Aqoba Boqveradze), Bəsti Cəfərova (Kesariya), Mətanət Atakişiyeva (Tasya), Telman Əliyev (İovel), Əjdər Həmidov (Dito), Abbas Qəhrəmanov (Durmişxan), Anar Heybətov (Buxuti), İradə Həsənova (Qoqola), Sevinc Əliyeva (Jujuna), Münəvvər Əliyeva (Landa), Vəfa Zeynalova (Saqo), Məzahir Cəlilov (Karpe).

11 may. «İnsan səsi», Jan Kokto. Tərcümə edəni Sahib Novruzov.

2 hissəli melodrama.

Quruluşçu rejissor İlham Əsgərov (diplomçu), rəssam Nazim Bəykişiyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Bəsti Cəfərova (Qadın), Elşən Şahinoğlu (Oğlan), Şəlalə Şahvələdqızı, Ziba Ramazanova, Rəşad Bəxtiyarov, Elnur Qədirov (şəhər sakinləri).

16 iyun. «Xəcalət», Hüseynbala Mirələmov.

2 hissəli müasir dram.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Məmmədov, bəstəkar Səyavuş Kərimi.

Rollarda: Nurəddin Mehdixanlı (Vətən), Mətanət Atakişiyeva (Fərqanə), Ramiz Novruz (Murad), Nuranə Əhmədova* (Gülyaz), Yaşar Nuri və Əsgər Məmmədoğlu (Kürən), Əlvida Cəfərov və Məzahir Cəlilov** (Kərim həkim).

* *Qeyd.* Nuranə Əhmədova Gülyaz rolunu oynamaq üçün Gənc Tamaşaçılar Teatrından dəvət olunmuşdu.

** *Qeyd.* Məzahir Cəlilov Ötərxan obrazını ifa edirdi. Premyerada bu obraz əsərdən çıxarıldı və Məzahir Cəlilov Kərim həkim roluna ikinci ifaçı verildi.

3 noyabr. «Füzuli və Əsmər», Mirmehdi Seyidzadə.

2 hissəli mənzum məhəbbət dramı.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam İlham Elxanoğlu, rəqslərin quruluşçusu Rəfiqə Axundova. Qara Qarayevin, Fikrət Əmirovun və Cahangir Cahangirovun musiqilərindən istifadə edilib. Elmi məsləhətçi professor Nizami Cəfərov.

Rollarda: Füzuli Hüseynov (Füzuli), Mehriban Zəki (Əsmər), Hacı İsmayılov və İlham Əsgərov (Həbibi), Sabir Məmmədov (Vali), Almaz Amanova (Gövhər), Dilarə Nəzərova və Şəhla Əliqızı (Zivər), Ləman İmanova (Könül), Ziba Ramazanova (Sevinc), Əli Nur (Şahi), Kazım Abdullayev (Pənahi), Rafiq Əzimov (Şeyx Əfəndi), Əjdər Həmidov (Əmir), Pərviz Bağırov (Əbu Nəvvas), Sərdar Rüstəmov (İbrahim), Elnar Qarayev (Qasid), Səyyar Rüstəmov (Qapıçı).

13 dekabr. «Oyuncaq ev», Henrik İbsen. Tərcümə edəni Azad Əliyev.

2 hissəli məişət dramı.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Tahir Tahirov, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rejissor assistenti Vüqar Məmmədov.

Rollarda: Sənubər İsgəndərova (Nora Helmer), Abbas Qəhrəmanov (Torvald Helmer), Cəfər Namiq Kamal (Həkim Rank), Füzuli Hüseynov (Nils Kroqstad), Mehriban Xanlarova (Kristina Linne), Ziba Ramazanova (Anne Marie).

* * *

Məktəbli və yeniyetmələr üçün yazılmış və vaxtilə Gənc Tamaşaçılar Teatrında oynanılmış Abdulla Şaiqin bədii cəhətdən sönük, dramaturji baxımdan qüsurlu «Eloğlu» pyesinin heç bir yaradıcılıq qayəsi olmadan Akademik teatrın repertuarında görünməsi həm kollektivin çağdaş düşüncəli sağlam qüvvələrində, həm də teatr ictimaiy-

yətində təəccüb doğurdu. Tamaşanın quruluşunu rejissor Əsgər Əsgərov vermişdi. Bədii tərtibatı rəssam İlham Əsgərov işləmişdi. Əsasən, gənclərin çıxış etdikləri tamaşada bir dənə də aktyor uğuru yox idi.

Mirmehdi Seyidzadənin «Füzuli və Əsmər» pyesini dramaturji zəifliyinə görə vaxtilə Gənc Tamaşaçılar Teatrı da qəbul etməyib. Nədənsə, bu hadisədən 50 – 60 il sonra bu primitiv pyes Akademik teatrın diqqətini cəlb etdi. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov əsər üzərində rəssam İlham Elxanoğlu və rəqslərin quruluşçusu Rəfiqə Axundova ilə birgə işləmişdi. Tamaşada Qara Qarayevin, Fikrət Əmirovun və Cahangir Cahangirovun musiqilərindən istifadə edilmişdi. Lakin nə bu qüdrətli sənətkarların musiqisi, nə yaradıcı heyətin cəhdi, nə də Füzuli Hüseynovun (Füzuli), Mehriban Zəkinin (Əsmər), Hacı İsmayılov və İlham Əsgərovun (Həbibi), Sabir Məmmədovun (Vali), Almaz Amanovanın (Gövhər), Dilarə Nəzərova və Şəhla Əliqızının (Zivər), Əli Nurun (Şahi), Kazım Abdullayevin (Pənahi), Rafiq Əzimovun (Şeyx Əfəndi), Əjdər Həmidovun (Əmir), Pərviz Bağırovun (Əbu Nəvvas) aktyor bacarıqları «Füzuli və Əsmər» tamaşasını uğursuzluqdan xilas edə bilmədi.

Hər iki tamaşa teatrın direktoru Maqbet Bünyadovun təkidi ilə qoyulmuşdu. Yaradıcılıq təxəyyülündən, dolğun repertuar siyasətindən uzaq olan, sırf inzibatçı direktorun bir məntiqi bu idi ki, teatrın binasının önündə Məhəmməd Füzulinin heykəli var və ona görə repertuarda ona həsr edilmiş tamaşa olmalıdır.

Bəxtiyar Vahabzadənin «İkinci səs» dramının tamaşası (quruluşçu rejissor Ağakişi Kazımov, rəssam Rafis İsmayılov, bəstəkar Əvəz Muradov, rəqslərin quruluşçusu Zakir Ağayev) uğursuz səhnə təfsirində tamaşaçılara təqdim edildi. Çox qüsurlu tamaşa Ağakişi Kazımovun rejissor təxəyyülünün tükəndiyini, müasir teatr düşüncəsi ilə ayaqlaşa bilmədiyini açıq-aydın göstərdi. Pyesin çağdaşlarımızın estetik zövqünə cavab verə biləcək ideya yönümü də müəyyənləşməmişdi. Baş rolların ifaçıları Sabir Məmmədov (Reşad) ilə Məleykə Əsədova və Şəlalə Şahvələdqızı (Arzu) rejissorun yanlış səhnə təfsiri nəticəsində səhnədə çaşqın görünürdülər.

Məşhur fransız dramaturqu Jan Koktonun «İnsan səsi» (tərcümə edəni Sahib Novruzov) dramı da uğursuz rejissor yozumuna məruz

qaldı. Əsəri tamaşaya teatrın quruluş hissə müdiri İlham Əsgərov hazırladı (rəssam Nazim Bəykişiyev). Əsərin janr qarışıqlığı (melodrama, monotamaşa, monoloq-tamaşa) və ideyanın dağınıqlığı baş rolun ifaçısı Bəsti Cəfərovanı (Qadın) da pis vəziyyətdə qoymuşdu.

Teatrın bu il birinci uğurlu tamaşası gürcü ədibi Otia İoseliani dramının tamaşası oldu. Pyes dramaturqun «Araba hələ aşmayıb» və «Araba aşdı, yaxud on ildən sonra» dramları əsasında işlənmişdi. Tərcümə edəni Ələsgər Qurbanov idi. 2 hissəli tragikomediyaya quruluşu Bəhram Osmanov vermişdi (rəssam Nazim Bəykişiyev).

Bir neçə il səhnədə parlaq ifa nümayiş etdirə bilməyən Bəsti Cəfərova Kesariya obrazı ilə böyük sənət qələbəsi qazandı. İkinci uğurlu ifa Səyavuş Aslana (Aqoba Boqveradze) məxsus idi. Ritmik ahəngdə, koloritli ifalar əsasında, iti sürət-ritmdə, janrın əsas prinsiplərinin ahəngində qurulmuş tamaşada Mətanət Atakişiyeva (Tasya), Telman Əliyev (İovel), Əjdər Həmidov (Dito), Abbas Qəhrəmanov (Durmişxan), Anar Heybətov (Buxuti), İradə Həsənova (Qoqola), Sevinc Əliyeva (Jujuna), Münəvvər Əliyeva (Landa), Vəfa Zeynalova (Saqo), Məzahir Cəlilov (Karpe) peşəkarlıqla oynayırdılar. Abbas Qəhrəmanov (Durmişxan, Aqobanın üçüncü oğlu) bir daha dramatik-psixoloji obrazı həssaslıqla, üç-dörd planda oynamaq bacarığı ilə heyranlıq doğurur. Aktyorun hərəkət dialoqları və hərəkət monoloqları hadisələrin tragizm qatına mənalı kod-açar səciyyəsi daşıyır. Kompozisiya qurumuna uyğun olaraq arxa planda verilmiş mizanlarda da Abbasın səhnə diqqəti dəqiqdir, hadisələrə hərəkət və sifət cizgiləri ilə reaksiya bildirməsi mənalı və sərrastdır.

Bəhram Osmanov mürəkkəb dramaturji kompozisiyada, gözlənilməz faciəvi hadisələr burulğanında, sərt sarkazmlı yumorun mahiyyətində ciddi mənəvi-əxlaqi problemlərə fəlsəfi fikir işığı salmağı xoşlayan və bunu cəsarətlə bacaran rejissordur. Yaradıcılığının ilk işlərindən, quruluş verdiyi ilk tamaşalardan başlayaraq Bəhram bəşəri mahiyyət daşıyan ictimai-sosial problemlərə fərdin mənəvi-əxlaqi düşüncə tərzi prizmasından baxmağa üstünlük verir. Onun qənaətində dünyaya pəncərə fərdin qəlbindən və düşüncə tərzindən açılanda daha aydın, daha təzadlı, daha mürəkkəb görünür. Belə bir rejissor təfsirində hadisələrin həyatiliyi güclənir, əqidə mübarizələri önə keçir,

insan ləyaqətinin ucalığı, şərəfsizliyin rəzalətləri daha qabarıq görünür. Həm də belə kompozisiya qurumunda Bəhram bilərəkdən aktyor oyunlarını önə çəkir və özünün hər hansı fəlsəfi-psixoloji qənaətlərini ifaçıların oyunlarında «əritməyi» bacarır.

Bəhram Osmanov torpaq və insan, valideyn və övlad problemlərinin mürəkkəbliyini əqidə mövqelərində tənzimləyib. Bunun üçün o, zahirən yumorlu təsir bağışlayan hadisələrin dərin qatındakı faciə örtüyünü süjetin inkişaf xətti boyunca məharətlə qaldıraraq tamaşanın əsas ideya yükünə çevirə bilib. Həmin örtüyün arxasında ləyaqət və rəzillik, səmimiyyət və riyakarlıq, vicdani duyğu və şərəfsizlik kimi xüsusiyyətlər mübarizənin enerji nüvəsinə çevrilir.

Bəsti Cəfərova, adətən, qəhrəman rollarda çıxış edir. Aktrisa «Kaş araba aşmayaydı!..» tamaşasında övladlarını dəruni məhəbbətlə sevən, onların özlərinin və arvadlarının valideynlərinə qarşı bəzən soyuq, bəzən riyakar, bəzən rəzil münasibətlərini ürəyinə salan mürəkkəb ana obrazını oynayır. Nə yaxşı ki, rejissor aktrisaya Aqobanın arvadı Kesariya rolunu tapşırıb və biz Bəsti xanımın zəngin yaradıcılıq potensialının indiyəcən görmədiyimiz tərəfləri ilə rastlaşırıq. Səhnə ustasının mürəkkəb hadisələr dönüşündə obrazın daxili tarazlığını hərəkətlərində həssaslıqla, emosional sərrastlıqla vermək bacarığı gələcəkdə bu istiqamətdə onun daha böyük uğurlar qazanacağına güclü inam yaradır. Rol, necə deyərlər, boyuna biçildiyi üçün Bəsti Cəfərova «Afət» və «Fedra» tamaşalarında yol verdiyi qışqırıqları bu tamaşada mənalı və psixoloji, ifadəli və cazibəli ifadə vasitələri ilə əvəz edə bilib.

Bu fikir-qənaət şəksiz və şübhəsizdir ki, «Kaş araba aşmayaydı!..» tamaşasının enerji nüvəsində Aqoba Boqveradze obrazı durur. Aqoba rolunda Səyavuş Aslanın oyunu tamaşanın ən parlaq ifasıdır. Aktyor öz obrazını ilkin hadisələrdə komik, sonrakı hadisələrdə isə dramatik obraz kimi təqdim edir. Lakin aktyorun səsinin titrəyişində, gözlərindən yağan qəmdə, danışığındakı qəhərdə faciə notları çox güclüdür. Aqobanın mizanları səhnənin müxtəlif yerlərində verilib. Lakin epizodun uzaq və ya yaxınlığından, yarıqaranlıq və işıqlı verilməsindən asılı olmayaraq, Səyavuşun gözləri zülmətdən sıyrılıb çıxan ildırım kimi nurlu, ifadəli və mənalı görünür.

Həm aktyor və həm də rejissor Aqobanın ölümünün hərəkət plastikasını dürüst təqdim etmək üçün maraqlı forma, mizan və fənd tapıblar. Səksən yaşında oğlunun dünyaya gəlməsindən sevinən Aqoba çılğın rəqs edir. Yorulub kətilə oturaraq taxta söykənir. Tamaşanın əvvəlindəki kimi dalğın nəzərlərlə uzaqlara baxır və qəfildən ürəyini tutub sakitcə əbədiyyətə qovuşur. Bu məqamda Səyavuş Aslanın faciə aktyoruna məxsus daxili ehtirası, psixoloji həssaslığı, dramatizm duyumu səhnənin bütün nöqtələrindən apaydın görünür. Görünür və biz tamaşaçıları kövrəldir, hislərimizi titrədir, ehtiraslarımızı kükrədir, duyğularımızı katarsisdən keçirir.

Tamaşaçı səhnədəki bütün hadisələrə, hətta qəribə görünən mətləblərə inanır. Çünki Səyavuş Aslanın gülüş doğuran səhnə qəhrəmanının yumor ritmində gizlin, lakin həssaslıqla sezilən və təbii görünən qüssə, qəm, kədər var. Aktyor tamaşa boyu hər dəfə yeni ladda sübut edir ki, onun oyunu aktyor üçün çətin olan tragikomediya janrında da ürəyəyatımlıdır. Mövzunun və obrazın komik-satirik bədii təqdiminə uyğun olaraq, yeri gələndə, hiperboladan (bədii şişirtmədən) istifadə edib. Heyrətamiz emosionallığı onun aktyor hiperbolasını səhnədə qətiyyətlə reallaşdırır.

İncəsənət əsərləri, o cümlədən də teatr tamaşası problem həll etmir. Sadəcə olaraq incəsənət əsəri adi gözlə pərakəndə gördüyümüz problemi qabarıq şəkildə, ifadəli, tutumlu, obrazlı vasitələrlə tamaşaçılara təqdim edir. Bunu da unutmaq olmaz ki, incəsənət əsərinin əsas funksiyası heyrətləndirməyi bacarmaqdır. «Kaş araba aşmayaydı!..» tamaşası cəmiyyətimiz üçün vacib olan insan və torpaq, valideyn və övlad münasibətlərinin ən dəruni problemlərinə çıraq tutur. Bu tamaşa bizi heyrətləndirir, mürgü vuran hislərimizi oyadır və ölüm reallığının kədərində mənəvi saflığa inam nuru saçır.

Teatr Qarabağ mövzusuna müraciət edərək 16 iyunda Hüseynbala Mirələmovun «Xəcalət» dramını tamaşaya hazırladı. Bu, teatrın «Kaş araba aşmayaydı!..» tamaşasından sonra ikinci uğurlu işi idi. Quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı İsmayıl Məmmədov, bəstəkarı Səyavuş Kərimi olan tamaşa ciddi və kəskin konflikti, bitkin kompozisiyası, hadisələrin dramatizmi, psixoloji insan münasibətlərinin çağdaş səslənməsi ilə maraq doğururdu. Tamaşada Nurəddin Mehdixanlıdan

(Vətən), Mətanət Atakişiyevadan (Fərqanə), Ramiz Novruzdan (Murad), Nuranə Əhmədovadan (Gülyaz), Yaşar Nuri və Əsgər Məmmədoğludan (Kürən) ibarət maraqlı aktyor ansamblı vardı. Rejissor Bəhram Osmanov həm aktyorlarla səmərəli işləmişdi, həm də tamaşanın sürət-ritmini, enerji nüvəsini bədii reallıqla həll edə bilmişdi.

Dünya şöhrətli Norveç dramaturqu Henrik İbsenin «Oyuncaq ev» (tərcümə edəni Azad Əliyev) dramının tamaşası repertuarda az qaldı.

Quruluşçu rejissor Bəhram Osmanovun rəssam Tahir Tahirovla birgə işlədikləri tamaşanın premyerası ilin sonunda oynanıldı. Mövzunun çağdaş teatr estetikası prinsiplərində düzgün həll edilməməsinin acı nəticəsi Sənubər İsgəndərovanın (Nora Helmer), Abbas Qəhrəmanovun (Torvald Helmer), Cəfər Namiq Kamalın (Həkim Rank), Füzuli Hüseynovun (Nils Kroqstad), Mehriban Xanlarovanın (Kristina Linne), Ziba Ramazanovanın (Anne Marie) oyunlarını da İbsen ruhundan, İbsen fəlsəfəsindən uzaqlaşdırmışdı.

* * *

İnzibati dəyişmə. Bu il yanvar ayının 12-də Əliabbas Qədirov teatrın direktoru və bədii rəhbəri vəzifəsindən çıxarıldı. Bədii rəhbər vəzifəsi ləğv olundu. Direktor kürsüsünü vaxtilə bu teatrda sərəncamçı direktor işləmiş Maqbet Zeynal oğlu Bünyadov tutdu.

Baş rejissorluğa isə Xalq artisti Mərahim Fərzəli oğlu Fərzəlibəyov təyin edildi.

Truppada dəyişmə. Gənc Elnar Cəfər oğlu Qarayev dekabr ayının 2-də və teatrın keçmiş aktrisası Əminə Ağahüseyn qızı Babayeva dekabr ayının 29-da truppaya qəbul olundular.

Oktyabr ayının 25-də Rövşən Əziz oğlu Almuradlı teatra quruluşçu rejissor götürüldü.

Fəxri adlar. Bu il may ayının 16-da teatrın aktyor truppasının bir qrupuna Azərbaycan Respublikasının fəxri adları verildi.

Xalq artisti: Aktyorlar Telman Abbasqulu oğlu Adıgözəlov, Rafael Məlik oğlu Dadaşov, İlham Təvəkkül oğlu Əsgərov.

Əməkdar artist: Aktyorlar Münəvvər Sabir qızı Əliyeva, Kazım Feyruz oğlu Həsənquliyev, Rəşid Səməndər oğlu Rzayev.

Əcəl aldı... Xalq artisti Əliabbas Gülabbas oğlu Qədirov 8 mart 2006-cı ildə qan çatışmazlığından Bakıda vəfat etdi. Məzarı İkinci Fəxri xiyabandadır. Aktyor 13 fevral 1946-cı ildə Bakıda doğulub. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1965 – 1969). 1970-ci il aprel ayının 6-dan Milli Dram Teatrının aktyoru idi. 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru işləyib (2001 – 2006).

Xalq artisti, tanınmış aktyor və qiraət ustası Mikayıl Şahvələd oğlu Mirzəyev (Mikayıl Mirzə) 3 iyun 2006-cı ildə uzunsürən ürək xəstəliyindən Bakıda vəfat etdi. Məzarı İkinci Fəxri xiyabandadır. Şamaxı rayonunun Talış kəndində (indi Ağsu rayonunun ərazisindədir) doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1965 – 1969). 1976-cı il yanvarın 13-dən Akademik Milli Dram Teatrının truppasında işləyirdi.

Dramaturqlar. Jan Kokto (5.7.1889 – 11.10.1963). Fransız yazıçısı, şairi, dramaturqu, rəssamı, heykəltəraşı və librettolar müəllifi. Fransa Akademiyasının üzvü olub (1955). Fransada avanqard və modernist axının tərəfdarı idi. Bir sıra baletlərə librettolar yazıb, xeyli balet tamaşasına bədii tərtibat verib. İohan Sebastian Baxın musiqisinə yazdığı «Gənc və ölüm», Orikin musiqisinə tərtib etdiyi «Fedra» librettoları daha məşhurdur. Sürrealist izmdə «Antiqona» (Sofoklun əsəri əsasında), «Orfey», «Cəhənnəm maşını», «Müqəddəs sehrkar», «İnsan səsi» pyeslərinin müəllifidir. Bir sıra bədii film çəkib.

Otia (Otiya da yazılır) Şaloviç İoseliani (16.6.1930 – 14.7.2011). Gürcü nasiri və dramaturqudur. Bir müddət Fransada yaşayıb. «Əsgər qayıtdı» povesti, «Biri vardı, biri yoxdu, bir qadın vardı», «Qara və ağ çay» romanları, «Araba hələ aşmayıb», «Araba aşdı» dramları daha məşhurdur. Onun adlarını çəkdiyim hər iki dram əsəri Azərbaycanın müxtəlif teatrlarında oynanılıb. Akademik teatr iki əsəri birləşdirərək «Kaş araba aşmayaydı!..» adı ilə tamaşaya hazırlayıb.

Hüseynbala Fazil oğlu Mirələmov 25 iyun 1947-ci ildə Lerik rayonunun Nuravud kəndində doğulub. Lənkəran şəhərindəki 2 saylı orta məktəbi bitirib. Azərbaycan Dövlət Politexnik İnstitutunda təhsil alıb (1965 – 1970). Yaradıcılığa nəsrlə başlayıb, roman və povestləri nəşr olunub. «Vicdanın hökmü», «Yaddaş ağrısı», «Ləyaqət» «Pənah xan

Cavanşir», «Cəza quyusu» pyesləri var. Əsərləri Respublikanın bir sıra teatrlarında tamaşaya qoyulub.

Henrik İbsen (20.3.1828 – 23.5.1906). Norveç dramaturqudur və Qərbi Avropada tənqidi realizmin görkəmli nümayəndələrindən biridir. Bergendə (1852 – 1857) və Kristianidə (1857 – 1862) ilk Norveç milli teatrlarına rəhbərlik edib. Ədəbi fəaliyyətə 1848-ci ildə başlayıb. Dramlarının əksər qismi fəlsəfi-rəmzi fikir dərinliyi ilə səciyyəvidir. Müxtəlif janrlarda yazılmış «Bahadır qəbri», «Döyüşçülər Helqlandda», «Taxt-tac uğrunda mübarizə», «Pyer Günt», «Brand», «Məhəbbət komediyası», «Cəmiyyət sütunları», «Xalq düşməni», «Kabuslar», «Nora» («Kuklanın evi». Akademik teatrda «Oyuncaq evi» adı ilə oynanılıb), «Vəhşi ördək», «Hedda Habler», «İnşaatçı Solnes», «Rosmersholm», «Gənclərin ittifaqı» dramları daha məşhurdur.

Mirmehdi Seyidzadə (11.11.1907 – 30.8.1976). Azərbaycan şair və dramaturqu. Türkmənistanın Aşqabad şəhərində doğulub və ilk təhsilini İranda alıb. 1920-ci ildə ailəsi Bakıya köçüb. Əsasən, şeir və qəzəl yazıb, nəsrlə işlənən nağılları da var. Pyeslərini, əsasən, uşaqlar və gənclər üçün yazıb. «Qızıl quş», «Nərgiz», «Qorxmaz» pyesləri Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulub. Milli Dram Teatrında yalnız «Füzuli və Əsmər» pyesi oynanılıb. Bakıda vəfat edib.

2007-ci il

15 mart. «İmzanın hökmü», Tofiq Kazımov.

2 hissəli komediya.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Rafiq Abdullayev, rejissor assistenti Həmid Kazımov.

Rollarda: Əli Nur (Səməd Mənsur), Yaşar Nuri (Qazı), Telman Adıgözəlov (Həkim Şəfa), Anar Heybətov (Murad), Əminə Babayeva (Nazlı xanım), Şəlalə Şahvələdqızı (Sədəf), Sərdar Rüstəmov (Tahir), Mətləb Abdullayev (Firuz), Məmməd Zeynalov (Səlman), Elnur Qədirov (Rəhman), Rəşad Bəxtiyarov (Cəbi), İlyas Əhmədov (Cuma), Elnar Qarayev (Cəlil), Səyyar Rüstəmov (Hakim).

3 aprel. «Kvazimodo»* («Paris Notrdam kilsəsi» romanı əsasında), Viktor Hüqo. Tərcümə edəni və səhnələşdirəni Samir Qulamov.

1 hissəli faciə.

Quruluşçu rejissor Samir Qulamov, rəssam Xalidə İsmayılova, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rəqslərin quruluşçusu Pərviz Məmmədrzayev.

Rollarda: Ayşad Məmmədov (Keşiş), Aslan Şirinov və İlyas Əhmədov (Kvazimodo), Vəfa Rzayeva və Ləman İmanova (Esmeralda), Cəlal Məmmədov (Qrequar), Sərdar Rüstəmov (Baş təlxək), Ramil Zeynalov (Lüdovik və Saray əsgəri), Elnar Qarayev (Dövlət naziri), Rada Nəsibova (Qara təlxək), Mahir Mirişli (Hakim və İkinci quldur), Ramiz Zeynalov (Zindan rəisi), Firuz Xudaverdiyev (Qoca təlxək), Xuraman Əliyeva (Birinci sarışın qız və Birinci quldur), Rəna Məlikova (İkinci sarışın qız və İkinci gözətçi), Malik Məmmədov və Rasəf Mehdiyev (təlxəklər).

* *Qeyd.* Teatrın aktyoru Samir Qulamovun hazırladığı primitiv və bədii səviyyəsi çox aşağı olan tamaşada Bakının müxtəlif teatrlarının aktyorları iştirak edirdilər.

26 aprel. «Alın yazısı» («Ərmağanlı Əlməndər»), Tufan Minnullin.

2 hissəli komediya.

Tərcümə edəni və quruluşçu rejissoru Ağakişi Kazımov, rəssam Rafis İsmayılov, musiqi tərtibatçısı Səbuhi Məmmədov.

Rollarda: Hacı İsmayılov (Əlməndər), Məcnun Hacıbəyov (İsgəndər), Kübrabəyim Əliyeva və Dilarə Nəzirova (Hökümə), Hicran Nəsirova (Həmdəbanu), Məsmə Aslanqızı (Gülöyşə və Yazbikə), Aslan Şirinov (Mənsur), məktəbli Xədicə Novruzlu (İlsur), Kazım Abdullayev (Əzrayıl), Tofiq Hüseynov (Əcəl), Ləman İmanova (Məleykə).

26 may. «Son məktub», Əjdər Ol. Stefan Sveyqin «Yad qadının məktubu» novellasının motivləri əsasında.

1 pərdəli məhəbbət elegiyası.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Əsədoğlu, bəstəkar Aygün Səmədzadə.

Rollarda: Firəngiz Mütəllimova (Qadın), Ramiz Məlik (Kişi), Ələsgər Məmmədoğlu (Xidmətçi).

23 oktyabr. «Körpüdən mənzərə»*, Artur Miller. Tərcümə edəni Şaiq Cabiroğlu.

2 hissəli dram.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Bredi Helm (ABŞ), bəstəkar Səyavuş Kərimi, işıq rəssamı Rafael Həsənov, rejissor assistenti Həmid Kazımov.

Rollarda: Sabir Məmmədov (Eddi Karbone), Zemfira Nərimanova (Biatris), Məsmə Aslanqızı (Ketrin), Anar Heybətov (Rodolfo), Rövşən Kərimduxt (Marko), Kazım Abdullayev (Alferi), Elnar Qarayev (Birinci zabit), Məmməd Zeynalov (İkinci zabit).

**Qeyd.* Artur Millerin «Körpüdən mənzərə» dramının tamaşası Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin, Akademik Milli Dram Teatrının və ABŞ səfirliyinin birgə layihəsi əsasında hazırlanıb.

8 dekabr. «Uçqun» («Çığı»), Tuncər Gücənoğlu. Tərcümə edəni Dilsuz.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Ağarəhim Əliyev, bəstəkar Səyavuş Kərimi, rəqslərin quruluşçusu Pərviz Məmmədrzayev, rejissor assistenti Rafael Həsənov, rəssam köməkçiləri Sevinc Həsənova və Ayan Əliyeva (diplomçu).

Rolarda: Səidə Quliyeva (Yaşlı qadın), Telman Əliyev (Yaşlı kişi), Kazım Abdullayev (Kişi), Mətanət Atakişiyeva (Qadın), İlyas Əhmədov (Gənc kişi), Vəfa Rzayeva (Gənc qadın), İradə Həsənova (Əvəçimamaça), Sadıq İbrahimov (Baş hakim), Məzahir Cəlilov (Birinci hakim), Firuz Xudaverdiyev (İkinci hakim), Elnar Qarayev (Birinci mühafizəçi), Elnur Qədirov (İkinci mühafizəçi).

* * *

Mart ayında «İmzanın hökmü» (Tofiq Kazımov) və apreldə «Kvazimodo» (Viktor Hüqonun «Paris Notrdam kilsəsi» romanı əsasında) tamaşaları repertuara daxil oldu. «İmzanın hökmü»nü Mərahim Fərzəlibəyov (rəssam Rafiq Abdullayev), ikinci tamaşanı teatrın aktyoru Samir Qulamov (rəssam Xalidə İsmayılova) hazırlamışdılar. Tamaşalardan heç biri teatrın yaradıcılıq üslubuna uyğun gəlmirdi. Həm rejissor işi, həm də aktyor ifaları uğursuz alınmışdı. Səhnələşdirmə zamanı məşhur əsərin mövzu genişliyi və obrazların təravəti, realizm ruhu, hadisələrin ideya gücü itmişdi.

Tatar dramaturqu Tufan Minnullin «Alın yazısı» («Ərmağanlı Əlməndər». Tərcümə edəni və quruluşçu rejissor Ağakişi Kazımov, rəs-

sam Rafis İsmayılov), Əjdər Olun Avstriya ədibi Stefan Sveyqin «Yad qadının məktubu» novellasının motivləri əsasında məhəbbət elegiyası janrında yazdığı «Son məktub» (quruluşçu rejissor Bəhram Osmanov, rəssam İsmayıl Əsədoğlu, bəstəkar Aygün Səmədzadə), Amerika dramaturqu, Nobel mükafatı laureatı Artur Millerin «Körpüdən mənzərə» (tərcümə edəni Şaiq Cabiroğlu, quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Bredi Helm (ABŞ), bəstəkar Səyavuş Kərimi) əsərləri tamaşaya hazırlandı. Bu səhnə əsərlərində cazibəli aktyor ifası, fundamental rejissor işi yox idi.

Mərahim Fərzəlibəyov vaxtilə Sumqayıt teatrında Artur Millerlə eyni dövrdə yaşamış və oxşar estetik konsepsiyalarda işləyən Tennessi Uilyamsın «Arzu tramvayı» psixoloji dramına maraqlı quruluş vermişdi. O, ABŞ dramaturgiyasına, o ölkənin teatr estetikasına bələddir. Lakin «Körpüdən mənzərə» rejissorun potensial yaradıcılıq imkanlarından aşağı səviyyədə tamaşa idi.

Həmin tamaşalarla müqayisədə Bəhram Osmanovun quruluşunda və Dilsuzun tərcüməsində oynanılan «Uçqun» («Çığı». Tuncər Gücənoğlu) tamaşası bədii-estetik cəhətdən maraqlı alınmışdı. Tamaşanın rəssamı Ağarəhim Əliyev, bəstəkarı Səyavuş Kərimi idi. Kəskin psixoloji, təzadlı dramatik hadisələr üzərində qurulmuş tamaşada Səidə Quliyeva (Yaşlı qadın), Telman Əliyev (Yaşlı kişi), Kazım Abdullayev (Kişi), Mətanət Atakişiyeva (Qadın), İlyas Əhmədov (Gənc kişi), Vəfa Rzayeva (Gənc qadın), İradə Həsənova (Əvəçi-mamaça), Sadıq İbrahimov (Baş hakim) ifadəli və məzmunlu oyun göstərirdilər.

«Uçqun» tamaşası mövzusuna və ideya-bədii yükünə, mürəkkəb vəziyyətlərdə müxtəlif insan xarakterlərinə münasibətlərinə görə Akademik teatr üçün yeni görünürdü. Belə psixoloji mürəkkəblikdə aktyorların yaradıcılıq imkanları üçün meydan genişliyi yaranırdı. Quruluşçu rejissor onlara tamaşanın ali məqsədinə uyğun sərbəstlik vermişdi.

* * *

2007-ci il iyun ayının 1-də Akademik Milli Dram Teatrında Arif Mədətovun «Aylı gecə» psixoloji dramının tamaşası oldu. Tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, rəssamı Ağarəhim Əliyev

idi. Tamaşanın musiqi tərtibatında Bethovenin «Aylı gecə» sonatasından istifadə edilmişdi. Rolları AMDT-nin aktyorları Sabir Məmmədov (Ayoğlan), Almaz Amanova (Sona), Şəhla Əliqızı (Alagöz), Rövşən Kərimduxt (Səlim), Əjdər Həmidov (Dərviş) oynayırdılar. Tamaşa Azərbaycan Respublikası Milli Mədəniyyətinin Təbliği Mərkəzinin xətti ilə hazırlanmışdı və ona görə AMDT-nin repertuar planına daxil edilmədi.

Keçən ilin ikinci yarısında Gənc Tamaşaçılar Teatrının, Dövlət Kukla Teatrının, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının binaları əsaslı təmirə və yenidənqurmaya bağlandı. 2007-ci ilin fevral ayında Akademik Milli Dram Teatrı da təmirə görə öz binasında fəaliyyətini dayandırmalı idi. Ancaq bu proses uzandı və teatr 2008-ci ilin iyun ayında təmirə bağlandı. Kollektiv keçmiş kinoprokatın binasında məskunlaşdı. Sentyabr ayından məşqlər Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında və müxtəlif teatrlarda aparılırdı.

* * *

Fəxri adlar. 2007-ci il may ayının 15-də teatrın yaradıcı heyətindən iki nəfərə Azərbaycan Respublikasının fəxri adları verildi.

Əməkdar incəsənət xadimi: Rejissor Bəhram Məcid oğlu Osmanov.

Əməkdar artist: Məsməxanım Aslan qızı Ağaverdiyeva.

Dramaturqlar. Artur Miller (17.10.1915 – 2005). Amerika dramaturqudur. Nyu-Yorkda doğulub. «Bəxti gətirən adam», «Hamı mənim oğlumdur», «Kommivayejerin ölümü», «Ağır sınaq», «Damdan tullanış», «Qiymət», «Tövbədən sonra», «Dünyanın yaranması və başqa işlər», «Bu, Vişidə olmuşdur» faciə və dramları var.

Tuncər Cücənoğlu (10.4.1944). Türk dramaturqu, tərcüməçisi və rejissoru. Çorumda doğulub. Ali təhsilini Ankara Universitetinin tarix-coğrafiya fakültəsində alıb. «Boyaçı», «Yalançı axtarılır», «Qadıncıqlar», «Bir şahnaz oyun», «Yaşıl gecə», «Dosye», «Qumarbazlar», «Ziyarətçi», «Səbahəttin Əli», «Teatrçılar», «Ah, bir kasıb olsaydım» pyesləri var. Dram əsərləri dünyanın bir sıra ölkələrində oynanılıb.

Stefan Sveyq (28.11.1881 – 22.2.1942). Avstriya yazıçısı. Gimnaziyanı və Vena universitetini bitirib. Yaradıcılığa şeirlə başlayıb. Görkəmli qəhrəmanların həyatından bəhs edən əsərlər yazıb. Mariya Stüart, Onore de Balzak, Lev Tolstoy, Fyodor Dostoyevski, Stendal (əsl adı Anri Mari Beyldir) haqqında bioqrafik romanları var. «İeremiya», «Dəniz kənarında ev», «Şahmat novellası», «Amok», «İlk həyəcanlar», «Hislərin təlaşı», «Ürəyin dözümsüzlüyü», «İnsanlığın möhtəşəmlik məqamı», «Dünənki dünya», «Mariya Antuanetta», «Qadının həyatından 24 saat», «Təcavüzə qarşı vicdan», Zəfər və Erzam Rotteramskinin faciəsi» dram və nəsr əsərləri çox məşhurdur. Faşizm vəhşiliyindən sarsılaraq həyat yoldaşı ilə birlikdə Braziliyanın Petropolis şəhərində intihar edib.

Tufan Minnullin (25 avqust 1935). Tatar dramaturqu və aktyoru. Tatarıstanın Böyük Meretkazino kəndində doğulub. Moskvada Şukin adına Teatr Məktəbində (1956 – 1961), Ali Ədəbiyyat İnstitutunda (1975 – 1977) təhsil alıb. Menzeli Akademik Dram Teatrında aktyor işləyib. «Azad», «Kəndimizin adamları», «Bəxtiyar Kenkayev», «Aldermeş kəndindən dörd qoca», «İlgizar + Vera», «Basketbolçu», «Analar və övladlar», «Ay olmasa, ulduz var», «Diləfruz üçün dörd adaxlı» kimi komediya, dram və tarixi dram janrında səhnə əsərləri var.

2008-ci il

11 aprel. «Arılar arasında», Elçin.

2 hissəli istehza.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Altay Sadıqzadə, bəstəkar Fərəc Qarayev.

Rollarda: Firəngiz Mütəllimova (Qadın), Cəfər Namiq Kamal (Ər), Elşən Cəbrayılov (Topuş), Şəhla Əliqızı (Zulya), Münəvvər Əliyeva (Lyalya), Rəşad Bəxtiyarov (Caba), Şükufə Yusupova və Mətanət Atakişiyeva (Dayə), Nurəddin Mehdixanlı (Baba).

30 may. «Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə.

2 hissəli komediya.

Quruluşçu rejissor İlham Əsgərov, rəssam Nazim Bəykişiyev, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rəqslərin quruluşçusu Pərviz Məmmədrzayev.

Rollarda: Rafael Dadaşov (Hatəmxan ağa), Bəsti Cəfərova (Şəhrəbanu xanım), Sabir Məmmədov və Elşən Cəbrayılov (Müsyö Jordan), Anar Heybətov (Şahbaz bəy), Mehriban Xanlarova (Şərəfnisə xanım), Ziba Ramazanova və Xədicə Novruzlu (Gülçöhrə), Hicran Nəsirova (Xanpəri), Telman Adıgözəlov (Dərviş Məstəlişah), Rəşad Bəxtiyarov (Qulaməli), Elnur Qədirov (Yasavul), Malik Məmmədov (Qaravaş), Xuraman Əliyeva, Samirə Məmmədova və Güney Əkbərova (Firəng xanımları).

* * *

Qastrol. 16 – 22 aprel. Teatr Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində Əli Əmirlinin «Mesenat» və Elçinin «Arılar arasında» əsərlərinin tamaşaları ilə qastrolda olub. Bu qastrol iki ölkə arasında əməkdaşlıq çərçivəsində təşkil edilib.

20 – 30 oktyabr. Teatr Türkiyənin Ankara, Konya və Tarsus şəhər bələdiyyələrinin dəvəti ilə orada Elçinin «Arılar arasında» pyesinin tamaşasını göstərib.

Əcəl aldı... Akademik Milli Dram Teatrının aparıcı aktyorlarından olan, Xalq artisti Kamal Ağahüseyn oğlu Xudaverdiyev 23 aprel 2008-ci ildə Bakıda vəfat etdi. O, 3 may 1938-ci ildə Bakıda doğulub. Bakıda müxtəlif dram dərnəklərinə gedib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1961 – 1965). Ali təhsilini başa vurandan ömrünün sonuna qədər Akademik Milli Dram Teatrının truppasında çalışıb.

Təmir. 2008-ci il iyun ayının 6-da teatrda iclas keçirildi. Kollektivin direktoru Maqbet Bünyadov rəsmi elan etdi ki, sabahdan teatra bir-iki inzibati işçidən başqa heç kəs buraxılmayacaq. Teatr sentyabr ayından fəaliyyətini Dənizçilər klubunda davam etdirəcək. İlkin məlumata görə, əsaslı təmir və bütün texnalogiyaların yenidən qurulması müddəti 23 ay çəkəcək. Sonradan teatrın rəhbərliyi keçmiş kinoprokatın binasına köçdü («Naxçıvan» otelinin yanı). Kollektivin əsas məşqləri kinostudiyanın binasında aparıldı.

«Kaş araba aşmayaydı!..», Otia İoseliani.
Aqoba Boqveradze – Səyavuş Aslan. 2006-cı il

«Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə.
Soldan: Şahbaz bəy – Anar Heybətov, Hatəmxan ağa – Rafael Dadaşov
və Müsyö Jordan – Sabir Məmmədov. 2008-ci il

2009-cu il

16 aprel. «Şeyda»*, Hüseyn Cavid.

2 hissəli faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Ağarəhim Əliyev, geyim rəssamı Aygün Mahmudova, bəstəkar Eldar Mansurov, məsləhətçi professor Nizami Cəfərov.

Rollarda: Sabir Məmmədov (Şeyda Rəmzi), Sadıq İbrahimov və Mirzə Ağabəyli (Məcid Əfəndi), Dilarə Nəzərova (Mariya), Məsmə Aslanqızı və Samirə Məmmədova (Roza), Anar Heybətov (Əşrəf), Hacı İsmayılov (Maks Miller), Rövşən Kərimduxt (Qara Musa), Kazım Abdullayev (Rauf), Elnar Qarayev (Məsud), Sevinc Əliyeva (Mələk), Aslan Şirinov (Yusif), Məcnun Hacıbəyov və Əlvida Cəfərov (Məzarçı), Əminə Babayeva (Kor qadın), Sərdar Rüstəmov (Birinci kor kişi), Firuz Xudaverdiyev (İkinci kor kişi).

**Qeyd.* «Şeyda» tamaşasının premyerası Opera və Balet Teatrının binasında oynanıldı.

8 iyun. «Sevən qadın»*, Əli Əmirli.

2 hissəli məhəbbət oyunu.

Quruluşçu rejissor Bəhram Osmanov, rejissor Rövnəq Həsənzadə, rəssam Sevinc Həsənova, musiqi tərtibatçısı Elşad Şabanov.

Rollarda: Sənubər İsgəndərova (Elmina), Füzuli Hüseynov (Qalib və Müxbir), Laləzar Mustafayeva (Mina), Mehriban Xanlarova (Şölə).

**Qeyd.* «Sevən qadın» tamaşası Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binasında göstərilib.

23 dekabr. «Tələ», Aqata Kristi. Tərcümə edəni Şaiq Cabiroğlu.

2 hissəli dedektiv.

Quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Xalidə İsmayılova, bəstəkar Aydın Əzimov.

Rollarda: Sənubər İsgəndərova (Molli Relston), Elxan Quliyev (Çayls Relston), Zərnigar Ağakişiyeva (Missis Boyl), Ramiz Mələk (Mayor Metkaf), Vəfa Rzayeva (Miss Keysuel), Rafiq Əzimov (Mister Paraviçini), Abbas Qəhrəmanov (Serjant Trotter), Mətləb Abdullayev (Kristofer Ren).

«Şeyda», Hüseyn Cavid.
Soldan: Qara Musa –
Rövşən Kərimduxt
və Məcid Əfəndi –
Mirzə Ağabəyli.
2009-cu il

«Sevən qadın», Əli Əmirli.
Elmina –
Sənubər İsgəndərova.
2009-cu il

29 dekabr. «Tülkü, tülkü, tümbəki…»,* Xanım Həsənova.

Xalq nağılları əsasında 2 hissəli nağıl-tamaşa.

Quruluşçu rejissor Vaqif İbrahimoğlu, rejissor və elmi məsləhətçi Rasim Aşın, rəssam İlham Elxanoğlu, musiqi tərtibatçısı Səbuhi Məmmədov, rəqslərin quruluşçusu Nigar Güləhmədova.

Rollarda: Rəşad Bəxtiyarov (Tülkü lələ), Elnur Qədirov (Çaqqal), Rauf Əhmədov (Ayı) tələbə Toğrul Kamalov (Qurd), tələbə Güney Əkbərova (Durna balası), Şəhla Əliqızı (Ana dovşan), Rada Nəsibova (Dovşancıq), tələbə Ruqiyyə Kərimova (Tısbağa), Şələlə Şahvələdqızı (İlan), Elnar Qarayev (Şiraslan), Nigar Güləhmədova (Beştelli durna).

**Qeyd.* «Tülkü, tülkü, tümbəki…» tamaşasının premyerası Aktyor evində oynanılıb.

* * *

Binasızlıq teatrın fundamental və konseptual planlar əsasında işləməsinə əngəl törədirdi. Tamaşalar müxtəlif binalarda göstərilirdi. Hər teatrın da səhnə ölçüləri fərqli olduğuna görə tərtibatın özəllikləri itirdi. Hətta bəzən dekorasiyalar adi asma pərdələrlə əvəzlənirdi.

Çətinliklərə baxmayaraq, teatr 2009-cu ildə Hüseyn Cavidin «Şeyda» (quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam Ağarəhim Əliyev, geyim rəssamı Aygün Mahmudova, bəstəkar Eldar Mansurov), Əli Əmirlinin «Sevən qadın» (quruluşçu rejissor Bəhram Osmanov, rejissor Rövnəq Həsənzadə, rəssam Sevinc Həsənova), Şaiq Cabiroğlunun tərcüməsində Aqata Kristinin «Tələ» (quruluşçu rejissor Əsgər Əsgərov, rəssam Xalidə İsmayılova, bəstəkar Aydın Əzimov) tamaşalarını hazırlaya bildi.

«Şeyda»da Sabir Məmmədov (Şeyda Rəmzi), Mirzə Ağabəyli (Məcid Əfəndi), Dilarə Nəzərova (Mariya), Məsmə Aslanqızı (Roza), Anar Heybətov (Əşrəf), Hacı İsmayılov (Maks Miller), Rövşən Kərimduxt (Qara Musa), Kazım Abdullayev (Rauf), «Sevən qadın»da Sənubər İsgəndərova (Elmina) və Füzuli Hüseynov (Qalib və Müxbir), «Tələ»də Zərnigar Ağakişiyeva (Missis Boyl), Abbas Qəhrəmanov (Serjant Trotter), Ramiz Məlik (Mayor Metkaf) müəyyən aktyor uğurları əldə etmiş maraqlı ifadə vasitələrini göstərməyə nail olmuşdular. Ancaq tamaşalar, ümumən, orta səviyyəli səhnə əsəri təsiri bağışlayırdı.

«Şeyda» poetik teatr estetikasına cavab vermirdi. Tamaşada Hüseyn Cavid romantizminin vüsəti hiss olunmurdu. Konfliktin ictimai-sosial, bəzi epizodlarda, hətta siyasi-psixoloji mahiyyəti daha çox məişətçilik intriqaları səviyyəsinə endirilmişdi.

«Tələ»nin detektiv ovqatı bir qədər zəif dramatizmlə verilmişdi. Gözlənilməz epizodlar arasındakı psixoloji əlaqə bağlarında zəiflik və qırıqlıq vardı.

«Sevən qadın»da müəyyən dramaturji hadisələr maraq doğururdu. Obrazların psixoloji dönüşlərində güclü dramatizm vardı. Ancaq ictimai-sosial motivlərin ikinci plana keçirilməsi əsərin psixoloji enerji gücünü zəiflətmişdi.

Sözsüz ki, çatışmazlıqların və nöqsanların kökündə binasızlıq amili də mühüm rol oynayırdı.

* * *

Qastrol. Yanvar ayının 20-dən 30-na kimi Teatr Türkiyənin Ankara və Kayseri şəhərlərində xüsusi dəvətlə qastrolda oldu. Qastrol təşkilatçılarının istəyi ilə Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» dramının tamaşası göstərildi.

20 – 24 aprel. Kollektiv Türkiyənin Konya şəhərində keçirilən «İki min nəfəs, bir səs» Uluslararası Türkcə Teatr Yapanlar Festivalına dəvət aldı. Burada türk dramaturqu Tuncər Cücənoğlunun «Uçqun» pyesinin tamaşası göstərildi.

16 – 23 iyun. Sənət ocağı Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» dramının tamaşası ilə Türkiyənin Tarsus, Mərsin, Adana, Ceyhan şəhərlərində qastrolda oldu. Qastrol «Türk dünyası Teatr Günləri» çərçivəsində keçirildi

Truppada dəyişmə. Aktrisa Ziba Şaban qızı Ramazanova ailəsi ilə Türkiyəyə köçdüyü üçün 2009-cu il yanvar ayının 5-də ərizə yazıb işdən çıxdı.

Atababa İsmayıl oğlu Hacıbabəyov noyabr ayının 9-da teatr ədəbi hissə müdiri vəzifəsinə işə götürüldü.

Elnur Nüsrət oğlu Qədirov yanvar ayının 30-da, vaxtilə bu kollektivdə işləmiş Mirzə Qasım oğlu Ağabəyli mart ayının 10-da truppaya aktyor qəbul olundular.

Fəxri adlar. 2009-cu il may ayının 5-də teatrın yaradıcı heyətindən bir qrup Azərbaycan Respublikasının fəxri adları ilə təltif olundular.

Əməkdar incəsənət xadimi: Rejissor Əsgər Əkbər oğlu Əsgərov.

Əməkdar aritst: Aktyorlar Abbas Əhməd oğlu Qəhrəmanov, Tofiq Əbdürrəhim oğlu Hüseynov, Elşən Şahin oğlu Cəbrayılov, Füzuli İsmət oğlu Hüseynov.

2009-cu il iyul ayının 30-da teatrın aktyoru Mirzə Qasım oğlu Ağabəyli (Ağayev) Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

Əcəl aldı... 2009-cu il avqust ayının 2-də Xalq artisti Elxan Ağahüseynoğlu (Elxan Ağahüseyn oğlu Hüseynov) Bakıda vəfat etdi. O, 8 dekabr 1942-ci ildə Bakıda doğulub. Bakı Mədəni-Maarif Texnikumunda oxuyanda (1960) Akademik Milli Dram Teatrının yardım heyətinə qəbul edilmişdi. 1967 – 1971-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsində təhsil alıb. Tələbə vaxtı da Akademik teatrda işləyib və ömrünün sonuna kimi bu kollektivdən ayrılmayıb.

Dramaturq. Aqata Kristi (Aqata Meri Klarissa Mallouen. 15.9.1890 – 12.1.1976). İngilis yazıçısı. Məşhur Miller nəslindəndir. Aqata birinci ərinin soyadıdır. İngiltərənin Torki şəhərinin Devon qraflığında doğlulub. Detektiv janrında məşhur roman, hekayə və pyesləri var. İncil və Şekspirdən sonra İngiltərədə ən çox nəşr olunan ədibdir. 60 detektiv, 6 psixoloji roman, 16 pyes, 19 hekayələr toplusunun müəllifidir. «Tələ», «Ana arı», «Ölümlə görüş», «Gizli rəqib», «Nildə ölüm», «Əlahiddə nimçədə yağ», «Dəfndən sonra», «Şərq ekspresində qətl», «Günəş altında», «On zənci balası», «Şəxsi zəng», «Və heç kim qalmadı», «Sonsuz gecə», «Qara qəhvə» əsərləri teatrlarda oynanılıb. Ədəbi irsi dünyanın bir çox dillərinə tərcümə edilib.

2010-cu il

7 iyun. «Oğru cənnətdə, yaxud Vinçenso de Pretore»*, Eduardo de Filippo. Tərcümə edəni Naidə İsmayılzadə.

2 hissəli satira.

Quruluşçu rejissor Xatirə Şirəliyeva (diplomçu), rəssam Mustafa Mustafayev, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quru-

luşçusu Xanımana Haşımova, tamaşanın bədii rəhbəri Bəhram Osmanov.

Rollarda: Anar Heybətov (Vinçenso de Pretore), Vəfa Rzayeva (Ninuççа), Cəfər Namiq Kamal (Don Çiro və Həkim), İradə Həsənova (Qapıçı, Müqəddəs Məryəm, Yaşlı qadın və Kübar qadın), Kazım Abdullayev (Polis briqadiri), Məzahir Cəlilov (Müqəddəs İosif), Telman Əliyev (Pyotr və Pencəksiz kişi), Ələsgər Məmmədoğlu (Qurbanolduğum), Elnur Qədirov (Pizzasatan, Susatan, Polis, 1-ci sanitar), Rəşad Bəxtiyarov (Yumurtasatan, Gülsatan, Polis, Müqəddəs İoaxim), Kazım Həsənquliyev (Bank işçisi və 2-ci sanitar).

**Qeyd.* Premyera Gənc Tamaşaçılar Teatrının binasında oynanılıb.

* * *

Teatrda inzibati dəyişmələr olduğu üçün təbii ki, yeni rəhbərliyin yaradıcılıq konsepsiyası da təqdim edilməliydi. Onun üçün isə müəyyən vaxt lazım idi. Belə vəziyyətdə teatr yalnız bir tamaşa oynadı. «Oğru cənnətdə, yaxud Vinçenso de Pretore» (Eduardo de Filippo. Tərcümə edəni Naidə İsmayılzadə) tamaşası Gənc Tamaşaçılar Teatrının binasında göstərildi. Tamaşaya quruluşu diplomçu Xatirə Şirəliyeva vermişdi. Rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Xanımana Haşımova olan tamaşanın bədii rəhbəri Bəhram Osmanov idi.

Şən və şux gülüş üzərində qurulmuş komediya səhnədə yüksək estetik təqdimini tapmadı. Rejissor karnaval teatr estetikası ilə İtalyan Del Arte Teatr poetikasının vəhdətini yarada bilməmişdi. Digər ifaçılarla müqayisədə Anar Heybətovun (Vinçenso de Pretore) ekssentrik oyunu, Vəfa Rzayevanın (Ninuççа) çılğın ifası, Cəfər Namiq Kamalın (Don Çiro və Həkim) məişət kontekstində ifadəli və cazibəli görünən təqdimatı tamaşaya dinamiklik verirdi.

* * *

İnzibati dəyişmə. 13 mayda teatrın direktoru Maqbet Bünyadov və baş rejissor Mərahim Fərzəlibəyov vəzifəsindən çıxarıldılar. İsrafil İsrafilov teatra direktor təyin edildi, baş rejissor yeri isə boş qaldı.

Truppada dəyişmə. 2010-cu ildə teatrın rejissorları müqavilə sisteminə keçdilər. Ona görə də Azər Paşa Nemət (12 avqust), Mərahim Fərzəlibəyov (30 dekabr), Ağakişi Kazımov (30 dekabr), Bəhram Osmanov (30 avqust), Mehriban Ələkbərzadə (7 oktyabr), Əsgər Əsgərov (30 dekabr) ərizə yazıb işdən çıxdılar.

Aktrisa Kübra Ağa qızı Əliyeva bu il dekabr ayının 30-da ərizə yazıb işdən çıxdı.

Səadət İdris qızı Mirzəzadə iyun ayının 16-da musiqi hissə müdiri vəzifəsinə işə götürüldü.

Əcəl aldı... Azərbaycan Respublikasının Xalq artisti Telman Adıgözəlov 2010-cu il aprel ayının 15-də qəflətən vəfat etdi. Telman Abbasqulu oğlu Adıgözəlov 17 iyul 1953-cü ildə Balakən rayonunda doğulub. «Azərbaycanfilm» kinostudiyasının nəzdində qüdrətli teatr xadimi Ədil İsgəndərovun rəhbərlik etdiyi üçillik kino aktyorluğu kursunu bitirib. 1971–1975-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda kino aktyorluğu fakültəsində təhsil alıb. İncəsənət İnstitutunun Tədris teatrında işləyib. 22 sentyabr 1980-ci ildən Akademik Milli Dram Teatrının aktyor truppasında çalışırdı.

Əməkdar artist, həm baş qəhrəman, həm epizod, həm də xarakterik rollar oynayan Sadıq İbrahimov 20 avqust 2010-cu ildə qəflətən vəfat etdi. Sadıq Əliabbas oğlu İbrahimov 23 dekabr 1945-ci ildə Bakıda doğulub. Səhnəyə məktəbli olanda, 1961-ci ildə çıxıb. 1966-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsində oxuyub (1966 – 1970). 1970-ci il oktyabr ayının 6-da təyinatla Akademik teatrın truppasına aktyor götürülüb və ömrünün sonuna kimi bu kollektivdə çalışıb.

Bina problemi. Oktyabr ayının 7-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev teatrın təmiri sona çatmış binasına qəbul etdi. Ancaq «Mir» telekanalının binasında yerləşən kollektiv doğma yerinə 17 yanvar 2011-ci ildə qayıtdı.

Bu il dekabr ayının 30-da nazirliyin şifahi göstərişinə əsasən teatrın direktoru İsrafil İsrafilovun əmri ilə aktyor truppası bütünlüklə işdən azad edildi. Əmrdə yazılmışdı ki, iki ay müddətində rəhbərlik yeni truppanı formalaşdırmalıdır. Mədəniyyət və Turizm Nazirliyi teatrın direktorunun qərarını mətbuatda açıq şəkildə dəstəkləmişdi.

Dramaturq. Eduardo de Filippo (24.5.1900 – 31.10.1984). İtaliya dramaturqu. Neapolda doğulub və Romada vəfat edib. Məşhur neopoltin aktyoru Eduardo Skapettinin kəbinsiz oğludur. 1981-ci ildə İtaliyanın prezidenti Alessandro Pertininin sərəncamı ilə ömürlük senator təyin olunub. «Kabuslar», «Silindr», «Filumeno Marturano», «Kupelloda yeni il», «İmtahan heç vaxt bitmir», «Şənbə, bazar, bazar ertəsi», «Mənim ailəm» pyeslərini yazıb. Komediyaları dünyanın əksər ölkələrində tamaşaya qoyulub.

2011-ci il

10 mart. Bərpa. «Qarabağnamə»* («Hökmdar və qızı»), İlyas Əfəndiyev.

2 hissəli faciə.

Quruluşçu rejissor Mərahim Fərzəlibəyov, rəssam İsmayıl Məmmədov, geyim rəssamı Aygün Mahmudova, musiqi tərtibatçısı Həmid Kazımzadə, işıq üzrə rəssam Rafael Həsənov.

Rollarda: İlham Əsgərov və Kazım Abdullayev (İbrahim xan), Məsmə Aslanqızı (Ağabəyim ağa), Rafiq Əzimov və Mirzə Ağabəyli (Axund Mir Möhsün ağa), Firəngiz Mütəllimova və Sevil Xəlilova (Tubu xanım), Vəfa Rzayeva və Şəhla Əliqızı (Səltənətbəyim), Kazım Həsənquliyev və Sərdar Rüstəmov (Əbülfət xan), Sabir Məmmədov və Rövşən Kərimduxt (Saday bəy), Ramiz Məlik və Abbas Qəhrəmanov (Cavad xan), Əli Nurzadə və Pərviz Bağırov (Kəlbəli xan), Hacı İsmayılov və Telman Əliyev (Məhəmməd xan), Anar Heybətov və İlyas Əhmədov (Hüseynqulu xan), Ramiz Novruzov və Elxan Quliyev (Sisyanov), Elşən Cəbrayılov və Aslan Şirinov (Lisanoviç), Azər Mirzəyev və Əjdər Həmidov (Vanya koxa), Əminə Babayeva və Nigar Güləhmədova (Haykanuş), Rəşad Bəxtiyarov (Birinci əsgər), Elnur Qədirov (İkinci əsgər), Şəlalə Şahvələdqızı (Cariyə), Rada Nəsibova (Bəyim), Elnar Qarayev (Çapar).

**Qeyd.* Martın 11-də və 12-də də həmin səhnə əsəri oynanıldı. Bu, İlyas Əfəndiyevin 1996-cı il dekabr ayının 15-də Akademik teatrda hazırlanmış «Hökmdar və qızı» dramının, əsasən, bərpa zəminində işlənmiş və bir qədər dəyişdirilmiş quruluşu idi. Bərpa-işləməni

quruluşçu rejissor Mərahim Fərzəlibəyov özü edirdi. Əksər ifaçılar dəyişmişdilər. Tamaşanın adı da dəyişdirilib «Qarabağnamə» kimi verilmişdi. Əvvəlki quruluşda oynayanlardan Əliabbas Qədirov (İbrahim xan), Həsən Məmmədov (Axund Mir Möhsün ağa), Bürcəli Əsgərov (Cavad xan), Elxan Ağahüseynoğlu (Lisanoviç), Şahin Cəbrayılov (Məhəmməd xan), Aqşin Vəlixanov (Sisyanov) dünyalarını dəyişmişdilər. Tubu xanımın ifaçısı Safurə İbrahimova xəstə olduğu üçün bir neçə ildir səhnəyə çıxmırdı. Kəlbəli xanı və Petyanı oynayanlar Məcnun Hacıbəyovla Nəcəf Həsənzadə, Haykanuş rolunun ifaçıları Kübrabəyim Əliyeva və Xalidə Şərifova isə teatrın truppasından ayrılmışdılar. Bu rollar təzə ifaçılara tapşırılmışdı. Tərtibat, əsas mizanlar olduğu kimi qalmışdı, ancaq əsərin adı dəyişdirilib «Qarabağnamə» qoyulmuşdu.

19 mart. Bərpa. «Lənkəran xanının vəziri»*, Mirzə Fətəli Axundzadə. Tamaşa Mirzə Fətəli Axundzadəninn 200 illiyinə həsr olunur.

2 hissəli komediya.

Quruluşçu rejissor Vaqif İbrahimoğlu, rejissor Tural Mustafayev, rəssam Rəşid Şerif, bəstəkar Səyavuş Kərimi, rəqslərin quruluşçuları Zakir Ağayev və Yelena Ağayeva.

Rollarda: Nurəddin Mehdixanlı (Lənkəran xanı), Cəfər Namiq Kamal (Vəzir Mirzə Həbib), Mətanət Atakişiyeva və Əminə Babayeva (Pəri xanım), Şəhla Əliqızı və Münəvvər Əliyeva (Ziba xanım), Şəlalə Şahvələdqızı və Rada Nəsibova (Şölə xanım), Həcər Ağayeva və İlahə Həsənova (Nisə xanım), Sabir Məmmədov və Hikmət Rəhimov (Teymur ağa), Məzahir Cəlilov və Vüsal Mustafayev (Hacı Salah), Elxan Quliyev (Ağa Bəşir), Aslan Şirinov (Fərraş Heydər), Əli Nur və Tofiq Hüseynov (Mehtər Kərim), Nigar Güləhmədova (Xacə Məsud Qara), Firuz Xudaverdiyev (Səlim bəy), Elnar Qarayev (Qədir bəy), Kazım Həsənquliyev və Telman Əliyev (Səməd bəy), Elnur Qədirov (Əziz ağa), Mətləb Abdullayev (Riza bəy), Mirzə Ağabəyli (Əhəd bəy), Rəşad Bəxtiyarov (Birinci və Dördüncü ərizəçi), İlyas Əhmədov (İkinci və Üçüncü ərizəçi), Əlvida Cəfərov (Beşinci ərizəçi), Ayşad Məmmədov (Xanın saray şairi), Fatimə Həmidova (Rəqqasə).

**Qeyd.* «Lənkəran xanının vəziri» tamaşası 13 noyabr 1999-cu ildə göstərilib. Əvvəlki tamaşada əsas rolları İlham Namiq Kamal

(Lənkəran xanı), Laləzar Mustafabəyli (Ziba xanım), Zemfira Nərimanova (Şölə xanım), Sənubər İsgəndərli (Nisə xanım), Zərnigar Ağakişiyeva (Pəri xanım) ifa edirdilər. Bərpada tamaşaya Saray şairi obrazı əlavə edilmişdir.

11 may. «Teleskop», Elçin.

2 hissəli tragikomediya.

Quruluşçu rejissor Kamran Şahmərdan, tərtibatçı rəssam Eduard Koçergin (Rusiyanın Xalq rəssamı), geyim rəssamı Anna Koçergina, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçuları Zakir Ağayev və Yelena Ağayeva.

Rollarda: Məmməd Səfa və Füzuli Hüseynov (Kişi), İlahə Həsənova və Şəhla Əliqızı (Qadın), Ramiz Novruz və Rafiq Əzimov (Cənab Cəbrayıl), Kazım Abdullayev və Rövşən Kərimduxt (Cənab Cəbrayıl), Hacı İsmayılov və Əli Nur (Cənab İsrail), Əjdər Həmidov və Mirzə Ağabəyli (Cənab Əzrayıl), Sevinc Əliyeva, Şəlalə Şahvələdqızı, Rada Nəsibova, Nigar Güləhmədova, Rəşad Bəxtiyarov, Elnar Qarayev, Elnur Qədirov və Vüsal Mustafayev (ruhlar), Güney Əkbərova və Məhsəti Tahirzadə (mələklər), Sənubər İsgəndərova və Münəvvər Əliyeva (Arvad), Şükufə Yusupova və Hicran Nəsirova (Qayınana), Elşən Cəbrayılov və Aslan Şirinov (Oğul), Məsmə Aslanqızı və Güney Əkbərova (Qız), Sabir Məmmədov və Ayşad Məmmədov (Dost), Şəlalə Şahvələdqızı, Mətanət Atakişiyeva və Ləman İmanova (Xanım), Elxan Quliyev və Elşən Rüstəmov (Həkim), Almaz Amanova və Dilarə Nəzirova (Şəfqət bacısı).

5 iyun. «On ikinci gecə və yaxud hər nə istəsəniz»*, Uilyam Şekspir. Tərcümə edəni Mirzə İbrahimov.

2 hissəli komediya.

Quruluşçu rejissorlar Vüqar və Fərid Əhmədovlar, tərtibatçı rəssam Fərid Əhmədov, geyim rəssamları İnna İvanova və Olqa Şabanova, rəqs quruluşçuları Günay Mikayılova və Fərid Həsənov, səhnə döyüşü Rauf Zeynalov, rejissor assistenti Ceyran Həsənova. Tamaşanın bədii rəhbəri Azər Paşa Nemət.

Rollarda: Elşən Rüstəmov (Orsino), Anar Heybətov (Sebastian), Qasım Nağı (Antoni), Tural Əzizov (Ser Tobi Belç), Vüsal Murtuzəliyev (Ser Endrü Egüçyik), İlkin Mehdiyev (Malvolio), Rəşad Bəxti-

yarov (Fasti), Məsmə Aslanqızı (Oliviya), Ellada Əhmədova (Viola), Nigar Güləhmədova (Mariya), Fəridə Əliyeva (Culiya).

**Qeyd.* Bu tamaşa Azərbaycan Teatr Xadimləri İttifaqı ilə Akademik Milli Dram Teatrının birgə layihəsi əsasında hazırlanıb. Ona görə Azər Paşa Nemətin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti aktyorluq fakültəsində kurs rəhbəri olduğu məzunlar da tamaşada iştirak ediblər. Onların bir qismi bu tamaşanı vaxtilə diplom işi kimi oynayıblar.

17 iyun. «Qatarın altına atılan qadın», Afaq Məsud.

2 hissəli tragikomediya

Quruluşçu rejissor Mehriban Ələkbərzadə, rəssam Nazim Bəykişiyev, bəstəkar Vüqar Camalzadə.

Rollarda: Gənc Tamaşaçılar Teatrının aktrisası Kəmalə Hüseynova (Gültəkin Sarabskaya)*, Cəfər Namiq Kamal (Xasay Dilgir), Elxan Quliyev və Pərviz Bağırov (Nəzarətçi), Hicran Nəsirova və Əminə Babayeva (Tumsatan), Rəşad Bəxtiyarov və Elnur Qədirov (Qəzetsatan), Elnar Qarayev və Sərdar Rüstəmov (Dilənçi), Kazım Abdullayev (Rejissor), Şəhla Əliqızı (Rejissor köməkçisi), Rəşad Bəxtiyarov, Elnur Qədirov, Elnar Qarayev, Sərdar Rüstəmov, Vüsal Mustafayev, Elçin Əhmədov, Güney Əkbərova, Məhsəti Tahirzadə və Validə Qədimova (aktyorlar, fəhlələr, sərnişinlər).

**Qeyd.* Gültəkin Sarabskaya rolunu Zərnigar Ağakişiyeva, sonra Laləzar Mustafayeva məşq etdilər. Lakin rejissorla fikir ayrılıqlarına görə onlar roldan imtina etdilər. Kəmalə Hüseynova Gənc Tamaşaçılar Teatrından dəvət edildi.

13 iyul. «Kabuslar», Eduardo de Filippo. Tərcümə edəni Nicat Kazımov.

Quruluşçu rejissor Nicat Kazımov, rəssam Elşən Sərxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Sənan Hüseynli.

Rollarda: Ayşad Məmmədov (Paskuale), Münəvvər Əliyeva, Kəmalə Hüseynova və Həcər Ağayeva (Mari), Elşən Rüstəmov və Rövşən Kərimduxt (Alfredo), Laləzar Mustafayeva (Armida), Məsmə Aslanqızı (Arturo), məktəbli Xədicə Novruzova (Silviya), Rəşad Bəxtiyarov (Rafaello), Sevinc Əliyeva və Şəhla Əliqızı (Karmella), Aslan Şirinov (Qastone), Rafiq Əzimov (Professor), Mətləb Abdullayev

«Mesenat», Əli Əmirli.
Hacı Zeynalabdin
Tağıyev –
Nurəddin Mehdixanlı.
2011-ci il



«Qadın məhəbbəti»,
Viktor Hüqo.
Kraliça –
Məleykə Əsədova.
2011-ci il



«Qatarın altına atılan
qadın», Afaq Məsud.
Xasay Dilgir –
Cəfər Namiq Kamal.
2011-ci il

(Ferdinand), Elnur Məmmədov (Toto), Vüsal Mustafayev (İspan qrandı), Rada Nəsibova və Nigar Güləhmədova (Məşuqə), Elçin Əhmədov (Kavaler).

9 oktyabr. «Qanlı Nigar», Sadıq Şendil. Türkcədən tərcümə edəni Vaqif İbrahimoğlu.

2 hissəli əyləncəli rəvayət.

Quruluşçu rejissor Namiq Ağayev, rəssam Ramin Bəykişiyev, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Rimma Məmmədova.

Rollarda: Firəngiz Mütəllimova (Nigar), Rafael Dadaşov (Agah), Ayşad Məmmədov və Rəşad Bəxtiyarov (Abdi), Elşən Cəbrayılov (Narçın), Rada Nəsibova (Bədidə), İlahə Həsənova (Nədidə), Sevinc Əliyeva (Bacı), Tofiq Hüseynov (Laz), Əli Nur (İstinyeli), Ələsgər Məmmədoğlu, Məzahir Cəlilov və Firuz Xudaverdiyev (Əcəm).

2 noyabr. «Boy çiçəyi», İlyas Əfəndiyev.

2 hissəli lirik dram.

Tamaşanın müəllifi, rejissoru və rəssamı Azər Paşa Nemət, musiqi tərtibatçısı Paşa Zəfəroğlu, rejissor assistenti Anar Sadıqov.

Rollarda: Fuad Poladov (Həsənzadə), Şükufə Yusupova (Xurşud xanım), Məsmə Aslanqızı (Nargilə), Hicran Nəsirova və Almaz Amanova (Nəzakət), Əjdər Həmidov və Sabir Məmmədov (Fərəc), Elnar Qarayev (Fərəcov), Fəridə Əliyeva (Surik), Əlif Cahangirov (Rəşidin səsi).

27 noyabr. «Xanuma», Avqsenti Saqareli. Tərcümə edəni Tələt Əyyubov.

2 hissəli musiqili parodiya.

Quruluşçu rejissor Mikayıl Mikayılov, rəssam Mustafa Mustafayev, bəstəkar Tofiq Quliyev, musiqi rəhbəri Fəxrəddin Kərimov, rəqslərin quruluşçuları Zakir və Yelena Ağayevalar, vokal üzrə məşqçi Zeynəb Safina.

Rollarda: Bəsti Cəfərova (Xanuma), Mətanət Atakişiyeva (Kobato), Ramiz Novruz və Cəfər Namiq Kamal (Knyaz), Elşən Cəfərov (Kote), Zemfira Nərimanova və Şəlalə Şahvələdqızı (Tekle), Hacı İsmayılov və Ələsgər Məmmədoğlu (Timote), Kazım Abdullayev (Makar Tkvilotiaşvili), Məsmə Aslanqızı və Həcər Ağayeva (Keto),

Elşən Rüstəmov (Niko), Səidə Quliyeva və İradə Həsənova (Makarın anası), Firuz Xudaverdiyev (Qoca knyaz), Elnar Qarayev, Elnur Qədirov, Vüsal Mustafayev, Hikmət Rəhimov, Elçin Əhmədov və Əlləz Əhmədov (kintolar).

24 dekabr. «Qadın məhəbbəti», Viktor Hüqo. Tərcümə edəni Mehdi Məmmədov.

2 hissəli Şekspirsayağı dram.

Quruluşçu rejissor Gümrah Ömər, rəssam Ramin Bəykişiyev, musiqi tərtibatçısı Həmid Kazımzadə.

Rollarda: Məleykə Əsədova (Kraliça), Cəfər Namiq Kamal (Vali), Sabir Məmmədov və Kazım Həsənquliyev (Fəhlə), Elşən Rüstəmov və Hikmət Rəhimov (Məşuq), İlahə Həsənova və Şəlalə Şahvələdqızı (Qız), Ayşad Məmmədov və Əjdər Həmidov (Yəhudi), Hacı İsmayılov və Elxan Quliyev (Zindan rəisi), Telman Əliyev (Kansler), Vüsal Mustafayev (Cəllad).

* * *

İl yenicə başlayanda, yanvar ayının 17-də teatrın kiçik səhnəsində bütün kollektivin iclası keçirildi. Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyev çıxış edərək bildirdi ki, teatrın direktoru İsrafil İsrafilovun təklifinə əsasən bütün truppa ilə birillik müqavilə bağlanır. Kimin gələcəkdə teatrda qalacağı, kiminlə isə müqavilə bağlanmayacağı bir ildən sonra, görülən işlərin nəticələrinə əsasən müəyyənləşəcək. Yaradıcı kollektivin əksər üzvü bu təklifi razılıqla qarşıladı. Sabahkı gündən teatrda gərgin iş prosesi başlandı.

Fevral ayında sənət ocağında paralel olaraq dörd əsərin məşqləri gedirdi. Bunlardan ikisi – Mirzə Fətəli Axundzadənin «Lənkəran xanının vəziri» və İlyas Əfəndiyevin «Hökmdar və qızı» («Qarabağnamə») əsaslı bərpa idi. Afaq Məsudun «Qatar altına atılan qadın» dramı, Viktor Hüqonun «Qadın məhəbbəti» («Mariya Tüdor») faciəsi yeni quruluşda tamaşaya hazırlanırdı. «Mariya Tüdor» Akademik teatrda ilk dəfə 1962-ci il martın 17-də Tofiq Kazımovun quruluşunda oynanılıb.

Təzə binada ilk tamaşa mart ayının 10-da, Milli Teatr günündə göstərildi.

* * *

Yubiley. Oktyabr ayının 4-də Xalq artisti, məşhur sənətkar Yaşar Məmmədsadıq oğlu Nuriyevin anadan olmasının 60 illiyi münasibətilə yubiley gecəsi keçirilməliydi. Aktyorun səhhətindəki ciddi problemlə bağlı yubiley tədbiri oktyabr ayının 16-a keçirildi. Təntənəli gecədə aktyorun iştirak etdiyi tamaşalardan, teletamaşalardan və filmlərdən lent yazıları göstərildi. Mədəniyyət və Turizm naziri aktyorun 3 sentyabrda təltif olunduğu «Şöhrət» ordenini aktyorun yaxasına taxdı və tədbiri açdı. Kukla teatrı, Xalq artisti, Teatr Xadimləri İttifaqının sədri Azər Paşa Nemət, Xalq artistləri İlham Namiq Kamal və Ramiz Əzizbəyli, «Bakılı oğlanlar» qrupu adından Tahir İmanov yubilyarı təbrik etdilər. Yaşar Nuriyev xəstəliyi ilə bağlı əyləşmiş vəziyyətdə axıracan səhnədə qaldı. O hər bölmədə danışır, suallara cavab verirdi. Xalq artistləri Azər Zeynalov və Brilyant Dadaşova yubilyarı mahnı ilə təbrik etdilər. Sonda teatrın direktoru İsrafil İsrafilov danışdı və pərdə qalxdı, truppanan bütün aktyorları Yaşar Nuriyevi təbrik etdi. Hər aktyorun əlində üzərində öz adı yazılmış şar vardı.

Qastrol. Teatr sentyabr ayının 11-dən 19-a kimi Ukraynanın Yalta şəhərində IV Beynəlxalq «Teatr. Çexov. Yalta» festivalında iştirak edib. Kollektiv festivalda Hüseynbala Mirələmovun «Xəcalət» dramının tamaşasını göstərib.

Truppada dəyişmə. 2011-ci il fevral ayının 2-də Gənc Tamaşaçılar Teatrının aktyorları Ayşad Kamal oğlu Məmmədov və Elşən Mərdan oğlu Rüstəmov Akademik sənət ocağına qəbul olundular.

Gənc aktyorlar Nigar Hənəfi qızı Güləhmədova və Vüsal Sədaqət oğlu Mustafayev fevral ayının 1-də teatrın truppasına qəbul olundular.

Bu il sentyabr ayının 16-da aktrisa Zərnigar Fəti qızı Ağakişiyeva gözlənilmədən ərizə yazıb işdən çıxdı.

Aktyor Samir Ceyhun oğlu Qulamov may ayının 24-də işdən çıxarıldı.

Fəxri ad. 2011-ci il may ayının 3-də Vəfa Əliseyran qızı Rzayeva (Zeynalova) Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olundu.

Əcəl aldı... Əməkdar artist Sevil Rza qızı Xəlilova noyabr ayının 28-də Bakıda vəfat etdi. Aktrisa 1953-cü il yanvar ayının 10-da Bakıda

«Qanlı Nigar»,
Sadıq Şəndil.
Nigar –
Firəngiz Mütəllimova.
2011-ci il

«Xanuma»,
Avqsenti Saqareli.
Knyaz Pantiaşvili –
Ramiz Novruzov.
2011-ci il

«Xanuma»,
Avqsenti Saqareli.
Xanuma –
Bəsti Cəfərova.
2011-ci il

doğulub. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb (1970 – 1974). 1974-cü il sentyabr ayının 16-dan Akademik teatrda işləyirdi.

Dramaturq. Afaq Məsud (Afaq Məsud qızı Vəliyeva. 3.6.1957). Nasir və dramaturq. Xalq yazıçısı Əli Vəliyevin nəvəsidir. Bakıda doğulub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində, Respublika Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində işləyib. «Can üstə», «O məni sevir», «Yol üstə» dramları, «Qonaqlıq», «Gecə», «Cəza» televiziya pyesləri var. Əməkdar incəsənət xadimidir.

2012-ci il

5 fevral. «Don Juan və həndəsə», Maks Friş. Tərcümə edəni Yaşar Əliyev.

2 hissəli tragikomediya.

Quruluşçu rejissor və tərtibat rəssamı Levan Tsuladze, geyim rəssamı İlham Elxanoğlu, musiqi tərtibatçısı Zurab Qaqloşvili, rəqslərin quruluşçusu Griqori Marqania*, rejissor assistenti Anar Sadıqov.

Rollarda: Elşən Rüstəmov (Don Juan), Əli Nur (Tenorio), Nigar Güləhmədova (Miranda), Rafael Dadaşov (Don Qonsalo), Vəfa Rzayeva (Donna Elvira), İlahə Həsənova (Donna Anna), Ayşad Məmmədov (Dileqo ata), Elşən Cəbrayılov (Don Redroqo), Şəlalə Şahvələdqızı (Selestina), Rövşən Kərimduxt (Don Baltasar Lopes), Aslan Şirinov (Loperello), Şəhla Əliqızı, Güney Əkbərova və Məhsəti Tahirzadə (Sevilyanın dul qadınları), Vüsal Mustafayev, Elçin Əhmədov və Ramin Şıxəliyev (Don Qansolonun qohumları).

* *Qeyd.* Quruluşçu rejissor, musiqi tərtibatçısı və xoreoqraf Gürcüstandan dəvət edilmişdi.

29 fevral. «Şekspir», Elçin.

2 hissəli qəmli komediya.

Quruluşçu rejissor Petru Vutkereu*, rəssam Ramin Bəykişiyev, musiqi tərtibatçısı Həmid Kazımzadə. Bədii tərtibatın rəhbəri Nazim Bəykişiyev.

Rollarda: Ayşad Məmmədov (Baş həkim), Nigar Güləhmədova (Həkim), Aslan Şirinov (Sanitar), Mətanət Atakişiyeva (Sara Bernar),

«Napoleon»,
Ferdinant Brukner.
Jozefina –
Zemfira Nərimanova.
2012-ci il

«Don Juan və həndəsə»,
Maks Friş.
Soldan: Dieqo ata –
Ayşad Məmmədov,
Don Qansalo –
Rafael Dadaşov
və Tenerio – Əlibala Nur.
2012-ci il

«Şekspir», Elçin. Soldan: Baş həkim – Ayşad Məmmədov
və Sanitar – Aslan Şirinov. 2012-ci il

«Yaşlı xanımın gəlişi», Fridrix Dürrenmatt.
Tamaşadan səhnə. 2012-ci il

Ramiz Novruzov və Pərviz Bağırov (Stalin), Elşən Cəbrayılov (Veneralı), Şəlalə Şahvələdqızı** (Ər-arvad), Elşən Rüstəmov və Anar Heybətov (Drob – 13).

* *Qeyd.* Quruluşçu rejissor Petru Vutkereu Moldovadan dəvət edilmişdi.

** *Qeyd.* Aktrisa Şəlalə Şahvələdqızı Ər-arvad roluna görə saçını dibindən qırxdırmışdı.

11 may. «Yaşlı xanımın gəlişi», Fridrix Dürrenmatt. Tərcümə edəni Dilsuz.

2 hissəli qrotesk-faciə.

Quruluşçu rejissor Rövşən Almuradlı, rəssam Zöhrab Bəykişiyev, bəstəkar Sərdar Fərəcov.

Rollarda: Sənubər İsgəndərova (Klara Veşer), Ramiz Novruz (İl), Nurəddin Mehdixanlı (Burqomistr), Kazım Abdullayev (Keşiş), Hacı İsmayılov və Rafiq Əzimov (Müəllim), Pərviz Bağırov və Telman Əliyev (Həkim), Əli Nur və Kazım Həsənquliyev (Polis), Ramiz Məlik (Eşikağası), Mətləb Abdullayev (Birinci kişi), Rövşən Kərimduxt və Elnar Qarayev (İkinci kişi), Vüsal Mustafayev və Anar Heybətov (Rəssam), Ələsgər Məmmədoğlu və Məzahir Cəlilov (Stansiya rəisi), Ramin Şıxəliyev (Kobi), Firuz Xudaverdiyev (Lobi), Əlvida Cəfərov (Yeddinci ər), Elçin Əhmədov (Doqquzuncu ər).

24 iyun. «Gəncə qapısı», Hüseynbala Mirələmov.

2 hissəli tarixi səhnə romanı.

Quruluşçu rejissor Bəhram Osmanov, rəssam Sergey Skomoroxov, bəstəkar Rüfət Xəlilov.

Rollarda: Kazım Abdullayev (Birinci aktyor – Cavad xan), Mətanət Atakişiyeva (İkinci aktyor – Şükufə), Şəhla Əliqızı (Üçüncü aktyor – Mələknisə), Rada Nəsibova (Dördüncü aktyor – Astagül), Hacı İsmayılov (Beşinci aktyor – Məhəmməd xan), Ələsgər Məmmədoğlu (Altıncı aktyor – Vəli xan və On beşinci aktyor – Loris), Əli Nur (Yeddinci aktyor – Vəfa Rzayeva), Abbas Qəhrəmanov (Doqquzuncu aktyor – Sisianov), Elnar Qarayev (Onuncu aktyor – Portnyakin), Pərviz Bağırov (On birinci aktyor – Birinci knyaz), Mirzə Ağabəyli (On ikinci aktyor – İkinci knyaz), Tofiq Hüseynov (On üçüncü aktyor – Keşiş), Kazım Həsənquliyev – On dördüncü aktyor – Əhməd), Rafiq Əzimov (On altıncı aktyor – Hacı Məlik), Mirsənan Kazımlı (On

yeddinci aktyor – Oğlan), Elçin Əhmədov (On səkkizinci aktyor – Eşikağası və Yavər).

14 iyul. «Oliqarx», Əfqan.

2 hissəli satirik komediya.

Quruluşçu rejissor Oruc İzzətoğlu, rəssam İlham Elxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadə.

Rollarda: Nurəddin Mehdixanlı (İgidov), Almaz Amanova (Zivər), Sevinc Əliyeva (Xumar), Aslan Şirinov (Güloğlan), Telman Əliyev (Ağazal), Əminə Babayeva (Səltənət), Elxan Quliyev və Məzahir Cəlilov (Şiraslan), Rövşən Kərimduxt (Şahpələng), Tofiq Hüseynov və Mətləb Abdullayev (Səfər), Dilarə Nəzərova (Naza), Ayşad Məmmədov (Doktor Tağı), Mirzə Ağabəyli və Əlvida Cəfərov (Molla Məsim), Ramin Şıxəliyev (Həsrət), Əsgər Məmmədoğlu (Naşir), Firuz Xudaverdiyev (Təqaüdçü).

28 sentyabr. «Napoleon», Ferdinad Brukner. Tərcümə edəni Azər Mirzəyev.

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Namiq Ağayev, rəssam İlham Elxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Rima Məmmədova.

Rollarda: Oqtay Mehdiyev* (Napoleon), Zemfira Nərimanova (Jozefina), Sabir Məmmədov və Azər Mirzəyev** (Bertyev), Elşən Rüstəmov (Taleyran), Şəhla Əliqızı (Mariya Valevska), tələbə Türkel Şabanova (Mariya Luiza), Sərdar Rüstəmov (Meneval), Rusmiyya Ağayeva (Rəqs müəllimi və Bayraqdar), Elçin Əhmədov (Fuşe), tələbə İlqar Baxşıyev (Şeypurçu), Teymur Bədəlov (Birinci təbilçi), tələbə Vasif Həsənəliyev (İkinci təbilçi).

* *Qeyd.* Napoleon rolunun ifaçısı Oqtay Mehdiyev Sumqayıt Dövlət Musiqili Dram Teatrından dəvət edilib.

** *Qeyd.* Azər Mirzəyev xəstəliyi ilə əlaqədar olaraq tamaşada Bertyev rolunu oynamadı.

5 oktyabr. «Qatil», Elçin.

2 hissəli psixoloji dram.

Quruluşçu rejissor Mehriban Ələkbərzadə, tərtibat rəssamı İlham Elxanoğlu, işıq rəssamı Rafael Həsənov, bəstəkar Aygün Səmədzadə.

Rollarda: Münəvvər Əliyeva (Qadın), Hikmət Rəhimov (Oğlan), Elxan Quliyev (Polis), Səidə Quliyeva (Qonşu).

14 noyabr. «Kuraj və uşaqları», Bertolt Brext. Tərcümə edəni Yaşar Əliyev. Səhnə redaksiyasının müəllifi Ramiz Fətəliyev.

2 hissəli müharibə xronikası.

Quruluşçu rejissor Rafiq Əliyev, rəssam Ülviyyə Zərbəliyeva, bəstəkar Aydın Əzimov. Mahnı mətnlərinin müəllifi Mahir Quliyev.

Rollarda: Bəsti Cəfərova (Kuraj), İlahə Həsənova və Günel Məmmədova (Katrin), Mətləb Abdullayev və Rövşən Kərimduxt (Eylif), Vüsal Mustafayev və Anar Heybətov (İsveçrəli), Elnar Qarayev və Ayşad Məmmədov (Gizir və Mirzə), Pərviz Bağırov (Feldfebel), Abbas Qəhrəmanov (Aşpaz), Kazım Həsənquliyev və Elxan Quliyev (Komandan və Qoca polkovnik), Elşən Rüstəmov (Alay keşişi), Rəşad Bəxtiyarov və Hikmət Rəhimov (İntendant və Kəndli), Şəhla Əliqızı (İvetta Rotye), Sevinc Əliyeva (Kəndli qadın və Kənd sakini), Əlvida Cəfərov və Firuz Xudaverdiyev (İkinci Feldfebel və Əsgər), Elnur Qədirov (Gənc kəndli), Ramin Şıxəliyev və Aslan Şirinov (Sarıqlı adam), Əlləz Əhmədov, Şəmsəddin Quliyev və Amil Babayev (əsgərlər).

8 dekabr. «Anamın kitabı», Cəlil Məmmədquluzadə.

2 hissəli tragikomediya.

Quruluşçu rejissor Firudin Məhərrəmov, rəssam Ülviyyə Zərbəliyeva, musiqi tərtibatçısı Həmid Kazımzadə.

Rollarda: Səidə Quliyeva və İradə Ağasıbəyli (Zəhrabəyim), Ayşad Məmmədov (Rüstəm bəy), Kazım Həsənquliyev (Mirzə Məhəmmədəli), Aslan Şirinov (Səməd Vahid), Anar Heybətov (Aslan bəy), Hikmət Rəhimov və Manaf Dadaşov (Mirzə Baxşəli), Ramin Şıxəliyev (Hüseyn, Şahid), Şəlalə Şahvələdqızı və Şəhla Əliqızı (Gülbahar), Sevinc Əliyeva və Dilarə Nəzirova (Zivər xanım), Elnar Qarayev və Elçin Əhmədov (Qəmbər), Rövşən Kərimduxt və Mətləb Abdullayev (Mirzə Həsən), Vüsal Mustafayev (Teymur bəy), Mirzə Ağabəyli (Mirzə Zeynal), Rəşad Bəxtiyarov (Senzor), Firuz Xudaverdiyev (Məşədi Cəfər və Hambal), Cümşüd Zeynalov və Əlləz Əhmədov (polislər).

28 dekabr. «Danışan gəlincik», Abdulla Şaiq.

1 hissəli musiqili nağıl-tamaşa

Quruluşçu rejissor Loğman Kərimov, rəssam İlham Elxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Nigar Güləhmədova.

Rollarda: İlahə Həsənova və Günel İmanova (Şahzadə və Tıq-tıq), Aygün Baxışlı və Xədicə Novruzlu (Gəlincik), Elnar Qarayev və Hikmət Kərimov (Şah və Çoban), Nigar Güləhmədova və Çinarə Əmirxanova (Xanım, Tülkü və Atlı), Şəlalə Şahvələdqızı və Vəfa Babayeva (Mürəbbiyə), Rəşad Bəxtiyarov və Ramin Şıxəliyev (Xidmətçi və Siçan).

* * *

Qastrol. Teatr mart ayının 12-dən 16-na qədər Hüseynbala Mirələmovun «Xəcalət» dramının tamaşası ilə Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən XI Beynəlxalq «Slaviya» Teatr Festivalında iştirak edib.

May ayının 27-də Hüseynbala Mirələmovun «Xəcalət» dramının tamaşası ilə Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən Beynəlxalq Teatr Festivalında iştirak edib.

İyun ayının 10-da Uilyam Şekspirin «On ikinci gecə» pyesinin tamaşası Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən gənc rejissorların forumunda nümayiş etdirilib.

Fəxri adlar. May ayının 9-da teatrın bir qrup işçisinə Azərbaycan Respublikasının fəxri adları verilib.

Xalq artisti: Səidə Əbülfəz qızı Quliyeva.

Əməkdar incəsənət xadimi: Teatrın direktoru İsrafil Ramazan oğlu İsrafilov.

Əməkdar artist : Şəlalə Şahvələd qızı Quliyeva və Elşən Mərdan oğlu Rüstəmov.

Əcəl aldı... Xalq artisti, Dövlət mükafatı laureatı, görkəmli teatr və kino xadimi Yaşar Nuriyev 2012-ci il noyabr ayının 22-də uzun sürən xəstəliklən vəfat etdi. İkinci Fəxri Xiyabanda dəfn edildi.

Dramaturqlar. Maks Friş (15.5.1911, Sürix – 4.4.1991, ABŞ). İsveçrə nasiri və dramaturqu. Əsərlərini alman dilində yazıb. Filologiya və memarlıq təhsili alıb. «Homo Faber», «Özümü Qantenbayn çağıracam», «Montok», «Bin və ya Pekinə səyahət», «Ştiller» povest

və romanlarının müəllifidir. «Əsgər barxanasından vərəqlər» (gündəliklər əsasında yazılıb), «Reallıq», «Santa Krus», «Çin divarı», «Müharibə qurtaranda», «Bax, onlar yenə oxuyurlar», «Qraf Ederland», «Bioqrafiya», «Andorra» pyesləri müxtəlif dillərə tərcümə edilərək tamaşaya qoyulub.

Əfqan (Əfqan Hacıağa oğlu Əsgərov. 23.9.1929). Əli Bayramlı rayonunun Qarabağlı kəndində doğulub. Azərbaycan Dövlət Universitetinin, filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. «Azərbaycan gəncləri», «Kommunist» (indiki «Xalq qəzeti») qəzetlərində şöbə müdiri və «Həyat» qəzetində redaktor, «Azərbaycanfilm»də redaktor işləyib. «Sarı əlcək», «Mənim anam sənsən», «Qız atası», «Dağ seli» pyesləri, «Gülyanaq», «Qartal əfsanəsi», «Məhəbbət ətirli qərənfilim» nəsr əsərləri var. Əməkdar incəsənət xadimidir.

Ferdinad Brukner (Əsl adı Teodor Taqqerdir. 26.8.1891 – 5.12.1958). Avstriya nasiri və dramaturqu. Venada, Parisdə və Berlində yaşayıb. Yaradıcılığa musiqi ilə başlayıb, sonra yazıçılığa keçib. Berlin teatrları ilə əlaqə yaradıb. «Dumanlıqdakı cənab», «1920, yaxud dünyanın sonunun komediyası», «Gənclik xəstəliyi», «İngilis Yelizaveta», «Markiza fon O.», «Simon Bolivar», «Zəmanəmizin draması», «Kuklaların ölümü», «Şeh», «Tarmar olmuş Tasso», «Canilər», «Mələklə əlbəyaxa», «İki döyüşçünün gəncliyi» nəsr və dram əsərləri var.

2013-cü il

15 mart. «Sənətkarın taleyi», Elçin.

2 hissəli faciə.

Quruluşçu rejissor İrana Tağızadə, tərtibat rəssamı Tatyana Melnikova (Rusiya), geyim rəssamları İrana Tağızadə və Tatyana Melnikova, musiqi tərtibatçısı Vladimir Neverov, işıq üzrə rəssam Rafael Həsənov.

Rollarda: Firdovsi Atakişiyev (Hüseyn Ərəblinski), Natəvan Hacıyeva (Maya), Cəfər Namiq Kamal (Poloni), Elşən Cəbrayılov (Yaqo), Ayşad Məmmədov (Bığlı artist), Vüsal Mustafayev (Carçı), Əjdər Zeynalov (Qubernator), İlham Hüseynov (Qraf), Şükufə Yusupova (Qrafiniya), İnna İmranova (Freylina), Aslan Şirinov (Gənc teatr vurğunu), Hicran Nəsirova (Bibi), Hikmət Rəhimov (Əbdül), Əsgər

Məmmədoğlu (Molla), Vasif Həsənəliyev (Qoçu), Anar Heybətov (İntelligent), Mirzə Ağabəyli (Baqqal), Cümşüd Zeynalov (Redaktor), Rəşad Bəxtiyarov (Jurnalist), Əjdər Həmidov (Məmur), Telman Əliyev (Neftxuda Hacı Məmmədtağı).

16 mart. «Qaraca qız», Abdulla Şaiq. Süleyman Sani Axundovun eyniadlı əsəri əsasında.

2 hissəli nağıl-tamaşa.

Quruluşçu rejissor Loğman Kərimov, rəssam İlham Elxanoğlu, musiqi tərtibatçısı Həmid Kazımzadə, rəqslərin quruluşçusu Nigar Güləhmədova.

Rollarda: Xədicə Novruzlu və Nigar Məmmədova (Qaraca qız), İlham Əsgərov və Hacı İsmayılov (Piri baba), Münəvvər Əliyeva və Nigar Güləhmədova (Yasəmən), Rövşən Kərimduxt və Elnar Qarayev (Oruc), Elxan Quliyev və Telman Əliyev (Bəy), Mətanət Atakişiyeva və Almaz Amanova (Pəricahan), Günel İmanova və Aygün Baxışlı (Ağca), Hicran Nəsirova və Əminə Babayeva (Gülpəri), Əsgər Məmmədoğlu və Tofiq Hüseynov (Saymaz), İradə Həsənova və Dilarə Nəzərova (Püstə), Məzahir Cəlilov və Əlvida Cəfərov (Əlləz), Sevinc Əliyeva və Rada Nəsibova (Nərgiz), Firuz Xudaverdiyev və Mirzə Ağabəyli (Qaraçı), Mətləb Abdullayev və Cümşüd Zeynalov (Həkim və Ayı), Ramin Şıxəliyev və Əlləz Əhmədov (Meymun).

22 may. «Şah və Şair, yaxud hamı səni sevənlər buradadı», Kamal Abdulla.

2 hissəli xəyali oyun.

Quruluşçu rejissor Mikayıl Mikayılov, tərtibat rəssamı Mustafa Mustafayev, işıq rəssamı Rafael Həsənov, neon effektləri üzrə rəssam Fərid Ələkbərov.

Rollarda: Vidadi Həsənov (Professor və Hüseyn bəy lələ), Elşən Rüstəmov və Ruslan İsmayılov (Birinci aspirant və Şah İsmayıl), Hikmət Rəhimov və İlham Hüseynov (İkinci aspirant və Xızır), İlahə Həsənova (Qız və Taclı xanım), Ayşad Məmmədov (Həkim və Vəzir ağa), Oqtay Mehdiyev (Usta, Rəhim yüzbaşı və Fərraşbaşı Səfiyar), Vüsal Mustafayev və Elçin Əhmədov (Qorçubaşı və Birinci qorçu).

SƏNƏT AŞİQLƏRİ

Ağadadaş Qurbanov
(8.3.1911 – 25.6.1965)

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının banilərindən biri, həm faciə, həm dram, həm də komediya janrlı tamaşaların ifaçısı Ağadadaş Gülməmməd oğlu Qurbanov Bakıda doğulub.

1927-ci il martın 15-də Dənizçilər klubunda Lətif Kərimlinin «Fırtına» pyesinin tamaşası oynanıldı. Bu tamaşanı, başda Ağadadaş Qurbanov olmaqla, talelərini teatra bağlayan Muxtar Dadaşov, Məmmədağa Dadaşov, Kərim Həsənov və başqaları (4-cü dəstənin pionerləri) hazırlamışdılar. Bununla da Bakıda Fəhlə Uşaqlar (Çocuqlar) Teatrının (sonralar Gənc Tamaşaçılar Teatrı adlandırıldı) bünövrəsi qoyuldu.

Ağadadaş Qurbanov həmin vaxtdan 1952-ci ilədək bu teatrda işlədi və qısa müddətdə kollektivin əsas qüvvələrindən biri oldu.

Aktyorun Gənc Tamaşaçılar Teatrında böyüklər üçün nəzərdə tutulan tamaşalarda ifa etdiyi obrazlar: Aydın («Aydın», Cəfər Cabbarlı), Molla İbrahimxəlil («Molla İbrahimxəlil kimyagər», Mirzə Fətəli Axundzadə), Hacı Qəmbər («Hacı Qəmbər», Nəcəf bəy Vəzirov), Karl Moor («Qaçaqlar», Fridrix Şiller), Xlestakov («Müfəttiş», Nikolay Qoqol), Babək («Babək», Əbil Yusifov), Fərhad («Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev), Məmməd («Partizan Məmməd», Sabit Rəhman və Ədil İsgəndərov).

Sənətkarın məktəblilər üçün nəzərdə tutulan tamaşalarda ifa etdiyi rollar: Bəhram, Elman, Piri baba («Fitnə», «Vətən» və «Qaraca qız», Abdulla Şaiq. Süleyman Sani Axundovun hekayəsi əsasında), Qlenervan («Kapitan Qrantın uşaqları», Jül Vern), Professor Streltsov, Tomson («Seryoja Streltsov» və «Ağbəniz», Valentina Lyubimova), Tom dayı («Tom dayının koması», Biçer Stou), Rüstəm («Düşmənlər içində», Novruz Gəncəli), Məlik Məmməd, Kamal, Azər («Məlik Məmməd», «Bahar nəğməsi» və «Odlar içində», Əbil Yusifov), Seyran («Seyran», Əliməmməd Atayev və Əhməd Əhmədov), Gənc Stalin, Kikel («Lado Ketsxoveli» və «Hünərli Kikel», Georgi Naxutsirişvili və Qabriel Qamerexeli), Ayaz («Ayaz», Mirmehdi Seyidzadə), Şmidt («Çelyuskinçilər», Əliməmməd Atayev və Əhməd Həsənov), Qaneş («Əfilər», Rabindranat Taqorun «Qaneşin yolu» hekayəsi əsasında).

Ağadadaş Qurbanov 1952-ci ildən ömrünün sonunadək (25.6.1965) Milli Dram Teatrında işləyib. O bu teatrda öz yaradıcılığı üçün təzə olan xarakterik və parlaq rollar oynayıb. Aktyorun Akademik teatrın səhnəsində ifa etdiyi əsas bədii obrazlar: Hacı Qara («Hacı Qara», Mirzə Fətəli Axundzadə), Əşrəf bəy («Hacı Qəmbər», Nəcəf bəy Vəzirov), Mirzə Səməndər, Əbu Übeyd, Ötkün («Almaz», «Od gəlini» və «Dönüş», Cəfər Cabbarlı), Şeyx Mərvan və Şeyx Sənan, Səyavuş («Şeyx Sənan» və «Səyavuş», Hüseyn Cavid), Dəmirçi Musa («Toy», Sabit Rəhman), İbrahim xan və Vaqif («Vaqif», Səməd Vurğun), Professor Mudrov («Şirvan gözəli», Ənvər Məmmədxanlı), Gülcamal, Akif («Yaxşı adam» və «Həyat», Mirzə İbrahimov), Şults («Uzaq sahillərdə», İmran Qasımov və Həsən Seyidbəyli), İvanov («Göz həkimi», İslam Səfərli), Kamillo («Qış nağılı», Uilyam Şekspir), Yəhudi («Mariya Tüdor», Viktor Hüqo), Kamal («Məhəbbətin hökmü», Cabbar Məcnunbəyov), Tağı Hüseyn («Köç», Cavad Fəhmi Başkut), Allan («Ailə namusu», Hüseyn Muxtarov).

Ağadadaş Qurbanov «Səbuhi», «Koroğlu», «Bir qalanın sirri», «Kölgələr sürünür» filmlərinə çəkilib. «Arşın mal alan» filmində Soltan bəy roluna çəkilən aktyor kinolentin tamamlandığı ərəfədə Salyanda qastrolda idi. Mehmanxananın eyvanına çıxanda qəfildən eyvan uçdu və sənətkar faciəli şəkildə həlak oldu. Filmin toy səhnəsinə Ağadadaş Qurbanovun yerinə aktyor dostu Əliheydər Həsənzadə çəkildi.

Ağadadaş Qurbanovun opera müğənnisi Gülxar Həsənovadan olan oğlu, əməkdar artist Hamlet Qurbanov otuz ilə yaxın Milli Dram Teatrının aktyoru olub. Qızı Gülşən Qurbanova xalq artistidir, Gənc Tamaşaçılar Teatrında işləyib. 2006-cı ildə dünyasını dəyişib.

Ağadadaş Qurbanov 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar, 27 fevral 1954-cü ildə Xalq artisti fəxri adlarına layiq görülüb. 25 iyun 1965-ci ildə vəfat edib. Bakıda Fəxri xiyabanda dəfn olunub.

Əliağa Ağayev
(22.3.1913 – 3.11.1983)



Azərbaycan komediya aktyorluğunun parlaq simalarından olan, hər tamaşada səhnəyə ilk gəlişindən milli teatr tariximizdə bir kimsədə görünməmiş duzlu, cəlbedici və qeyri-adi səsi ilə tamaşaçıları ovsunlayan Əliağa İsmayıl oğlu Ağayev 1913-cü il mart ayının 22-də Bakıda doğulub. Erkən yaşlarından atasını itirib. 1930-cu ildə yeddinci sinfi bitirərək Paris kommunası adına gəmi təmiri zavodu nəzdindəki sənət məktəbində oxuyub. İki il sonra oranı bitirərək zavodun özündə gəmi çilingəri işləyib.

Bəm və şirin zümzüməli səslə işdə də dodaqaltı oxuyan Əliağa zavodun dram dərnəyinə yazılıb. İlk rolu Mirzə Fətəli Axundzadənin «Hacı Qara» komediyasında Hacı Qara olub. Həmin dram dərnəyinin istedadlı gənclərini seçib mədəniyyət təbliğatı briqadası yaradıblar. Əliağa Ağayev maaşlı olan bu briqadada kiçik həcmli məsxərələrdə, təbliği pyeslərdə müxtəlif, əsasən, yumorlu rollar oynayıb. Bir müddət burada çalışan səhnə həvəslisi 1936-cı ildə Gənc Tamaşaçılar Teatrının (əvvəlki adı Fəhlə Uşaqlar Teatrı idi) kollektivinə daxil olub. Peşəkar teatrda səhnəyə ilk dəfə Jül Vernin «Kapitan Qrantın uşaqları» dramının tamaşasında Dik rolu ilə çıxıb.

Qısa müddətdə fitri istedadı ilə teatrın yaradıcılıq iqlimini mənimsəyən Əliağa Ağayevə tədricən repertuarın əksər tamaşalarında rollar tapşırılıb. Aktyor Gənc Tamaşaçılar Teatrında Nökər («Nərgiz», Mirmehdi Seyidzadə), Kit Valtsev («Seryoja Streltsov», Valentina Lyubimova), Keşiş («Keşiş və onun key nökəri», Aleksandr Puşkin), Sqanarel («Zorən təbib», Jan Batist Molyer), Tanrıverdi, Məstəlişah, Molla Həmid («Xırs quldurbasan», «Müsyö Jordan və Dərviş Məstəlişah» və «Molla İbrahimxəlil kimyagər», Mirzə Fətəli Axundzadə), Ağa bəy («Arsenal», Qurban Musayev), Rəmdar («Seyran», Əliməmməd Atayev və Əhməd Əhmədov), Mehdi («Babək», Əbil Yusifov), Rəcəb, Lələş, Əlipaşa, Səməndər («Xasay», «Vətən», «Ana», «Eloğlu», Abdulla Şaiq), Şpigelberq («Qaçaqlar», Fridrix Şiller), Balaxan, Əmirqulu («Aydın» və «Yaşar», Cəfər Cabbarlı), Həsən kişi («Çətin dərə», Səttar Axundov), Zaxar («Cəbhə boyunca», Georgi Mdivani), Mirbalayev («Ayrılan yollar», Cabbar Məcnunbəyov), Hacı Qəmbər («Yağışdan çıxdıq, yağmura düşdük», Nəcəf bəy Vəzirov), Dombagöz («Məlik Məmməd», Əyyub Abbasov), Bələdiyyə rəisi («Müfəttiş», Nikolay Qoqol), Hacı Murad («Tamahkar», Süleyman Sani Axundov), Hacı Turab («Komissar», Mehdi Hüseynin romanı əsasında səhnələşdirəni

Ağəli Dadaşov), Hüseynqulu bəy («Qaraca qız», Süleyman Sanin hekayəsi əsasında yazanı Abdulla Şaiq), Launs («İki veronalı», Uilyam Şekspir), Rüstəmov («Anacan», Yusif Əzimzadə) və digər rolların ifaçısı olub.

Müxtəlif səpkili rolları, xüsusən «O olmasın, bu olsun» bədii filmindəki Məşədi İbad obrazı ilə respublikadan kənarda da şöhrətlənən Əliağa Ağayev 1961-ci ilin payızında Akademik Milli Dram Teatrının kollektivinə qəbul olunub. Bu teatrda ilk orijinal rolu Şıxəli Qurbanovun «Əcəb işə düşdük» komediyasında (2 dekabr 1961) Abış Surxayeviç obrazıdır. İyirmi iki il Akademik teatrda işləyən sənətkar bu səhnədə maraqlı və rəngarəng obrazlar silsiləsi yaradıb.

Milli dramaturqların səhnə əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Divanbəyi, Kərəməli («Xırs quldurbasan» və «Hacı Qara», Mirzə Fətəli Axundzadə), Hacı Əbdüləzim («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Mirzə Səməndər, Babakişi («Almaz» və «Sevil», Cəfər Cabbarlı), Tosun («Səyavuş», Hüseyn Cavid), Mürsəl kişi («Qaçaq Nəbi», Süleyman Rüstəm), Qazı, İbiş İbişli («Sizi deyib gəlmişəm» və «Adamın adamı», Anar), Rüstəm Zaloviç, Ağadayı («Kölgələr pıçıldaşır» və «Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Dadaş («Qəribə oğlan», İlyas Əfəndiyev), Səfər («Söz yarası», Qeybulla Rəsulov). Sabit Rəhmanın komediyalarında Nəsir bəy («Küləklər»), Aslan («Yalan»), Bərbərzadə («Xoşbəxtlər»), Kərəmov «Toy»), Mirzə İbrahimovun pyeslərinin tamaşalarında Qulaməli («Közərən ocaqlar»), Alışov («Kəndçi qızı»), Nağı («Yaxşı adam»).

Tərcümə pyeslərinin quruluşlarında oynadığı bədii obrazlar: Birinci məzarçı, Stefano («Hamlet» və «Fırtına», Uilyam Şekspir), Martin («Dəlilər», yaxud «Valensiya dəliləri», Lope de Veqa), Rista Pdoroviç («Nazirin xanımı», Branislav Nuşiç), Pişta Orbek («Füsunkar qız», Mikolaş Dyarfaş), Vasin («Tanya», Aleksey Arbuzov), Allahnəzər («Kimdir müqəssir?», Hüseyn Muxtarov), Keşiş Bazilio («Bu qadın mənimdir», Raymondo

Juniyor), Çakan Yemelyan («Daşqın», Anatoli Safronov), Anatoli Novoseltsov («Sevgi... sevgi...», Emil Braginski və Eldar Ryazanov), Mikiç Kotryans («Xanuma», Avqsenti Saqareli), Sərxan («Görünməmiş toy», Arkadi Arkanov və Qriqori Qorin), Vəzir («Karıxmış Sultan», Taufiq əl Hakimi), Zümzümov («Pepo», Qabriel Sundukyan), Osman («Bağ qonşuları», Hay Vahid).

Əliağa Ağayev kinoda Məşədi İbad («O olmasın, bu olsun»), Xan («Sehirli xalat»), Şıxəli («Görüş») kimi iri həcmli rollarla yanaşı, koloritli tipik xarakterlər də yaradıb. «Qara daşlar» (Mühəndis), «Əhməd haradadır?» (Kassir), «Qanun naminə», yaxud «Mehman» (Məmmədxan), «Bir məhəlləli iki oğlan», yaxud «Bir məhəllədən iki nəfər» (Feyzi), «Koroğlu» (Dəmirçi Süleyman), «Görüş» (Şıxəli), «İstintaq davam edir» (Kişi), «Telefonçu qız» (İşçi), «Kazbek qutusu» (Məmişov), «Bizim Cəbiş müəllim» (Əbülfəz), «Bizim küçənin oğlanları» (Mehdi), «Evlənmək istəyirəm», yaxud «Papaq» (Kərbalayı Zal), «Dəli Kür» (Kəndli) və digər filmlərdə yaddaqalan epizod surətlərə də çəkilib.

Azərbaycan Televiziyasının fondunda aktyorun iştirak etdiyi tamaşaların və satirik səhnəciklərin lentləri saxlanır.

Altmışıncı illərin sonunda Əliağa Ağayev, Bəşir Səfəroğlu, Müxlis Cənizadə və Ofeliya Məmmədzadə Azərbaycan Dövlət Filarmoniyası nəzdində «Gəlməli, görməli, gülməli» miniatür satirik teatrı yaratmışdılar. Onlar çevik, tez-tez dəyişən repertuarla Bakıda və Respublikanın rayonlarında çıxışlar edirdilər, böyük şöhrət qazanmışdılar.

Səhnə görkəminə görə ciddi görünən Əliağa Ağayev obrazın ifasında çox sərbəst, hərəkətlərində çevik, danışığında duzlu və məzəli idi.

Yaradıcı aktyor obrazın xarakterini ilk əvvəl danışıqda tapır, sonra onun məzmununa uyğun formanı dəqiqləşdirirdi.

Təbiətən sakit görkəmli Ağayevin yumoru, xüsusən satirası çılğın, fəvvarə kimi aşıb-daşan, estetik ruhları oxşayan gülüş idi.

Əliağa Ağayev, ilk növbədə, komik xarakter aktyoru idi. Buna görə də komizmi zahiri əlamətlərdə deyil, surətin təbiətində, daxili varlığında, düşüncə tərzində canlandırmağa üstünlük verirdi.

Həm zahiri əlamətlər cəhətdən, həm də daxilən rolun ifasında istifadə etdiyi vasitələrin məntiqi ahəngdarlığına çalışırdı.

Bütövlükdə Əliağa Ağayevin sənət qələbələri əvvəl Gənc Tamaşaçılar Teatrının, sonra Akademik teatrın ümumi inkişaf təknəsində bərəkət mayası tutub. Bununla belə, onun fərdi aktyor qələbələri realist teatr prinsipləri zəminində fəaliyyət göstərən gənc aktyorlar üçün mayak olub, yaxud onların üslub yolunda aydınlıq, genişlik açıb.

Həmişə populyar və sevilən aktyor olmuş Əliağa Ağayev 17 iyun 1943-cü ildə Respublikanın Əməkdar artisti, 27 fevral 1954-cü ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Həyatda da şuxluğu xoşlayan Əliağa Ağayev 1983-cü il noyabr ayının 3-də pərəstişkarları və dostları ilə süfrə arxasında lətifə söyləyib güldüyü yerdəcə gözlərini əbədi qapayıb.

Muxtar Avşarov
(15.2.1914 – 1.12.2004)



Əsasən, tpik-xarakterik rollar oynayıb. Gəncə teatrında bir neçə səhnə əsərində əsas qəhrəmanların obrazlarını ifa edib. Yaradıcılıq dəst-xətti realist aktyor məktəbinə daha yaxın idi.

Muxtar Həsən oğlu Avşarov 1914-cü il fevral ayının 15-də İrəvan şəhərində doğulub. Dörd yaşında olanda ermənilərin törətdikləri vəhşiliklərə görə ailəsi Türkiyəyə köçüb. Bir qədər sonra Gəncəyə gəliblər. Burada dəmiryol

məktəbində oxuyub (1922 – 1932), Bakıya gələrək sənət məktəbində təhsil alıb (1932 – 1933). Bakıda Dəmiryolçuların mədəniyyət evində Ağasəlim Manafovun və Ülvi Rəcəbin rəhbərlik etdiyi dram dərnəyində həvəskar aktyorluq edib. Gəncəyə qayıdaraq porovoz deposunda maşinist köməkçisi işləyib. Dəmiryolçular klubunda Həbib İsmayılovun və Rza Sarabskinin rəhbərlik etdikləri dram dərnəyinin üzvü olub, həmçinin Gəncə teatrında epizod rollar oynayıb. 1936-cı ildə Moskvada iki aylıq mədəni-maarif kursunu bitirib, Gəncəyə gələrək şəhər mədəniyyət evində kütləvi tədbirlər təşkilatçısı işləyib. Elə həmin il onu Gəncə Dövlət Dram Teatrına aktyor götürüblər.

Bir müddət sonra siyasi motivdə qanunsuz həbs edilib və beş il dustaqxana həyatı keçirib. Həbsdən buraxılanda ona incəsənət sahəsində işləməyə icazə verməyiblər və o, dəyirmanda fəhləlik edib. 1953-cü ildə Stalinin ölümündən sonra onu yenidən teatra dəvət ediblər. O, 1968-ci ilə kimi Gəncə teatrında aktyorluq edib.

Muxtar Avşarov 1968 – 1990-cı illərdə Akademik Milli Dram Teatrında, 1992 – 2004-cü illərdə Bakı Bələdiyyə Teatrında aktyor kimi çalışıb.

Gəncə teatrında ifa etdiyi əsas rollar: Hacı Kərim və Məşədi Oruc («Ölülər», Cəlil Məmmədquluzadə), Şahbaz bəy və Çingiz («Eşq və intiqam», Süleyman Sani Axundov), Cəfər Cabbarlının dramlarında Məmmədəli bəy («Sevil»), Aram («1905-ci ildə»), Toğrul («Yaşar»), Nəsrəddin şah («Nəsrəddin şah»), Mirzə Səməndər («Almaz»), Altay («Səyavuş», Hüseyn Cavid), Zülfüqar və Qacar («Vaqif», Səməd Vurğun), Hüseyn («Aşnalar», Sabit Rəhman), Əliş («Qatır Məmməd», Zeynal Xəlil), Mehdi, Qurd Kərim və Nəbi («Qaçaq Nəbi», Süleyman Rüstəm), Məhərrəm («Şərqin qalası», Qurban Musayev), Məlik Əhməd («Məlik Məmməd», Əyyub Abbasov), Kərim («İşıqlı yollar», İlyas Əfəndiyev), Qoçu («Şərqin səhəri», Ənvər Məm-

mədxanlı), Alışov («Kəndçi qızı», Mirzə İbrahimov), Böyük xan («Dumanlı Təbriz», Məmməd Səid Ordubadi), Tərlan və Qüdrət («Bahar», Məmmədhüseyn Təhmasib), Fərəc əmi («Göz həkimi», İslam Səfərli), Göyüş («Kişilər», Altay Məmmədov), Əşrəf («Vicdan», Bəxtiyar Vahabzadə), Roller («Qaçaqlar», Fridrix Şiller), Doristeo («Kələkbaz sevgili», Lope de Veqa), Xlestakov («Müfəttiş», Nikolay Qoqol), Stefan («Praqanın şabalıd ağacları altında», Konstantin Simonov), Doktor Dalbanezo («Kəllə», Nazim Hikmət), Volodya Doroxin («Köhnə dostlar», Leonid Malyugin), Mironov («Özgə uşağı», Vasili Şkvarkin).

Akademik Milli Dram Teatrında oynadığı əsas səhnə obrazları: Kərəm, Məliküldövlə («Unuda bilmirəm» və «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), Xərabati («Xəyyam», Hüseyn Cavid), Əbdül («Solğun çiçəklər», Cəfər Cabbarlı), Rəcəb («Küləklər», Sabit Rəhman), Məşədi Qulam («Mirzə Şəfi», Nəbi Xəzri), Əliquş («Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Zeyni baba («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Qayınata («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Qədim («Qızıl teşt», Seyran Səxavət), Ruben («Darıxma, ana!», Nodar Dumbadze), Behzad («Məhəbbət əfsanəsi», Nazim Hikmət), Atakişi («Sevil», Cəfər Cabbarlı), Baş həkim («Karıxmış sultan», Taufiq əl Hakimi), Məşədi İslam («Yastı təpə», Əkrəm Əylisli), Qoca («Xanuma», Avqsenti Saqareli).

«Azərbaycanfilm» kinostudiyasında «Atları yəhərləyin», yaxud «Qaçaq Nəbi» (İran sərbazı), «Yenilməz batalyon» (Rasim), «Qızıl uçurum» (Arabaçı), «Axırıncı aşırım», «Dəli Kür» (Allahyarın dostu), «Güllələnmə təxirə salınır» (Sahə müvəkkili Kəbleyi) bədii filmlərində çəkilib.

Muxtar Avşarov 24 may 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 10 dekabr 2002-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Aktyor 2004-cü il dekabr ayının 1-də Bakıda vəfat edib.

Nəcibə Məlikova
(25.10.1921 – 6.7.1992)

İlk əvvəl kino aktrisası kimi şöhrətlənmiş, yaradıcılığının əsas qolu teatr sənəti ilə bağlı olan Nəcibə Haşım qızı Məlikova 1921-ci il oktyabr ayının 25-də Bakının Buzovna kəndində doğulub. İlk təhsilini kənddə və Bakıda alıb. Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbində (Texnikumunda) Xalq artisti Fatma Qədrinin sinfini bitirib (1940 – 1943). Tələbəlik dövründə «1905-ci ildə» (Cəfər Cabbarlı) və «Dağılan tifaq» (Əbdürrəhim bəy Haqverdiyev) tamaşalarının hər ikisində Sona obrazını oynayıb.

Texnikumu bitirən ili Nəcibə xanım öz istəyi ilə Gəncə Dövlət Dram Teatrında işləməyə gedib. Burada bir neçə tamaşada çıxış etmiş aktrisanın ən yaxşı rolu Cəfər Cabbarlının «Yaşar»ındakı Yaqut surətidir. Sonra o, Bakıya gələrək təzəcə təşkil olunmuş Teatr institutuna daxil olub və burada Ədil İsgəndərovdan, Rza Təhmasibdən, Kazım Ziyadan, yenə Fatma Qədridən sənət dərsləri alıb. 1951-ci ildə ali məktəbi bitirib. Texnikumda təhsil aldığı illərdə Milli Dram Teatrının tamaşalarında epizodlar oynayan aktrisa 1952-ci ildən kinolara çəkilişlə bağlı kiçik fasilələrlə Akademik teatrda ömrünün sonunacan işləyib.

Nəcibə Məlikova klassik və çağdaş Azərbaycan dramaturqlarından Hüseyn Cavidin «Şeyx Sənan» (Xumar), «Səyavuş» (Firəngiz), Cəfər Cabbarlının «Aydın» (Böyükxanım), Əbdürrəhim bəy Haqverdiyevin «Pəri cadu» (Şamama cadu) faciələrində, Mirzə İbrahimovun «Həyat» (Atlas), Cəfər Cabbarlının

«1905-ci ildə» (Sona), «Sevil» (Edilya), İlyas Əfəndiyevin «Büllur sarayda» (Qonça), Cabbar Məcnunbəyovun «İldırım» (Qəmər), Nəbi Xəzrinin «Əks-səda» (Zərifə), «Mirzə Şəfi Vazeh» (Zübeydə xanım), Səməd Vurğunun «Vaqif» (Xuraman), Maqsud İbrahimbəyovun «Ümid» (Ana), «Kərgədan buynuzu» (Diləfruz xanım), Rəsul Rzanın «Qardaşlar» (Valya), Məmməd Səid Ordubadinin «Qılınc və qələm» (Səhnə üçün işləyəni Tofiq Kazımov. Safiyə), Cəmil Əlibəyovun «Gülüstanda qətl» (Bəyim nənə), Qeybulla Rəsulovun «Qarabağ əfsanəsi» (Şəhla xanım) dramlarında mürəkkəb xarakterli rollar ifa edib.

Aktrisa komediya janrlı tamaşalarda da uğur qazanıb. Sabit Rəhmanın «Əliqulu evlənir» (Yasəmən), «Küləklər» (Firuzə), Şıxəli Qurbanovun «Əcəb işə düşdük» (Məlahət), Mirzə İbrahimovun «Kəndçi qızı» (Ayxanım), Mirzə Fətəli Axundzadənin «Lənkəran xanının vəziri» (Şölə xanım və Ziba xanım), «Müsyö Jordan və Dərviş Məstəlişah» (Şəhrəbanı), İlyas Əfəndiyevin «Qəribə oğlan» (Məlahət) komediyalarında cazibəli və koloritli yumorlu səhnə obrazları oynayıb.

Tərcümə əsərlərindən Aleksandr Ostrovskinin «Cehizsiz qız» (Oqudalova), Hüseyn Muxtarovun «Kimdir müqəssir?» (Korinkina), Maksim Qorkinin «Zıkovlar» (Sofiya İvanovna), Anatoli Safronovun «Daşqın» (Anna Yermakova), Nazim Hikmətin «Şöhrət və ya unudulan adam» (Həkimin arvadı), «Türkiyədə» (Nazir qızı), Karlo Haldoninin «Məzəli hadisə» (Marianna), Aleksandr Şirvanzadənin «Namus» (Süsənbər), Fridrix Şillerin «Orlean qızı» (Aqnessa), Lope de Veqanın «Sevilya ulduzu» (Estrelya) pyeslərinin tamaşalarında çıxış edib.

Nəcibə xanım kinoda uğurlu rollar yaradıb. Onların arasında «Ögey ana»da Dilarə, «Aygün»də Aygün, «Arşın mal alan»da Cahan xala, «Əhməd haradadır?»da Nərgiz xala rollarının ifası həm kinomuzun, həm də aktrisanın yaradıcılıq nailiyyətləri kimi

dəyərlidir. O, «Fətəli xan» (Zübeydə), «Leyli və Məcnun» (Səlimə), «Qanun naminə», yaxud «Mehman» (Zərintac), «Bakının işıqları» (Mirvarid) və digər bədii filmlərdə də maraqla baxılan ekran surətlərinə çəkilib. Aktrisa ondan çox ekran əsərində epizod rollar oynayıb.

Nəcibə xanım Məlikova məlahətli, emosional, lirik-dramatik aktrisa idi.

Mənən safqəlbli qəhrəmanları, məhəbbət yolunda mürəkkəb vəziyyətlərdə gücsüz görünüb kövrələn, ancaq xeyirxah insanların köməyi ilə mətanətini qoruyub saxlayan personajları uğurla oynayırdı.

Aktrisanın yumorunda da həzin və kövrək lirizm üstünlük təşkil edirdi. Xalq yumorundan ustalıqla bəhrələnirdi.

Ömrünün son illərində Nəcibə xanım həm tarixi şəxsiyyətlərin, həm də ahıl analaın obrazlarında səhnəyə çıxıb. Mürəkkəb xarakterli, məfkurəsi, ictimai mənsubiyyəti və davranış tərzi ilə fərqli olan bu rolların ifasında aktrisa son dərəcə səmimi, yapışıqlı, məhrəm görünüb. Hətta tamaşaçının qınaq yeri olan personajların ifasında da Nəcibə Məlikovanın qadın məsumluğu qabarıq nəzərə çarpıb. Çünki aktrisa, ilk növbədə, insan oynamağa, obrazının ifadə vasitələrini ən dərin qatlarda da həssaslıqla, emosionallıqla və estetik məntiqlə göstərməyə çalışırdı.

Səhnə məlahətindən ifa etdiyi obrazın xarakterinə uyğun tərzdə istifadə edir və bununla səhnə personajının bədii-estetik tutumunu daha cazibədar edirdi. Bu məlahət aktrisanın romantik rollarında daha füsünkar təsir bağışlayırdı.

Nəcibə Məlikova 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının Əməkdar, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adlarını alıb.

1992-ci il iyul ayının 6-da Bakıda vəfat edən Nəcibə xanım Məlikova İkinci Fəxri xiyabanda dəfn edilib.

Tofiq Kazımov
(14.1.1923 – 2.8.1980)

Azərbaycanda lirik-psixoloji teatr məktəbinin yaranması, inkişafı və formalaşması Tofiq Kazımovun adı ilə bağlıdır. O, görkəmli teatr xadimi, şair Səməd Mənsurun oğludur. Səməd Mənsur Bakıda mövcud olan bir sıra mədəni-maarif cəmiyyətləri (məsələn, «Nicat», «Səfa») teatr truppalarının rəhbərlərindən idi.

Tofiq Kazımov 1923-cü il yanvar ayının 14-də Bakıda doğulub və yeddiillik təhsilini burada alandan sonra Teatr məktəbini bitirib (1939 – 1942). Böyük Vətən müharibəsində iştirak edib. Döyüşlərdə yaralanaraq 1943-cü ildə cəbhədən qayıdıb və Gənc Tamaşaçılar Teatrında aktyor işləyib. Əyyub Abbasovun «Məlik Məmməd», Abdulla Şaiqin «Ana» dramlarının tamaşalarında Bulud və Əmrah rollarını oynayıb. 1945 – 1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti İnstitutunda rejissor təhsili alıb. Tələbə ikən Ağdam Dövlət Dram Teatrında Həsən Qasımovun «Kür sahilində» pyesini tamaşaya hazırlayıb.

1951-ci ildə Akademik Milli Dram Teatrında diplom tamaşası kimi Hüseyn Muxtarovun «Ailə namusu» («Allanın ailəsi») pyesinə səhnə quruluşu verib. 1952-ci il aprelin 25-də Gənc Tamaşaçılar Teatrına baş rejissor göndərilib, ancaq burada tamaşa hazırlamayıb. Elə həmin il oktyabrın 1-də Akademik teatra rejissor götürülüb. 1964-cü il martın 16-da bu teatra baş rejissor təyin olunub. 1980-ci il avqust ayının 2-ə avtomobil qəzasında həlak olana qədər baş rejissor işləyib.

1958-ci ildə kinostudiyaya işə qəbul olunaraq «Azərbaycanfilm»də çəkilən «Səhər» kinolentində rejissor kimi çalışıb. Elə

həmin il Rus Dram Teatrında Ənvər Məmmədxanlının «Şərqin səhəri» pyesini tamaşaya hazırlayıb. 1960-cı ildə kinostudiyadan çıxaraq yenidən Akademik teatra quruluşçu rejissor götürülüb. Həmin il Musiqili Komediya Teatrında Tofiq Quliyevin «Qızıl-axtaranlar» (dramaturq Həsən Seyidbəyli) operettasına quruluş verib. Naxçıvan teatrında M.Tarverdiyevin «Kölgəli dağ» (1964), Quba teatrında Rza Şahvələdin «Qız qalası» (1961), Şıxəli Qurbanovun «Əcəb işə düşdük» (1963), Gəncə teatrında Altay Məmmədovun «Yadındamı» (1969) dramlarına quruluş verib.

Tofiq Kazımov uzun illər Teatr institutunda aktyor və rejissor sənətindən dərs deyib. Xalq artistləri Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Kazım Ziya, Əliağa Ağayev (Zəfər Nemətovla birgə), İsmayıl Osmanlı barədə monoqrafiyalar yazıb. «Çağırış», «İşıqlı yollarda», «Şəfəq», «Qoçaq Polad» və digər pyeslərin müəllifidir. Mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara aid resenziya və məqalələrlə çıxış edib.

Akademik Milli Dram Teatrında sıravi rejissor kimi quruluş verdiyi tamaşalar:

1952, 4 yanvar. «Məzəli hadisə», Karlo Haldoni.

1953, 4 aprel. «Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə.

1953, 19 sentyabr. «Sevilya ulduzu», Lope de Veqa.

1954, 13 fevral. «Vassa Jeleznova», Maksim Qorki.

1956, 2 iyun. «Qardaşlar», Rəsul Rza.

1956, 17 noyabr. «Qəribə adam», Nazim Hikmət.

1957, 22 mart. «Şirvan gözəli», Ənvər Məmmədxanlı.

1961, 26 aprel. «Gözəllik və sevgi adası» («Afrodita adası»), Aleksis Parnis.

1961, 2 dekabr. «Əcəb işə düşdük», Şıxəli Qurbanov.

1962, 17 mart. «Mariya Tüdor», Viktor Hüqo.

1963, 14 iyun. «Dəlilər», Lope de Veqa.

1963, 27 oktyabr. «Sevimli rollar», Sabit Rəhman.

Baş rejissor kimi Akademik teatrda səhnə təfsiri verdiyi tamaşalar:

1964, 23 aprel. «Antoni və Kleopatra», Uilyam Şekspir.
1964, 14 oktyabr. «Sən həmişə mənimləsən», İlyas Əfəndiyev.
1965, 18 dekabr. «Yalan», Sabit Rəhman.
1966, 12 noyabr. «Ölülər», Cəlil Məmmədquluzadə.
1967, 2 iyun. «Sənsiz», Şıxəli Qurbanov.
1968, 15 mart. «Hamlet», Uilyam Şekspir.
1968, 1 noyabr. «Unuda bilmirəm», İlyas Əfəndiyev.
1969, 30 iyun. «Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev.
1969, 29 noyabr. «Məhv olmuş gündəliklər», İlyas Əfəndiyev.
1970, 19 sentyabr. «Nazirin xanımı», Branislav Nuşiç.
1970, 3 oktyabr. «Küləklər», Sabit Rəhman.
1971, 8 may. «Yağışdan sonra», Bəxtiyar Vahabzadə.
1971, 9 oktyabr. «Qızıl», Yucin O'Nil.
1972, 26 may. «Aydın», Cəfər Cabbarlı.
1973, 17 fevral. «Nağıl başlananda», İmran Qasımov.
1974, 3 may. «Fırtına», Uilyam Şekspir.
1974, 28 dekabr. «Övlad», Aleksandr Vampilov.
1975, 1 oktyabr. «Bağlardan gələn səs», İlyas Əfəndiyev.
1976, 19 mart. «Qılınc və qələm», Məmməd Səid Ordubadi (səhnələşdirəni Tofiq Kazımov).
1976, 27 noyabr. «Ümid», Maqsud İbrahimbəyov.
1977, 6 mart. «Bəşərin komediyası» yaxud «Don Juan», Mirzə İbrahimov.
1977, 27 may. «Daşqın», Anatoli Safronov.
1977, 16 dekabr. «Şəhərin yay günləri», Anar.
1977, 30 dekabr. «Qızıldan qiymətli», Draqomir Asenov.
1978, 30 iyun. «Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə.
1978, 29 dekabr. «Quşu uçan budaqlar», Əkrəm Əylisli.
1980, 23 fevral. «Karıxmış sultan», Taufiq əl Hakimi.

«Yastı təpə», Əkrəm Əylisli. Premyerası 1980-ci il aprel ayının 27-də oynanılan bu tamaşa rejissorun son quruluşudur.

Tofiq Kazımov 1965-ci ildə «Antoni və Kleopatra» (Uilyam Şekspir) və 1979-cu ildə «Şəhərin yay günləri» (Anar) tamaşalarına görə Dövlət mükafatları ilə təltiflənib. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi (1961) və Xalq artisti (1 iyun 1974) fəxri adlarına layiq görülüb.

Tofiq Kazımov baş rejissorluğu dövründə teatra çoxlu istedadlı gənc cəlb edib.

Yeni teatr poetikası yaratmaqla, onun estetik səciyyələrini müəyyənləşdirdi. Sözün əsl mənasında, hazırladığı səhnə əsərlərində «tamaşanın müəllifi» səviyyəsinə yüksəlirdi.

Səhnəni maksimum dərəcədə boşaltmağa çalışır və bununla fəza (məkan) genişliyinə nail olurdu.

Səhnə tərtibatındakı «xəsislik» əsas diqqəti aktyora yönəldirdi. Qaysaqlanıb köhnəlmiş səhnə şərtiliklərini cəsarətlə sındırırdı.

Onun quruluş verdiyi tamaşalarda pərdə obraz-rəmzə çevrilirdi.

Klassik dramlara «doğma», «toxunulmaz» kimi baxmaq fikrinin əleyhinə çıxır, həmin əsərlərin tamaşalarında cəsarətli eksperimentləri, inamlı axtarışları, dəyərli nəticələri ilə diqqəti cəlb edirdi.

Səhnədə məşq prosesində tamaşanın kompozisiyasını qurandan sonra ecazkar improvizələr edir, gözlənilməz fəlsəfi-estetik qənaətlərə gəlirdi.

Bədii materialın səhnə təfsirində Tofiq Kazımovun əsas «silahı» poetik, psixoloji, dramatik fikir yükü daşıyan mizanlar idi.

Onun tamaşalarında obraz üçün məxsusi yazılmış mahnıları aktyorlar özləri oxuyurdular. Buna görə də ifaçı səhnədə həmişə obrazda olur və bununla da vəziyyəti bilavasitə yaşayırdı.

«Özgələşmə effekti»nin milli formasını yaratmaq üçün epik teatrın ünsürlərindən cəsarətlə və novatorcasına bəhrələnirdi.

Tofiq Kazımovun hazırladığı tamaşalarda divar, qapı, pəncərə və sair əşyalar (obyektlər) həm özünün konkret məişət mahiyyətini yerinə yetirir, həm də atribut-obraza çevrilirdi.

Akademik teatrda gənc qəhrəman rolları həmişə tanınmış, müəyyən fəxri adlarla təltiflənmiş 50 – 60 yaşlı aktyorlara verilirdi. Bu səmərəsiz ənənəni məhz Tofiq Kazımov cəsarətlə sındırdı. O, «Sən həmişə mənimləsən» tamaşasında 18 yaşlı Nargiləni tələbə Amaliya Pənahovaya, «Ölülər»dəki gənc İsgəndəri 28 yaşlı Həsən Turabova tapşırdı.

Tofiq Kazımovun tamaşalarında həm fikir, həm də estetik forma baxımından həmişə təzə-tərlik, təravət vardı.

Tofiq Kazımovun quruluş verdiyi tamaşalarda XX əsrin hərəkət və təfəkkür sürəti, qlobal ictimai və siyasi proseslərin ritmi, insanların həyat tərzinin dinamikası, düşüncə tərzinin itiliyi müxtəlif bədii, estetik, fəlsəfi, psixoloji formalarda parlaq təcəssümünü tapırdı.

Tofiq Kazımovun tamaşalarının finalı özü bir tamaşa idi.

Rejissorun əsər üçün seçib qurduğu bədii, estetik, fəlsəfi konsepsiya finalda zahirən həlim, lirik, sakit, yumşaq, ancaq enerji nüvəsində coşqunluq, əzəmət, hayqırtı olan tərzdə tamaşaçılara çatdırılırdı.

Tofiq Kazımov çağdaş dünya teatr poetikalarını və estetikalarını dərindən mənimsəmiş sənətkar idi. O bu poetika və estetikaları Azərbaycan teatrının fəlsəfi mahiyyəti ilə ahəngdar şəkildə uzlaşdıra bilirdi. Bu uzlaşma tamaşaların psixoloji dərinliyinə lirik-dramatik ahəng verirdi.

Milli rejissuramızın korifeylərindən sayılan Tofiq Kazımov 1980-ci il avqust ayının 2-də Gəncə – Göygöl yolunda avtomobil qəzasında həlak olub. Məzarı Bakıda, İkinci Fəxri xiyabandadır.

Məlik Dadaşov
(7.6.1924 – 3.12.1996)

Yaradıcılıq yönümü xarakter rollarda formalaşan, dramatik və satirik obrazları da oynamaqda böyük səriştəsi olan Məlik Yusif oğlu Dadaşov 1924-cü il iyun ayının 7-də Bakıda doğulub. Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində təhsil alıb. 1941 – 1945-ci illərdə Böyük Vətən müharibəsində vuruşub. Ordudan qayıtdıqdan sonra rejissor Məhərrəm Haşımovun çağırışı ilə Gənc Tamaşaçılar Teatrına aktyor götürülüb. Əyyub Abbasovun xalq nağılı əsasında yazdığı «Məlik Məmməd» pyesinin tamaşasında Siracı oynayıb. Bəzi tamaşalarda epizod rollarda çıxış edib.

Bu ərəfədə Zaqatala Dövlət Dram Teatrı kollektivə aktyor qəbulu barədə elan verib. Məlik Dadaşov ora işləməyə gedib. Süleyman Sani Axundovun «Eşq və intiqam», Aleksandr Şirvanzadənin «Namus», Səməd Vurğunun «Vaqif» əsərlərində Əlimərdan, Seyran, Vaqif rollarında çıxış edib. 1946-cı ilin mayında Şəmkir Dövlət Dram Teatrına gəlib və bir il sonra Bakıya qayıdaraq Teatr institutuna, Ədil İsgəndərovun rəhbərlik etdiyi aktyorluq kursuna qəbul olunub.

Məlik Dadaşov 1950-ci il oktyabrın 30-dan Akademik Milli Dram Teatrında işləyib. Arada teatrdan çıxaraq institutda müəllim, Rus Dram Teatrında direktor və bədii rəhbər (1989–1991) işləyib, sonra yenə Milli teatra qayıdıb. Həmçinin institutda aktyor sənətindən dərs deyib.

Məlik Dadaşovun Akademik Milli Dram Teatrında ifa etdiyi səhnə surətləri ifadə vasitələrinin zənginliyi, aktyorluq boyalarının əlvanlığı ilə seçilir. Aktyorun milli klassik və çağdaş

dramaturqların əsərlərinin tamaşalarında ifa etdiyi fəci xarakterli və dramatik səciyyəli rollar: Səməd Vurğunun dramlarında Bizans sərkərdəsi, Şiruyə və Şapur («Fərhad və Şirin»), Kürd Musa və Qacar («Vaqif»), Cəfər Cabbarlının dramlarında Aqşin və Elxan («Od gəlini»), Aram («1905-ci ildə»), Bitərəf Əli («Qardaşlar», Rəsul Rza), Mister Gibson, Şamil («Od içində» və «İliç buxtası», Cabbar Məcnunbəyov), Yusif Şəfi («Ana ürəyi», İslam Səfərli), Mazar bəy və Nəriman Nərimanov («Közərən ocaqlar», Mirzə İbrahimov), Səməd («Çiçəklənən arzular», Məmmədhüseyn Təhmasib), Aslan («Yağışdan sonra», Bəxtiyar Vahabzadə), Tərlan («Sənsiz», Şıxəli Qurbanov), Qurban («Nağıl başlananda», İmran Qasımov), Manafov («Yastı təpə», Əkrəm Əylisli), Ziyad Şahsuvarov («Atayevlər ailəsi», İlyas Əfəndiyev), Kamera qonşusu («İstintaq», Rüstəm İbrahimbəyov), Bodenştedt («Mənsiz dünya», Nəbi Xəzri).

Tərcümə əsərlərinin tamaşalarında oynadığı dramatik səhnə surətləri: Arif («Ailə namusu», Hüseyn Muxtarov), Zabelin («Tufanlı il», Aleksey Kapler), Şiveko («Qısqanc ürəklər», Raço Stoyanov), Quziyev («İpək naxışlar», Abdulla Qəhhar), Cahangir («Namus», Aleksandr Şirvanzadə), Bəkir («Türkiyədə», Nazim Hikmət), Yakov-Yusif («Özgə uşağı», Vasili Şkvarkin), Paratov («Cehizsiz qız», Aleksandr Ostrovski), Ralf Ounes («Gözəllik və sevgi adası», Aleksis Parnis), Ruprext («Yad adam», Leonqard Frank).

Aktyorun faciə janrlı əsərlərdə yüksək sənətkarlıqla oynadığı fəci, komik və tragikomik rollar: Uilyam Şekspirin komediya və faciələrində Sebastian («On ikinci gecə»), Prospero («Fırtına»), Yaqo («Otello») və Maqbet («Maqbet»), Viktor Karenin («Canlı meyit», Lev Tolstoy), Şeyx Nəsrulla («Ölülər», Cəlil Məmmədquluzadə), Serqo («Şeyx Sənan», Hüseyn Cavid), Don Aryas («Sevilya ulduzu», Lope de Veqa), Kavaler De Lya Kotri («Məzəli hadisə», Karlo Haldoni), Dərviş Məstəlişah («Müsyö

Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Camal, Kəblə Muxtar («Nişanlı qız» və «Küləklər», Sabit Rəhman).

Məlik Dadaşov Rus Dram Teatrında İlyas Əfəndiyevin «Büllur sarayda» (Ağahüseyn), B.İsaakın «Qürub» (Mendel Krik), Yusif Səmədoğlunun «Qətl günü» (Cavid Əfəndi) tamaşalarında da oynayıb. 12 may 1984-cü ildə Sabit Rəhmanın «Nişanlı qız» komediyasına Akademik teatrda quruluş verib. Sumqayıt Dövlət Dram Teatrının hazırladığı «Bütün Şərq bilsin» (Nəriman Həsənzadə) tamaşasında Nəriman Nərimanovun səhnə obrazını yaradıb.

Çəkildiyi bədii filmlər arasında «Bir məhəlləli iki oğlan» (Nazif), «Koroğlu» (Bolu bəy), «Leyli və Məcnun» (Ərəb), «Bir qalanın sirri» (Dərviş) «Dəli Kür» (Molla Sadıq), «Dağlarda döyüş» (İngilis kəşfiyyatçısı), «Bizim küçə» (Karl), «Ulduzlar sönmür» (General Mehmandarov), «26 Bakı komissarı» (Əzizbəyov), «Cazibə qüvvəsi» (Məmmədov), «Birisi gün gecə yarısı» (Nəriman Nərimanov), «Kimi daha çox sevirik» almanaxı «Cazibə qüvvəsi» novellası. Məmmədov), «De ki məni sevirsən» (Milis podpolkovniki), «Mezozoy əhvalatı» (Bədirov), «Uşaqlığın son gecəsi» (Nağıyev), «Bizim küçənin oğlanları» (Əbdül), «Axırıncı aşırım» (Qəmlo), «O dünyadan salam» (Şeyx Nəsrulla), «Gənc qadının kişisi» (Arif), «Meyil» (Kişi), «Müharibəni görən adam» (Niyazxan), «Fəryad» (Aram Xaçaturyan), «Dağıdılmış körpü» (Kişi), «Güllələnmə təxirə salınır» (Müstəntiq) kinolentlərindəki rolları yaddaqalandır. «Hacı Qara» filmindəki Ohan yüzbaşı rolu tamamlanmamış qalıb.

Teatrda Şeyx Nəsrulla, kinoda Qəmlo aktyorun ən uğurlu sənət nailiyyətləri sayılır. Məlik Dadaşov daxilən rahatsız aktyor idi. Çılğın ehtiraslı, xarakteri «ölçüyə» sığmayan obrazlara ciddi maraq göstərirdi.

Obrazın ritmini, səhnə hərəkət və davranışını uzun müddət axtarır, dəfələrlə sınaqdan çıxarır, daha sonra tamaşada «özününküləşdirirdi».

Əməl-fəaliyyət xəttinin sürət-ritmi iti olan (məsələn, Şeyx Nəsrulla, Dərviş Məstəlişah) rollara məxsusi danışıq tərzi tapırdı.

Cingiltili səsini istədiyi ritmdə və istədiyi ton yüksəkliyində asanca, aydın işlədirdi.

Yöndaşına (tərəf-müqabilinə) səhnədə meydan açmağı xoşlayır, dramatik pauzalarda səhnə boyu işlənən genişmiqyaslı mizanlara üstünlük verirdi.

Məlik Dadaşov oynadığı xarakter səviyyəli tiplərə qarşı çox həssas idi. Şeyx Nəsrulla, Dərviş Məstəlişah səpkili obrazların məşqində dramaturqun «xəsisliklə», eyhamla, üstüörtülü dediyi mətləblərə xüsusi diqqət yetirir, onların məna və mətləblərini özü üçün aydınlaşdırır, yalnız müəyyən qənaətə gələndən sonra həmin yığcamlıqda detallar, ştrixlər, jestlər, hərəkət «monoloqu» axtarmağa başlayırdı.

Satirik və məsxərə tipli obrazların ifasında qroteskdən istifadə etməyi xoşlayırdı. Bu cəhd aktyorun istedad şıltaqlığından doğmurdu, əksinə, obrazın mənəvi aləminin mürəkkəbliyi ilə bağlanır, tamaşanın forma realistliyinə xidmət edirdi, rejissorun ümumi konsepsiyasına xələl gətirmirdi.

Məlik Dadaşov daxilən çox ehtiraslı, çılğın və enerjili aktyor idi. O bu bədii keyfiyyətləri psixoloji dəqiqliklə oynadığı obrazların xarakterinə sirayət etdirirdi.

Son çağırış Azərbaycan SSR Ali Sovetinin Gədəbəy rayonundan deputatı olub. «Birisi gün gecə yarısı» filminə görə Respublika Dövlət mükafatı laureatıdır (26 may 1986). 24 may 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adları ilə təltif edilib.

Məlik Dadaşov Mədəniyyət və İncəsənət Universitetinin Tədris teatrında tələbələrlə məşq zamanı səhnədə yıxılıb, başından ağır yara alıb. Üç gün sonra 1996-cı il dekabr ayının 3-də dünyasını dəyişib. Məzarı Bakıda, İkinci Fəxri xiyabandadır.



Sadıq Hüseynov
(29.12.1924 – 1.6.2003)

Xarakterik və tipik bədii obrazların ifaçısı Sadıq Ömər oğlu Hüseynov 29 dekabr 1924-cü ildə Kürdəmirin Atakişili kəndində doğulub. Kürdəmirdəki 1 saylı orta məktəbdə oxuyub (1931 – 1941). Şagird vaxtlarında rayon mədəniyyət evi dram dərnəyinin fəal üzvlərindən olub. Həvəskar aktyorlarla Əbdürrəhim bəy Haqverdiyevin «Dağılan tifaq», Cəfər Cabbarlının «Aydın», «Sevil» dramlarının tamaşalarında oynayıb. 1942-ci ildə hərbi xidmətə çağırılıb və müharibədə iştirak edib. Ağır yaralanaraq Kürdəmirə gəlib və yerli radio qovşağında işləyib. 1949-cu ildə Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsinə daxil olub. İki ildən sonra aktyorluq fakültəsinə dəyişilib. Tələbə ola-ola, Azərbaycan radiosunda diktor işləyib.

Ali təhsilini başa vurduqdan sonra təyinatla 10 sentyabr 1952-ci ildə Gənc Tamaşaçılar Teatrının truppasına daxil olub. Bu sənət ocağında bir qədər işləyəndən sonra Ədil İsgəndərovun dəvəti ilə Akademik Milli Dram Teatrına qəbul edilib. 1976-cı ildə Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında işləməyə başlayıb. Həmçinin kinostudiyanın nəzdindəki «Kinoaktyor teatrı» truppasına daxil olub. 1987-ci ilə qədər «Azərbaycanfilm»də işləyib.

Sadıq Hüseynovun Akademik Milli Dram Teatrında ifa etdiyi rollar müxtəlif xarakterlidir. Aktyorun klassik və çağdaş milli dramaturqların pyeslərinin tamaşalarında oynadığı rollar: Cəfər Cabbarlının dramlarında Məhkəmə sədri («Almaz»), Qurban («Aydın»), Sönməz («Od gəlini»), Fikrət Kamal («Dönüş»),

Arşaq («1905-ci ildə»), Heydər («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Birinci əcinnə («Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Hacı Baxşəli («Ölülər», Cəlil Məmmədquluzadə), İxtiyar, Xərabati («Səyavuş» və «Xəyyam», Hüseyn Cavid), İran əsgəri («Fərhad və Şirin», Səməd Vurğun), Aslan («Nişanlı qız», Sabit Rəhman), Usta baba, Xəlil («Közərən ocaqlar» və «Həyat», Mirzə İbrahimov), Rosselinintin katibi («Uzaq sahillərdə», İmran Qasımov və Həsən Seyidbəyli), Con («Qardaşlar», Rəsul Rza), Kazak Vasili («Qaçaq Nəbi», Süleyman Rüstəm), Çərkəz («Dağlar qızı», Adil Babayev), Kuzmiç («Məhəbbətin hökmü», Cabbar Məcnunbəyov), Sarvan («Kəndçi qızı», Mirzə İbrahimov).

Tərcümə əsərlərinin tamaşalarında çıxış etdiyi bədii səhnə obrazları: Uilyam Şekspirin faciələrində Qonzalo («Fırtına»), Birinci aktyor («Hamlet»), Skar («Antoni və Kleopatra»), Birinci qasid («Otello»), Dion («Qış nağılı»), Leonato, Don Manuel («Dəlilər» və «Sevilya ulduzu», Lope de Veqa), Tacir («Müfəttiş», Nikolay Qoqol), Dudukin, Qolutvin («Günahsız müqəssirlər» və «Müdriklər», Aleksandr Ostrovski), Saylos Xori («Qızıl», Yucin O`Nil), Miller («Məkr və məhəbbət», Fridrix Şiller), İvan Makaroviç («Canlı meyit», Lev Tolstoy), Nardi («Çarəsiz dələduz», Raffaele Viviani), Lakey, Əli, Hərbi müşavir («Şöhrət və ya unudulan adam», «Qəribə adam» və «Türkiyədə», Nazim Hikmət), Komsomolçu («Prokurorun qızı», Yuri Yanovski), İkinci cəllad («Hind gözəli», Yuri Osnos və Viktor Vinnikov), Rauf («Köç», Cavad Fəhmi Başkut), Salmanov («Kimdir müqəssir?», Hüseyn Muxtarov), Feliks Dzerjinski («Zamanın hökmü», Nikolay Poqodin), Usta Qenço («Ustalar», Raço Stoyanov).

Aktyor «Azərbaycanfilm» studiyasında «Mən ki gözəl deyildim» (Qurban), «Bir cənub şəhərində» (Babaş), «General» (Zabit), «Çarvadarların izi ilə» (Mahmud kişi»), «Sevinc buxtası» (Fətullayev), «Arvadım mənim, uşaqlarım mənim» (Kişi), «Mən mahnı qoşuram» (Qonşu), «Zəncirlənmiş adam» (Bazilo), «Sən niyə susursan?»

(Sahə müvəkkili), «Qızıl qaz» (Əlihüseyn), «Ömrün iki saatı» (Milis rəisi), «Qızıl uçurum» (Əhməd), «Qorxma, mən sənin-ləyəm» (Kəndli), «Axırıncı aşırım» (Səməd), «Musiqi müəllimi» (Müəllim), «Köhnə bərə» (Rəhim), «Şəhərli biçinçilər» (Əsəd), «Lətifə» (İstefada olan polkovnik) bədii kinolentlərinə çəkilib.

Teatrda işləməklə yanaşı, Azərbaycan Dövlət Radiosu və Televiziyasının uşaq verilişlərindən uzun illər «Savalan baba» kimi məşhurlaşıb.

Sadıq Hüseynov 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltiflənib.

Aktyor 2003-cü il iyun ayının 1-də Bakıda vəfat edib.

Lütfi Məmmədbəyov
(6.2.1927 – 1.2.2004)

Lütfi Şahbaz oğlu Məmmədbəyov 1927-ci il fevral ayının 6-da Ağdaşda doğulub. Uşaq vaxtı ailəsi Bakıya köçüb. O, paytaxtdakı 29 saylı orta məktəbə gedib. Burada səkkizinci sinfi bitirəndən sonra Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbində təhsil alıb (1943 – 1947). Tələbə vaxtı GTT-nin tamaşalarında kiçik və epizod rollar ifa edib. Bir müddət Musiqili Komediya Teatrında işləyib (1947 – 1949). 1949-cu ildən 1961-ci ilin sonunadək Gənc Tamaşaçılar Teatrının truppasında çalışıb. 3 dekabr 1961-ci ildə Akademik Milli Dram Teatrında əvvəlcə aktyor, sonra rejissor işləyib. 1966-cı ildən Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsini bitirib.

Akademik teatrda və Azərbaycan Televiziyasında müxtəlif janrlı əsərləri tamaşaya hazırlayıb. AMDT-da bir sıra rollar da oynayıb.

1953-cü ildən 26-lar Mədəniyyət sarayında dram dərnəyinə rəhbərlik edib. Sonra bu kollektiv Xalq teatrına çevrilib. Respublikamızın adlı-sanlı sənətkarlarının bir çoxu səhnədə ilk addımlarını məhz bu Xalq teatrında atıb. Son illər həmin kollektivə hələ sağlığında Lütfi Məmmədbəyovun adı verilib.

Sözsüz ki, Lütfi Məmmədbəyovun yaradıcılığının daha fəal dövrü Gənc Tamaşaçılar Teatrı ilə bağlıdır. O bu teatrın səhnəsində xeyli əlvan və tutumlu yaradıcılıq bioqrafiyası yarada bilib.

Müxtəlif janrlı və müxtəlif mövzulu tamaşalarda ifa etdiyi əsas rollar: Cəlal («Komsomol poeması», İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında), Çinar («Son məktub», Rauf İsmayılov), Mərdan («Bir gəncin manifesti», Mir Cəlal. Səhnələşdirəni Ağəli Dadaşov), Nəsrəddin («Nəsrəddin», Yusif Əzimzadə), Eyvaz («Gülşən», Əli Vəliyevin romanı əsasında səhnələşdirəni Ağəli Dadaşov), Aqil («Aqil və Sərvinaz», Əyyub Abbasov), Şahzadə Klaus («Qarlar kraliçası», Yevgeni Şvarts), Akif («Dərsdən sonra», Mirzə Müştaq), Yaşar və Toğrul («Yaşar», Cəfər Cabbarlı), Rəşid, Murad, Qurban («Anacan», «Qonşular» və «Aprel səhəri», Yusif Əzimzadə), Elşən («İki həyat», Rauf İsmayılov).

Azərbaycan dramaturqlarının əsərlərində oynadığı dramatik və komediya çalarlı personajlar: Hünər («Durna qatarı», İsgəndər Coşqun), Arif («Ayrılan yollar», Cabbar Məcnunbəyov), Baloğlan («Eloğlu», Abdulla Şaiq), Əşrəf bəy («Hacı Qəmbər», Nəcəf bəy Vəzirov), Aydın («Gülən gözlər», Məmmədhüseyn Təhmasib), Seryoja («Gənc ustalar», Zeynal Xəlil), İmran («Tamahkar», Süleyman Sani Axundov), Əkrəm («Sevinc», Əyyub Abbasov), Məşədi Əhməd («Sirli şəhər», Mehdi Hüseynin romanı üzrə səhnələşdirəni Ağəli Dadaşov), Çingiz («Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev), Aydın («Səadət uğrunda»,

Əliməmməd Atayev və Əhməd Əhmədov), Zəfər («Gülər», Qəzənfər Məmmədov), Ramiz («O mənim oğlumdur», Əfqan Əsgərov), Cövdət («İmtahan», Həsən Seyidbəyli).

Tərcümə əsərlərinin tamaşalarında çıxış etdiyi səhnə obrazları: Yakov Yudov («Pavlik Morozov», V.Qubarev), Klaus Corc («Tom dayının koması», Biçer Stou), Devin («Ağbəniz», Valentina Lyubimova), Asxat («Yaşıl sandıqça», İ.Vasilenko), İkinci hakim («Sehrli güvəc», Pavel Malyarevski), Növbətçi («Qastello», İsidor Ştok), Leandr («Skapenin kələkləri», Jan Batist Molyer), Valentin və İkinci qaçaq («İki veronalı», Uilyam Şekspir).

Lütfi Məmmədbəyovun Milli Dram Teatrında ifa etdiyi rollar: Əsgər bəy («Hacı Qara», Mirzə Fətəli Axundzadə), Surxay, Sadıq («Toy» və «Əliqulu evlənir», Sabit Rəhman), Nazim və Lenin («Közərən ocaqlar», Mirzə İbrahimov), Hətəm («Bağlardan gələn səs», İlyas Əfəndiyev), Lətif («Məhəbbətin hökmü», Cabbar Məcnunbəyov), Elşən («Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Zeynal («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Neznamov («Günahsız müqəssirlər», Aleksandr Ostrovski), Filipp («Orlean qızı», Fridrix Şiller), Qasım («Ana torpağı», Çingiz Aytmatov), Qonçarov («Palata», Samuil Alyoşin), Qurd Bəkir («Kimdir müqəssir?», Hüseyn Muxtarov), Leonel Mourano («Bu qadın mənimdir», Raymondo Juniyor), Polis Komissarı («Yad adam», Leonqard Frank), Bəxtiyar («Görünməmiş toy», Qriqori Qorin və Arkadi Arkanov), Yuri Qriqoryeviç (Sevgi... sevgi...», Emil Braginski və Eldar Ryazanov).

Akademik teatrda quruluş verdiyi tamaşalar: «Bağ qonşuları», Hay Vahid (12 sentyabr 1969), «Kimdir haqlı?», Bəxtiyar Vahabzadə (27 dekabr 1981), «Məhəbbət yaşadır», Nahid Hacızadə (21 dekabr 1982 və 18 sentyabr 1994), «Qanqın böyük dalğası», Cahan Əfruz (2 noyabr 1989), «Əcəb işə düşdük», Şıxəli Qurbanov (9 fevral 1993), «Qisas qiyamətə qalmaz», Nahid Hacızadə (24 my 1995).

Aktyor «Məşədi İbad» (Tələbə), «Səhər» (Aslan), «Qızmar günəş altında» (Xəlil), «Leyli və Məcnun» (Qul), «Bəxtiyar» (Bəxtiyarın dostu), «Kazbek qutusu» (Gənc), «Sehrli xalat» (Əli müəllim) bədii, «Yeni il gecəsində» (Bəxtiyar) qısametrajlı filmlərinə çəkilib.

Azərbaycan televiziyasında İlyas Əfəndiyevin «Atayevlər ailəsi», «Mehdi Hüseynin «Alov», İslam Səfərlinin «Göz həkimi», Altay Məmmədovun «Kişilər», Ekzüperinin «Balaca şahzadə», Onore de Balzakın «Polkovnik Şater», Bəxtiyar Vahabzadənin «Vicdan», Çingiz Aytmatovun «Köşək gözü», «Qırmızı yaylıqlı qovağım» və digər əsərləri tamaşaya hazırlayıb.

Lütfi Məmmədbəyov Azərbaycan Respublikasının Əməkdar artisti (1 iyun 1974) və Xalq artisti (22 may 1991) fəxri adları ilə təltif edilib.

Ömrünün sonuna kimi Akademik Milli Dram Teatrının kollektivindən ayrılmayan aktyor-rejissor 1 fevral 2004-cü ildə Bakıda vəfat edib.

Müxlis Cənizadə
(28.11.1928 – 11.12.1972)

Aktyorluqla yanaşı, məşhur qiraət ustası kimi tanınıb. Lətafətli, şaqraq və cingiltili səsi, dupduru, apaydın ləhcəsi vardı. Sözləri son dərəcə aydın, məzmuna uyğun vurğu ilə tələffüz edirdi və bununla da poetik parçanın daxili ləngərinə, psixoloji ahənginə uyğun lirik romantik lövhə yaradırdı. Qayışbaldır bədəni ona səhnədə hər cür mürəkkəb hərəkətləri plastik ahənglə obrazın bədii ruhuna uyğun olaraq, yumşaq və

zərif, dramatik və fəci, emosional və romantik cazibədarlıqla icra etməyə, rolun xarakterinə uyğunlaşdırmağa imkan verirdi.

Azərbaycan Dövlət Teatr İnstitutunun məşhur pedaqoqlarından idi. Uzun illər tələbələrə səhnə danışığından dərs deyib. İnstitutun səhnə danışığı kafedrasının 1968-ci ildən dosenti idi. Xalq artistləri Rasim Balayev, Mikayıl Mirzə, Əməkdar artist Səməndər Rzayev Müxlis müəllimin tələbələri olublar. Müxlis Cənizadə İmadəddin Nəsimidən, Məhəmməd Füzulidən, Molla Pənah Vaqifdən, Mirzə Ələkbər Sabirdən, Seyid Əzim Şirvanidən, Əliağa Vahiddən yüzlərlə qəzəl, qoşma, satirik lövhə əzbər bilir, onları böyük məharət və bəlağətlə söyləyirdi. Azərbaycan radiosunun Qızıl fondunda aktyorun şeir söylədiyi lent yazıları qorunub saxlanılır.

Müxlis Mir Sabir oğlu Cənizadə 28 noyabr 1928-ci ildə Bakıda qulluqçu ailəsində doğulub. Atası Mir Sabir Cəni oğlu 1920-ci illərin əvvəllərinə qədər neft mədənlərində fəhlə işləyib, sonralar isə müxtəlif partiya və dövlət qulluqlarında çalışıb. O, 1949-cu ildə vəfat edib, həyat yoldaşı, Müxlisin anası Leyla xanım İman qızı isə evdar qadın olub və 1970-ci ildə dünyasını dəyişib.

Qürurlu, şəxsiyyətini və ləyaqətini uca tutan, bir kimsəyə əyilməyi xoşlamayan və sözün düzünü həmişə şax üzə deyən, həqiqət uğrunda dönməz mübariz olan Müxlis Cənizadə, sənətdəki haqsızlığa qarşı da barışmaz idi. Məhz buna görə də istedadının ən qaynar və parlaq çağlarında bir neçə dəfə iş yerini dəyişmişdir.

Zehinli, eşitdiyini tez qavrayan Müxlis beş yaşında Bakıdakı 6 saylı rus məktəbinin birinci sinfinə getmişdir. Yeddiillik təhsil alandan sonra 1942-ci ilin iyun ayından 1943-cü ilin sentyabrına qədər Volodarski adına (bugünkü Bakı Tikiş Evi açıq tipli səhmdar cəmiyyəti) tikiş fabrikində tokar işləmişdir. 1943-cü ildə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbində aktyorluq təhsili almışdır. İkinci kursda oxuyanda rejissor Ələsgər Şərifovun 17 iyun 1944-cü ildə hazırladığı

Cəfər Cabbarlının «Sevil» dramının tamaşasında Gündüz rolunu oynamışdır. Son kursda isə Mehdi Məmmədovun quruluşunda Uilyam Şekspirin «On ikinci gecə» (20 aprel 1946) komediyasında Sebastian kimi mürəkkəb və maraqlı rolu cazibədar ifa üslubda oynamışdır.

1945-ci ildə Azərbaycan Teatr Məktəbinin bazasında Dövlət Teatr İnstitutu yaradılmışdı. Yeni ali təhsil ocağı bir neçə il Teatr Məktəbi ilə paralel fəaliyyət göstərdi. İnstitutun ikinci tələbə qəbulunda texnikumu əla qiymətlərlə başa vuran, artıq teatr ictimaiyyətinə bacarıqlı tələbə-aktyor kimi tanınan Müxlis Cənizadə də dram və kino aktyorluğu fakültəsinin tələbələri sırasında idi. O, ali təhsilini 1950-ci ildə bitirdi.

Müxlis Cənizadə texnikumda tələbə olduğu vaxtdan 1945-ci ilin oktyabrından 1949-cu ilin fevral ayına kimi Cəlil Məmmədquluzadə adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyor işləyib. 1950-ci ilin sentyabr, oktyabr və noyabr aylarında isə Gənc Tamaşaçılar Teatrının aktyor truppasında çalışıb. Həmçinin Teatr İnstitutunda pedaqoji fəaliyyətə başlayıb. Elə bu teatrdan da 1950-ci il noyabrın son günlərində hərbi xidmətə çağırılıb və üç il orduda qulluq edib.

1953-cü ilin payızında ordudan qayıdan Müxlis Cənizadə teatrın bədii rəhbəri Ədil İsgəndərovun dəvəti ilə Akademik teatra aktyor qəbul olunub. Eyni zamanda aktyorluqla paralel institutda səhnə danışığı fənnini tədris edib. 1961–1962-ci ilin teatr mövsümündə teatrın rəhbərliyi ilə, əsasən, baş rejissor Mehdi Məmmədovla yaradıcılıq mübahisələri düşdüyünə görə səhnə fəaliyyətindən ayrılıb. Uzun illər yalnız pedaqoji fəaliyyət göstərib və Bakı, Moskva, Leninqrad (indiki Sankt-Peterburq – *İ.R.*) kinostudiyalarında filmlərə çəkilib. 1971-ci ilin yazında pedaqoji fəaliyyətdən də uzaqlaşıb və həmin ilin sentyabrından 1972-ci ilin yanvar ayına kimi «Azərbaycanfilm»də aktyor işləyib. 24 yanvar 1972-ci ildə uzun fasilədən sonra yenidən Milli Dram Teatrının kollekti-

vinə daxil olub. Ancaq çox təəssüf ki, amansız xəstəlik aktyorun pərəstişkarlarına onu yeni rolda görməyə aman vermədi.

Müxlis Cənizadənin Akademik teatrdakı qısa aktyorluq ömürçəsinin bədii sənət təcəssümünü aşağıdakı rollar ifadə edir: Öttün, Gündüz, Gənc Baxşı («Dönüş», «Sevil» və «1905-ci ildə», Cəfər Cabbarlı), Zeynal («Həyat», Mirzə İbrahimov), Poçtalyon, Talıbov («Ana ürəyi» və «Göz həkimi», İslam Səfərli), Firudin («Qardaşlar», Rəsul Rza), Pavlik («Şəxsi iş», Aleksandr Şteyn), Sebastian («On ikinci gecə», Uilyam Şekspir), Qansilo («Sevilya ulduzu», Lope de Veqa), Yevgeni («Vassa Jeleznova», Maksim Qorki), Roman Bondar («Prokurorun qızı», Yuri Yanovski), Seniçka («Özgə uşağı», Vasili Şkvarkin), Bəhramın xidmətçisi («Cavanşir», Mehdi Hüseyn), Sərkis («Qaçaq Nəbi», Süleyman Rüstəm), Cjou Çin («Tufan», yaxud «Tayfun», Tsao Yuy), Qatil («Şöhrət və ya «unudulan adam», Nazim Hikmət), Devl («Gözəllik və sevgi adası», Aleksis Parnis. Bu aktyorun teatrda son roludur. 26 aprel 1961-ci il).

Aktyor teatrdan inciyib getdiyinə görə dəvətlə gəlib repertuardakı məşğul olduğu tamaşalarda rollarını da oynamadı. Onun ifa etdiyi dublyorsuz obrazlara təzə ifaçılar əlavə edildi.

Müxlis Cənizadə görkəmli Azərbaycan aktyoru, SSRİ Xalq artisti Sidqi Ruhullanın qızı Zemfira xanımla ailə həyatı qurub. Onların Mir Sabir (1958) və Gülnarə (1960) adında övladları olub.

Qiraət ustası və aktyor 1967 – 1968-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində yaradılmış «Gəlməli, görməli, gülməli» miniatür teatr ansamblında işləyib. Qısa ömrü olan, ancaq çox populyarlıq qazanmış «Gəlməli, görməli, gülməli» kollektivinə rejissor Əliheydər Ələkbərov rəhbərlik edirdi. Dəstədə cəmi dörd aktyor vardı: Əliağa Ağayev, Bəşir Səfəroğlu, Ofelya Məmmədzadə və Müxlis Cənizadə. Amansız xəstəlik Bəşir Səfəroğlunu yatağa salandan sonra miniatür ansambl öz fəaliyyətini dayandırır.

İyirmidən çox ekran obrazı yaradan Müxlis Cənizadənin «Əsl dost» (Əsəd), «Görüş» (Ənvər), «Onu bağışlamaq olarmı?» (epizod), «Bir məhəllədən iki nəfər» (Sərnişin), «Məşədi İbad» (Tələbə), «Səhər» (Fəhlə), «Leyli və Məcnun» (Qul), «26-lar» (Qoçu), «Kazbek qutusu» (Müxbir), «Qızmar günəş altında» (Kolxozçu), «Yenilməz batalyon» (Nəriman Tağıyev), «Bakının işıqları» (Qara), «Ulduzlar sönmür» (Mustafa), «Dəli Kür» (Kipiani), «Ən vacib müsahibə» (Ənvər bəy) filmlərində yaratdığı obrazlar həcminə, bədii səviyyəsinə görə daha böyük və dəyərlidir.

Səhnədə və ekranda yaratdığı maraqlı obrazlara, səmərəli aktyorluq fəaliyyətinə görə Müxlis Cənizadə 24 may 1960-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

Müxlis Mir Sabir oğlu Cənizadə uzunsürən ağır xəstəlikdən sonra 11 dekabr 1972-ci ildə Bakıda vəfat edib.

Bürcəli Əsgərov

(15.2.1933 – 1.11.2005)

İlk növbədə, tipik və xarakterik rollar aktyorudur. Eyni zamanda müəyyən tamaşalarda baş rolları və bəzi əsərlərdə isə epizod personajların səhnə taleyini oynamışdır. Yaradıcılığının potensial imkanlarına, poetika göstəricilərinin estetik səciyyələrinə görə romantik aktyor məktəbinə daha çox uyğun gəlir. Realist və lirik-psixoloji üslublu tamaşalarda da yaddaqalan bədii-dramatik surətlər oynayıb. Öz rollarını, xüsusən klassik

əsərlərdəki obrazları, əsasən, daxili ehtirasla və romantik vüsətlə oynamağa üstünlük verib.

Bürcəli Veysəl oğlu Əsgərov 15 fevral 1933-cü ildə Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Orta məktəbi 1951-ci ildə Körpülü kəndində bitirib. Bir il doğma kəndlərində kolxozda işləyib və 1952-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə vaxtlarından Akademik Milli Dram Teatrının yardım heyətinin tərkibində müxtəlif tamaşalarda kütləvi səhnələrdə çıxış edib.

Onun aktyor sənəti müəllimi görkəmli aktyor və rejissor Rza Təhmasib olub. 1956-cı ildə ali təhsilini başa vuran Bürcəli Əsgərov sentyabr ayının 12-də Akademik teatrın aktyor truppasına işə götürülüb. Həmin gündən arada heç bir fasilə olmadan bu kollektivdə işləyib. O, teatrda rejissorlardan Ədil İsgəndərovun, Səftər Turabovun, Əliheydər Ələkbərovun, Nəsir Sadıqzadənin, Ələsgər Şərifovun, Tofiq Kazımovun, Əşrəf Quliyevin, Məmmədkamal Kazımovun, Fikrət Sultanovun, Azər Paşa Nemətovun, Mərahim Fərzəlibəyovun, Bəhram Osmanovun, Mehriban Ələkbərzadənin quruluş verdikləri müxtəlif üslublu və janrlı tamaşalarda rollar oynayıb.

Bürcəli Əsgərovun yaradıcılığında faciə, dram, komediya, tragikomediya rolları olub. Aktyor bütün janrlı səhnə əsərlərində sərbəst, yaradıcılıqla və dinamik ehtirasla oynayır. Aktyorun qırx yeddi illik səhnə fəaliyyətində yaratdığı obrazları bu ardıcıllıqla vermək olar. Klassik milli dramaturgiya nümunələrinin tamaşalarında oynadığı rollar: Hüseyn Cavidin faciələrində İkinci cavan və Simon («Şeyx Sənan»), Məlik şah və Yusif («Xəyyam»), Birinci zabit («İblis») və Bəhram («Səyavuş»), Cəfər Cabbarlının dramlarında Zaman və Bayram («Dönüş»), Gülverdi və Barat («Almaz»), Nazim paşa («Ulduz», yaxud «Ədirnə fəthi»), Bəhram («Solğun çiçəklər»), Şəkinski («Oqtay Eloğlu»), İşçi Səməd («1905-ci ildə) və Toğrul («Od

gəlini»), Səməd Vurğunun mənzum pyeslərində Əli bəy, Arşak, Şaliko, Əhməd kişi, Eldar və Vidadi («Vaqif») və İgid və Azər baba («Fərhad və Şirin»), Sabit Rəhmanın komediyalarında Hüseyn («Küləklər»), Kamal («Əliqulu evlənir») və Şamil («Yalan»), Heydər bəy («Hacı Qara», Mirzə Fətəli Axundzadə), Hacı Məhəmmədəli («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Şahbaz bəy («Eşq və intiqam», Süleyman Sani Axundov).

Çağdaş mili dramaturqlarımızın müxtəlif janrlı əsərlərinin səhnə təcəssümündə çıxış etdiyi bədii surətlər: İlyas Əfəndiyevin dramlarında Möhsünzadə («Unuda bilmirəm»), Qoca Knyaz («Xurşidbanu Natəvan»), Hacı Fərhad («Şeyx Xiyabani»), Afşar Hüseyn («Sevgililərin cəhənnəmdə vüsalı»), Ataxan («Bizim qəribə taleyimiz») və Cavad xan («Hökmdar və qızı»), Nəbi Xəzrinin pyeslərinin tamaşalarında Qəni müəllim («Gecə döyülən qapılar»), Hacı Əsədulla («Mənsiz dünya») və Qaynar («Əks-səda»), Bizans elçisi («Cavanşir», Mehdi Hüseyn), Atabəy Məhəmməd («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi), Tapdıq və Mehdi («Qaçaq Nəbi», Süleyman Rüstəm), Rauf və Professor Şahbazov, Leytenant («Göz həkimi» və «Ana ürəyi», İslam Səfərli), Rəşid, Qardaşxan («Kəndçi qızı» və «Yaxşı adam», Mirzə İbrahimov), Kamil («Dağlar qızı», Adil Babayev), Zahid və Lütfiyar («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Toğrul («Bağlı qapılar», Həsən Seyidbəyli), Lətif, Qara («Söz yarası» və «Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Bədirov («Ümid», Maqsud İbrahimbəyov), Mürsəl («Yastı təpə», Əkrəm Əylisli), Aslanov («Səadət sorağında», Xalid Əlimirzəyev. Kiçik səhnədə), Məcid Zeynallı («Təhminə və Zaur», Anar), Dəmirov («Qızıl teşt», Seyran Səxavət), İlyas İsbatov («Gülüstanda qətl», Cəmil Əlibəyov), Xoca Abdulla («Min illərin işığı», Kamil Abdullayev), Cığatay, Curxan («Məhəbbət yaşadır» və «Qisas

qiyamətə qalmaz», Nahid Hacızadə), Məşədi İslam («Dirilən adam», Mir Cəlal).

Əcnəbi dramaturqların pyeslərinin tamaşalarında ifa etdiyi səhnə personajları: Uilyam Şekspirin faciələrində Banko («Maqbet»), Senat zabiti («Otello»), Sekst Pompey («Antoni və Kleopatra») və Kölgə («Hamlet»), Leonato («Dəlilər», Lope de Veqa), Aryaka («Hind gözəli», Yuri Osnos və Viktor Vinnikov), Raymond («Orlean qızı», Fridrix Şiller), Zabit («Canlı meyit», Lev Tolstoy), Dənizçi («Yad adam», Leonqard Frank), Kostılyov («Həyatın dibində», Maksim Qorki), Furmanov («Tanya», Aleksey Arbuzov), Vəzir, Kamil («Məhəbbət əfsanəsi» və «Qəribə adam», Nazim Hikmət), Lu Da Xay («Tufan», Tsao Yuy), Vasilyev, Zabit və Mins («Tufanlı il», Aleksey Kapler), Cimmi Kanana («Qızıl», Yucin O'Nil), Murad («Nakam qız», Aleksandr Şirvanzadə), İppolit («Zamanın hökmü», Nikolay Poqodin), Şairin atası («Sokratı anma gecəsi», Çingiz Aytmatov və Muxtar Şahanov).

Teatr aktyoru olan Bürcəli Əsgərov «Azərbaycanfilm»in istehsal etdiyi «Onu bağışlamaq olarmı?» bədii filmində Leytenant Rəsulov roluna çəkilib.

2000-ci ildən, həmçinin Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor işləyib. O burada Hidayətin «Məhəbbət yaşayır hələ...» (Əliş Vəlişoviç), «Durnalar qayıdanda» (Vəli Qulamoviç), Sabit Rəhmanın «Yalan» (Saleh), Ağarəhim Rəhimovun «Əsgər anası» (Kamal) əsərlərinin tamaşalarında oynayıb.

Teatr sənətində qazandığı nailiyyətlərə, uğurlu aktyor ifalarına görə 1982-ci il dekabr ayının 1-də Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

Bürcəli Əsgərov 1 noyabr 2005-ci ildə Bakıda qəflətən vəfat edib.

Ağakişi Kazımov
(28 iyun 1935)

Teatrda yaradıcılığa aktyor kimi başlayıb. Sonradan ali ixtisas təhsili alaraq rejissorluq etmiş, baş rejissor kimi Sumqayıt Dövlət Dram Teatrının və Gənc Tamaşaçılar Teatrının müəyyən inkişaf dövrlərində səmərəli xidmətləri olmuşdur.

Ağakişi Şəmməd oğlu Kazımov 28 iyun 1935-ci ildə Ağcabədi rayonunun Ağcabədi kəndində doğulub. Aktyorluq həvəsini onda anası Suğra xanım oyadıb. O, kəndin müxtəlif qadın və kişilərini koloritli tərzdə, bəməzə hərəkətlərlə yamsılayar və heç kəs ondan inciməzdi. Suğra xanımın gözəl səsi və fitri aktyorluq qabiliyyəti, improvizə bacarığı olub. Bu Allah vergisi olan istedad sanki südlə Ağakişi Kazımova keçib.

O, Ağcabədi rayonunda Xəlfərəddin kənd orta məktəbini bitirib (1942—1952). Kamal attestatı alan ili Bakıya gələrək Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İnstitutun əyani şöbəsini fərqlənmə diplomu ilə bitirib. Ali məktəbdə sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Məhərrəm Haşımov olublar.

Səhnəyə ilk dəfə Milli Dram Teatrında 1952-ci ilin noyabrında Qaçaq («Vaqif», Səməd Vurğun) epizod rolunda çıxıb. Teatrın repertuarında olan «Şərqin səhəri» (Ənvər Məmmədxanlı), «Fərhad və Şirin», «Xanlar» (Səməd Vurğun), «Namus» (Aleksandr Şirvanzadə) kimi tamaşalarda sözsüz kiçik rollara, kütləvi səhnələrə daxil edilib. 1954-cü ilin yayında Milli Dram Teatrı İrəvan şəhərinə biraylıq qastrola gedib. Tətildə olan Ağakişi də truppa ilə səfərə çıxıb və İrəvanda göstərilən Mirzə İbrahimovun

«Həyat» dramının tamaşasında İkinci kolxozçu obrazı ilə ilk sözlü rolunu oynayıb.

Çalışqanlığı və bacarığı Akademik Teatrın bədii rəhbəri Ədil İsgəndərovun xoşuna gəldiyinə görə Ağakişi Kazımov 1955-ci il fevral ayının 1-də truppanın yardım heyətinə aktyor götürülüb, bir il sonra isə ştata keçib. 1957-ci ildə Əliheydər Ələkbərovun quruluşunda Cəfər Cabbarlının «Almaz» dramının tamaşasındakı Barat roluna görə Ümumittifaq Teatr Festivalının laureatı olub. Bu rolu 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında (ongünlüyündə) da uğurla oynayıb.

Bundan əlavə, Akademik teatrın səhnəsində aktyor kimi çalışdığı illərdə Murad («1905-ci ildə», Cəfər Cabbarlı), Seniçka («Özgə uşağı», Vasili Şkvarkin), Papas («Şeyx Sənan», Hüseyn Cavid), Fərəc («Şirvan gözəli», Ənvər Məmmədxanlı), İran sərkərdəsi («Fərhad və Şirin», Səməd Vurğun), Gil («Tufanlı il», Aleksey Kapler), Zabit («Otello», Uilyam Şekspir), Qumarbaz («Hind gözəli», Yuri Osnos və Viktor Vinnikov), Sergey («Daş qartal», Pavel Malyarevski) rollarında çıxış edib.

1960-cı ilin əvvəllərində, fevral ayının 24-də işdən çıxıb. Mart ayının 1-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sərəncamı ilə Abbasqulu ağa Bakıxanov adına Quba Dövlət Dram Teatrına baş rejissor göndərilib. Burada üç ay ərzində Yusif Əzimzadənin «Aprel səhəri» (10 aprel 1960) və Aleksandr Şirvanzadənin «Namus» (17 iyun 1960) dramlarına səhnə quruluşu verib. Həmin il teatr təzə mövsümə başlayan ərəfədə, sentyabrın 21-də Ədil İsgəndərov onu yenidən Akademik teatra aktyor dəvət edib. Ancaq oktyabr ayının 22-də gözlənilmədən və ədalətsiz şəkildə Ədil İsgəndərov bədii rəhbərlikdən və direktorluqdan, ümumiyyətlə isə teatrdan çıxarıldı və baş rejissorluğa Mehdi Məmmədov təyin olundu. Lakin nədənsə, Mehdi Məmmədov öz tamaşalarında Ağakişi Kazı-

mova aktyorluq yaradıcılığında təkamül və dönüş yarada biləcək rol tapşırmadı. O, Aleksis Parnisin «Gözəllik və sevgi adası» (26 aprel 1961) tamaşasında quruluşçu rejissor Tofiq Kazımova assistent oldu. Digər rejissorların hazırladıqları Cəfər Cabbarlının «Od gəlini» (İldırım), Mehdi Hüseynin «Alov» (Gümrah), Cabbar Məcnunbəyovun «Məhəbbətin hökmü» (Levon), Süleyman Rüstəmin «Qaçaq Nəbi» (Vəli), Mirzə Fətəli Axundzadənin «Hacı Qara» (Murov), Hüseyn Cavidin «Səyavuş» (İkinci məmur) əsərlərinin tamaşalarında rollar oynadı. Ancaq həmin ifalar aktyorun parlaq nailiyyətinə çevrilə bilmədi.

1960–1964-cü illəri öz yaradıcılığının tərəddüdlü axtarış dövrü adlandıran Ağakişi Kazımov 1963-cü il noyabr ayının 25-dən Akademik teatrdan çıxıb. 1964-cü ilin 24 fevralında Azərbaycan Dövlət Filarmoniyasına bədii qiraət ustası ştatına götürülüb. 1964-cü ilin avqust ayında Leninqrad (indiki Sankt-Peterburq. – *İ.R.*) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun əyani rejissorluq fakültəsinə daxil olub.

Aktyor Qubadan əlavə, 1956-cı ildən 1960-cı ilə qədər Azərbaycan Dövlət Pedaqoji İnstitutundakı dram dərnəyinin və 1958-ci ildən 1964-cü ilə qədər Azərbaycan Dövlət Universitetinin «Gənclik teatrı»nın rəhbəri olub. Dram dərnəyində Fridrix Şillerin «Qaçaqlar» faciəsinə, Anton Çexovun «Ayı», «Evlənmə» məsxərələrinə, «Gənclik teatrı»nda Nəcəf bəy Vəzirovun «Müsibəti-Fəxrəddin», Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəlişah», Q.Stefanskinin «Şeytan əməli» əsərlərinə quruluşlar verib.

Leninqradda təhsilini başa vurarkən diplom işi ərəfəsində Kazanda Qalıəsgər Kamal adına Tatarıstan Dövlət Akademik Dram Teatrında Mar Bayciyevin «Duel» psixoloji dramını teatrın baş rejissoru Marsel Səlimcanovla birgə hazırlayıb. Premyera 1968-ci il dekabr ayının 8-də göstərilib. Diplom işi üçün isə Cəfər Cabbarlının «Aydın» (tatarcaya Əbdürrəhman Minski

tərcümə edib) faciəsini seçib. «Aydın»ın ilk tamaşası 20 mart 1969-cu ildə oynanılıb. Diplom işinə «əla» qiymət verilib.

Azərbaycana ali ixtisaslı rejissor diplomu ilə qayıdan Ağakişi Kazımovu Respublika Mədəniyyət Nazirliyi Sumqayıt Dövlət Dram Teatrına direktor göndərdi (25 dekabr 1969 – 25 dekabr 1970). 1971-ci il dekabrın 25-dən 1973-cü il martın 19-na kimi isə həmin teatrda baş rejissor vəzifəsini daşıyıb. O, yenicə fəaliyyətə başlamış gənc teatr kollektivinin inkişafında, repertuarın formalaşmasında faydalı işlər gördü. Ağakişi Kazımov Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (22 sentyabr 1974 – 30 dekabr 1975), Gənc Tamaşaçılar Teatrında (30 dekabr 1975–14 fevral 1983 və 20 aprel 1990–14 mart 2002) baş rejissor, Azərbaycan Dövlət Opera və Balet Teatrında (1 iyun 1973 – 22 noyabr 1974), Akademik Milli Dram Teatrında quruluşçu rejissor işləyib. Hazırda Akademik teatrda quruluşçu rejissordur.

Ağakişi Kazımovun Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında quruluş verdiyi səhnə əsərləri: «Arvadımın əri», Georgi Xuqayev (1969, 28 dekabr), «Müsibəti-Fəxrəddin», Nəcəf bəy Vəzirov (1970, 16 may), «Toy», Sabit Rəhman (1970, 7 iyul), «Gülməyən adam», Əfqan (1971, 11 fevral), «Mənim məhəbbətim», Adil Babayev (1971, 27 mart), «Elbrus evlənir», Georgi Xuqayev (1972, 5 fevral), «Kəndimizin cavanları», Əsgər Ələsgərov (1972, 13 may), «Nonkanın məhəbbəti», İvan Petrov (1972, 20 iyul).

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında hazırladığı operettalar və musiqili komediyalar: «Xoşbəxtliyə gedən yol», İsaak Dunayevski (1975, 12 aprel), «Təzə gəlin», Seyfəddin Dağlı və Cahangir Cahangirov (1975, 26 aprel), «Arşın mal alan», Üzeyir bəy Hacıbəyli (rus bölməsində.1975, 5 iyun).

Azərbaycan Dövlət Akademik Dram Teatrında Ağakişi Kazımov müxtəlif dramaturqların lirik komediya, psixoloji

dram, ictimai-sosial faciə, məişət pyesi janrlarında yazdıqları əsərlərə səhnə təfsiri verib.

1972, 27 mart. «Darıxma, ana!», Nodar Dumbadze. Tərcümə edəni Adil Babayev.

1973, 8 aprel. «Qəribə oğlan», İlyas Əfəndiyev.

1982, 26 mart. «Mirzə Şəfi», Nəbi Xəzri.

1983, 17 sentyabr. «Büllur sarayda», İlyas Əfəndiyev.

1983, 30 dekabr. «Sehrli alma», Yozef Lada. Tərcümə edəni Ağakişi Kazımov.

1985, 26 yanvar. «Çahargah fantaziyası», Kərim Kərimov.

1986, 13 aprel. «Od gəlini», Cəfər Cabbarlı.

1986, 6 sentyabr. «Vaqif», Səməd Vurğun. (Ədil İsgəndərovun 5 oktyabr 1938-ci il quruluşunun bərpası).

1998, 10 aprel. «Özümüzü kəsən qılınc» («Göytürklər»), Bəxtiyar Vahabzadə.

2000, 10 iyul. «Dar ağacı», Bəxtiyar Vahabzadə.

2006, 11 fevral. «İkinci səs», Bəxtiyar Vahabzadə.

Azərbaycan Dövlət Opera və Balet Teatrında iki milli musiqi əsərimizi yeni formada tamaşaçılara təqdim edib: «Gəlin qayası», Şəfiqə Axundova. Libretto müəllifləri Süleyman Rəhimov və İsgəndər Coşqun (1974, 27 aprel) və «Vaqif», Ramiz Mustafayev. Librettonu Səməd Vurğunun eyniadlı pyesi əsasında Firudin Mehdiyev yazıb (1993, 21 aprel).

Ağakişi Kazımov Gənc Tamaşaçılar Teatrında uzun müddət baş rejissor işləyən sənətkarlardandır. Ən çox və ən müxtəlif janrlı tamaşaya da quruluşu məhz bu teatrda verib. Ardıcıllıq belədir: «Zoluşka», Yevgeni Şvarts (rus bölməsində. 1976, 30 aprel), «Komsomol poeması», İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında (1976, 27 may), «Məhəbbət novellası», Şamil Xurşud və Əşrəf Hacıyev (1977, 26 iyun), «Məlik Məmməd», Əyyub Abbasov (1978, 5 iyun), «Hacı Qəmbər», Nəcəf bəy Vəzirov (1978, 17 sentyabr), «Fırtınadan doğulmuş-

lar», İsgəndər Coşqun (1979, 24 fevral), «Sirli dəyirman», Firuz Məmmədov (1979, 25 sentyabr), «Yaşasın Günəş», Kamal Aslanov (1980, 29 mart), «Kiçik torpaqda üç gün», Şamil Xurşud (1980, 20 iyun), «Qar qız», Teymur Elçin (1983, 26 iyun), «Yazığam, sevmə məni», Əkrəm Əylisli (1990, 4 noyabr), «Şəhidlər», Bəxtiyar Vahabzadə (1991, 17 yanvar), «Kiçik təpə», Nəbi Xəzri (1991, 19 sentyabr), «Müşfiq», Rafiq Hüseynov (1991, 20 dekabr), «Bir parça Vətən», Fikrət Sadıq (1992, 23 yanvar), «Səsin sehri», Tahir Kazımov (1993, 19 dekabr), «Sevirdim, çox sevirdim», Hidayət (1994, 22 dekabr), «Ağ div, qara div», Əli Səmədli (1995, 23 sentyabr), «Şir qızı Luska», Vladimir Qusyev (rus bölməsində 1997, 28 sentyabr), «Dördüncü təcavüz olmayacaq», Miryusif Mirməmmədoğlu (1998, 22 fevral), «Təlxəyin nağılı», Firuz Məmmədov (1999, 7 mart), «Büllur sarayda», İlyas Əfəndiyev (2000, 18 dekabr).

Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında dörd tamaşa hazırlayıb: «Qızıl zəncir», Şamil Xurşud (1978, 10 iyul), «Məni qınamayın», Hidayət Orucov (1981, 14 may), «Məhəbbət yaşadır», yaxud «Ömür gözləyir bizi», Nahid Hacızadə (1982, 31 may), «Əks-səda», Nəbi Xəzri (1983, 14 noyabr),

Ağakişi Kazımov, həmçinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Şaleva Rokvanın «Yaşıl papaq» (tərcümə edəni Vaqif Əlixanov. 20 noyabr 1982), Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında Jan Batist Molyerin «Tartüf» (tərcümə edəni Rəhman Əlizadə. 5 sentyabr 1984), Köln-Düsseldorf Almaniya Türk Dövlət Teatrında Üzeyir bəy Hacıbəylinin «Arşın mal alan» (10 iyul 1999), Bəxtiyar Vahabzadənin «İkinci səs» (23 dekabr 1999) əsərlərini tamaşaya hazırlayıb.

«Azərbaycanfilm»in «Bəri bax» studiyasında çəkilən «Yük» bədii filmində Hacı Zeynalabdin Tağıyev rolunu oynayıb. 1977-ci ildən bugünədək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət

Universitetində aktyor və rejissor sənətindən dərs deyən Ağakişi Kazımov 18 iyun 2001-ci ildən bu ali məktəbin professorudur.

Ağakişi Kazımov bir rejissor kimi, adətən, məşqlər başlanana qədər əsər üzərində çox işləyir. Obrazların konsepsiyasını tam qavramaqda aktyorlara kömək edir. Yaradıcılığında psixoloji monumental pyeslərə üstünlük verir. Tamaşanın ideyasına uyğun aktyor ansamblı toplamaq məqsədilə rol bölgüsünə xüsusi diqqətlə yanaşır. Rəssam və bəstəkarla əlaqəli işləməyi əhəmiyyətli hesab edir.

Qazandığı sənət uğurlarına görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Səyavuş Aslan
(5 sentyabr 1935)

Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndələrindən biri olan Səyavuş Məmmədağa oğlu Aslanov (Aslan) 1935-ci il sentyabr ayının 5-də Bakıda sürücü ailəsində doğulub.

Səyavuş Bakıdakı 1 saylı məktəbin yeddinci sinfini bitirərək Dəmiryol Texnikumuna daxil olub. Burada təhsil ala-ala, Biləcəri lokomotiv deposunda maşinist köməkçisi işləyib. Teatra coşqun maraq, aktyorluğa ehtiraslı həvəs göstərən Səyavuş Dəmiryolçular klubunda məşhur aktyor Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram dərnəyinə üzv yazılıb.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı 1938-ci ildən 1949-cu ilin yazına kimi fəaliyyət göstərdikdən sonra maliyyə çətinlikləri ucbatından bağlanmışdı. Çünki keçmiş SSRİ-nin bütün teatrları kimi, bu kollektiv də təsərrüfathesabı fəaliyyətə keçdikdən sonra özünü doğrulda bilməmişdi, yəni qazandığı pul heç aktyorların maaşına çatmırdı. Bağlanan teatr yığcam truppa halında bir müddət Filarmoniyanın nəzdində estrada ansamblı kimi çalışdı. 1954-cü ildə opera rejissoru Soltan Dadaşovun təşəbbüsü ilə estrada dəstəsi müstəqil kollektiv kimi, ancaq Dövlət statusu almadan fəaliyyətə başladı. Onda Səyavuş Aslan bu kollektivin xor heyətinə qəbul olundu və hətta bir dəfə Vəli rolunun ifaçısı Lütfəli Abdullayev xəstələndiyinə görə gənc aktyor tamaşada onu əvəz etdi.

Səhnəyə təzəcə isinişən Səyavuş Aslan 1954-cü ilin payızından 1957-ci ilin oktyabr ayına kimi hərbi xidmətdə oldu. Qayıdıb qısa zaman kəsiyində Filarmoniyanın nəzdindəki Kukla teatrı ansamblına daxil oldu və hətta onların «Cırtdan», «Məlik Məmməd» nağıl-tamaşalarının hazırlanmasında iştirak etdi.

1958-ci ilin aprel ayında Quba Dövlət Dram Teatrına keçdi. Bir il sonra yenidən Bakıya qayıdıb Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyor truppasına qəbul olundu. Tezliklə populyarlaşan aktyor gənc yaşlarında Əlihüseyn Qafarlı, Lütfəli Abdullayev, İbrahim Şünasi (Hüseynov) kimi təcrübəli aktyorların böyük nailiyyətlər qazandığı rolları məharətlə oynamağa başladı.

Burada işləməsinə, teatrın üç aparıcı aktyorundan biri olmasına baxmayaraq, həmişə Akademik sənət ocağında çalışmağa cəhd göstərib. Nəhayət, Sabit Rəhmanın «Nişanlı qız» komediyasını tamaşaya hazırlayan, özünü quruluşçu rejissor kimi ilk dəfə sınayan Məlik Dadaşov Mindilli roluna Səyavuş Aslanı dəvət etdi. Bu kollektivdə ilk işi uğurlu alınan sənətkar 1984-cü il oktyabr ayının 5-də truppaya aktyor götürüldü.

Səyavuş Aslan 1994-cü il fevralın 4-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrına bədii rəhbər təyin edildi. Ancaq o,

bir müddət dəvətlə gəlib repertuardakı rollarını oynayırdı. 1996-cı ilin oktyabrında bədii rəhbər vəzifəsindən istefa verən aktyor yenidən Akademik Milli Dram Teatrına qayıdıb.

Görkəmli teatr aktyoru Səyavuş Aslan, həmçinin kino sənətkarı kimi sevilir. Ən məşhur ekran rolları «Romeo mənim qonşumdur» (Səməd), «Əhməd haradadır?» (Saqqal Ramiz), «Ulduz» (Şubay), «Məlik Məmməd» (Ortancıl Div), «Bəyin oğurlanması» (Filmin direktoru), «Yol hadisəsi» (MİS müdiri), «Xəzan yarpaqları» (Məktəb direktoru), «Ölülər» (Hacı Həsən ağa), «Papaq» (Hacı), «Hacı Qara» (Hacı Qara) filmlərində çəkildiyi obrazlardır.

Azərbaycan Dövlət Televiziyasında yüzlərlə satirik səhnəcikdə kiçik rollar oynayıb. Eyni zamanda Dövlət Televiziyasının Qızıl fonduna daxil olan Bazarkom («Evləri köndələn yar», Anar), Qaloşin («Əyalət lətifələri», Aleksandr Vampilov), Mak Blaf («Sehrli kürsü», F.Karonti) rollarını ustalıqla yaradıb.

Səyavuş Aslanın Musiqili Komediya Teatrının Opera və Balet Teatrı nəzdindəki truppa halında tamaşalar göstərdiyi qısa dövrdə və əsasən, 1956-cı ildən başlayaraq yenidən Dövlət təsisatı kimi çalışdığı illərdə oynadığı rollar (1959-cu ildən üzü bəri, 1984-cü ilə və 1994-cü ildən 1996-cı ilə qədərki dövrdə).

Həsən bəy, Hambal və Məşədi İbad, Vəli («Məşədi İbad» və «Arşın mal alan», Üzeyir bəy Hacıbəyli. Müxtəlif quruluşlarda), Muxtar bəy və Kəblə Heydər («Evliykən subay», Zülfüqar bəy Hacıbəyli), Bayram («Kəndimizin mahnısı», Kərim Kərimov ilə Ənvər Əlibəyli və Zakir Bağırov), Şubay və Məhəmməd («Ulduz», Sabit Rəhman və Süleyman Ələsgərov), Nəriman («Rəisin arvadı», Məhərrəm Əlizadə və Səid Rüstəmov), Hamlet («Tiflis nəğməsi», Levon Cubabiriya və Şota Milorava. Tərcümə edəni Adil Babayev), Kəsəmənli («Bir dəqiqə», Məhərrəm Əlizadə və Hacı Xanməmmədov), Aparıcı («Keçmişin məişət səhnələri», Soltan Dadaşov və Vasif

Adıgözəlov), Ohan yüzbaşı («Hacı Qara», yaxud «Xəsis», Mirzə Fətəli Axundzadənin əsəri əsasında işləyəni Şəmsi Bədəlbəyli və Vasif Adıgözəlov ilə Ramiz Mustafayev), Murtuzov və İbişov, Eynəkli, Alanzadə («Özümüz bilərik», «Milyonçunun dilənçi oğlu» və «Olmadı elə, oldu belə», Şıxəli Qurbanov və Süleyman Ələsgərov), Fəqan («Səndən mənə yar olmaz», Məhərrəm Əlizadə və Əşrəf Abbasov), Firuzbala («Altı qızın biri Pəri», Məhərrəm Əlizadə və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Tofiq («Ev bizim, sirr bizim», Novruz Gəncəli və Şəfiqə Axundova), Qulam («Höcət eləmə», Qazı Məmmədov və Ağabacı Rzayeva ilə İsmayıl Quliyev), İlqar («Qayınana», Məcid Şamxalov və Zakir Bağırov), Səlyanski («Gözün aydın», Məhərrəm Əlizadə və Fikrət Əmirov), Azay və Nadir («Qızılgül», Məhərrəm Əlizadə və Soltan Hacıbəyov), Aslan («Bizə bircə xal lazımdır», Qulamrza Cəmşidi ilə Bəşir Səfəroğlu və Telman Hacıyev), Ağabala («Ləpələr», Əliağa Kürçaylı və Arif Məlikov), Qüdrət Səda («Hardasan, ay subaylıq?», Salam Qədirzadə və Süleyman Ələsgərov), Şəkərli («Axırı yaxşı olar», Rəfiq Zəka Xəndan və Ramiz Mustafayev), Ağa Mirzə («Hacı Kərimin Aya səyahəti», Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev), Məmmədəli («Məmmədəli kurorta gedir», Atif Zeynallı və Tofiq Bakıxanov ilə Nəriman Məmmədov), Kəblə Hüseynəli («Beş manatlıq gəlin», Məmməd Səid Ordubadi və Səid Rüstəmov), Qoşun («Toy kimindir?», Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), Şakir («Dağlar qoynunda», Ədil İsgəndərov və Əşrəf Abbasov), Ağacan, Qulu Rəhimli («Boşanaq, evlənərik» və «Nənəmin şahlıq quşu», Əliağa Kürçaylı və Vasif Adıgözəlov), Çako («Keto və Kote», Vladimir Dolidze. Tərcümə edəni Şəmsi Bədəlbəyli), Dadaşbala («Hicran», Sabit Rəhman və Emin Mahmudov-Sabitoğlu), Türbətəli («Təzə gəlin», Seyfəddin Dağlı və Cahangir Cahangirov), Əmikişi («Qonşumuzda bir oğlan var», Məhərrəm Əlizadə və Ramiz

Mustafayev), Qədir («Qızıl toy», Ramiz Heydər və Oqtay Kazımov), Maldar («Yertutanlar», Faiq Mustafayev və Adil Bəbirov), Qazı, Karapet ağa, Naçalnik və Kərbalayı Cəfər («Danabaş kəndinin əhvalatları», Cəlil Məmmədquluzadənin eyniadlı əsəri əsasında. Cənnət Səlimova və Oqtay Kazımov), Qəmzəli («Qaçırılmış qız», Cahangir Məmmədov və Ramiz Mirişli), Seyfulla («Sıravi Seyfullanın xidməti əziyyətləri», Sultanməcid Qənizadənin «Xor-xor» məzhəkəsi əsasında. Akif Məhərrəmov və Aydın Əzimov), Misir Nəsir («Lənət sənə, kor şeytan», Firudin Aşurov və Vasif Adıgözəlov), Orduxan bəy («Əlli yaşında cavan», Zülfüqar bəy Hacıbəyli). Orduxan bəy rolu aktyorun Musiqili Komediya Teatrında son yaradıcılıq işi oldu).

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər işlədiyi dövrdə Səyavuş Aslan dramaturq Məmməd Səid Ordubadinin və bəstəkar Səid Rüstəmovun «Beş manatlıq gəlin» (17 may 1994), Zülfüqar bəy Hacıbəylinin «Əlli yaşında cavan» (23 may 1995) operettalarını tamaşaya hazırlayıb.

Səyavuş Aslanın 1984-cü ildən 1994-cü il fevralın 4-nə qədər və 1996-cı ilin oktyabrından bu günə kimi Akademik Milli Dram Teatrında oynanılan tamaşalarda səhnə obrazları aşağıdakılardır.

Mili dramaturqların əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Vəzir Mirzə Həbib («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Oddamdı («Od gəlini», Cəfər Cabbarlı), Mindilli, Aslan («Nişanlı qız» və «Yalan», Sabit Rəhman), Abış Surxayeviç («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Fəriş, Cabbar, Ağayi Əşrəfi, Ağamusa Fərəcov, Vanya koxa («Bizim qəribə taleyimiz», «Sevgililərin cəhənnəmdə vüsalı», «Tənha iydə ağacı», «Dəlilər və ağıllılar» və «Hökmdar və qızı», İlyas Əfəndiyev), Qərib Qulam («Mənsiz dünya», Nəbi Xəzri), Mayılov («Gülüstanda qətl», Cəmil Əlibəyov), Hüseynbala. («Çahargah fantaziyası», Kərim Kərimov), Arif («Kərgədan buynuzu»,

Maqsud İbrahimbəyov), Əsədulla, Baş redaktor, Kişi, Yoldaştək («Ah, Paris... Paris!..», «Mənim sevimli dəlim», «Diaqnoz «D», yaxud «Mənim ərim dəlidir» və «Poçt şöbəsində xəyal», Elçin), Zaman Həsənli («Bu dünyanın adamları», Hidayət), Mikayılov («Tufandan əvvəl», Arif Süleymanov), Maqsud («Ox, qadınlar, qadınlar», Marat Haqverdiyev), Ağəli («Günah», Rəhman Əlizadə), Sarı («Varlı qadın», Əli Əmirli).

Tərcümə pyeslərinin tamaşalarında oynadığı səhnə obrazları: Poloni («Hamlet», Uilyam Şekspir), Jeront («Skapenin kələkləri», Jan Batist Molyer), Romul Avqustul («Böyük Romul», Fridrix Dürrenmatt), Luka («Həyatın dibində», Maksim Qorki), Aqoba Boqveradze («Kaş araba aşmayaydı!..», Otia İoseliani).

Çağdaş milli teatrımızda tək-tək aktyorun adını çəkmək olar ki, o, qaravəlli xalq-oyun tamaşalarından həssas yaradıcılıqla bəhrələnsin. Səyavuş Aslan qaravəlliyə məxsus çevikliyi, hazırcavablığı, gözlənilməz qrotesk dönüşləri, şux gülüşü, bol yumoru həm hərəkət vasitələrində, həm də sifət-göz cizgi ifadələrində hər dəfə yeni görümdə, əlvan, əngin panorama gücündə, son dərəcə fərqli rənglərlə, məhz Səyavuş Aslana məxsus danışıq-deyim tərzində canlandırır. Həmin canlanmada coşqun həyat eşqi, duzlu sancma, sərt satira, özümüzə qınaq, ən əsası isə estetik dinclik və ruhi rahatlıq var. Televiziyanın və kinonun «iri planları» lazımi məqamlarda önə çəkmək imkanı (mən texniki imkanı nəzərdə tuturam) olduğuna görə dediyim keyfiyyətlər «Evləri köndələn yar» teletamaşasındakı Bazarkom və «Bəyin oğurlanması» filmindəki Filmin direktoru rollarında qabarıq, əsaslı, elmi-nəzəri təhlilə ciddi ehtiyacı olan şəkildə, yüksək aktyor fərasəti ilə nəzərə çarpır.

Səyavuş Aslan dramatik, hətta faciə xarakterli obrazlar oynamağa da meyillidir. Səyavuş Aslan sənətinin lətafəti həmin rollarda yeni estetik prizmadan, yeni psixoloji-bədii rakursdan təcəssüm tapıb.

Aqşin Vəlixanov
(28.5.1936 – 21.7.1998)

Akademik Milli Dram Teatrının koloritli və duzlu komediya aktyorları arasında xüsusi yer tutub. Soyadı bəzən «Vəlixanlı» yazılıb. Atası Məmmədəli Vəlixanlı (1899 – 1969) məşhur komediya aktyoru olub. Azərbaycanın Xalq artisti idi. Aqşin Vəlixanovun soyadı bəzi proqramlarda «Vəlixanlı» kimi yazılıb. Səhnədə zahirən sakit və təmkinli görünürdü, daxilən isə qaynartəbiətli idi. Sadə, ancaq mənalı ştrixlər tapmağı və ondan obrazın ifasında məharətlə istifadə etməyi xoşlayırdı. Onun məxməriyə yaxın olan və bir qədər də cingiltili səsi vardı. İfa etdiyi rolların, xüsusən komik personajların xarakterlərinə uyğun olaraq, səsinin çoxçalarlı variantlarından bacarıqla faydalanırdı. Romantik ruhlu əsərlərin tamaşalarında çıxış etsə də, yaradıcılığının, istedadının yönü realist aktyor məktəbinə daha uyğun gəlirdi. Səhnədə əl-qol hərəkətlərinə bacardıqca az meyil göstərirdi. Səs vurğularından daha çox istifadə edirdi, ona görə də aktyorun özünə baxmadan səsini eşitməklə keçirdiyi daxili dəyişmələri duymaq olurdu.

Aqşin Məmmədəli oğlu Vəlixanov 28 may 1936-cı ildə Bakıda anadan olub. 1943-cü ildə orta məktəbin birinci sinfinə gedib. Arada təhsilində fasilə yarandığına görə orta məktəbi on üç ilə, 1956-cı ildə bitirib. Həmin il də Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət dərslərini Mehdi Məmmədovdan və Rza Təhmasibdən alıb. Tələbəlik illərindən atasının aktyor işlədiyi Milli Dram Teatrında yardım heyətinin tərkibində

monumental səpkili tamaşalarda kütləvi səhnələrə çıxıb. O, 1957 – 1958-ci illərdə Azərbaycan Dövlət Radiosunda diktor işləyib.

1960-cı ildə ali ixtisas təhsilini başa vuran Aqşin Vəlixanov 28 sentyabr 1960-cı ildən Akademik teatrın truppasına daxil olub. O, fasilə vermədən otuz səkkiz il bu kollektivdə aktyorluq edib.

Həyatda ciddi zarafatı, sarkazmı xoşlayan, hazırcavab və iti fikirli olan Aqşin Vəlixanlı heç vaxt hansısa rolu rejissordan tələb kidlə almağa qətiyyən səy göstərməyib. Ona tapşırılan rollardan ürəyincə olmayan obrazların ifasından imtina edib. Ancaq oynamaq istədiyi tamaşalarda səylə çalışıb. Canlı şahidi olmuşam ki, Aqşin Vəlixanov səhnədəki məşqlərlə kifayətlənməz, mütləq evdə, asudə vaxtlarında qrim otağında obrazın səhnə taleyi üçün axtarışlarını davam etdirərdi. Yumoristik boyalardan «xəsisliklə», amma yerli-yerində, dadlı və məzmunlu şəkildə bəhrələnirdi.

Akademik Milli Dram Teatrının səhnəsində 9 mart 1961-ci ildən 1998-ci ilin yarısına qədər xeyli rol oynayıb. Klassik və çağdaş milli dramaturqlarımızın əsərlərinin tamaşalarında ifa etdiyi səhnə obrazları: Nəcəf («Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Cəlil Məmmədquluzadənin dramlarında Senzor Mirzə Cəfər («Anamın kitabı»), Məkkə Məhəmməd («Dəli yığıncağı»), Birinci azarlı («Ölülər»), Nəbi Xəzrinin əsərlərində Saday bəy («Mirzə Şəfi»), Fridrix Bodenştedt («Mənsiz dünya»), Yassar Çəpgöz («Torpağa sancılan qılınc»), Polis rəisi, Ocaqqulu («Aydın» və «Almaz», Cəfər Cabbarlı), Ərəb zabiti, Birinci qulam («İblis» və «Xəyyam», Hüseyn Cavid), Mirzə Qərənfil, Qarmonçalan («Xoşbəxtlər» və «Əliqulu evlənir», Sabit Rəhman), Usta Səməd («Alov», Mehdi Hüseyn), Vəli («Qaçaq Nəbi», Süleyman Rüstəm), Martenburov («Közərən ocaqlar», Mirzə İbrahimov), Qəşəm («Yol ayrıcında», İslam Səfərli), Fəriş, Sisyanov («Bizim qəribə taleyimiz» və «Hökmdar və

qızı», İlyas Əfəndiyev), Murtuz Murtuzov, Əhmədi-Biqəm («Təhminə və Zaur» və «Adamın adamı», Anar), Odhor («Qanqın böyük dalğası», Cahan Əfruz), Əcəmi, Feofan («Atabəylər» və «Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə), Murtuz dayı («Çahargah fantaziyası», Kərim Kərimov), Şöbə müdiri («Mənim sevimli dəlim», Elçin. Bu, aktyorun Akademik Milli Dram Teatrında son işi oldu. 23 may 1998).

Tərcümə pyeslərinin tamaşalarında oynadığı rollar: Sivart, Bulava, Minas («Maqbet», «Heç nədən hay-küy» və «Antoni və Kleopatra», Uilyam Şekspir), Cəllad («Mariya Tüdor», Viktor Hüqo), Milovzorov («Günahsız müqəssirlər», Aleksandr Ostrovski), Serjant («Şeytanın şagirdi», Bernard Şou), Baş keşiş («Orlean qızı», Fridrix Şiller), Üçüncü qardaş («Yatmış gözəl və yeddi qardaş», Aleksandr Puşkin), Usta Yanko («Qısqanc ürəklər», Raço Stoyanov), Pəltək («Kimdir müqəssir?», Hüseyn Muxtarov), Xadim və Kapitan («Zamanın hökmü», Nikolay Poqodin), Münəccim («Məhəbbət əfsanəsi», Nazim Hikmət), Səfir («Tufanlı il», Aleksey Kapler), Skeptik («Kreml saatı», Nikolay Poqodin), Ksanf («Məhəbbət və azadlıq», Gilerma Fiqeyredu).

Dövlət Televiziyasında hazırlanmış İslam Səfərlinin «Göz həkimi» (Fərəc dayı), Cəfər Cabbarlının «Almaz» (Ocaqqulu), Ramiz Novruzovun «At ilinin birinci günü» (Qara dayı) əsərlərinin teletamaşalarında iştirak edib, maraqlı obrazlar oynayıb.

Teatr sənətində qazandığı nailiyyətlərə görə Aqşin Vəlixanov 21 mart 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

Aqşin Məmmədəli oğlu Vəlixanov 21 iyul 1998-ci ildə qəfildən vəfat edib.

Satirik və qrotesk ruhlu zarafatları bu gün də aktyor dostlarının söhbətlərində tez-tez xatırlanır.

Eldəniz Zeynalov
(1.1.1937 – 5.11.2001)

Duzlu, şirəli, adama tez yapışan yumoru vardı. Aktyor, təbiəti etibarilə karnaval estetikası prinsiplərinə daha yaxın idi. Açıq və qroteskli məsxərə oyun üslubunda daxili imkanlarını daha ifadəli və daha məzmunlu realizə edə bilirdi. Tipik obraz maskaları az idi, lakin onların rəng çalarları zəngin və parlaq görünürdü. Tünd, lakin hayqıran, diqqəti özünə çəkən parıltılı boyalardan məharətlə barınırdı. Müəyyən faciə və dram əsərlərindəki rollarında ifa rənglərini bilərəkdən tündləşdirir, hətta təzadlı çalarları paralel şəkildə oyununun mayasına qatırdı. Düşüncə, intellekt aktyoru deyildi və bu iddiada olmadığını heç gizlətmirdi də. Di gəl ki, səhnədə gözlənilməz improvizələr etməklə dəqiq, dolğun və mahiyyətcə dəyərli aktyor diqqətinə malik olduğunu ustalıqla göstərirdi.

Təbiətən realist aktyor məktəbinin prinsipləri əsasında təəqqi edən aktyor, qrotesk və buffonada teatr elementlərinin səhnə realizəsində cəsarətli və uğur qazanan idi.

Eldəniz Məmməd oğlu Zeynalov 1937-ci il yanvar ayının 1-də Bakıda doğulub. Atası Məmməd Ələkbər oğlu Bakıya Quba şəhərindən köçmüşdü, neftçi idi. Anası Zeynəb Dərya qızı isə kökləri Şamaxıya bağlı olan bakılı sayılırdı. Yeddi yaşına çatanda Eldəniz 3 saylı orta məktəbin birinci sinfinə gedib. İkinci sinifdən beşinci sinfə qədər 13 saylı orta məktəbdə oxuyub. Yeddiilliyi isə 199 saylı məktəbdə başa vurub və həmin il, yəni 1951-ci ildə Kommunal İnşaat Texnikumuna daxil olub. Bir ildən sonra təhsilini yarımçıq qoyub. Bir neçə il sonra qiyabi orta

təhsil attestatı alaraq Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olub. İşlədiyinə görə dərslərə müntəzəm gedə bilmədiyi üçün dördillik təhsili altı ilə başa vurub.

Azərbaycanın məşhur aktyorlarından olan Akademik teatrda işləyən Həsənağa Salayev Eldənizin dayısı idi. Həyət-bacada dəcəlliyinin qarşısını almaq üçün dayısı Eldənizi on iki yaşından teatrın yardım heyətinə üzv etmişdi. O, teatrın, əsasən, kütləvi səhnələrində çıxış edir, hərdən də epizod uşaq rollarında oynayırdı. Teatrın yaşlı aktyorları fərasətli, şirindil, buyruğa yarıyan balaca Eldənizə əməlli-başlı isinişmişdilər. Hətta yaşı düşməsə də, onu yardım heyətinin ştatına götürüb özləri ilə rayonlara, Tiflisə və İrəvana qastrola aparırdılar. Getdikcə səhnəyə alışan, Mirzağa Əliyevin, Mustafa Mərdanovun, Hökümə Qurbanovanın sənətlərinə rəğbət və ehtiram bəsləyən Eldəniz Zeynalovun da ürəyində aktyor olmaq arzusu baş qaldırdı. Elə həmin arzu ilə də teatrda işləyə-işləyə aktyorluq fakültəsinin tələbəsi oldu.

Fitri istedad sahibi olan Eldəniz Zeynalov, həmçinin hikkəli idi. Onun rejissorlarla sənət mübahisəsinin kökündə işləmək istəyi, real tələblərlə yanaşı, bəzən ərköyünlük şıltaqlığı da dururdu. Hansısa rolu oynamaq üçün rejissorla, teatrın rəhbərliyi ilə yerli-yersiz mübahisələr etməkdə ad çıxarmışdı. Bütün bunlara görə də Eldəniz Zeynalov dəfələrlə teatrdan uzaqlaşmış və ən müxtəlif fasilələrlə (üç ay, altı ay, bir il...) yenidən kollektivə qayıtmışdır. Onun sonuncu dəfə küsüb-barışması yeddi ilə yaxın vaxt çəkmişdir. 16 dekabr 1985-ci ildə kollektivdən gedən aktyor teatrın direktoru və bədii rəhbəri Həsən Turabovun israrlı təkidi və tələbi ilə 2 sentyabr 1992-ci ildə yenidən truppaya qayıtmışdır.

Onun belə şıltaqlığına dözməyin əsasında, şəksiz ki, Eldənizin istedadına qiymət verməkdə dururdu. Çünki böyüklü-kiçikli bütün aktyorlar Eldəniz Zeynalovun aktyorluq imkanlarının genişliyini görür, onun böyük sənət qələbələri qazanması üçün imkan və zəmin yaratmağa çalışırdılar. Aktyor «ərköyünlüyünə»

baxmayaraq, teatrda tamaşa hazırlayan bütün rejissorlar, o cümlədən Ədil İsgəndərov, Mehdi Məmmədov, Ələsgər Şərifov, Tofiq Kazımov, Nəsir Sadıqzadə, Əşrəf Quliyev, Məmmədkamal Kazımov, Mərahim Fərzəlibəyov, Bəhram Osmanov, Ağakişi Kazımov öz quruluşlarında Eldəniz Zeynalova həm məsul, həm mürəkkəb, həm satirik, həm də faciə çalarlı dramatik, hətta müəyyən məqamlarda psixoloji obrazların ifasını cəsarətlə və ümidlə tapşırırdılar.

Eldəniz Zeynalova hələ aktyorluq diplomu almamışdan əvvəl, gənclik yaşında ikən quruluşçu rejissorların razılıqları ilə repertuarda olan tamaşalarda müxtəlif obrazların ifası tapşırılırdı. Bunlardan ən maraqlısı 20 aprel 1946-cı ildə Mehdi Məmmədovun Gəncədən sonra Akademik teatrda ilk işi olan «On ikinci gecə» (Uilyam Şekspir) komediyasında Kapitan rolu idi.

Təqdim olunan rollar siyahısında Eldəniz Zeynalovun bərpa obrazları da verilib və onun yaratdığı səhnə surətləri illərin ardıcıllığında düzümlənib.

Müxtəlif janrlı tamaşalarda oynadığı dramatik rollar: Şaliko və İbrahim xan («Vaqif», Səməd Vurğun), Aqripp, Montano («Otello» və «Antoni və Kleopatra», Uilyam Şekspir), Hofmarşal, Lya Qir («Məkr və məhəbbət» və «Orlean qızı», Fridrix Şiller), Səlim və Qəzetsatan («Türkiyədə», Nazim Hikmət), Toğrul, Səlim («Od gəlini» və «Aydın», Cəfər Cabbarlı), Şarvila («Hind gözəli», Yuri Osnos və Viktor Vinnikov), Anastasis («Gözəllik və sevgi adası», Aleksis Parnis), Əmin Bəxtiyarov («Alov», Mehdi Hüseyn), Dzerjinski («Tufanlı il», Aleksey Kapler), Doktor («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Kiçik Seyran («Namus», Aleksandr Şirvanzadə), Antiqon («Qış nağılı», Uilyam Şekspir), Şiruyə, İkinci jandarm («Fərhad və Şirin» və «Xanlar», Səməd Vurğun), İsrafil bəy («Eşq və intiqam», Süleyman Sani Axundov), Qonsalo («Sevilya ulduzu», Lope de Veqa), Doktor («Məhəbbətin hökmü», Cabbar Məcnunbəyov), Ennas

(«Mariya Tüdor», Viktor Hüqo), Qarapaltarlı («Köç», Cavad Fəhmi Başkut), Melnikov («Canlı meyit», Lev Tolstoy), Məlik şah və Əbu Şüca, Yalçın («Xəyyam» və «Səyavuş», Hüseyn Cavid), Rıbakov («Zamanın hökmü», Nikolay Poqodin), Tacir («Cavanşir», Mehdi Hüseyn), Slavço («Qısqanc ürəklər», Raço Stoyanov).

Milli klassik və çağdaş dramaturqlarımızın əsərlərinin tamaşalarındakı komik səciyyəli və yumor çalarlı personajlar: Cəfər Cabbarlının dramlarında Mazandaranski («Oqtay Eloğlu»), Mirzə Səməndər («Almaz») və Qulaməli («Yaşar»), Sabit Rəhmanın komediyalarında Azad və Rövşən («Əliqulu evlənir»), Qulam («Nişanlı qız»), Kərəmov («Toy»), Mirzə Qərənfil («Xoşbəxtlər») və Fərman («Yalan), İlyas Əfəndiyevin lirik-psixoloji səhnə əsərlərində Fərəcov («Sən həmişə mənimləsən»), Ümid («Qəribə oğlan») və Ağadadaş Nəcəfov («Dəlilər və ağıllılar»), Tarverdi («Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Vəli («Qaçaq Nəbi», Süleyman Rüstəm), Kəndçi Cəmil («Həyat», Mirzə İbrahimov), Milis Miriş («Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Zahid və Misirxanov («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Tinti («Uzaq sahillərdə», İmran Qasımov və Həsən Seyidbəyli), Qardaşxan, Xanəhməd («Yaxşı adam» və «Közərən ocaqlar», Mirzə İbrahimov).

Tərcümə əsərlərində ifa etdiyi yumorlu və satirik çalarlı obrazlar: Prins («Dəlilər», Lope de Veqa), Artist Fəxrəddin («Görünməmiş toy», Qriqori Qorin və Arkadi Arkanov), Xaverin («Zıkovlar», Maksim Qorki), Vağzal naçalniki («Adsız ulduz», Mixail Sebastian), Peppino («Çarəsiz dələduz», Raffaele Viviani), Rizvan Aslanov («Bağ qonşuları», Hay Vahid), Akop («Xanuma», Avqsenti Saqareli), Çapayev («Tanya», Aleksey Arbuzov).

Əli Əmirlinin «Köhnə ev» dramının tamaşasında ifa etdiyi Qüdrət surəti aktyorun son roludur (premyerası 19 dekabr 1999-cu ildə oynanılıb). Fasilələrlə teatrda bu qədər çoxsaylı obrazlar ifa etmiş Eldəniz Zeynalov televiziyada hazırlanmış Sabit Rəhmanın

«Nişanlı qız» (Mindilli), Ruhəngiz Qasımovanın «Qonşu qonşu olsa...» (Qəssab – «Xirurq») əsərlərinin və digər pyeslərin tamaşalarında da sanballı rollar oynayıb. Müxtəlif məzmunlu verilişlərdə, «Gülüş axşamı»nda, «Komediyalar aləminə səyahət»də, onlarca miniatür lövhələrdə, satirik səhnəciklərdə də çıxışlar edib. Teatrdan uzun müddətə ayrıldığı illərdə fərdi repertuarla miniatür estrada ansamblı düzəldərək «Eldəniz güldürür» proqramı ilə rayonlara qastrollara gedib, Bakının müxtəlif konsert salonlarında çıxışlar edib.

«Bir cənub şəhərində»ki Tofiq rolu Eldəniz Zeynalovun kinoda ən uğurlu işidir. O, «Azərbaycanfilm»də «Əhməd haradadır?» (Rəngsaz Əhməd), «26 Bakı komissarı» (Komissar Vəzirov), «Yaşamaq gözəldir, qardaşım» (Mustafa Sübhi), «Əzablı yollar» (Div), «Mən mahnı qoşuram» (Sədr), «Qızıl uçurum» (Nurut bəy), «Məlik Məmməd» (Div), «Bəyin oğurlanması» (Komissiya sədri), «Həyatın səhifələri» (Eldəniz), «Üç bazar günü» (Sürücü), «Həyat bizi sınayır» (Məsi), «Yaramaz» (Sex rəisi), «Musiqi ilə xaş» (Restoran müdiri), «Yeddi oğul istərəm» (Kəndli), «Yol əhvalatı» (Şikayətçi), «Bizim Cəbiş müəllim» (Alverçi), «Araqarışdıran» (Eldəniz), «Foto «Fantaziya» (epizod), «Arvadım mənim, uşaqlarım mənim» (Səlimov), «Qisas» (Kişi), «Babamızın babasının babası» (Həkim), «Hər şey yaxşılığa doğru» (Eldəniz) və sairə kinolentlərinə, «Mozalan» jurnalının müxtəlif nömrələrinin satirik süjetlərinə çəkilmişdir.

Sənət nailiyyətlərinə görə 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Komediya aktyoru Eldəniz Məmməd oğlu Zeynalov 2000-ci ildə küçədə yıxılıb ayağını və omba sümüyünü sındırmışdı. Həkimlərin ciddi səylərinə baxmayaraq, ayağına qan işləmədi və yara törədib fəsad verdi. Aktyor yataqdan qalxmadan 5 noyabr 2001-ci ildə dünyasını dəyişib.

Məcnun Hacıbəyov
(5 oktyabr 1935)



Tipik personajlar ifaçısı kimi tanınan Məcnun Salam oğlu Hacıbəyov 5 oktyabr 1935-ci ildə Quba rayonunun İkinci Nügədi kəndində doğulub. Orta məktəbi kənddə bitirib (1943 – 1953). Bir il sonra ordu sıralarına çağırılıb. Hərbi xidmətdən tərxis olunandan sonra Bakıda 1 saylı Texniki Məktəbi bitirib (1958). 1959-cu ildə Abbasqulu ağa Bakıxanov adına Quba Dövlət Dram Teatrına aktyor-suflyor götürülüb. Sonra aktyor ştatına keçib və 1961-ci ilə qədər bu kollektivdə işləyib. 1961 – 1965-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsində oxuyub. Diplom tamaşasında Cəfər Cabbarlının «Almaz» dramında Ocaqqulu rolunu oynayıb və bu ifasına görə Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilib.

Məcnun Hacıbəyov Quba Dövlət Dram Teatrında Kor ərəb («Şeyx Sənan», Hüseyn Cavid), Murtuza («Məhəbbət nişanəsi», Səttar Axundov), Dursun («Durna», dramaturq Süleyman Rüstəm, bəstəkar Səid Rüstəmov), Gəray («Toy kimindir?», dramaturq Məhərrəm Əlizadə, bəstəkar Ağası Məşədibəyov), Saray xanəndəsi («Qız qalası», Rza Şahvələd), De Qansola de Uola («Sevilya ulduzu», Lope de Veqa), Əli («Qayınana», Məcid Şamxalov) rollarında çıxış edib.

Aktyorun Akademik Milli Dram Teatrında ifa etdiyi səhnə surətlərini iki bölümdə təqdim etmək olar. Klassik və çağdaş milli ədiblərin müxtəlif janrlı əsərlərinin tamaşalarında oynadığı səhnə surətləri: Səməd Vurğunun mənzum pyeslərində Azər

baba və Ozan («Fərhad və Şirin»), Eldar («Vaqif») və Cəlal («İnsan»), İlyas Əfəndiyevin dramlarında Mirzə Tahir («Şeyx Xiyabani»), Üçüncü qaçaq («Mahnı dağlarda qaldı»), Tip («Məhv olmuş gündəliklər»), Kəlbəli xan («Hökmdar və qızı»), Milis mayoru («Unuda bilmirəm»), Ceyranzadə («Mənim günahım») və Birinci işçi («Sən həmişə mənimləsən»), Rüstəm, Axund («Oqtay Eloğlu» və «Solğun çiçəklər», Cəfər Cabbarlı), Çavuş Ələlfəlah, Mir Bağır ağa («Dəli yığıncağı» və «Ölülər», Cəlil Məmmədquluzadə), Əmrah («Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Fərraşbaşı, Mədəd («Torpağa sancılan qılınc», «Sən yanmasan», Nəbi Xəzri), Qulam («Yastı təpə», Əkrəm Əylisli), Əbuşər («Atabəylər», Nəriman Həsənzadə), Mirzə Salman («Nişanlı qız», Sabit Rəhman), Cəbi («Təhminə və Zaur», Anar), Qaranın atası («Qızıl teşt», Seyran Səxavət), Rəhil («Gülüstanda qətl», Cəmil Əlibəyov), Murtuz Canquliyev («Qısqanc ürəklər», Marat Haqverdiyev), Ziyad («Məhəbbət yaşadır», Nahid Hacızadə), Məzarçı («Şeyda», Hüseyn Cavid).

Tərcümə əsərlərinin əlvan janrlı tamaşalarında ifa etdiyi rollar: İvan («Günahsız müqəssirlər», Aleksandr Ostrovski), Artist Sərxan («Görünməmiş toy», Qriqori Qorin və Arkadi Arkanov), Doktor Berri («Qızıl», Yucin O`Nil), Pasku («Adsız ulduz», Mixail Sebastian), Həbsxana rəisi («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Bosman («Fırtına», Uilyam Şekspir), Ustabaşı («Məhəbbət əfsanəsi», Nazim Hikmət), Lekov («Qızıldan qiymətli», Draqomir Asenov), Qul alverçisi («Karıxmış sultan», Taufiq əl Hakimi), Lao («Sokratı anma gecəsi», Çingiz Aytmatov və Muxtar Şahanov), İsgəndər («Alın yazısı», Tufan Minnullin).

Aktyor nasir-dramaturq İsi Məlikzadənin «Qatarda», Məcnun Vahidovun «Yarımştat», İslam Səfərlinin «Göz həkimi», Seyfəddin Dağlının «Sabiqlər», Ağarəhim Rəhimovun «Canavar balası» və digər televiziya tamaşalarında maraqlı rollar oynayıb.

Məcnun Hacıbəyov 23 mart 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb.

Aktyor 2008-ci ildən teatrın truppasından çıxıb. Qubada, doğma kəndi İkinci Nügədidə yaşayır.

Rafiq Əzimov
(6 fevral 1938)



İlk növbədə, epizod rollar, kiçik xarakterlər və satirik personajlar ifaçısı kimi tanınır. Realist aktyor məktəbinin nümayəndəsidir və psixoloji ifadə vasitələri ilə, fikir yükü daşıyan pauzalarla, dramatik gərginliklə oynamağa üstünlük verir. Daxili dramatizmini, ehtiras və çılğınlığını dramatik istiqamətdə cilovlamaqla diqqəti obrazın mənalı səhnə təfsirinə yönəltməyə çalışır. İfa etdiyi səhnə surətləri üçün xarakterik sifət cizgiləri tapmağı xoşlayır və bu istəyinə nail olmaqdan ötrü qrim texnikasından da bacarıqla istifadə edir. Personajın tamaşanın ana xəttindəki bədii yükünü düzgün müəyyənləşdirmədən onu oynamağa meyil göstərmir. Sadə, ancaq çoxqatlı və müəyyən bədii fikir ifadə edən mizanlarda bir aktyor kimi daha sərbəst davranır. Teatrın nizam-intizam ənənələrinə hörmət və ehtiramla yanaşan aktyorlardan sayılır.

Rafiq Əşrəf oğlu Əzimov 6 fevral 1938-ci ildə Bakıda anadan olub. 44 saylı orta məktəbdə oxuyub. Birinci sinfə on yaşında getdiyinə görə məktəbi gec bitirib.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub.

İxtisas təhsilini görkəmli rejissor, Xalq artisti Məhərrəm Haşımovdan alıb. 1962-ci ildə ali savadlı aktyor diplomu alıb və həmin il sentyabr ayının 10-da Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. O, qırx ildən çoxdur ki, fasiləsiz olaraq bu teatrın səhnəsində çalışır.

Teatrda çalışan aktyor uzun illər Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Mədəniyyət Evinin nəzdindəki «Damğa» xalq teatrının rəhbəri olub. Burada məsxərə, məzhəkə, səhnə felyetonu, qəzet-publisistika janrında kiçikhəcmli, satirik tamaşalar hazırlayıb. Eyni zamanda Şıxəli Qurbanovun «Sənsiz», İlyas Əfəndiyevin «Məhv olmuş gündəliklər», Nahid Hacızadənin «Məhəbbət yaşadır» dramlarına səhnə quruluşu verib.

Rafiq Əzimov Azərbaycan Dövlət Televiziyasında «Ömrün kino səhifələri» silsilə verilişlərinin aparıcısı olub. «Lider» televiziyasında Seyid Əzim Şirvani haqqında «Aləmdə qalan səs», «Mirzə Ələkbər Sabir», «Aşıq Molla Cuma», «Səməd Mənsur», Abbasqulu ağa Bakıxanov barədə «Sonuncu orden» telefilmlərində aparıcı rollara çəkilib.

Rafiq Əzimov, əsasən, epizod rollar ifa etsə də, hər təzə teatr mövsümündə repertuarda daha çox məşğul olan aktyorlardan sayılır. Tələbə vaxtı Akademik teatrın tamaşalarının kütləvi səhnələrində oynayan aktyor kollektivə üzv olanda əvvəlcə repertuardakı hazır tamaşalara əlavə ifaçı kimi daxil edildi. İlk müstəqil rolu Kalendarionu («Dəlilər») 14 iyun 1963-cü ildə oynadı.

Azərbaycan klassik dramaturqlarının əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Sərkis, Müsyö Jordan, Frans Fok («Hacı Qara», «Müsyö Jordan və Dərviş Məstəlişah» və «Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Kəblə Fətulla və Müəllim, Mirzə Hüseyn Həmzad Qurban, Rüstəm bəy («Ölülər», «Dəli yığıncağı» və «Anamın kitabı», Cəlil Məmmədquluzadə), Mirzə Qoşunəli, Üçüncü əcinnə («Bəxtsiz cavan» və «Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Birinci tələbə, Anton, Kiçik

zabit («Xəyyam», «Şeyx Sənan» və «İblis», Hüseyn Cavid), Dursun, Mirzə Cavad, Şeyx («Oqtay Eloğlu», «Aydın» və «Ulduz, yaxud Ədirnə fəthi», Cəfər Cabbarlı), Atakişi («Eloğlu», Abdulla Şaiq), Arşaq, Vəzir və Vidadi, Güloğlan, Vəzir («Vaqif», «İnsan» və «Fərhad və Şirin», Səməd Vurğun).

Dünya klassiklərinin müxtəlif janrlı pyeslərinin tamaşalarında oynadığı obrazlar: Boraçio, Həkim, Filon, Rozenkarans, Hersoq Albani («Heç nədən hay-küy», «Maqbet», «Antoni və Kleopatra», «Hamlet» və «Kral Lir», Uilyam Şekspir), Kalendario («Dəlilər», yaxud «Valensiya dəliləri», Lope de Veqa), Paj («Orlean qızı», Fridrix Şiller), Karandışev («Cehizsiz qız», Aleksandr Ostrovski), Doktor Ninkoviç («Nazirin xanımı», Branislav Nuşiç), Axill, Müəllim («Böyük Romul» və «Qoca xanımın gəlişi», Fridrix Dürrenmatt), Medvedyev, Şişkin («Həyatın dibində» və «Meşşanlar», Maksim Qorki), Xristo («Falçı», Stefan Kostof), Kristi Daycen («Şeytanın şagirdi», Bernard Şou), Müəllim («Adsız ulduz», Mixail Sebastian), Batler («Qızıl», Yucin O'Nil), Lakey, Naşir («Şöhrət və ya unudulan adam» və «Kəllə», Nazim Hikmət), Filç («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Mister Paraviçini («Tələ», Aqata Kristi), Kişi («Ağlasığmaz qətl», Alber Kamyu).

Çağdaş milli və müxtəlif dövrlərdə yaşamış əcnəbi müəlliflərin səhnə əsərlərində çıxış etdiyi bədii personajlar: Beşinci aktyor və Marsello, Mirzə Hüseyn, Zəki, Qasım («Sevimli rollar», «Toy», «Yalan» və «Nişanlı qız», Sabit Rəhman), Şeyx Əfəndi («Füzuli və Əsmər», Mir Mehdi Seyidzadə), Əhmədcan, Rəhman, Ağayi Möhtəşəm, Anaşkin, Rəhmanzadə, Behbud bəy («Qəribə oğlan», «Mahnı dağlarda qaldı», «Şeyx Məhəmməd Xiyabani», «Sevgililərin cəhənnəmdə vüsalı», «Bizim qəribə taleyimiz» və «Tənha iydə ağacı», İlyas Əfəndiyev), Tufan, Qəni müəllim, İxtiyar («Əks-səda», «Gecə döyülən qapılar»və «Burla xatun», Nəbi Xəzri), İbn Tahir, Mubi Tərxan, Səttar

(«Dar ağacı», «Özümüzü kəsən qılınc», yaxud «Göytürklər» və «Rəqabət», Bəxtiyar Vahabzadə), Mərcan («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi), Fənd Bağır, Doktor Mahmud, Mozalan («Adamın adamı», «Səhra yuxuları» və «Sizi deyib gəlmişəm...», Anar), Cığatay («Məhəbbət yaşadır», Nahid Hacızadə), Amerika yazıçısı («Biganələr oteli», Rüstəm İbrahimbəyov), İvanov («Tufandan əvvəl», Arif Süleymanov), Aleksandr Petroviç («Qızıl teşt», Seyran Səxavət), Şeyx Pir Sultan («Min illərin işığı», Kamil Abdullayev), Qaraqoyunlu əmi («Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli), Kişi («Hərdən mənə mələk də deyirlər...», Kamal Abdulla), Əbdürrəhim bəy Haqverdiyev («Hərənin öz payı...», Xeyrəddin Qoca), Əhməd («Köç», Cavad Fəhmi Başkut), Caynaq («Ana torpağı», Çingiz Aytmatov), Artist Pərviz («Görünməmiş toy», Qriqori Qorin və Arkadi Arkanov), Sinqayevski («Tufanlı il», Aleksey Kapler), Dudko Zaxar («Daşqın», Anatoli Safronov), Müəzzin («Karıxmış sultan», Taufiq əl Hakimi), Sərhədpozan («Darıxma, ana!», Nodar Dumbadze), Qoca («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

Teatr aktyoru olan Rafiq Əzimov, eyni zamanda «Azərbaycanfilm» kinostudiyasında «Yeddi oğul istərəm» (Şahsuvar), «Xatirələr sahili» (Vəli), «Qızıl qaz» (Gündüz), «Ömrün ilk günü» (Sadıq), «1001-ci qastrol» (Rafiq), «Arxadan vurulan zərbə» (Müstəntiq Hüseynov), «Bu gözəl... gözəl... gözəl... dünya» (Arif), «Şəhərli biçinçilər» (Əliş), «Vulkana doğru gedirəm» (Cabbarlı), «Babək» (Saray şairi), «Ad günü» (Səlim); «Lenfilm»də «Mənim əziz atam» (Əli dayı) filmlərinə çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanan Süleyman Saninin «Dibdat bəy» (Dibdat bəy), İslam Səfərlinin «Göz həkimi» (İvanov), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordanburdan» (İsmayıl) teletamaşalarında oynayıb.

Aktyorluq sənətində qazandığı nailiyyətlərə görə Rafiq Əşrəf oğlu Əzimov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adına layiq görülüb.

Həsən Turabov
(24.3.1938 – 23.2.2003)

Azərbaycanda lirik-psixoloji aktyor məktəbinin banisi Həsən Turabov sayılır. Lap gənc yaşlarından ona hörmət əlaməti olaraq, afişa və proqramlarda adından sonra «ağa» sözü də yazılır. Onun yaradıcılığı təkcə möhtəşəm rolların siyahısı ilə deyil, həm də yaratdığı xarakterlərin mənəvi-əxlaqi, fəlsəfi, estetik səciyyələrinin mürəkkəb, çoxşaxəli olması ilə zəngindir.

Həsən Səttar oğlu Turabov 1938-ci il martın 24-də Bakıda doğulub. Yeddinci sinfə qədər Bakıdakı 31 saylı məktəbdə oxuyub və orta təhsilini 14 saylı məktəbdə başa vurub. Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil ala-ala (1956 – 1960), həm radioda, həm də yenicə açılan televiziyada diktor işləyib. İnstitutu komik aktyor kimi qurtarıb və diplom tamaşasında Nəcəf bəy Vəzirovun eyniadlı komediyasında Hacı Qəmbəri oynayıb. 1960-cı ildən müəyyən qısa fasilələrlə Akademik Milli Dram Teatrında aktyor olub. 1962-ci ildə teatrdan uzaqlaşaraq Bakıdakı Odessa Dənizçilik İnstitutuna daxil olub və az sonra yenə səhnəyə qayıdaraq təhsilini yarımçıq saxlayıb.

Görkəmli aktyor 1987-ci il fevralın 18-də kollektivin səs verməsi ilə Akademik teatra direktor seçilib. 1989-cu il yanvarın 15-dən həm də sənət ocağının bədii rəhbəri idi.

Həsən Turabovun aşağıdakı rolları milli teatrımızın klassik obrazları siyahısına daxil olub:

Vahid. «Kəndçi qızı», Mirzə İbrahimov (1962, 21 dekabr).

Floriano. «Dəlilər», yaxud «Valensiya dəliləri», Lope de Veqa. Tərcüməçi Tələt Əyyubov (1963, 14 iyun).

İsgəndər. «Ölülər», Cəlil Məmmədquluzadə (1966, 12 noyabr).

Hamlet. «Hamlet», Uilyam Şekspir. Tərcüməçi Cəfər Cabbarlı (1968, 15 mart).

Kamran. «Unuda bilmirəm», İlyas Əfəndiyev (1968, 1 noyabr).

Qurban. «Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev (1969, 30 iyun).

Xəyyam. «Xəyyam», Hüseyn Cavid (1970, 12 mart).

Nicat. «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev (1971, 12 fevral).

Aydın. «Aydın», Cəfər Cabbarlı (1972, 26 may).

Valid. «Nağıl başlananda», İmran Qasımov (1973, 17 fevral).

Qiyas. «Şəhərin yay günləri», Anar (1977, 16 dekabr).

Qədir. «Quşu uçan budaqlar», Əkrəm Əylisli (1978, 29 dekabr).

Polkovnik Əmir. «Səhra yuxuları», Anar (1981, 28 fevral).

Şeyx Xiyabani. «Şeyx Xiyabani», İlyas Əfəndiyev (1986, 20 dekabr).

Hacı Əsədulla. «Mənsiz dünya», Nəbi Xəzri (1987, 10 sentyabr).

Kamran. «Bizim qəribə taleyimiz», İlyas Əfəndiyev (1988, 9 aprel)

Həsən Turabovun kinoda ən parlaq rolları Gəray bəy, («Yeddi oğul istərəm»), Kəbirlinski («Dantenin yubileyi»), Afşin («Babək»), Üçgöz Cəfər («Qorxma, mən sənin ləyəm»), eyniadlı filmdə Qaçaq Nəbi, Əsəd («Bəyin oğurlanması»), Qəzənfər Mamedoviç («Yaramaz») obrazlarıdır.

Qırx il ərzində aktyor teatrın səhnəsində ayrı-ayrı dramaturqların əsərlərinin tamaşalarında epizod, ikinci dərəcəli, əsas obrazlar olan müxtəlif xarakterli rollar oynayıb. Onlardan ən

əsasları bunlardır: Özdəmir, Birinci dəliqanlı, İblis («Şeyx Sənan», «Səyavuş» və «İblis», Hüseyn Cavid), Əli bəy, İlyas və Vaqif, Şahbaz («Vaqif» və «İnsan», Səməd Vurğun), Kamal («Əliqulu evlənir», Sabit Rəhman), Qürbət («Bağlı qapılar», Həsən Seyidbəyli), Erix («Uzaq sahillərdə», İmran Qasımov və Həsən Seyidbəyli), Katib («Alov», Mehdi Hüseyn), Misirxanov, Tərlan («Əcəb işə düşdük» və «Sənsiz», Şıxəli Qurbanov), Azər, Lenin («Yaxşı adam» və «Közərən ocaqlar», Mirzə İbrahimov), Lenin («Tufandan əvvəl», Arif Süleymanov), Xansu («Mənim günahım», İlyas Əfəndiyev), Elgün («Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Müstəntiq («İstintaq», Rüstəm İbrahimbəyov), Cəlil Məmmədquluzadə («Sizi deyib gəlmişəm», Anar), Birinci qasid, Eros («Otello» və «Antoni və Kleopatra», Uilyam Şekspir), Anastasis («Gözəllik və sevgi adası», Aleksis Parnis), Lionel («Orlean qızı», Fridrix Şiller), Nil («Meşşanlar», Maksim Qorki), Qatil («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Vasili («Tufanlı il», Aleksey Kapler), Aryaka («Hind gözəli», Yuri Osnos və Viktor Vinnikov), Cəllad («Mariya Tüdor», Viktor Hüqo), Lenin («Kreml saatı», Nikolay Poqodin), Umud («Qisas qiyamətə qalmaz», Nahid Hacızadə. Aktyorun səhnədə son təzə rolu olub).

«Azərbaycanfilm»in istehsal etdiyi «Qara daşlar» (Radist Hüseyn), «Telefonçu qız» (Hüseyn), «Yun şal» (Cəlal), «Sən niyə susursan?» (Milis mayoru), «Sevil» (Rüstəmov), «Axırıncı aşırım» (Xəlil), «Var olun, qızlar» (Şəmsi), «Xatirələr sahili» (Kamran), «Qızıl qaz» (Fazilov), «Səmt küləyi» (Biçeraxov), «Ömrün ilk günü» (Mehdi), «Çarvadarların izi ilə» (Aqil), «Qatır Məmməd» (Səlimov), «Çətirimiz buludlardı» (Qədirov), «Dörd bazar günü» (Nicat), «Ürək... ürək...» (Murad), «Dərviş Parisi dağıdır» (Rəşid bəy), «Sevinc buxtası» (Əlizadə), «Bayquş gələndə» (Rəşid), «Mən mahnı qoşuram» (Ata), «Qəribə adam» («Mosfilm»in istehsalı. Arif), «İstintaq» (General),

«Anlamaq istəyirəm» (Neftçi Həsən), «Qızıl uçurum» (Usta Bağır), «Əlavə iz» (Əli), «Qaladan tapılan mücrü» (Qəyyum), «İlıq dənizdə buz parçası» (Sərt kişi), «Park» (Mədən müdiri), «Nizami» (Müzəffər), «Gümüşgöl əfsanəsi» (Ağazəki), «Qoca padşahın nağılı» (Qoca), «Tənha narın nağılı» (Əli), «İşarəni dənizdən gözləyin» (Baş nazir), «Şəhərli biçinçilər» (Səlim), «Qəm pəncərəsi» (Cəlil Məmmədquluzadə), «Gənc qadının kişisi» (Rauf), «Gecə qatarında qətl» (Nağıyev), «Şahid qız» (Polkovnik), «Təhminə» (Dadaş), «Nakəs» (Həbsxana rəisi), «Ailə» (Qoca), «Bu gözəl, gözəl, gözəl dünya» (Müstəntiq), «Gözlə məni» (Böyük bəy) filmlərində müxtəlif xarakterli, müxtəlif psixoloji durumlu rollara çəkilib.

Rejissor kimi «Tənha narın nağılı» (Şamil Mahmudbəyovla birgə) və «Atları yəhərləyin» («Qaçaq Nəbi». Əbdül Mahmudbəyovla birgə) filmlərini çəkib.

Həsən Turabov həssas duyumu, keçmişlə çağdaşlığı, baxanla (tamaşaçı) baxılanı (obraz) doğmalaşdırmaq məharəti, səmimiyyət yaratmaq istedadı ilə qəhrəman-xarakterin yaşadığı dövrlə salon arasındakı zaman-məsafə ayırmasını məharətlə dəf edirdi.

Klassik faciə rollarında xarakterin psixoloji dərinliyini həm emosional ifadə vasitələrinin heyrətamiz rəngarəngliyi, həm də sanki tükənməyən texniki vərdiş-fəndləri ilə tamaşaçılara təqdim edə bilirdi. Belə vəhdətdə obrazın faciəvilik əzəməti daha canlı, daha təsiredici, düşündürücü, həyəcanlandırıcı ovqat bağışlayırdı.

Böyük ehtiraslı aktyor, güclü faciə xarakterli sənətkar idi. O, səhnədə özünün emosional enerjisini qurulmuş yay kimi həmişə tarıma çəkilmiş gərginlikdə saxlamağı qətiyyətlə bacarırdı.

Bədii təsvircə mürəkkəb, xaraktercə təzadlı, xasiyyətcə sabit davranış ölçülərini pozan, bəzən hərzə-hədyan danışmaqdan çəkinməyən, hərdən xudbin, ədalı görünən... səhnə və

ekran rollarında da cəsarətlə insanlıq və həyatsevərlik axtarmağın riskinə gedirdi.

Həsən Turabovun oynadığı rollarda, ictimai mənsubiyyətindən asılı olmayaraq, intim qılıqlıq, doğma məhrəmlik var. Ürəyinin hərarəti və idrakının ziyası onun sənətkarlığının, səhnədə və ekranda yaratdığı «həyatın» əsas təkanvericisi idi.

Böyük bir monoloqun görə bilmədiyi «işi» baxış və hərəkətlə nəzərə çatdırır, vəziyyətin psixoloji ovqatını iki, üç... planda tamaşaçıya göstərirdi.

Obrazın psixologiyasındakı ovqat dəyişikliyini öz oyununda böyük ustalıqla, heyrətamiz yüngüllüklə, psixoloji dəqiqliklə verə bilirdi. Aktyor bunu «özgələşmə» vərdişlərinin ən incə vasitələri ilə və heç vəchlə ölçü hissini itirmədən məharətlə icra edirdi.

Janrından, mövzusundan, dövründən asılı olmayaraq, bəyəndiyi ssenaridə oynayacağı rolun məqsəd və qayəsinin əsas leytmotivini dəqiq, aydın müəyyənləşdirməyi fəhmlə duyurdu.

Həsən Turabov milli kinomuzda hərəkət sərbəstliyinə, plastika yumşaqlığına, ağayana (eleqant) jestlərin meyar dəqiqliyinə, harmonik davranışını filmin parçalanmaz üzvü kimi təqdim etmək məharətinə görə seçilir, fərqlənir, örnək kimi qəbul olunurdu.

Nadir aktyorlardandır ki, səhnədə öz istedadının arxasında gizlənmək üçün çoxsaylı zahiri ifadə vasitələrinə güvənmirdi. Ali məqsədi bu idi ki, həyat hadisələrinin doğurduğu suallara teatr və ekran dili ilə cavab tapsın.

Həsən Turabov SSRİ Ali Sovetinin deputatı seçilib (1989). İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» (1972) tamaşasındakı Nicat və «Atları yəhərləyin» («Qaçaq Nəbi». 1986) filmindəki Qaçaq Nəbi rollarına görə Respublika Dövlət mükafatı laureatıdır. Respublikanın Əməkdar artisti (29 aprel 1971) və Xalq artisti (1 dekabr 1982) fəxri adlarına layiq görülüb. 1991 və

1996-cı illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri seçilib. Avropa Türkləri İslam Birliyinin Qızıl medalı ilə təltif olunub (1994).

13 dekabr 2001-ci ildə Akademik teatrın bədii rəhbəri və direktoru vəzifəsindən istefa verən Həsən Səttar oğlu Turabov 23 fevral 2003-cü ildə dünyasını dəyişdi. Öz vəsiyyəti ilə Bakının dağlıq hissəsindəki qəbiristanlıqda, oğlunun məzarının yanında dəfn olundu.



Kamal Xudaverdiyev
(3.5.1938 – 23.4.2008)

Akademik Milli Dram Teatrının aparıcı aktyorlarından olan Kamal Xudaverdiyev aktyor kimi lirik-psixoloji üslublu məktəbin nümayəndəsidir. Ən parlaq rollarını məhz həmin janrlı əsərlərin tamaşalarında yaradıb. Bununla belə, romantik ruhlu tamaşalarda, komediyalarda da rollar oynayıb. Bu baxımdan Uilyam Şekspirin və Sofoklun eyniadlı faciələrində ifa etdiyi Kral Lir və Şah Edip rolları aktyorun yaradıcılığında xüsusi yer tutur.

Azərbaycan milli teatr tarixində yüksək fəxri ada layiq görülmüş tək-tək aktyor olub ki, barmaqla sayılacaq qədər sözü olan obrazın ifaçısı kimi səhnəyə çıxsın. Kamal Xudaverdiyev məhz belə cəsarətli və fədakar aktyorlardandır. O, «Ah, Paris... Paris!..» (Elçin) tamaşasında Süpürgəçi rolunda bütün əsər boyu səhnədə olurdu və yalnız finalda ikicə cümlə sözü vardı. Aktyor bu rolu ilə pauza vasitəsilə tipik obraz yaratmağın bariz və parlaq nümunəsini göstərə bildi.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev 3 may 1938-ci ildə Bakıda doğulub. Yeddinci sinfə qədər gündüz oxuyub, orta təhsilini isə 6 saylı fəhlə-gənclər məktəbində başa vurub. Respublika və Bakı şəhər qaz idarələrində çilingər işləyib, bir müddət Qazaxıstanın xam torpaqlarında ezamiyyətdə olub, orada müxtəlif peşələrdə çalışıb. Yenidən Bakıya qayıdaraq yüksək dərəcəli çilingər kimi fəaliyyətini davam etdirib.

21 yaşından aktyorluq sənətinə maraq göstərib və Bakıda müxtəlif dram dərnəklərinə gedib. 1961-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Qüdrətli sənətkarlar Ədil İsgəndərovdan, Mehdi Məmmədovdan və Rza Təhmasibdən ixtisas təhsili alıb. 1965-ci ildə ali təhsilini başa vuran Kamal Xudaverdiyev Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun təklifi ilə oktyabr ayının 1-də truppaya ştata götürülüb. Arada müəyyən qısa fasiləni çıxmaqla, yalnız Akademik teatrda işləyib. Bu illər ərzində xeyli mürəkkəb xarakterli rollar oynayıb.

Milli klassik və çağdaş dramaturqlarımızın pyeslərinin tamaşalarında ifa etdiyi obrazlar: Cəfər Cabbarlının dramlarında İzzət paşa («Ulduz», yaxud «Ədirnə fəthi»), İbad («Almaz») və Surxay («Aydın»), İlyas Əfəndiyevin lirik-psixoloji pyeslərinin tamaşalarında Knyaz («Xurşidbanu Natəvan»), Səlim Babayev («Sevgililərin cəhənnəmdə vüsalı»), Kərim bəy («Tənha iydə ağacı»), Kamandar («Bağlardan gələn səs»), Otar («Qəribə oğlan»), Ədalət («Məhv olmuş gündəliklər») və Bahadır («Mahnı dağlarda qaldı»), Bəxtiyar Vahabzadənin səhnə əsərlərində Aqşin («Dar ağacı»), Ulu əcdad («Hara gedir bu dünya?»), Birinci Nəsimi («Fəryad») və Loğman («Yollara iz düşür»), İbn Yəmin («İblis», Hüseyn Cavid), Eldar («Vaqif», Səməd Vurğun), Fərman, Sadıq («Yalan» və «Xoşbəxtlər», Sabit Rəhman), Aslan («Kəndçi qızı», Mirzə İbrahimov), İnam («Sən yanmasan...», Nəbi Xəzri), Tahirov («Ümid», Maqsud İbrahimbəyov), Həmkar («İstintaq»,

Rüstəm İbrahimbəyov), Fəxrəddin («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi), Süpürgəçi («Ah, Paris... Paris!..», Elçin), Hüseynov («Qızıl teşt», Seyran Səxavət), Lətif («Söz yarası», Qeybulla Rəsulov), Murtuza Muxtarov, Ağqoyunlu ata («Mesenat» və «Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli).

Tərcümə əsərlərinin tamaşalarında çıxış etdiyi səhnə personajları: Uilyam Şekspirin faciələrində Makduf («Maqbet»), Demetr («Antoni və Kleopatra»), Kral Lir («Kral Lir») və Layert («Hamlet»), Şah Edip («Şah Edip», Sofokl), Petruççо Konti («Çarəsiz dələduz», Raffaele Viviani), Rıbakov («Zamanın hökmü», Nikolay Poqodin), Efralel Kebot, Denni («Qaraağaclar altında ehtiraslar», «Qızıl», Yucin O'Nil), Kral («Yatmış gözəl və yeddi qardaş», Aleksandr Puşkin), Murov («Günahsız müqəssirlər», Aleksandr Ostrovski), Raul («Orlean qızı», Fridrix Şiller), Riçard Daycen («Şeytanın şagirdi», Bernard Şou), Afremov («Canlı meyit», Lev Tolstoy), Vaska Pepel («Həyatın dibində», Maksim Qorki), Mares («Böyük Romul», Fridrix Dürrenmatt), Sezar («Kölgələrin oyunu», Yuri Edlis. Kiçik səhnədə), Braun («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Zabit («Tufanlı il», Aleksey Kapler), Çingiz xan («Sokratı anma gecəsi», Çingiz Aytmatov və Muxtar Şahanov), Dolbanezo («Kəllə», Nazim Hikmət).

Aktyor teatrdan əlavə, Azərbaycan Dövlət Televiziyasında da hazırlanan tamaşalarda çoxlu obrazlar ifa etmişdir. Bu baxımdan onun İlyas Əfəndiyevin «Atayevlər ailəsi» (İldırım), Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Cavanşir bəy), Mehdi Hüseynin «Alov» (Qaşqay), Əlibala Hacızadənin «Yadigar» (Müəllim), Nazim Hikmətin «Bayramın son günü» (Firuz) və «Şöhrət və ya unudulan adam» (Doktor), Elçin Mehrəliyevin «Yurd yeri» (Mahal kişi) televiziya tamaşalarında oynadığı rollar bədii cəhətdən daha bitkindir.

Müxtəlif illərdə «Azərbaycanfilm» kinostudiyasında «İstintaq davam edir» (Çingizov), «Dağlarda döyüş» (Rüstəmov), «Ən

vacib müsahibə» (Həsənov), «Nəsimi» (Yusif), «Abşeron» (Əli), «Üzü küləyə» (İlyas Məmmədov), «Səmt küləyi» (Quldur), «Vulkanlara doğru» (Usta Əli), «Təkcə adanı özünlə apara bilməzsən» (Ata), «Oteldə bir otaq» (Alim), «Dədə Qorqud» (Ata), «Qəzəlxan» (Qafarzadə), «Mənim ağ şəhərim» (Kişi), «Dağıdılmış körpü» (epizod), «Otel otağı» (Erol bəy) filmlərində xaraktercə fərqli obrazlara çəkilib.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev teatr və kino yaradıcılığındakı səmərəli fəaliyyətinə, qazandığı nailiyyətlərə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 22 may 1991-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub. 1991-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs deyirdi, dosent idi.

Kamal Xudaverdiyev 23 aprel 2008-ci ildə Bakıda vəfat edib.

Hamlet Qurbanov

(13.10.1938 – 15.11.1995)



İki nəhəng və qüdrətli sənətkarın ailəsində doğulub. Anası Xalq artisti, uzun illər Opera və Balet Teatrının solisti işləmiş Gülxar Həsənova, atası Gənc Tamaşaçılar Teatrının yaradıcılarından biri, 1952-ci ildən Akademik Milli Dram Teatrında aktyorluq etmiş Ağadadaş Qurbanov (1911–1965) olub. Necə deyərlər, gözünü həyata sənət içində açıb, yeriməyi isə az qala səhnədə öyrənib.

Gec qavranılan, daxilən mürəkkəb və qeyri-adi yaradıcılığa malik aktyor idi. Öz oyununda parlaq rənglərdən qaçar, ifadə vasitələrində «xəsislik» meyarını gözləyərdi. Soyuq rənglərə

üstünlük verər, tapdığı ştrix və detalları, sifət ifadələrini, ən əsası obrazın baxışlarını cilalaya-cilalaya müəyyən qəlibə salar, sonra oyununun forma əlamətlərini qətiləşdirərdi. Klassik əsərlərin tamaşalarında romantika ilə realizmi qəribə tərzdə qovuşdurar, hətta onların ruhuna psixologizm çalarları əlavə edərdi. Sərt, «qəlibə sığmayan», hərəkətlərinə vərdiş etmədiyimiz tipik xarakterləri oynamağa xüsusi can atardı. Həyatda bir qədər qaradinməz, qılıqsız olsa da, səhnədə diqqətli və yöndaşlarına ehtiramla, yaradıcılıqla yanaşan, səhnə ilə tamaşaçı salonu arasında ünsiyyət yaratmağı bacaran aktyor sayılırdı.

Hamlet Ağadadaş oğlu Qurbanov 13 oktyabr 1938-ci ildə Bakıda anadan olub. Orta məktəbi də Bakıda bitirib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil alıb (1957 – 1961), dram və kino aktyoru ixtisasına yiyələnib. İnstitutu bitirən kimi təyinatla Milli Dram Teatrına göndərilib və aktyor truppasına qəbul olunub.

Aktyor iki il teatrda işləyib və bir neçə əvvəlki tamaşalarda (bərpa ilə), beş yeni tamaşada rollar oynayıb. 13 aprel 1963-cü ildə gözlənilmədən ərizə yazaraq teatrdan çıxıb. Həmin il aprel ayının 26-da Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasına rejissor assistenti vəzifəsinə işə qəbul olunub. 1965-ci il avqust ayının 27-də ərizə yazaraq bu işdən də çıxıb və həmin gün Azərbaycan Dövlət Teatr İnstitutuna müəllim götürülüb. İki il yarım tələbələrə aktyor və rejissor sənətindən dərs deyib. Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun təkidi ilə 1968-ci il yanvar ayının 2-dən bu kollektivə qayıdaraq aktyorluq sənətini davam etdirməyə başlayıb.

Çox qısa müddətdə truppanın yaradıcılıq iqliminə uyğunlaşan Hamlet Qurbanov bir-birinin ardınca təzadlı, xarakterik, psixoloji, hətta sürrealist və ekzistensializm çalarlı rollar oynamağa başlayıb. Onun aktyorluq məharətinin incəliklərini dərindən duymaqdan ötrü oynadığı rolların formasını görməkdən əlavə,

məzmununun mahiyyətini anlamaq lazım idi. Üslub-ifadə baxımından mürəkkəb qavranılan Hamlet Qurbanov daxilən zəngin və məzmunlu, fikir çəkisinə görə sanballı aktyor idi.

Azərbaycan dramaturqlarının müxtəlif janrlı pyeslərinin tamaşalarında oynadığı rollar: Səfər bəy («Hacı Qara», Mirzə Fətəli Axundzadə), İran əsgəri, Hacib («Səyavuş» və «Xəyyam», Hüseyn Cavid), Doktor Lalbyuz («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), İlyas Əfəndiyevin pyeslərinin tamaşalarında Ağamusa Fərəcov («Dəlilər və ağıllılar»), Canişin («Xurşidbanu Natəvan»), Ağahüseyn («Büllur sarayda»), Valeh («Qəribə oğlan») və Cəmil («Unuda bilmirəm»), Zənci çavuş və İkinci zabit («İblis», Hüseyn Cavid), Albert («İnsan», Səməd Vurğun), Zahid («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Səlim bəy («Qaçaq Nəbi», Süleyman Rüstəm), Casus («Küləklər», Sabit Rəhman), Şəkərlinski («Kəndçi qızı», Mirzə İbrahimov), Qayınata, Tahirov («Kərgədan buynuzu» və «Ümid», Maqsud İbrahimbəyov), Anarın dramlarında Hovard Bruk («Səhra yuxuları»), Şamxal («Şəhərin yay günləri») və Mərd Məzarov («Adamın adamı»), Müstəntiq («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Vəkil («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Səfioğlu («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Əmin, Şükürbəy («Yağışdan sonra» və «Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), Əmir («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), General («Gülüstanda qətl», Cəmil Əlibəyov), Loğman («Günah», Rəhman Əlizadə), Bakı polis idarəsinin rəisi («Tufandan əvvəl», Arif Süleymanov).

Əcnəbi dramaturqların tərcümə edilmiş dramlarının tamaşalarındakı səhnə surətləri: Uilyam Şekspirin komediya və faciələrində Leonato («Heç nədən hay-küy»), Fortinbrans («Hamlet») və Ferdinand («Fırtına»), Maksim Qorkinin pyeslərində Medvedyev («Həyatın dibində»), Pyotr («Meşşanlar») və Şoxin («Zıkovlar»), Lord Kendos («Mariya Tüdor», Viktor Hüqo),

Karenin («Canlı meyit», Lev Tolstoy), Gela («Darıxma, ana!», Nodar Dumbadze) Udrya («Adsız ulduz», Mixail Sebastian), Feliks Edmundoviç Dzerjinski və Qlaqolyev («Zamanın hökmü», Nikolay Poqodin), Doktor Ninkoviç («Nazirin xanımı», Branislav Nuşiç), Netti («Qızıl», Yucin O'Nil), Kudimov («Övlad», Aleksandr Vampilov), Sultan («Karıxmış sultan», Taufiq əl Hakimi).

Ağamusa rolu Hamlet Qurbanovun səhnədə son təzə rolu oldu. Premyerası 9 noyabr 1992-ci ildə göstərilən «Dəlilər və ağıllılar» tamaşasında maraqlı obraz yaradan aktyora bir müddət təzə səhnə xarakteri tapşırılmadı. O, ancaq repertuardakı köhnə tamaşalarda oynayırdı. 1993-cü ilin payızında aktyor ağır xəstələndi və müəyyən ciddi müalicədən sonra teatra gəlsə də, səhnəyə çıxmırdı, çünki səhhəti buna yol vermirdi.

İstedadlı aktyor kimi tanınan Hamlet Qurbanov teatrda işləməklə yanaşı, «Azərbaycanfilm» kinostudiyasında «Aygün» (Qonaq), «Cazibə qüvvəsi» (Rizvan), «Sevil» (Əbdüləli bəy), «Yenilməz batalyon» (Qaçaq), «Ürək... ürək!..» (Məmmədov), «Dədə Qorqud» (Qıpçaq Məlik), «Bağ mövsümü» (Qulamov), «Yüksək səma» (Səmədov), «Babamın babasının babası» (Sədr), «Cin mikrorayonda» (Dəmirov), «O dünyadan salam» (Mir Bağır ağa), «Qumcan» (Dosent), «Kimi daha çox sevirsən?» (Rizvan), «Qətl olundu» (Morfisatan), «Tut ağacı» (Loğman) və sair kinolentlərdə, həmçinin «Mozalan» satirik kinojurnalının bir neçə nömrəsində çəkilib.

Hamlet Ağadadaş oğlu Qurbanov teatr sənətinin inkişafında göstərdiyi xidmətlərinə və aktyorluq məharətinə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif edilib.

1995-ci ilin əvvəllərindən yatağa düşən Hamlet Qurbanov bir daha teatra gələ bilmədi. Həmin il noyabr ayının 15-də əlli yeddi yaşı tamam olandan bir ay sonra istedadlı aktyor Hamlet Qurbanov Allah rəhmətinə getdi.

Həsən Məmmədov
(22.11.1938 – 27.8.2003)

Daha çox kino aktyoru kimi populyar olub. Təbiətcə sakit, psixoloji cəhətdən mürəkkəb təbəddülatlardan keçən dramatik obrazları ekranda və səhnədə məharətlə canlandırıb. Daha çox texniki imkanlarla oynamağı xoşlayıb. Tamaşada və çəkiliş meydançalarında təmkinli davranışı, soyuq, ancaq ifadəli aktyorluq vasitələrindən yerli-yerində istifadə edə bilməsi ilə seçilib.

Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov 1938-ci il noyabr ayının 22-də Salyan rayonunda doğulub. Burada 2 saylı orta məktəbi 1956-cı ildə bitirib və Azərbaycan Dövlət Universitetinin (bugünkü Bakı Dövlət Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olub. İkinci kursda universitetdən çıxıb və bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq edib.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik illərində müəyyən fasilələrlə Dövlət radiosunda diktor işləyib (1960 – 1961).

Məşhur səhnə xadimi Mehdi Məmmədovun kursunu 1962-ci ildə bitirib və təyinatla Akademik Milli Dram Teatrına göndərilib. Sentyabr ayının 10-da bu qədim sənət ocağının aktyor truppasına üzv olub. Həmin ildən başlayaraq on il ərzində kino çəkilişləri ilə əlaqədar olaraq müxtəlif müddətlərə dəfələrlə teatrda işdən çıxıb və yenə kollektivə qayıdıb.

İldən-ilə kino aktyoru kimi məşhurlaşan Həsən Məmmədov 1972-ci il fevral ayının 2-də köçürmə yolu ilə Akademik teatrdan çıxaraq «Azərbaycanfilm» kinostudiyasına işə qəbul edilib.

O, 1989-cu il may ayının 27-də dəvətlə Cəmil Əlibəyovun «Gülüstanda qətl» (quruluşçu rejissor Ağakişi Kazımov) dramının tamaşasında İlyas İsbatov rolunu oynayıb.

Həsən Məmmədov Akademik teatrın direktoru və bədii rəhbəri Həsən Turabovun dəvəti ilə 1992-ci il noyabr ayının 21-dən yenidən doğma kollektivin aktyor truppasında çalışıb. Aktyorun rollar siyahısında milli və Avropa klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların əsərlərinin tamaşalarındakı səhnə obrazları var.

Teatrda fasilələrlə işləyən aktyorun əsas rolları: Bayram («Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Həsən Sabbah («Xəyyam», Hüseyn Cavid), Şeyda («Toy», Sabit Rəhman), Camal («Almaz», Cəfər Cabbarlı), Xosrov («Fərhad və Şirin», Səməd Vurğun), Axund Mir Möhsün ağa («Hökmdar və qızı», İlyas Əfəndiyev), Fikrət («İkinci səs», Bəxtiyar Vahabzadə), İnam («Sən yanmasan...», Nəbi Xəzri), İlyas İsbatov («Gülüstanda qətl», Cəmil Əlibəyov), Umud («Qisas qiyamətə qalmaz», Nahid Hacızadə), Gilderstern («Hamlet», Uilyam Şekspir), Montqomeri («Orlean qızı», Fridrix Şiller), Nənsad («Köç», Cavad Fəhmi Başkut), Səhhət («Kimdir müqəssir?», Hüseyn Muxtarov), Pərviz («Görünməmiş toy», Qriqori Qorin və Arkadi Arkanov), Gil («Tufanlı il», Aleksey Kapler).

Kinoda çəkildiyi çoxsaylı rollar Həsən Məmmədovun yaradıcılığında xüsusi yer tutur. O, «Azərbaycanfilm»də istehsal olunmuş «Böyük dayaq» (Qaraş), «Arşın mal alan» (Əsgər), «Gün keçdi» (Oqtay), «Bizi bağışlayın» (Nəriman), «İstintaq» (Murad), «Dədə Qorqud» (Dədə Qorqud), «Axırıncı aşırım» (Abbasqulu ağa Şadlinski), «Sevil» (Balaş), «Yeddi oğul istərəm» (Bəxtiyar), «Bir cənub şəhərində» (Murad), «İlıq dənizdə buz parçası» (Direktor), «Kimi dah çox sevirik» almanaxı («Zirvə» novellasında Kamil), «Qızıl qaz» (Fərman), «Bakıda küləklər əsir» (Tahir), «Alma almaya bənzər» (Qurban), «An-

lamaq istəyirəm» (Professor Hacıyev), «Gözlə məni» (Bahadur), «Sevinc buxtası» (Rüstəmov), «Səmt küləyi» (Əlibaba), «Üzü küləyə» (Əlibala), «İstintaq davam edir» (Əzimov), «Arxadan vurulan zərbə» (Qəmərli), «Birisi gün gecə yarısı» (Baba Əliyev), «Qoca palıdın nağılı» (Meşəbəyi), «Bağ mövsümü» (Ağababa), «Doğma sahillər» (Nuru), «Ölsəm... bağışla» (Həkim), «Qəm pəncərəsi» (Məmmədhəsən əmi), «Şahid qız» (Tofiq), «Papaq», yaxud «Evlənmək istəyirəm» (Mirzə Səfər), «Həm ziyarət, həm ticarət» (Əlimurad), «Tələ» (Hakim), «Qırmızı qatar» (Həkim), «Mənim ağ şəhərim» (Mahmud dayı), «Son döyüş» (Kişi), «Təhminə» (Professor Zeynallı), «Hökm» («Tuz» Nəsrəddin) filmlərində aparıcı rollar oynayıb.

Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov teatr və kino sənətində göstərdiyi xidmətlərə görə 1971-ci il noyabr ayının 18-də Azərbaycan Respublikasının Əməkdar artisti, 1 dekabr 1982-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. «İstintaq» bədii filmindəki Murad roluna görə 5 noyabr 1981-ci ildə SSRİ Dövlət, «Birisi gün gecə yarısı» kinolentindəki Baba Əliyev obrazı üçün Azərbaycan Respublikasının Dövlət mükafatları ilə təltif edilib. 1970-ci ildə Respublika Lenin komsomolu mükafatı laureatı olub.

Həsən Məmmədov teatr rollarında həzin lirizmə üstünlük verirdi. O, dramatik rollarda da obrazın emosional-psixoloji çalarlarını xüsusi ritm ahəngində tamaşaçılara çatdırırdı.

Romantik obrazları ifa edəndə aktyor klassik teatr ənənələrindən daha çox çağdaş ifadə vasitələrinə üstünlük verir və ifadə vasitələrinin əlvanlığına çalışırdı.

Həsən Məmmədov səhnə səmimiyyəti və səhnə diqqəti ilə həmişə öz ifasına xüsusi cəzibədarlıq verirdi.

Tanınmış aktyor 2003-cü il avqust ayının 27-də Bakıda vəfat edib. Məzarı İkinci Fəxri xiyabandadır.

Safurə İbrahimova
(27 dekabr 1938)

Səhnə məlahəti və səhnə cazibəsi ilə həmişə tamaşaçıları heyran qoyan, teatrşünaslığın diqqət mərkəzində duran aktrisa olub. Yüksək teatr etikasına, zəngin aktyorluq ifadə vasitələrinə, lətafətli oyun tərzinə, füsunkar sirayətçilik qabiliyyətinə malik sənətkardır. Səhnədə nə qədər şöhrət qazanıbsa, kinoda da bir o qədər populyardır, milyonlarla tamaşaçı qəlbində özünə rəğbət və məhəbbət tapıb.

Safurə Ağabala qızı İbrahimova 1938-ci il dekabr ayının 27-də Bakıda doğulub. Şəhərdəki 14 saylı məktəbi bitirib. 1955-ci ildən 1960-cı ilə qədər «Stalinneft»də, 44 saylı orta məktəbdə işləyib və paralel olaraq dram dərnəyinə gedib. 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Elə birinci kursdan onu Akademik Milli Dram Teatrının repertuarında olan İslam Səfərlinin «Ana ürəyi» dramının tamaşasında Xatirə rolunu oynamağa dəvət ediblər. Bundan sonra ona daha bir neçə rol tapşırılıb və tələbə-aktrisa 1961-ci il noyabr ayının 1-də Akademik teatrın truppasına qəbul edilib. İnstitutu bitirənə qədər altı yeni tamaşada maraqlı obraz yaradıb.

Fitri istedad sahibi Safurə İbrahimova ali təhsilini bitirəndən sonra da Akademik teatrda işləyib. Bu illər ərzində o, aşağıdakı sanballı silsilə rollar yaradıb.

Azərbaycan dramaturqlarının əsərlərinin tamaşalarında oynadığı rollar: Nazlı, Zəhra bəyim («Ölülər» və «Anamın kitabı», Cəlil Məmmədquluzadə), Hafizə («Pəri cadu», Əbdürrəhim bəy

Haqverdiyev), Hüseyn Cavidin faciələrində Gəlin və İkinci cariyə («Səyavuş»), Saqiyə, Vəfa və Vəfanın qızı («Xəyyam»), Jasmen («Knyaz») və Rəna («İblis»), Sevil («Sevil», Cəfər Cabbarlı), Sabit Rəhmanın komediyalarında Artistka və Mələk («Sevimli rollar»), Kamilə («Toy»), Qumral («Əliqulu evlənir»), Roza («Küləklər») və İnci («Xoşbəxtlər»), İlyas Əfəndiyevin lirik-psixoloji dramlarında Sarısaç qız («Sən həmişə mənimləsən»), Mədinə («Sevgililərin cəhənnəmdə vüsalı»), Tubu xanım («Hökmdar və qızı»), Gülnar və Tamara, Tatyana («Vaqif» və «İnsan», Səməd Vurğun), Əsmər («Alov», Mehdi Hüseyn), Göyərçin («Kəndçi qızı», Mirzə İbrahimov), Maral («Sənsiz», Şıxəli Qurbanov), Aynur («Yol ayrıcında», İslam Səfərli), Çinarə («Əks-səda», Nəbi Xəzri), Həyat («Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), İkinci xatun («Atabəylər», Nəriman Həsənzadə), Şümarə («Mənziliniz mübarək!», Seyfəddin Dağlı), Göyçək («Söz yarası», Qeybulla Rəsulov), Xalidə («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Balaxanım («Adamın adamı», Anar), Səltənət («Ana intiqamı» Vidadi Babanlı), Salatın («Qisas qiyamətə qalmaz», Nahid Hacızadə), Nadejda Krupskaya («Tufandan əvvəl», Arif Süleymanov), Mələk («Köhnə ev», Əli Əmirli).

Tərcümə pyeslərinin tamaşalarında ifa etdiyi obrazlar: İkinci aktyor və Ofeliya («Hamlet», Uilyam Şekspir), Fernando («Dəlilər», Lope de Veqa), Cen («Mariya Tüdor», Viktor Hüqo), Saşa («Canlı meyit», Lev Tolstoy), Vasilisa Karpovna, Pavla («Həyatın dibində» və «Zıkovlar», Maksim Qorki), Yelena («Çarəsiz dələduz», Raffaele Viviani), Əliman («Ana torpağı», Çingiz Aytmatov), Karola («Füsunkar qız», Mikolaş Dyarfaş), Sona («Xanuma», Avqsenti Saqareli), Tatyana («Şadlıq sorağında», Viktor Rozov), Olya («Tanya», Aleksey Arbuzov), Daduno («Darıxma, ana!», Nodar Dumbadze), Prudensiya («Dişi canavar», Federiko Qarsia Lorka), Qadın («Şöhrət və ya unudulan

adam», Nazim Hikmət), Maşa («Kreml saatı», Nikolay Poqodin), Nuneva («Qızıldan qiymətli», Draqomir Asenov), Yevgeniya Fyodorovna («Daşqın», Anatoli Safronov), Marietta Teles («Bu qadın mənimdir», Raymondo Juniyor), Mizel («Yad adam», Leonqard Frank).

Ondan çox televiziya tamaşasında oynamış Safurə İbrahimovanın ən yaxşı ekran rolu İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» lirik-psixoloji dramında Nəzakət obrazıdır.

Aktrisa müxtəlif illərdə «Azərbaycanfilm» kinostudiyasında «Bizim küçə» (Asya), «Sevil» (Dilbər), «Arşın mal alan» (Telli), «Qatır Məmməd» (Həbibə), «Alma almaya bənzər» (Mədinə), «Tütək səsi» (İsmət), «Dərviş Parisi dağıdır» (Gülpəri), «Bizim Cəbiş müəllim» (Nəcəfovun arvadı), «Qayınana» (Sədaqət), «İnsan doğuldu» (Leyla), «İstintaq davam edir» (Ana), «O qızı tapın» (Xalidə), «Əlavə iz» (Qadın), «Sahilsiz gecə» (Dürdanə), «Təxribat» (Qadın), «Qətl günü» (Sədi Əfəndinin arvadı), «Hökm» (Suğra) bədii filmlərinə çəkilib.

Mehdi Məmmədovun səhnə quruluşunda Hüseyn Cavidin «İblis» faciəsində oynadığı Rəna roluna görə 27 aprel 1984-cü ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb.

Safura İbrahimovanın yaradıcılıq təbiəti və ifadə vasitələrinin psixoloji tutumu lirik-dramatik rollara daha uyğundur. Bununla belə o, ictimai-sosial və məişət komediyalarını xüsusi şövq və duzlu ləzzətlə oynaya bilir.

Faciə rollarında aktrisa emosional ifadə vasitələrinə üstünlük verməklə dramatik pauzalardan məharətlə istifadə edir.

Safurə Ağabala qızı İbrahimova teatr və kino sənətində göstərdiyi böyük xidmətlərinə görə 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub.

Aktrisa on ildən çoxdur səhnəyə çıxmır.

Hamlet Xanızadə
(5.6.1941 – 23.2.1990)



Yaradıcılığı dramatik xarakterlər oynamaq yönümündə daha çox formalaşmış Hamlet Bəbir oğlu Xanızadə 1941-ci il iyun ayının 5-də Bakının Şağan kəndində doğulub. 1958-ci ildə orta məktəbi bitirən Hamlet Respublika Sanitar Epidemioloji Stansiyasında fəhlə işləyib. 1960-cı ildə hərbi xidmətə gedib və xəstəliyi ilə əlaqədar 1961-ci ilin may ayında ordudan tərxis olunub. 1961–1965-ci illərdə Azərbaycan Dövlət Teatr İnstitutunda aktyorluq təhsili alıb. İnstitutun üçüncü kursunda oxuyanda Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımov tələbə Hamleti özünün yeni hazırladığı Uilyam Şekspirin «Antoni və Kleopatra» faciəsinin tamaşasında Qall roluna dəvət edib (23 aprel 1964). Elə həmin il iyun ayının 1-də teatrın aktyor ştatına qəbul olunub. Hamlet Xanızadə 1965-ci ildə Teatr İnstitutunu bitirəndə teatrın tələbnaməsi ilə onun təyinatı Akademik Milli Dram Teatrına verilib.

Hamlet Xanızadə Milli Dram Teatrında işlədiyi 22 il ərzində zəngin yaradıcılıq bioqrafiyası yarada bilib. Milli və dünya klassiklərinin əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Naxoş, Molla Abbas («Ölülər» və «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Həsən Sabbah və Rəmzi, Şakro («Xəyyam» və «Knyaz», Hüseyn Cavid), Pirqulu («Aydın», Cəfər Cabbarlı), Şaliko və Qacar («Vaqif», Səməd Vurğun), Qall, Don Pedro, Antoni («Antoni və Kleopatra», «Fırtına» və «Heç nədən hay-küy», Uilyam Şekspir), Vurm, Bertrand («Məkr və məhəbbət» və «Orlean qızı», Fridrix Şiller), Ben Keyts («Qızıl», Yucin O'Nil), Qriq («Adsız ulduz», Mixail Sebastian), Artemyev və Qaraçı oğlan («Canlı

meyit», Lev Tolstoy), Doktor («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Suyek («Falçı», Stefan Kostov).

Müasir dövrdə yaşamış ədiblərimizin və əcnəbi müəlliflərin pyeslərinin tamaşalarında çıxış etdiyi bədii səhnə personajları: Hüsaməddin («Qılınc və qələm», Məmməd Səid Ordubadi. Səhnələşdirəni Tofiq Kazımov), Nizami («Atabəylər», Nəriman Həsənzadə), Fənd Fərəc, Doktor Kərim («Adamın adamı» və «Səhra yuxuları», Anar), İkinci Nəsimi («Fəryad», Bəxtiyar Vahabzadə), Müttəhim («İstintaq», Rüstəm İbrahimbəyov), Rüstəm («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Caiç («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Əli («Közərən ocaqlar», Mirzə İbrahimov), İlqar («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Dzeneladze («Darıxma, ana!», Nodar Dumbadze), Qlaqolyev («Zamanın hökmü», Nikolay Poqodin), Polis məmuru («Köç», Cavad Fəhmi Başkut), Jenşengül («Ana torpağı», Çingiz Aytmatov), Tom («Şüşəli heyvanxana», Tennessi Uilyams), Kleş («Həyatın dibində», Maksim Qorki), Tuliy Ratund («Böyük Romul», Fridrix Dürrenmatt), Peppino («Çarəsiz dələduz», Raffaele Viviani), Professor Mins və Katoviç («Tufanlı il», Aleksey Kapler), Oleq («Tanya», Aleksey Arbuzov), Qafur («Bağ qonşuları», Hay Vahid), Don Martin («Bəşərin komediyası, yaxud Don Juan», Mirzə İbrahimov), Sdeka («Falçı», Stefan Kostov), Səhhət («Kimdir müqəssir?», Hüseyn Muxtarov). Repertuarda olan bir neçə tamaşaya (Kurçayev. «Müdriklər», Aleksandr Ostrovski; Akop. «Xanuma», Avqsenti Saqareli) sonradan daxil olub.

Xeyli filmə çəkilmiş Hamlet Xanızadənin «Möcüzələr adası» (Sadıq), «Bizim Cəbiş müəllim» (Hərbi komissar), «Arxadan vurulan zərbə» (İmaş), «Babək» (Xəlifə Mötəsim), «Yeddi oğul istərəm» (Gizir), «Axırıncı aşırım» (Talıbov), «O qızı tapın» (Dadaş Salayev), «Qızıl uçurum» (Lütfəli bəy), «Birisi gün gecə yarısı» (Hacı İlyas), «Yaramaz» (Zavod direktoru), «Cansıxıcı əhvalat» (Fuad), «Qərib cinlər ölkəsində» (Raki), «Od içində» (Rizvan),

«Əlavə iz» (Məlikov), «Avqust gələndə» (Nadir), «Köhnə bərə» (Raykom katibi), «Nizami» (Əbu Bəkr), «Pirverdinin xoruzu» (Molla Cəfər), «İmtahan» (Qiyas Zeynallı), «Özgə ömrü» (Əmənulla), «Şeytan göz qabağında» (Paşayev), «Qəm pəncərəsi» (Hacı) kinolentlərindəki rolları daha canlı və daha kamil ekran obrazlarıdır.

Romantik qəhrəman və realist psixoloji obrazların mahir ifaçısı Hamlet Xanızadə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb.

1984-cü ildə başda quruluşçu rejissor Mehdi Məmmədov olmaqla Hüseyn Cavidin «İblis» faciəsini tamaşaya hazırlamış yaradıcı heyətin bir qrupu, o cümlədən Hamlet Xanızadə (İblis) Respublika Dövlət mükafatı ilə təltif edilibdir.

Hamlet Xanızadə 25 may 1986-cı ildə öz ərizəsi ilə teatrdan uzaqlaşandan sonra kinostudiyada işləyib. 1990-cı il fevral ayının 23-də beyninə qansızmadan rəhmətə gedib. Doğma kəndi Şağanda dəfn olunub.

Elxan Ağahüseynoğlu
(8.12.1942 – 2.8.2009)

Daha çox tipik xarakterli ikinci dərəcəli rollar oynayıb. Bir sıra tamaşalara sonradan baş qəhrəmanın ifaçısı kimi də daxil edilib. Yaradıcılığının potensial imkanlarına görə realist aktyor məktəbinin estetik göstəricilərinə uyğun olub. Yüksək səhnə etikası olan aktyor, işinə həmişə ciddi və tələbkar yanaşıb. Oyununda sadə və məzmunlu tapıntılardan, xarakterik danışıqdan, tipik qrimdən istifadə etməyi xoşlayıb.

Daxili temperamentini ifa etdiyi personajın xarakterinə uyğun olaraq, bacarıqla tənzimləyə bilib. Dramatik səpkili, didaktik xarakterli rollarda təmkinlə davranıb. Yumor elementlərindən «xəsisliklə», ancaq qroteskli şərtiliklə, çoxmənalı sarkazmla istifadə etməklə oyununa canlılıq, təravət, əlvanlıq gətirib. Yaradıcılığının ilk illərində «Hüseynov» soyadı ilə çıxış edib, lakin bacarıqlı və işgüzar aktyor kimi «Elxan Ağahüseynoğlu» imzası ilə tanınıb.

Elxan Ağahüseyn oğlu Hüseynov 8 dekabr 1942-ci ildə Bakıda doğulub. Burada 18 saylı orta məktəbi bitirib və Bakı Mədəni-Maarif Texnikumuna daxil olub. Tələbə ola-ola, 22 sentyabr 1960-cı ildə Akademik Milli Dram Teatrının yardım heyətinə qəbul edib. 1962 – 1965-ci illərdə hərbi xidmətə çağırılması ilə bağlı təhsilini yarımçıq qoyub və ordudan qayıtdıqdan sonra texnikumda ixtisasını başa vurub. Yenə paralel olaraq Akademik teatrın yardım heyətində aktyor işləyib. Teatrın baş rejissoru Tofiq Kazımov 1967-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsi üçün qəbul keçirəndə Elxan Ağahüseynoğlu da həmin kursa daxil olub.

Təhsil müddətində teatrdan ayrılmayıb və həm repertuardakı əsərlərdə oynayıb, həm də yeni rollarda səhnəyə çıxıb. 1971-ci ildə ali aktyor diplomu alıb və Akademik teatrın tələbnaməsinə əsasən təyinatı bu qədim sənət ocağına verilib.

Müəyyən üzrlü fasilələr də daxil olmaqla, Elxan Ağahüseynoğlu qırx ildən çoxdur Akademik Milli Dram Teatrının aktyoru olub. O bu illər ərzində çox səmərəli fəaliyyət göstərib, ən müxtəlif janrlı tamaşalarda əlvan və rəngarəng, bədii tip kimi xarakterik rollar oynayıb.

Milli klassiklərin faciə və komediyalarında oynadığı obrazlar: Qulaməli, Ayı («Müsyö Jordan və Dərviş Məstəlişah» və «Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Dördüncü əcinnə, Mirzə Qoşunəli («Pəri cadu» və «Bəxtsiz cavan», Əbdürrəhim

bəy Haqverdiyev), Mirzə Cəfər, Əli, Şimrəli («Anamın kitabı», «Ölülər» və «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Özdəmir, Həmzə bəy («Od gəlini» və «Solğun çiçəklər», Cəfər Cabbarlı), Əyyar, Cümşüd xan («Fitnə» və «Eloğlu», Abdulla Şaiq), Kinto, Naib, Xaxam («Knyaz», «Xəyyam» və «İblis», Hüseyn Cavid), Şmit və Albert («İnsan», Səməd Vurğun).

Dünya klassiklərinin müxtəlif janrlı və istər ictimai-sosial, istərsə də mənəvi-əxlaqi problemlərdən bəhs edən əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Uilyam Şekspirin komediya və faciələrində Birinci aktyor – Kral və Reynaldo («Hamlet»), Təlxək («Heç nədən hay-küy»), Hersoq Kornoul («Kral Lir») və Varri («Antoni və Kleopatra»), Eyten («Orlean qızı», Fridrix Şiller), İkinci qardaş («Yatmış gözəl və yeddi qardaş», Aleksandr Puşkin), Robinzon («Cehizsiz qız», Aleksandr Ostrovski), Jandarm («Nazirin xanımı», Branislav Nuşiç), Məhkəmə xidmətçisi («Canlı meyit», Lev Tolstoy), Polis rəisi və Zob, Pyotr («Həyatın dibində» və «Meşşanlar», Maksim Qorki), İkinci şərabçı və İkinci knyaz («Xanuma», Avqsenti Saqareli), Qısaboylu, Qatil («Məhəbbət əfsanəsi» və «Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Kimbel («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Ksanf («Məhəbbət və azadlıq», yaxud «Ezop», Gilerma Fiqeyredu).

Çağdaş milli və əcnəbi müəlliflərin dramlarının səhnə təfsirində çıxış etdiyi personajlar: Dondurmasatan, Məşədi («Əliqulu evlənir» və «Küləklər», Sabit Rəhman), İlyas Əfəndiyevin lirik-psixoloji dramlarında Lisanoviç («Hökmdar və qızı»), Mirzə Hüseyn xan («Şeyx Xiyabani»), İkinci oğlan («Sən həmişə mənimləsən»), Muradov («Unuda bilmirəm»), Ümid («Qəribə oğlan») və İkinci qaçaq («Mahnı dağlarda qaldı»), Çar məmuru, Abovyan («Mənsiz dünya» və «Mirzə Şəfi», Nəbi Xəzri), Qiyas («Dirilən adam», Mir Cəlal), Feofan («Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə), Nadir, Bufetçi Ağabala,

Karapet ağa («Təhminə və Zaur», «Adamın adamı» və «Sizi deyib gəlmişəm», Anar), Həkim, İbn Süheyl, Çin zabiti, Gözətçi, İkinci kişi («Cəzasız günah», «Dar ağacı», «Özümüzü kəsən qılınc», yaxud «Göytürklər», «Fəryad» və «Hara gedir bu dünya?», Bəxtiyar Vahabzadə), Yapon kommersantı Koniyeta San («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Odhor, Rəhim Rəhimoviç («Qanqın böyük dalğası» və «İlham pərisi», Cahan Əfruz), Həbsxana rəisi («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Doqadov («Tufandan əvvəl», Arif Süleymanov), Dəmirov («Qızıl teşt», Seyran Səxavət), Ziyad və Əmir («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), Elçinin əsərlərində Polyaniçko («Ah Paris... Paris!..»), Lider («Mənim ərim dəlidir», yaxud «Diaqnoz «D»), Panteleymon Polikarpoviç («Mənim sevimli dəlim»), Professor («Poçt şöbəsində xəyal»), Ağəli («Günah», Rəhman Əlizadə), Professor («Ana intiqamı», Vidadi Babanlı), Qaraqoyunlu əmi («Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli), Oyunbaz («Qədr gecəsi», Eldar Baxış), Şarmankaçalan («Brüsseldən məktublar», Həsən Həsənov), Fəhlə («Hərənin öz payı», Xeyrəddin Qoca), Müstəntiq («Ana torpağı», Çingiz Aytmatov), Petrov və Anzor («Darıxma, ana!», Nodar Dumbadze), Çəkməli adam və Optimist («Kreml saatı», Nikolay Poqodin), Şah («Sehrli alma», Yozef Lada), Agah («Qanlı Nigar», Sadıq Şendil), İvan Lapşin («Şadlıq sorağında», Viktor Rozov), Xau Ri («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

Elxan Ağahüseynoğlu bir sıra tamaşalarda əsas və yardımçı obrazların ifasına sonradan daxil edilib. O, hansısa aktyora bir neçə müddətdən sonra roldaş (dublyor) verilib. Yaxud hansısa tamaşa bir müddət repertuardan çıxıb, lakin sonra bərpa edilib yenidən oynanılanda Elxan Ağahüseynoğlu orada müxtəlif rollar ifa edib.

Bərpa tamaşalarında və sonradan yaradıcı heyətə daxil olmaqla oynadığı səhnə surətləri: Gülverdi («Almaz», Cəfər Cabbarlı), Şərabçı («Şeyx Sənan», Hüseyn Cavid), Kürd Musa, Zülfüqar və İbrahim xan («Vaqif», Səməd Vurğun), Şəmsəddin («Qılınc və qələm», Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi), Ümid və Barsuq, Kamran, Böyük bəy («Xurşidbanu Natəvan», «Qəribə oğlan», «Unuda bilmirəm» və «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev).

Tanınan teatr aktyoru Elxan Ağahüseynoğlu Azərbaycan Dövlət Televiziyasında hazırlanmış onlarca tamaşada oynamışdır. Bunlardan Salam Qədirzadənin «Ürək rahatlıq sevmir» (Müdir), Seyfəddin Dağlının «Sevdagül və Şarlotta» (Yolçu), ikihissəli «Sabiqlər» (Müdir), «Adı sənin, dadı mənim» (Nəzarətçi), Mirzə İbrahimovun «Çandranın üsyanı» (Mister Smit), Anatoli Dudarevin «Astana» (Nikolay), Sabit Rəhmanın «Şirin bülbül» (Sərnişin), Mar Bayciyevin «Ağ atlar üçün vals» (Kolxoz sədri), İlyas Əfəndiyevin «General» (Zabit), Rafiq Səməndərin «Köhnə tanışlar, təzə görüşlər» (Pensiyaçı nəzarətçi), Nikolay Qoqolun «Evlənmə» (Yayişnitsa), Ramiz Novruzovun «At ilinin birinci ayı» (Müstəntiq), Mirzə Fətəli Axundzadənin «Hacı Qara» (Xəlil yüzbaşı), Rüfət Əhmədzadənin «Gülüş sanatoriyası» (İstirahətçi), İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» (Xıdırov) pyeslərinin tamaşaları televiziyanın arxivində qorunub saxlanılır.

Aktyor «Axırıncı aşırım», «Ömrün səhifələri», «Dantenin yubileyi», «Qəm pəncərəsi» bədii filmlərində epizodik rollara çəkilib.

Elxan Ağahüseynoğlu aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 22 may 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 24 dekabr 2002-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub.

Cəfakeş aktyor 2 avqust 2009-cu ildə Bakıda vəfat edib.

Ramiz Məlik
(4 avqust 1943)

Əsl soyadı Məlikovdur və aktyor 1990-cı illərin əvvəlindən «Məlik» soyadı ilə çıxış edir. Daxilən kübarlığını zahiri hərəkətlərində, səhnə davranışında həssaslıqla qoruya bilir. Buna görə də klassik və çağdaş Avropa dramaturqların pyeslərinin tamaşalarında oynadığı surətlərin mənsub olduğu cəmiyyətin ən müxtəlif etik davranışlarını, insanlarla ünsiyyətlərini ustalıqla, bədii reallıqla canlandırır.

Zahiri görünüşündə ağayanalıqla bərabər, bir qədər də «soyuqluq» duyulur. Ancaq bu cəhət zahiri xarakter daşıyır və aktyor istər romantik, istər realist, istərsə də lirik səciyyəli psixoloji obrazların ifasında öz istedadının müxtəlif və əlvan, sadə, ancaq çoxçalarlı xüsusiyyətlərini bacarıqla realizə edir. Yeri gələndə çılğın romantizm və emosional realizm ifadə vasitələrini bir obrazın səhnə təfsirində ahəngdar qovşaqda verir. Müxtəlif teatr poetikalarının incəliklərindən barınmaqda qətiyyətli və cəsarətlidir.

Ramiz Ağarza oğlu Məlikov (Məlik) 4 avqust 1943-cü ildə Bakıda doğulub. 1961-ci ildə Yasamal rayonundakı 31 saylı orta məktəbi bitirib. İki il bu məktəbdə pioner baş dəstə rəhbəri işləyib.

1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Milli səhnə sənətimizin korifeyləri Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs alıb, onlardan aktyorluğun incəliklərini öyrənib.

Son kursda oxuyanda, 1967-ci ilin fevralında bütün qrup ilə 1949-cu ildə bağlanmış İrəvan Dövlət Azərbaycan Dram Teat-

rının fəaliyyətini bərpa etmək üçün Ermənistana gedib. Teatr 28 aprel 1967-ci ildə Cəfər Cabbarlının «Sevil» dramı ilə pərdələrini açanda Ramiz Məlik həmin tamaşada Balaş rolunu oynayıb. Sonra Sabit Rəhmanın «Əliqulu evlənir» (11 iyun 1967) komediyasında Kamalı ifa edib.

İyun ayının axırlarında dövlət imtahanını vermək üçün Bakıya gələn Ramiz Məlik daha İrəvana qayıtmayıb. Həmin il sentyabr ayının 16-da o, Akademik Milli Dram Teatrının truppasına aktyor götürülüb. Aktyor indiyədək həmin kollektivdə çalışır. O, aktyorluq etməklə yanaşı, Əkrəm Əylislinin «Yastı təpə» (quruluşçu rejissor Tofiq Kazımov), Leonqard Frankın «Yad adam» (quruluşçu rejissor Oruc Qurbanov), İlyas Əfəndiyevin «Xurşidbanu Natəvan» (quruluşçu rejissor Mərahim Fərzəlibəyov), Xalid Əlimirzəyevin «Səadət sorağında» (quruluşçu rejissor Şaiq Səfərov), Cəfər Cabbarlının «Od gəlini» (quruluşçu rejissor Ağakişi Kazımov), Bertolt Brext və Kurt Vaylın «Üç quruşluq opera» (quruluşçu rejissor Karl Georq Kayzer) pyeslərinin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışıb.

Ramiz Məlik Akademik teatra qəbul edilən kimi, 1938-ci il oktyabr ayının 5-dən repertuarda olan «Vaqif» (Səməd Vurğun) tamaşasında Əli bəy rolu ona tapşırılıb. Bundan sonra, demək olar ki, hər yeni teatr mövsümündə aktyor təzə-təzə rollar oynayıb. İlk müstəqil rolunu isə «Hamlet» tamaşasında ifa edib.

Milli və əcnəbi klassik əsərlərin tamaşalarında oynadığı rollar: Formasyon Rüstəm («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Anton, Arif («Knyaz» və «İblis», Hüseyn Cavid), Haris, Barat, Aqşin («Ulduz, yaxud Ədirnə fəthi», «Almaz» və «Od gəlini», Cəfər Cabbarlı), Güloğlan («İnsan», Səməd Vurğun), Don Juan, Marsell, Sebastian («Heç nədən hay-küy», «Hamlet» və «Fırtına», Uilyam Şekspir), Mixail («Zıkovlar», Maksim Qorki), Ninkoviç («Nazirin xanımı», Branislav Nuşiç), Dyula

(«Füsunkar qız», Mikolaş Dyarfaş), Eybel («Qızıl», Yucin O'Nil), Kote («Xanuma», Avqsenti Saqareli), Uilyams («Kəllə», Nazim Hikmət), Can («Dəfn edilməmiş ölülər», Jan Pol Sartr), Mayor Metkaf («Tələ», Aqata Kristi), Eşikağası («Qoca xanımın gəlişi», Fridrix Dürrenmatt).

Müxtəlif illərdə yaşamış müəlliflərin ayrı-ayrı janrlı pyeslərinin səhnə təfsirində ifa etdiyi personajlar: Cavad xan, Mayis, Leytenant, Marat, Mikayılov («Hökmdar və qızı», «Sevgililərin cəhənnəmdə vüsalı», «Mahnı dağlarda qaldı», «Qarabağnamə», «Qəribə oğlan» və «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), Qızıl Arslan («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi), Katib («Gecə döyülən qapılar», Nəbi Xəzri), Qaçaq Süleyman («Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı), Dulu Xaqan, Səlim, Dəyanət («Özümüzü kəsən qılınc», yaxud «Göytürklər», «Yollara iz düşür...» və «Fəryad», Bəxtiyar Vahabzadə), Toğrul («Atabəylər», Nəriman Həsənzadə), Teymur («Yastı təpə», Əkrəm Əylisli), Kişi («Poçt şöbəsində xəyal», Elçin), Nazim («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Birinci («Biganələr oteli», Rüstəm İbrahimbəyov), İvanov («Tufandan əvvəl», Arif Süleymanov), Kişi («Son məktub», Əjdər Ol. Stefan Sveyqin «Yad qadının məktubu» novellasının motivləri əsasında), Əziz («Bağ qonşuları», Hay Vahid), Stameskin («Zamanın hökmü», Nikolay Poqodin), Şerbina («Darıxma, ana!», Nodar Dumbadze), Busıgin («Övlad», Aleksandr Vampilov), Petrunov («Qızıldan qiymətli», Draqomir Asenov), Antonio («Kölgələrin oyunu», Yuri Edlis), Valter («Yad adam», Leonqard Frank).

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Bəhruz), Əlibala Hacızadənin «İnanmırsansa...» (Adil), Nəriman Həsənzadənin «Kimin sualı var?» (Ədalət), Mixael Cavaxaşvilinin «Günahsız Abdulla» (Şakro) əsərlərinin tamaşalarında oynayıb.

1984-cü ildə Hüseyn Cavidin «İblis» faciəsini tamaşaya hazırlayan rejissor Mehdi Məmmədov, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, aktyorlardan Məmmədrza Şeyxzamanov (İxtiyar), Hamlet Xanızadə (İblis), Vəfa Fətullayeva (Rəna), Səməndər Rzayev (İbn Yəmin) və Ramiz Məlik (Arif) Respublika Dövlət mükafatına layiq görülüblər.

Aktyorluq sənətində qazandığı nailiyyətlərə və teatr sənətindəki xidmətlərinə görə Ramiz Ağarza oğlu Məlikov (Ramiz Məlik) 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 24 may 1998-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Hacı İsmayılov
(22 yanvar 1944)

İlk növbədə, tipik xarakter rollarla yadda qalıb. 1979-cu ildə «Ad günü» filmində çəkildiyi Mustafa rolu ilə çox məşhurlaşıb. Yaradıcılığında milli ruha qovuşuq olan zərif, ancaq çox yapışıqlı yumoru var. İfadə vasitələri sadə və mənalıdır, yumşaq, xaraktercə məzəli və təbiətən sakit personajların səhnə və ekran təfsirində uğurlarının mahiyyəti, aktyorluq qabiliyyətinin estetik səciyyələri daha parlaq, məzmunlu, psixoloji cəhətdən əsaslı görünür. Realist səhnə sənətkarı kimi sadəlik və reallıq tərəfdarıdır.

Daxilən temperamentli olan Hacı İsmayılov səhnədə ehtiraslı duyğularını cilovlamağı və onlara realizm sadəliyi, psixoloji zəmin verməyi xoşlayan aktyordur. «Xəsis», ancaq tipik səciy-

yəli, koloritli tapıntılardan ustalıqla istifadə edə və bu tapıntılarını obrazın daxili aləmi, estetik bədii tutumu ilə ahəngdar cazibədarlıqla əlaqələndirə bilir. Rejissorun tamaşada qurduğu mizanlara fərdi yaradıcılıq münasibətini həssaslıqla bildirir, tamaşalardakı yöndaşlarına qarşı həssas və diqqətcildir. Romantik səpkili tamaşalarda da təbii realizmə sadiq qalmağı və psixoloji ifadə oyun-üslub vasitələrinə üstünlük verməyi xoşlayır.

Hacı Məcid oğlu İsmayılov 22 yanvar 1944-cü ildə Bakıda doğulub. 1961-ci ildə orta məktəbi bitirib və bir il Bakı Tütün Fabrikində fəhlə, bir il isə Gənc Tamaşaçılar Teatrında işıqçı işləyib. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub.

1967-ci ilin əvvəllərində İrəvan Dövlət Azərbaycan Dram Teatrını (1949-cu ildə bağlanıb) yenidən bərpa etmək üçün xüsusi hökumət qərarı oldu. Teatr İnstitutunun son kurs tələbələri fevral ayında müəllim və rejissor Nəsir Sadıqzadə ilə İrəvana ezam edildilər. Teatrın bərpa-açılışı həmin il aprel ayının 28-də «Sevil» (Cəfər Cabbarlı) tamaşası ilə oldu. Hacı İsmayılov bu tamaşada Məmmədəli bəy rolunu oynayıb. Yay yenicə başlayanda tələbə-aktyorlar dövlət imtahanı vermək üçün Bakıya gəldilər və geri qayıdanda Hacı İsmayılov İrəvana getmədi. Həmin il sentyabrın 1-dən 1968-ci ilin sentyabrına kimi Azərbaycan Dövlət İncəsənət İnstitutunun (Teatr İnstitutunun adı 1967-ci ilin payızında dəyişdi) səhnə danışığı kafedrasında müəllim işlədi.

Həmin dövrdə Sumqayıt şəhərində yeni Dövlət Dram Teatrı yaradıldı. Hacı İsmayılov bu kollektivdə aktyor işləməyə dəvət aldı və 1968-ci il sentyabr ayının 2-də gənc truppaya daxil oldu. Yeni teatrın təntənəli açılışında, yəni 1969-cu il mart ayının 14-də Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəlişah» komediyası göstərildi. Rejissor Cənnət Səlimovanın quruluş verdiyi tamaşada Hacı İsmayılov məharətlə Dərviş Məstəlişah

rolunu ifa edib. Bundan sonra kollektivin rejissor Nəsir Sadıqzadənin dalbadal quruluş verdiyi Con Patrikin «Qəribə missis Səvic» (15 mart 1969) dramında Ceffi, Aram Aşot Papayanın «Bəli, dünya dəyişib» (13 aprel 1969) komediyasında Səməndər, Cəfər Cabbarlının «Sevil» (29 may 1969) pyesinin tamaşasında Məmmədəli bəy rolunda çıxış edib.

Həmin dövrdə Sumqayıt teatrında müəyyən tamaşaçı rəğbəti qazanmasına baxmayaraq, Hacı İsmayılov 1969-cu il sentyabr ayının 15-də ərizə yazaraq kollektivdən ayrılıb. Bir müddət işsiz qalıb. 1970-ci il fevral ayının 16-da Akademik Milli Dram Teatrına başqa vəzifəyə işə götürülüb, ancaq aktyor kimi çalışıb. Elə ilk gündən də çoxdan bəri səhnədə məşqləri gedən Hüseyn Cavidin «Xəyyam» faciəsindəki İkinci qulam roluna əlavə ifaçı kimi daxil edilib. Quruluşçu rejissor Mehdi Məmmədovun hazırladığı əsərin ilk tamaşası 1970-ci il mart ayının 12-də göstərilib. Bundan sonra da bir neçə təzə tamaşada rollar oynayan, repertuardakı hazır əsərlərdə (məsələn, «Vaqif» mənzum dramında) epizod obrazların ifasına daxil edilən Hacı İsmayılov truppanın aktyor ştatına 1 sentyabr 1973-cü ildə keçirilib. 27 sentyabr 1990-cı ildən isə o, truppanın yüksək kateqoriyalı aktyor ştatındadır.

Hacı İsmayılov yaradıcılığının xarakterik sənətkarlıq xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə daha uyğundur. Akademik teatrda oynadığı əllidən çox rolun böyük bir qismi məhz həmin üslubun estetik səciyyələrinə uyğundur. Həmin cəhət aktyorun 1970-ci ildən üzü bəri illərin ardıcıllığı ilə verilən oynadığı rolların xarakteristikasında da özünün ifadə və mahiyyət təcəssümünü tapıb.

Azərbaycan və dünya klassiklərinin dramlarının tamaşalarında ifa etdiyi rollar: Kərəm («Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Hacı Həsən ağa, Hacı Cəfər («Ölülər» və «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), İkinci qulam və İbn Tahir,

Maks Miller, Yaralı zabit, Fəhlə («Xəyyam», «Şeyda», «İblis» və «Knyaz», Hüseyn Cavid), Lakey və Novruz bəy, Sönməz, Məmmədəli bəy («Aydın» və «Od gəlini», «Sevil», Cəfər Cabbarlı), Kiçik qardaş və Şaliko, Alman zabiti («Vaqif» və «İnsan», Səməd Vurğun), Qraf Kent, Fransisko, Həkim («Kral Lir», «Fırtına» və «Maqbet», Uilyam Şekspir), Zindan rəisi («Qadın məhəbbəti», Viktor Hüqo), Səmərqəndli, Kişi («Məhəbbət əfsanəsi» və «Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Meyvəçi («Xanuma», Avqsenti Saqareli), Apollion, Müəllim («Böyük Romul» və «Qoca xanımın gəlişi», Fridrix Dürrenmatt).

Həm milli, həm də əcnəbi dramaturqlarının müxtəlif janrlı əsərlərinin səhnə təfsirində ifa etdiyi obrazlar: Həbibi («Füzuli və Əsmər», Mir Mehdi Seyidzadə), Məhəmməd xan, Dördüncü qaçaq, Muradalı, Fariz Ağadadaş, Nəcəfov («Qarabağnamə», «Mahnı dağlarda qaldı», «Xurşidbanu Natəvan», «Büllur sarayda» və «Dəlilər və ağıllılar», İlyas Əfəndiyev), Hacı Əsədulla, Barataşvili, Gənc, Tufan («Mənsiz dünya», «Mirzə Şəfi», «Sən yanmasan...» və «Əks-səda», Nəbi Xəzri), İbn Zeyd, Şükür bəy, Yan Çunq, Katib-robot («Dar ağacı», «İkinci səs», «Özümüzü kəsən qılınc», yaxud «Göytürklər» və «Hara gedir bu dünya?», Bəxtiyar Vahabzadə), Məmmədhəsən əmi, Ərşad, Fənd Bağır, Ruzigar («Sizi deyib gəlmişəm...», «Adamın adamı» və «Səhra yuxuları», Anar), Ziyad, Simran («Məhəbbət yaşadır» və «Qisas qiyamətə qalmaz», Nahid Hacızadə), İmanov («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), Mehdiqulu, Qonşu, Məsul katib («Ah, Paris... Paris!..», «Mənim ərim dəlidir», yaxud «Diaqnoz «D» və «Mənim sevimli dəlim», Elçin), Qoşqar Kəngərli («Bu dünyanın adamları», Hidayət Orucov), Çopur («Günah», Rəhman Əlizadə), Mirzə Ələkbər Sabir («Hərənin öz payı», Xeyrəddin Qoca), Katib («Kreml saatı», Nikolay Poqodin), Kukuri («Darıxma, ana!», Nodar Dumbadze),

Əlməndər («Alın yazısı», yaxud «Ərmağanlı Əlməndər», Tufan Minullin).

Tipik-xarakterik səciyyəli və epizodik mahiyyətli səhnə personajları: Umud («Yalan», Sabit Rəhman), Elşən, Yanvar («Mənziliniz mübarək!» və «Kölgələr pıçıldaşır», Seyfəddin Dağlı), Daşqın, Qəşəm («Yollara iz düşür» və «Yol ayrıcında», İslam Səfərli), Carçı («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi), Teatr aktyoru, Yad adam («Pompeyin Qafqaza yürüşü» və «Atabəylər», Nəriman Həsənzadə), Ruhani («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Orduxanov («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Rüstəm («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Naməlum adam («Karıxmış sultan», Taufiq əl Hakimi), Həkim («Tufandan əvvəl», Arif Süleymanov).

Hacı İsmayılovun kino yaradıcılığı, bu sənətdəki populyarlığı və şöhrəti, qazandığı genişmiqyaslı tamaşaçı məhəbbəti onun teatr fəaliyyətindən daha parlaqdır. Aktyor «Azərbaycanfilm» kinostudiyasında ilk dəfə Rasim Ocaqovun rejissoru olduğu «Ad günü» filmində Mustafa roluna çəkilib. Elə bu rolla da böyük uğur qazanıb və Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülüb (22 aprel 1980). Bundan sonra «Bağlı qapı arxasında» (Alik), «Dantenin yubileyi» (Əlikram), «Yol hadisəsi» (Mürşüd), «Ölsəm, bağışla» (Tağı), «Fəryad» (Rövşən), «Nakəs» (Xəstə), «Yaramaz» (Hacı), «Bəyin oğurlanması» (Tağı), «Şeytan göz qabağında» (Balıqçı), «Özgə həyat» (Qasımov), «Həm ziyarət, həm ticarət» (Mustafa müəllim), «Sarı gəlin» (Qədir), «İşgüzar Səftər» (Oqtay) filmlərində müxtəlif xarakterli rollara çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu əsərlərdə iştirak edib. Onların arasında Vaqif Səmədoğlunun üçhissəli «Yaşıl eynəkli adam» (Qafar), Mövlud Süleymanlının «Fatehlərin divanı» (Qazı), Üzeyir bəy Hacıbəylinin felyetonları

əsasında işlənmiş «Ordan-burdan» (Qoçu Gülbala), İlyas Əfəndiyevin «Atayevlər ailəsi» (Xuduş), Altay Məmmədovun «Kişilər» (Səməndər), Rəşid bəy Əfəndiyevin «Qonşu qonşu olsa, kor qız ərə gedər» (Əhməd), Mehdi Hüseynin «Alov» (Bədəl), Aqşin Babayevin «Nekroloq» (Fərəc), Anarın «Nigarançılıq» (Kəblə Qasım) teletamaşalarında yaratdığı duzlu, yumorlu, dramatik və tipik obrazlar daha uğurlu sənət axtarışlarının bəhrəsidir.

Məşhur kino və teatr aktyoru Hacı İsmayılov bu iki doğma sənətdə qazandığı nailiyyətlərə görə 17 may 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 19 dekabr 2000-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.



Səməndər Rzayev
(2.1.1945 – 27.3.1986)

Amansız ölümün səhnədən çox erkən ayırdığı, istedad təşnəsi, geniş diapazonlu, qəltanlı və gur, cingiltili səsli, həm faciə, həm dram, həm də komediya aktyoru Səməndər Mənsim oğlu Rzayev 1945-ci il yanvar ayının 2-də Ağsuda doğulub. Aktyorluqla rayondakı dram dərnəyində məşğul olmağa başlayıb.

Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsində təhsil alıb (1964 – 1968). Sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Ədil İsgəndərov və başqaları olub. Hələ tələbəliyin ilk kurslarından televiziyadakı çıxışları ilə qiraət ustası kimi sevilib. Klassik Azərbaycan şairlərinin, demək olar, hamısından nümunələr söyləyib. Ömrünün sonunadək Azər-

baycan Dövlət Radiosunun «Bulaq» folklor toplusunun Bulaq dədəsi olub.

Onun istedadı Milli Dram Teatrında Uilyam Şekspirin «Hamlet» faciəsini tamaşaya qoymağa hazırlaşan baş rejissor Tofiq Kazımovun diqqətindən yayınmayıb. Rejissor onu Horatsio roluna dəvət edib. Son kurs tələbəsi Səməndər elə ilk rolundan kollektivin, teatr ictimaiyyətinin və tənqidin nəzərini cəlb edib. O, institutu bitirməmiş teatrın yaradıcı heyətinin üzvü olub. Tez bir zamanda repertuardakı ən mürəkkəb janrlı tamaşalarda əsas ifaçıya çevrilən Səməndər Rzayevin istedadında «ölçü», «həddi» yox idi. O, hər tipli personajı asanlıqla özünün yaradıcılıq üslubuna uyğunlaşdırırdı.

Milli və dünya klassiklərinin pyeslərinin tamaşalarında oynadığı müxtəlif xarakterli rollar: Hatəmxan ağa («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Fazil Küleyni («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Xacə Nizam, Knyaz, İbn Yəmin («Xəyyam», «Knyaz» və «İblis», Hüseyn Cavid), Balaxan («Aydın», Cəfər Cabbarlı), Əmir İnanc («Qılınc və qələm», Məmməd Səid Ordubadi. Səhnələşdirəni Tofiq Kazımov),Vaqif, Valentin («Vaqif» və «İnsan», Səməd Vurğun), Doqberi, Kaliban («Heç nədən hay-küy» və «Fırtına», Uilyam Şekspir), Qlumov («Müdriklər», Aleksandr Ostrovski), Sezar Rupf («Böyük Romul», Fridrix Dürrenmatt), Bessemenov («Meşşanlar», Maksim Qorki), Usta Dobri («Qısqanc ürəklər», Raço Stoyanov).

Səməndər Rzayevin yaradıcılığının ikinci əsas qanadını çağdaşımız olan insanların xarakterinin ifası təşkil edir. Bu baxımdan onun aşağıdakı rolları sanballı sənət əsərləridir: Qənimət, Muratov, Vahid («Məhv olmuş gündəliklər», «Qəribə oğlan» və «Bağlardan gələn səs», İlyas Əfəndiyev), Kapitan («Küləklər», Sabit Rəhman), İkinci Rəşad, Əmir («İkinci səs» və «Fəryad», Bəxtiyar Vahabzadə), Mazar bəy («Közərən ocaqlar»,

Mirzə İbrahimov), Tərlan («Sənsiz», Şıxəli Qurbanov), Bəhram Zeynallı, Xudayar bəy («Şəhərin yay günləri» və «Sizi deyib gəlmişəm», Anar), Eldar («Sən yanmasan...», Nəbi Xəzri), Beryozin («Daşqın», Anatoli Safronov).

Səməndər Rzayevin yaradıcılığı üçün səciyyəvi olan estetik ifadə vasitələri və yaradıcılıq vərdişləri aşağıdakılardır;

Səməndər Rzayev özgələşmə prinsipini səhnədə böyük məharətlə həyata keçirən aktyor idi;

Səhnədə baş verə biləcək hər hansı gözlənilməz hadisə anında yüksək peşəkarlıqla improvizə edirdi;

Xırda bir detaldan, adi bir deyim tərzindən yüksək, koloritli xarakter yaratmaq səviyyəsində bəhrələnirdi;

Son dərəcə yüksək və əlvan çeşidli səhnə texnikası vardı;

Cingiltili, gurultulu və ləngərli səsini obrazların xarakterlərinə uyğun tərzdə, möhtəşəm sənətkarlıqla idarə edirdi;

Aktyorluq texnikasının hüdudları nəhayətsiz idi.

Aktyor «Uşaqlığın son gecəsi» (Milis), «Musiqili xaş» (Səməndər), «Od içində» (Tomar bəy), «Çarvadarların izi ilə» (Səməndər), «Evlənmək istəyirəm» (Həsən ağa), «Vulkana doğru» (epizod), «Ad günü» (Faiq), «Nəsimi» (Şirvanşah İbrahim), «Bağ mövsümü» (Ağamirzə), «Qara gölün cəngavərləri» (Dükançı), «Xüsusi vəziyyət» (Məsul katib), «Babamızın babasının babası» (Əli Quliyev), «Babək» (İbn Bais), «Bəyin oğurlanması» (Hidayət müəllim) və digər bədii filmlərdə epizod, yaxud aparıcı obrazlara çəkilib. Qiraət ustası kimi televiziyada, əsasən isə radioda çoxlu lent yazıları qalıb.

Səməndər Rzayev 1 iyun 1974-cü ildə Respublikanın Əməkdar artisti fəxri adına layiq görülüb.

Coşqun yaradıcılıq ehtirasına və geniş aktyorluq imkanlarına malik olan Səməndər Rzayev 27 mart 1986-cı ildə Bakıda vəfat edib.

Şəfiqə Məmmədova
(30 mart 1945)

Milli teatr sənətimizdə nadir aktrisa olub ki, səhnəyə ilk addımından ulduz kimi işıq saçsın, dünya dramaturgiyasının tacı sayılan əsərlərdə baş rolları oynayıb misilsiz qələbələr qazansın. Həmin nadir sənətçilərdən biri də Şəfiqə Məmmədovadır. Onun yaradıcılığı daxili ehtirası, çılğın romantik pafosu, həssas lirizmi, çoxsaylı psixoloji dərinliyi, səhnə hərarəti, faciə temperamenti, yumor cazibədarlığı, satirik məna yükü ilə seçilən sənətkardır. Eyni gündə gündüz Şekspirin «Fırtına» faciəsinin tamaşasında Arieli oynayıb salonu titrədən aktrisa, axşam Anarın «Adamın adamı» satirik komediyasında Nazlı Qəmzəli kimi tipik məişət personajını qrotesk boyalarla rəsm edib.

Şəfiqə Haşım qızı Məmmədova 1945-ci il mart ayının 30-da qədim Dərbənd şəhərində doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun musiqili komediya aktyorluğu fakültəsini bitirib (1968). Anarın «Şəhərin yay günləri» pyesinin tamaşasındakı Dilarə roluna görə Respublika Dövlət mükafatına (1980) və Rasim Ocaqovun çəkdiyi «İstintaq» filmindəki Müstəntiqin arvadı obrazı üçün SSRİ Dövlət mükafatına (1981) layiq görülüb.

Aktrisa 1 iyun 1974-cü ildə Respublikanın Əməkdar artisti, 1 dekabr 1982-ci ildə Xalq artisti fəxri adları ilə təltiflənib.

Aktrisa institutun son kursunda oxuyarkən rejissor Tofiq Kazımov tərəfindən Milli Dram Teatrına çağırılıb. «Hamlet» faciəsində Gertruda rolu ona tapşırılıb. Yüksək peşəkarlıqla ifa olunan bu roldan sonra Şəfiqə xanıma yeni-yeni məsul obrazlar

tapşırılıb. Aktrisa faciələrdə, lirik-psixoloji dramlarda, komediyalarda kamil və cazibədar səhnə obrazları yaradıb.

Azərbaycan dramaturqlarının səhnə əsərlərində ifa etdiyi obrazlar: Pırpız Sona («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Sevda («Xəyyam», Hüseyn Cavid), Gültəkin («Aydın», Cəfər Cabbarlı), Nataşa («İnsan», Səməd Vurğun), Teodora («Bəşərin komediyası və yaxud Don Juan», Mirzə İbrahimov), Gülcan, Nurcahan, Anjel («Bağlardan gələn səs», «Mənim günahım» və «Məhv olmuş gündəliklər», İlyas Əfəndiyev), Nihal («Yağışdan sonra», Bəxtiyar Vahabzadə), Tahirə («Nağıl başlananda», İmran Qasımov), Bəyaz («Yastı təpə», Əkrəm Əylisli), Nazlı Qəmzəli («Adamın adamı», Anar).

Tərcümə əsərlərinin tamaşalarında oynadığı rollar: Ariel («Fırtına», Uilyam Şekspir), Ledi Milford («Məkr və məhəbbət», Fridrix Şiller), Maşa («Canlı meyit», Lev Tolstoy), Sona («Nakam qız», Aleksandr Şirvanzadə), Yelena Nikolayevna («Meşşanlar», Maksim Qorki), Süzen («Qızıl», Yucin O'Nil), Jenşengülün arvadı («Ana torpağı», Çingiz Aytmatov), Miakina («Qısqanc ürəklər», Raço Stoyanov), İrina («Zamanın hökmü», Nikolay Poqodin).

Şəfiqə Məmmədova «Qaraca qız» (Pəricahan xanım), «Bizim Cəbiş müəllim» (Cəbişin arvadı), «Ad günü» (Fəridə), «Dədə Qorqud» (Burla xatun), «Xoşbəxtlik qayğıları» (Rüxsarə), «İstintaq» (Gülya), «Vulkana doğru» (Qadın), «Çarvadarların izi ilə» (Səriyyə) filmlərinə çəkilib.

Yaradıcılığının parlaq dövründə, 1983-cü ilin əvvəllərində aktrisa ailə qayğıları ilə bağlı teatrdan uzaqlaşaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (keçmiş Teatr İnstitutu) pedaqoji fəaliyyətə başlayıb.

Professor vəzifəsini tutan Şəfiqə Məmmədova dəfələrlə teatra qayıtmaq istəyib, ancaq hər dəfə tərəddüd edib. Hazırda Musiqi Akademiyasında dərs deyir.

Aktrisa Milli Məclisin deputatı olub (1995 – 2000).

Şəfiqə Məmmədovanın coşqun səhnə ehtirası və mürəkkəb, ancaq zərif hərəkət, davranış plastikası var.

İstisnasız olaraq bütün rollarında improvizə etməyi xoşlayır. Standart, kirəclənmiş oyun vərdişlərindən cəsarətlə imtina etməklə, səhnəyə dəyərli, incə və emosional ifadə vasitələri gətirib.

Mehdi Məmmədov, Tofiq Kazımov kimi qüdrətli rejissorların verdikləri mizanların estetik məna tutumuna xələl gətirmədən səhnədə sərbəst və ifadəli davranışlarla gözlənilməz sınaqlar keçirməkdən çəkinməyib. Bununla da Maşa, Sevda, Gertruda, Anjel kimi səhnə obrazlarına canlılıq, həyat təravəti verə bilib.

Obrazın sözlərini əzbərləməmişdən əvvəl mütləq onun səhnə görünümünü müəyyənləşdirir. Xarakterini tapa bilmədiyi surəti ifa etməyə razılıq vermir. Səhnə xarakterini tapmağa bəzən çox az, bəzən isə çox vaxt sərf edir.

Səhnədə əl-qol hərəkətlərini xoşlayır, işlətdiyi jestlərin estetik gözəlliyinə və məna tutumuna xüsusi diqqət yetirir.

Şəfiqə Məmmədovanın daxili ehtirası, potensial aktyorluq gücü nə ölçüyə gələn, nə çərçivəyə sığan, nə də yüyənə, cilova yatandı. Buna görə Tofiq Kazımov da, Mehdi Məmmədov da onunla işləyəndə aktrisaya qəlibə salınmış mizanlar vermirdilər.

Şəfiqə Məmmədova istisnasız olaraq bütün tamaşalarda əsərin ümumi fikir poetikası daxilində sərbəst mizan improvizələri edir.

Şəfiqə Məmmədova romantik-psixoloji obrazların ifasında daxili enerjisini, çılğın ehtirasını lirik-psixoloji ahənglə uzlaşdıra və səhnə surətinin xarakterinə monumental əlvanlıq gətirməyə xüsusi meyil göstərir, buna uğurla nail ola bilirdi.

Yeni ifadə vasitələrini də yaddaşında çox saxlamır. Növbəti, daha yaxşı tapıntılarını cəsarətlə sınaqdan çıxarır.

Amaliya Pənahova
(15 iyun 1945)

Azərbaycan milli teatrında lirik-psixoloji üslublu aktyor məktəbinin yaradıcılarından biridir. Məhz onun qısa müddətdə populyarlaşıb şöhrət qazanmasına görə neçə-neçə gənc qız taleyini teatr sənəti ilə bağlayıb. Romantik-faciə, dramatik-psixoloji və yumorlu rolların ifasında da uğurlar qazanıb. Lirik-psixoloji teatr poetikasına ifadə zənginliyi gətirib.

Amaliya Əliş qızı Pənahova 1945-ci il iyun ayının 15-də Gəncə şəhərində doğulub. Orta məktəbi Bakıda qurtarıb. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1962 – 1966). Aktyorluq qabiliyyəti tələbəliyinin ilk ilindən özünü göstərib.

1964-cü ildə Akademik Milli Dram Teatrı dramaturq İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» lirik-psixoloji pyesini tamaşaya hazırlayırdı. Teatrın baş rejissoru və tamaşaya səhnə quruluşu verən Tofiq Kazımov pyesdəki on doqquz yaşlı Nargilə rolunu ifa etmək üçün üçüncü kurs tələbəsi Amaliya Pənahovanı dəvət etdi. Rejissorun bu riski çox böyük uğurla nəticələndi və Amaliya Pənahova tamaşanın ən lirik, səmimi ifasına nail oldu. Tənqid tələbə-aktrisanın ifasına yüksək qiymət verməklə onu teatr üçün kəşf sayırdı.

«Sən həmişə mənimləsən» tamaşasında böyük qələbəsindən sonra Amaliya Pənahovanı Akademik teatrın aktyor truppasına qəbul etdilər. Qısa müddətdə aktrisa teatrın aparıcı aktyorları sırasında cəsarətli yaradıcılıq uğurlarına nail ola bildi. O, tamaşaya hazırlanan əsas əsərlərdə baş rolların mahir ifaçısı kimi şöhrətləndi.

Amaliya Pənahovanın Akademik Milli Dram Teatrında ifa etdiyi rolların siyahısı aktrisanın yaradıcılığının zənginliyini və əlvanlığını aydın nəzərə çatdırır.

Azərbaycan müəlliflərinin səhnə əsərlərinin tamaşalarında oynadığı rollar: Pəri («Pəri cadu», Əbdürrəhim bəy Haqverdiyev), Firəngiz («Oqtay Eloğlu», Cəfər Cabbarlı), Xuraman («Vaqif», Səməd Vurğun), Xumar və Şələlə, Zərifə («Yalan» və «Nişanlı qız», Sabit Rəhman), Leyla («Közərən ocaqlar», Mirzə İbrahimov), Sədayə, Zübeydə xanım, Mehri ana («Sən yanmasan..», «Mənsiz dünya» və «Gecə döyülən qapılar», Nəbi Xəzri), Dilarə, Təhminə («Şəhərin yay günləri» və «Təhminə və Zaur», Anar), Krupskaya («Tufandan əvvəl», Arif Süleymanov). İlyas Əfəndiyevin səhnə əsərlərinin tamaşalarında Nargilə («Sən həmişə mənimləsən»), Ayqız («Mənim günahım»), Nərmin («Unuda bilmirəm»), Şahnaz («Mahnı dağlarda qaldı»), Xurşidbanu Natəvan («Xurşidbanu Natəvan»), Nərmin («Bizim qəribə taleyimiz»), Kəmalə («Qəribə oğlan»), Xanım Mahnur («Şeyx Xiyabani»), Aynur («Büllur sarayda»), Sürəyya («Tənha iydə ağacı») və Mədinə («Sevgililərin cəhənnəmdə vüsalı»).

Əcnəbi dramaturqların pyeslərində ifa etdiyi səhnə obrazları: Ofeliya, Birinci cadugər («Hamlet» və «Maqbet», Uilyam Şekspir), Luiza («Məkr və məhəbbət», Fridrix Şiller), Larisa («Cehizsiz qız», Aleksandr Ostrovski), Anka («Nazirin xanımı», Branislav Nuşiç), Medeya («Medeya», Jan Anuy), Naməlum qadın («Adsız ulduz», Mixail Sebastian), Tatyana («Meşşanlar», Maksim Qorki), Nigar («Qanlı Nigar», Sadıq Şəndil), Zina («Gecənin sirri», Anatoli Safronov).

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanan «Mən gözəl deyiləm» (Məhərrəm Əlizadə), «Qırmızı yaylıqlı qovağım mənim» (Çingiz Aytmatov), «Duel» (Mar Bayciyev), «Bayramın son gecəsi» (Nazim Hikmət), «İnsanın səsi» (Jan Kokto), «Varşava təranələri» (Leonid Zorin), «Ömrün yolla-

rında» (Ruhəngiz Qasımova), «Lənkəran xanının vəziri» (Mirzə Fətəli Axundzadə), «Beş manatlıq lüstr» (İlyas Əfəndiyev), «Mədinənin ürəyi» (Mirzə İbrahimov), «Qapalı orbit» (Albertos Laurinçyukas), «Hədiyyə» (O'Henri) tamaşalarında müxtəlif rollar oynayıb.

Amaliya Pənahova «Əhməd haradadır?» (Qız), «Babək» (Zərnisə), «Arxadan vurulan zərbə» (Ziba), «Həyat bizi sınayır» (Münəvvər), «Xatirələr sahili» (Xalidə), «Səmt küləyi» (Xədicə), «Qərib cinlər diyarında» (Zərri), «Qəribə adam» (Qadın), «Mən mahnı qoşuram» (Sonanın anası), «Musiqi müəllimi» (Riyaziyyat müəlliməsi), «Bircəciyim» (Zabitə), «Mənim ağ şəhərim» (Direktorun arvadı), «Sən niyə susursan» (Qız), «Mən tezliklə qayıdacağam» (Xanım), «Gözlə məni» (Fəxrəndə) bədii filmlərində müxtəlif rollara çəkilib.

Amaliya Pənahova zərif və coşqun emosiyaya malik aktrisadır. Dramatik səhnələrdə temperamentli və psixoloji cəhətdən zəngin sənətkardır.

Amaliya Pənahovanın güclü və sirayətedici səhnə sərbəstliyi var. Onun yaradıcılığının bu parlaq keyfiyyəti aktrisanın ifa etdiyi səhnə surətlərinə sanballı bədiilik gətirir.

Amaliya Pənahova səhnədə səmimidir, yöndaşları ilə yaradıcılıq ünsiyyəti yaratmağı məharətlə bacarır.

Amaliya Pənahova yapışqanlı və ürəkaçan yumor keyfiyyətinə də malikdir. Zərif ruhlu lirik-psixoloji və dramatik səciyyəli mürəkkəb xarakterləri məharətlə oynadığı kimi, qroteskli, satirik səciyyəli, məsxərə çalarlı yumoristik personajları da cazibəli coşqunluqla ifa edir.

Amaliya Pənahova səsinin psixoloji dəyişmələrini oynadığı obrazın estetik mahiyyəti ilə bacarıqla əlaqələndirir.

Aktrisa teatr sənətindəki xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar artisti (1 iyun 1982) və Xalq artisti (30 dekabr 1988) fəxri adlarına layiq görülüb. İlyas Əfəndiyevin

«Mahnı dağlarda qaldı» pyesinin tamaşasındakı Şahnaz roluna görə Azərbaycan Dövlət mükafatı laureatı (1972) olub. Həmçinin Komsomol mükafatı (1968) ilə təltif edilib. Sənətşünaslıq doktorudur, professordur. Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub (2001 – 2006).

Amaliya Pənahova 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaradıb və indiyədək həmin kollektivin bədii rəhbəridir. Öz qüvvəsini rejissor sənətində də sınayan aktrisa Bələdiyyə Teatrında Nigar Rəfibəylinin «Məhsəti», Altay Məmmədovun «Dəli Domrul», Anarın «Burla xatun», Jan Anuyun «Medeya», Oqtay Altunbayın «Tomiris», Rauf İçərişəhərlinin «Vətənə igidlər gərəkdir» pyeslərini tamaşaya hazırlayıb. «Burla xatun» tamaşasında Burla xatun rolunu oynayıb.

Vəfa Fətullayeva
(25.8.1945 – 21.5.1987)

Lirik-psixoloji rolları zərif romantizmlə cilalamağı xoşlayan, məlahətli danışığı, şaqraq qəhqəhəli gülüşü ilə yadda qalmış aktrisa Vəfa Fətullayeva qüdrətli səhnə ustası Hökümə xanım Qurbanovanın və Xalq rəssamı, uzun illər Akademik teatrın baş rəssamı olmuş Nüsrət Fətullayevin qızı idi.

Vəfa Fətullayeva 25 avqust 1945-ci ildə Bakıda doğulub. Şəhərdəki 1 saylı orta məktəbdə oxuyub (1953 – 1964). Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini bitirib (1966 – 1971).

Vəfa səhnəyə ilk dəfə on yaşında Uilyam Şekspirin «Qış nağılı» dramının rejissor Ələsgər Şərifov tərəfindən quruluş verilmiş tamaşasında (22 oktyabr 1955) Mamuliy oğlan rolunda çıxıb. Teatrşünaslıq fakültəsinin dördüncü kursunda oxuyanda rejissor Tofiq Kazımov anası Hökümə xanımın razılığı ilə Vəfanı dramaturq İlyas Əfəndiyevin «Məhv olmuş gündəliklər» psixoloji dramının tamaşasında baş rolu – Fəridəni ifa etməyə çağırıb. Əsərin ilk tamaşası 29 noyabr 1969-cu ildə göstərilib. Fəridə obrazını böyük uğurla oynayan Vəfa xanım elə tələbə ikən 1 iyun 1970-ci ildən teatrın ştatına aktrisa götürülüb.

1970-ci ildən Milli Dram Teatrının aktrisası olmuş Vəfa Fətullayeva teatrda romantik-monumental məhəbbət tamaşalarında, ictimai-siyasi xarakterli faciələrdə, məzəli məişət komediyalarında, dərin psixoloji konfliktli dramlarda bir-birindən fərqli və hətta bədii obraz kimi əks-qütblərdə duran, müxtəlif estetik səciyyə daşıyan obrazlara səhnə ömrü verib.

Azərbaycan milli dramaturgiyasının nümunələrinin tamaşalarında ifa etdiyi obrazlar: Şərəfnisə («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Tənzilə, Xəyalə, Pakizə («Sən yanmasan...», «Əks-səda» və «Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Gülgəz («Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev), Dildar («İnsan», Səməd Vurğun), Arzu, Göyərçin («Kimdir haqlı?» və «Yollara iz düşür», Bəxtiyar Vahabzadə), Zeynəb («Sizi deyib gəlmişəm», Anar), İnanc xatun «Atabəylər», Nəriman Həsənzadə), Bənövşə («Kəndçi qızı», Mirzə İbrahimov).

Tərcümə pyeslərinin müxtəlif rejissorlar tərəfindən hazırlanmış tamaşalarında oynadığı rollar: Beatriçe («Heç nədən hayküy», Uilyam Şekspir), Nataşa («Həyatın dibində», Maksim Qorki), Şirin, Qız («Məhəbbət əfsanəsi» və «Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Qadın («Karıxmış sultan», Taufiq əl Hakimi), Veroçka («Sevgi... sevgi...», Emil Braginski və Eldar Ryazanov).

İlk tamaşalarında oynadığı bu rollardan əlavə, repertuarda olan çoxömürlü bəzi tamaşaların yaradıcı heyətinə də sonradan əlavə edilib. Məsələn, «Vaqif» tamaşasında həm Gülnarı, həm də Xuramanı oynayıb.

Vəfa Fətullayeva «Firəngiz» bədii filmində baş rol olan Firəngiz surətinə çəkilib. «Atayevlər ailəsi» (İlyas Əfəndiyev), «Göz həkimi» (İslam Səfərli) və bir sıra digər televiziya tamaşalarında baş rollarda çıxış edib.

Səhnə yaradıcılığındakı uğurlarına görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif edilib.

Aktrisanın Hüseyn Cavidin «İblis» faciəsinin tamaşasındakı Rəna rolu 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülüb.

Vəfa Fətullayeva uzunsürən ağır xəstəlikdən sonra 21 may 1987-ci ildə Bakıda vəfat edib. Məzarı Bakıdakı Köhnə qəbiristanlıqda, İkinci Fəxri xiyabanın barısının bayır sırasındadır.

Zərnigar Ağakişiyeva
(7 noyabr 1945)

Yaradıcılıq ruhuna, fərdi üslub keyfiyyətlərinə görə realist aktyor məktəbinin estetik səciyyələrinə və poetika xüsusiyyətlərinə daha yaxındır. Karnaval estetikalı şən komediya rollarını və tipik cəhətləri ilə diqqətçəkən dramatik rollarda daha şövqlə oynayır. Daxili ehtirasını və psixoloji tapıntılarını ifa etdiyi obrazın səhnə təfsirinə uyğun tərzdə məharətlə nizamlaya bilir.

Zərnigar Fəti qızı Ağakişiyeva 7 noyabr 1945-ci ildə Quba rayonunun Rustov kəndində doğulub. Uşaq yaşlarından ailəsi

Qubaya köçüb və o burada 3 saylı rus məktəbinin səkkizinci sinfini bitirib. İki il fasilə verəndən sonra 1963-cü ildə Bakıya gəlib və Kooperativ Texnikumunun sənaye malları üzrə əmtəəşünaslıq fakültəsinə daxil olub. 1966-cı ildə oranı bitirərək Moskvaya gedib və Kooperativ Texnikumunun nəzdində birillik ticarət reklamı üzrə xüsusi kursu qurtarıb. Bir il Bakıda bu ixtisas üzrə işləyib və 1968-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu fakültəsinə daxil olub. İnstitutun Tədris teatrında Cəfər Cabbarlının «Aydın» faciəsində Susanna rolunu məharətlə oynadığına görə ikinci semestrdə onu rektorun əmri ilə dram və kino aktyorluğu fakültəsinin gündüz şöbəsinə keçiriblər. Eyni zamanda Tədris teatrına aktrisa götürülüb və burada Züleyxa («Yusif və Züleyxa», Nazim Hikmət), Zənci qadın («Bir iş gör, Met», Əziz Nesin) rollarını oynayıb.

İnstitut təhsilini tamamlayandan sonra da bir müddət Tədris teatrında aktrisa kimi çalışan Zərnigar Ağakişiyeva rejissor Əşrəf Quliyevin dəvəti ilə Akademik Milli Dram Teatrında ilk tamaşası 19 may 1973-cü ildə göstərilən Aleksandr Ostrovskinin «Müdriklər» dramında Mamayeva rolunu oynayıb. Həmin ilin 23 dekabrında isə Həsənağa Salayevin quruluşunda Nazim Hikmətin «Şöhrət və ya unudulan adam» dramında Qadın obrazını ifa edib. Qazandığı uğurlara görə Zərnigar Ağakişiyeva 2 sentyabr 1974-cü ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə aktrisa qəbul olunub.

O, 15 iyun 1992-ci ildə teatrdan uzaqlaşıb və özəl milli kamera truppası toplayaraq fərdi fəaliyyətə başlayıb. Bəxtiyar Vahabzadənin poetik nümunələri əsasında «Könüldən gələn səslər» kompozisiyasını, Oruc Qurbanovun «Yorğan-döşək», «Qarı» musiqili estrada tamaşalarını hazırlayıb. Paralel olaraq filmlərə çəkilib, televiziya tamaşalarında rollar oynayıb.

Zərnigar Ağakişiyeva 2 sentyabr 1999-cu ildən yenə Akademik teatrın yaradıcı heyətində fəaliyyət göstərir. Məşhur aktrisa

müəyyən fasilələrlə Milli Dram Teatrının səhnəsində xeyli rol oynayıb.

Azərbaycan müəlliflərinin səhnə əsərlərinin tamaşalarında oynadığı rollar: Pəri xanım («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Kərbalayı Fatma («Ölülər», Cəlil Məmmədquluzadə), Yasəmən («Eşq və intiqam», Süleyman Sani Axundov), Dilbər («Sevil», Cəfər Cabbarlı), Xuraman («Vaqif», Səməd Vurğun), Maral («Közərən ocaqlar», Mirzə İbrahimov), Kəmalə, Fəxrəndə xanım («Qəribə oğlan» və «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev), Şəfəq («Kölgələr pıçıldaşır», Seyfəddin Dağlı), Ana, Zeynəb («Dar ağacı» və «Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), Bəyim nənə («Gülüstanda qətl», Cəmil Əlibəyov), Xəbərçi Xədicə, Zivər («Adamın adamı» və «Təhminə və Zaur», Anar), Müstəntiqin arvadı («İstintaq», Rüstəm İbrahimbəyov), Reyhan («Yastı təpə», Əkrəm Əylisli), Adilə xanım («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), Nilufər («Məhəbbət yaşadır», Nahid Hacızadə), Qadın («Poçt şöbəsində xəyal», Elçin), Fəridə («Günah», Rəhman Əlizadə), Qəbula gələn qadın («Qızıl teşt», Seyran Səxavət).

Əcnəbi dramaturqların pyeslərində ifa etdiyi səhnə obrazları: Mamayeva («Müdriklər», Aleksandr Ostrovski), Tatyana («Meşşanlar», Maksim Qorki), Qadın, Qadın («Şöhrət və ya unudulan adam» və «Kəllə», Nazim Hikmət), Ana («Ağlasığmaz qətl», Alber Kamyu), Missis Boyl («Tələ», Aqata Kristi), Amaliya («Yad adam», Leonqard Frank), Bernardo («Dişi canavar», Federiko Qarsia Lorka), Seliya Piçem («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Katibə («Sevgi... sevgi...», Emil Braginski və Eldar Ryazanov), Makarskaya («Övlad», Aleksandr Vampilov), Olqa Semyonovna, Klavdiya («Daşqın» və «Gecənin sirri», Anatoli Safronov), Zabelina («Kreml saatı», Nikolay Poqodin).

Aktrisa Azərbaycan Dövlət Televiziyasının hazırladığı çoxlu teletamaşalarda, ədəbi-bədii kompozisiyalarda çıxış edib. Onla-

rın arasında səhnələşdirilmiş «Pəncərədən daş gəlir» (Həzi Aslanovun arvadı), İlyas Əfəndiyevin «Atayevlər ailəsi» (Dilşad xanım), «Sarıköynəklə Valehin nağılı» (Ceyran xanım), Anarın «Ötən ilin son gecəsi» (Həmidə), Karlo Haldoninin «Mehmanxana sahibəsi» (Mirondalina), Mövlud Süleymanlının «Kökdən düşmüş piano» (Qayınana), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordan-burdan» (Firuzə xanım), Aleksey Arbuzovun «Köhnə dəbli komediya» (Tatyana Vasilyevna), Tahir Kazımovun «Taleyin qisməti belə imiş» (Qayınana), Altay Məmmədovun «Kişilər» (Kolxoz sədri) əsərlərinin teletamaşalarında oynadığı rollar daha uğurludur.

Teatrda və televiziyada məşhur olan sənətkar «Azərbaycanfilm» kinostudiyasında «Mezozoy əhvalatı» (Satıcı), «Yol əhvalatı» (Ədilə), «Dantenin yubileyi» (Xədicə), «Fransız» (Zərnigar), «Köhnə bərə» (Eldarın anası), «Qəm pəncərəsi» (Şərəf), «Özgə ömür» (Səkinə xanım), «Divar» (Şəfqət bacısı), «Yaramaz» (Qayınana), «Təhminə» (Zivər), «Yuxu» (Xurşid xanım), «Nə gözəldir bu dünya» (Həkim), «Kiçik leytenant» (epizod), «Qara Volqa» (Salomonovna), «Yarasa» (Qadın), «Özgə vaxt» (Tibb bacısı) filmlərində əsas, ikinci dərəcəli, epizod rollara çəkilib.

Zərnigar Ağakişiyeva sevən qadın obrazlarını bir başqa şövq və ləzzətlə ifa edir. Xüsusən komik vəziyyətlərə düşən sadə, ürəyiaçıq qəhrəmanını şiddətli enerji ilə, çılğın emosionallıqla, dadlı-duzlu yumorla, səmimi karnaval estetikası ilə oynayır. İtalyan Del Arte teatrının, rus skamorox meydan oyun-tamaşalarının poetika səciyyələrini, estetik prinsiplərini mənimsəyə bildiyi üçün həmin xalqlara məxsus sevən qadınları təqdimetmə ölçülərini, onların ifadəli, koloritli təsvir vasitələrini milli karnaval estetikası süzgəcindən həssaslıqla keçirir.

Zərnigar Ağakişiyeva az da olsa, elə zəif pyeslərin tamaşalarında oynayıb ki, həmin əsərlərdə epizodların bir-biri ilə əla-

qələrində qırıqlıq olub. Həmin qırıqlıq ayrı-ayrı surətlərin real inkişaf xəttinə də xələl gətirib, ümumilikdə bədii reallıq zəifləyib. Belə hallarda aktrisa öz obrazının inkişaf xəttini mütləq özünün inandığı prinsipdə davam etdirib və müəyyən ştrixlərlə qırıqlığa bədii don geyindirməyə çalışıb. Bu zaman aktrisanın xasiyyətindəki hərarətli insani münasibət duyğuları obrazın ifadəliliyini daha da artırıb. Sözsüz ki, rola belə münasibətində Zərnigar xanım, ilk növbədə, personajın hərəkət ritminin psixoloji dəqiqliyini tapmağa çalışıb.

Zərnigar Ağakişiyeva obrazın dramaturji rüşeyimini düzgün müəyyənləşdirməyi bacardığına görə süjetin psixoloji xəttini dəqiq aparır. Həmin xətt tamaşanın ən ali məqsədi ilə harmonik vəhdətdə bağlanır və belə olan təqdirdə rejissorun müəyyənləşdirdiyi janrın dəqiqliyi bir qədər də canlı təsir bağışlayır. Məhz bu istedadına görə bəzən xaraktercə bənzər təsir bağışlayan lirik ana obrazı Zərnigar xanımın reallıqdan şirələnən səmimi oyununda tamamilə başqa-başqa xarakterlər təsiri oyadır.

Zərnigar Ağakişiyeva bir xeyli lirik-psixoloji janrlı tamaşalarda incəqəlbli qadın surətləri oynayıb. Aktrisa bu üslubda hazırlanmış hər yeni tamaşada ona həvalə edilən obrazın xarakterini dürüst müəyyənləşdirməklə zərif məhəbbəti yumşaq lirizmlə ahəngdar şəkildə qabardır. Psixoloji dəyişmələri bəm və zildə cazibəli ölçüdə saxlayır. Yeri gəldikcə dalğavari ritmdən məharətlə istifadə edir. Tamaşaçı obrazın daxilən keçirdiyi sarsıntıların, gərginliklərin psixoloji çəkilmə və qabarmalarını aktrisanın mənalı baxışlarından, titrək çöhrəsindəki ifadələrdən görüb-duyur.

Zərnigar Fəti qızı Ağakişiyeva səhnə sənətindəki xidmətlərinə, çoxşaxəli yaradıcılıq fəaliyyətinə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Sadıq İbrahimov
(23.12.1945 – 20.8.2010)

Həm qəhrəman, həm epizod, həm də xarakterik rollar oynayırdı. Təbiətən sakit, daxilən dramatik ehtiraslı aktyor olsa da, ifadə vasitələrində romantik aktyor məktəbinin estetik prinsiplərinə xas olan estetik səciyyələr də vardır: Quruluşçu rejissorlardan, əsasən, Mehdi Məmmədov, Tofiq Kazımov, Məmmədkamal Kazımov, Əşrəf Quliyev, Mərahim Fərzəlibəyov və Bəhram Osmanovla işləyib. Xan («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə) tipli komik rollarda dramatizmin psixoloji çalarlarından məharətlə istifadə edirdi.

Sadıq Əliabbas oğlu İbrahimov 23 dekabr 1945-ci ildə Bakıda doğulub. Yeddinci sinfə qədər paytaxtdakı 173 saylı orta məktəbdə oxuyub. On üç yaşından Mərkəzi Pionerlər Evinin (1961-ci ildən Yuri Qaqarin adına Pionerlər Sarayı adlanıb) dram dərnəyinə üzv yazılıb. Dərnəyin rəhbəri Gənc Tamaşaçılar Teatrının aktyoru, sonralar Xalq artisti fəxri adı ilə təltif olunmuş Süleyman Ələsgərov idi. O, dərnəyin qabaqcıl üzvlərini, o cümlədən məktəbli Sadığı Azərbaycan Dövlət Televiziyasında hazırlanan «Düşərgə saatı», «Pioner şeypuru», «Məktəbli həyatı» verilişlərinə aparırdı. Sadıq İbrahimov şeir, hekayə söyləyir, kiçik səhnəciklərdə rollar oynayırdı.

1961-ci il may ayının 25-də quruluşçu rejissor Mehdi Məmmədov özünün tərcüməsində rus dramaturqu Viktor Rozovun «Şadlıq sorağında» dramını tamaşaya hazırlamışdı. Məmmədkamal Kazımov tamaşanın rejissoru idi. Oleq rolunu Bakı məktəblisi, «Ögey ana» bədii filmində İsmayıl roluna çəkilmiş və

çox populyar olmuş Ceyhun Mirzəyev oynayırdı. Onun «Lenfilm» kinostudiyasına çəkilişə getməsi ilə bağlı rejissor Məmmədkamal Kazımov quruluşçu rejissor Mehdi Məmmədovun tapşırığı ilə Oleq roluna ifaçı axtarırdı. Teatrın aktyoru Eldəniz Zeynalov televiziyadan tanıdığı Sadıq İbrahimovu rejissorla tanış etdi. Beləliklə, Sadıq İbrahimov hələ məktəb şagirdi olduğu illərdən Akademik Milli Dram Teatrında aktyorluğa başladı. O bundan sonra Samuil Alyoşinin «Palata» (Mişa), Mirzə Fətəli Axundzadənin «Hacı Qara» (Bədəl), Aleksey Arbuzovun «Tanya» (İvan) pyeslərinin və digər dramaturqların əsərlərinin tamaşalarında oynadı.

Teatrda rollar oynadığına görə növbəli axşam məktəbinə keçib və orta təhsil alandan sonra iki il «Azərkitab»ın anbarında fəhlə işləyib. Fəhlə işləyə-işləyə Aşıq Ələsgər adına Mədəniyyət sarayının xalq teatrında çıxışlar edib.

Aktyor kimi kifayət qədər tanınan Sadıq İbrahimov 1966-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İxtisas təhsilini Xalq artisti Rza Təhmasibdən alıb. 1970-ci il oktyabr ayının 6-da təyinatla Akademik teatrın truppasına aktyor götürülüb. Onun 1961-ci ildən bu günə qədər Akademik Milli Dram Teatrında oynadığı əksər rolların siyahısı aşağıdakılardan ibarətdir.

Azərbaycan klassik dramaturqlarının əsərlərinin tamaşalarında oynadığı rollar: Bədəl, Bayram, Xan («Hacı Qara», «Xırs quldurbasan» və «Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Hacı Baxşəli, Hacı İslam, Aslan bəy («Ölülər», «Dəli yığıncağı» və «Anamın kitabı», Cəlil Məmmədquluzadə), Bəxtiyar («Fitnə», Abdulla Şaiq), Kiçik zabit, Məcid Əfəndi («İblis» və «Şeyda», Hüseyn Cavid), Kamil paşa, Torğut («Ulduz», yaxud «Ədirnə fəthi» və «Od gəlini», Cəfər Cabbarlı), Kiçik gürcü, Əli bəy və Eldar, Alman zabiti («Vaqif» və «İnsan», Səməd Vurğun).

Dünya klassiklərinin və əcnəbi müəlliflərin pyeslərinin səhnə təfsirində ifa etdiyi obrazlar: Fesey («Şah Edip», Sofokl), Prokuley, Yaralı əsgər («Antoni və Kleopatra» və «Maqbet», Uilyam Şekspir), Arqant («Skapenin kələkləri», Jan Batist Molyer), Kömürçü oğlan («Orlean qızı», Fridrix Şiller), Kral oğlu («Yatmış gözəl və yeddi qardaş», Aleksandr Puşkin), Mişka, («Müfəttiş», Nikolay Qoqol), Şişkin («Meşşanlar», Maksim Qorki), Assistent («Şöhrət və ya unudulan adam», Nazim Hikmət), Oleq («Şadlıq sorağında», Viktor Rozov), Mişa («Palata», Samuil Alyoşin), İvan («Tanya», Aleksey Arbuzov), Yuri Qriqoryeviç («Sevgi... sevgi...», Emil Braginski və Qriqori Qorin), Çəkməli və Proniya («Zamanın hökmü», Nikolay Poqodin), Xorot («Gecənin sirri», Anatoli Safronov), Baş Hakim («Uçqun», yaxud «Çığ», Tuncər Cücənoğlu).

Çağdaş Azərbaycan və əcnəbi dramaturqların əsərlərinin tamaşalarında çıxış etdiyi səhnə personajları: Nəbi Xəzrinin dramlarında Dəmirgüc («Torpağa sancılan qılınc»), Mirzə Fətəli Axundzadə («Mənsiz dünya»), Müzəffər («Gecə döyülən qapılar»), İlyas Əfəndiyevin lirik-psixoloji dramlarında Qüdrət («Mahnı dağlarda qaldı»), Hidayət xan («Xurşidbanu Natəvan»), Ədhəm Nəcəfov («Sevgililərin cəhənnəmdə vüsalı»), Gümrah («Alov», Mehdi Hüseyn), Rəşid («Kəndçi qızı», Mirzə İbrahimov), Don Lope («Bəşərin komediyası, yaxud Don Juan», Mirzə İbrahimov), Nadirov («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Hüquqşünas, Qoca şair («Cəzasız günah» və «Fəryad», Bəxtiyar Vahabzadə), Əcəmi, Çar Artak («Atabəylər» və «Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə), Üçüncü reportyor («Səhra yuxuları», Anar), Doqadov («Tufandan əvvəl», Arif Süleymanov), Nəcəfov («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Soltan Mahmud paşa («Min illərin işığı», Kamil Abdullayev), Mirzə Abuturab («Mesenat», Əli Əmirli).

Azərbaycan Dövlət Televiziyasında Sadıq İbrahimovun oynadığı teletamaşaların bir qismi daimi fondda yüksək bədii sənət əsəri kimi qorunub saxlanılır. Onların yığcam siyahısı belədir: Teymur ağa, Xəlil. («Lənkəran xanının vəziri» və «Aldanmış kəvakib», Mirzə Fətəli Axundzadə), Səftərqulu («Ev tərbiyəsinin bir şəkli», Nəcəf bəy Vəzirov), Haqverdiyev («İki hekayə», Əbdürrəhim bəy Haqverdiyev), Müstəntiq («Sarıköynəklə Valehin nağılı», İlyas Əfəndiyev), Fərhad İldırım («Şərqin səhəri», Ənvər Məmmədxanlı), Doktor («Ana və qız», Yusif Şirvan), Tabera («Sevilya ulduzu», Lope de Veqa), Fabrisio («Mehmanxana sahibəsi», Karlo Haldoni), Xirin («Yubiley», Anton Çexov), Olye Anderson («Qatillər», Ernest Heminquey), Qora («Qora», Rabindranat Taqor), Soltan («Oğulla görüş», Çingiz Aytmatov), Sentkler («Dodağıçapıq», Konan Doyl).

Sadıq İbrahimov aktyor təbiətinə görə dramatik səpkili rollara daha uyğun gəlirdi. Bununla belə o, həmçinin romantik və lirik-dramatik səhnə personajlarını da səylə oynayırdı.

Aktyor Sadıq İbrahimov, həmçinin bədii yaradıcılıqla da məşğul olub. Onun indiyədək müxtəlif nəşriyyatlarda «Gözlə məni» («Gənclik», 1984), «Nənəm nağıl söyləyəndə» («Gənclik», 1987), «Noğul balanın sərgüzəştləri» («Yazıçı», 1991), «Rübailər... Sətirlər» (1997) kitabları çap olunub. O, Respublika Yazıçılar Birliyinin üzvü idi.

«Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş rejissor Arif Babayevin «Ömrün ilk anı», rejissor Rasim Ocaqovun «Qatır Məmməd» bədii filmlərində Neftçi Qurban və Səlim rollarına çəkilib.

Sadıq İbrahimov aktyorluq uğurlarına görə 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülüb.

Aktyor 2010-cu il avqust ayının 20-də qəflətən vəfat edib.

Rafael Dadaşov
(4 yanvar 1946)

Çox cazibəli səhnə görkəmi, mütənasib biçimli, yaraşıqlı boy-buxunu, nəzakətli davranışı, qılıqlı danışığı var. Aktyorluq yaradıcılığının ilk dövrlərində, əsasən, baş rollarda, daha çox isə sevgili qəhrəman obrazlarında çıxış edib. Aktyorluq bacarığının potensial imkanlarına görə həm romantik səpkili, həm də realist xarakterli psixoloji surətlərin səhnə təcəssümündə çıxış edə bilir. Bir sıra məşhur tarixi şəxsiyyətlərin rollarını da oynayıb.

Rafael Məlik oğlu Dadaşov 4 yanvar 1946-cı ildə Naxçıvanda doğulub. Atası görkəmli aktyor, Xalq artisti Məlik Dadaşov, anası isə məşhur aktrisa, Xalq artisti Sofiya Hüseynovadır. Naxçıvandakı Aleksandr Puşkin adına 3 saylı rus orta məktəbini bitirib.

Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsini qiyabi bitirib (1966 – 1972). O, 1967 – 1974-cü illər arasında Bakı Dövlət Sirkində işıqçı, Dəbli Geyimlər Evində maneken, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında aparıcı konfransye, SSRİ Dövlət Sirkində rejissor-inspektor işləyib. 1974-cü il oktyabr ayının 10-dan 1976-cı il iyulun 1-dək Naxçıvan Muxtar Respublikasının Xalq Yaradıcılığı Evində təlimatçı, eyni zamanda oranın Televiziya və Radio Komitəsində diktor olub.

Rafael Dadaşovun səhnəlik görkəmini görüb bəyənən Tofiq Kazımov onu özünün baş rejissor işlədiyi Akademik Milli Dram Teatrına dəvət edib. O, 16 iyul 1976-cı ildən Akademik teatrın aktyor truppasının üzvüdür. İlk dəfə Tofiq Kazımovun quruluş

verdiyi Maqsud İbrahimbəyovun «Ümid» («Mezozoy əhvalatı») psixoloji dramının tamaşasında Zaur rolunu oynayıb. Bu əsərin ilk tamaşası 27 noyabr 1976-cı ildə göstərilib. Həmin dövrdən bəri Rafael Dadaşov bu möhtəşəm sənət ocağının səhnəsində məşhur dünya və milli klassiklərin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların aşağıdakı əsərlərinin tamaşalarında səciyyə və xaraktercə əlvan rollar oynayıb.

Milli dramaturqların pyeslərinin tamaşalarında ifa etdiyi rollar: Hatəmxan ağa («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Şeyx Nəsrulla («Ölülər», Cəlil Məmmədquluzadə), Özdəmir, Vasif («Afət» və «İblis», Hüseyn Cavid), Bəhram («Fitnə», Abdulla Şaiq), Rövşən, Camal («Əliqulu evlənir» və «Nişanlı qız», Sabit Rəhman), Don Juan («Bəşərin komediyası, yaxud Don Juan», Mirzə İbrahimov), Həsən Soltan, Mayis, Ədhəm Tağıyev, Knyaz Xasay, Qədim, Cəmil («Şeyx Xiyabani», «Sevgililərin cəhənnəmdə vüsalı», «Dəlilər və ağıllılar», «Xurşidbanu Natəvan», «Büllur sarayda» və «Unuda bilmirəm», İlyas Əfəndiyev), Fikrət və Rəşad («Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), Mirzə Fətəli («Mirzə Şəfi», Nəbi Xəzri), Fəxrəddin («Qılınc və qələm», Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi), Birinci reportyor, Qiyas («Səhra yuxuları» və «Şəhərin yay günləri», Anar), Zaur («Ümid», Maqsud İbrahimbəyov), Müstəntiq («İstintaq», Rüstəm İbrahimbəyov).

Tərcümə əsərlərinin tamaşalarında oynadığı səhnə obrazları: Klavdi, Klavdio («Hamlet», «Heç nədən hay-küy», Uilyam Şekspir), Vojevatov və Paratov («Cehizsiz qız», Aleksandr Ostrovski), Tesey («Fedra», Jan Rasin), Murad («Nakam qız», Aleksandr Şirvanzadə), Mindövlət və Aydar («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov), Agah («Qanlı Nigar», Sadıq Şəndil), Don Qonsalo («Don Juan və həndəsə», Maks Firş).

Rafael Dadaşov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu tamaşaların iştirakçısı olub. Həmin teletamaşalar içərisində Anarın «Ötən ilin son gecəsi» (Rüstəm), Karlo Haldoninin «Mehmanxana sahibəsi» (Sinyor Kavaler), Aslan Qəhrəmanovun «Müsabiqə» (Elmi işçi), «Səni axtarıram» və «Bağışla» (Vasif müəllim) diptixi, Ruhəngiz Qasımovanın «Yollar görüşəndə» (Həmid), Hüseyn Cavidin «Topal Teymur» (Orxan), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordanburdan» (Həmid), İlyas Əfəndiyevin «Mənim günahım» (Sahib), «Sarıköynəklə Valehin nağılı» (Müstəntiq), İslam Səfərlinin «Göz həkimi» (Rauf), Moris Drüonun «Səyyah və yaxud qərib hörmətli olar» (İxtiraçı), Arturo Rafın «İblis qadın» (Şef) pyeslərinin, Uilyam Şekspirin sonetləri əsasında kompozisiyanın (Sevgili qəhrəman) teletamaşalarında oynadığı obrazlar daha yaddaqalan və uğurludur.

Rafael Dadaşov gənclik illərində daha çox lirik və romantik səpkili məhəbbət qəhrəmanlarının obrazlarını ifa etməyə üstünlük verib. Yaradıcılığının yetkinlik dövründən isə daha çox ictimai-sosial mənşəli, mürəkkəb mənəvi-əxlaqi dəyərli səhnə surətlərini daha şövqlə oynayır.

Aktyor komediya janrına meyilli tamaşalarda incə yumor vasitələrindən məharətlə istifadə etməyə çalışır. O, vəziyyət komediyalarında daha çox uğur qazanır.

Aktyor «Var olun, qızlar» (İsa), «Yarımçıq qalmış serenada» (Saksafonçu), «Yay vaxtı xəzan yarpaqları» (Maarif inspektoru), «Bəxt üzüyü» (Rasim), «Mənim ağ şəhərim» (Baş mühəndis), «Xüsusi vəziyyət» (adsız obraz) bədii, «Qaçaq Süleyman» (Qraf Vorontsov) televiziya filmlərinə çəkilib.

Rafael Məlik oğlu Dadaşov aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 16 may 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Əliabbas Qədirov
(13.2.1946 – 30.3.2006)

Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğun, daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyor olub.

Oynadığı rollar janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayıb, dolğunluğu ilə seçilib.

Aktyor təbiətində ilk baxışda «gizli» görünən, ancaq duzlu və cazibəli yumor olub. O bu yumordan həssaslıqla, yığcam «xəsisliklə», lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edib.

Əliabbas Qədirov oynadığı obrazlara, ilk növbədə, elmi-nəzəri əsaslarla yanaşıb, xarakterin əsərdə kəsb etdiyi psixoloji-fəlsəfi qənaətlərin mahiyyətini müəyyənləşdirib.

Səhnə surətinin dramatik kolliziyalarındakı yerini daha qabarıq bədii vasitələrlə canlandırmaq üçün «ikinci plan» estetik anlayışının əyani və təcrübi təzahürünü bütün incəliklərinə kimi tamaşaçılara çatdırmağa çalışıb.

Səhnədə diqqətcil və həssas, mürəkkəb mizanlar toplusunda oynamağı xoşlayan aktyor olub. Azərbaycanın məşhur qiraət ustalarından biri kimi, onun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabir... yaradıcılığının poeziya poetik nümunələri lentə alınıb.

Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda doğulub. Şəhərdəki 31, 176, 43, 36, 105 saylı orta məktəblərdə təhsil alıb. On birinci sinfi 105 saylı məktəbdə bitirib.

Səhnə sənətinə səkkizinci sinifdən başlayaraq maraq göstərib. Dəmiryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olub. Romantik monumental tamaşalarda rollar oynamaq vərdişlərinin ibtidai əsaslarını həmin dram dərnəyində öyrənib. Aktyor olmağı da burada qətiləşdirib.

O, 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət müəllimi, ixtisas kurs rəhbəri, Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi, Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub.

Tələbəlik illərində institutun Tədris teatrının ştatlı aktyoru kimi Cəfər Cabbarlının «Aydın» (Surxay), Hüseyn Cavidin «Azər» (İşçi), Afanasi Salınskinin «Təbilçi qız» (Fyodor) əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Akademik teatrda quruluş verdiyi Hüseyn Cavidin «Xəyyam» faciəsində Yusif roluna dəvət edib. Ancaq tamaşanın premyerası uzanıb və 12 mart 1970-ci ildə göstərilib. Səhnədə ilk addımından teatr ictimaiyyətinin nəzər-diqqətində olan Əliabbas Qədirov 1970-ci il aprel ayının 6-dan Milli Dram Teatrında aktyor kimi çalışmağa başlayıb.

Məşhur aktyor 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin olunub. 12 yanvar 2006-cı ildə istefaya göndərilib.

Əliabbas Qədirovun 1970-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında oynadığı rollar əlvanlığı və xarakter müxtəlifliyi ilə seçilir.

Aktyorun baş və əsas rollarda çıxış etdiyi tamaşalar: Vaqif («Vaqif», Səməd Vurğun), Balaş («Sevil», Cəfər Cabbarlı), Bəhram («Fitnə», Abdulla Şaiq), Məğrur («Əks-səda», Nəbi Xəzri), Daşqın («Yollara iz düşür», İslam Səfərli), İbrahim xan, Kamran, Nicat, Həbib («Hökmdar və qızı», «Bizim qəribə tale-

yimiz», «Mahnı dağlarda qaldı» və «Büllur sarayda», İlyas Əfəndiyev), Şeyx Nəsrulla («Ölülər», Cəlil Məmmədquluzadə), Qara xaqan, Rəşad («Özümüzü kəsən qılınc» və «Kimdir haqlı?» Bəxtiyar Vahabzadə), Tərlan («Sənsiz», Şıxəli Qurbanov), Toral («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Fateh («Yol ayrıcında», İslam Səfərli), Qazan xan, Mirzə Şəfi («Torpağa sancılan qılınc» və «Mənsiz dünya», Nəbi Xəzri), Qlumov («Müdriklər», Aleksandr Ostrovski).

Əliabbas Qədirovun oynadığı ikinci dərəcəli və xarakterik epizod rollar: Vasif, Yusif («İblis» və «Xəyyam», Hüseyn Cavid), Xosrov («Küləklər», Sabit Rəhman), Vəli («Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə), Ənvər, İlyas («Ulduz», yaxud «Ədirnə fəthi» və «Aydın», Cəfər Cabbarlı), Alman oğlu, Kürd Musa («İnsan» və «Vaqif», Səməd Vurğun), Coşqun («Kölgələr pıçıldaşır», Seyfəddin Dağlı), Balağa («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Diş həkimi («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Dan («Tufandan əvvəl», Arif Süleymanov) Misirxanov («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Nostradamus («Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz), Qraf Qloster («Kral Lir», Uilyam Şekspir), Pronya («Zamanın hökmü», Nikolay Poqodin), Givi («Darıxma, ana!», Nodar Dumbadze), Şərif, Fotoqraf («Məhəbbət əfsanəsi» və «Şöhrət və ya unudulan adam», Nazim Hikmət), İlyas Əfəndiyevin əsərlərində Şirzad («Şeyx Xiyabani»), Leytenant («Mahnı dağlarda qaldı»), Seyid Hüseyn («Xurşidbanu Natəvan»), Mir Cəfər Bağırov («Sevgililərin cəhənnəmdə vüsalı»), Kərim bəy («Tənha iydə ağacı»).

Aktyor Azərbaycan Dövlət Televiziyasında çoxlu tamaşalarda oynayıb, uzun illər əvvəlcə gənclər üçün «Məşəl», sonralar əyləncə xarakterli «Komediyalar aləminə səyahət» verilişlərinin aparıcısı olub. Onun oynadığı tamaşaların bir qismi televiziyanın Qızıl fonduna daxildir. Onlardan Süleyman Sani

Axundovun «Laçın yuvası» (Cahangir), Məmməd Muradın «Təkan» (Dilqəm), İlyas Əfəndiyevin «Atayevlər ailəsi» (Cahangir), Mirzə Fətəli Axundzadənin «Hacı Qara» (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin «Bəxtsiz cavan» (Fərhad), Mar Bayciyevin «Duel» (İsgəndər), Dazortsevin «Qəbula gələn sonuncu adam» (Kişi) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə təcəssüm tapıb.

Əliabbas Qədirov teatrla yanaşı, kino aktyoru kimi də böyük uğurlar qazanıb. Hətta o, kinorejissor Eldar Quliyevin çəkdiyi «Sevinc buxtası» ikiseriyalı bədii filmindəki Nazim roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Aktyor bundan əlavə, «Azərbaycanfilm»də «Xatirələr sahilində» (İmran), «Nəğmə dərsi» (Ata), «Nə yaxşı ki, Səməd Vurğun var» (Vaqif), «Bizim evin kişisi» (Mansur), «Qızıl uçurum» (Cəlil), «Qocalar» (Fəriz), «Babək» (Fəzl), «Dənizdən işarə» (Sultanov) kinolentlərinə çəkilib. Rejissor Hüseyn Seyidzadənin çəkdiyi eyniadlı filmdə Qatır Məmmədi oynayıb. Lakin Moskva «millətçi» ruhuna görə o filmin ekrana çıxmasına icazə verməyib. Buna görə də təxminən tamamlanmaq üzrə olan ekran əsərini yenidən işləmək rejissor-operator Rasim Ocaqova tapşırıldı. Onun quruluşunda Qatır məmməd rolunu Şahmar Ələkbərov ifa etdi.

Əliabbas Qədirov uzun illər bugünkü Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənəti və səhnə danışığı fənlərindən dərs deyib.

Səhnə və ekran ustası Əliabbas Qədirov teatr və kino yaradıcılığındakı uğurlarına görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 17 may 1989-cu ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub.

Aktyor 30 mart 2006-cı ildə Bakıda vəfat edib. Məzarı İkinci Fəxri xiyabandadır.

Elçin Məmmədov
(29.5.1946 – 18.2.2001)

Görkəmli rejissor Mehdi Məmmədovla şöhrətli aktrisa Barat xanım Şəkinskayanın ailəsində doğulmuş Elçin fitri istedad sahibi idi. Göz açandan teatr aləmində böyüyən Elçin Məmmədov rəssamlığa lap uşaq yaşlarından başlayıb. Şagird vaxtlarından ipə-sapa yatmayan Elçin Məmmədov Əzim Əzimzadə adına rəssamlıq məktəbinə daxil olub, ancaq oranı bitirməyə kiridarı, hövsələsi çatmayıb. Sənət təhsilini ataraq Bakıdakı 46 saylı fəhlə-gənclər məktəbini bitirib. Ali rəssamlıq təhsilini isə Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq fakültəsində alıb. Yüngül sənaye rəssamı ixtisasına yiyələnib (1967 – 1973).

Müxtəlif vaxtlarda Respublika Rəssamlar İttifaqının bədii istehsalat kombinatında, «Vışka» qəzetində işləyib. Musiqili Komediya Teatrında, Opera və Balet Teatrında baş rəssam olub. 1989-cu ilin dekabr ayının 1-dən gözlərini əbədiyyət dünyasına yumana qədər Akademik Milli Dram Teatrında baş rəssam kimi çalışıb. Paralel olaraq kitab tərtibatı ilə məşğul olub. Onlarca kitaba rəssamlıq etmiş Elçinin rəsmləri kompozisiya orijinallığına, isti, ürəyəyatımlı rəng koloritinə, mövzunun estetik mahiyyətinə varmasına görə həmişə seçilib.

Elçin Məmmədov Gənc Tamaşaçılar Teatrında, Musiqili Komediya Teatrında, Azərbaycan Dövlət Rus Dram Teatrında, Lənkəran Dövlət Dram Teatrında, Marionet Teatrında bir sıra tamaşaların rəssamı olub. Həmişə forma axtarışlarında olan, üslub rəngarəngliyinə güclü meyil göstərən rəssam, Moskvadakı Qoqol adına Dram Teatrında Alla Axundovanın «Sirlər... sirlər...

sirlər...», Arxangelsk Dövlət Dram Teatrında Rüstəm İbrahimbəyovun «Qum üzərində ev», Bertolt Brextin «Üç quruşluq opera», Mustay Kərimin «Ay tutulan gecə», İrəvan Kamera Teatrında Kamal Aslanovun «Yuxulama» əsərləri əsasında hazırlanan tamaşalara həm tərtibat quruluşu verib, həm də geyim eskizlərini çəkib.

İllüstrasiyalar ustası Elçin Məmmədovun ən kamil sənət inciləri nəfis şəkildə çap olunmuş «Dədə Qorqud», «Koroğlu», «Azərbaycan nağılları», «Xəyyam» kitablarında cəmlənib. Bakının və Moskvanın Dövlət Muzeylərində onun əsərləri daimi eksponatlar siyahısındadır.

Rəssamlıqdan əlavə, Elçin Məmmədov Respublikamızda koloritli kino aktyoru kimi də sevilirdi. «Azərbaycanfilm» kinostudiyasının çəkdiyi «Yeddi oğul istərəm» (Mirpaşa), «Dədə Qorqud» (Qaraca çoban), «Dantenin yubileyi» (Səyavuş), «Çətirimiz buludlardır» (Məlik), «Bağlı qapı» (Aydın) bədii filmlərində müxtəlif səpkili rolları oynayıb.

Zəngin və bəhrəli yaradıcılıq irsi yaratmış Elçin Məmmədovun səhnəqrafiya fəaliyyətində Akademik Milli Dram Teatrında hazırlanmış tamaşalara verdiyi tərtibatlar xüsusi yer tutur. Tələbə vaxtından bu sənət ocağına dəvət alan rəssam Akademik teatrda aşağıdakı tamaşaların bədii tərtibatını işləyib:

1971, 19 iyun. «Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə. Quruluşçu rejissor Məmmədkamal Kazımov.

1974, 1 mart. «İnsan», Səməd Vurğun. Quruluşçu rejissor Mehdi Məmmədov.

1975, 22 mart. «Meşşanlar», Maksim Qorki. Quruluşçu rejissor Mehdi Məmmədov.

1978, 29 aprel. «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə. Quruluşçu rejissor Mehdi Məmmədov.

1983, 19 mart. «İblis», Hüseyn Cavid. Rəssam Nazim Bəykişiyevlə birlikdə. Quruluşçu rejissor Mehdi Məmmədov.

1984, 9 dekabr. «Biganələr oteli», Rüstəm İbrahimbəyov. Quruluşçu rejissor Azər Paşa Nemət.

1987, 4 dekabr. «Tufandan əvvəl», Arif Süleymanov. Quruluşçu rejissor Azər Paşa Nemət.

1995, 12 yanvar. «Min illərin işığı», Kamil Abdullayev. Quruluşçu rejissor Mehriban Ələkbərzadə.

1996, 7 may. «Kral Lir», Uilyam Şekspir. Quruluşçu rejissor Bəhram Osmanov.

1997,1 fevral. «Ah, Paris... Paris!..», Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət.

1998, 23 may. «Mənim sevimli dəlim», Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət.

1999, 16 oktyabr. «Diaqnoz «D» («Mənim ərim dəlidir»), Elçin. Quruluşçu rejissor Azər Paşa Nemət.

2002, 27 mart. «Hamlet», Uilyam Şekspir. Nazim Bəykişiyevlə birlikdə. Quruluşçu rejissor Azər Paşa Nemət.

«Hamlet» tamaşası Elçinin teatrda son işi oldu. Özünün tamaşasının premyerasını görə bilmədi.

Elçin Məmmədov müxtəlif üslublu rejissorlarla yaradıcılıq təmasında olsa da, ən çox dostu Azər Paşa Nemətlə birgə işləyib. O, teatr rəssamı kimi avanqard üslubda, milli meydan, qaravəlli teatr ənənələrində işləməyi xoşlayırdı. Onun tərtibatlarının əhatəsində aktyor özünü sərbəst hiss edirdi. Elçinin işi rejissorun verdiyi geniş mizanlarda ifaçıların dinamik hərəkətlər etmələrinə böyük zəmin yaradırdı. Detal-obrazlarla işləməklə yanaşı, mütləq səhnə tərtibatını tamaşanın atribut-obrazına çevirirdi.

Elçin Məmmədov rəssamlığın çağdaş avanqard üslubunu dərindən bilirdi və məhz o səpkidə silsilə işlər yaradıb. Önəmlisi isə o idi ki, rəssam həmin üslubun estetik özəlliyini, cazibə qüvvəsini və məna genişliyini tamaşalara verdiyi tərtibatların ruhuna hərarətli rənglərlə hopdururdu, həssas duyumla aşılayırdı.

Məşhur teatr rəssamı «İblis» tamaşasının tərtibatına görə Respublika Dövlət mükafatı laureatı olub (27 aprel 1984). Əməkdar incəsənət xadimi fəxri adını alıb (22 may 1991).

Dünyanın bir sıra ölkələrində sərgiləri nümayiş etdirilmiş, neçə-neçə xarici ölkədə teatr tamaşalarına bədii tərtibat vermiş Elçin Məmmədov 18 fevral 2001-ci ildə emalatxanasına qalxarkən ürək xəstəliyindən qəflətən vəfat etmişdir.



Mikayıl Mirzə
(1.1.1947 – 3.6.2006)

Mikayıl Şahvələd oğlu Mirzəyev (Mikayıl Mirzə) 1947-ci il yanvarın 1-də Şamaxı rayonunun Talış kəndində doğulub. Üç il sonra həmin kənd Ağsu rayonuna verildiyi üçün ailələri rayon mərkəzinə köçüb. Ağsuda 3 saylı orta məktəbi bitirərək (1964) rayonda pioner baş dəstə rəhbəri işləyib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunu bitirərək (1965 – 1969) səhnə danışığı kafedrasında müəllimliklə yanaşı, institutun Tədris teatrında aktyor işləyib. Mikayıl Mirzə hələ tələbə ikən bu teatrın səhnəsində Cəfər Cabbarlının eyniadlı əsərində Aydın rolunu oynayıb və ifası Respublika teatr ictimaiyyəti tərəfindən maraqla qarşılanıb. 1971-ci ilin yazında hərbi xidmətə çağırılıb, bir ildən sonra qayıdaraq yenə Tədris teatrında və institutda işləyib. 1976-cı il yanvarın 13-dən Akademik Milli Dram Teatrında aktyor kimi fəaliyyətə başlayıb. Aktyor işləyə-işləyə bir müddət həm də Bakı Mədəni-Maarif Texnikumunun direktoru olub (1992 – 1995).

Aktyor və məşhur qiraət ustası Mikayıl Mirzə hələ tələbəlik illərindən televiziyanın poeziya verilişlərində, radionun ədəbi kompozisiyalarında şöhrətlənib.

Mikayıl Mirzənin Tədris teatrında oynadığı rollar: Şeyda, Azər («Şeyda» və «Azər», Hüseyn Cavid), Şö baba («Bir iş gör, Met», Əziz Nesin), Nəsimi («Mən bu cahana sığmaram», Əbülfəz Hüseyni).

Mikayıl Mirzənin Akademik Milli Dram Teatrının səhnəsində ifa etdiyi rollar: Cinni Mustafa («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Elxan («Od gəlini», Cəfər Cabbarlı), İxtiyar («İblis», Hüseyn Cavid), Kürd Musa («Vaqif», Səməd Vurğun), Bəxtiyar («Fitnə», Abdulla Şaiq), Sərkərdə («Qılınc və qələm», Məmməd Səid Ordubadi. Tofiq Kazımovun işləməsində), Aslan («Kəndçi qızı», Mirzə İbrahimov), Teymur («Çahargah fantaziyası», Kərim Kərimov), Eyvaz, Muratov («Tənha iydə ağacı» və «Qəribə oğlan», İlyas Əfəndiyev), Zahid, Şair («Fəryad» və «Yollara iz düşür», Bəxtiyar Vahabzadə), Həsrət («Kölgələr pıçıldaşır», Seyfəddin Dağlı), Mirzə Ələkbər Sabir, Tərs Tahir («Sizi deyib gəlmişəm» və «Adamın adamı», Anar), Balağa («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Kakuli («Pepo», Qabriel Sundukyan), Qoca («Yad adam», Leonqard Frank).

Aktyor «Dədə Qorqud», «Yeddi oğul istərəm», «Uzun ömrün akkordları» və digər filmlərdə epizodik rollara çəkilib. «Günahsız Abdulla» (Mixael Cavaxaşvili), «Topal Teymur» (Hüseyn Cavid) televiziya tamaşalarında Abdulla, şair Kirmani obrazlarını ifa edib.

«Bir aktyorun teatrı»nı yaradan Mikayıl Mirzə televiziyada təkbaşına Aleksandr Puşkinin «Motsart və Salyeri», «Qaraçılar», Hüseyn Cavidin «Azər», Xəlil Rzanın «Məhəbbət dastanı», İsa İsmayılzadənin «Böyüdülmüş şəkillər», Məmməd İsmayılın «Saz», Rəsul Rzanın «Qızılgül olmayaydı...», Cabir Novruzun «Qərbi Berlin», Adil Babayevin «Memarın məhəbbəti» tamaşa-

larını oynayıb. «Bir aktyorun teatrı» ilə Türkiyədə qastrolda olub. Nəsiminin, Füzulinin, Məmməd Arazın, Xəlil Rzanın poeziya nümunələrindən ibarət silsilə televerilişləri, poeziya tamaşaları var.

Akademik Milli Dram Teatrında Cəfər Cabbarlının «Aydın» pyesinə quruluş verib (1 aprel 2000-ci il).

Mikayıl Mirzə 1995-ci il noyabrın 12-də və 2000-ci ildə Milli Məclisə deputat seçilib. Səhnədəki uğurlarına görə 1987-ci il martın 20-də Azərbaycan Respublikasının Əməkdar artisti, 1991-ci il mayın 22-də isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Aktyor 3 iyun 2006-cı ildə Bakıda vəfat edib. Məzarı İkinci Fəxri xiyabandadır.

Azər Paşa Nemət
(13 avqust 1947)

Teatr tamaşası üçün başlıca üçbucaq dramaturq (pyes), aktyor və rejissor (üstəgəl rəssam və bəstəkar) həmrəy yaradıcılığıdır. Böyük istedad sahibi, dünyanın bir sıra ölkələrində tanınmış rejissor Azər Paşa Nemət (Nemətov) istisnasız olaraq hazırladığı bütün tamaşaların müəllif hüququnu qazandığı üçün o həmin üçbucağın «dördüncü» bucağını da ləyaqətlə təmsil edir.

Azər Paşa Azərbaycanın görkəmli rejissoru, ömrünün sonuna qədər Gənc Tamaşaçılar Teatrında işləmiş Zəfər Nemətovun oğludur. O, 13 avqust 1947-ci ildə Bakıda doğulub. Güclü

musiqi duyumu olan Azər Paşa Bülbül adına Orta Musiqi Məktəbində oxuyub (1953–1964) və bir il Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. Qara Qarayevin sinfində oxuyan və hətta bir neçə mahnı bəstələmiş Azər Paşa 1965-ci ildə Teatr İnstitutuna imtahan verib və rejissorluq fakültəsinə qəbulda uğur qazanıb. Atasının dostu, məşhur rejissor Mehdi Məmmədovun kursunu bitirərək iki il sonra onun yanında assistent-müəllim işləyib. Diplom işi «Qardaşım klarnet çalır» (Anatoli Aleksin, Robert Rojdestvenski və Oleq Feltsman) Gənc Tamaşaçılar Teatrının (GTT) rus bölməsində göstərilib. 1972-ci ildə GTT-də əvvəl rejissor assistenti, sonra quruluşçu rejissor işləyən Azər Paşa arada Leninqradın (indiki Sankt-Peterburq. – *İ.R.*) eynitipli teatrında çalışıb (1974 – 1977). Gənc yaşlarından şöhrət qazanan Azər Paşa 1977-ci ildə Bakıya qayıdaraq GTT-də rejissor və baş rejissor (1983 – 1990) işləyib.

1990-cı il aprel ayının 20-dən Akademik Milli Dram Teatrının quruluşçu rejissorudur. 1991 və 1996-cı illərdə isə Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri seçilib. Andrey Popov adına SSRİ ümumittifaq müsabiqəsinin laureatıdır (1985). Respublikanın Əməkdar incəsənət xadimi (20 mart 1987) Azər Paşanın tamaşaları İstanbulda, Aşqabadda, Moskvada keçirilmiş festival və müsabiqələrdə uğur qazanıb.

Sankt-Peterburq GTT-də Maqsud İbrahimbəyovun «Bütün yaxşılıqlar üçün ölüm», Bertolt Brextin «Üçüncü imperiyanın iflası», Arxangelsk Dövlət Dram Teatrında Rüstəm İbrahimbəyovun «Qum üzərində ev», Tallin GTT-də Yakovlevin «Qızım Nyusa», Anarın «Şəhərin yay günləri», Kamal Aslanovun «Yuxulama» (bunu Bakıda da hazırlayıb), Rüstəm İbrahimbəyovun «Kabinet tarixçəsi» pyeslərini tamaşaya hazırlayıb. Tiflisdə və İrəvanda quruluşlar verib. Bununla belə, Azər Paşa Nemətovun yaradıcılığının əsas müdriklik mərhələləri Milli teatrımızla bağlıdır.

Rejissor Bakıdakı GTT-nin rus bölməsində Yevgeni Şvartsın «İki ağcaqayın» (1973), K.Meşkovun «Pin və Qvin» (1974), Y.Mitkovun «Bumbaraş» (1977), V.Tendryakovun «Buraxılış gecəsindən sonrakı gecə» (1978), Ş.Totun «Necəsən, cavan oğlan?», Anarın «Keçən ilin son gecəsi» (1979), Aleksey Tolstoyun «Buratinonun səfehlər ölkəsində macəraları» (1980), Aleksandr Ostrovskinin «Öz adamımızdır, düzəlişərik» (1982), Kiplinqin «Öz kefinə gəzən pişik», Rüstəm İbrahimbəyovun «Təmas» (1983), Beqalinin «On üç yaşına keçən oğlan», Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəlişah» (1984), Valentin Zoşşenkonun «Şapkinin sərsəm günü», S.Prokofyeva və Tokmakovanın «Xaçlar və sıfırlar» (1985), Karlo Qotsinin «Yelkənlər üzərində nəğməli külək» (1987) pyeslərini tamaşaya hazırlayıb. Azərbaycan bölməsində isə Cəlil Məmmədquluzadənin «Danabaş kəndinin məktəbi» (1983), Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və Dərviş Məstəlişah», Çingiz Aytmatovun «Fudziyama dağında qonaqlıq» (1984), İsgəndər Coşqunun «Komissarlar», Rəhman Əlizadənin «Sabah çoxdan başlanıb» (1987), Kamal Aslanovun «Yuxulama» (1989) dramlarının tamaşalarına əlvan janrlı quruluşlar verib.

Akademik Milli Dram Teatrında onun quruluşunda Rüstəm İbrahimbəyovun «Biganələr oteli» (1984), Arif Süleymanovun «Tufandan əvvəl» (1987), Elçinin «Ah, Paris... Paris!..» (1997), «Mənim sevimli dəlim» (1998), «Diaqnoz «D» («Mənim ərim dəlidir», 1999), Uilyam Şekspirin «Hamlet» (2002) tamaşaları oynanılır. Rejissorun hələlik son işi «Boy çiçəyi» («Sən həmişə mənimləsən», İlyas Əfəndiyev) tamaşasıdır. O bu tamaşanı 2011-ci il noyabrın 2-də təhvil verib. «Hamlet» Akademik teatrın tarixində, bütövlükdə Azərbaycan Şekspirianasının salnaməsində parlaq sənət qələbəsidir.

Azər Paşa Nemət 2008-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının nəzdindəki eksperimental studiyada Uilyam Şekspirin «Afinalı Timon» faciəsini tamaşaya hazırlayıb.

Azər Paşa Nemətovun yaradıcılığında musiqi janrı karnaval estetikası ilə meydan teatrının oyun estetikasına əsaslanır. Rejissor bu janrda hazırladığı tamaşalarında kompozisiya bütövlüyünə, əsasən, improvizə ilə nail olur. Şuxluq, əlvanlıq, musiqi ilə sözün harmoniyası, əyləncə elementləri həmin tamaşaların əsasında durur. Bu baxımdan «Bumbaraş», «Necəsən, cavan oğlan?» tamaşalarını xatırlamaq kifayətdir.

İtalyanların komediya «del arte» xalq tamaşaları estetikasında Azərbaycanda ən uğurlu tamaşanı Azər Paşa hazırlayıb. Həmin tamaşa «Yelkənlər üzərində nəğməli külək»dir.

Novator rejissor kimi psixoloji dramatizmlə açıq publisistikanı lirik ahəngdə qovuşdurur. Öz tamaşalarında hay-küylü pafosdan, çılpaq didaktikadan cəsarətlə imtina edir.

Onun hazırladığı, janrından asılı olaraq hər tamaşanın özünün məxsusi ritm ahəngi var. İctimai-siyasi problemli pyeslərin tamaşasında ləngərli ahəng ritmin əsas tənzimləyicisidir. Mənəvi-əxlaqi problemlərin səhnə təfsirində kövrək, bir qədər lirik, ancaq dinamik ritm üstündür. Sosial-məişət məsələləri ön hadisələrdə dominantlıq təşkil edən tamaşalarda Azər Paşa ziqzaqlı, qabarıb-çəkilən ritmə rəvac verir.

Azər Paşanın tamaşalarında fəlsəfi fikir müəyyən məsafə ayrılığında üz-üzə qoyulmuş aynaya bənzəyir. Həmin aynalarda perspektiv məkan müxtəlif ölçülərdə necə əks olunursa, rejissorun tamaşalarının fikir dərinliyinə açar tapdıqca üzümüzə yeni-yeni məna qapıları açılır.

Azər Paşanın tamaşalarında rejissorun fəlsəfi fikri söz, hərəkət, musiqi və səhnə tərtibatının bədii həlli arasında ahəngdar tərzdə paylanır.

Azər Paşa Nemət aktyorlara axtarış sərbəstliyi verən rejissordur. Ancaq şöhrətli aktyorun oyununda belə professionallığa xidmət etməyən ən cazibəli ifadə vasitələrinə səhnədə yol vermir.

Quruluşları geniş nəfəslidir, tamaşaçıları darıxdırmır, səhnə cazibəsi baxımından həmişə təravətlidir, psixoloji ovqatı çağdaş ruhludur.

Azər Paşa Nemət öz quruluşlarında çağdaş dünya modern teatr estetikasının milli teatr düşüncəsi ilə sintezinə möhtəşəmliklə nail olur.

Paradoksal psixoloji situasiyaları qabarıq verməklə özünün rejissor ideyalarını aktyorların ifadəli oyunlarında həll edir.

Funksional səhnəqrafiyanın imkanlarından cəsarətlə istifadə etməklə onu mürəkkəb, dolğun, estetik obraz kimi tamaşanın əsasına çevirir.



Fuad Poladov
(24 may 1948)

Lirik-psixoloji üslublu aktyor məktəbinin qabaqcıl sənətkarlarından biridir. İstedadının formalaşdığı bu üslubun çoxqatlı çalarlarına istinad edərək fəlsəfi-dramatik və faciə rollarını da məharətlə oynayır.

Fuad Ağarəhim oğlu Poladov 1948-ci il may ayının 24-də Bakı şəhərində müəllim ailəsində doğulub. Şəhərdəki 132 saylı məktəbdə təhsil alıb. Eyni zamanda Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında Ədil İsgəndərovun açdığı aktyorluq studiyasında sənət təcrübəsi keçib. İstedadı diqqəti cəlb edən Fuad Poladov 1966-cı ildə «İstintaq davam edir» bədii filmində Səlim roluna çəkilib.

Sənətin sirlərini bacarıqla və sürətlə mənimsəyən Fuad Poladov Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb (1967 – 1972). Həmin il

institutun aktyorluq fakültəsinə tələbələri Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımov seçib. Tələbə yoldaşlarından istedad və bacarığı ilə seçilən Fuad Poladov 1969-cu ildə Tofiq Kazımov tərəfindən teatra dəvət alıb. Həmin ildən truppanın üzvü olan aktyor teatrda ilk dəfə İlyas Əfəndiyevin «Məhv olmuş gündəliklər» (29 noyabr 1969) lirik-psixoloji pyesinin tamaşasında Savalan rolunu oynayıb. İlk işi çox uğurlu alınan Fuad Poladov 1989-cu ilə kimi Akademik teatrda işləyib və sənət ocağında hazırlanmış əksər tamaşalarda maraqlı xarakterlər yaradıb.

Fuad Poladovun iyirmi il ərzində Akademik Milli Dram Teatrında oynadığı rollar aktyorun zəngin yaradıcılığına parlaq ayna tutur.

Azərbaycan müəlliflərinin pyeslərinin tamaşalarında ifa etdiyi rollar: İlyas Əfəndiyevin dramlarında Savalan («Məhv olmuş gündəliklər»), Rəhman («Mahnı dağlarda qaldı»), Valeh («Qəribə oğlan»), Qədim («Büllur sarayda»), Mübarək Səltənə («Şeyx Xiyabani»), Həsənzadə («Boy çiçəyi», yaxud «Sən həmişə mənimləsən»), Şahbaz bəy («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Vahid («Kəndçi qızı», Mirzə İbrahimov), Əlibala, Cığatay, Vəliəhd («Küləklər», «Yağışdan sonra» və «Fəryad», Bəxtiyar Vahabzadə), Mirzə Şəfi, Şöklü Məlik («Mirzə Şəfi» və «Torpağa sancılan qılınc», Nəbi Xəzri), Elşən («Mənziliniz mübarək», Seyfəddin Dağlı), Araz («Yol ayrıcında», İslam Səfərli), İlyas-Nizami («Qılınc və qələm», Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi), Oqtay («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Ağarəfi, Zaur, Tom Soyer («Şəhərin yay günləri», «Təhminə və Zaur» və «Səhra yuxuları», Anar), Murad («Yastı təpə», Əkrəm Əylisli), İkinci («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Rauf («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Hamlet («Hamlet», Uilyam Şekspir).

Tərcümə əsərlərinin tamaşalarında çıxış etdiyi səhnə obrazları: Malkolm, Benedikt, Hamlet («Maqbet», «Heç nədən hayküy» və «Hamlet» Uilyam Şekspir), Ferdinand («Məkr və məhəbbət», Fridrix Şiller), Fərhad («Məhəbbət əfsanəsi», Nazim Hikmət), Baron («Həyatın dibində», Maksim Qorki), Emilian («Böyük Romul», Fridrix Dürrenmatt), Avtandil Cakeli («Darıxma, ana!» Nodar Dumbadze), Juan Qanqorra («Bu qadın mənimdir», Raymondo Juniyor), Makxit («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Cim («Şüşə heyvanxana», Tennessi Uilyams).

Aktyor Hamlet və Həsənzadə rollarını Akademik teatrda dəvətlə oynayıb. Rejissor Azər Paşa Nemətin quruluş verdiyi «Hamlet»in ilk tamaşası 20 mart 2002-ci ildə, «Boy çiçəyi» («Sən həmişə mənimləsən») lirik-psixoloji dramının premyerası 2 noyabr 2011-ci ildə göstərilib.

Fuad Poladov 1989-cu ildə Akademik teatrdan işdən çıxıb. Elə həmin vaxtdan Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının aktyor truppasına qəbul olunub. Aktyor tez bir zamanda 1920-ci ildən Bakıda fəaliyyət göstərən teatrın aparıcı aktyoruna çevrilib. O bu səhnədə dramatik, psixoloji və lirik rollar oynayıb. Rus Dram Teatrındakı fəaliyyəti aktyorun yaradıcılığında yeni mərhələ təşkil edir. Rus dilində səlis, aydın və ifadəli danışan aktyor istedadının psixoloji dərinliyini daha da artırıb.

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında oynadığı əsas rollar: Daniel Korban («Təpə», Rober Toma), Erve Moiten («Tamaşaçıların baxması qadağandır», Jan Marsan), Pavel («Şəhərdə dəhşətli qarmaqarışıqlıq», Vladimir Pikovski), İblis («İblis», Hüseyn Cavid), Sezar («Kölgələrin oyunu», Yuli Edlis), Stefan («Fransızsayağı ailə», Jan Puaro), Eddi Karbone («Körpüdən görünüş», Artur Miller), Avqust («Avqust öz borcunu yerinə yetirir», Bernard Şou), Sankiti Oba («Kabuslar bizim aramızda», Kobe Abe), Floran («Müqəddəs

yırtıcı», Jan Kokto), Aleksandr («Qara dəlik», Koran Stefanovski), Doktor Karnelli («Toxunulmaz», Somerset Moem), Vulsi («Kral oyunları», Qriqori Qorin), Napoleon («Napoleon», Ferdinand Brukner), Lopaxin, Svetlovidov, Doktor Dori («Albalı bağı», «Qu nəğməsi» və «Qağayı», Anton Çexov).

İlyas Əfəndiyevin «Atayevlər ailəsi» (Ziyad Şahsuvarov), Mehdi Hüseynin «Alov» (Emin Bəxtiyarov), İvan Turgenevin «Nə gözəldir, təzə-tərdir qızılgüllər», Məmməd Muradın «İşığın sınma qanunu», türkcədən işlənmiş «Fatehlərin divanı» (Əmir Teymur), Anarın «Dədə Qorqud» (Şöklü Məlik) əsərlərinin teletamaşalarında maraqlı rollar oynayıb.

Aktyor «Azərbaycanfilm»də «Ən vacib müsahibə» (Qardaşoğlu), «İşarəni dənizdən gözləyin» (Komandan), «İmtahan» (Şamxal Bəşirzadə), «Qırmızı qatar» (Labert), «Qara «Volqa» (Səlimzadə), «Köpək» (Fuad), «Ümid» (Cəbhə hərbi həkimi), «Ad günü» (Nazim), «Qayınana» (Ayaz), «Ailə» (Kişi), «Təsadüfi görüş» (Murad), «Güllələnmə təxirə salınır» (Xan), «Hacı Qara» (Pristav), «Ovsunçu» (Dəstə komandiri), «Küçələrə su səpmişəm» kinolentlərinə çəkilib.

Sənətdə qazandığı nailiyyətlərə görə Fuad Poladov Azərbaycan Respublikasının Əməkdar artisti (1 dekabr 1982) və Xalq artisti (1987) fəxri adları ilə təltif olunub.

Fuad Poladovun səhnə plastikası ifa etdiyi obrazın psixoloji və emosional duyğularına uyğun şəkildə dəyişir. Aktyor hər bir rolunu yeni ölçü-biçimdə və orijinal təqdimdə tamaşaçılara çatdırır.

Fuad Poladov səhnədə düşünməyi, düşüncələrini fəlsəfi dəyərlərlə çatdırmağı, ən adi obraza da psixoloji ahəng verməyi bacarır.

Fuad Poladov səsinin ahəngini oynadığı rolun xarakterinə əlvanlıq gətirən ifadə vasitəsi kimi dəyişə bilir. Bu dəyişmədə çalar parlaqlığı çoxdur.

Fuad Poladov obraza ictimai dəyər gətirməyi, ona psixoloji-sosial mahiyyət aşılamağı sevən və bunu yüksək peşəkarlıqla icra edən aktyordur.

Fuad Poladov psixoloji pauzaları məharətlə oynayır. Belə məqamlarda aktyor sifət ifadələrinə, göz oyununa və hərəkət monoloqlarında plastik ştrixlərə üstünlük verir.

İlham Namiq Kamal

(9 yanvar 1949)

Əvvəllər «İlham Əhmədov» kimi çıxış edirdi. «Namiq Kamal» təxəllüsünü 1980-ci illərin ikinci yarısından götürüb.

Komediya aktyorudur, ancaq Rauf («Ümid»), Spuriy Tit Mamma («Böyük Romul») kimi dramatik, Cəmil («Unuda bilmirəm»), Bodenşdedt («Mirzə Şəfi») səpkili psixoloji rollar da oynayıb.

Yüksək səhnə mədəniyyətli aktyordur, daxilən zadəganlığı var. Güclü səhnə plastikasına, ekssentrik hərəkətlər toplusuna, xalq gülüş estetikasının çoxqatlı yumoruna, həssas səhnə diqqətinə, potensial hafizə yaddaşına malik sənətkardır. Məşq prosesində çalışqanlığı, tapdığı tipik ifadə vasitələrini cəsarətlə sınaqdan çıxarması ilə seçilir. Hazırda həm Akademik Milli Dram Teatrının yüksək dərəcəli aktyoru, həm də «İlham» Miniatür Teatrının rəhbəridir.

İlham Namiq Kamal oğlu Əhmədov 9 yanvar 1949-cu ildə Bakıda doğulub. Buradakı 31 saylı orta məktəbi 1966-cı ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnsti-

tutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. SSRİ Xalq artisti Ədil İsgəndərovun və Azərbaycanın Xalq artisti Rza Təhmasibin kursunda təhsil alıb. Tələbə vaxtı fransız ədibi Jan Batist Molyerin «Jorj Danden» satirik komediyasının tamaşasında baş qəhrəmanın rolunu uğurla oynayıb. Onu institutun Tədris teatrının aktyor truppasına qəbul ediblər (16 dekabr 1968). Bu kollektivdə Mirzə Cavad («Aydın», Cəfər Cabbarlı), Şvester («Meteor», Fridrix Dürrenmatt), Lomov («Elçilik», Anton Çexov), Rekrutçu («Sahildə bir ev», Stefan Sveyq), Baş katib («Sehrli kreslo», Friteş Korinti), Molla Səbzəli («Üləma məclisi», Mirzə Ələkbər Sabirin şeirləri əsasında) rollarını oynayıb.

O, 1971-ci il noyabrın 25-dən 1972-ci il fevral ayının 2-dək Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyor truppasında olub. Fevral ayının 3-dən Akademik Milli Dram Teatrında aktyor işləyib. 20 mart 1989-cu ildə istedadlı gənc rejissor Hüseynağa Atakişiyevin təşkil etdiyi Gənclər Teatrında aktyorluğa başlayıb. Bu kollektiv 26 yanvar 1993-cü ildən Azərbaycan Dövlət Gənclər Teatrı kimi fəaliyyət göstərir. İlham Namiq Kamal bu gənc kollektivin səhnəsində dörd il çalışıb. Burada Stanislav Stratiyevin «Çarəsiz sərnişinlər» (Məsuliyyətsiz), Rəhman Əlizadənin «Dadaşbala əməliyyatı» (Dadaşbala), İsi Məlikzadənin «Sultanqulu körpüsü» (Sultanqulu), Rober Tomanın «Arvadımın qatili» (Daniel), Vaqif Səmədoğlunun «Dağ tikirik» (Kələntər), Georgi Xuqayevin «Arvadımın əri özüməm» (Kazbek) pyeslərinin səhnə təfsirində, «Gül, sevin, gül» (müxtəlif sifət-maskalar) şou-tamaşasında baş rolları ifa edib.

Dövlət Gənclər Teatrında işləməklə yanaşı, eyni zamanda 1989–1991-ci illərdə paralel olaraq, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyorluq edib. Bu teatrda dramaturq Georgi Xuqayevin və bəstəkar Eldar Mansurovun «Sevgilimin anası və yaxud evlənmə əhvalatı» (Albadam), Cahangir Aslan-

oğlu və Həsənağa Qurbanovun «Qarğa, məndə qoz var» (Adil, Farmazon, Aşıq, Professor və Əyyaş), rus bölməsində Eduardo de Filippo və Fərəc Qarayevin «Fulimeno Marturano» (Dominesko Soriano) musiqili komediyalarında oynayıb.

1993-cü il iyun ayının 14-də bu truppadan çıxıb və özünün «İlham» Miniatür Teatrını yaradıb. Direktor və bədii rəhbər olduğu həmin özəl teatrda həm quruluşçu rejissor, həm də aktyor kimi çıxış edib. Burada hazırlanan bütün tamaşaların quruluşçu rejissoru olub və bunların əksəriyyətində baş rolları özü oynayıb. Həmin rollar şəbəkəsinin mənzərəsi belədir: Dərviş Məstəlişah («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), İlham, Novruz, Bayram («İlhamın sərgüzəştləri», «Novruz» və «Xan-xan oyunu», Rafiq Səməndər), Məcnun, Mixaylo, Balaş, Koroğlu, Şeyx Nəsrulla və sair («Yubileysayağı məsxərə, yaxud kiçik toy», Rafiq Səməndər), Don Kixot, Molla, Bakir («Don Kixot Abşeronski», «Dünyanın axırı» və «Bəxtimin kələyi», Rəhman Əlizadə), Əvəz («Əl əli yuyar...», Anar), Namizəd («Şifonerdə eşq-məhəbbət», Cahangir Aslanoğlu), Şahvülüd («Qulaq», Ramiz Əkbər), Sənətkar («Müasir toy», Miryusif Mirnəsiroğlu).

Bu tamaşalarla yanaşı, özü oynamadığı Rafiq Səməndərin «Şaxta babalar və Qar qız», «Meşədə yeni il şənliyi», «Baş sındıran məsələ» nağıl-tamaşalarına səhnə həyatı verib.

İlham Namiq Kamal 20 oktyabr 1998-ci ildən 2006-cı ilin sonlarına kimi, həmçinin Akademik Milli Dram Teatrının yüksək dərəcəli aktyoru olub. Müəyyən fasilədən sonra truppaya qayıdan aktyorun bu kollektivdə ilk rolu Mirzə Fətəli Axundzadənin «Sərgüzəşti-vəziri-xani-Lənkəran» («Lənkəran xanının vəziri») tamaşasında Xan rolu olub. Sonra o, repertuarda olan Elçinin «Mənim ərim dəlidir» («Diaqnoz» «D»), Hidayət Orucovun «Bu dünyanın adamları» pyeslərinin tamaşalarında baş rollar Kişi və Zaman müəllim obrazlarına təzə ifaçı kimi daxil edilib.

İlham Namiq Kamal Akademik Milli Dram Teatrında hazır tamaşalardakı müəyyən rollara sonradan daxil edilməkdən əlavə, kollektivin hazırladığı otuzdan çox təzə tamaşada müxtəlif səpkili rollar oynamışdır.

Dram əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Alman zabiti və Alman oğlu («İnsan», Səməd Vurğun), Mühakim («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı romanı üzrə Tofiq Kazımovun işləməsi), Qubad («Bağlardan gələn səs», İlyas Əfəndiyev), Səfər («Əks-səda», Nəbi Xəzri), Rauf («Ümid», Maqsud İbrahimbəyov), Adrian («Fırtına», Uilyam Şekspir), İkinci kamerdiner («Məkr və məhəbbət», Fridrix Şiller), Fotoqraf («Şöhrət və ya unudulan adam», Nazim Hikmət).

Komediya və satirik janrlı pyeslərin tamaşalarında ifa etdiyi səhnə surətləri: Müsyö Jordan və Dərviş Məstəlişah «(Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Camal («Nişanlı qız», Sabit Rəhman), Batı və Rəhim Dadaşoviç («Qəribə oğlan», İlyas Əfəndiyev), Lağlağı, Tarik Tərlan («Sizi deyib gəlmişəm...» və «Adamın adamı», Anar), Pedro («Don Juan, yaxud bəşərin komediyası», Mirzə İbrahimov), Gülən adam («Hərənin öz payı...» Xeyrəddin Qoca), Narçın («Qanlı Nigar», Sadıq Şəndil), Cokan Yemelyan («Daşqın», Anatoli Safronov).

Müxtəlif janrlı əsərlərdə oynadığı komik səciyyəli personajlar: Hacı Mədinə («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Kinto («Knyaz», Hüseyn Cavid), Təlxək və Şeyx Alı («Vaqif», Səməd Vurğun), Qulaməli («Közərən ocaqlar», Mirzə İbrahimov), İran şahzadəsi («Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), Firuz («Şəhərin yay günləri», Anar), Canəli («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Feyzulla («Quşu uçan budaqlar», Əkrəm Əylisli), Əsgərov («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Fərrux («Günah», Rəhman Əlizadə), Çəkməçi («Karıxmış sultan», Taufiq əl Hakimi).

İlham Namiq Kamal hazırda Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyorudur.

Aktyor «Azərbaycanfilm»in istehsal etdiyi ekran əsərlərinə də çəkilmişdir. Onun «Qayınana» (İlqar), ikiseriyalı «Qəribə adam» (Əbdürrəhman), «Arvadım mənim, uşaqlarım mənim» (MİS müdiri), «Uzun ömrün akkordları» (Jurnalist), «Qızıl qaz» (Əli), «Bəyin oğurlanması» (Anar) filmlərindəki rolları daha sanballı və koloritlidir. O, onlarca televiziya verilişində satirik obrazlarda, Mozalan satirik kinojurnalında yüzə yaxın bədii süjetdə çəkildiyi surətlərdə böyük yaradıcılıq səyi ilə çıxış edib.

Teatr və kino aktyoru kimi məşhur olan İlham Namiq Kamal Azərbaycan Dövlət Televiziyasının müxtəlif əyləncəli, musiqili proqramlarının əsas aparıcılarından olub. Onun oynadığı Altay Məmmədovun «Kişilər» (Hüseyn Ağbacı), Karlo Haldoninin «Mehmanxana sahibəsi» (Markiz), İslam Səfərlinin «Göz həkimi» (Talıbov), Anarın «Evləri köndələn yar» (Paşa Paşayeviç), Anton Çexovun «Yubiley» (Şipuçin), Rəhman Əlizadənin «Həmişə təmizlikdə» (Alim, İxtiraçı, Anbardar, Əyyaş, Fırıldaqçı, Gözəl xanım, Milis, Körpə), Aqşin Babayevin «Nekroloq» (Sadıqov), Rüfət Əhmədzadənin «Bu mənəm, mən deyiləm?», «Onu yazma», «Yumoristik parodiyalar» silsiləsində (Aparıcı tiplər), Cahangir Aslanoğlunun «Mənim tanışlarım» (tiplər) monoloqlarının, Bernard Şounun «Kənd elçiliyi (Kişi), Nikolay Qoqolun «Evlənmə» (Podkolyosin) pyeslərinin tamaşaları Dövlət Televiziyasının daimi fondunda saxlanılır. Mailə Muradxanlının «İlhamın sərgüzəştləri», Rəhman Əlizadənin «Həmişə təmizlikdə», Hüseynağa Atakişiyevin «Benefis» adlı əyləncəli proqramları aktyorun şərəfinə çəkilib, çox populyardır və vaxtaşırı nümayiş etdirilir.

İlham Namiq Kamal oğlu Əhmədov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 24 dekabr 2002-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

O, bir neçə ildir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti musiqili komediya aktyorluğu kafedrasının müdiridir.

Mərahim Fərzəlibəyov
(26 iyun 1949)



Yaradıcılıq bioqrafiyasında altmışa yaxın tamaşa var. Geniş fantaziyalı rejissordur. Əlvan kompozisiyalar qurmaqda məxsusi səriştəsi var. Janr əlvanlığına meyili güclüdür və buna görə də mövzuca biri-birindən fərqli, təzadlı süjet, kompozisiya, konflikt, ideya qurumlu pyeslərə müraciət edir.

Mərahim Fərzəli oğlu Fərzəlibəyov 26 iyun 1949-cu ildə Bakıda doğulub. Şəhərdəki 56 saylı orta məktəbi bitirib. Səhnəyə onuncu sinifdən maraq göstərib. 26-lar adına Mədəniyyət sarayının xalq teatrında hazırlanan tamaşalarda epizod rollar oynayıb. Ancaq, əsasən, rejissor sənətinə maraq göstərib. Orta məktəbi bitirəndən sonra Azərbaycan Respublikası Jurnalistlər İttifaqının yaradıcılıq fotostudiyasında şagird-laborant, Suraxanı rayon Mədəniyyət evində kinomexanik köməkçisi, 26-lar Mədəniyyət sarayında «Şəfəq» pioner dram dərnəyinin rəhbəri işləyib.

Az və həvəskar səviyyəsində olsa da, müəyyən təcrübə toplayan Mərahim Fərzəlibəyov ali təhsil almaq üçün Leninqrada (indiki Sankt-Peterburq şəhəri) gedib. Burada Dövlət Teatr, Musiqi, Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsinə daxil olub. İxtisas müəllimi dünya şöhrətli rejissor, SSRİ Xalq artisti, professor Georgi Tovstonoqovdan beş il (1970 – 1975) seçdiyi

ixtisasın incəliklərini öyrənib. Diplom işi kimi Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rus bölməsində dramaturq Maykl Stüartın və bəstəkar Cerri Germanın «Hello, Doli» müzikl-operettasını tamaşaya hazırlayıb. Bundan sonra isə bütün yaradıcılığı boyu bir daha operetta janrına müraciət etməyib, yalnız dram teatrında tamaşalar hazırlayıb.

İnstitutda təhsilini başa vuranda Mərahim Fərzəlibəyovun təyinatını Çeçenistan Muxtar Respublikasının paytaxtı Qroznı şəhərindəki Mixail Lermontov adına Dövlət Rus Dram Teatrına veriblər. O, mövcud təyinat qaydasına əsasən iki il bu teatrda quruluşçu rejissor işləyib (16 noyabr 1975 – 18 avqust 1977). Bu təcrübəli kollektivdə Tennessi Uilyamsın «Arzu tramvayı» dramına, Jan Batist Molyerin «Tartüf» komediyasına, Boris Vasilyevin «Qış gecəsinin nağılı» pyesinə, Alla Sokolovanın «Faryatevin fantaziyası» psixoloji tragikomediyasına, Yevgeni Sefip və Nikolay Novitskinin «Yegelyanın səadəti», uşaqlar üçün Sergey Mixalkovun «Lovğa dovşan» nağılına maraqlı səhnə quruluşları verib.

Mərahim Fərzəlibəyov Sumqayıt Dövlət Dram Teatrında baş rejissor (1 noyabr 1977 – 9 mart 1981) işlədiyi illərdə gənc kollektivin yaradıcılıq işlərində, janr və üslub axtarışlarında səmərəli reformalar apara bilib. Bu teatra özü ilə bərabər yeni janrlar, təzə və orijinal kompozisiya, dil-ifadə, bədii təfsir prinsipləri gətirib. Dörd il ərzində sənət ocağının repertuar quruluşuna əlvanlıq, canlılıq, mövzu rəngarəngliyi verə bilib. Bir sıra aktyorun «gizli» yaradıcılıq imkanlarının genişliyi, məlahət və cazibəsi, xarakterik səciyyələri məhz Mərahim Fərzəlibəyovun Sumqayıt teatrında bitkin quruluşlar verdiyi aşağıdakı tamaşalarda açılıb:

1977, 22 noyabr. «Poladəridənlər», Gennadi Bokarev. Tərcümə edəni Mahmud Allahverdiyev.

1977, 7 dekabr. «Sərbəst mövzu», Aleksandr Çxeidze. Tərcümə edəni Rafiq Atakişiyev.

1977, 17 dekabr. «Mən nəyə evlənirəm», Hüseyn Muxtarov. Tərcümə edəni İnqilab Kərimov.

1977, 30 dekabr. «Lovğa dovşan», Sergey Mixalkov. Tərcümə edəni Mərahim Fərzəlibəyov (Azərbaycan və rus dillərində).

1978, 16 fevral. «Məktub», Panço Pançev. (Rejissor Salman Dadaşovla birlikdə). Tərcümə edəni Teymur Elçin.

1978, 22 aprel. «Maskarad», Mixail Lermontov. Tərcümə edəni Rəsul Rza.

1978, 31 may. «Vəfalı Səriyyə», Cəfər Cabbarlı.

1978, 18 noyabr. «İlahi komediya», İsidor Ştok. Tərcümə edəni Anar.

1979, 13 mart. «Mehrişah», Oqtay Məmmədov.

1979, 16 may. «Toy şənbə günü olacaq», Maksim Kərimov. Tərcümə edəni İshaq İbrahimov.

1980, 22 mart. «Ayıl, bax bu dünyaya», Hacıbaba Nəzərli.

1980, 27 iyun. «Muradın kələkləri», Tofiq Kazımov.

1981, 23 fevral. «Bütün Şərq bilsin», Nəriman Həsənzadə.

1986, 22 mart. «Mənim arxalandığım», Nəbi Xəzri.

Sumqayıt teatrında «Bütün Şərq bilsin» tamaşasına quruluş verəndən on altı gün sonra Mərahim Fərzəlibəyov Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına rejissor təyin olunub (9 mart 1981). Kollektivin məhsuldar rejissorlarından biri kimi, əsasən, çağdaş dramaturqlarımızın, həmçinin dünya klassiklərinin əsərlərinə müxtəlif janrlarda səhnə quruluşları verib.

1981, 2 sentyabr. «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev.

1981, 19 noyabr. «Maqbet», Uilyam Şekspir. Tərcümə edəni Abdulla Şaiq.

1982, 15 may. «Sizi deyib gəlmişəm...», Anar.

1982, 31 may. «Medeya», Jan Anuy. Tərcümə edəni Natiq Səfərov (Kiçik səhnədə).

1982, 30 dekabr. «Közərən ocaqlar», Mirzə İbrahimov.

1983, 24 dekabr. «Atabəylər», Nəriman Həsənzadə.

1984, 15 sentyabr. «Qarabağ əfsanəsi», Qeybulla Rəsulov.

1985, 30 mart. «Torpağa sancılan qılınc», Nəbi Xəzri.

1985, 12 oktyabr. «Təhminə və Zaur», Anar.

1986, 30 dekabr. «Şeyx Xiyabani», İlyas Əfəndiyev.

1987, 10 sentyabr. «Mənsiz dünya», Nəbi Xəzri.

1988, 9 aprel. «Bizim qəribə taleyimiz», İlyas Əfəndiyev.

1988, 6 noyabr. «Qadın faciəsi», Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin.

1989, 21 aprel. «Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev.

1989, 30 sentyabr. «Gecə döyülən qapılar», Nəbi Xəzri.

1991, 26 fevral. «Yalan», Sabit Rəhman.

1991, 6 mart. «Tənha iydə ağacı», İlyas Əfəndiyev.

1991, 24 dekabr. «Dişi canavar», Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin.

1992, 30 iyun. «Ox, qadınlar, qadınlar», Marat Haqverdiyev.

1992, 9 noyabr. «Dəlilər və ağıllılar», İlyas Əfəndiyev.

1993, 24 may. «Qısqanc ürəklər», Marat Haqverdiyev.

1995, 8 aprel. «Dindirir əsr bizi...», Davud Aslan.

1996, 15 dekabr. «Hökmdar və qızı», İlyas Əfəndiyev.

1999, 9 aprel. «Sokratı anma gecəsi» («Eşşək dərisi üzərində məhkəmə»), Çingiz Aytmatov və Muxtar Şahanov. Tərcümə edəni Dilsuz Mustafayev.

2000, 14 may. «Bu dünyanın adamları», Hidayət Orucov.

2002, 7 iyul. «Fedra» Jan Rasin. Tərcümə edəni Rafiq Rəhimli.

2002, 14 dekabr. «Hərənin öz payı», Xeyrəddin Qoca.

2004, 3 aprel. «Ölülər», Cəlil Məmmədquluzadə

2005, 19 fevral. «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev.

2006, 3 noyabr. «Füzuli və Əsmər», Mir Mehdi Seyidzadə.

2007, 15 mart. «İmzanın hökmü», Tofiq Kazımov.

2007, 23 oktyabr. «Körpüdən mənzərə», Artur Miller. Tərcümə edəni Şaiq Cabiroğlu.

2009, 16 aprel. «Şeyda», Hüseyn Cavid.

Rejissor Mərahim Fərzəlibəyov dəvətlə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nəriman Həsənzadənin «Pompeyin Qafqaza yürüşü» və «Atabəylər», Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Marat Haqverdiyevin «Məhəbbət, şeytan və lambada» (8 iyun 1991) və «Ləyaqət» (19 mart 1982), Sumqayıt Dövlət Dram Teatrında İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» (5 aprel 2012) pyeslərini tamaşaya hazırlayıb. 1980-ci illərin əvvəllərində Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının nəzdində Kino-Aktyor Teatrı truppası fəaliyyət göstərirdi. Həmin kollektiv Mərahim Fərzəlibəyovun quruluşunda Məmməd Muradın «Təkan» («Köksüz budaqlar»), Tofiq Kazımovun tərcüməsində Qarsia Lorkanın «Qanlı toy», Qeybulla Rəsulovun çevirməsində Aleksandr Nikitinin «Abşeronda bir gecə» pyeslərinin tamaşalarını oynayıb.

Mərahim Fərzəlibəyovun hazırladığı tamaşalar kompozisiya bütövlüyü və forma orijinallığı ilə diqqəti cəlb edir.

Mərahim Fərzəlibəyov öz tamaşalarında çarpaz və qarışıq mizanlara üstünlük verir. Onun mizanları poetik hüsnü və məna yükü daşıması ilə seçilir.

Mərahim Fərzəlibəyov bir rejissor kimi monumental səhnə əsərlərində «aktyor tamaşası» yaratmağa üstünlük verir. Onun quruluşları ifadə vasitələrinin zənginliyi ilə yadda qalır.

Mərahim Fərzəlibəyov Akademik Milli Dram Teatrında baş rejissor işləyib (12 yanvar 2006 – 13 may 2010). Teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə, rejissorluqda qazandığı nailiyyətlərə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 28 oktyabr 2000-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub.



Yaşar Nuriyev
(3.9.1951 – 22.11.2012)

Görkəmli komediya aktyorudur, ancaq psixoloji və dramatik rollar da oynayıb. «Yaşar Nuri» imzası ilə də çoxlu səhnə obrazları var. Atası Məmmədsadıq Nuriyev Musiqili Komediya Teatrının məşhur aktyorlarından olub.

Yaşar Nuriyev səhnədə yöndaşları ilə çox səmimi, səsi, görünüşü ürəyəyatan idi. Davranışı qılıqlıydı. Onun səmimiyyəti ifa etdiyi səhnə obrazını tamaşa anlamından «çıxarır», onu seyrçinin həmsöhbəti, həmdərdi və yaxud mübahisə yöndaşı edirdi. Xarakterə həyatilik, dərinlik, estetik təravət, psixoloji genişlik, dramatik aydınlıq verirdi. Onun səmimiyyəti səhnə ilə tamaşaçı salonu arasındakı «dördüncü» divarı götürür və seyrçi həm hadisələrlə, həm də ifaçının özü ilə bilavasitə ünsiyyətdə olurdu. Üstəlik bu səmimiyyət tamaşaçını aktyora qarşı diqqətcil, ünsiyyətli, rəğbətli, hüsn-təravətli və həssas olmağa kökləyirdi. Yaşar Nuriyev, geniş mənada, bu keyfiyyətlərin hamısını illər boyu sənətkar müdrikliyi, ustad fəhmi ilə cilalayıb, formalaşdırıb, özünəməxsus estetik prinsiplərini müəyyənləşdirib. Teatrdan əlavə, kinoda və televiziyada da bu estetik göstəriciləri həmin sənətlərin poetika xüsusiyyətlərinə uyğun tərzdə yaradıcılıq meyarına çevirib.

Yaşar Nuriyev heç bir teatr, kino, televiziya rolunda özünü «gizlətmir». Biz səhnədə, ekranda və efirdə, ilk növbədə, aktyor Yaşarı görürük. O, dinamik ritmlə, ancaq psixoloji ahənglə, yumorlu pillələrlə obrazı ətə-qana doldurur, onun əsərdəki sosial-ictimai tutumunu, fərdi-psixoloji portretini cızır. Özü dəyiş-

mədən obrazda dəyişmək peşəkarlığın ən yüksək zirvələrindən biridir. Sənətkar Yaşar Nuriyev bu əzəmətli zirvəni möhtəşəm sənət qələbələri ilə çoxdan fəth etmişdi.

Yaşar Məmmədsadıq oğlu Nuriyev 1951-ci il sentyabr ayının 3-də Bakıda doğulub. 173 saylı məktəbdə oxuyub və oranı bitirib. Hələ məktəbli ikən atasının işlədiyi Musiqili Komediya Teatrında dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağası Məşədibəyovun «Toy kimindir?» musiqili komediya tamaşasında Qoşunun oğlu Tapdıq rolunda səhnəyə çıxıb. Dövlət Televiziyasının «Yelkən» və məktəblilərə həsr olunan digər verilişlərində iştirak edib və şagird-aktyor kimi məşhurlaşıb. Müxtəlif dram dərnəklərinə gedib.

Orta məktəbi bitirən Yaşar Nuriyev 1968-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Kurs rəhbərləri, tanınmış səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq sənətinin incəliklərini öyrənib.

1972-ci ilin iyul ayında Aleksandr Ostrovskinin «Günahsız müqəssirlər» dramında Neznamov roluna görə ali təhsilini əla qiymətlə başa vuran gənc aktyor noyabr ayında hərbi xidmətə çağırılıb. Bir il orduda olub və qayıdaraq İncəsənət İnstitutunun Tədris teatrına aktyor götürülüb. Burada İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən» (Fərəcov), Jan Batist Molyerin «Skapenin kələkləri» (Jeront), Cəfər Cabbarlının «Aydın» (Mirzə Cavad) pyeslərinin tamaşalarında çıxış edib.

1974-cü il dekabr ayının 1-də Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun dəvəti ilə bu kollektivin aktyor truppasına qəbul olunub. Elə həmin gündən də Aleksandr Vampilovun «Övlad» («Böyük oğul») pyesinin məşqlərində Silva rolunu hazırlamağa başlayıb. Rejissoru Tofiq Kazımov olan tamaşanın premyerası 1974-cü il dekabrın 28-də göstərilib. Yaşar Nuriyevin debütü çox uğurlu olub və tezliklə o, teatrın aparıcı aktyorları sırasında özünə layiqli yer tutub.

Yaşar Nuriyev Milli Dram Teatrında işlədiyi gündən indiyədək, demək olar, hər il azı bir və ya bir neçə təzə rolla özünün yaradıcılıq ömürçəsini zənginləşdirib.

Klassik Azərbaycan dramaturqlarının əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Qulaməli, Vəzir Mirzə Həbib («Müsyö Jordan və Dərviş Məstəlişah» və «Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Hacı Həsən ağa və Məşədi Oruc, Sərsəm Salman («Ölülər» və «Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Xandəmir («Afət», Hüseyn Cavid), Əbdüləli bəy, Altunbay («Sevil» və «Od gəlini», Cəfər Cabbarlı), Kürd Musa («Vaqif», Səməd Vurğun).

Çağdaş milli ədiblərimizin dramlarının tamaşalarında oynadığı surətlər: Saleh («Yalan», Sabit Rəhman), Sqanare, Alışov («Don Juan, yaxud bəşərin komediyası» və «Kəndçi qızı», Mirzə İbrahimov), Pərviz, Bayandur, Davud («Bağlardan gələn səs», «Büllur sarayda» və «Bizim qəribə taleyimiz», İlyas Əfəndiyev), Səlim, Cığatay, Rəhman, Şahbaz, Gülağa («Yollara iz düşür», «Yağışdan sonra», «Fəryad», «Hara gedir bu dünya?» və «Rəqabət», Bəxtiyar Vahabzadə), Qurbanqulu («Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Namiq Həfçi, Məlik, Molla Nəsrəddin, Polkovnik Əmir («Şəhərin yay günləri», «Adamın adamı», «Sizi deyib gəlmişəm...» və «Səhra yuxuları», Anar), Qasım («Quşu uçan budaqlar», Əkrəm Əylisli), Milan («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Ağasəfa («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Şahməmməd («Gülüstanda qətl», Cəmil Əlibəyov), Ziyad, Simran («Məhəbbət yaşadır» və «Qisas qiyamətə qalmaz», Nahid Hacızadə), Mikayılov («Tufandan əvvəl», Arif Süleymanov), İsgəndərzadə, Şöbə müdiri, Polis («Ah, Paris... Paris!..», «Mənim sevimli dəlim» və «Qatil», Elçin), Yoldaş Əmrah «Bu dünyanın adamları», Hidayət Orucov), Xanəhməd («Qızıl teşt», Seyran Səxavət), Böyükağa («Günah», Rəhman Əlizadə), Seyidbala Rəhimov («Qısqanc ürəklər»,

Marat Haqverdiyev), Qaraqoyunlu ata («Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli), Ağamusa Nağıyev («Mesenat», Əli Əmirli), Qoca («Min illərin işığı», Kamil Abdullayev), Qazı («İmzanın hökmü», Tofiq Kazımov), Nəcəf («Brüsseldən məktublar», Həsən Həsənov-Əzizoğlu), Kürən» (Xəcalət», Hüseynbala Mirələmov), Kommunist partiyasının lideri («Hərənin öz payı», Xeyrəddin Qoca).

Əcnəbi müəlliflərin pyeslərinin tamaşalarında çıxış etdiyi bədii personajlar: Birinci məzarçı («Hamlet», Uilyam Şekspir), Aktyor («Həyatın dibində», Maksim Qorki), Odakar («Böyük Romul», Fridrix Dürrenmatt), Meyxanaçı («Karıxmış sultan», Taufiq əl Hakimi), Conatan Piçem («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Sərsəri («Kəllə», Nazim Hikmət), Eduard («Yad adam», Leonqard Frank), Abdi («Qanlı Nigar», Sadıq Şendil), Tanrıqut («Sokratı anma gecəsi», Çingiz Aytmatov və Muxtar Şahanov), Silva («Övlad», Aleksandr Vampilov).

Teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuriyev həm də məşhur kino ustasıdır. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Hətta Vaqif Mustafayevin çəkdiyi «Yaramaz» bədii filmindəki Maşallah roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır. Onun çoxlu ekran obrazları arasında Seyran («Dörd bazar günü»), Eldar («Ad günü»), Səməd («Şir evdən getdi»), Rauf («Mezozoy əhvalatı»), Cəmil («Bizi dağlarda axtarın»), Həkim («Bayquş oxuyur»), Əjdər («Od içində»), İsrafil («Bəyin oğurlanması»), Qubad («Tənha narın nağılı), Bəhram («Qışda xəzan yarpaqları»), Kiçik div («Məlik Məmməd»), Makintoj («Yol hadisəsi»), Kişi («Sürəyya»), Arif («Cin mikrorayonda»), Nazimzadə («Şeytan göz qabağında»), Kərbalayı Cəfər («Qəm pəncərəsi»), Mahmud («Qətl günü»), Oğulbala («Lətifə»), Mafioz («Gecə qatarında qətl»), Əbdülqəni («Hər şey yaxşılığa doğru»), Mərahim («Fransız»), Həkim Asif («Gözəl, gözəl, gözəl dünya»), Əbdülqəni («Milli bomba») rollarını

tamaşaçılar daha rəğbətlə qarşılayıblar. O, «Mozalan» satirik kinojurnalının iyirmiyə yaxın bədii süjetinə çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. «Bir aktyorun teatrı» janrında müxtəlif satira ustalarının əsərləri əsasında işlənmiş kompozisiyada xeyli lent yazıları var. Onun, əsasən, baş rolları ifa etdiyi Ruhəngiz Qasımovanın «Qonşu, qonşu olsa...» (on bir müxtəlif tip), «Yollar görüşəndə» (Yaşar), İsi Məlikzadənin «Qatarda» (Dadaşov), Anarın «Evləri köndələn yar» (Surxayzadə), Mövlud Süleymanlının «Kökdən düşmüş piano» (Nəriman), «Fatehlərin divanı» (Sərsəri şair), Hüseyn Cavidin «Topal Teymur» (Cücə), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordan-burdan» (Fotoqraf Əli bəy), Mehdi Hüseynin «Alov» (Bədəl), Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Nəcəf dayı), Anatoli Dudarevin «Astana» (Andrey Buslay), Andrey Pisarevin «Nə tökərsən aşına...» (Keşiş), Altay Məmmədovun «Kişilər» (Göyüş), Aslan Qəhrəmanovun «Bağışla», «Səni axtarıram» və «Səndən xəbərsiz» (Elçin) trilogiyası, Seyfəddin Dağlının «Sabiqlər» (Milis rəisi), Məcnun Vahidovun «Yarımştat» (Muxtar), Salam Qədirzadənin «Mən və mən» (müxtəlif satirik personajlar), Cəlil Məmmədquluzadənin hekayələri əsasında Anarın «Nigarançılıq» (Qurbanəli bəy)... əsərlərinin teletamaşaları televiziyanın fondunda daimi sənət nümunələri kimi qorunur.

Teatr sənətində böyük uğurlarına görə Yaşar Nuriyev Azərbaycan Respublikası Lenin komsomolu (1984), «Qızıl Dərviş» (1992 və 1996) mükafatları laureatıdır. Səhnədə və ekranda yaratdığı parlaq obrazlara görə 1 dekabr 1981-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1 mart 1989-cu ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Yaşar Nuriyev görkəmcə ortaboylu idi. Ancaq səmimiyyəti sirayətedici olduğuna görə səhnədəki hadisələrin, hətta ən

mürəkkəb psixoloji ovqatlarını həssaslıqla duyduğu, onu öz oyununda böyük istedadla təcəssüm etdirdiyi üçün və üstəgəl səhnədə son dərəcə yaradıcı sərbəstliklə davranmağa qadirliyi baxımından tamaşaçı salonundan əzəmətli görünürdü.

Əzəmətli aktyor idi və bu əzəmətin mayasında yaradıcı istedad, axtarışlarının təkamülü durduğuna görə o, ən böyük səhnə və ekran boşluğunu təkbaşına doldura bilirdi.

Cəsarətli aktyor idi. Qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik, qroteskli, karnaval estetikasına uyğun obrazların ifasına qətiyyətlə girişirdi. Həssas musiqi duyumu, səsinin şirinliyi, daxili ritmi bütün kəskin dəyişmə məqamlarında saxlamaq bacarığı bu cəsarətin yaradıcılıq kəhkəşanında geniş qanad açmasını təminatlandırırdı. Cəsarət, aktyorun istedadının bir keyfiyyəti kimi, estetik təcəssüm tapırdı.

Yaşar Nuriyev iştirak etdiyi tamaşalarda rejissorun əsər üçün müəyyənləşdirdiyi ali məqsədi və ideya yönümünü öz oyununda mütləq bədii bitkinliklə realizə edirdi. Eyni zamanda öz obrazını sənətkarın yaradıcılıq məhsulu kimi formalaşdırıb parlaq bədii ifadə vasitələri ilə təcəssüm etdirirdi.

Yaşar Nuriyevin böyük sənət qələbələri həmişə mübahisəsiz, tərəddüdsüz qəbul olunurdu. Bunun kökündə güclü istedad nəhri dursa da, sənətkarın qələbəsi əsas enerji qüdrətini və çevikliyini, aktyorun cazibəli, yapışıqlı səhnə məlahətindən alırdı.

Yaşar Nuriyev bir aktyor kimi nadir və heyrətamiz emosionallığa malik idi. Bu emosionallıq onun həssas aktyor duyumu ilə ahəngdar vəhdətdə olurdu.

Yaşar Nuriyev canlı, təravətli, dinamik, dadlı-tamlı, nikbin, həyatsevər, zəhmətkeş, ən əsası isə tamaşaçıların böyük rəğbətini qazanmış, intizarında olduqları sənətçi kimi yadda qalıb.

Aktyor uzun sürən xəstəlikdən sonra 2012-ci il noyabr ayının 22-də Bakıda vəfat edib. Məzarı İkinci Fəxri xiyabandadır.

Telman Adıgözəlov
(17.7.1953 – 15.4.2010)

Milli xalq-oyun tamaşalarının tərzinə estetik prinsiplərinə əsaslanan, məzhəkə və məsxərə ifadə vasitələrindən şirələnən fərdi oyun ifadələrinə malik aktyor idi. Şirəli və təbii, dadlı-duzlu, ifadəli və əlvan, cazibəli və ürəkoxşayan yumoru oynadığı rollara səhnədə emosional təravət, dinamik coşqunluq, estetik vüsət verirdi. Sadə, ancaq mənalı, tipik və xarakterik ştrixlərdən oynadığı obrazların xarakterlərinə uyğun tərzdə məharətlə istifadə edirdi. Zərif və çoxmənalı, aydın və məna tutumlu plastikası vardı. Qroteskli, məsxərəli epizodlarda yüksək improvizə bacarığı göstərə bilirdi.

Telman Abbasqulu oğlu Adıgözəlov 17 iyul 1953-cü ildə Balakən rayonunda doğulub. İbtidai sinifləri orada oxuyub və ailəsi Bakıya köçdüyünə görə paytaxtdakı 7 saylı məktəbi bitirib. Orta məktəbin yeddinci sinfindən Azərbaycan Dövlət Televiziyasının «Yasəmən» televiziya teatrında və digər uşaq verilişlərində çıxışlar etməyə başlayıb. Eyni zamanda burada populyarlıq qazanandan sonra «Azərbaycanfilm» kinostudiyasının nəzdində qüdrətli teatr xadimi Ədil İsgəndərovun rəhbərlik etdiyi üçillik kino aktyorluğu kursunu bitirib. 1971 – 1975-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda kino aktyorluğu fakültəsində təhsil alıb. Kurs rəhbəri yenə Ədil İsgəndərov olub. Tələbə olarkən «Mən dəniz sahilində böyümüşəm» bədii filmində maraqlı rola çəkilib.

1975-ci ilin noyabrından 1976-cı ilin noyabrına kimi hərbi xidmətdə olub. Xidmətdən qayıtdıqdan sonra Bakının Zabrat qə-

səbəsindəki Mədəniyyət evinin xalq teatrına rəhbərlik edib. 1978-ci ildə İncəsənət İnstitutunun Tədris teatrının rəhbəri Vaqif İbrahimoğlunun (Həsənovun) təşəbbüsü ilə həmin kollektivə daxil olub. Burada Vaqif İbrahimoğlunun quruluş verdiyi, müxtəlif janrlarda hazırladığı Anarın «Qaravəlli» (Əvəz Əvəzov), Cəfər Cabbarlının «Yaylağa gedir» (Əhməd), Rəsul Rzanın şeirləri əsasında qurulmuş kompozisiyada «Güney-quzey» (Uşaq), Rəhman Əlizadənin «Diqqət, başlayırıq!» (Pinəçi) əsərlərinin tamaşalarında oynayıb.

Telman Adıgözəlov 22 sentyabr 1980-ci ildə Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul olunub. Fitri istedad sahibi olan aktyor bir-birindən fəqli rollara səhnə ömrü verib. Aktyorun faciə və dramatik janrlı tamaşalarda ifa etdiyi müxtəlif xarakterli rollar: Çingiz («Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə), Zəncirvuran («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Şeypurçu («İblis», Hüseyn Cavid), Təlxək («Vaqif», Səməd Vurğun), Xanəhməd («Közərən ocaqlar», Mirzə İbrahimov), Rəhman, Daşdəmir («Mahnı dağlarda qaldı» və «Xurşidbanu Natəvan» İlyas Əfəndiyev), Namiq, İkinci şahid («Şəhərin yay günləri» və «Səhra yuxuları», Anar), Abırlı («Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Flins («Maqbet», Uilyam Şekspir), Kabus və Alyoşka («Həyatın dibində», Maksim Qorki), Mixail («Gecənin sirri», Anatoli Safronov), Filaks («Böyük Romul», Fridrix Dürrenmatt), Xinko («Qızıldan qiymətli», Draqomir Asenov), Qumarbaz («Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz), Fəriş («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Murad («Səadət sorağında», Xalid Əlimirzəyev. Kiçik səhnədə).

Komediya tamaşalarında çıxış etdiyi səhnə obrazları: Dərviş Məstəlişah («Müsyö Jordan və Vərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Uçitel («Sizi deyib gəlmişəm...», Anar), Çeşməkli kişi («Nişanlı qız», Sabit Rəhman), Laz («Qanlı Nigar»,

Sadıq Şendil), Oyunbaz («Qədr gecəsi», Eldar Baxış), Əhməd («Ah, Paris... Paris!..», Elçin), Professor («Mənim sevimli dəlim», Elçin), Həkim Şəfa («İmzanın hökmü», Tofiq Kazımov), İlham pərisi («İlham pərisi», Cahan Əfruz. Kiçik səhnədə), Uoltet («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Levon («Şərqli diş həkimi», Akop Paronyan).

İstedadlı və populyar aktyor Telman Adıgözəlov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Vaqif Səmədoğlunun «Yaşıl eynəkli adam» (Aerobika müəllimi), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordan-burdan» (Rəqs müəllimi), Əhməd Orucoğlunun «Qonşular» (Səlim), Cəlil Məmmədquluzadənin hekayələri əsasında Anarın işlədiyi «Nigarançılıq» (Hüseyn), Məcnun Vahidovun «Yarımştat» (Zaman), Anarın «Evləri köndələn yar» (Kamil) əsərlərinin teletamaşalarında oynayıb.

«Azərbaycanfilm» kinostudiyasında «Dörd bazar günü» (Şamil), «Nəsimi» (Hürufi), «1001-ci qastrol» (Telman), «Üzü küləyə» (Murad), «Çətirimiz buludlardır» (Çoban), «Qırmızı qatar» (Oğlan), «Qurama» (Telman), «Mən dəniz sahilində böyümüşəm» (Kiçik qardaş) bədii filmlərinə çəkilib.

Telman Adıgözəlovun cazibəli səhnə görkəmi var idi. Aktyor bu cazibəni zərif, ifadəli və emosional plastika ilə daha da təravətləndirirdi.

Telman Adıgözəlov həm psixoloji, həm qapalı, həm də açıq yumor elementlərini ifa etdiyi obrazın xarakterinə uyğunlaşdırmağı bacarırdı.

Telman Adıgözəlov milli karnaval estetikasını dərindən bilirdi.

Telman Abbasqulu oğlu Adıgözəlov 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 16 may 2006-cı ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Aktyor 15 aprel 2010-cu ildə qəflətən vəfat edib. Məzarı Bakının Fatmayı kənd qəbiristanlığındadır.

Şükufə Yusupova
(30 may 1954)

Psixoloji teatr estetikasının prinsiplərində cəsarətli axtarışlar aparmağı xoşlayan aktrisadır. Zərif və lətafətli səhnə plastikası var. Səs imkanlarını məhdudlaşdıraraq oynadığı obrazı hərəkətlər kompleksi və əlvan sifət ifadələrinin toplusu ilə canlandırmağa üstünlük verir. Teatr ilə bərabər, kinoda da yaddaqalan rollar oynayıb, parlaq nailiyyətlər qazanıb.

Şükufə Mühəddin qızı Yusupova 1954-cü il may ayının 30-da Bakıda doğulub. Paytaxtın Səbayil rayonundakı 51 saylı orta məktəbi 1971-ci ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Görkəmli rejissor Mehdi Məmmədovun rəhbərlik etdiyi kursda oxuyan tələbə-aktrisa sənət müəlliminin 1 mart 1974-cü ildə Akademik Milli Dram Teatrında hazırladığı Səməd Vurğunun «İnsan» dramının tamaşasında Tatyana rolunu ifa edib. O, 1975-ci ildə institut təhsilini başa vuraraq bütün kursla birlikdə Şəki şəhərində uzun fasilədən sonra bərpa edilən Dövlət Dram Teatrının truppa heyətinə göndərilib. Ancaq gənc aktrisa həmin ərəfədə «Azərbaycanfilm» kinostudiyasında «Tütək səsi» və «Xoşbəxtliyin qiyməti» filmlərinə çəkildiyinə görə təyinatdan azad edilib. Akademik teatrın baş rejissoru Tofiq Kazımov premyerası 19 mart 1976-cı ildə göstərilən «Qılınc və qələm» (Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında özünün işləməsi) tamaşasını hazırlayanda Şükufə Yusupovanı Rəna roluna dəvət edib. Aktrisa 1976-cı il sentyabr ayının 1-dən Akademik Milli Dram Teatrına ştata

götürülüb. 2002-ci ilin sentyabrından o, teatrın truppasında müqavilə ilə çalışır.

Aktrisa Bakıda dramaturq Rüstəm İbrahimbəyovun təşkil etdiyi «İbrus» antrepriza teatrında «Şirəbənzər» (Rüstəm İbrahimbəyov) tamaşasında Solmaz rolunu Azərbaycan və rus dillərində oynayıb.

Şükufə Yusupova illərin ardıcıllığı ilə Akademik Milli Dram Teatrında aşağıda təqdim olunan rolları ifa edib. Milli dramaturqların müxtəlif janrlı əsərlərinin tamaşalarında oynadığı rollar: Şölə xanım («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Pırpız Sona («Dəli yığıncağı», Cəlil Məmmədquluzadə), Xavər («İblis», Hüseyn Cavid), Gülnar, Tatyana («Vaqif» və «İnsan», Səməd Vurğun), Rəna («Qılınc və qələm», Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi), Təhminə, Zara xanım, Sədaqət («Xurşidbanu Natəvan», «Bizim qəribə taleyimiz» və «Büllur sarayda», İlyas Əfəndiyev), Fatma («Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Sona Ərəblinskaya («Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı), Həmidə xanım, Süsən Sünbül («Sizi deyib gəlmişəm...» və «Adamın adamı», Anar), Qadın, Dayə («Qatil» və «Arılar arasında», Elçin), Mahirə («Vəkil neyləsin?..», Ramiz Fətəliyev), Müttəhimin arvadı, Radmila («İstintaq» və «Biganələr oteli», Rüstəm İbrahimbəyov), Cəmil («Quşu uçan budaqlar», Əkrəm Əylisli. Oğlan roludur), Sosialist əməyi qəhrəmanı («Qızıl teşt», Seyran Səxavət), Zəhra xanım («Köhnə ev», Əli Əmirli).

Tərcümə pyeslərinin səhnə təfsirində çıxış etdiyi səhnə obrazları: İkosta («Şah Edip, yaxud alın yazısı», yaxud «Şah Edip», Sofokl), Polye, Anna («Meşşanlar» və «Həyatın dibində», Maksim Qorki), Lüsi («Dəfn edilməmiş ölülər», Jan Pol Sartr), Qadın («Müəmmalı bir qətlin üç versiyası», Ryunesko Akutaqova), Laura («Şüşə heyvanxana», Tennessi Uilyams), Yuliya («Böyük Romul», Fridrix Dürrenmatt), Polli Piçem («Üç quruş-

luq opera», Bertolt Brext və Kurt Vayl), Anyuta («Daşqın», Anatoli Safronov), Qorxaq qadın («Kreml saatı», Nikolay Poqodin).

Aktrisa Azərbaycan Dövlət Televiziyasında Jan Pol Sartrın «Dəfn edilməmiş ölülər» (Lüsi), Nahid Hacızadənin «Yaşa, ey haqq» (Ümbülbanu), Jan Koktonun «İnsan səsi» (Qadın), Marşa Normanın «Gecən xeyrə qalsın, ana!» (Qız) əsərlərinin teletamaşalarında oynayıb.

Akademik teatrın aktrisaları arasında kinoya ən çox çəkilən sənətkarlardan biri də Şükufə Yusupovadır. O, 1974-cü ildən başlayaraq «Dörd bazar günü» (Ustanın qızı), «Tütək səsi» (Tutu), «Xoşbəxtliyin qiyməti» (Gülxar), 3 seriyalı «Vulkana doğru» (Lətifə), «Ad günü» (Rəna), «Şir evdən getdi» (Zürafə), «Belə lazımdır» (Qadın), «1002 gecə» (Şəhrizad), «Musiqi ilə xaş» (Qadın), «Qaladan tapılan mücrü» (Qonşu), «Asif, Vasif, Ağasif» (Ana), «Nar ağacı haqqında xatirələr» (Mədinə), «Gümüş göl əfsanəsi» (Səidə), «Avqust ayı gələndə» (Firuzə), «Bəyin oğurlanması» (Jurnalist), «Qəm pəncərəsi» (İzzət), «Başqa həyat» (İmanova), «Şəhərin yay günləri» (Qonaq), «İlk körpü» (Müəllimə), «Ümid» (Ana), «Etimad telefonu» (Şükufə) filmlərinə çəkilib.

Şükufə Yusupova yüksək zövqlü, səhnədə dərindən düşünməyə, psixoloji münasibətlərə üstünlük verməyə çalışan aktrisadır.

Şükufə Yusupova psixoloji pauzaları mənalı fikir tutumu ilə tamaşaçılara çatdıra bilir.

Şükufə Yusupova emosional rolları daha məharətlə oynayır. Həmçinin psixoloji-satirik səhnə obrazlarının ifasında yeni yaradıcılıq uğurları qazana bilir.

Şükufə Mühəddin qızı Yusupova 1991-ci il may ayının 22-də Azərbaycan Respublikasının Əməkdar artisti və 2005-ci il avqustun 1-də Xalq artisti fəxri adları ilə təltif olunub.



Ramiz Novruzov
(25 may 1955)

Yaradıcılıq istiqaməti, qabiliyyət və bacarığının aktyorluq xüsusiyyətləri realist teatr məktəbinin poetika göstəricilərinə uyğundur. Ritorikadan və zahiri pafosdan uzaq olmağa çalışır. Lirik təmayüllü psixoloji rollarda daha çox uğur qazanır. Dramaturgiya ilə də məşğul olur. «At ilinin birinci ayı» dramı Gəncə Dövlət Dram Teatrında və Dövlət televiziyasında, «Hələ «sevirəm» deməmişdilər...» dramı Akademik Milli Dram Teatrında tamaşaya hazırlanıb. «Novruz» onun yazıçı təxəllüsüdür.

Ramiz Qəvvam oğlu Novruzov 25 may 1955-ci ildə Biləsuvar rayonunun Səmədabad qəsəbəsində doğulub. Orta məktəbi qəsəbədə bitirərək Bakıya gəlib, müxtəlif mətbəə və tikintilərdə fəhlə işləyib. 1974-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Rejissor Ədil İsgəndərovun rəhbərlik etdiyi kursda dörd il təhsil alaraq oranı 1978-ci ildə bitirib. Təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Gənc aktyor burada Mixail Lermontovun «Maskarad» (Knyaz Zvezdiç), Tofiq Kazımovun «Muradın kələkləri» (Məsxərəçi) və Nəriman Həsənzadənin «Bütün Şərq bilsin» (General Şıxlinski) dramlarının tamaşalarında iştirak edib. Böyük səhnədə ilk addımları uğurlu alınıb.

Təyinat müddətini Sumqayıt teatrında başa vuran Ramiz Novruzov Bakıya qayıdıb. O, 16 may 1981-ci ildə Akademik Milli Dram Teatrının şöhrətli və müqtədir aktyor truppasına daxil olub. Elə ilk günlərdən kollektivdə hazırlanan tamaşalarda

ona irihəcmli və mürəkkəb xarakterli rollar tapşırılıb. Onun Akademik teatrda oynadığı rolları illərin ardıcıllığı ilə aşağıdakı şəkildə sıraya düzmək aktyorun keçdiyi yaradıcılıq yolu barədə aydın mənzərə yaradır.

Klassik və çağdaş Azərbaycan dramaturqlarının müxtəlif janrlı əsərlərinin tamaşalarında ifa etdiyi rollar: Səlim bəy («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), İkinci haydut və İbn Yəmin («İblis», Hüseyn Cavid), Rəbi, Surxay («Od gəlini» və «Aydın», Cəfər Cabbarlı), Şaliko və Qacar («Vaqif», Səməd Vurğun), Nazim («Közərən ocaqlar», Mirzə İbrahimov), Ələs bəy («Dirilən adam», Mir Cəlal), Nəvvab və İran şahzadəsi, Bahadır, Mayor Edmund, Cəmil, Məhəmməd Cuvarlı, Kərbalayı Xan, Sisianov («Xurşidbanu Natəvan», «Mahnı dağlarda qaldı», «Şeyx Xiyabani», «Bizim qəribə taleyimiz», «Sevgililərin cəhənnəmdə vüsalı», «Hökmdar və qızı» və «Qarabağnamə», İlyas Əfəndiyev), Fərhad («Sənsiz», Şıxəli Qurbanov), Laçın, Loğman, Toğrul, Aslan («Hara gedir bu dünya?», «Fəryad», «Cəzasız günah» və «Rəqabət», Bəxtiyar Vahabzadə), Molla Əhməd («Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Pompey, Ayəba («Pompeyin Qafqaza yürüşü» və «Atabəylər», Nəriman Həsənzadə), Qaçaq Süleyman («Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı), Yaralı zabit («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Oqtay («İlham pərisi», Cahan Əfruz), Saday («Səməndər quşu», Firudin Ağayev), Muxtar («Təhminə və Zaur», Anar), Rövşən («Səadət sorağında», Xalid Əlimirzəyev), Nağılçı («Məlik Məmməd», nağıl-tamaşa), Qoşqar, Cığatay («Qisas qiyamətə qalmaz» və «Məhəbbət yaşadır», Nahid Hacızadə), Qafqazlı («Tufandan əvvəl», Arif Süleymanov), Baş redaktor («Mənim sevimli dəlim», Elçin), Toğrul («Qızıl teşt», Seyran Səxavət), Oyunbaz («Qədr gecəsi», Eldar Baxış), Nizaməddin («Min illərin işığı», Kamil Abdullayev), Murad («Xəcalət», Hüseynbala Mirələmov), Ağqoyunlu əmi («Ağqo-

yunlular və Qaraqoyunlular», Əli Əmirli), Andronik və Nostradamus («Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz).

Tərcümə pyeslərinin səhnə təfsirində oynadığı səhnə obrazları: Edmund, Seyton («Kral Lir» və «Maqbet», Uilyam Şekspir), Kreon («Medeya», Jan Anuy), Smit («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Anri («Dəfn edilməmiş ölülər», Jan Pol Sartr), Nikolay («Gecənin sirri», Anatoli Safronov), İl («Qoca xanımın gəlişi», Fridrix Dürrenmatt), Ədib («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov), Knyaz Pantiaşvili («Xanuma», Avqsenti Saqareli).

Ramiz Novruzovun yaradıcılığının bir qolunu kino fəaliyyəti təşkil edir. İstedadlı aktyor «Azərbaycanfilm» kinostudiyasının istehsalı olan «Nizami» filmində Dərbənd elçisi, «Sizi dünyalar qədər sevirdim» kinolentində general Həzi Aslanov, «Alman klinikasına qeyri-rəsmi səfər» və «Sarı gəlin» əsərlərində Baba Əliyev və Rasim rollarına çəkilib.

Hüseyn Cavidin «Topal Teymur» (Divanbəyi), Lev Tolstoyun «Kreyser sonatası» (Musiqi müəllimi), Jan Pol Sartrın «Dəfn edilməmiş ölülər» (Anri), Andre Moruanın «Bənövşələr» (Bertrand), Uilyam Şekspirin «Antoni və Kleopatra» (Antoni), Mövlud Süleymanlının «Fatehlərin divanı» (Atilla), Orxan Kamalın «Dodaqdan qəlbə» (Kənan bəy), «Yad qızı» (Nihad), Səməd Behrənginin «Balaca qara balıq» (Aparıcı) teletamaşalarında maraqlı rollar oynayıb.

Ramiz Novruzov dramatik-psixoloji və romantik səpkili rolları daha şövqlə oynayır. Bununla belə, onun aktyorluq politrasında incə və zərif yumor çalarları da var.

Teatr sənətindəki xidmətlərinə görə Ramiz Qəvvam oğlu Novruzov 7 fevral 1993-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 24 may 1998-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Nurəddin Mehdixanlı
(6 oktyabr1956)

Romantik pafosa, qəltanlı və cingiltili səsə, gözəgəlimli səhnə görkəminə, coşqun daxili temperamentə malik aktyordur. Mürəkkəb hadisələr burulğanında mənəvi çarpışmalar keçirən, faciə notlu, dramatik xarakterli qəhrəman rollarını yüksək məharətlə, pardaxlanan istedadla oynaya bilir. Yaradıcılıq cəbbəxanasında lirik-psixoloji və dramatik-fəlsəfi xarakterli rolları da var. Vaxtilə nəsillərinin soyadı olan «Mehdixanlı» onun səhnə təxəllüsüdür.

Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 1956-cı il oktyabr ayının 6-da Cəlilabad rayonunun Tahirli kəndində doğulub. Kənd orta məktəbini 1974-cü ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Dahi rejissor Ədil İsgəndərovun rəhbərlik etdiyi kursu 1978-ci ildə başa vurub və təyinatla Akademik Milli Dram Teatrına göndərilərək sentyabr ayının 1-dən aktyor truppasına işə götürülüb. Oktyabrda hərbi xidmətə çağırılıb və qayıdandan sonra yenə teatrın kollektivində aktyor işləyib.

O, 1989-cu ilin sentyabrında Qarabağa Xalq Yardımı Komitəsinə işə girib və bir ay on gündən sonra teatrdan ayrılıb. Dörd il bu komitədə məsul vəzifələrdən birini tutan Nurəddin Mehdixanlı bir arada paralel olaraq, Bakı Bələdiyyə Teatrında aktyorluq edib (1992 – 1994) və bu səhnədə Yazon («Medeya», Jan Anuy), Şahgir («Tomris», Oqtay Altunbay) rollarını oynayıb. Səhnə üçün doğulmuş aktyor 1994-cü il aprel ayının 18-dən yenə Akademik Milli Dram Teatrının truppasındadır. Onun müəyyən fasilələrlə Akademik teatrın səhnəsində oynadığı rolların siyahısını aşağıdakı görümdə ümumiləşdirmək olar.

Klassik və çağdaş milli ədiblərimizin səhnə əsərlərinin tamaşalarında oynadığı rollar: Xan («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Fərhad («Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev), Elxan, Ərtoğrul («İblis» və «Afət», Hüseyn Cavid), Əbu Übeyd, Orxan, Aydın («Od gəlini», «Ulduz, yaxud «Ədirnə fəthi» və «Aydın», Cəfər Cabbarlı), Eldar və Vaqif («Vaqif», Səməd Vurğun), Rövşən («Əliqulu evlənir», Sabit Rəhman), Kərim bəy («Közərən ocaqlar», Mirzə İbrahimov), Bəbir bəy («Dirilən adam», Mir Cəlal), Hidayət xan və Knyaz Xasay, Məşədi Təhməz, Kamran, Təbriz, Böyük bəy, Ayaz Turan («Xurşidbanu Natəvan», «Şeyx Xiyabani», «Unuda bilmirəm, «Büllur sarayda», «Mahnı dağlarda qaldı» və «Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev), Ulus, Xəzər («Torpağa sancılan qılınc» və «Gecə döyülən qapılar», Nəbi Xəzri), Şahin, Cavan şair, Gur Şad («Rəqabət», «Fəryad» və «Özümüzü kəsən qılınc», yaxud «Göytürklər», Bəxtiyar Vahabzadə), Şəmistan ağa («Ölüləri qəbiristanlıqda basdırın», İsmayıl Şıxlı), Ruz («Atabəylər», Nəriman Həsənzadə), Mehdi və İkinci reportyor, Muxtar («Səhra yuxuları» və «Təhminə və Zaur», Anar), Baba («Arılar arasında», Elçin), Boksçu («Biganələr oteli», Rüstəm İbrahimbəyov), İdris («Səməndər quşu», Firudin Ağayev), Məşədi Əzizbəyov («Tufandan əvvəl», Arif Süleymanov), Nağılçı («Məlik Məmməd», nağıl-tamaşa), Rəşid Axundov («Brüsseldən məktublar», Həsən Həsənov-Əzizoğlu), Fərhad («Günah», Rəhman Əlizadə), Hacı Zeynalabdin Tağıyev («Mesenat», Əli Əmirli), Vətən («Xəcalət», Hüseynbala Mirələmov), Yaralı Əsgər («Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz).

Tərcümə pyeslərinin səhnə təfsirində ifa etdiyi bədii obrazlar: Ross («Maqbet», Uilyam Şekspir), Yazon («Medeya», Jan Anuy), İppolit («Fedra», Jan Rasin), Xuan («Qadın faciəsi», Federiko Qarsia Lorka), Burqomstr («Qoca xanımın gəlişi», Fridrix Dürrenmatt), Sokrat və Aydar («Sokratı anma gecəsi», yaxud

«Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov), Pavel («Gecənin sirri», Anatoli Safronov).

Teatr aktyoru olan Nurəddin Mehdixanlı Azərbaycan Dövlət Televiziyasında Əzizə Əhmədovanın «Pəncərədə işıq» (Toğrul), Cəfər Cabbarlının «Solğun çiçəklər» (Bəhram), Nəriman Həsənzadənin «Kimin sualı var?» (İlham), Bəxtiyar Vahabzadənin «Vicdanla üz-üzə» (Hakim) televiziya tamaşalarında da iştirak edib. «Dədə Qorqudun kitabı» dastanının motivləri əsasında «Dədə Qorqud» çoxseriyalı televiziya filmində Bayandur xan, «Bəyaz həyat»da Vüqar Quliyev rollarına çəkilib.

Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 23 iyun 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 24 may 1998-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 24 dekabr 2002-ci ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Səidə Quliyeva
(5 mart 1957)

Yaradıcılığının çoxşaxəli xüsusiyyətlərinə, bədii-estetik keyfiyyətlərinə görə realist aktyor məktəbinin nümayəndəsidir. Onun fərdi aktyorluq üslubu, əsasən, iki istiqamətdə formalaşır. Aktrisa ciddi və mənalı yumor aşılanmış rollarda qazandığı populyarlığı uğurlu lirik və dramatik zəminli psixoloji obrazlarda da əldə edə bilir. Görkəmcə dolğun olsa da, plastikası elastik və zərif, hərəkətləri cəld və çevik əsaslar üzərində qurulub. Bu keyfiyyət oynadığı ekran surətlərində də parlaq təcəssümünü tapıb.

Səidə Əbülfəz qızı Quliyeva 1957-ci il martın 5-də Bakıda doğulub. Yasamal rayonundakı 199 saylı orta məktəbi bitirib və həmin il, yəni 1974-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Bacarıq və qabiliyyəti ilə institut illərindən rejissorlarda maraq doğurub. O, milli rejissuramızın klassiklərindən Ədil İsgəndərovun kursunu 1978-ci ilin yayında başa vurub. Ali aktyor diplomu alandan sonra təyinatla Akademik Milli Dram Teatrına göndərilib. Aktrisa 1978-ci il sentyabr ayının 1-dən hazırda yüz otuz yaşını keçmiş müqəddəs sənət ocağının aktyor truppasında çalışır. Böyük səhnədə debütü 10 mart 1979-cu ildə rejissor Əşrəf Quliyevin hazırladığı Uilyam Şekspirin «Heç nədən hay-küy» komediyasında Hero rolu olub. Bundan sonra aktrisa teatrda müxtəlif rejissorların quruluşlarında aşağıdakı rolları oynayıb.

Milli klassiklərin və çağdaş dramaturqların əsərlərinin tamaşalarında ifa etdiyi obrazlar: Zəhra bəyim, Kərbalayı Fatma («Anamın kitabı» və «Ölülər», Cəlil Məmmədquluzadə), Həcər xanım («Eşq və intiqam», Süleyman Sani Axundov), Birinci qız («Od gəlini», Cəfər Cabbarlı), Ana torpaq («Eloğlu», Abdulla Şaiq), Bəyim («Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), Tamara («Vaqif», Səməd Vurğun), Çəpəl Suralı («Dirilən adam», Mir Cəlal), Ayqız, Qaratel, Pakizənin rəfiqəsi («Torpağa sancılan qılınc», «Mənsiz dünya» və «Mirzə Şəfi Vazeh», Nəbi Xəzri), Qadın və Şərəf («Sizi deyib gəlmişəm...», Anar), Kəniz («Atabəylər», Nəriman Həsənzadə), Lalə («İlham pərisi», Cahan Əfruz), Əntiqə, Sevinc («Əcəb işə düşdük» və «Sənsiz», Şıxəli Qurbanov), Çin gözəli, Simurq quşu və Fransalı qonaq («Məlik Məmməd», nağıl-tamaşa), Sədəf («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Dilşad («Səadət sorağında», Xalid Əlimirzəyev), Kama («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Diliş («Qızıl teşt», Seyran Səxavət), Mərmər («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), Nilufər («Məhəbbət yaşadır», Nahid

Hacızadə), Səlimə xanım («Min illərin işığı», Kamil Abdullayev), Qaraqoyunlu ana («Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli), Firəngiz, Qonşu («Ah, Paris... Paris!..» və «Qatil», Elçin), Məlahət («Rəqabət», Bəxtiyar Vahabzadə).

Tərcümə əsərlərində oynadığı rollar: Hero, İkinci kölgə («Heç nədən hay-küy» və «Maqbet», Uilyam Şekspir), Qadın («Yad adam», Leonqard Frank), Xidmətçi qız («Şərqli diş həkimi», Akop Paronyan), Nastya («Həyatın dibində», Maksim Qorki), Luisi («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Qadın («Kəllə», Nazim Hikmət), Yaşlı qadın «Uçqun», yaxud «Çığ», Tuncər Cücənoğlu), Makarın anası («Xanuma», Avqsenti Saqareli).

Teatrda səmərəli fəaliyyət göstərən Səidə Quliyeva Azərbaycan Dövlət Televiziyasının hazırladığı tamaşalarda da maraqlı obrazlar yaradıb. Bunlardan İlyas Əfəndiyevin «Atayevlər ailəsində» (Reyhan), «Sarıköynəklə Valehin nağılı» (Reyhan), Ruhəngiz Qasımovanın «Yollar görüşəndə» (Çiçək), «Qonşu qonşu olsa» (Balacaxanım), Mövlud Süleymanlının «Kökdən düşmüş piano» (Gülər), Hüseyn Cavidin «Topal Teymur» (Melaça), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında «Ordan-burdan» (Reyhan), Afaq Məsudun «Afaqın məhəbbəti» (Buta), «Cəza» (Səidə), Əli Əmirlinin «Bala – başa bəla» (İzzət Nəfisli), Mixael Cavaxaşvilinin «Günahsız Abdulla» (Fatma), Seyfəddin Dağlının «Sabiqlər» (Səidə), «Mən və mən» (Məleykə), Əhməd Oruclunun «Qayınana əməliyyatı» (Naza), Aqşin Babayevin «Nekroloq» (Elmira), «Dəvətnamə» (Məleykə) əsərlərinin tamaşaları daha maraqlıdır.

Aktrisa «Bizi bağışlayın» (Klara), «Yaramaz» (Gülya), «Fransız» (Səidə), «Əsrlə göy arasında» (Gəlin), «Milli bomba» (Əbdülqəninin qızı) bədii filmlərinə çəkilib.

Səidə Əbülfəz qızı Quliyeva 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 9 may 2012-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

İlham Əsgərov
(16 iyul 1958)

Uca boyu, yaraşıqlı səhnə görkəmi var. Yaradıcılığının başlıca istiqaməti baxımından realist-dramatik, emosional lirik-psixoloji və realist səpkili tarixi şəxsiyyətlərin məzmunlu səhnə obrazlarını bacarıqla oynayır. Daxili coşqunluğunu xaraktercə ən çılğın və ehtiraslı səhnə obrazlarının ifasında da cilovlamağı və ona bədii-estetik vurğular aşılamağı bacarır. Aydın, səlis, sirayətedici və mələhətli səhnə danışığı var.

İlham Təvəkkül oğlu Əsgərov 1958-ci il iyul ayının 16-da Masallı rayonunun Xoşçobanlı kəndində doğulub. Orta məktəbi 1975-ci ildə qonşu Təklə kəndində bitirib. Bakıya gəlib və ali məktəbə qəbul ola bilmədiyinə görə bir il ölkəmizin paytaxtında 1 saylı tikinti-quraşdırma idarəsində fəhlə işləyib. Axşamlar müxtəlif dram dərnəklərində həvəskar aktyorluq edən İlham Əsgərov 1976-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. Dahi rejissor, SSRİ Xalq artisti Ədil İsgəndərovun kursunu 1980-ci ildə başa vuran gənc aktyor həmin il avqust ayının 26-da Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. Həmin il noyabrın 26-da hərbi xidmətə çağırılması ilə əlaqədar teatrdan çıxıb. O, 1 iyul 1982-ci ildən yenə Akademik Milli Dram Teatrının aktyorudur. İstedadlı aktyor İlham Əsgərov Akademik teatrın ən sanballı tamaşalarında iştirak edib. Onun yaradıcılığının başlıca estetik mahiyyətini aşağıdakı rollar təşkil edir.

Klassik və çağdaş milli ədiblərimizin səhnə əsərlərinin tamaşalarında oynadığı rollar: Fərhad («Bəxtsiz cavan», Əbdür-

rəhim bəy Haqverdiyev), Mirzə Məhəmmədəli, Atanın ruhu («Anamın kitabı», Cəlil Məmmədquluzadə), Piri baba («Eşq və intiqam», Süleyman Sani Axundov), Ərəb («İblis», Hüseyn Cavid), Qorxmaz, Dövlət bəy («Od gəlini» və «Aydın», Cəfər Cabbarlı), Zülfüqar («Vaqif», Səməd Vurğun), Yusif («Nişanlı qız», Sabit Rəhman), Həbibi («Füzuli və Əsmər», Mir Mehdi Seyidzadə), Əli («Közərən ocaqlar», Mirzə İbrahimov), Həbib, Nicat, Sarı Mərdan, Anaşkin, Doktor Altay, Məhəmməd xan, İbrahim xan («Büllur sarayda», «Mahnı dağlarda qaldı», «Şeyx Xiyabani», «Sevgililərin cəhənnəmdə vüsalı», «Tənha iydə ağacı», «Hökmdar və qızı» və «Qarabağnamə», İlyas Əfəndiyev), Loğman və Əmir, Sabutay, Nadir («Fəryad», «Dar ağacı» və «Rəqabət», Bəxtiyar Vahabzadə), Əbubəkr («Atabəylər», Nəriman Həsənzadə), İldırım («Qarabağ əfsanəsi», Qeybulla Rəsulov), Rövşən («Səadət sorağında», Xalid Əlimirzəyev), Qafqazlı («Tufandan əvvəl», Arif Süleymanov), İsmayılov («Gülüstanda qətl», Cəmil Əlibəyov), Valeh Araz («Qanqın böyük dalğası» və «İlham pərisi», Cahan Əfruz), Nemət Səməd-zadə («Bu dünyanın adamları», Hidayət), Nəriman Nərimanov («Mesenat», Əli Əmirli).

Əcnəbi dramaturqların müxtəlif janrlarda yazılmış pyeslərinin tamaşalarında ifa etdiyi surətlər: Fransa kralı («Kral Lir», Uilyam Şekspir), Polis rəisi və Zob («Həyatın dibində» Maksim Qorki), Eddi («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Narçın («Qanlı Nigar», Sadıq Şəndil), Aqnostos («Məhəbbət və azadlıq», yaxud «Tülkü və üzüm», Gilerma Fiqeyredu), Kairxan («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

İlham Əsgərov radionun məşhur «Bulaq» verilişinin aparıcılarından biridir. Azərbaycan Dövlət Televiziyasında Uilyam Şekspirin «İki veronalı» (Valentin), İlyas Əfəndiyevin «Sarıköynəklə Valehin nağılı» (Valeh), Əlibala Hacızadənin «İnanmır-

sansa...» (Nüsrət), Aslan Qəhrəmanovun «Səndən xəbərsiz» (Fərrux), Mar Bayciyevin «Ər və arvad» (Əziz), Bəxtiyar Vahabzadənin «Kimdir haqlı?» (Fikrət), «İki qorxu» (Şair), Buta Sadıqovun «Afaqın məhəbbəti» (Nizami), Mixael Cavaxaşvilinin «Günahsız Abdulla» (Dustaq tələbə), Vladlen Dozortsevin «Qəbula gələn sonuncu adam» (Qəbula gələn), Mövlud Süleymanlının «Fatehlərin divanı» (Bilgə xaqan), Həsən Həsənovun (Əzizoğlunun) «Keçən əsrdən məktublar» (Müəllif), Zəlimxan Yaqubun «Yunis İmrə» («Bir əli haqda, bir əli torpaqda». Tapdıq İmrə), Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllər» (Bülbül), Məmməd Avdiyev və Anatoli Donetsin «İflas» (Mustafa), Adil Babayevin «O qızı hər gün görürsən» (Sərdar) teletamaşalarında müxtəlif xarakterli obrazlara səhnə ömrü verib. Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında «Qəzəlxan» (şair Azər Buzovnalı), «Əlahiddə vəziyyət» (Rəcəb) kinolentlərinə çəkilib.

İlham Əsgərov bir aktyor kimi yumşaq romantikaya və dramatik psixologizmə üstünlük verən sənətkardır. O, tamaşada, ilk növbədə, obrazın psixoloji daxili aləmi ilə səhnə hərəkətləri arasında harmonik vəhdət yaratmağa çalışır.

İlham Əsgərov, az da olsa, sosial-məişət xarakterli komediyalarda da rollar oynayıb. Aktyor bu tamaşalarda dialoqların gülüş yükünü, ilk növbədə, dramatik hərəkətlər toplusunda çatdırmağa çalışır.

İlham Əsgərov bir neçə tarixi şəxsiyyətin səhnə obrazını yaradıb. Bu tamaşalarda o, portret bənzərliyindən daha çox xarakter dürüstlüyünə, obrazın bədii-estetik bitkinliyinə üstünlük verməyə çalışır. Bununla da tamaşanın ideya dürüstlüyünə nail olmağı bacarır.

İlham Təvəkkül oğlu Əsgərov 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 16 may 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

Zemfira Nərimanova
(20 aprel 1959)

Lirik və dramatik-psixoloji rollarda daha sərişẗəli görünür. Yaradıcılığının estetik prinsiplərinə və ifadə vasitələrinin mahiyyətinə, xarakterik xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə uyğundur.

Zemfira Əli qızı Nərimanova 1959-cu il aprel ayının 20-də Bakıda doğulub. Şəhərin Nərimanov rayonundakı 220 saylı orta məktəbi 1976-cı ildə bitirib və həmin il də Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Təhsilini 1980-ci ilin iyun ayında başa vuran gənc aktrisa təyinatla Akademik Milli Dram Teatrına göndərilib, avqust ayının 26-da isə aktyor truppasına ştata götürülüb.

Aktyorluq qabiliyyəti tələbəlik illərindən diqqəti cəlb edən Zemfira Nərimanova Akademik Milli Dram Teatrının səhnəsində dram, faciə və komediya janrlı tamaşalarda oynayıb.

Milli və dünya klassiklərinin əsərlərində ifa etdiyi rollar: Nisə xanım və Şölə xanım («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə. İki müxtəlif quruluşda), Rəna və Qaraçı («İblis», Hüseyn Cavid), Nastya («Həyatın dibində», Maksim Qorki), Moruq Cenni («Üç quruşluq opera», Bertolt Brext və Kurt Vayl), Paolina («Kəllə», Nazim Hikmət), Marta («Ağlasığmaz qətl», Alber Kamyu), Biatris («Körpüdən mənzərə», Artur Miller), Kleya («Məhəbbət və azadlıq», yaxud «Tülkü və üzüm», Gilerma Fiqeyredu), Tekle («Xanuma», Avqsenti Saqareli).

Müasir mövzulu çağdaş və tərcümə pyeslərinin tamaşalarında oynadığı səhnə obrazları: Təhminə, Südabə, Xumar («Xurşidbanu Natəvan», «Dəlilər və ağıllılar» və «Sevgililərin cəhənnəmdə vüsalı», İlyas Əfəndiyev), Çiçək («Torpağa sancılan qılınc», Nəbi Xəzri), Banuçiçək, Arzu («Özümüzü kəsən qılınc», yaxud «Göytürklər» və «Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), Kəniz («Atabəylər», Nəriman Həsənzadə), Qadın («Sizi deyib gəlmişəm...», Anar), Şeyda («Yastı təpə», Əkrəm Əylisli), Nübar («Məhəbbət yaşadır», Nahid Hacızadə), Qəmər («Nişanlı qız», Sabit Rəhman), Mariya («Biganələr oteli», Rüstəm İbrahimbəyov), Nağılçı («Məlik Məmməd», nağıl-tamaşa), Məhəbbət («Tufandan əvvəl», Arif Süleymanov), Kama («Kərgədan buynuzu», Maqsud İbrahimbəyov), Ayna xanım («Yayda qartopu oyunu», Vaqif Səmədoğlu), Züleyxa («Ah, Paris... Paris!..», Elçin), Qadın («Hərdən mənə mələk də deyirlər...», Kamal Abdulla), Xanım («Mənim ərim dəlidir», yaxud «Diaqnoz «D», Elçin), Kleopatra («Kölgələrin oyunu», Yuri Edlis), Sofi («Yad adam», Leonqard Frank), Dudan («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış xeyli tamaşada oynayıb. Onların arasında İlyas Əfəndiyevin «Pəncərədə işıq» (Leyla), «Sarıköynəklə Valehin nağılı» (Sarıköynək), «Qaçaq Süleyman» (Qubernatorun arvadı), Üzeyir bəy Hacıbəylinin felyetonları əsasında işlənmiş «Ordan-burdan» (Rəna), İslam Səfərlinin «Göz həkimi» (Nərminə), Ənvər Məmmədxanlının «Şərqin səhəri» (Dilarə), Əlibala Hacızadənin «İtkin gəlin» (Zərnişan) pyeslərinin teletamaşalarında ifa etdiyi rollar bədii dəyərlərinə, estetik tutumlarına görə seçilirlər.

Müxtəlif illərdə «Azərbaycanfilm» kinostudiyasında «Beş çərək» (Gülya), «Torpaq» (Qız), «Girişmə, öldürər» (Zemfira) kinolentlərinə çəkilib.

Zemfira Əli qızı Nərimanova aktyorluq sənətindəki fəaliyyətinə görə 22 may 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Firəngiz Mütəllimova
(1 may 1959)

Səhnə məlahəti, cazibəli şirinliyi, istedadının psixoloji lirizmi, həssas zərifliyi, dramatik coşqunluğu, emosional və təbii yumoru, xarakterlər toplusunun əlvanlığı ilə tamaşaçıların sevimlisidir. Lirik-psixoloji janrlı tamaşalarda oynadığı rollarda böyük uğurlar qazanan aktrisa məzəli komediyaların səhnə təcəssümündəki obrazların ifasında da məharətlə oynayır. Səhnə etikası, yöndaşlarına qarşı diqqətli və həssas olması yaradıcılığının səciyyəvi cəhətləridir.

Firəngiz Bəhər qızı Mütəllimova əslən şuşalıdır, ancaq 1 may 1959-cu ildə Ağcabədi rayonunda doğulub. Şuşadakı 4 saylı orta məktəbi 1976-cı ildə bitirən Firəngiz elə həmin il Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. 1980-ci ildə təhsilini başa vurub və avqust ayının 26-da Akademik Milli Dram Teatrına aktrisa götürülüb. Elə ilk günlərdən ona məsul rollar tapşırılıb və istedadının dəyərli çalarları üzə çıxıb.

Teatrda səmərəli fəaliyyət göstərən Firəngiz Mütəllimova paralel olaraq kinolara çəkilib, televiziya tamaşalarında iştirak edib. Aktrisa 30 oktyabr 1992-ci ildə qurduğu ailənin taleyi ilə

bağlı xarici ölkəyə köçüb və bir müddət Türkiyədə, Dubayda, az vaxt Almaniyada yaşayıb. Üçillik fasilədən sonra Bakıya qayıdan sənətkar 1996-cı il sentyabr ayının 17-də yenidən Akademik teatrın truppasına qəbul olunub. Qısa müddətdə repertuardakı tamaşaların bir neçəsinə daxil edilib, təzə əsərlərdə bənzərsiz rollar oynayıb.

Firəngiz Mütəllimova səmərəli yaradıcılıq yolu keçib və zəngin rollar qalereyası yaradıb.

Aktrisanın lirik-psixoloji rolları: Aynur, Mələk, Gülrux, Gülnaz («Büllur sarayda», «Bizim qəribə taleyimiz», «Şeyx Xiyabani» və «Tənha iydə ağacı», İlyas Əfəndiyev), Maral («Sənsiz», Şıxəli Qurbanov), Aypara («Fəryad», Bəxtiyar Vahabzadə), Salehə («Gülüstanda qətl», Cəmil Əlibəyov), Nübar («Məhəbbət yaşadır», Nahid Hacızadə), Firəngiz («Təhminə və Zaur», Anar), Tereza («Biganələr oteli», Rüstəm İbrahimbəyov).

Dramatik və fəci çalarlı mürəkkəb səhnə surətləri: Xavər və Qaraçı qız («İblis», Hüseyn Cavid), Gülnar («Vaqif», Səməd Vurğun), Gözəl («Qılınc və qələm», Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi), Tubu xanım («Qarabağnamə», İlyas Əfəndiyev), Qaratel, Əsmər («Mirzə Şəfi Vazeh» və «Gecə döyülən qapılar», Nəbi Xəzri), Qadın və Sonya, Leyla («Sizi deyib gəlmişəm...» və «Səhra yuxuları», Anar), Gülzar, Qonşu, Qadın («Poçt şöbəsində xəyal», «Qatil» və «Arılar arasında», Elçin), Sevər («Bu dünyanın adamları», Hidayət), Qadın («Son məktub», Əjdər Ol), Əsmər («Günah», Rəhman Əlizadə), Birinci kölgə və Cadugər («Maqbet», Uilyam Şekspir), Reya («Böyük Romul», Fridrix Dürrenmatt), Anna («Həyatın dibində», Maksim Qorki), Adela («Dişi canavar», Federiko Qarsia Lorka), Aysulu («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

Komediya əsərlərindəki və müxtəlif janrlı pyeslərdəki komik səciyyəlli səhnə obrazları: Nisə xanım («Lənkəran xanı-

nın vəziri», Mirzə Fətəli Axundzadə), Qumral («Əliqulu evlənir», Sabit Rəhman), Azadə xanım, Bəyim, Gülnaz («Dəlilər və ağıllılar», «Xurşidbanu Natəvan» və «Mahnı dağlarda qaldı», İlyas Əfəndiyev), Arvad («Mənim ərim dəlidir», yaxud «Diaqnoz «D», Elçin), Həvva, Raisa («Varlı qadın» və «Mesenat», Əli Əmirli), Nağılçı («Məlik Məmməd», nağıl-tamaşa), Dilarə («Ox, qadınlar, qadınlar», Marat Haqverdiyev), Nigar və Nədidə («Qanlı Nigar», Sadıq Şəndil), Nərgiz («Sehrli alma», Yozef Lada).

Firəngiz Mütəllimova Azərbaycan Dövlət Televiziyasında hazırlanmış iyirmidən çox teletamaşada müxtəlif səpkili rollar ifa etmişdir. Onlardan Gülnar («Səni axtarıram», «Bağışla», «Səndən xəbərsiz», Abbas Qəhrəmanov), Mərcan («Evləri köndələn yar», Anar), Ana və Qız («Unutmaq olmur», Əlibala Hacızadə), Almaz («Topal Teymur», Hüseyn Cavid), Nazan («Yad qızı», Əlibala Hacızadə), Günay («Sənlə və sənsiz», Marat Haqverdiyev), Şefin arvadı («İblis qadın», Arturo Raf), Nihal («Yağışdan sonra», Bəxtiyar Vahabzadə) rollarının bədii-estetik keyfiyyətlərini xüsusi qeyd etmək olar.

Aktrisa «Azərbaycanfilm» kinostudiyasında istehsal edilmiş «Qaçaq Nəbi» (Sərvinaz), «Qocalar, qocalar» (Leyli), «Bəyin oğurlanması» (Telli), «İşarəni dənizdən gözlə» (Sona) bədii filmlərinə, «Mənim ağ şəhərim» (Ana), «Şərəf» (Mila xanım) telefilmlərə çəkilib.

Firəngiz Mütəllimova səhnədə son dərəcə məlahətli olduğu qədər də işgüzar və yaradıcılıq axtarışlarına üstünlük verən aktrisadır.

Firəngiz Mütəllimovanın lirik-psixoloji aktyorluq keyfiyyətləri öz emosionallığı və zərifliyi ilə könül oxşayır.

Firəngiz Bəhər qızı Mütəllimova 23 iyun 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, 22 may 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 28 oktyabr 2002-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Bəsti Cəfərova
(13 iyun 1959)

Yaradıcılığı iki şaxədə inkişaf edir: romantik və realist aktyor məktəblərinin poetika göstəriciləri əsasında. Səhnə görümünü uzun illər boyu qətiyyətlə qoruyub saxlaya bilib. Güclü səhnə texnikası, coşqun daxili ehtirası, dramatik çalarlı səsi var. Yaradıcılıq nailiyyətlərində, çoxsaylı səhnə obrazları arasında qəhrəman xarakterli baş rollar daha çoxdur. Qaynar təbiətli və çılğın daxili aləmə malik surətləri oynamağa xüsusi cəhd göstərir.

Bəsti Əli qızı Cəfərova 1959-cu il iyunun 13-də Bakıda doğulub. Ölkə paytaxtının Nərimanov rayonundakı 82 saylı orta məktəbi 1976-cı ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik dövründə baş rejissor, Əkrəm Əylislinin «Quşu uçan budaqlar» psixoloji dramını tamaşaya hazırlayan Tofiq Kazımovun dəvəti ilə Akademik Milli Dram Teatrına çağırılıb və adı çəkilən əsərdə Səltənət rolunu oynayıb. Bu tamaşanın premyerası 1978-ci il dekabr ayının 29-da göstərilib. Tələbə-aktrisanın böyük səhnədə debütü uğurlu alınıb.

Milli rejissorlarımızın fəxri, səhnə klassiklərimizin cərgəsində layiqli yer tutan Ədil İsgəndərovun kursunda təhsil alan Bəsti Cəfərova ali təhsilini 1980-ci ildə başa vurub. Təyinatla Akademik Milli Dram Teatrına göndərilib və avqust ayının 26-da aktyor truppasına aktrisa götürülüb. Onun yaradıcılığına zənginlik, ifaçılıq sənətkarlığına əlvanlıq gətirən rolların siyahısı öz sanbalı və bədii siqləti ilə seçilir. Bəsti Cəfərova Akademik teatrda işləyə-işləyə rejissor Vaqif İbrahimoğlunun

Tədris teatrında hazırladığı özünün işləməsində «Mən Dədə Qorqud...» (Oğuz xatunu və Dəli Domrulun anası), Antuan de Sent Ekzüperinin «Təskinlik verməyi unutmayın» («Kiçik şahzadə», Qızılgül, Çöl çiçəyi və Fanarçı), «Yuğ» Dövlət Teatrında Məhəmmədhüseyn Şəhriyarın «Heydərbaba» əsəri əsasında səhnələşdirdiyi «Salam» (Qadın) əsərlərinin tamaşalarında da cazibəli rollar oynayıb. Sözsüz ki, onun aktyorluq qabiliyyətinin potensial imkanları, ilk növbədə, Akademik teatrda oynadığı aşağıdakı rolların səhnə təcəssümündə daha geniş şəkildə üzə çıxıb.

Faciələrdə və dramlarda oynadığı tragediya səciyyəli rolları: Gülbahar («Anamın kitabı», Cəlil Məmmədquluzadə), Qaraçı və Xavər, Afət («İblis» və «Afət», Hüseyn Cavid), Solmaz («Od gəlini», Cəfər Cabbarlı), Ağabəyim ağa, Natəvan («Hökmdar və qızı» və «Xurşidbanu Natəvan», İlyas Əfəndiyev), Qonerilya («Kral Lir», Uilyam Şekspir), Fedra («Fedra», Jan Rasin), Martrio («Dişi canavar», Federiko Qarsia Lorka), Qadın («İnsan səsi», San Kakto), Kesariya («Kaş araba aşmayaydı!..», Otia İoseliani).

Müxtəlif xarakterli tipik-psixoloji, mürəkkəb xarakterli personajları: Gülrux («Şeyx Xiyabani», İlyas Əfəndiyev), Pakizə, Züleyxa («Mirzə Şəfi Vazeh» və «Mənsiz dünya», Nəbi Xəzri), Luiza Bruk, Qadın («Səhra yuxuları» və «Sizi deyib gəlmişəm...», Anar), Ədilə («Poçt şöbəsində xəyal», Elçin), Əsmər («Günah», Rəhman Əlizadə), Sofi («Qanqın böyük dalğası», Cahan Əfruz), Məleykə və Sevil («Səməndər quşu», Firudin Ağayev), Nazilə («Çahargah fantaziyası», Kərim Kərimov), Qaliyə və Adlay («Sokratı anma gecəsi», yaxud «Eşşək dərisi üzərində məhkəmə», Çingiz Aytmatov və Muxtar Şahanov).

Komediyalarda və digər janrlı pyeslərdə ifa etdiyi komik səciyyəli personajlar: Şəhrəbanı xanım («Müsyö Jordan və Dərviş Məstəlişah», Mirzə Fətəli Axundzadə), Nazlı, Bənövşə, («Əliqulu evlənir» və «Nişanlı qız», Sabit Rəhman), Azadə xanım

(«Dəlilər və ağıllılar», İlyas Əfəndiyev), Dilarə («Əcəb işə düşdük», Şıxəli Qurbanov), Gülya («İlham pərisi», Cahan Əfruz), Bədidə və Nigar («Qanlı Nigar», Sadıq Şendil), Xanuma («Xanuma», Avqsenti Saqareli), Gülçin, İspan gözəli və Nağılçı («Məlik Məmməd», nağıl-tamaşa).

Lirik-psixoloji səhnə surətləri: Lalə, Sürəyya («Büllur sarayda» və «Tənha iydə ağacı», İlyas Əfəndiyev), Zeynəb və Arzu («Kimdir haqlı?», Bəxtiyar Vahabzadə), Səltənət («Quşu uçan budaqlar», Əkrəm Əylisli).

Cəfər Cabbarlının «Solğun çiçəklər» (Pəri), Mar Bayciyevin «Ər və arvad» (Gülay), Anatoli Dudarevin «Astana» (Alina), Əzizə Cəfərzadənin «Analar» (Rəna), Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllər» (Ağabəyim ağa) əsərlərinin televiziya tamaşalarında da əlvan rollar oynayıb.

Bəsti Əli qızı Cəfərova 17 may 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 24 may 1998-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

Laləzar Mustafayeva

(30 sentyabr 1962)

Faciə və dramatik rollar, romantik ahəngli səhnə obrazlarının ifası üçün xarakterik səsi var. Temperamentli surətləri coşqun ehtirasla oynayır. Yaradıcılıq xüsusiyyətlərinin, ifadə vasitələrinin mayasında zərif yumor elementləri də var. Gözəl qiraət ustasıdır, klassik irsimizdən və çağdaş şairlərin poeziya nümunələrindən silsilə proqramı var.

Laləzar Bəşir qızı Mustafayeva 1962-ci il sentyabr ayının 30-da Balakən rayonunun Qullar kəndində doğulub. Oradakı orta məktəbi 1979-cu ildə bitirərək bir il kənd kitabxanasında işləyib. Mədəni-Maarif Texnikumunun rejissorluq fakültəsini fərqlənmə diplomu ilə qurtarıb (1980 – 1982) və ailə qurduğuna görə işləməyib. 1985-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Ali məktəb təhsilini 1990-cı ilin iyun ayında başa vuran Laləzar Mustafayeva təyinatla Akademik Milli Dram Teatrına göndərilib və sentyabrın 1-də kollektivin aktyor truppasına götürülüb. Aktrisa işlədiyi illər ərzində aşağıdakı rolları oynayıb:

Ziba xanım («Lənkəran xanının vəziri», Mirzə Fətəli Axundzadə), Gülbahar («Anamın kitabı», Cəlil Məmmədquluzadə), Məhinbanu («Fərhad və Şirin», Səməd Vurğun), Alya, İçgen xatun («Hara gedir bu dünya?» və «Özümüzü kəsən qılınc», yaxud «Göytürklər», Bəxtiyar Vahabzadə), Qumru müəllimə («Ana intiqamı», Vidadi Babanlı), Məleykə Aydan («Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə), Hüquqə xanım («Bu dünyanın adamları», Hidayət), Mina («Sevən qadın», Əli Əmirli), Leyla («Qısqanc ürəklər», Marat Haqverdiyev), Abbi Patnem («Qaraağaclar altında ehtiraslar», Yucin O'Nil), Ameliya («Dişi canavar», Federiko Qarsia Lorka), Armida («Kabuslar», Eduardo de Filippo).

Aktrisa «Güllələnmə təxirə salınır» (Laləzar), «Gənc qadının əri» (Xalidə), «Uzun gecə» (Qadın), «Qəzəlxan» (Birinci arvad), «Qara Volqa» (Pəncəli), «Divar» (Nazlı), «Ağ atlı oğlan» (Şəhla) bədii filmlərinə çəkilib.

Laləzar Bəşir qızı Mustafayeva teatr sənətindəki fəaliyyətinə görə 24 may 1998-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 24 dekabr 2002-ci ildə Xalq artisti fəxri adları ilə təltif olunub.



Bəhram Osmanov
(1 oktyabr 1962)

Rejissor kimi yaradıcılığının əsas estetik səciyyəsini orijinal və təkrarsız, yeni və çağdaş ruhlu janr axtarışları təşkil edir. Monumental, ancaq realist zəminli formalar tapmaqda səriştəlidir. Müxtəlif yaradıcılıq üslublu dramaturqların əsərlərində müasirlik ideyaları axtaranda romantizmə psixoloji və fəlsəfi teatr estetik prinsipləri ilə yanaşa bilir. Obrazlı ifadə vasitələrinə üstünlük verir və bunu paralel, kəsişən, genişmiqyaslı, sərt çarpazlaşan səhnə mizanlarında xüsusi məharətlə təcəssüm etdirir.

Epik teatr elementləri Bəhram Osmanovun quruluş verdiyi klassik tərcümə əsərlərində (məsələn, Sofoklun «Şah Edip» faciəsi) psixoloji teatrın lirik və emosional fikir yozumu, fəlsəfi teatrın idraki qənaətləri, bəşəri duyğuların məfkurəvi aydınlığı ilə harmoniya, musiqili ahəngdarlıq kəsb edir. Öz tamaşalarında əvvəlcə əsərin kompozisiya obrazını və konfliktin, hadisələrin ritm ahəngini, tərtibat və musiqidə fəlsəfi mahiyyətini tapır, qənaətlərini dəqiqləşdirir və yalnız bundan sonra səhnədə rejissor eksperimentlərinə başlayır. Bir rejissor kimi aktyor tamaşaları qurmağa üstünlük verir.

Bəhram Məcid oğlu Osmanov 1 oktyabr 1962-ci ildə Gəncədə doğulub. Buradakı 27 saylı orta məktəbi bitirib və iki il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmaq cəhdi baş tutmayıb. Gəncə Dövlət Dram Teatrında aktyor işləyib, xeyli səhnə təcrübəsi toplayıb. Teatrda Cəlal («Komsomol poeması», İsgəndər Coşqun), Tofiq («Kişilər», Altay Məmmədov), Qəbula gələn adam («İnqilabi etüd», Mixail

Şatrov), Yavər («Molla Nəsrəddinin zarafatı», Əli Səmədli), Nəvə («Bənövşələr açılanda», Arşavir Darbni) obrazlarını və bir sıra tərcümə əsərlərində tipik epizod surətlərini, aparıcı mürəkkəb rolları oynayıb. Aktyor kimi çalışsa da, daha çox rejissor sənətinə meyil göstərib.

1980-ci ildə İncəsənət İnstitutunun rejissorluq fakültəsinə daxil olub. İstedad və bacarığı ilk kursdan institutun səriştəli sənət müəllimlərinin diqqətini cəlb edib və ona Tədris teatrında tamaşalar hazırlamağa şərait yaradıblar. O burada tələbə aktyorlarla Aleksey Arbuzovun «Köhnə dəbli komediya», Qriqori Qorinin «Herostratı unudun», Fridrix Şillerin «Qaçaqlar», Konstantin Simonovun «Dördüncülər», Cəfər Cabbarlının «Aydın», Aleksandr Gelmanın «Skamya», Vasili Şukşinin «Diribaş adamlar» pyeslərini tamaşaya hazırlayıb.

Bəhram Osmanov 1985-ci ildə diplom işi üçün Amerika dramaturqu Tennessi Uilyamsın «Şüşəli heyvanxana» əsərini seçib. Bu pyesi Akademik Milli Dram Teatrının Kiçik səhnəsində tamaşaya hazırlayıb və əsərdə baş rolu SSRİ Xalq artisti Hökümə xanım Qurbanova ifa edib. Bundan sonra o, bir müddət işsiz qalmış, hərbi xidmətə çağırılmışdır. Qayıtdıqdan sonra Milli Dram Teatrının direktoru Həsən Turabovun təşəbbüsü ilə 6 sentyabr 1987-ci ildə qocaman kollektivə rejissor götürülmüşdür. 2012-ci ildən Gənc Tamaşaçılar Teatrının baş rejissorudur.

Müasir teatr estetikasını dərindən duyan, truppanın bədii yaradıcılıq imkanlarını düzgün və qətiyyətlə duyub öz tamaşasında təcəssüm etdirə bilən Bəhram Osmanov Azərbaycanın bir sıra teatrlarında dəvətlə tamaşalar hazırlayıb. Onun Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında quruluş verdiyi əsərlər:

2000, 12 noyabr. «Yalan», Sabit Rəhman.

2000, 22 dekabr. «Əsgər anası», Ağarəhim Rəhimov.

2002, 14 mart. «İşıq tozu», İmir Məmmədli.

2002, 14 noyabr. «Qum üstündə ev», Rüstəm İbrahimbəyov.

Bundan əlavə, istedadlı rejissor Füzuli Dövlət Dram Teatrında Vasili Şukşinin «Diribaş adamlar» (30 avqust 1990), Seyran Səxavətin «Qapıların o üzündə qalan dünya» (11 sentyabr 1990), Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Əli Əmirlinin «Cəza» (24 noyabr 1992), Gəncə Dövlət Dram Teatrında Ramiz Novruzovun (Ramiz Novruz), «At ilinin birinci ayı» (22 sentyabr 1991), Lənkəran Dövlət Dram Teatrında Anton Tamsaarenin «Yudif» (14 iyun 1993), Aleksandr Ostrovskinin «Günahsız müqəssirlər» (22 iyul 1993), Tamara Vəliyevanın «Mənim ağ göyərçinim» (20 fevral 2001) pyeslərinə səhnə quruluşu verib.

«Azərbaycanfilm»in nəzdindəki «Debüt» eksperimental studiyasında Cəlil Məmmədquluzadənin «Lal» hekayəsi əsasında Eldəniz Quliyevin yazdığı eyniadlı ssenari əsasında qısametrajlı bədii film çəkib.

Azərbaycan Dövlət Televiziyasında Anton Çexovun «Altı nömrəli palata», Fyodor Dostoyevskinin «Bəyaz gecələr», Elçin Mehrəliyevin «Yurd yeri», Şahin Səfərovun «Qu quşunun məhəbbəti» əsərləri əsasında televiziya tamaşaları hazırlayıb. Bunların hamısı televiziyanın daimi fondunda kamil sənət əsərləri kimi qorunub saxlanılır.

Bəhram Osmanov bədii-estetik cəhətdən sanballı, formaca əlvan, məzmunca bəşəri xarakterli, kompozisiya baxımından bitkin tamaşalar hazırlayır.

1985, 2 iyun. «Şüşə heyvanxana», Tennessi Uilyams. Tərcümə edəni İslam İbrahimov. (Kiçik səhnədə).

1988, 7 may. «Qızıl teşt», Seyran Səxavət.

1991, 30 sentyabr. «Hara gedir bu dünya?», Bəxtiyar Vahabzadə.

1994, 26 dekabr. «Qaraağaclar altında məhəbbət», Yucin O'Nil. Tərcümə edəni Bəhram Osmanov.

1995, 18 may. «Ana intiqamı», Vidadi Babanlı.

1995, 12 dekabr. «Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli.

1996, 7 may. «Kral Lir», Uilyam Şekspir. İngiliscədən tərcümə edəni Sabir Mustafa.

1997, 28 noyabr. «Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə.

1999, 3 aprel. «Şah Edip» («Şah Edip», yaxud «Alın yazısı»), Sofokl. Tərcümə edəni Rafiq Rəhimli.

1999, 17 dekabr. «Köhnə ev», Əli Əmirli.

2000, 25 fevral. «Ulduz», yaxud «Ədirnə fəthi», Cəfər Cabbarlı (ədibin «Trablis müharibəsi» və «Ədirnə fəthi» pyesləri əsasında).

2000, 11 iyun. «Cəzasız günah», Bəxtiyar Vahabzadə.

2001, 1 noyabr. «Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz.

2002, 18 may. «Kəllə», Nazim Hikmət. Tərcümə edəni İslam İbrahimov.

2002, 8 oktyabr. «Cinayət oyunu», Fyodor Dostoyevskinin «Cinayət və cəza» romanı əsasında səhnələşdirəni Bəhram Osmanov (səhnənin özündə).

2003, 7 mart. «Varlı qadın», Əli Əmirli.

2005, 17 noyabr. «Mesenat», Əli Əmirli.

2006, 15 aprel. «Kaş araba aşmayaydı!..», Otia İoseliani.

2006, 13 dekabr. «Oyuncaq ev», Henrik İbsen. Tərcümə edəni Azad Əliyev.

2007, 26 may. «Son məktub», Əjdər Ol. Stefan Sveyqin əsəri əsasında.

2009, 8 iyun. «Sevən qadın», Əli Əmirli.

Çox gənc yaşlarından populyarlıq qazanmış Bəhram Osmanov səhnə düşüncə tərzinin çoxqatlılığı, fəlsəfi dərinliyi ilə seçilir. O, intim, psixoloji, lirik-psixoloji üslubun estetik prinsipləri əsasında parlaq tamaşalar yaradıb. Tamaşalarında aktyor oyununu önə çəkir.

Bəhram Osmanovun rejissurası dərin psixologizmi, cazibəli kompozisiya qurumu, aktyor ansamblının bütövlüyü ilə daha çox yadda qalır.

Rejissor 15 may 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı ilə təltif olunub.

Məleykə Əsədova
(23 aprel 1966)

Uca boyu, yaraşıqlı səhnə görkəmi, cazibəli bədən quruluşu var. Musiqi duyumludur və səsi var. Müəyyən tamaşalarda obraz üçün bəstələnmiş mahnıları özü ifa edir və bununla da bədii personajın səhnə təbiiliyini artırır.

Məleykə Əlifağa qızı Əsədova 1966-cı il aprel ayının 23-də Neftçala rayonunda doğulub. Oradakı 1 saylı orta məktəbi 1983-cü ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə daxil olub. Dörd il təhsil alaraq teatr kollektivinin rəhbəri ixtisasına yiyələnib.

1987-ci ildə institutu bitirərək təyinatla doğma rayonu Neftçalaya göndərilib. İki il burada mədəniyyət sahəsində işləyib, eyni zamanda müğənnilik edib (1 noyabr 1987 – 29 aprel 1989).

Məleykə Əsədova 29 aprel 1989-cu ildə Bakıya gələrək yenicə təşkil olunmuş Dövlət Gənclər Teatrının truppasına daxil olub. 1993-cü il fevral ayının 18-nə kimi bu kollektivdə çalışan aktrisa teatrın beş tamaşasında rol oynayıb. Həmin səhnədə Gültəkin («Aydın», Cəfər Cabbarlı), Nəzifə («Dağ tikirik», Vaqif Səmədoğlu), Tamara («Dadaşbala əməliyyatı», Rəhman Əli-

zadə), Sədəf («Sultanqulu körpüsü», İsi Məlikzadə), Leyli («Leyli və Məcnun», Məhəmməd Füzulinin eyniadlı poeması əsasında dramatik kompozisiya) rollarını ifa edib.

Dövlət Gənclər Teatrında müəyyən səhnə təcrübəsi toplayan Məleykə Əsədova 1993-cü ilin 15 fevralında bu kollektivdən işdən çıxıb. Fevral ayının 15-də də Akademik Milli Dram Teatrının möhtəşəm yaradıcılıq ömürcəsinə malik olan aktyorların işlədikləri truppaya aktrisa köçürülüb. Onun səhnə rolları bioqrafiyasına Akademik teatrda ifa etdiyi aşağıdakı rollar daxildir: Gültəkin («Aydın», Cəfər Cabbarlı), Şirin («Fərhad və Şirin», Səməd Vurğun), Zərifə («Nişanlı qız», Sabit Rəhman), Dilarə («Əcəb işə düşdük», Şıxəli Qurbanov), İlkcan («Pompeyin Qafqaza yürüşü», Nəriman Həsənzadə), Selcan, Çılğın, Kəmalə, Arzu («Özümüzü kəsən qılınc», yaxud «Göytürklər», «Dar ağacı», «Rəqabət» və «İkinci səs», Bəxtiyar Vahabzadə), Mehri, Nübar («Qisas qiyamətə qalmaz» və «Məhəbbət yaşadır», Nahid Hacızadə), Şahanə («Ana intiqamı», Vidadi Babanlı), Fidan («Ağqoyunlular və Qaraqoyunlular», Əli Əmirli), Kordeliya («Kral Lir», Uilyam Şekspir), Züleyxa və Kleopatra («Misir gecələri», Məmməd Səid Ordubadinin «Sevgililər», Nazim Hikmətin «Yusif və Züleyxa», Uilyam Şekspirin «Antoni və Kleopatra» əsərləri əsasında), Kraliça («Qadın məhəbbəti», Viktor Hüqo).

Məleykə Əsədova Orxan Kamalın «Yad qızı» (Jalə), Bəxtiyar Vahabzadənin «Kimdir haqlı?» (Arzu), Əlibala Hacızadənin «İtkin gəlin» (Əfsanə), Rəşad Nuri Güntəkinin «Dodaqdan qəlbə» (Cavidan), Kəmalə Ağayevanın «Apardı sellər Saranı» (Sara), Ağarəhim Rəhimovun «Qırmızı qar» (Sədaqət), Tahir Kazımovun «Taleyin qisməti beləymiş» (Xədicə), Hüseynbala Mirələmovun «Güllələnmiş heykəllər» (Xurşidbanu Natəvan) televiziya tamaşalarında oynayıb.

Aktrisaya 24 may 1998-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 28 oktyabr 2000-ci ildə Xalq artisti fəxri adı verilib.

TRUPPADA ÇALIŞAN ƏMƏKDAR ARTİSTLƏR



Firuz Xudaverdiyev

Telman Əliyev

Əsgər Məmmədoğlu

Əlibala Nur

Tofiq Hüseynov

Cəfər Namiq Kamal

Mirzə Ağabəyli



Pərviz Bağırov

Azər Mirzəyev



Elxan Quliyev

Kazım Abdullayev

Əjdər Həmidov

Ayşad Məmmədov

Hicran Nəsirova

Abbas Qəhrəmanov

Sənubər İsgəndərova

Sabir Məmmədov

Mətanət Atakişiyeva

Füzuli Hüseynov

Sevinc Əliyeva

Kazım Həsənquliyev

Mehriban Xanlarova

Elşən Rüstəmov

Münəvvər Əliyeva

Vəfa Rzayeva

Şəlalə Şahvələdqızı

Elşən Cəbrayılov

Məsmə Aslanqızı

İlham Hüseynov



Nazim Bəykişiyev,
baş rəssam

Elnur Məmmədov,
truppa müdiri

Atababa İsmayıloğlu,
ədəbi hissə müdiri

İlham Elxanoğlu,
quruluş hissə müdiri

Sücəddin Sadıyev,
baş inzibatçı

Səadət Qarabağlı,
musiqi hissə müdiri

MÜXTƏLİF İLLƏRDƏN TEATRIN TRUPPASINDA ÇALIŞAN AKTYORLAR

Əlvida Cəfərov

Əminə Babayeva



Məzahir Cəlilov



İradə Həsənova

Rövşən Kərimduxt

Almaz Amanova

Mətləb Abdullayev

Aslan Şirinov

Anar Heybətov

Şəhla Əliqızı

Elnur Qədirov

Rada Nəsibova

Rəşad Bəxtiyarov

Vüsal Mustafayev

Dilarə Nəzərova

İlahə Həsənova

Hikmət Rəhimov

Nigar Güləhmədova

Elnar Qarayev

Elçin Əhmədov

Ramin Şıxəliyev

Xədicə Novruzlu

Rəfiqə Musayeva,
rejissor assistenti

Dilbər İsmayılova,
rejissor assistenti

Xanım Həsənova,
rejissor assistenti

Rafael Həsənov,
işıq rəssamı

Rəşad Babayev,
səhnə maşinisti

Həmid Kazımzadə,
musiqi sexinin rəisi

Leyla Həmdullayeva,
geyim sexinin rəisi

YALTA.
BEYNƏXALQ ÇEXOV
TEATR FESTİVALI
2011-ci il

КРЫМ
УКРАИНЫ

ПОЧЕТНАЯ ГРАМОТА

НАГРАЖДАЕТСЯ

Коллектив Азербайджанского государственного академического национального драматического театра

IV МЕЖДУНАРОДНЫЙ ФЕСТИВАЛЬ 2011

БЛАГОДАРНОСТЬ

Коллективу

Азербайджанского государственного академического национального драматического театра (Азербайджан, Баку)

11-18 сентября 2011

IV Международный фестиваль 2011

ДИПЛОМ

ЛАУРЕАТА

Награждается

Азербайджанский государственный академический драматический театр (Азербайджан, Баку)

за высокое актерское мастерство (Спектакль "Покаяние")

Председатель жюри Юрий Рыбчинский

11-18 сентября 2011 года

MÜNDƏRİCAT

Lirik-psixoloji üslubda formalaşma.....3
Yüz yaşın sevinci.....52
Fərdi üslublar və janr pərakəndəliyi.....125
Ölkə müstəqilliyində yaradıcılıq üfüqləri.....249
Yeni era, təzə bədii imkanlar.....332
Sənət aşiqləri.....407

Redaktoru *Sevinc Nuruqızı*
Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompyuter tərtibatçıları *Səbinə Məmmədova, Mələk Cəlilova, Təhmasib Mehdiyev*
Korrektoru *Sevinc Rəhimova*

Çapa imzalanmışdır 14.06.2013. Kağız formatı 60x90 1/16.
Ofset çapı. Fiziki çap vərəqi 37,5. Sifariş 29. Tiraj 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121A
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com

RƏHİMLİ İLHAM ƏZİZ OĞLU

AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM TEATRI

Teatrın 1873 – 2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi
(3 cilddə).
III cild (1970 – 2012).
Bakı, «Təhsil», 2013.